# QLOBAL SİYASƏT: TƏHDİDLƏR, ÇAĞIRIŞLAR, ÜMİDLƏR

Bakı – 2013

*XX əsrin böyük siyasi və dövlət xadimi*

*Heydər Əliyevin*

*anadan olmasının 90 illiyinə ithaf olunur.*

# QLOBAL SİYASƏT: TƏHDİDLƏR, ÇAĞIRIŞLAR, ÜMİDLƏR

**NOVRUZ İSMAYIL oğlu MƏMMƏDOVUN rəhbərliyi və baş redaktorluğu ilə**

Newtimes.az analitik-informasiya portalının məqalələr toplusu

**Redaksiya heyəti:**
Pərvin Darabadi
Ərəstü Həbibbəyli
Turab Qurbanov
Kamal Adıgözəlov

Bakı, Qanun Nəşriyyatı, 2013, 320 səh. 350 tiraj

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

ISBN 978-9952-26- 520-0

© Qanun Nəşriyyatı, 2013
© NewTimes, 2013

MÜNDƏRİCAT

**Ön söz ..................................................... 13**

**I Fəsil. Müasir beynəlxalq durum: qlobal proseslər və trendlər. Beynəlxalq münasibətlərin yeni aktorları ..................... 17**

1.1. Beynəlxalq hüquq sisteminin böhranı *(NewTimes)* ..................... 17
1.2. Hərbi bazalar – demokratik xarici siyasətin əsas aləti *(Ərəstü Həbibbəyli)* ..................... 21
1.3. İnkişafda olan ölkələrin liderlik iddiaları *(Kamal Adıgözəlov)* ...... 25
1.4. Davakar separatizm beynəlxalq sabitlik üçün əsas təhdidlərdən biri kimi *(Pərvin Darabadi)* ..................... 28
1.5. "Sülh tərəfdarı" silah satıcıları *(Ərəstü Həbibbəyli)* ..................... 29
1.6. Narkoticarət – səssiz müharibənin izləri *(NewTimes)* ..................... 33
1.7. Beynəlxalq QHT-lər kimlərə və nəyə xidmət edir və yaxud xüsusi missiyalı aktor *(NewTimes)* ..................... 38
1.8. "Beşinci kolonun" əsas maliyyə dayağı – Soros fondu *(Ərəstü Həbibbəyli)* ..................... 42
1.9. Alman siyasi fondları – "demokratiya" təəssübkeşləri *(NewTimes)* ..................... 54
1.10. Qeyri-hökumət təşkilatları suveren dövlətin və cəmiyyətdə sabitliyin lehinə, yoxsa əleyhinədirlər *(NewTimes)* ..................... 59
1.11. Media reallığı: fəlsəfi və siyasi məqamlar *(Rəşad İlyasov)* ........... 60
1.12. Dünya media monopoliyası və reallıq *(Ərəstü Həbibbəyli)* ........... 64
1.13. Qlobal teleşəbəkələr: bəşəriyyət informasiya "əsarətində" *(NewTimes)* ..................... 69
1.14. BP: maraqların anatomiyası *(NewTimes)* ..................... 73

**II Fəsil. Qərbin seçimi: qlobal liderlik, yaxud hökmranlıq .............. 78**

2.1. ABŞ – imperiya, yoxsa superdövlət *(NewTimes)* ..................... 78
2.2. Sarsıntılar əsrində ABŞ-ın milli strategiyası: Qərbdə "Böyük birlik", Şərqdə "Böyük tarazlıq" *(NewTimes)* ..................... 84
2.3. Konqresin Azərbaycana qarşı üç haqsız sənədi *(Kamal Adıgözəlov)* ..................... 89
2.4. Senator Robert Menendezə açıq məktub *(Hatəm Cabbarlı)* ............ 92

2.5. Avropanın "ədalət" anlayışı: Tahleryan, Səfərov və Breyvik *(NewTimes)* ... 94
2.6. Avropa yol ayrıcında – dünya iqtisadi böhranı və Avropa evinin perspektivləri *(Ayaz Qədirov)* ... 97
2.7. Avropa İttifaqı: yeniləşmə ssenariləri *(Kamal Adıgözəlov)* ... 101
2.8. Avropanın "dəbdəbəli" tənəzzülü *(NewTimes)* ... 108
2.9. Nobel sülh mükafatı: siyasi məqamlar *(Turab Qurbanov)* ... 112
2.10. Britaniya: beynəlxalq hüquqa hörmətsizlik *(NewTimes)* ... 115

**III Fəsil. Dünya siyasətinin geoiqtisadi ölçüsü ... 118**
3.1. Azərbaycanın neft diplomatiyası və yaxud asimmetrik müzakirələrdə uğur strategiyası *(NewTimes)* ... 118
3.2. Almaniyanın Avropada hegemonluq siyasəti *(İbrahim Məmmədov)* ... 121
3.3. Qlobal iqtisadi böhran və Ərəb dünyasında çaxnaşma (Ərəstü Həbibbəyli) ... 125
3.4. Nabukko – geosiyasi oyunların və psixoloji apatiyanın zavallı qurbanı *(Kamal Adıgözəlov)* ... 131
3.5. Geoiqtisadiyyat, enerji və beynəlxalq təhlükəsizlik *(Duygu Genç)* ... 134
3.6. Hec-fondlar və sərmayə bankları virtual iqtisadiyyatın bələdçiləri və operatorlarıdır *(Ayaz Qədirov)* ... 139

**IV Fəsil. Bəşəriyyət yol ayrıcında: multikulturalizm, yoxsa sivilizasiyaların toqquşması ... 144**
4.1. Multikulturalizm: bəşəri ideya, yaxud Qərb dəyərləri *(Ərəstü Həbibbəyli)* ... 144
4.2. Postmodern inkişafın Qərb modeli: demokratiyadan millətçiliyə keçiş *(Turab Qurbanov)* ... 161
4.3. Avropada irqçilik və ksenofobiya *(Hülya Məmmədli)* ... 164
4.4. Sivilizasiyaların mübarizəsi: dünyanın gələcəyinə olan təhlükələr *(NewTimes)* ... 167
4.5. Dünya həmin dünyadır, amma Avropa həmin Avropa deyil *(Əsgər Əliyev)* ... 172
4.6. Azərbaycana qarşı erməni lobbisi-islamofobiya alyansı *(NewTimes)* ... 175
4.7. İslamofobiya – Avropanın yeni xəstəliyi *(NewTimes)* ... 179
4.8. Berinq Breyvikin Qərb mədəniyyətinə və dünyagörüşünə atdığı güllələr *(Kamal Adıgözəlov)* ... 182

**V Fəsil. Avrasiya məkanında geosiyasi mənzərə. Böhranlı Yaxın Şərq ... 186**
5.1. Mərkəzi Asiyanın «münaqişə üçbucağı» *(NewTimes)* ... 186
5.2. Türkiyə – Avrasiyanın yeni böyük gücü *(NewTimes)* ... 190
5.3. İransayağı İslam həmrəyliyi: arxadan zərbə *(NewTimes)* ... 196
5.4. Rusiya: yeni geosiyasi güc mərkəzinə doğru *(NewTimes)* ... 203
5.5. Rusiyanın strateji dərinlik siyasəti *(NewTimes)* ... 207
5.6. Uzaq Şərq – yeni qaynar region *(NewTimes)* ... 217
5.7. Asiya-Sakit okean regionu: inteqrasiyanın perspektivləri *(NewTimes)* ... 221
5.8. Ərəb inqilabları və ya iqtisadi böhrandan qurtuluş mexanizmi *(Turab Qurbanov)* ... 225
5.9. Yeni dünya nizamının təsiri – Ərəb oyanışı *(NewTimes)* ... 227
5.10. Böyük dövlətlərin Yaxın Şərq qambiti: Suriyaya üç aspektdən baxış *(NewTimes)* ... 232
5.11. Yaxın Şərqdə ermənilərin mövqeyi – Ərəb oyanışından sonra *(Ərəstü Həbibbəyli)* ... 237
5.12. Suriyada vətəndaş müharibəsi: növbəti zəif bənd kimdir? *(Elmar Hüseynov)* ... 243
5.13. Qərbin İran siyasəti: fikir ayrılıqlarının səbəbləri *(NewTimes)* ... 247
5.14. Siyasət və din: sələfilər *(Kamal Adıgözəlov)* ... 250
5.15. Müharibə və blef: İran, İsrail və Birləşmiş Ştatlar *(NewTimes)* ... 254
5.16. Yaxın Şərq böhranı: Ankaranın yol xəritəsi *(NewTimes)* ... 256
5.17. Ərəb baharı, yoxsa dramı? 8 fakt və 7 fəlsəfi sual *(Ayaz Qədirov)* ... 262

**VI Fəsil. Cənubi Qafqazda vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ... 266**
6.1. Qarabağ münaqişəsində multistandartlı Qərb ədaləti *(NewTimes)* ... 266
6.2. "Erməni məsələsi" – Qafqaz üçün böyük təhlükə *(Kamal Adıgözəlov)* ... 271
6.3. Sarkisyanın məkrli miqrasiya siyasəti *(NewTimes)* ... 275

6.4. Ermənistanın dumanlı gələcəyi *(NewTimes)*....277
6.5. Sistemin qırılma nöqtəsi: Qafqaz *(Göktürk Tüysüzoğlu)*....280
6.6. Əgər müharibə olmasaydı... *(NewTimes)*....283
6.7. Dəyişən dünyada sülh problemləri və Dağlıq Qarabağ münaqişəsi *(Azər Babayev)*....286
6.8. Ermənilər hara köçməlidir? *(Turab Qurbanov)*....290
6.9. «Tanrının seçilmiş milləti» *(NewTimes)*....291
6.10. Erməni terror təşkilatları *(Turab Qurbanov)*....295
6.11. Ermənistan-Azərbaycan münaqişəsi kontekstində atəşkəsin pozulması halları: təbliğat metodları və hədəflər *(Elgün Niftəliyev)*....299
6.12. Özgə mədəniyyətinin ermənisayağı mənimsənilməsi *(Turab Qurbanov)*....303
6.13. İdarəçilikdə imkan, yoxsa xalqın səsi...? *(Asif Babayev)*....308
6.14. Tarixən torpaq iddiası ilə yaşayanlar indi "öz torpaqlarını" tərk edirlər? *(NewTimes)*....310
6.15. NATO və Azərbaycan torpaqlarının işğalı problemi *(Hatəm Cabbarlı)*....312
6.16. Gürcüstanın yeni hökumətinin addımları nəyə hesablanıb? *(Elmar Hüseynov)*....315

*Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə yox deyir, dinc yaşamaq istəyirlər... Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür.*

**Heydər Əliyev**
***Azərbaycan xalqının ümummilli lideri***

# ÖN SÖZ

Newtimes.az analitik-informasiya portalının fəaliyyətə başlamasından artıq bir il keçir. Bu müddət ərzində portalda müxtəlif mövzulara həsr edilmiş məqalələr işıq üzü görmüşdür. İndiyə qədər portalda yer alan materiallara ümumi göz gəzdirdikdə, onların bir-biri ilə sıx bağlılığı müşahidə olunur. Mövzular müxtəlif sahələrə aid olsa da, müasir geosiyasi proseslərin dinamikası aspektində onları birləşdirən məqamların kifayət qədər olduğu aydın görünür. Bu səbəbdən həmin yazıları toplu halında çap etməyin faydalı olacağını düşünürük. Beləliklə, oxucuda müasir mərhələdə geosiyasi proseslərin dinamikası və transformasiyasının bir sıra xüsusiyyətləri haqqında daha geniş təsəvvür yarana bilər.

Oxucuların mühakiməsinə təqdim edilən topluda portalla əməkdaşlıq edən görkəmli Azərbaycan alim, ekspert, analitik və mütəxəssislərinin bəşəriyyəti narahat edən və düşündürən proseslərlə bağlı mövqeləri təqdim edilir. Burada müasir beynəlxalq münasibətləri xarakterizə edən qlobal proses və trendlərə xüsusi diqqət yetirilir. Bu, ilk növbədə beynəlxalq hüququn tətbiqindəki çətinliklərə aiddir.

Müasir dövrün ən aktual problemlərinin həllinə yanaşmalarda ikili standartlarla bağlı olan məsələlərə daha çox əhəmiyyət verilməsi təsadüfi deyil. Eyni zamanda, dünya birliyi qarşısında duran aktual çağırışlara – beynəlxalq təhlükəsizliyi sarsıdan real təhdidlərə (beynəlxalq səhnədə güc metodlarının üstünlük təşkil etməsi, beynəlxalq terrorçu qüvvələrin, mütəşəkkil cinayətkarlığın, separatizmin fəallaşması, sivilizasiyalararası toqquşmalar təhlükəsi, multikulturalizm ideyalarının taleyi) ayrıca yer verilir.

Topluda təhlilinə geniş yer ayrılan başqa bir məsələ müxtəlif qeyri-hökumət təşkilatları və fondlarının fəaliyyət mexanizmləri, beynəlxalq həyatın yeni aktorları kimi çıxış edən kütləvi informasiya vasitələri strukturlarının yeri və rolu, onların dövlətlərin daxili və xarici siyasətinə getdikcə daha böyük təsir istiqamətləridir.

Bunlardan başqa, müasir dövrün aparıcı geosiyasi aktorlarının – ABŞ, Avropa İttifaqı, Rusiya və Çinin siyasi proseslərdə iştirakı ilə bağlı materialların təhlili aktuallığını bu gün də saxlayır. Yeni əsrin

əvvəllərində bu mövzuya həsr edilən məqalələrin aktuallığı tamamilə başa düşüləndir.

Həmin kontekstdə beynəlxalq səhnədə Azərbaycanın həm dünyanın aparıcı dövlətləri, həm də region ölkələri ilə münasibətlərinin inkişaf dinamikasının müxtəlif aspektlərinə xüsusi diqqət yetirilir. O cümlədən, Azərbaycan neftinin dünya bazarlarına ixracının intensivləşdirilməsi üzrə müxtəlif alternativ layihələrə və milli "neft diplomatiyası"nın real nailiyyətlərinə də böyük yer ayrılır.

Kitab müxtəlif sahələrə aid olan məqalələrdən tərtib edilsə də, ümumi ideyaya malikdir və müasir tarixi mərhələdə qlobal və regional miqyasda cərəyan edən geosiyasi proseslərin obyektiv təhlilini təqdim edir. Bu baxımdan, Azərbaycanın milli maraqlarına cavab verən çevik siyasətin aparılması və inkişaf etdirilməsinin müxtəlif aspektlərinin tədqiqi də özünəməxsus yer tutur.

Bütün bunlara görə, toplunun strukturunun onun ideya məzmununu düzgün ifadə etdiyini deyə bilərik. Kitabın ideya dinamikası beynəlxalq münasibətlərin ümumi nəzəri və praktiki vəziyyətinin təhlilindən tədricən geosiyasi mənzərənin dəyişməsinin əsas meyarlarına, sivilizasiyalararası münasibətlərin həmin proseslərə təsirinə və bütün bunların fonunda Cənub Qafqazda geosiyasi mənzərənin yeniləşməsinin özəlliklərinə keçidlə əlaqəlidir.

I fəsildə qlobal miqyasda geosiyasi mənzərədə müşahidə edilən proseslər və trendlər təhlil edilir. Burada hüquqi, siyasi, iqtisadi və geosiyasi aspektlərin hər biri əhatə olunub. Qlobal geosiyasi güc mərkəzinin tədricən Şərqə tərəf dəyişməsinin əsas səbəbləri və mümkün nəticələri araşdırılır. Həmin prosesdə Qərbin öz siyasətində yol verdiyi səhvlər tədqiq edilir.

Diqqəti çəkən məqamlardan biri məqalələrdə cəmiyyətin demokratikləşməsində qeyri-hökumət təşkilatları və medianın rolunun araşdırılmasıdır. Şübhə yoxdur ki, XXI əsrin geosiyasətində sosial şəbəkələrin və gənclərin rolu daha da artır. Bu aspektdə I fəsildə dərc edilən məqalələrin bu günün reallıqları ilə yanaşı, proqnozlaşdırma ilə də əlaqəsinin olduğunu qəbul etmək lazımdır. Beynəlxalq münasibətlərin yeni aktorlarının da həmin müstəvidə təqdim edilməsi topluya ayrıca aktuallıq verir.

II fəsil qlobal geosiyasətə böyük təsiri olan Qərb dövlətlərinin liderlik iddialarının təhlilinə həsr edilmiş məqalələrdən ibarətdir. Burada problemə iki müstəvidə nəzər salınır: bunlardan birincisi ABŞ və Avropa İttifaqının müasir geosiyasətdə oynadıqları rol, onların liderlik modelinin ümumi cəhətlərinin, ikincisi isə, həmin güc mərkəzlərinin müstəqilliyini əldə etmiş ölkələr istiqamətində yeritdikləri siyasətdə obyektivlik və ədalətliliyin hansı səviyyədə nəzərə alınmasının müəyyənləşdirilməsidir. Bu kontekstdə "ikili standart" siyasətinin mümkün fəsadları nəzərdən keçirilir.

III fəsil ideyaca II fəslin davamıdır. Burada yer almış məqalələrdə dünya siyasətinin geoiqtisadi ölçüsü təhlil edilir. Məsələnin bu cür qoyuluşunun aktuallığı müasir dövrdə qlobal maliyyə-iqtisadi böhranın dərinləşməsi ilə izah olunur. Həmin kontekstdə Azərbaycanın enerji siyasətinin əsaslandırılması maraqlı məqamları üzə çıxarmışdır.

Bütün bunların fonunda IV fəslin geosivilizasiya aspektində dünyada baş verən proseslərin təhlilinə həsr edilməsi məntiqidir. Dərc edilən məqalələrdə sivilizasiyalararası münasibətlər iki aspektdə araşdırılır: birincisi, müasir şəraitdə fərqli mədəniyyətlərin birgə mövcudluğunun (multikulturalizmin) təmin edilməsi perspektivləri aspektində; ikincisi, sivilizasiyalar arasında konfliktlərin yaranması səbəbləri aspektində. Vurğulamaq lazımdır ki, topluda dərc edilən məqalələrdə bu aspektlər qarşılıqlı əlaqədə təhlil edilir. Bu da sivilizasiyalar, mədəniyyətlər və dinlərarası münasibətlərin qurulmasının çoxaspektli problem olduğunu təsdiq edir.

Avrasiya məkanında geosiyasi mənzərənin dəyişməsi dinamikası isə həmin müstəvidə bir çox yeni məqamların üzə çıxarılmasına imkan verir. Məqalələrdə (V fəsil) Avrasiyada inteqrasiya proseslərinin perspektivləri və təklif edilən müxtəlif modellərin müqayisəsi geniş yer alıb. Həmin kontekstdə diqqəti çəkən başqa bir məqam Yaxın Şərqdə baş verən proseslərin mahiyyəti və proqnozlaşdırılması ilə bağlıdır. Bu məsələ Qərbin aparıcı analitiklərinin irəli sürdüyü yeni tezislər müstəvisində təhlil edilir.

Nəhayət, sonuncu fəsil yerləşdiyimiz regionda gedən geosiyasi proseslərin təhlilinə həsr edilir. Eyni zamanda, bölgə üçün böyük əhəmiyyəti olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli məsələsinə ayrıca diqqət yetirilir. Problemə böyük dövlətlərin regionda öz maraqlarının təmin edilməsi müstəvisində yanaşması, erməni terrorunun əsl simasının ifşa edilməsi, Ermənistanın yeritdiyi siyasətin məkrli tərəflərinin konkret faktlarla açılması və beynəlxalq

təşkilatların mövqesizliyi aspektində yanaşma elmi-nəzəri cəhətdən obyektiv əsaslandırılmışdır. Həmin məsələlərə həsr olunan məqalələrdə sadalanan aspektlər geniş təhlil edilir.

Toplunun bu məziyyətləri portalın yaradıcı kollektivi ilə texniki heyətin ortaq fəaliyyətinin nəticəsidir. Newtimes.az ilk addımını qətiyyətlə atdı. Şübhə yoxdur ki, növbəti ildə yeni tədqiqatlar, yeni mövzular və yeni üsullar axtarışı davam etdiriləcək. Qlobal miqyasda gedən geosiyasi proseslərin müxtəlif aspektlərdə təhlili ilə yanaşı, Azərbaycan dövlətçiliyinin inkişafı və vətəndaş cəmiyyəti quruculuğunun analitik təfəkkürün süzgəcindən keçirilməsi portalın diqqət mərkəzində olacaq.

Portalda yer alan məqalələr Rusiya, Türkiyə, Çin, ABŞ və Avropa ölkələrindən olan oxucularımız tərəfindən yüksək qiymətləndirilir və bu cür alternativlik təşkil edən orijinal yazılara ehtiyac duyulduğu qeyd edilir. Newtimes.az portalında dərc olunan məqalələr Azərbaycanın aparıcı mətbuat orqanlarında dərc edilməklə bərabər, xarici ölkələrdə də tədqiqatçıların diqqətini cəlb etmiş və oxucu marağına səbəb olmuşdur. Türkiyədə Uluslararası Politika Akademisi (UPA), Rusiyada inosmi.ru bizim məqalələrimizə geniş yer verir. Ümid edirik ki, yaxın gələcəkdə bizim həmfikirlərimizin sayı daha da artacaq və auditoriyamızın coğrafiyası yeni ölkələri əhatə edəcək. Biz həmfikirlərimizə təşəkkür edir və əməkdaşlığa hər zaman hazır olduğumuzu bildiririk. Bunları nəzərə alaraq, məqalələrin kitab halında ingilis və rus dillərində də çap etdirilməsi planlaşdırılır.

Kitabın tərtibatçıları ümid edirlər ki, media aləmi bu təşəbbüsü dəstəkləyəcək. İlk növbədə müxtəlif mövzuların müzakirəsi, dərin təhlilə malik yazıların dərc edilməsi, dialoq qurulması və dövlətçilik mövqeyinin daim nəzərə alınması istiqamətlərində faydalı fikir mübadiləsinin aparılması zərurəti təqdir ediləcək.

Newtimes.az oxucularına daim yeniliklər vəd edir. Yeni layihələrlə qarşınıza çıxmaq üçün səylərimizi artırırıq. Eyni zamanda, bizimlə əməkdaşlıq etmək istəyən müəllif və ekspertləri bizim layihələrimizə qoşulmağa çağırırıq.

Yeni ideyalar, yeni təşəbbüslər işığında gələcək tədqiqatlarımızı gözləyin.



# I Fəsil
# MÜASİR BEYNƏLXALQ DURUM: QLOBAL PROSESLƏR VƏ TRENDLƏR. BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN YENİ AKTORLARI

## *1.1. Beynəlxalq hüquq sisteminin böhranı*

**Müasir dünyanın geosiyasi ziddiyyətləri və beynəlxalq hüquq**

Bəşəriyyətin inkişafının tarixi mərhələlərə bölünməsi haqqında bir neçə konsepsiya var. Həmin mərhələlər konkret dövrlərə ayrılır. Hər bir dövrün özünəməxsus sosial, mədəni, siyasi, hüquqi və iqtisadi parametrləri mövcuddur. Bir mərhələdən digərinə keçid zamanı bu parametrlərdə böhran müşahidə olunur. Burada hansı faktorun həlledici rol oynadığını birmənalı müəyyənləşdirmək çətindir.

Lakin tarixən böyük dövlətlərin öz maraqlarını nəyin bahasına olursa-olsun digərlərinə qəbul etdirməyə çalışmaları ciddi ziddiyyətlər yaradıb. Birinci və ikinci dünya müharibələrinin meydana gəlməsində məhz bu faktor böyük rol oynadı. Düşündürücüdür ki, ikinci dünya müharibəsindən sonra da böyük dövlətlərin hegemonluq iddiaları azalmadı.

Hazırkı dövrdə digər göstəricilərlə yanaşı, beynəlxalq hüquq sisteminin də böhran keçirdiyi müşahidə edilir. Bu, qlobal miqyasda geosiyasi mühitdə baş verən köklü dəyişikliklər fonunda baş verir. Dünyanı narahat edən beynəlxalq hüquq pozuntularının sayı artır. O cümlədən, dövlətlərarası münasibətləri tənzimləməli olan mexanizmlərin böhranından danışmaq lazım gəlir. Bu barədə analitiklər, siyasətçilər və təcrübəli diplomatlar konkret fikir bildirirlər.

Bunlar beynəlxalq hüquq normalarına əməl olunması məsələsini olduqca aktuallaşdırır. Həmin kontekstdə ilk yada düşən isə BMT-dir. İkinci dünya müharibəsindən sonra bu qurum uzun müddət qlobal hərbi münaqişələrin qarşısının alınmasında və insan haqlarının qorunmasında ciddi rol oynadı. Lakin acı təcrübə də vardır. Dünya miqyasında beynəlxalq hüquq qaydaları dəfələrlə pozulmuşdur. Bunu təsdiq edən misallar mövcuddur.

Hər şeydən öncə, deməli lazımdır ki, müharibə və münaqişələrin sayı nədənsə azalmır. BMT-nin qarşıya qoyduğu məqsədlərə görə, bunun əksi olmalıdır. Hazırda Yaxın və Orta Şərqdə, Qafqazda, Əfqanıstanda, Uzaq Şərqdə həll edilməmiş münaqişələr var. Bəzi yerlərdə isə hərbi toqquşmalar davam edir.

Beynəlxalq terrorizm hələ də dünyanın ciddi problemi olaraq qalır. Beynəlxalq miqyasda bu məsələ ilə bağlı qəbul edilən qərarlar, hüquqi mexanizmlər nədənsə səmərəsiz olurlar. Ona görə də, terror təşkilatları fəaliyyətlərini davam etdirirlər. Bəziləri isə, ümumiyyətlə, cəzasız qalırlar. Məsələn, erməni terroruna qarşı beynəlxalq miqyasda hələ də tutarlı heç bir addım atılmayıb.

BMT-nin özü qəbul etdiyi qərar və qətnamələrin yerinə yetirilməsinə nail ola bilmir. Bunun bir səbəbi həmin qurumun qəbul edilən qərarların həyata keçməsini təmin edən təkmil mexanizminin olmamasıdır. Digər səbəbi isə BMT-nin bir neçə böyük dövlətin inhisarında olmasıdır.

Dünyanın müxtəlif regionlarında baş verən geosiyasi hadisələrə BMT-nin mandatı ilə müdaxilə edən böyük dövlətlərin davranışlarında da ikili standartlar müşahidə edilir. Serbiyanın 1999-cu ildə bombalanması, Əfqanıstan və İraqa qarşı atılan addımlar buna misal ola bilər.

Beynəlxalq təşkilatlarda bir "qəribə vərdiş" də formalaşıb. Bəzi dövlətlərdə insan haqları, ədalət, demokratiya və beynəlxalq hüququn vəziyyəti ilə bağlı danışmaq olmaz. Onların qonşuluğunda yerləşən ölkəyə münasibətdə isə tamamilə fərqli çalarlar özünü göstərir. Həmin ölkələri əvvəlcə ittiham edir, müxtəlif problemlər uydurur və nəhayət, bombalayırlar.

Cənubi Afrikada tətil edən mədən işçilərindən 45 nəfəri aksiya yerindəcə öldürüldü, amma böyük dövlətlərin səsi çıxmadı. Bütün dünya Myanmada müsəlmanlara qarşı həyata keçirilən qətliamları sadəcə seyr edir. BMT və NATO proseslərə müdaxilə etmir. Dinc müsəlmanların həlak olmasına beynəlxalq qurumlardan heç biri konkret münasibət bildirmir. Aydındır ki, belə şəraitdə beynəlxalq hüquq sistemi normal işləyə bilməz – o, böhran keçirir.

Qərbin müəyyən dairələrinin Azərbaycana qarşı qərəzli mövqeyi aydın hiss edilir. Onlar bəzən məlumatsız olduqları üçün, bəzən də qərəzli surətdə dünya ictimaiyyətinin gözündə ölkənin mənfi imicini yaradırlar. Düşündürücü odur ki, bunun fonunda baronessa Koks kimi parlamentarlar Dağlıq Qarabağa Azərbaycan hakimiyyətinin icazəsi olmadan səfərlər edirlər. Bu səfərlərin sayı artıq 100-ə çatır.



Bəzi dairələr isə Azərbaycan üçün süni siyasi problemlər yaratmağa cəhdlər edirlər. Avropalı deputatlardan Ştrasserin siyasi məhbuslarla bağlı bəyanatını yada salmaq olar. Onun siyasi məhbus adlandırdığı şəxslərin 20-si azad edilib. Ştrasserin təqdim etdiyi siyahıda yer almış üç adam isə, ümumiyyətlə, həyatda yoxdur və olmayıb.

Bundan başqa, Avropa Şurasının baş katibi Torbyörn Yaqland və Avropa Parlamentinin prezidenti Martin Şults Azərbaycanda gedən real prosesləri bilə-bilə yanlış fikirlər söyləyirlər. Onlar nə üçün ədalətli deyillər? Yəqin ki, onlar xüsusi siyasi və iqtisadi maraqları olan dairələrə yaxındırlar.

Qərb mediasında aparılan anti-Azərbaycan kampaniyasının məqsədləri üzərində də düşünməyə dəyər. "Guardian", "Forbes", "Economist" kimi nəşrlər Azərbaycan haqqında dəqiq məlumat vermək əvəzinə, qərəzli xəbərlər yayırlar. Əlbəttə, onlar Azərbaycanın inkişafını, ümumiyyətlə, atdığı addımları görürlər. Lakin bu gün dünyada media monopoliyası mövcud olduğu üçün bunlar haqqında əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq heç də asan deyil. Əksinə, səhv, yalan məlumatlar isə vaxtaşırı yayılır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində beynəlxalq hüquq normalarına əməl edilmədiyini illərdir ki, müşahidə edirik. Yuxarıda xatırlatdığımız BMT-nin 4 qətnaməsi nəyə görə icra edilmir? Bu suala hələ də cavab verən yoxdur. Əvəzində Ermənistanın bütün şıltaqlıqlarını qəbul edirlər. Onun beynəlxalq hüququn bütün normalarını pozaraq, Azərbaycana qarşı etdiyi cinayətləri görməməzliyə vururlar.

Rəsmi Yerevan ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinə qarşı da saymazlıq edir. Onların verdiyi təkliflərə məhəl qoymur. Məsələn, həmsədr dövlətlərin başçıları bir neçə dəfə mövcud status-kvonu dəyişmək zərurətindən danışıblar, ancaq Ermənistan bunu eşitməməzliyə vurur. Əksinə, bu ölkənin rəsmi nümayəndələri dərhal rabitəsiz cümlələrlə dünya ictimaiyyətini çaşdıran bəyanatlar verirlər. Bu hərəkətə də vasitəçi dövlətlərdən ciddi etirazlar verilmir. Ancaq unudulmamalıdır ki, Azərbaycana belə münasibət bir gün onu düşünməyə məcbur edəcəkdir.

Ümumiyyətlə, Avropa dövlətləri son illər baş verən proseslərlə bağlı ədalətli mövqe tutmalıdırlar. Lakin çiçəklənən Avropanın özündə fundamental hüquqlar pozulur, insanların yaşamaq, işləmək hüququ əlindən alınır. Üstəlik, bu barədə heç kim danışmır, ancaq Azərbaycanda süni problemlər axtarışına çıxırlar. Dünyada qütbləşmənin, müxtəlif münaqişələrin, separatizmin, terrorun, narkoticarətin və s. proseslərin vüsət aldığı bir dövrdə "gülümsəmək və təzyiq etmək" hara apara bilər? Bu, beynəlxalq hüquq və ədalətin böhranı demək deyilmi?

Bütün bunlar beynəlxalq hüquq sisteminin yeniləşməsinə böyük ehtiyacın olduğunu göstərir. BMT-nin öz funksiyasını səmərəli yerinə yetirə bilməməsi qlobal miqyasda geosiyasi böhranı dərinləşdirir. Dünyanın bir çox dövlət xadimləri problemin bu aspektinə diqqət yetirirlər.

Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan BMT TŞ-nin formatının dəyişdirilməsi zərurətini son vaxtlar tez-tez vurğulayır. O, xüsusilə müsəlman dövlətlərinə qarşı BMT TŞ-nin obyektiv mövqe tutmadığını deyir. R.T.Ərdoğan hesab edir ki, artıq bütövlükdə dünya ölkələri ilə bağlı yalnız 5 dövlətin (ABŞ, Fransa, Rusiya, Britaniya və Çin) qərar qəbul etməsi zamanın tələblərinə cavab vermir.

Onu vurğulayaq ki, başqa ölkələrin siyasətçiləri də analoji fikirlər səsləndirirlər. Şübhə yoxdur ki, burada obyektiv gedən bir prosesin siyasi şüurlara təsiri vardır. Biz çoxqütblü dünyanın formalaşmasını nəzərdə tuturuq. Analitiklərin qənaətinə görə, ABŞ istəsə də təkbaşına dünyaya liderlik edə bilməz.

Regional liderlərin meydana gəlməsi qarşısıalınmaz prosesdir. Ona görə də, beynəlxalq münasibətlərin bu prosesə uyğun gələn yeni tənzimləmə mexanizmləri formalaşdırılmalıdır. Ancaq burada böhranı dərinləşdirən bir məqam mövcuddur. Dünyanın böyük dövlətləri arasında özəl maraqlar uğrunda gərgin geosiyasi mübarizə gedir və eyni zamanda, onlar başqaları ilə hesablaşmaq istəmirlər. İkili standart bu məkrli məqsədlərdən qaynaqlanır. Ancaq bir həqiqəti hər kəs qəbul etməlidir: normal addımlar atmaq lazımdır. Beynəlxalq hüququ, ədaləti xilas etmək gərəkdir. Qərb özü nümunə göstərməlidir.

**Newtimes.az**
21 dekabr 2012-ci il



### *1.2. Hərbi bazalar – demokratik xarici siyasətin əsas aləti*

Tarixən hər hansı bir ölkənin ərazisində xarici dövlətin qoşunlarının yerləşməsi siyasi asılılığı xarakterizə etmişdir. Böyük imperiyalar işğal etdikləri yerlərdə və müxtəlif iqtisadi maraqlarını müdafiə etmək üçün imperiya sərhədlərindən kənarda qoşun hissələri saxlayırdılar. Ərazisinə görə bəşəriyyətin ən böyük imperiyalarından olan Roma imperiyasının öz inkişafının ən pik çağında Britaniyadan Misirədək uzanan torpaqlarda qoşunlarını saxladığı 37 əsas məntəqəsi var idi. Bu məntəqələr həm müharibə aparmaq üçün dayaq nöqtəsi, həm də bölgəyə nəzarət, ticarət yollarının təhlükəsizliyi kimi funksiyaları yerinə yetirirdi.

Keçən əsrdə soyuq müharibə dövründə qarşı-qarşıya duran hər iki blok öz təsir dairələrini rəhbərlik etdikləri hərbi ittifaqların hüquqi-təşkilatı çərçivəsi ilə müəyyənləşdirirdi. Müvafiq olaraq hərbi bazalar da müttəfiq ölkələrdə yerləşdirilirdi. Dünyanın müxtəlif regionlarında bir tərəfdən Atlantik blokun, digər tərəfdən isə SSRİ-nin hərbi bazaları yerləşmişdi. SSRİ-nin dağılması ilə yaranmış yeni geosiyasi mühitdə hərbi bazaların coğrafiyası və hətta yerinə yetirdiyi missiya da dəyişdi. Son illər baş verən hadisələr də göstərir ki, artıq hərbi bazalar müdafiə deyil, hücum taktikasına xidmət edir.

İnformasiya texnologiyalarının bu qədər inkişaf etdiyi müasir dövrümüzdə peyk vasitəsilə kosmosdan izləmə imkanları, elektron ticarət və mürəkkəb maliyyə əməliyyatları mexanizminin mövcud olması keçmiş hərbi qarnizonların əksər funksiyalarını yerinə yetirə bilir. Bəşəriyyətin nüvə əsrinə daxil olması ilə böyük dövlətlərin ən azı öz aralarında birbaşa müharibə aparmaq ehtimalı da sıfıra bərabərdir. Çünki nüvə müharibəsi dünyanın sonu demək olar. Artıq onlar arasında nüfuz mübarizəsi informasiya və ya təmassız müharibə taktikasına keçmişdir. Bütün bunları nəzərə aldıqda bu cür hərbi dayaq məntəqələrinə xüsusi ehtiyac görünmür.

Lakin III minillikdə izlənilən yeni geosiyasi şərait fərqli mənzərənin yaranmasına səbəb olmuşdur. Hazırda dünya üzrə hərbi bazaların 95%-i ABŞ-a məxsusdur. Almaniya, İtaliya, Yaponiyanın

keçən əsrdə mövcud olan hərbi bazaları artıq ləğv olunmuş, Britaniya, Fransa və Rusiyaya məxsus hərbi məntəqələrin isə sayı azalmışdır. ABŞ-ın bu sahədə dominantlığı yeni qüvvələr nisbətini əks etdirir.

ABŞ-ın ilk hərbi bazaları 1898-ci il ABŞ-İspaniya müharibəsindən sonra yaranmışdır. İspaniyaya qalib gəlməklə ABŞ Karib hövzəsində və Okeaniyada üstün mövqe qazandı. Ümumilikdə ABŞ-İspaniya müharibəsi ABŞ-ın müasir qlobal hərbi şəbəkəsi üçün mühüm rol oynadı. Müharibənin nəticəsi olaraq 1898-ci il Paris sülh müqaviləsinə əsasən İspaniyadan ABŞ-a keçən Filippin, Quam, Kuba, Puerto-Rikonun hər birində ABŞ-ın əsas hərbi bazaları yerləşdirildi. Sakit okeanda bir tərəfdən Filippin, digər tərəfdən Quam adasında strateji mövqeyə yiyələnməklə ABŞ Çin və Yaponiyanın əsas dənizçilik marşrutlarına nəzarəti ələ keçirdi. Kuba və Puerto-Rikodakı hərbi bazalar isə Karib dənizində müdafiə xətti yaratmağa yönəlmişdi.

ABŞ II dünya müharibəsindən də məharətlə istifadə etdi. Müharibə dövründə ABŞ antihitler koalisiyası üzrə müttəfiqləri olan İngiltərə və Fransadan onların limanlarından istifadə etmək və baza tikmək hüququ almışdı. Müharibə qurtardı, ancaq ABŞ öz hərbçilərini İngiltərə, Qərbi Almaniya, İtaliya, Fransa, Belçika, İslandiya, Norveç, Yaponiya və Cənubi Koreyadan çıxarmadı. 1960-cı ilə qədər ABŞ digər dövlətlərin ərazisində hərbi kontingent yerləşdirə bilməklə əlaqədar 42 dövlətlə 8 çoxtərəfli müqavilə və 30 ölkə ilə ayrıca ikitərəfli müqavilə imzalamışdır. ABŞ bu ölkələr qarşısında müstəqilliyin qorunması, kommunist rejimindən müdafiə, Almaniya və Yaponiyanın qisas almasının qarşısının alınmasını təmin etməklə bağlı öhdəlik götürürdü.

Qlobal məkanda hərbi bazalar ABŞ xarici siyasətində II dünya müharibəsindən sonra daimi faktora çevrildi. Hazırda dünyanın 130-dan çox ölkəsində ABŞ-ın 700-dən çox müxtəlif təyinatlı hərbi məntəqəsi mövcuddur. Bu məntəqələr arasında ərazisi hektarlarla ölçülən böyük hərbi bazalarla yanaşı hərbçi kontingentinin sayı 20 ilə 200 arasında olan kiçik aerodrom, əlaqə mərkəzi, analitik mərkəzlər də vardır. Bundan əlavə ABŞ silahlı qüvvələrinin strukturuna daxil olan 11 böyük hərbi gəmi də hərbi baza funksiyasını yerinə yetirir. Bu gəmilər dünyanın istənilən yerinə hərəkət etməklə "üzən hərbi baza" rolunu oynayır.



Xaricdə ABŞ hərbi bazalarının coğrafiyasının genişlənməsində mühüm faktorlardan biri də onların kommersiya dəyəridir. Hərbi bazalar ABŞ ordusu üçün silah istehsal edən hərbi sənaye müəssisələri ilə yanaşı mülki sənaye sahələri üçün də böyük gəlir mənbəyidir. Amerikan tədqiqatçıların hesablamalarına görə hazırda ABŞ iqtisadiyyatının bir sıra sahələrinin dayanıqlığı bazaların tikintisi ilə bağlı kontraktlardan və silah-sursatla təchizatın davamlılığından asılıdır. Bu kompaniyalar arasında "Halliburton" şirkətlər qrupunu xüsusi qeyd etmək olar. Bu qrupa daxil olan şirkətlər ("Kellogg", "Braun", "Ruth company" və s.) dünyanın müxtəlif yerlərində bazaların tikilməsi, təchizatı və personalın ehtiyaclarının qarşılanması ilə bağlı sifarişləri yerinə yetirirlər. Ata və oğul Buşun prezidentliyi dövründə bir sıra administrasiya və hökumət üzvlərinin bu şirkətin səhmdarı və ya direktorlar şurasının üzvü olması isə mətbuatda ciddi rezonans doğurmuşdur.

Ümumilikdə ABŞ hərbi bazalarının yerləşmə coğrafiyasını geosiyasi baxımdan təhlil etdikdə bir neçə məqam diqqəti cəlb edir. Ən böyük hərbi bazalar ABŞ-la "xüsusi münasibətlər"ə malik Britaniya, İsrail, Koreya Respublikası və ikinci dünya müharibəsini uduzduqdan sonra bərpa işlərini ABŞ-ın dəstəyi ilə aparan Almaniya və Yaponiyada yerləşir. Lakin maraqlıdır ki, Avropada ABŞ hərbçilərinin və bazalarının ən çox olduğu ölkə Britaniya deyil, Almaniyadır. Eynilə Asiyada da Cənubi Koreya deyil, Yaponiyadır. Almaniya ərazisində 205 hərbi obyekt və 250 min nəfərdən çox şəxsi heyət var. Mülahizə yürütmək olar ki, bu hərbi bazalar ABŞ-ın 2 dəfə dünya müharibəsində qarşı-qarşıya gəldikləri, indi müttəfiq adlandırılsalar belə əzəli rəqiblərinə tam etibar etmədiyini göstərir və daimi nəzarət funksiyası yerinə yetirir.

İkincisi, ABŞ hərbi bazalarının dislokasiyası hərbi əməliyyatlar və qaynar nöqtələr hesabına daim genişlənir. Koreya müharibəsi, Filippin azadlıq hərəkatı, Küveyt, Balkan, İraq, Əfqanıstan müharibələri bu region və ölkələrdə ABŞ hərbi bazalarının yaradılması ilə nəticələnmişdir. 11 sentyabr hadisələrindən sonra isə həmin vaxta qədər əlçatmaz görünən post-sovet məkanında (Özbəkistan və Qır-

ğızıstan) ABŞ hərbçiləri peyda oldu. Yəni hər bir müharibə və ya münaqişənin nəticələrindən biri mütləq ABŞ-ın burda hərbi baza yaratması olmalıdır. Taktiki baxımından müharibə və münaqişə ocağı ABŞ-ın hərbi təsir zolağının genişləndirilməsi üçün stimullaşdırıcı rol oynayır.

Digər bir məqam neftlə zəngin bölgələr və neft marşrutları, ticarət yolları, nəqliyyat dəhlizlərinə nəzarət nöqtələri üzərində ABŞ hərbi bazalarının cəmlənməsidir. Dünyanın neftlə zəngin bütün bölgələri ətrafında ABŞ hərbi bazaları mövcuddur. Münaqişə isə bu bölgələrə daxil olmaq üçün bir vasitədir. Misal üçün, Küveyt müharibəsindən sonra ABŞ İran körfəzi hövzəsinə (Bəhreyn, Qatar, Oman) daxil oldu, İraq müharibəsi zamanı isə regionun digər ölkələrində öz hərbi məntəqələrini yaratdı. Hazırda bu region ABŞ hərbi bazalarının ən çox cəmləşdiyi bölgələrdən biridir. Bütün mühüm su yollarının üzərində də (Panama, Cibuti, Malayziya, Oman və s.) amerikan hərbçilərinin nəzarəti vardır. Bu mənada son illər müşahidə olunan əsas məqam ABŞ hərbi bazalarının geoiqtisadi mərkəzlərə doğru yönəlməsi ilə bağlıdır.

ABŞ hərbi bazalarının böyük hissəsi Qərbi Avropada yerləşib. Avropanın dərinliklərinə doğru irəliləməsinə, eləcə də İran körfəzi ətrafında kontingentin çoxaldılmasına baxmayaraq əsas diqqət Çinin dənizlərə çıxış yolları üzərində cəmləşib. Yeni minillikdə qlobal səhnədə ABŞ-ın əsas rəqibi olacaq Çinin dənizlərə bütün çıxış yollarında ABŞ hərbi bazaları var. Tayvanın timsalında real münaqişə ocağını da bura əlavə etsək, ABŞ-ın üstünlüyü görünür.

Hazırda ABŞ xarici siyasətində "Asiya oxu" prioritetdir. Sakit okeanı ümumilikdə "ABŞ dənizi" də adlandırmaq olar. Bu hövzədə ABŞ yeganə dominant qüvvədir. Bundan əlavə Avstraliyada, Kokos adalarında yeni hərbi bazalar yaradılmışdır. ABŞ hətta Vyetnama qayıtmışdır. 2011-ci ildə keçmiş düşməni olan Vyetnamla hərbi əməkdaşlıq haqında müqavilə imzalamışdır. İndoneziya, Malayziya və Bruneydə yeni hərbi məntəqələr yaradılır. Müşahidələr göstərir



ki, son 10 ildə Çinin ətrafında 200 hərbi məntəqə peyda olmuşdur. Xüsusi ilə qeyd edilməlidir ki, ABŞ indi daha çox səs-küyə səbəb olmasın deyə kiçik mobil bazalara ("lilypad") üstünlük verir.

Beləliklə, yeni geosiyasi şəraitdə və perspektivə hesablanmış proqnozlara əsasən iddia etmək olar ki, müxtəlif iqtisadi maraqların olmasına baxmayaraq ABŞ xarici siyasətində hərbi bazaların yerləşdirilməsinə ilk növbədə ölkənin geosiyasi ambisiyaları təsir göstərir. Dünyadakı qaynar nöqtələr və bu hərbi bazaların sinxron asılılığı isə vəziyyəti bir qədər də mürəkkəbləşdirir. Görünən odur ki, ABŞ-ın hərbi baza şəbəkəsi bütün dünyanı tam əhatə etməyincə planetdə sakitlik olmayacaq.

**Ərəstü Həbibbəyli,**
***iqtisad üzrə fəlsəfə doktoru***
13 sentyabr 2012-ci il

### *1.3. İnkişafda olan ölkələrin liderlik iddiaları*

2011-ci il "ərəb baharı" və avrozonada iqtisadi böhranın yaşanması kimi əlamətdar siyasi və iqtisadi proseslərlə zəngin oldu. Lakin, bu proseslərin fonunda son iki ilin mühüm siyasi əlamətlərindən biri kölgədə qaldı. Bu, qlobal geosiyasi məkanda yeni güclərin formalaşması tendensiyasıdır.

Hazırda Çin, Hindistan, Braziliya və Rusiya kimi inkişafda olan dövlətlərin dünyadakı geosiyasi mənzərəni tədricən dəyişdirdikləri məlumdur. Lakin, öz iqtisadi potensiallarını inkişaf etdirməkdə olsalar da, bu ölkələrin daxilində və xarici əlaqələrində baş verən bəzi proseslər, onların beynəlxalq və hətta regional səviyyədə hələ zəif olduqlarını göstərir.

Çinin iqtisadi imkanları artmaqda davam edir. Bununla belə, ölkə maliyyə böhranının səbəb olduğu inflyasiyanın artmasından narahatdır. Hakim rejim iqtisadi problemlərdən çıxmağın yolunu yaxşı bilsə də, ölkədaxili siyasi qalmaqallar buna böyük əngəl yaradır. 2012-ci ildə Çində, bu ölkənin idarəçilik təcrübəsində indiyədək görünməmiş bir hal – hakimiyyətin təhvil verilməsi prosesi baş verəcək. Payızda

ölkə rəhbərliyinin 70 faizi, yəni Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) azı 200 üzvü səlahiyyətlərini təhvil verəcək. Yeni liderlər olan Si Cinpin və Li Ketsyan müasir Çinin memarı hesab olunan Den Syaopin tərəfindən xeyir-dua almamış və seçilməmiş ilk şəxslərdirlər.

Nəticədə, ola bilsin ki, ÇKP-nin daxilində regional, funksional və ideoloji əsasda inkişaf edən fraksiyaların yaranmasının şahidi olacağıq. Qeyd olunan dəyişikliklər çox incə bir geosiyasi proses fonunda baş verir. Rəsmi Pekinin son iki ildə Cənubi Çin dənizində fəallıq göstərməsi və qonşuları ilə ərazi mübahisələrinin kəskinləşməsi digər Asiya ölkələrini Çinə qarşı birləşməyə və açıq şəkildə ABŞ-ı Sakit okean hövzəsindəki mübahisələrə müdaxilə etməyə çağırması ilə nəticələnib.

Əslində, Çinin mövqeyi regional rəqabət baxımdan stabil görünür. Qlobal liderlikdən isə söhbət gedə bilməz. Hazırda heç bir Çin lideri avroya dəstək olmaq, yaxud, yeni Şərq-Qərb nüfuz mübarizəsinə başlamaq kimi ciddi qərar verməkdə maraqlı deyil.

Hindistan isə daxili çəkişmələr baxımından Çinə nisbətdə daha çox əziyyət çəkir. Hər addımında müxalifətlə üzləşən Manmohan Sinqh koalisiya hökumətinin sağ qalması üçün oksigen maskası taxılmış xəstəyə bənzəyir. Müxtəlif daxili və regional çətinliklərlə üzləşən ölkə, bu səbəbdən xarici siyasətində hələlik inamlı görünə bilmir.

"Qoldman Saks" şirkətinin rəhbəri Cim O'Nil müəllifi olduğu BRİK akroniminin 10 illik yubileyi ilə bağlı çıxışı zamanı parlamaqda olan «yeni ulduzlar» arasında ən böyük narahatlığın Hindistanla bağlı olduğunu deyib. Hazırda bu ölkənin iqtisadi artım sürəti zəifləyir, valyutası Asiyada ən aşağı dəyərə malikdir, xarici investisiyaların həcmi azalır, hökumətin siyasi fəaliyyəti isə populizmlə durğunluq arasında vurnuxur. Bu baxımdan, xarici siyasət ölkə üçün ikinci dərəcəli yer tutur. Hətta Pakistan və Əfqanıstanla bağlı vacib regional məsələlərdə belə Hindistan bir o qədər də siyasi fəallığa meyl göstərmir.



Digər güclənən dövlətlər isə fərqli çətinliklərlə üzləşirlər. 2012-ci ildə Rusiyada keçirilən prezident seçkilərində Vladimir Putinin yenidən dövlət başçısı seçilməsi bu dövlətin xarici siyasətinin daha sərt və ambisiyalı xarakter daşıyacağını proqnozlaşdırmağa əsas verdi. Lakin, bu siyasətin həyata keçirilməsi Rusiyanın aid olduğu geosiyasi mühitin spesifikliyi baxımından o qədər də asan görünmür. Ölkə bir tərəfdən, skeptik Avropa, digər tərəfdən, böyük Çinlə, həmçinin, radikal mövqedən çıxış edən İslam dövlətləri ilə əhatələnib.

Braziliya iqtisadiyyatında 2011-ci ilin üçüncü rübündə kəsir qeydə alınsa da, hazırda bu ölkənin regiondakı mövqeyi nisbətən daha yaxşı vəziyyətdədir. Vaxt ötdükcə Braziliya regional liderə çevrilməyə başlayır və Meksika ilə rəqabətə daxil olur.

Türkiyə də regionda nüfuz sahibi olan yeni güclərdən biri hesab olunur. Bununla belə, bu nüfuzun ABŞ və bəzi region ölkələri tərəfindən məhdudlaşdırılan müəyyən sərhədləri mövcuddur.

ABŞ bəzi regionlarda liderliyi uğurla üzərinə götürməyi bacarıb. Rəsmi Vaşinqton Asiyadakı rolunu genişləndirməklə yanaşı, Hindistan, Braziliya, İndoneziya və Türkiyə ilə əlaqələrini intensivləşdirir, həmçinin, nüvə silahlarının yayılmaması məsələsində Rusiya ilə tərəfdaşlıq əlaqələri qurur.

Bununla belə, ABŞ-ın dünyadakı nüfuzunun əvvəlki səviyyədə olmaması göz qabağındadır. 1990-cı illərin ortalarında Asiya ölkələri və Meksikada yaranmış böhranlar zamanı ABŞ qlobal iqtisadi problemləri təkbaşına həll etmək iqtidarında idi. Hazırda isə, heç kim rəsmi Vaşinqtondan avrozona böhranını həll etməyi, yaxud «ərəb baharı»nın nəticələrini proqnozlaşdırmağı gözləmir. Böyük gücün artıq olmadığı post-amerika dünyasının real təsviri məhz belədir.

**Kamal Adıgözəlov**
2 may 2012-ci il

### *1.4. Davakar separatizm beynəlxalq sabitlik üçün əsas təhdidlərdən biri kimi*

Məlum olduğu kimi, XXI əsrin əvvəllərinə yaxın dünya birliyi beynəlxalq sabitlik üçün əsas təhdidlərdən biri ilə – bu və ya digər formalarda dünyanın əksər ölkələrində özünü büruzə verən davakar separatizmlə üzləşmişdir. Separatizmi qidalandıran etnoslararası münaqişələr bəzi hallarda hərbi-siyasi münaqişələrə, hətta dinc əhali üçün faciəvi nəticələrə səbəb olan dövlətlərarası müharibələrə çevrilir. Bundan başqa, bir çox hallarda beynəlxalq terror təşkilatlarının gələcək kadrları məhz bu münaqişələrdə döyüş təcrübəsi keçirlər.

Bu məhvedici hadisənin spesifik cəhəti ondadır ki, burada "milli özünüdərkin oyanması", "millətlərin öz müqəddəratını təyin etmə hüququ", "istismar olunan xalqlara azadlıq", "insan haqları", "Vətənlə birləşmə" kimi guya humanist demokratik ideyalar dəlilik həddinə çatmış qanlı isterik tutmalarla bir aradadır.

Sonda bu, yeni "qanunsuz doğulmuş" və daha çox marginallaşmış və bir qayda olaraq dünya birliyi tərəfindən tanınmayan qurumların meydana gəlməsinə səbəb olur. Özü də gözə çarpmasa da, sonda burada əsas rolu dağıdıcı separatist prosesləri "həvəsləndirən" xarici geosiyasi amillər oynayır. Bu, Qara dəniz-Qafqaz-Xəzər geosiyasi məkanında, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişində, daha dəqiq olsaq isə, Ermənistanın Azərbaycana qarşı təcavüzündə daha aydın görünür. Bu 20 ildən artıq davam edən münaqişənin həll oluna bilməməsinin kökləri Azərbaycanın geostrateji əhəmiyyəti və ölkənin geoiqtisadi perspektivləri ilə üzvi şəkildə bağlıdır. Çünki, bildiyimiz kimi, Xəzər dənizi hövzəsində zəngin neft və təbii qaz yataqları var. Bundan əlavə, Azərbaycan Avropanı Asiya ilə birləşdirən və getdikcə müasir qloballaşma prosesləri şəraitində daha böyük geostrateji əhəmiyyət kəsb edən özünəməxsus bir körpüdür. Bu regionda baş verən proseslərə dünyanın və regionun aparıcı ölkələri tərəfindən lobbiləşdirilən müxtəlif kommunikasiya layihələri – neft-qaz kəmərləri, dəmir yolu və avtomobil magistralları və s. əhəmiyyətli təsir göstərir.



Cənubi Qafqazda baş verən millətlərarası və dövlətlərarası münaqişələr ABŞ-ın və onun NATO üzrə müttəfiqlərinin Rusiyanın bu regionda hökmranlığına yol verməmək kimi geostrateji məqsədini xeyli asanlaşdırır. Öz növbəsində Rusiya "Cənubi Qafqazdakı forpostu"ndan "yapışaraq" hər cür yolla Avroatlantik qüvvələrin bu regiona daxil olmasının qarşısını almağa çalışır.

Beləliklə, beynəlxalq münaqişələrin tam həlli bu regionda rəqabət aparan tərəflərdən hansının – ABŞ-ın, yoxsa Rusiyanınmı bu geosiyasi mübarizədə qələbə çalmasından asılıdır. Bu fenomenin sirri də elə məhz bundadır və heç bir beynəlxalq təşkilat – nə BMT, nə də ki, ATƏT Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü ilə bağlı olan münaqişələrin həllinə səmərəli təsir göstərə bilmir.

Bu geosiyasi tələdən çıxış yolu maraqlı olan bütün tərəflərin beynəlxalq hüququn dövlətlərarası sərhədlərin hətta mübahisəli olsa belə dəyişilməzliyi, millətlərarası xarakterli bütün məsələlərin yalnız qeyri-münaqişəli metodlarla, tərəflərin maraqlarını nəzərə almaqla həlli, insan hüquqları və vətəndaş azadlıqları prinsipləri əsasında milli azlıqların hüquqlarının qorunması kimi universal prinsiplərinə əməl etməsindədir. Öz ərazi bütövlüyünü bərpa etməyə çalışan Azərbaycan da beynəlxalq hüququn bu fundamental prinsiplərinə əməl edir.

**Pərvin Darabadi,**
***tarix elmləri doktoru***
17 dekabr 2012-ci il

### *1.5. "Sülh tərəfdarı" silah satıcıları*

Sülh Problemləri Tədqiqatı üzrə Stokholm Beynəlxalq İnstitutunun (SİPRİ) hesabatlarına əsasən 2007-2011-ci illərdə dünyada silah təchizatı əvvəlki 5 illiklə müqayisədə 24 faiz artmışdır. Statistikaya görə dünya üzrə silah idxalının 44%-i Asiyanın payına düşür. "Ərəb oyanışı" ilə çalxalanan Yaxın Şərq ölkələri də mühüm alıcılardandır. Ümumi idxalın 17 faizi bu regionun hesabınadır. Hindistan, Koreya Respublikası, Pakistan, Çin, Səudiyyə Ərəbistanı, Venesuela silah idxalatçıları arasında liderlik edirlər[1].

[1] http://www.sipri.org

Əsas silah sənayesi istehsalçıları və ixracatçıları isə Qərb ölkələridir. Stokholm İnstitutunun məlumatlarına görə silah istehsal edən şirkətlərin ilk yüzlüyündə 44-ü ABŞ, 30-u Qərbi Avropa ölkələrinə məxsusdur. Bütün bu statistik rəqəmləri göstərməkdə məqsədimiz onsuz da məlum olan informasiyanı xatırlatmaq deyil. Əsas maraqlı görünən silah satıcılarının "sülh tərəfdarı" olmasıdır.

Hərbi xərclərin artması və silahlanma ehtiyacı geosiyasi ambisiyalarla və dünyada qaynar nöqtələr, dondurulmuş münaqişələrin mövcudluğu ilə şərtlənir. Yəni silahlanma tələbi rəqabət mühiti və müharibə riski ilə müəyyən olunur. Aydın məsələdir ki, qlobal miqyaslı silah ixracatçıları üçün isə bu riskin yüksək olması arzu olunandır. Dünyada silahlanmaya daim vəsait ayrılmasını şərtləndirən bəzi nüanslara aydınlıq gətirmək istərdik.

Qlobal iqtisadi böhran şəraitində şirkətlərin hərbi xərclərini və müvafiq olaraq satışlarını artırması müəyyən məqamlardan xəbər verir. Tarix göstərir ki, qlobal xarakterli iqtisadi böhranlar hər zaman hərbi xərclərin artmasına təkan vermişdir. Misal üçün, XX əsrin ən güclü iqtisadi tənəzzül dövrü olan "Böyük depressiya"dan (1929-1933-cü illər) Almaniya iqtisadiyyatı hərb sənayesini artırmaqla iqtisadi cəhətdən ən güclü dövlət kimi çıxmışdır. Həmin dövr ABŞ iqtisadiyyatında da bu trend özünü göstərmişdir. Yəni bir mənada hərbi xərclərə iqtisadiyyatda təkanverici qüvvə və böhrandan qurtuluş yolu kimi baxılmışdır. Sonradan bu hərbi arsenalın II dünya müharibəsini şərtləndirməsi isə nə qədər acınacaqlı olsa da, hadisələrin məntiqi davamıdır.

Beləliklə, iqtisadi böhran və silahlanma arasında bir mütənasiblik olduğu görünür. Günümüzdə də oxşar prosesləri müşahidə edirik. Son bir neçə ildə qlobal miqyasda iqtisadi tərəddüdlər və çöküşlər iqtisadiyyatın bir çox sahələrinin rentabelliyini və perspektivlərini şübhə altına almışdır. Belə olan halda dünya təcrübəsində artıq sınaqdan çıxmış silahlanma metodu işə salınıb. Məhz bu səbəbdən də silahlanmaya ayrılan vəsaitlərin artması meylini ilk növbədə bu prizmadan qiymətləndirmək olar.

Fikrimizcə, qlobal iqtisadi böhran və "Ərəb oyanışı" adlanan proses arasında müəyyən bir bağlılıq olduğunu ehtimal etmək olar. Ərəb



dünyasında baş verən hadisələrdə Qərb öz silah arsenalından kifayət qədər istifadə etdi ki, bu da silah istehsal edən şirkətlər üçün yeni sifarişlər deməkdir. Digər tərəfdən yeni iqtidara gəlmiş qüvvələrin ilk işi silahlanma və təhlükəsizlik üçün Qərb şirkətləri ilə müqavilələr bağlamaq olur. Bu tendensiya "Ərəb oyanışı"nın ilk halqası olan Sudan hadisələrində belə müşahidə olunmuşdur. Sudanın parçalanması ilə yeni müstəqillik qazanmış Cənubi Sudan dünyanın silah satışı ilə məşğul olan şirkətlərindən böyük həcmdə silah almağa başladı. Elə bir təəssürat yaranır ki, illərdir Sudanda üsyançılara verilən silahların əvəzi ödənilir.

Rejim dəyişikliyi baş verən ölkələr silah şirkətləri üçün əsas bazarlardır. İraqın hazırkı hakimiyyətinin silahlanmaya milyardlarla pul xərcləməsinə başqa ad vermək olmaz. Əslində hakimiyyət dəyişdikdən sonra İraqın rəsmi xarici siyasətinə müvafiq olaraq heç bir xarici düşməni qalmamışdır. Digər tərəfdən hərbi kompaniya dövründə dağıdılmış infrastruktur, sosial təminat, iqtisadi layihələrlə bağlı böyük işlərin görülməsinə ehtiyac var. Belə olan halda rəsmi Bağdadın hərbi xərclərinin milyard dollarla ölçülməsinin hansı məqsədə xidmət etdiyi qaranlıq qalır.

Ölkələr arasında mövcud olan münaqişələrin dondurulmuş vəziyyətdə qalması da silah satıcıları üçün daimi bazar və gəlir mənbəyidir. Misal üçün, Kəşmir münaqişəsinin artıq yarım əsrdir öz həllini tapmaması və status-kvonun saxlanması silah ixracatçıları üçün əlverişlidir. 2011-ci ildə Hindistanın dünyanın ən çox silah idxal edən ölkəsi, Pakistanın da siyahıda ilk beşlikdə olması bu arqumentlərin əsassız olmadığını göstərir. Dondurulmuş münaqişələrin uzanması silah istehsal edən şirkətlərin maraqlarına uyğun gəlir. Cənubi Qafqaz regionunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin və Gürcüstandakı münaqişələrin də həll olunmasında qlobal güclər maraqlı deyil.

Silah sənayesi ilə məşğul olan şirkətlərin öz ölkələrinin xarici siyasətinə təsir etmək imkanlarını nəzərə aldıqda isə maraqlı mənzərə yaranır. Bu şirkətlər Qərbin aparıcı ölkələrini təmsil etdiyindən onların təsir dairəsi beynəlxalq orbiti əhatə edir. Yəni bu ölkələr dünyada baş verən bütün proseslərə təsir etmək imkanlarına malikdirlər.

Planetdəki bütün münaqişələrdə hər hansı formada söz sahibidirlər. Belə olan halda bu şirkətlərin dünyanın qaynar nöqtələrində maraqları təmin olunur. Bu günlərdə ABŞ Dövlət Departamentinin ABŞ hərbi texnikasının satılacağı ölkələr siyahısından Azərbaycanın adını çıxarması haqqında məlumata da bu prizmadan baxmaq olar.

İsrail-Fələstin münaqişəsinin də dünyanın qaynar nöqtələrindən biri olmasında maraqlı tərəflər var. İsrail Qərbin regionda dayağı olaraq daim silahlandırılır. Tək ABŞ İsrailə ildə 2 milyard dollara qədər hərbi yardım göstərir. İsrailin davamlı silahlanması şəraitində regionun digər ölkələri üçün silahlanma yarışı mühiti formalaşır. Regiondakı bu ümumi yarışdan geri qalmamaq üçün regionun bütün ölkələri xaricdən müasir silah və texnologiyalar alırlar. İsrailin düşməni olan ölkələr (İran, Suriya, Livan) digər mənbələrdən silah idxal etsələr də, əksər neft monarxiyaları (Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt) Qərbdən silah almağa üstünlük verirlər.

Əslində İsrail-İran qarşıdurmasının və İranın nüvə probleminin də bu silahlanmaya xidmət etdiyini ehtimal etmək olar. Belə ki, İsraillə yaranmış rəqabət mühitində İranın silahlanması regionun bütün ölkələrinə sirayət edir. İranın regiondakı digər rəqibləri də silahlanmaya böyük pullar xərcləyirlər. Bununla bağlı bir faktı sadalamaq kifayətdir. Səudiyyə Ərəbistanı 2011-ci ildə ABŞ-a 154 ədəd F-15SA tipli hərbi təyyarə və Almaniyaya 800 ədəd "Leopard-2"tipli tank sifariş vermişdir ki, bu da dünyada ən böyük rəqəmlərdən biridir.

Müşahidələr göstərir ki, Qərbin İsrailə hərbi yardım göstərməsi regionda bütün ölkələrin hərbi xərclərini artırması ilə nəticələnən zəncirvarı bir prosesə səbəb olur. Əslində İsrailə ayrılan əvəzsiz hərbi yardımların dəyəri Qərb şirkətlərinin regionun varlı ölkələrinə satdığı silah-sursat hesabına ödənmiş olur. Beləliklə, regionun neftlə zəngin ölkələrinin resurslarının bir hissəsi daim bu silahlanma yarışına xərclətdirilir. Buna görə də neftin maliyyə dəyəri yüksək olduqca Yaxın Şərq regionunda problemlərin və münaqişələrin bitməyəcəyini güman etmək olar.

Beləliklə, maraqlı mənzərənin şahidi oluruq. Dünyada ticarətin əksər sahələri qlobal qaydalarla tənzimlənir və ölkələr qarşısında konkret öhdəliklər qoyulur. Adi silahların transferi ilə bağlı milli və



regional çərçivədə tənzimləyici vasitə və alətlər olsa da adi silahların ticarətini tənzimləyən qlobal mexanizm mövcud deyil. Doğrudur, bununla bağlı təşəbbüslər var. 2-27 iyul 2012-ci il tarixlərində Nyu-Yorkda "Silah Ticarəti Müqaviləsi"si ilə bağlı keçirilən BMT-nin konfransını bu təşəbbüslərdən hesab etmək olar. Lakin fikrimizcə reallıqda bu tədbirlər adi silahların tənzimlənməsi üçün mexanizm ola bilməz. Çünki bu addım ilk növbədə silah satıcılarının maraqlarına uyğun gəlməlidir. Silah satıcıları isə öz fəaliyyətlərinə məhdudiyyət qoymaq niyyətində deyillər. Real mənzərə belədir ki, münaqişələrin uzadılması, qaynar nöqtələrdə status-kvonun saxlanması, geosiyasi rəqabət mühitinin formalaşdırılması istəkləri ilə sülh ideyası carçısı olmaq rolu uyğun gəlmir.

**Ərəstü Həbibbəyli,**
***iqtisad üzrə fəlsəfə doktoru***
12 iyul 2012

### *1.6. Narkoticarət – səssiz müharibənin izləri*

Yeni yüzillik beynəlxalq münasibətlər sistemində kardinal dəyişikliklərin baş verməsi ilə səciyyələnir. Məhz bu əsrdə dövlətlər arasında əlaqələrdə min illərdir tətbiq olunan ənənəvi müharibə və müstəmləkə siyasəti yeni sistemlə əvəz olundu. Artıq qlobal güclərin dünya ölkələri üzərində nəzarəti müxtəlif maliyyə institutları, beynəlxalq təşkilatlar, qloballaşma prosesi, mədəni intervensiya, kosmopolitizm, qlobal media şəbəkəsi, hətta beynəlxalq hüquqda tətbiq olunan ikili standartlar vasitəsilə həyata keçirilir. Cəmiyyətin müxtəlif sahələrində bu qlobal mexanizmlər fərqli adlarla təqdim olunur. Yəni, qlobal güclər tərəfindən dünyanın digər dövlətləri üzərində milli dəyərlərin harmonizasiyasından tutmuş iqtisadiyyatda azad ticarət siyasətinədək bütün sahələrdə güclülərin mövqeyinə xidmət edən mexanizm qurulmuşdur.

XX əsr qlobal güclərin öz aralarındakı münasibətləri aydınlaşdırılmasına da yeniliklər gətirmişdir. 2 dünya müharibəsi yaşadıqdan sonra keçmiş imperiyaların nüvə silahına yiyələnməsi həm bəşəriyyəti məhvolma təhlükəsi ilə üz-üzə qoydu, həm də qlobal

güclər arasında münasibətlərdə yeni yanaşmaya səbəb oldu. Nüvə silahına malik olmaqla bu dövlətlər arasında münasibətlərdə birbaşa müharibə artıq istisna olunduğu üçün yeni təzyiq vasitələri tətbiq olunur. Mətbuat və ideoloji mübarizə, siyasi blokada, iqtisadi sanksiya, müxtəlif formalı virus hücumu (kiber-hücumlar, informasiya məkanında virus yayılması, təhlükəli virus daşıyan yoluxucu xəstəliklər, narkoticarət) və digər bəşəriyyəti çətin sınaq qarşısında qoyan problemlər. Bütün bu mübarizə üsulları "səssiz müharibə"nin elementləridir.

Səssiz müharibədə əsas silahlardan biri bəşəriyyətin ən böyük bəlası olan narkotik vasitələrdir. Narkomaniya ölkənin demoqrafik potensialına, genefonduna, əhalinin sosial statusuna, iş qabiliyyətinə, kriminogen vəziyyətə təsir baxımından dövlətin milli təhlükəsizliyi üçün birbaşa təhdiddir. Buna görə də dünya narkotrafikində mövcud trendləri qeyd olunan aspektdən dəyərləndirdikdə səssiz müharibənin cizgiləri görünür.

Əslində bəşəriyyət narkotik maddələrdən silah kimi istifadə olunmasına artıq şahid olmuşdur. Sadəcə 1840-60-cı illərdə İngiltərə başda olmaqla Avropa imperialistlərinin Çini tiryəklə doldurmaq səyləri səssiz ötüşmədi və tiryək müharibələri ilə nəticələndi. Britaniya cəmiyyətinin bəzi dairələrində belə bu çirkli tiryək ticarəti haqqında uzun illər ərzində "imperiyanın rüsvayçılığı" kimi danışırdılar. Müasir dövrümüzdə də həmin rüsvayçılıq davam edir. Fərq isə ondadır ki, indi narkotika silahından müharibə olmadan belə istifadə edilməsi müşahidə olunur.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisinin (UNODC) məlumatlarına görə 2011-ci ildə dünyada təxminən 7000 ton tiryək istehsal olunmuşdur. Bunun da böyük hissəsi - dörddə üçü Əfqanıstanın payına düşmüşdür. Maraqlıdır ki, Əfqanıstanda narkotik maddələrin istehsalı NATO-nun hərbi qüvvələrinin bu ölkəyə yeridilməsindən sonra 40 dəfə çoxalıb. Bu isə dünya üzrə narkotik dövriyyəsinin 2 dəfə artmasına gətirib çıxarıb. Bəlkə də bu məsələyə təsadüf kimi də baxmaq olardı. Lakin keçən əsrin 70-ci illərində də dünya tiryək istehsalında liderlik edən ölkələrin ABŞ silahlı qüvvələrinin nəzarəti altında olması vəziyyəti bir qədər dəyişir.



Statistikaya görə, o zaman dünya tiryək istehsalının 67%-i "Qızıl Üçbucaq" ölkələrinin (Myanma, Laos, Tailand) payına düşürdü. Maraqlıdır ki, bu illərdə ABŞ silahlı qüvvələri həmin ölkələrə yeridilmişdi. 1960-1970-ci illərdə Vyetnam, Kamboca, Laos və Tailandda ABŞ-ın təxminən yarım milyon nəfərlik hərbi kontingenti yerləşmişdi. Mətbuatda yayılan qeyri-rəsmi məlumatlara görə, o zaman region ölkələrindən heroinin dünya bazarlarına daşınmasında bəzi hərbçilərin yerli Çin icması və ABŞ-dakı Çin diasporu ilə əlaqələri mühüm rol oynayırdı. Hazırda da təxminən eyni mənzərə yaranır. ABŞ və NATO-nun hərbi kontingenti Hind-Çin yarımadasında olduğu kimi Əfqanıstana da nəzarət etdikləri zaman tiryək istehsalı üzrə liderlik bu ölkəyə keçmişdir.

Real mənzərə isə belədir ki, hərbi qüvvələrin qeyd olunan ölkələrdə bütün proseslərə nəzarət etdiyi bir şəraitdə narkotik istehsalı və ixracının qarşısını ala bilməməyi sual doğurur. Çünki ABŞ özünün milli təhlükəsizliyi üçün birbaşa təhdid olan Kolumbiyada narkotik plantasiyalarına təyyarələr vasitəsilə xüsusi kimyəvi vasitə səpərək kokainin istehsalını bir ildə 75% azalda bilmişdir. Belə olan halda ABŞ-ın özünün tam nəzarəti altında olan Əfqanıstanda narkotik tarlalarını məhv etməməyi qaranlıq mətləblərdən xəbər verir. Ümumiyyətlə mətbuata sızan məlumatlara görə koalisiya qüvvələri xaşxaş tarlalarının məhv edilməsinə tərəfdar deyillər. Əsas arqument olaraq isə bu tarlalar məhv edildiyi halda əfqan əkinçilərin işsiz qalacağını və taliban döyüşçülərinə qoşulacağından ehtiyat etmələri ilə əlaqələndirirlər. Bununla bağlı 2009-cu ildə ABŞ-ın Əfqanıstanda xüsusi nümayəndəsi olan Riçard Holbruk da bildirmişdi ki, "Əfqanıstanda xaşxaş tarlalarının məhv edilməsi pulun lazımsız sərf olunmasıdır. Bu addım taliblərin narkoticarətdən gəlirlərini azaltmamaqla bərabər əfqan kəndlilərinin döyüşçülərə qoşulmasına gətirib çıxarır."

Beləliklə, ehtimal etmək olar ki, Əfqanıstanın yerləşdiyi geosiyasi mövqe bəzi suallara aydınlıq gətirə bilər. Avrasiyanın mərkəzində yerləşən bu ölkə ABŞ-ın geosiyasi səhnədə başlıca rəqibləri olan Rusiya və Çinin yaxınlığındadır. Bu ikiliyə Avropa İttifaqını da əlavə etdikdə ABŞ-ın qlobal səhnədə bütün əsas rəqiblərinin tam siyahısı sadalanmış olur. Əfqanıstanda istehsal olunan narkotik maddələrin

20%-nin Rusiyaya, 19%-nin Avropaya, 15%-nin isə Çinə daşınması müəyyən məqamlardan xəbər verir. Əfqanıstan sərhədlərinin qorunma səviyyəsi və tranzit marşrutları istiqamətində mərkəzi hakimiyyətin nəzarətində olmayan ərazilərin olması isə narkotik maddələrin daşınmasını asanlaşdırır.

Səssiz müharibənin hədəfində ilk istiqamət Rusiyadır. Son illər Rusiyada əhali durmadan azalır (2011-ci ilin məlumatına görə 139 milyon nəfərə düşüb), gənclərin sayı və aktivliyi geriləyir. Dünyada ən çox uşaq narkoman Rusiyadadır. Demoqrafların hesablamalarına görə 2100-cü ildə Rusiyanın əhalisi cəmi 80 milyon nəfər olacaq. Ölkədə illik 70 ton tiryək istifadə edilir. Rusiyada faktiki olaraq narkotik maddələrdən asılı olan 2-2,5 milyon nəfər insan var. İldə təxminən 30-40 min adam artıq dozadan ölür, 70 minə yaxın ölüm isə narkotik maddələrdən istifadə ilə əlaqədardır. Müqayisə üçün qeyd edək ki, bu Sovet ordusunun Əfqanıstanı işğalı zamanı SSRİ-nin üzləşdiyi itkilərdən dəfələrlə böyük rəqəmdir. Rusiyada başlıca dini azlıq olan müsəlman ailələrin çoxuşaqlı olduğunu və qeyri-rusların əsasən müsəlman olduğunu nəzərə aldıqda ölkənin demoqrafik gələcəyinin indikindən olduqca fərqli olacağı şübhəsizdir.

Beləliklə, narkotik maddələr vasitəsilə Rusiyanın demoqrafik strukturuna yönəlmiş zərbə ilk növbədə onun qlobal güc olaraq səhnədən çıxarılmasına hesablanmışdır. Hazırkı rəqəmlər göstərir ki, bu səssiz müharibə yaxın perspektivdə Rusiyanın üzləşə biləcəyi istənilən isti münaqişədən daha təhlükəlidir.

Əfqanıstandan ixrac olunan narkotik maddələrin son təyinat nöqtələrindən biri də Avropadır. Avropada narkotik maddələrdən istifadənin liberal qanunlarla tənzimlənməsi ilə əlaqədar narkotrafik üçün bu region əlverişli bazardır. Məsələnin bir digər tərəfi də var ki, Avropada cəmiyyətin özünün narkotik aludəçiliyi səssiz müharibə aparanlar üçün real şans yaratmışdır. Avropada demoqrafik vəziyyətin perspektivləri növbəti yüzillik üçün yaxşı perspektivlər vəd etmir. Əksər ölkələrdə əhalinin təbii azalması gedir. Digər tərəfdən isə miqrantlar say etibarilə ilbəil artmaqla, cəmiyyətdə daha aktiv iştirakçılara çevriliblər. Miqrantlara qarşı narkotika ilə bağlı sərt tələblər olduğunu və bu işlə əlaqədar olanların zaman-zaman Avropadan deportasiya olduğunu nəzərə aldıqda belə bir mənzərə yaranır ki, narkotik maddələrin daha çox yerlilərə təsiri aktual problem kimi ortaya çıxır. Yəni, narkotik istifadəçisi və ya satıcısı olan miqrantlar deportasiya olunmaqla təbii filtrasiyadan keçirlər. Bununla da Avropanın yerli əhalisinə nisbətən yeni sakinlər - miqrantlar narkotikanın fəsadlarından daha uzaq olurlar. Belə olan halda isə 100 il sonra Avropanın demoqrafik strukturunda ciddi dəyişikliklər ehtimal olunur.

Maraqlı bir məqam da var ki, narkotik maddələrin Avropaya daşınmasında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri xüsusi mövqeyə malikdir. Dağlıq Qarabağ ərazisindən narkomafiya istifadə edir. Narkotik maddələrin tranzitində əsas marşrutlardan biri Əfqanıstan-İran-Azərbaycan (işğal altında olan Dağlıq Qarabağ)-Ermənistan-Gürcüstan-Avropadır. Dağlıq Qarabağda narkotik laboratoriyaların da fəaliyyəti haqında məlumatlar var. İşğal altında olan ərazilərdən ermənilər həm tranzit, həm də istehsalçı kimi istifadə edirlər. Avropa İttifaqı dövlətləri isə bu münaqişənin həll olunmasında qətiyyətli mövqe ortaya qoymamaqla bütün bunlara göz yummuş olurlar.

Beləliklə, yeni minillikdə qlobal siyasi arenada fərqli metod və taktikalardan istifadə edirlər. Mahiyyət isə dəyişməyib. Əgər keçmişdə qlobal güclər imperiya altında böyük əraziləri işğal edib, orda ağalıq edirdilərsə, indi də həmin güclər demokratiya və ədalət prinsipləri arxasında gizlənərək eyni siyasəti yeridirlər. Qlobal güclərin keçən əsrlərdə qarşıdurması dünya müharibələri ilə nəticələnirdi və qısa müddətdə milyonlarla insan tələfatına, dağıdılmış infrastruktura və digər sosial fəlakətlərə səbəb olurdu. İndi də bu qüvvələrin mübarizəsi çoxlu insan ölümünə, iqtisadi böhranlara, aclığa və digər humanitar problemlərə səbəb olur. Sadəcə nəticələr qısa müddətdə deyil, nisbətən uzaq perspektivdə özünü göstərir. Hətta mübarizə daha da acımasız olub. Vurulan zərbələr isə bumeranq effekti də verə bilir. Yəni hər hansı bir ölkəyə qarşı yönəlmiş narkotik maddələr kimi yeni silahlar öz ölkələrinə də zərbə vura bilər. Artıq mübarizə döyüş meydanında olmadığı üçün sadə insanların qurban getməsi adiləşib. Lakin əsas həqiqət budur ki, kimin qalib gələcəyindən asılı olmayaraq uduzan bəşəriyyətdir.

**Newtimes.az**
1 avqust 2012

## *1.7. Beynəlxalq QHT-lər kimlərə və nəyə xidmət edir və yaxud xüsusi missiyalı aktor*

Bu yaxınlarda Qərb mətbuatında gedən bir məlumat diqqətimi çəkdi. 16 ABŞ, 16 Misir, həmçinin Almaniya, Serbiya, Fələstin və İordaniya vətəndaşlarından ibarət 43 nəfər QHT üzvü xaricdən gələn pulların mənimsənilməsində ittiham edilərək Misirdə həbs olunub. Dövlət Katibi Hillari Klinton isə məsələnin ciddi araşdırılacağını vəd edir[1]. İşin ən maraqlı cəhətlərindən biri də budur ki, ABŞ nəqliyyat katibinin oğlunun da adı bu qalmaqalda hallanmaqdadır[2]. Bu məlumat beynəlxalq sahədə fəaliyyət göstərən Qeyri-Hökumət Təşkilatlarının fəaliyyətini araşdırmağa maraq yaratdı: beynəlxalq QHT-lər nədir, necə fəaliyyət göstərir və hansı məqsəd və məramlara xidmət edir? Olduqca da maraqlı nəticələrlə müşahidə olunur.

Adından göründüyü kimi, Qeyri-Hökumət Təşkilatı dövlətə və ya dövlətlərarası qurumlara bağlı olmayan, fiziki və ya hüquqi şəxslər tərəfindən yaradılan, fəaliyyətlərini dövlətə bağlı olmadan sürdürən hüquq subyektidir.

1863-cü ildə təsis edilən Beynəlxalq Qırmızı Xaç Komitəsi İsveçrə hökuməti ilə əlaqəsinin olmasına baxmayaraq, beynəlxalq QHT-lərin ilk nümunəsi kimi tanınır. Bununla bərabər, beynəlxalq QHT-lər beynəlxalq hüquqa BMT-nin yaranmasından sonra, daha dəqiq desək, BMT Xartiyasının 10-cu bölməsinin 71-ci maddəsi sayəsində daxil oldu ki, bu maddə həmin təşkilatlara məsləhətçi statusu verir və onların beynəlxalq fəaliyyətinə hüquqi zəmin yaradır. 5 il sonra, BMT-nin ixtisaslaşmış orqanlarından olan ECOSOC isə özünün 288(X) nömrəli, 27 fevral tarixli qətnaməsində "beynəlxalq müqavilə ilə yaradılmayan bütün təşkilatları" beynəlxalq QHT sırasına daxil edir.

Tarixə nəzər salsaq, beynəlxalq QHT-lərin bir çox sahələrdə, misal üçün, müharibə zamanı yaralıların və hərbi əsirlərin, eləcə

[1] http://www.washingtonpost.com/world/middle-east/egypt-presses-ahead-with-ngo-trial-of-americans-that-has-put-severe-strain-on-us-ties/2012/02/25/gIQACjiJaR_story.html
[2] http://www.egyptindependent.com/node/681951



də mülki şəxslərin müdafiəsi, köləliyin ləğv edilməsi, qadınlara səsvermə hüququnun tanınması, tərksilah məsələlərində mühüm rol oynadıqlarını görə bilərik. Hətta bəzi QHT-lər (Beynəlxalq Qırmızı Xaç Komitəsi) Nobel Sülh Mükafatına belə layiq görülüblər.

Günümüzdə beynəlxalq səviyyədə fəaliyyət göstərən QHT-lərin sayı minlərlədir. Sadəcə onu qeyd etmək kifayətdir ki, ECOSOC tərəfindən məsləhətçi statusu almış beynəlxalq QHT-lərin sayı 2011-ci ilin noyabr ayı üçün 3536-a bərabərdir[1]. Bundan əlavə, digər beynəlxalq təşkilatlar da bu və ya başqa QHT-lərə bu cür status tanımaqda sərbəstdirlər.

Nəzəri baxımdan, QHT-lərin fəaliyyət sahələri olduqca genişdir: insan hüquqlarından ekologiyaya, həmrəylikdən humanitar fəaliyyətə, oradan isə beyin mərkəzlərinə qədər uzanır. Belə təşkilatların bəzilərinin fəaliyyəti konkret sahəni əhatə etdiyi halda (Beynəlxalq Qırmızı Xaç Komitəsi, Qrinpis, Sərhədsiz Həkimlər, Uşaqları Qoruyaq və s.), əsasən demokratiya və insan hüquqları sahəsində ixtisaslaşan digərlərinin (Açıq Cəmiyyət İnstitutu, Beynəlxalq Respublikaçılar İnstitutu, Beynəlxalq Böhran Qrupu, Beynəlxalq Şəffaflıq Təşkilatı, Beynəlxalq Amnistiya Təşkilatı, Sülh Korpusu, Azadlıq Evi, Sərhədsiz Reportyorlar, Milli Demokratiya İnstitutu və s.) fəaliyyəti olduqca geniş sahəni əhatə edir.

O zaman belə bir sual çıxır qarşımıza: bugünkü beynəlxalq QHT-lər həqiqətən də tarixi missiyalarına sadiqdirlər? Onlar fəaliyyətlərini müstəqil şəkildə, heç bir xarici təsirə məruz qalmadan davam etdirə bilirlərmi?

Təəssüflər olsun ki, bu sualın cavabı o qədər də ürəkaçan deyil. Hər şeydən əvvəl, QHT-lərin adındakı iddiaya baxmayaraq, onlar heç də hər zaman hökumətdənkənar təşkilatlar olmurlar. Alman alimi Ralf Blazerin tədqiqatları sübut edir ki, onlar əksər hallarda dövlət aparatından asılı olurlar[2].

Bu asılılıq da müxtəlif səbəbdən ola bilir. Əksər hallarda onların üzləşdiyi maliyyə çətinlikləri bu asılılığı daha da artırır. Necə deyərlər, pulunu verən musiqini sifariş edir. Maliyyə asılılığı QHT-ləri öz prinsiplərini, fəlsəfələrini bir kənara qoyaraq, donor və lobbiçilik təşkilatlarının maraqlarını müdafiə etməyə məcbur edir.

[1] http://csonet.org/content/documents/E2011INF4.pdf
[2] http://www.cairn.info/resume.php?ID_ARTICLE=AG_668_0359

Maliyyə asılılığına paralel olaraq, QHT-lərin fəaliyyətinə kölgə salan amillərdən biri də siyasi amillərdir. Misal üçün, insan hüquqları, fikir azadlığı, demokratiya kimi sahələrdə fəaliyyət göstərən QHT-lərin istifadə etdikləri meyarların nə olduğu, monitorinqləri hansı formul əsasında apardıqları və dövlətləri hansı dəyərlər əsasında bu və ya başqa kateqoriyaya aid etdikləri mücərrəd olduğundan, tərtib etdikləri hesabatlar heç də hər kəs tərəfindən birmənalı qarşılanmır və çox zaman qərəzlilikdə ittiham olunurlar. Misal üçün, Belçika Konstitusiya Məhkəməsinin hakimi Jan-Pol Murman öz müsahibəsində Beynəlxalq Amnistiya Təşkilatının verdiyi bəyanatların daha çox reallıqdan kənar olub, həqiqəti əks etdirmədiyini bildirmişdir[1].

Analitiklərin qeyd etdiyinə əsasən, bəzi dövlətlər bilərəkdən QHT-ləri öz maraqları istiqamətində istifadə edir. Belə ki, özlərinin diplomatik norma və prinsiplərə sadiq olduqlarını göstərməyə çalışan bu cür dövlətlər başqa dövlətlər haqqında demək istədiklərini beynəlxalq QHT-lərin dili ilə deyir, beynəlxalq aləmdə onlar haqqında imic formalaşdırır və özlərinin xarici siyasətlərində həmin QHT-lərin hesabatlarına istinad edərək hərəkət edirlər. Bu səbəbdəndir ki, bu sahədə fəaliyyət göstərən beynəlxalq QHT-lərə bir çox ölkələrdə etimad azalmaqdadır.

QHT-lərin adları bəzən müxtəlif qalmaqallarda da hallanmaqdadır. Belə ki, Fransalı tədqiqatçı-jurnalist Silvi Brünel öz araşdırmalarında humanitar sahədə fəaliyyət göstərən QHT-lərin humanitar yardım məqsədilə toplanmış pulların mənimsənilməsində və çirkli pulların yuyulmasındakı fəaliyyətindən ətraflı bəhs edir[2]. Digər tədqiqatçı Aşley Smitə görə isə, təkcə Haitidə baş verən təbii fəlakət zamanı QHT-lər vasitəsilə nəzərdə tutulduğundan başqa istifadələrə sərf olunan pulların məbləği yüz milyonlarla ölçülür[3]. Dəhşətli haldır ki, Qərb mətbuatının verdiyi məlumata görə, Haiti üçün ayrılmış humanitar yardım bu şəkildə paylanıb: hər 1 amerikan dollarının 42 senti fəlakətə yadım, 33 senti ABŞ ordusuna yardım, 9 senti ərzaq,

[1] http://www.sia.az/index.php?action=static_detail&static_id=187405
[2] Sylvie Brunel, Du local au global - Le rôle ambigu des organisations non-gouvernementales (ONG) dans le développement, Historiens & Géographes, n°395
[3] http://www.counterpunch.org/2010/02/24/haiti-and-the-aid-racket/



9 senti ərzağın daşınması, 5 senti Haitidə zərərçəkənlərə kompensasiya, 1 sentdən az məbləği Haiti hökumətinə yardım, yarım senti isə Dominikan hökumətinə yardım üçün sərf olunub[1].

Bu cür təşkilatların ən maraqlı funksiyalarından biri də kadr hərəkətliliyidir. Bilindiyi kimi, QHT-lərin subvensiya və yardım alma hüquqları mövcuddur və buna məhdudiyyət qoyulmur. Bu baxımdan, vəzifədə ikən "özlərini yaxşı aparan" və ya QHT-lərə yaxşı pul qazandıran inzibati-siyasi elita vəzifədən getdikdən sonra o təşkilatlarda "məsləhətçi" vəzifəsinə təyin edilir və olduqca yüksək məbləğdə məvacib alırlar. Nüfuzlu beynəlxalq QHT-lərin idarə heyətinin və məsləhət şurasının tərkibinə nəzər salarsaq, bizə heç də yad olmayan "sabiqlərin" simaları ilə rastlaşa bilərik. Misal üçün, Beynəlxalq Amnistiya Təşkilatının yeni təyin olunmuş icraçı Suzan Nosel ABŞ Dövlət Katibinin sabiq müavinlərindən biridir. Eyni şəkildə, Beynəlxalq Böhran qrupunun sədri Tomas Pikkering (sabiq səfir) və İcra komitəsinin üzvü Morton Abramoviç (Dövlət Katibinin sabiq müavini) də təşkilata gəlmədən əvvəl Dövlət Departamentində fəaliyyət göstərmişdir. Azadlıq Evi təşkilatının İdarə Heyətinin sədri Uilyam Taft isə Müdafiə Katibinin sabiq müavinidir.

Beynəlxalq QHT-lərin əleyhinə ifadə edilən ittihamlardan biri də onların agentlər üçün örtük təşkil etməsidir. Misal üçün, Rusiya Federal Təhlükəsizlik Xidmətinin rəhbəri Nikolay Patruşev qeyd etmişdir ki, İngiltərə və ABŞ beynəlxalq QHT-ləri (xüsusilə də Sülh Korpusu və Beynəlxalq Respublikaçılar İnstitutunu) keçmiş sovet respublikalarında bu məqsədlə istifadə etmişdir[2]. Beynəlxalq QHT-lərin belə missiyası hətta onların rəhbərləri tərəfindən də etiraf olunub. Misal üçün, Demokratiya naminə Beynəlxalq Endoument təşkilatının təsisçisi Alen Veynşteyn 1991-ci ildəki müsahibəsində qeyd etmişdir ki, onların indiki missiyalarının əksəriyyəti 25 il əvvəl Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən həyata keçirilirdi[3].

[1] http://www.huffingtonpost.com/2010/01/27/haiti-government-gets-1-p_n_438938.html
[2] http://www.guardian.co.uk/world/2005/may/13/russia.nickpatonwalsh
[3] William Blum.Rogue State: A Guide to the World's Only Superpower, 3rd ed. (Monroe, ME: Common Courage Press, 2005) p 239

Təbii ki, QHT-lərin beynəlxalq fəaliyyətinin başqa məqsədləri də mövcuddur. Bunun ən bariz nümunəsi isə insan hüquqları və demokratiya devizi altında yürüdülən birbaşa müdaxiləçilikdir. Fransalı tədqiqatçı Mark Antuan Pöruz dö Monklonun araşdırmasına görə, Gürcüstan, Ukrayna və Qırğızıstan kimi ölkələrdə baş verən inqilabların aparıcı qüvvəsi məhz beynəlxalq QHT-lər olmuşdur[1]. Bir çox analitiklər həmçinin "ərəb baharının" da eyni şəkildə beynəlxalq QHT-lərin fəaliyyəti sayəsində baş verdiyini ifadə edirlər. Bu fikir Fransada fəaliyyət göstərən Kəşfiyyat Məsələləri üzrə Fransız Tədqiqat Mərkəzinin direktoru Erik Dönese tərəfindən də təsdiq olunur. O qeyd edir ki, hələ 2007-2008-ci ildən başlayaraq, Azadlıq Evi, Beynəlxalq Respublikaçılar İnstitutu kimi amerikan QHT-ləri bloqerlərə, hərəkat liderlərinə konfranslar, treninqlər təşkil edərək inqilaba hazırlıq işləri görürdülər[2].

Bu yazılanlar onu deməyə əsas verir ki, beynəlxalq Qeyri-Hökumət Təşkilatları kənardan seyr edincə müstəqil fəaliyyət göstərən neytral, milli müstəvidə aid olduğu dövlətin maraqlarını yerinə yetirən, beynəlxalq müstəvidə isə digər ölkələrin dövlətlərinin maraqlarına zidd hərəkət edən təşkilat funksiyalarını yerinə yetirirlər.

**Newtimes.az**
12 aprel 2012

### *1.8. "Beşinci kolonun" əsas maliyyə dayağı – Soros Fondu*

**Yeni dünya nizamının xüsusiyyətləri**

II Dünya Müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində xarici siyasətin metod və taktikalarında ciddi dəyişikliklər baş vermişdir. Uzun əsrlər qlobal güclərin müstəmləkəçilik siyasəti üzərində qurulan siyasi kursun mahiyyəti dəyişməsə də, yeni metodlar tətbiq olunmağa başlanmışdır. Keçmiş imperialistlərin maraqlarını artıq rəsmi dairələrdən daha çox qeyri-hökumət təşkilatları, fondlar, beyin mərkəzləri, media-holdinqlər qoruyurlar. Bütün bu qurumlar Qərbin xarici siyasətinin yeni silahlarıdır.

Taktiki dəyişiklik olaraq isə artıq birbaşa işğal deyil, hədəfdə olan ölkələrin daxilində öz əlaltıları - "beşinci kolon" vasitəsilə hərəkət nəzərdə tutulur. Bu mənada Qərb ölkələri sanki səbəbkarı olduqları dünya müharibələrini, keçmiş müstəmləkəçilik ənənələrini yaddan çıxardıblar. Əvəzində onların "demokratiya və insan haqlarını" bəhanə etməklə bütün dünya üzərində təsir mexanizmi yaratmaq istəkləri müşahidə olunur.

Qərbin yeni dünya siyasəti ölkələr və regionlar üçün fərqli alətlərlə aparılır. Bu yeni dünya nizamı Əfqanıstan və İraq kimi ölkələrdə birbaşa hərbi müdaxilə hesabınadırsa, bəzi ölkələrdə, xüsusilə də post-sovet məkanında vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə həyata keçirilir. Cəmiyyətin transformasiyası layihələri adı altında sapı özündən baltalar öz cəmiyyətlərinə hərbi müdaxilədən də ağır zərbələr vura bilirlər.

ABŞ başda olmaqla Qərb ölkələri "demokratiya və insan haqlarına" əsaslanan dünya sisteminin qurulmasını əsas məqsədləri elan etdikdən sonra yeni mənzərə yaranmışdır. ABŞ üçün demokratiya hansı metodla olursa olsun, ixrac edilməli olan bir məhsul kimi baxılır. Bu zaman isə hədəfdəki ölkələrin milli xüsusiyyətləri, yerli şərait və digər arqumentlər nəzərə alınmır. Nəticədə "demokratiya" adlandırdıqları prinsiplər belə demokratik olmayan metodla - zorla yayılmağa çalışılır. Bu istiqamətdə milli maraqların müdafiəçisi olan dövlətlər Qərbin planlarına uyğun gəlmir. Ona görə də, Qərb fondları, beyin mərkəzləri, siyasi partiyaları, bələdiyyələr və qeyri-hökumət təşkilatları yerli tərəfdaşları ilə qurduqları birbaşa əlaqə hesabına dövlətin kənarda qalmasını istəyirlər. Təhsil, mədəniyyət, incəsənət sahələrinə ayrılan qrantlar hesabına cəmiyyətin milli təfəkkürünü yox edərək, kosmopolit dəyərlər aşılanmağa çalışılır. Bütün bu anti-milli fəaliyyətdə isə onların əsas ümidləri müxtəlif vasitələrlə ələ aldıqları "beşinci kolon" nümayəndələrinədir.

---

[1] http://www.politiqueinternationale.com/revue/read2.php?id_revue=116&id=656&content=texte

[2] http://sos-crise.over-blog.com/article-la-verite-sur-les-revolutions-arabes-tous-floues-role-des-militaires-76414331.html

**"Beşinci kolon"un mühüm donoru – maliyyə möhtəkiri Corc Soros**

Beynəlxalq müstəvidə "beşinci kolon" Qərbin müxtəlif fondları tərəfindən maliyyələşdirilir. Belə maliyyə dayaqlarının ən mühümlərindən biri də Soros fondlarıdır. Biznesdən tutmuş missionerliyə qədər müxtəlif sahələri əhatə edən bu fondların başında Corc Soros dayanır. "Forbes" jurnalının 2012-ci il məlumatına əsasən, o, 20 milyard dollarlıq sərvətə malik olmaqla ABŞ-ın ən varlı 7-ci milyarderidir.

Corc Sorosun "xeyriyyəçilik" missiyası 1979-cu ildə təsis edilmiş Açıq Cəmiyyət İnstitutu ilə başlamışdır. Hazırda bu qurum dünyanın 30-dan çox ölkəsində fəaliyyət göstərir. 2009-cu ildə Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu dünya üzrə bütün proqramlara 683 milyon dollar (OSİ Report 2009) xərcləmişdir. Corc Sorosun yaratdığı bu fondlar "demokratiya və insan haqlarını" əldə bayraq tutan onlarla təşkilatı maliyyələşdirir. Xüsusən Varşava Müqaviləsi Paktı dağıldıqdan sonra bütün inqilab və çevrilişlərdə Sorosun adı hallanır. Gül inqilablarında Soros əsas aktorlardan biridir. ABŞ-ın hökumət olaraq nüfuzunun zəif olduğu əksər regionlarda (İslam ölkələri, post-sovet, sosialist, Cənub-Şərqi Asiya) bu fond ən aktiv rol oynayır.

Ümumilikdə dünyada Corc Sorosun adı daha çox müxtəlif maliyyə fırıldaqlarında hallanır. O, Londonda təhsil alarkən məşhur filosof Karl Popperdən təsirlənərək həyat kredosu olaraq müəyyənləşdirdiyi "açıq cəmiyyət" quruculuğu ideyasını bu fırıldaqları ört-basdır etmək üçün məharətlə istifadə edir. Onun görünməyən himayədarları isə "demokratiya və insan haqları" ruporu olmağı müqabilində Sorosun bütün maliyyə möhtəkirliklərinə şərait yaradırlar.

Sorosun qlobal miqyasda açıq cəmiyyət yaratmaq təşəbbüsü heç də birmənalı qarşılanmır. Onun bu ideyalar altında ölkədaxili təzyiq qrupları yaratmaq niyyəti daha çox vətəndaş cəmiyyətini satın almaq planı kimi qiymətləndirilir.

ABŞ-da belə Sorosun maliyyə imperiyası daim tənqid hədəfindədir. Belə ki, bu məşhur "xeyriyyəçi" ölkədə varlılar üçün daha ağır vergi yükü və fəaliyyətlərinə ciddi nəzarət mexanizmi tələb etdiyi halda, özü daim nəzarətdən yayınmağa çalışır. Onun əsas qazancını təşkil edən şirkətlər ofşorlardır. Corc Soros maliyyə əməliyyatlarını 1969-cu ildə yaratdığı "Quantum Fund NV" vasitəsilə həyata keçirir. Rəsmi olaraq bu şirkət Holland Antil adalarında qeydiyyatdadır və Corc Soros idarə heyətində təmsil olunmur, yalnız investisiya məsləhətçisidir. Bu tip fondlarda səhmdarlar açıqlanmır. "Quantum Fund"un adı dünyanın bütün yerlərində qaranlıq maliyyə əməliyyatlarında hallanır. Qəribə bir paradoks yaranır: "ABŞ-da varlılar üçün daha ağır şərtlər tələb edən birisi müxtəlif yollarla vergidən yayınır və hətta ölkədə vergi qeydiyyatında deyil".



Sorosun maliyyə imperiyası fəaliyyətinə nəzarət güclü olmayan investisiya bankları, ofşor investisiya fondları, hedge fondlar və bu kimi qurumlar üzərində qurulub. Hazırkı qlobal iqtisadi böhranda bu təsisatların müstəsna rolu var və ekspertlər onlara nəzarətlə bağlı yeni mexanizmləri ciddi müzakirə edirlər. ABŞ-da maliyyə bazarının sabitliyinə nəzarətlə bağlı 2010-cu ildə yeni qanun qəbul olunmuşdur (qanun onu hazırlayan konqresmenlər Kris Dodd- Barni Frankın adı ilə adlanır). Maraqlıdır ki, 2012-ci ilin avqust ayından etibarən Dodd-Frank qanununun qüvvəyə minməsini nəzərə alaraq Soros Fondu dərhal öz fəaliyyətində taktiki dəyişiklik etmişdir. Belə ki, Corc Soros bildirmişdir ki, "Soros Fund Management LLC" dövriyyəsində yalnız özünə və ailəsinə məxsus vəsaitləri saxlayacaq, digər şəxslərin sərmayələri isə özlərinə qaytarılacaq. Çünki bu qanuna əsasən həmin tarixdən etibarən ABŞ-da şirkətlər dövriyyədə üçüncü şəxslərin vəsaitini saxlamaqda davam edərsə ABŞ Qiymətli Kağızlar və Birjalar üzrə Federal Komissiyasında (SEC) qeydiyyatdan keçməli və konfidensial məlumatlar da daxil olmaqla mütəmadi olaraq federal hökumət qarşısında hesabat verməlidirlər. Corc Soros isə bunu istəmədi. "Açıq cəmiyyət" qurucusunun şəffaflıqdan çəkinməsi isə dünyada ədalət çarçılarını – nə rəsmi, nə də qeyri hökumət təşkilatlarını bir azca da olsa narahat etmədi. Çünki bu dairələrin əsas maliyyə mənbəyi və idarəedəni elə Soros və onun havadarlarıdır.

**Soros imperiyasının hörümçək toru**

Soros Fondunun əsas fəaliyyət mexanizmi iqtisadi asılılıq üzərində qurulub. Hədəfdə olan ölkələrdə sabitliyi pozmaqla iqtisadiyyatda inkişafın qarşısı alınır. Yaranan durğunluq şəraitində isə

istehsal azalır, işsizlik artır, ölkənin maliyyə resurslarına tələbatı artır. Bu zaman beynəlxalq maliyyə institutları, Qərbin maliyyə möhtərkirləri – investisiya fondları, hedge fondlar dərhal hərəkətə keçərək milli dövlətlərin borclanmasına və asılı duruma düşməsinə səbəb olurlar.

Təsadüfi deyil ki, bütün iqtisadi tərəddüd və böhranlarda Sorosun "Quantum Fond"unun adı hallanır. Sonrakı proseslərin təhlili göstərir ki, Sorosun fondları maliyyə bazarına süni müdaxilələrlə qısa müddətli durğunluq yarada bilir və bu müddətdən istifadə edərək dərhal müxtəlif əməliyyatlar aparaq milyonlarla dollar qazanc əldə edir. 1997-ci il Şərqi Asiya iqtisadi böhranında, 1998-ci il Rusiya iqtisadi böhranında Soros fondlarının əməyi var. Maraqlıdır ki, Soros hətta İngiltərəyə belə rəhm etməmişdir.

Sorosun maliyyə möhtəkirliyi bütün dünyaya məlumdur. Ona görə də avrobondların reallaşdırılması ilə bağlı onun təkliflərinə iqtisadçılar şübhə ilə yanaşırlar. Corc Soros birjada avroya qarşı oynamayacağını bildirsə də heç kəs ona inanmır. Dünya 1992-ci ildə Sorosun funt sterlinqlə bağlı spekulyasiyada bir gündə 1 milyard dollar qazanmasını hələ unutmayıb. 1992-ci ilin sentyabr ayının 16-sı İngiltərə tarixində «Qara çərşənbə» kimi yadda qalmışdır. Sorosun keçirdiyi maliyyə əməliyyatları nəticəsində funt-sterlinqin dəyəri birdən-birə 12 % aşağı düşür ki, bu da Sorosun bir gecədə 1,1 milyard dollardan çox gəlir qazanmasına səbəb olur. Bundan sonra onu «İngiltərə bankını dağıdan şəxs» adlandırmağa başlayırlar. Soros özü isə həmin çərşənbəni «Ağ çərşənbə» adlandırır.

Asiya bazarlarındakı möhtəkirliklərdə də Soros əsas iştirakçıdır. Malayziyanın keçmiş Baş naziri Mahathir Mohamad bildirmişdir ki, 1997-ci il Şərqi Asiya bazarlarının çökməsinə görə "Quantum Fond" da məsuliyyət daşıyır. Onun fikrincə, böhrana qədərki 3 ildə Sorosun fondu Şərqi Asiya fond bazarına və daşınmaz əmlakına qısamüddətli spekulyativ investisiya qoymuşdur. Sonra isə valyutanın ilkin devalvasiya ehtimalında dərhal sataraq bazarda spekulyasiya üçün şərait yaratmışdır.

Dünyanın bir sıra ölkələrində Soros fondlarının fəaliyyəti dayandırılıb və ya məhkəməyə verilib. 2002-ci ildə Paris məhkəməsi Corc Sorosu "Societe Generale" bankı haqqında məxfi məlumatları bilməsindən sui-istifadə edərək onun səhmlərinin alqı-satqısından böyük qazanc götürdüyü üçün 2,2 mln. avro məbləğində cərimələmişdir.

2009-cu ildə Macarıstanın ən böyük bankı "OTP Bank Nyrt"-ın səhmlərinin məqsədli şəkildə dəyərdən düşməsi haqqında spekulyasiya yaradaraq bundan faydalandığı üçün "Soros Fund Management" 2,2 mln. dollar cərimələnmişdir.

Rusiyada da birjada Sorosun möhtəkirliyi ilə bağlı məsələ qalxmışdır. Rus kəşfiyyatı müəyyən etmişdir ki, Soros İsveç və Danimarka derivativləri vasitəsilə Rusiya Fond bazarına hücum etmək niyyətindədir. Məhz bundan sonra Rusiyada qeyri hökumət təşkilatlarının xaricdən maliyyələşdirməsinin qadağan edilməsi ilə bağlı qərar qəbul olundu və Açıq Cəmiyyət İnstitutunun fəaliyyəti məhdudlaşdırıldı.

Belarusda, Özbəkistanda, Türkmənistanda da Açıq Cəmiyyət İnstitutunun fəaliyyəti qadağan olunub.

### Qrant aludəçiləri koramal rolunda

Təcrübə göstərir ki, Soros hər dəfə birjada hansısa valyutanın məzənnəsinə təsir etmək üçün əvvəlcə kütləvi informasiya vasitələri və analitik nəşrlər tərəfindən informasiya hücumu təşkil edir. Məhz bu səbəbdən də Soros fondları bir çox məşhur media qurumlarını və nəşrlərini, beyin mərkəzlərini maliyyələşdirir. Sorosun hədəfə aldığı ölkəyə ilk hücumu informasiya məkanında olur və dünya ictimaiyyətində həmin ölkə haqqında mənfi obraz yaratmağa yönəlir. "Huffungton Post" qəzeti, "Eurasianet" internet nəşri birbaşa Corc Sorosa məxsusdur.

Açıq Cəmiyyət İnstitutu fəaliyyət göstərdiyi ölkələrdə jurnalistlər birliklərini, alimləri, hüquqşünasları, radioları, insan haqları dərnəklərini maliyyələşdirir və ya bu qurumlar üçün mükafatlar təsis edir. Soros qrantının aludəçilərinə çevrilən bu mükafatçılar isə "beşinci kolon"un əsas bazasını təşkil edirlər.

Soros Fondu bir sıra beyin mərkəzlərinin maliyyələşdirilməsində də iştirak edir. Bu beyin mərkəzlərinin arasında Brookings İnstitutu, Amerikanın Gələcəyi naminə İnstitut (İnstitute for America's

Future), Siyasi Tədqiqatlar İnstitutu (Institute for Policy Studies), Xarici Əlaqələr üzrə Avropa Şurasının (European Council on Foreign Relations) adını çəkmək kifayətdir ki, Sorosun təsir imkanlarını qiymətləndirə biləsən. Qeyd etməyə dəyər ki, təkcə Xarici Əlaqələr üzrə Avropa Şurasının Məsləhətçilər Şurasına Corc Sorosla yanaşı Avropa dövlətlərinin 4 keçmiş Prezidenti, 12 keçmiş Baş nazir, 7 hazırkı və 17 keçmiş xarici işlər nazirləri, Avropa İttifaqının 5 keçmiş komissarı, NATO-nun 3 keçmiş Baş katibi daxildir.

Corc Soros Bilderberq klubunun aktiv iştirakçılarındandır. Məlum olduğu kimi, ictimaiyyət üçün bağlı olan bu kluba iştirakçıların üçdə biri hökumət və siyasətçilər, qalanı isə maliyyə, sənaye, təhsil, aparıcı media-holdinqlərin nüfuzlu şəxsləri arasından dəvət olunur. Bilderberq klubunun daimi üzvlüyü mövcud deyil. Hər il idarəedici komitə iclasa yüzə yaxın insan dəvət edir, onlardan hər biri sirri qorumaqla bağlı öhdəlik götürür. Bu klubu bəzən gizli dünya idarəetmə sisteminin əsas mərkəzi hesab edirlər. Corc Soros bu mistik klub vasitəsilə pərdəarxası siyasi proseslərdə iştirak edir, dünyanın siyasi fikrinə təsir edə biləcək təşkilatları dəstəkləyir. Özünün həyat fəlsəfəsini açıq cəmiyyət quruculuğu elan edən birinin qapalı təşkilatlarda fəaliyyəti isə olduqca təzadlı görünür.

Açıq Cəmiyyət İnstitutu bir sıra beynəlxalq QHT-lərin də əsas maliyyə dayağıdır. "Amnesty International", "Human Rights Watch", "Free Press", "Mercy Corps", Beynəlxalq Böhran Qrupu əsas benefisiarlardır.

Açıq Cəmiyyət İnstitutu "Human Rights Watch" təşkilatının birbaşa donorudur. 2011-ci ildə təşkilatın 128 milyon dollarlıq qrant layihələrinin 100 milyonu Soros Fondu tərəfindən maliyyələşdirilmişdir.

Corc Soros Beynəlxalq Böhran Qrupunun İcraedici Komitəsinin 8 üzvündən biridir.

"Freedom House" təşkilatının 80% xərclərini ABŞ rəsmi orqanları - ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və ABŞ İnformasiya Agentliyi (USİA) maliyyələşdirir. Digər mühüm donorlardan biri də "Soros Foundations"dir. "Sərhədsiz Reportyorlar" təşkilatının maliyyələşməsində də Açıq Cəmiyyət İnstitutunun payı var.



Beləliklə, maraqlı mənzərə müşahidə olunur. Aydın olur ki, bütün bu qondarma insan haqları müdafiəçiləri bir mərkəzdən idarə olunur. "Avroviziya" mahnı müsabiqəsi ərəfəsində Azərbaycanın əleyhinə qara piar aparan "Amnesty International", "Human Rights Watch" kimi beynəlxalq təşkilatların Azərbaycana qarşı dezinformasiyalarının başlıca məqsədi Qərbin neoimperialist məqsədlərinə xidmət etməkdir. Corc Soros kimi öz biznes maraqlarını hər şeydən uca tutan birinin havadarlıq etdiyi təşkilatların ədalətsiz mövqeyinin həqiqiliyi isə inandırıcı deyil.

Ümumiyyətlə, Azərbaycanda Açıq Cəmiyyət İnstitutu başda olmaqla xarici donorların qrant ayırdığı layihələr insanda belə təəssürat yaradır ki, bu qrantlar sadəcə qrant vermək xatirinə verilir. Çünki layihələrin əksəriyyəti formaldır, real problemləri əhatə etmir. Azərbaycanda vətənpərvər, hərbi yönümlü QHT-lərin layihələrinə ABŞ və Avropadakı fondların, institutların bir dəfə olsun belə maliyyə ayırmamaları da danılmaz faktdır.

### Səhiyyə sahəsində ayrılan qrantlar narkomaniyaya qarşıdır yoxsa qara piar üçün lazımdır

Heç bir mənəvi dəyərlərə hörmət etməyən Sorosun dünyada insan haqları müdafiəçi təşkilatlarına havadarlıq etməsinin arxasında isə başqa səbəblər dayanır. Corc Soros ABŞ daxilində belə öz maraqları çərçivəsində çıxış edir. Belə ki, o, marixuananın leqallaşdırılması təklifi ilə çıxış edir.

CNN-in məlumatlarına görə, milyarder Kaliforniyada marixuananın leqallaşdırılması üçün referendum keçirilməsinə milyonlarla dollar pul xərcləyib.

Onun fantaziyasına görə, marixuananın leqallaşması və bu sahəyə nəzarət marixuananın yayılması və satışına qarşı aparılan mübarizədə xərclənən böyük həcmdə maliyyə vəsaitinə qənaət etməyə imkan verəcək. San Fransiskoda "Tayds Fondu" Soros Fondundan narkomanlara pulsuz şpris paylanması üçün 1 milyon vəsait ala bilib. Narkotiklərin qanuniləşdirilməsi tərəfdarı olan güclü təsir edici dərman vasitələri sahəsində siyasət fonduna (DPF) 15 mln. dollar

ayırıb. Sorosun dəstəklədiyi "Human Rights Watch" təşkilatı ABŞ-ın narkotik maddələr istehsalı bəhanəsi ilə Kolumbiyanın daxili işlərinə qarışmasına qarşı çıxış edir. Göründüyü kimi insan haqları yalnız lazım olanda yada düşür. Narkotika kimi bəşəriyyətin bəlasını müdafiə edənlər dünyaya azadlıq dərsi keçməyə cəhd edirlər.

Əslində Sorosun bu narkotika sevdasının qərəzini Azərbaycan da öz üzərində görmüşdür. Belə ki, ABŞ Dövlət Departamentinin 2010-cu il hesabatında Azərbaycanda 33 000 narkoman tələbə olması ilə bağlı yanlış məlumatda Açıq Cəmiyyət İnstitutunun əməyi var. Bu hesabat "beşinci kolon" nümayəndələrinin aldığı qrant qarşılığında yalan məlumatlarına əsaslanmışdır. Açıq Cəmiyyət İnstitutunun Azərbaycanda reproduktiv sağlamlığın təbliği adı altında maliyyələşdirdiyi layihələr kağızda narkomaniya, HİV, AİDS-ə yoluxmuş insanlarla iş nəzərdə tutur. Reallıqda isə ayrılan qrantın əvəzini vermək üçün narkomanların sayının şişirdilməsindən başqa bir mahiyyət daşımır. Bu layihənin benefisiarı olan yerli QHT sədrlərindən birinin Azərbaycanda 33 000 narkoman tələbə və bunlardan çoxunun qız olmasını bildirməsi Dövlət Departamentinin hesabatında statistik göstərici kimi qeydə alınıb. Beləliklə, demokratiya və insan haqları bayraqdarları olan beynəlxalq QHT-lər, onların havadarları və qranta görə bütün milli-mənəvi dəyərləri ayaq altına salmağa hazır olan "beşinci kolon" nümayəndələrinin Azərbaycan əleyhinə işbirliyi müstəqil siyasətə və milli dəyərlərə qarşı yönəlmişdir. Bu üçlüyü tamamlayan digər bir halqa isə erməni diasporudur. Sorosun tərəfdaşlarının timsalında bu fakt açıq-aydın görünür.

### Azərbaycan əleyhinə koalisiyada – beynəlxalq QHT-lər, bu QHT-lərin arxasında dayananlar, "beşinci kolon" və erməni diasporu kvarteti

Qərbin müxtəlif fondlarının insan haqları bəhanəsi ilə Azərbaycana hücumunda erməni izləri də dərhal görünür. Məlumdur ki, Soros Fondu onunla eyni mərkəzdən idarə olunan digər beynəlxalq QHT-



lər, fondlar, beyin mərkəzləri ilə sıx əməkdaşlıq edir. Bu həmin qurumların daxil olduqları ölkədə manevr imkanlarını genişləndirir. Belə ki, milli dövlətlərin etirazı ilə qarşılaşdıqda bu təşkilatlar dərhal öz funksiyasını digərinə təhvil verir, özü həmin ölkədə arxa plana keçsə də vahid məqsəd istiqamətində aparılan işlər davam etdirilir. Ölkədə xarici havadarlar dəstəsinə qarşı şübhələr səsləndikdə isə bunu demokratik prinsiplərin pozulması kimi dünya ictimaiyyətinə təqdim edirlər.

Açıq Cəmiyyət İnstitutunun əsas tərəfdaşlarından biri də "Karnegi Korporasiyası"dır. Bu iki təşkilat bir çox sahələrdə, xüsusilə xarici ölkələrdə demokratik islahat tələbləri sahəsində əməkdaşlıq edir. Onların əməkdaşlığının əyani təsdiqi Açıq Cəmiyyət İnstitutu və "Karnegi Korporasiyası"nın Beynəlxalq Böhran Qrupunun iki ən mühüm donoru olmasında görünür. Karnegi Korporasiyasının Prezidenti isə İran erməni̇si Vartan Gregoriandır.

Təbrizdə doğulan bu erməni Fransanın Təbrizdə həmin dövr vitse-konsulu olan Edgar Maloyan tərəfindən 1948-ci ildə Livanda təhsil almaq üçün Beyruta göndərilmişdir. Maraqlıdır ki, Wikipediya məlumatlarına əsasən Vartan Gregorian Livana göndəriləndə fransız konsul ona 3 məktub vermişdi: biri Livan Daxili Təhlükəsizlik Agentliyinə, biri erməni kollecinə və üçüncüsü qalacağı otelə. Livanda "Erməni Yardım Cəmiyyəti" onun yaşamasını və təhsilini öz üzərinə götürmüş və diasporun xeyir-duası ilə ABŞ-a yollanmışdır. Bu işdə onun əsas himayədarı Ermənistan Demokratik Respublikasının baş naziri (1920-ci ildə) olmuş daşnak Simon Vraçyan olmuşdur. Vartan Gregorian hazırda ABŞ-da erməni diasporunun ən aktiv üzvlərindən biridir. ABŞ Prezidentləri Bill Klinton (National Humanities Medal) və Corc Buş (Presidential Medal of Freedom) onu medalla təltif etmişlər.

Karnegi Korporasiyasının İdarə Heyətində təmsil olunan digər bir erməni isə Edward P.Djerejiandır. ABŞ-ın İsrail (1993-1994) və Suriyada (1988-1991) səfiri, Dövlət Katibinin Yaxın Şərq və Cənubi Asiya məsələləri üzrə köməkçisi (1991-1993) olmuş bu şəxs isə erməni diasporunun Dövlət Departamentində maraqlarını qoruyanlardandır.

Beləliklə, Livanda daşnak mühitində tərbiyə edilən, xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən və ABŞ rəsmilərinə yol tapan erməni diaspor nümayəndələrinin müxtəlif təşkilatlar vasitəsilə Azərbaycanda "beşinci kolon" nümayəndələri ilə eyni məqsədlərə xidmət edirlər.

**Sorosun Türkiyədə "beşinci kolon"unun da əsas hədəflərindən biri Azərbaycandır**

Sorosun milli-mənəvi dəyərlərə düşmən olmasını Qərb mətbuatı da təsdiq edir. 2010-cu ildə "Washington Post" qəzetində iddia edilmişdir ki, Sorosun fikrincə din, milli maraqlar, ailə relikt institutlardır və onları aradan qaldırmaq lazımdır[1]. Bu baxımdan da Sorosun insan haqları təşkilatlarının əsas hədəfi milli mentalitetə yönəlmişdir. Fikrimizcə, ailə dəyərlərinin son illər dəyişikliyə məruz qalmasında da Qərbdə maraqlı qüvvələr var və onlar daha çox televiziya və internet vasitəsilə sadə insanlara təsir imkanlarına malikdirlər. Azərbaycanın milli teleməkanında xarici serialların dayandırılmasına qarşı çıxanlar da bu dəyirmana su tökənlərdir.

Qərbin bəzi dairələrinin Azərbaycan cəmiyyətinə türk serialları vasitəsilə təsir etmək planları isə heç kəsə sirr deyil. Sorosun maliyyə dəstəyi ilə yaradılan Türk İqtisadi və Sosial Tədqiqatlar Fondu (TESEV) və Avrasiya Əməkdaşlıq Fondunun 2012-ci ilin mart ayında Tiflisdə keçirdiyi tədbirdə türk seriallarının Azərbaycana təsir etmək planları müzakirə olunmuşdur. Avropa İttifaqının Cənubi Qafqaz üzrə sabiq xüsusi nümayəndəsi Piter Semnebi, ABŞ-ın Gürcüstandakı keçmiş səfiri Kenneth Yalovitz, Beynəlxalq Böhran Qrupunun Avropa proqramının direktoru Sabina Freyzerin qatıldığı tədbirdə türk seriallarının Azərbaycan-Ermənistan münasibətlərində Azərbaycanı sülhə yönləndirmək üçün istifadə edilə biləcəyi bir tələb olaraq ortaya qoyulmuşdur[2].

[1] By Jeffrey T. Kuhner The Soros empire October 28, 2010http://www.washingtontimes.com/news/2010/oct/28/the-soros-empire/?page=all

[2] Pınar Ersoy Türkiye Kafkaslar'ı unuttu mu? 11 Mart 2012. Milliyet.com.tr http://dunya.milliyet.com.tr/turkiye-kafkaslar-i-unuttu-mu-/dunya/dunyadetay/11.03.2012/1513824/default.htm



Ümumiyyətlə Soros Fondu Türkiyədə "beşinci kolon"un yaradılmasında daha mütəşəkkil hərəkət edir. Maraqlıdır ki, hətta Türkiyədə belə Soros uşaqlarının əsas hədəflərindən biri yenə də Azərbaycandır. Soros Fondu Türkiyənin Ermənistanla münasibətlərinin normallaşdırılmasının əsas havadarlarından biridir. Sorosun maliyyə dəstəyi ilə yaradılan TESEV vasitəsilə türk cəmiyyətinə "demokratik açılım" adı ilə türk-erməni, türk-kürd münasibətləri ilə bağlı milli maraqlara uyğun gəlməyən təşəbbüslər təqdim edilir.

Sorosun Türkiyədəki "beşinci kolonu" ilə bağlı xüsusi bir məqam da diqqətimizi cəlb etmişdir. Qərbin Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması və Azərbaycanın bu prosesdən kənar tutulması Açıq Cəmiyyət İnstitutunun birbaşa maliyyələşdirdiyi TESEV və müxtəlif qrantlar yedirtdiyi Türkiyə İqtisadi Siyasət Tədqiqatları Vəqfi (TEPAV) tərəfindən aparılır. Bu qurumlar irəli sürdükləri müxtəlif layihələrlə Azərbaycan cəmiyyətinin qeyd olunan prosesə sərt reaksiyasını yumşaltmağa çalışırlar.

Corc Soros Türkiyə-Ermənistan yaxınlaşmasına şəxsi töhfəsini verməyə də çalışmışdır. Sorosun maliyyələşdirdiyi Avropa Tələbələr Forumu (AEGEE) 9-14 oktyabr 2009-cu ildə Türkiyədəki yeganə erməni kəndində (Vakıflı, Hatay) erməni və türk tələbələrin lageri təşkil etmiş və bu tələbələri Türkiyə-Ermənistan arasında futbol oyununa yollamışdır.

Sorosun Türkiyə planları milli maraqlara zərbə üzərindən qurulub. Açıq Cəmiyyət İnstitutu "TESEV", "Açık Radyo", "Tarix Vəqfi", "Helsinki Vətəndaş Assambleyası", "İnsan Haqları Dərnəyi" "Avropa Hərəkatı" kimi təşkilatlara maliyyə dəstəyi verir. Bilgi, Boğaziçi, Sabancı Universitetləri də bu siyahıdadır.

Corc Sorosun təhsil müəssisələrinə nə qədər əhəmiyyət verdiyi onun Sabancı Universitetinin açılışı ilə əlaqədar söylədiyi bu sözlər təsdiq edir: "Mərkəzi Avropa Universiteti Şərq blokunun dağılmasında mühüm rol oynadı. Türkiyədə də köklü dəyişikliklər və islahatlar üçün bu universitetə çox iş düşəcək".

Aparılan müşahidələr göstərir ki, Türkiyədə erməni təəssübkeşləri eyni bir dairənin üzvlərinin təsiri altında formalaşırlar. Sorosun Türkiyədəki "beşinci kolon"unun üzvləri olan yuxarıda adı çəkilən

təşkilatların nümayəndələri eyni zamanda "Ermənilərdən üzr istəyirik" kompaniyasının iştirakçılarıdır. Türkiyədə demokratik açılım adı altında ölkənin bölünməsinə çalışanlar, Türkiyə-Ermənistan yaxınlaşması uğrunda əsas aktorlar da məhz bu qüvvələrdir. Lakin Corc Soros və onun hamiləri Türkiyədəki "beşinci kolon" vasitəsilə Azərbaycanla bağlı planlar qurarkən nəzərə almayıblar ki, Azərbaycan və Türkiyə "bir millət iki dövlətdir". Heç bir xarici qüvvə bu prinsipi pozmaq iqtidarında deyil.

Beləliklə, regionda müstəqil xarici siyasət yeridən Azərbaycan Qərbin müxtəlif siyasi fondlarının, beynəlxalq QHT-lərin, onların "beşinci kolon"unun nümayəndələrinin və erməni diasporunun birgə anti-təbliğatı ilə üz-üzədir. Əlverişli geosiyasi mövqeyi, Şərq-Qərb, Şimal-Cənub dəhlizlərinin üzərində yerləşməsi, müxtəlif sivilizasiyalar və dinlər arasında körpü rolunu oynaması, enerji bazarının mühüm iştirakçısı olması Azərbaycanı müxtəlif maraqların toqquşduğu bir məkana çevirir. Müstəqil xarici siyasət və uğurlu inkişaf strategiyası isə regionda maraqlı olan bir çox qüvvələrin planlarına uyğun gəlmir. Bu qüvvələr həm xaricdən müxtəlif fondlar, QHT-lər, mətbuat orqanları vasitəsilə, həm də daxildən qrantlar hesabına formalaşdırdıqları "beşinci kolon" vasitəsilə Azərbaycana təzyiq etməyə çalışırlar. Lakin hər keçən gün daha da güclənən Azərbaycanın inkişafı və dünyada qazandığı siyasi mövqe bu təxribatçılara qarşı ən tutarlı cavabdır.

**Ərəstü Həbibbəyli,**
***iqtisad üzrə fəlsəfə doktoru***
13-14 iyun 2012

### *1.9. Alman siyasi fondları – "demokratiya" təəssübkeşləri*

**Alman siyasi fondlarının iç üzü**

Dünya hər zaman güclülərin mübarizə meydanı olmuşdur. Tarixin böyük bir hissəsində bu mübarizə daha çox müharibələrlə nəticələnmişdir. Lakin XX əsrdən başlayaraq nüfuz mübarizəsinin başqa bir müstəviyə keçməsi müşahidə olunur. Xüsusən də II Dünya müharibəsindən sonra əksər keçmiş imperiyalar ayrı-ayrı regionlarda öz maraqlarını qorumaq üçün siyasi təsir vasitələrindən istifadə etməyə başlamışlar. Bu vasitə isə gah xarici yardım, gah demokratiya, insan hüquqları tələbi formasında özünü göstərməkdədir. Bütün hallarda görünən odur ki, maraqlı qüvvələrin xarici yardımları da, demokratikləşmə tələbləri də öz ambisiyalarına xidmətdən savayı bir şey deyil.



Avropanın köklü dövlətlərindən biri olan Almaniyada bu missiya alman siyasi fondlarının üzərinə düşür. Almaniyada bu fondlar siyasi partiyalarla birbaşa bağlıdır. Bundestaqda bir çağırışdan çox təmsil olunan hər bir partiyanın ictimai-siyasi fond (stiftung) yaratmaq hüququ var. Alman cəmiyyətində nüfuz sahibi olan hər bir partiyaya yaxın siyasi fond fəaliyyət göstərir. Belə ki, Konrad Adenauer Fondu Xristian-Demokrat İttifaqına, Fridrix Ebert Fondu Sosial-Demokrat Partiyasına, Henrix Böll Fondu Yaşıllar Partiyasına, Fridrix Nauman Fondu Azad Demokrat Partiyasına, Hans Zaydel Fondu Xristian-Sosialist İttifaqına, Roza Lüksemburq Fondu Sol Partiyaya yaxınlığı ilə tanınır. Almaniyanın hazırkı kansleri Anqela Merkel Konrad Adenauer Fondunun Direktorlar Şurasının üzvüdür.

1925-ci ildə yaradılan Fridrix Ebert Fondu istisna olmaqla digər alman siyasi fondları II Dünya müharibəsindən sonra təsis olunmuşlar. Onların başlıca məqsədləri faşizmdən yeni qurtarmış Almaniyanın demokratikləşmə ehtiyacını ödəmək və ölkənin imicini bərpa etmək olub. Yalnız sonralar bu fondlar öz istiqamətlərini beynəlxalq arenaya yönəltdilər. Fondların yeni məqsədləri sırasına xarici ölkələrdə demokratik siyasi və sosial strukturların gücləndirilməsi, azadlıq, sülh, ədalət prinsiplərinə riayət olunması, Avropanın inteqrasiyası, transatlantik münasibətlərin möhkəmləndirilməsinə töhfə vermək kimi prinsiplər əlavə olundu. Bütün bunlar məsələnin görünən tərəfi.

Siyasi tədqiqatçı Michael Pinto-Duschinsky alman xarici siyasətinin mühüm alətlərindən olan fondların pərdəarxası məqsədləri haqqında yazır: "Fondlar və onların xaricdəki nümayəndəlikləri xarici ölkələrdə müxalifət liderləri ilə əlaqə yaratmaq və dost ola bilmək iqtidarındadırlar. Çünki mövcud hakimiyyətlərin narazılıq etməsindən ehtiyat edən diplomatların belə imkanı yoxdur. Onlar xaricdə mühacirətdə olan siyasətçilərə yardım göstərirlər. Fond-

lar yardım göstərdikləri xarici ölkələrdə müxtəlif siyasi qüvvələri dəstəkləyirlər. Əksər hallarda hər fondun öz ölkəsi müəyyən olunur və ya eyni ölkədə fondlardan hər biri müxtəlif siyasi qüvvələri dəstəkləyirlər. Bununla da ümid edirlər ki, hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq onlara yaxın tərəf olsun[1, 2].

**Hədəfdə hansı ölkələr var: Türkiyə, Misir, Liviya, Ukrayna...**

Alman siyasi fondlarının beynəlxalq arenadakı fəaliyyəti deyilənləri bir daha təsdiq edir. Müxtəlif vaxtlarda, ayrı-ayrı ölkələrdə bu fondların fəaliyyəti ilə bağlı haqlı narazılıqlar yaranmışdır. Misal üçün, Türkiyədə 2002-ci ildə Konrad Adenauer Fondunun fəaliyyəti ilə bağlı narazılıq fondların məhkəməyə verilməsinə gətirib çıxarmışdır. Fondun əməkdaşları türk dövlətçiliyinə qarşı əməllərdə günahlandırılırdılar. İddialara görə Türkiyənin Berqam şəhərində qızıl yataqlarının işlədilməsinə maneə törətməyə çalışırdılar və buna görə ekoloqların köməyi ilə bu layihəyə qarşı etiraz nümayişləri təşkil edirdilər.

Türk mediasında böyük sərmayələri olan alman fondlarının əhalini provokasiya etməsi iddiaları səsləndi. Məhkəmə bəraətlə nəticələnsə də münasibətlərdə öz izini qoya bildi. Digər alman fondları da Türkiyəyə əsas tərəfdaşları olan Qəzetçilər Birliyi vasitəsilə təzyiqlər göstərməyə çalışırlar. Konrad Adenauer Fondu kürdlərin məskunlaşdığı ərazilərdə bələdiyyələrə dəstək verməkdə, Henrix Bell Fondu isə qadın problemləri araşdıran layihələrdə (müxalif kürd qadın liderlər əsas tərəfdaş olaraq) iştirak edirlər. 2011-ci ildə Türkiyənin Baş naziri alman fondlarını PKK təşkilatına dəstək verməkdə günahlandırdı.

Məsələnin maraqlı görünən bir tərəfi də var ki, Konrad Adenauer Fondu, Fridrix Eber Fondu, Fridrix Nauman Fondu, Henrix Böll Fondu və Alman Şərq İnstitutu Türkiyənin Avropa İttifaqına üzvlüyünü dəstəkləyirlər. Yəni bir tərəfdən Türkiyədə separatizmə dəstək verir, digər tərəfdən isə Avropa yolunda ölkəni müdafiə etmək görüntüsü yaratmağa çalışırlar.

---

1 Michael Pinto-Duschinsky. Foreign Political Aid: The German Political Foundations and Their US Counterparts.

2. Royal Institute of International Affairs. p. 45 http://www.jstor.org/discover/10.2307/26 21218?uid=3737560&uid=2129&uid=2&uid=70&uid=4&sid=47698997975447.



2010-cu ilin iyun ayında Konrad Adenauer Fondunun Ukraynadakı nümayəndəliyinin rəhbəri Niko Lanqenin hava limanından ölkəyə buraxılmaması ilə bağlı bir qalmaqal olmuşdu. Alman hökumətinin birbaşa müdaxiləsindən sonra insident sakitləşsə də, bu hadisənin Ukrayna-Almaniya münasibətlərində günümüzdə baş verən nəticələrini görə bilirik. Qeyri-rəsmi məlumatlara görə Fondun nümayəndəsi ölkənin daxili işlərinə qarışmaqda, müxalifət liderləri ilə gizli sövdələşmədə və casusluqda şübhəli bilinirdi.

Misirdə alman fondları əsasən gənclərə yönəlmiş və demokratiya, qadın hüquqları sahəsində layihələrə diqqət ayırırlar. 2011-ci ilin dekabrında Misirdə daxili sabitliyi pozmaq, ölkəni parçalamaq, hakimiyyəti devirmək ittihamları ilə bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının əməkdaşları tutulmuşdur.

Həbs olunanlar arasında ABŞ-ın Beynəlxalq Respublika İnstitutu, Milli Demokratiya İnstitutu, Jurnalistlər üçün Beynəlxalq Mərkəz, "Freedom House"-la yanaşı Almaniyanın Konrad Adenauer Fondunun da əməkdaşları olmuşdur. Bu beynəlxalq QHT-lər misirlilər arasında agent şəbəkəsi yaratmaq, dini toqquşmaları qızışdırmaq, xarici kəşfiyyat orqanlarına xidmət etməkdə şübhəli bilinirlər. Məhkəmə prosesi zamanı ABŞ və Almaniya rəsmiləri Misir rəhbərliyinə təzyiqlər göstərirdi. Xüsusən də Misirə xarici yardım gündəliyə gətirilmişdi. Nəticədə ittiham olunanların əksəriyyəti sərbəst buraxıldı və ölkəni tərk etdi. Digər bir insident Birləşmiş Ərəb Əmirliklərində baş vermişdir. 2012-ci ildə BƏƏ rəsmiləri ölkədəki Konrad Adenauer Fondunun nümayəndəliyinin fəaliyyətini dayandırdılar.

Alman fondları fəaliyyətlərinin əsas istiqamətlərindən bir demokratik islam tədqiqat layihələridir. Əsl mahiyyəti xristian dəyərlərinin təbliği olan bu qurumlar islam ölkələrinə demokratik islam adı altında öz dəyərlərini sırımağa çalışırlar.

**Geosiyasi aktor olmaq iddiası**

Rusiyada və hətta Qərbin özündə bir sıra analitiklər hesab edirlər ki, Almaniya Qərbdə statusunu gücləndirmək yönündə kurs götürmüşdür. Almaniya yeni qurulmaqda olan dünyada daha güclü mövqe qazanmağı hədəfləyir. Bunu Şimali Afrikadakı proseslərdə, eləcə

də Avropanın öz daxilində maliyyə böhranına münasibətdə, hətta Almaniya-NATO əməkdaşlığında da asanlıqla görmək mümkündür. Avro məkanında Almaniya əsas donor və söz sahibi kimi çıxış edir. Cənubi Qafqaz, Mərkəzi Asiya regionları da almanların maraq dairəsindədir.

Alman federal hökuməti aparıcı ekspertlərin daxil olduğu "Şimali Afrikanın transformasiya komandası" yaratmışdır və Yaxın Şərq proseslərində özünü Qərbin əsas məsləhətçisi rolunda görür. Burda da alman siyasi fondları əsas alət olmalıdırlar. Cari ilin 7-9 yanvar tarixlərində Şimali Afrikanın 3 ölkəsinə (Əlcəzair, Liviya, Tunis) səfər edən Almaniyanın xarici işlər naziri Qido Vestervelle bu ölkələrdə alman siyasi fondlarının fəaliyyətinə icazə verilməsi və ya gücləndirməsi məsələlərini qaldırmışdır.

Digər bir tərəfdən Almaniya Avropanın enerji bazarında aparıcı söz sahibidir. Rusiyadan Avropaya əsas qaz marşrutlarından biri "Şimal axını" Almaniya vasitəsilə digər ölkələrə ötürülür. Almaniya digər istiqamətlərdən daxil olan karbohidrogen resursların nəqlində də üstün mövqe qazanmağa çalışır. Bu mənada Almaniyanın RWE şirkəti Nabukko layihəsinin əsas ideya müəlliflərindəndir. Son zamanlar bu istiqamətdə işlərin müəyyən mənada ümidləri doğrultmamağının Almaniyadakı bəzi dairələrin Azərbaycan əleyhinə kompaniyaya qoşulmasına rəvac verdiyini ehtimal etmək olar. Azərbaycan qazının Avropaya digər marşrutlarla çıxarılması yəqin ki kimlərisə qane etmir.

Beləliklə, real siyasi mənzərə onu göstərir ki, alman siyasi fondları öz fəaliyyətlərini daha çox Almaniyanın iqtisadi maraqlarını dəstəkləməyə yönəldirlər. Almaniya III minilliyin dünya səhnəsinə ilk növbədə iqtisadi güc kimi qayıtmağı hədəfləyir. Bu zaman isə bu fondlar bütün vasitələrə əl atırlar. Hətta lazım gələrsə hər hansı bir ölkəyə qarşı qara piardan tutmuş görüntü xarakterli demokratik tələblərədək bütün metodlar istifadə olunur. Təəssüf ki, II dünya müharibəsindən sonra da dünya bu oyunçuların müxtəlif ölkələrdə oyunlarını izləməkdə davam edir.

**Newtimes.az**
14 may 2012



### *1.10. Qeyri-hökumət təşkilatları suveren dövlətin və cəmiyyətdə sabitliyin lehinə, yoxsa əleyhinədirlər*

Son onilliklər ərzində çoxalan müxtəlif məzmunlu və istiqamətli beynəlxalq və milli qeyri-hökumət təşkilatları həm beynəlxalq miqyasda, həm də dövlətlərin daxilində getdikcə daha əhəmiyyətli rol oynamağa başlayırlar. Artıq çoxdan sirr deyildir ki, onlar yerləşdikləri dövlətlərin və cəmiyyətlərin zəifləməsində maraqlı olan müxtəlif hökumət strukturları, o cümlədən xüsusi xidmət idarələri tərəfindən əliaçıqlıqla maliyyələşdirilir, bacarıqla nəzarətdə saxlanılır və istiqamətləndirilirlər.

Yerli müxalifət QHT-lərinə gəldikdə isə onlar, əsasən, açıq siyasi mübarizədə artıq çoxdan və tam şəkildə məğlub olmuş primitiv siyasətbazların son sığınacağına çevrilmişlər. Bu səbəbdən onlar Azərbaycan Respublikasının siyasi, iqtisadi və mədəni həyatında, o cümlədən ölkədə demokratikləşmə və vətəndaş cəmiyyətinin formalaşması prosesində bütün dünyanın diqqətini çəkən əhəmiyyətli uğurları görməyən "Amnesty International", "Freedom House", "Human Rights Watch" və digər bu kimi beynəlxalq QHT-lərin müttəfiqinə çevrilir.

Belə təəssürat yaranır ki, ölkənin bütün Cənubi Qafqazda şəksiz liderə çevrilməsi bəzi xarici və yerli müxalifət QTH-lərini qıcıqlandırır. Hər şey, əsasən, artıq çeynənmiş "problemlər" – "ədalətsiz seçkilər", "siyasi məhbuslar", "hakimiyyətin antidemokratik fəaliyyəti", "hakimiyyətin korrupsiyalılığı" və s. ətrafında dövr edir. Bütün bunlar yerli QHT-lər tərəfindən həvəslə və vəcdlə qəbul edilir və yayılır.

Azərbaycanın mümkün qədər xoşagəlməz simada təqdim edilməsinə, bu ilin mayında Bakıda keçiriləcək "Eurovision – 2012" müsabiqəsi kimi mötəbər beynəlxalq tədbirlərin pozulmasına və bütövlükdə Azərbaycanın dünya arenasında mümkün qədər miskin şəkildə görünməsinə yönəldilmiş və ehtimal ki, bəzi yerli QHT-lər tərəfindən ortaya atılan mənbəyi bilinməyən "reytinqlər" və "statistik məlumatlar" çox şübhəli şəkildə mütəmadi olaraq dərc olunur.

Bəzi yerli müxalifət QHT-lərinin taktikası yetərincə primitivdir: "Nə qədər pis olsa, o qədər yaxşıdır". Onların işi bundan ibarətdir ki, əcnəbi silahdaşlarının köməyi ilə ölkənin imicini beynəlxalq aləmdə pozsunlar, Azərbaycan Ermənistanla qarşıdurmada xeyli zəifləsin. Qarabağ problemi isə onları cəmiyyətin qətiyyətlə birləşməsini tələb edən ümummilli problem kimi deyil, hakimiyyət uğrunda mübarizənin özünəməxsus siyasi aləti kimi maraqlandırır.

Ölkədə elə bir siyasi hadisə, o cümlədən bəzi xarici siyasi dairələri bu və ya digər dərəcədə razı salan prezident və parlament seçkiləri baş vermir ki, onların gözdən salınması məqsədilə sifarişli qərəzli kampaniyalar həyata keçirilməsin. Bu da təəccüblü deyildir. Artıq dünyada siyasi mübarizə təcrübəsində belə bir tezis aksiomaya çevrilmişdir – "Kim haqq ödəyirsə, o da musiqi sifariş edir".

Ölkənin faktiki olaraq müharibə vəziyyətində yaşadığı və ərazisinin bir hissəsi təcavüzkar qonşusu tərəfindən işğal edildiyi bir şəraitdə hər hansı QHT-nin onun zəifləməsinə yönəldilmiş istənilən fəaliyyəti təkcə əxlaqsızlıq deyil, həm də siyasi məkrdir.

**Newtimes.az**
8 may 2012

### *1.11. Media reallığı: fəlsəfi və siyasi məqamlar*

Müasir dövr üçün fəlsəfi kontekstdə medianın mahiyyətini və funksional rolunu anlamaq üçün fəlsəfə tarixindən bir rəvayəti xatırlamaq yerində olar. Belə ki, bir gün dostu əlində yeni çıxan qəzet Fridrix Nitşenin yanına gəlir. Dostu ona qəzeti uzadaraq bu yeni ixtira haqqında fikrini söyləməsini xahiş edir. Nitşe öz növbəsində qəzeti gözdən keçirir və bir neçə dəqiqədən sonra dostuna üzünü tutaraq qəzet barəsində belə bir fikir söyləyir: "həqiqət öldü".

Ümumiyyətlə, Nitşenin fəlsəfi düşüncəsini daha dərindən analiz etmək bu məqalənin çərçivəsini aşmaqdadır. Ancaq məhz bu ifadə vasitəsi ilə qəzet timsalında nəyə görə Nitşenin belə bir qənaətə gəldiyinə dair bəzi məqamları izah edə bilərik. Məhz Qərb düşüncəsində XVII



əsrdən etibarən Rene Dekartla yeni dünyagörüşünün əsasları müəyyən edildi. Qısaca olaraq bu fəlsəfi baxış tərzi düşüncəni, varlığın önünə çıxararaq düşünüldüyü təqdirdə insanın var olduğunu iddia etdi. Halbuki klassik varlıq anlayışına görə varlıq, düşüncənin əsasını təşkil edir və var olma nəticəsində insan düşünməkdədir.

Məhz bu və ya digər aspektlərdən XVII əsrdə əsasları müəyyən edilən bu dünyagörüşünə qarşı daha sonrakı əsrlərdə etirazlar başladı. Ciddi olaraq qəbul edəcəyimiz etirazlardan birini də Fridrix Nitşe etdi. O, bu mənada varlığı unutduran düşüncənin nəticəsi olaraq güc, qüvvət məfhumunu ortaya atdı və hər şeyin artıq gücə xidmət edəcəyini iddia etdi. Məhz onun fəlsəfi sistemi güc istəyi olaraq bilinməkdədir. Bu kontekstdə Nitşenin nəyə görə qəzetin yeni ixtira olunması barəsində dediyi "həqiqət öldü" fikrini anlamaq mümkündür. Nəticədə daha dərindən həqiqət məqamları ilə məşğul olan ciddi bir filosof olaraq Nitşe üçün gündəlik hadisələr və xəbərlərə dair məlumatlarla məşğul olmaq absurd idi. O, bunu eyni zamanda başqa bir məşhur kəlamı ilə də vurğulanmışdı - "Tanrı öldü". XX əsrin məşhur filosofu Martin Haydigger də bu sözü şərh edərkən Nitşenin həqiqətin və ya Tanrının ölümündə insanları günahlandırdığını və universal dəyərlərin insanlar tərəfindən öldürüldüyünü ifadə etməsi də bu çərçivədə anlaşılmalıdır[1].

Ancaq müasir dövrdə medianın funksionallığının artması aktuallıq kəsb etməklə bərabər reallığı da əks etdirir. Bu mənada müasir dövrdə media, dünya sistemində özünəməxsus yer tutmaqdadır. Artıq modern fəlsəfədə də tək həqiqət deyil, müxtəlif varlıq sferalarını əks etdirən həqiqətlər anlayışı mövcuddur. Bu mənada məşhur filosof Karl Popperin 3-lü dünya sistemi anlayışı fəlsəfi cəhətdən medianın mahiyyətini və funksional rolunu izah etməyimiz baxımından əhəmiyyət kəsb edir. Belə ki, Popper bu sistem anlayışında birincinin fiziki, yəni maddi dünyanı, ikincinin psixoloji vəziyyətimizi, üçüncünün isə konkret yazı növləri (məqalə, kitab, qəzet və s.) ilə ifadə etdiyimiz fikirləri göstərdiyini iddia edir. Məhz bu üçüncü səviyyə

[1] Martin Haydigger, Nitzshe`nin Tanrı Öldü Sözü ve Dünya Resimleri Çağı, Asa nəşr., 2011.

obyektiv olaraq hər zaman tənqidə məruz qala bilər[1]. Nəticədə medianın mahiyyətini və funksional rolunu bu üçüncü səviyyədə anlamaq mümkündür.

Digər tərəfdən klassik etika fəlsəfəsinin mövzularından fərqli olaraq modern etik düşüncədə tətbiqi etika sahəsinə daxil olan media etikasından bəhs olunmaqdadır. Media etikası və jurnalistin etik kodekslərə əməl etmə məsələsi modern fəlsəfədə aktuallıq kəsb edir. Bu baxımdan media etikası ilə bağlı etik problemlər sadəcə media işçilərinə deyil, eyni zamanda demokratik bir cəmiyyətdə bütün vətəndaşlarla bağlıdır. Məhz mediada plüralizmin olması buna işarə edir. Nəticədə sərbəst ticarət və azad medianın olduğu yerdə, həqiqət "azad fikir və informasiya bazarında" meydana gəlir. Belə olan təqdirdə azad ictimai rəylər və görüşlər arasındakı konfliktlər xəbər və görüşlərin yayılması üçün ən müvafiq şəraiti yaradır. Digər cəhətdən isə reklam gücünün artması və medianın ticarət qanunlarına müvafiq işləməsi müasir dövrdə media tənqidlərinin əsasını təşkil edir. Buna görə də yeni bir nəzəriyyə olaraq "medianın ictimai məsuliyyət nəzəriyyəsi" ortaya atılmışdır. İlkin olaraq media, "günün hadisələrini, açıqlayıcı və mənalı bir kontekstdə doğru və əhatəli" bir şəkildə çatdırmalıdır. Bunun mənası medianın doğru, etimad olunan və dürüst xəbər vermə olmasıdır. Belə ki, xəbər ilə şərh bir-birindən ayrılmalıdır. Nəticədə mediada doğru olan istiqamət yalnız başqa yerlərdə meydana gələn hadisələrin canlı yayımını təşkil etmək deyil, eyni zamanda tamaşaçıya yaxud oxucuya həqiqətdə nə olduğunu və hadisələrin arxa planında nələr olduğunu göstərməkdir.

### Medianın siyasi mahiyyəti

Cəmiyyət və iqtidar iyerarxiyasında 4-cü hakimiyyət kimi qeyd olunan media eyni zamanda siyasi mahiyyətə də malikdir. Belə ki, media qurumları və vasitələri ilə modern dövrdə dünya ictimaiyyətini müxtəlif istiqamətlərdə məlumatlandırmaq və istiqamətləndirmək mümkündür. Digər tərəfdən böyük media holdinqləri, qəzet və internet saytları, prezident seçkilərindən tutmuş müxtəlif siyasi

[1] Karl Popper, Conjectures and Refutations: The Growth of Scientific Knowledge, Routledge Classics, 2002.



hərəkatlara dəstək verməkdədir. Məsələn, demokratiyanın beşiyi adlandırılan Amerikada son dəfə keçirilən prezident seçkilərində məşhur Vaşinqton Post, Nyu-York Tayms və s. kimi qəzetlər Barak Obamanın prezident seçilməsinə açıqdan açığa dəstək verdilər. Başqa bir nümunə kimi qardaş Türkiyə Respublikasında həm hakimiyyətdə olanları, həm də müxalifəti dəstəkləyən media orqanları mövcuddur.

Bu mənada müşahidə etdiyimiz ölçüdə hal-hazırda dünya media sistemində hər hansı bir iqtidarı və ya müxalifəti birbaşa yaxud dolayısı ilə dəstəkləmək problem deyil. Burada əsas məsələ ortaya qoyulan ideologiya çərçivəsində tutarlı olmaq və bu istiqamətdə yazılar yazmaqdır. Bu mənada mediada qərəzli və ya obyektiv olmaq kimi istifadə olunan məfhumlar artıq qəbul edilmir. Çünki bu məfhumlar mediadan əvvəl modern elm fəlsəfəsi sahəsində ciddi müzakirələrə səbəb olmuşdur. Qısaca olaraq hal-hazırda obyektivlik və ya qərəzli olub-olmamanın yerini inter-subyektivizm, yəni subyektlərin qarşılıqlı anlayışları nəticəsində meydana gələn rəy və təkliflər təşkil edir. Bu mənada hər-hansı bir media orqanı öz baxış bucağından, özünəməxsus şərh və analizlərlə yönəldiyini ifadə etdiyi zaman aktuallıq kəsb edir. Əlbəttə ki, bu gündəlik xəbərləri əhatə etmir və daha çox media mütəxəssislərinin rəy və analizlərində öz əksini tapır. Belə ki, medianın funksionallığı şəffaf demokratik atmosferin yaradılması və hər kəsin öz görüşlərini media vasitəsi ilə ifadə etməsi mənasına gəlir. Məhz bu zaman medianın siyasi gücü və özünəməxsus siyasi ifadə tərzi ortaya çıxır. Bu mənada medianın həm ictimai xidmət, həm də siyasi bir funksiya gücünə malik olması ona xüsusi bir status verir.

Həqiqətən də medianın siyasi mahiyyətini anlamaq üçün siyasət-media əlaqəsinin arxa planını nəzərdən keçirmək lazımdır. Bu eyni zamanda mədəniyyət məfhumu ilə də birbaşa bağlıdır. Məhz qərb mədəniyyətinin əsasını təşkil edən klassik fəlsəfi düşüncədə əxlaq ilə siyasət bir birindən müstəqil şəkildə ayrılmamış və inkişaf etməmişdir. Karl Otto Apelin də qeyd etdiyi kimi bu ayrılma Renessans fəlsəfəsi ilə başlamışdır. Dekartla başlayan yeni fəlsəfi anlayış və xüsusilə Makyavellinin siyasət fəlsəfəsinə dair görüşləri nəticəsində etik kodekslər demək olar ki siyasət sahəsindən uzaqlaş-

dırılmışdır. Bu mənada siyasətin əsas məfhumu siyasi praqmatizm olmuşdur. Ancaq müasir dövrdə qərb mədəniyyəti eyni zamanda insan hüquqları, qlobal etika, demokratiya və s. məfhumlar vasitəsi ilə universal əxlaqın və ya qlobal ədalətin dünyada bərqərar olması üçün çalışdıqlarını iddia edir. Məhz müasir dövrdə beynəlxalq sülh, insan hüquqları haqqında bəyanatların güc ilə ölçülməsi paradoks təşkil etməkdədir. Nəticədə iqtidar iradəsinə istinad edilərək mahiyyət olaraq daha çox hakimiyyətin tələb olunması və bu çərçivədə əxlaqi universallığın itirilməsi də təhlükələrdən xəbər verir. Paradoksal olsa da güc və iqtidar tələbi ilə yüksələn bir mədəniyyət eyni zamanda bu istəyi reallaşdırma yolunda da məhv ola bilər. Məhz bu kimi problemlər medianın mahiyyətinə və funksional roluna da öz təsirini göstərir. Məsələnin belə bir arxa planını bilmədən (back round) medianın siyasi statusu haqqında fikir yürütmək absurd bir cəhddir.

Nəticədə medianın siyasət ilə olan əlaqəsini məşhur ABŞ prezidenti R.Reyqanın fikirləri ilə tamamlamaq yerinə düşər. Çünki Reyqan öz ifadəsində təsadüfi yerə ədalət məfhumunu vurğulamır: "Amerika ədalətli olmalıdır, Amerika ədalətli olmasa böyük olmayacaqdır". Həm siyasi müstəvidə, həm də beynəlxalq münasibətlərdə ədalətin bütün istiqamətlərdə təmin edilməsi eyni zamanda medianın da siyasi mahiyyətinə təsir edəcəkdir. Bu mənada medianın siyasi mahiyyəti onun ədalətli, tutarlı və fikir plüralizminə imkan yaratmasında yatmaqdadır.

**Rəşad İlyasov,**
***fəlsəfə doktoru***
30 noyabr 2012

### *1.12. Dünya media monopoliyası və reallıq*

Son yüz ildə kütləvi informasiya vasitələri (KİV) cəmiyyətin bütün sahələrində ən təsirli vasitələrdən birinə çevrilmişdir. Məhz təsiretmə imkanlarına görə mətbuatı dördüncü hakimiyyət orqanı da adlandırırlar. Yarandığı ilk mərhələdə yazılı mətbuat (qəzet, jurnal), bir qədər sonra efir məkanı (radio, televiziya), yeni minilliyə doğru isə internet insan həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.



Günümüzdə kütləvi informasiya vasitələri insanların həyat tərzini müəyyən edir. Bundan başqa KİV ölkədaxili proseslərə olduğu kimi dövlətlərarası və beynəlxalq münasibətlərə də mühüm təsir imkanlarına malikdir.

Azad mətbuat demokratiyanın mühüm prinsiplərindən biridir. Hazırda dünyanın informasiya təminatından olduqca asılı olduğunu nəzərə aldıqda demokratik və ədalətli mətbuatın üzərinə böyük iş düşür. Tarix göstərmişdir ki, mətbuatda yayılan hər hansı bir informasiya (və ya dezinformasiya) hətta dövlətlərarası münaqişələrə səbəb ola bilir. Mətbuat iqtisadi böhranlarda da ən mühüm aktordur. Ümumiyyətlə iqtisadi proseslər, o cümlədən informasiya məkanından birbaşa asılı olan maliyyə əməliyyatları mətbuatda gedən məlumatlardan sinxron asılıdır. Bütün birjalarda əsas maliyyə möhtəkirlikləri əvvəlcə mətbuat vasitəsilə yayılan informasiya hücumu ilə başlayır.

Beləliklə, bütün siyasi və iqtisadi proseslərdə mətbuatın artan rolu dünya miqyasında KİV-ə olan münasibəti dəyişdi. Keçən əsrin 60-70-ci illərinədək dünyada mətbuat çoxqütblü idi və təmərküzləşməmişdi. Ayrı-ayrı ölkələrdə mühüm nəşrlər dünya informasiya axınını təşkil edirdi. Əsrin sonlarına doğru isə dünya üzrə medianın müəyyən qrupların əlində cəmlənməsi başlandı. Keçən dövr ərzində yaranmış şəraitdə isə artıq siyasiləşmiş mətbuat informasiya təminatı deyil, informasiya təzyiqi vasitəsi funksiyasını yerinə yetirməyə başladı. Bu gün beynəlxalq münasibətlər sistemində informasiya müharibəsi ən böyük mübarizə meydanıdır. Dövlətlər arasında, şirkətlər arasında, hətta fərdlər arasında informasiya müharibəsi mətbuat vasitəsilə aparılır. Bütün bunlar reallıqdan doğan proseslərdir və təbii qarşılanır. Lakin məsələnin bir də görünməyən tərəfləri var.

Hazırda qlobal media orqanlarının böyük hissəsi 5 böyük şirkətin nəzarətindədir: "Time-Warner" (CNN, TNT kanalları, Time jurnalı), "Walt Disney Corporation" (ABC telekanalı), "News Corporation" (The Sun, The Times, The Sunday Times, New York Post qəzetləri, The Wall Street Journal, Fox telekanalı) "Viacom" və "Bertellsmann"(RTL Group). Bunlardan ilk dördü ABŞ, sonuncu isə alman media holdinqidir. Sonrakı yerlərdə isə "Sony", "Gene-

ral Electric", "Seagram" kimi konqlomeratlar gəlir. Bu şirkətləri öz gəlirlərinə, işçilərinin sayına, əhatə etdiyi regiona görə daha çox media imperiyaları adlandırmaq olar. Misal üçün, 2011-ci ilin məlumatlarına görə "Walt Disney Corporation"-nin 156 min nəfər, "Time-Warner"in 34 min nəfər, BBC tenekanalının 23 min nəfər işçisi var. "Bertellsmann"-in sahib olduğu "RTL Group" Avropanın 11 ölkəsində 45 televiziya, 32 radionun səhmdarıdır.

"Bertelsmann" dünyanın ən böyük ingilis dilli kitab nəşri şirkəti "Random House"un, eləcə də Almaniyada "Stern" jurnalının və "Der Spiegel" nəşrinin səhmlərinin bir hissəsinin sahibidir.

Avropanın ən böyük media inhisarçılarından biri də "Axel Springer AG" (Berlin) şirkətidir. Şirkət qitənin 36 ölkəsində 200-dən çox qəzet və jurnal, televiziya və radio kanalına sahibdir. "Axel Springer AG" Almaniyanın gündəlik qəzet bazarının təxminən dörddə birinə sahibdir. Bunların arasında Avropanın ən yüksək tirajlı "Bild" qəzeti də var. Ona görə də məhz bu qəzetin hədəfində olan hər hansı bir mövzu günlərcə Avropanın diqqətindən düşmür. Hədəfdə olan mövzu müxtəlif ölkələrin fərqli qəzetlərində mütəmadi olaraq işıqlandırılır. Sadə oxucularda həmin mövzunun nə qədər aktual olması barədə ilkin təəssürat yaranır. Lakin qəzetlərin daxil olduğu media monopoliyasını nəzərə aldıqda vahid mərkəzdən idarə olunan təlimatın nəticəsi olduğu açıq-aydın görünür. Britaniya, yaxud Qərbin digər ölkələrində də nüfuzlu media konqlomeratların inhisarçı mövqeləri oxşar vəziyyətin yaranmasına səbəb olur.

Yuxarıda adını çəkdiyimiz media nəhəngləri televiziya, radio, qəzet, jurnal kimi ənənəvi sahələrlə yanaşı kino çəkilişindən tutmuş kitab çapınadək bütün auditoriyalar üçün informasiya təminatı vasitələrinə sahibdirlər. Bütün dünya ölkələrinə və müxtəlif sosial təbəqələrə təsir imkanı baxımından əvəzedilməz vasitə olan Hollivud filmləri bu şirkətlərin əlindədir. Misal üçün "Warner Brothers" və "Newline Cinema" kino studiyaları "Time-Warner" şirkətinə, "Disney Production", "Miramax", "Buena Vista" - "Walt Disney Corporation"-ə, "Columbia Pictures" -"Sony"-yə, "Universal Pictures" – "Seagram"-a, "Paramount Pictures" - "Viacom" şirkətinə məxsusdur. İstənilən kino həvəskarı üçün bu adlar tanışdır. Bütün televiziya kanallarının gündəlik efirində bu kino studiyaların filmləri aparıcı yer tutur.

Media nəhənglər uşaqları da yaddan çıxartmayıb. Uşaqlar üçün multfilm qəhrəmanlarının da yaradıcıları onlardır. Mickey Mouse - "Walt Disney Corporation" şirkətinin, Tom və Ceri, Superman, Betman "Time-Warner"-in, Cartoon Network personajları "News Corporation"-in yaratdığı qəhrəmanlardır. Bu gün kino mütəxəssisləri də həyəcan təbili çalırlar ki, artıq multfilmlər uşaqların vaxtından əvvəl böyüməsinə çalışırlar və ümumilikdə yaş kateqoriyasına uyğun deyil. Beləliklə, hələ uşaqlıqdan insanların hafizəsinə sevimli əyləncə kimi daxil olan bu media imperiyalar bütün sonrakı həyatı boyu insanlara təqdim etdiyi informasiyaya inandırmaq üçün bünövrə hazırlayırlar.

Digər tərəfdən əksər qlobal mətbu orqanları dünyanın ən güclü xəbər agentliklərinin məlumatlarını alıb ötürməklə məşğuldurlar. "Reuters" (London), "Associated Press" (Nyu-York), "CNN" (Atlanta), "New York Times Servis" (Nyu-York), "Agence France-Press" (Paris) xəbər agentlikləri planetdə böyük şəbəkə qurublar və dünya ictimaiyyətini informasiya ilə onlar təmin edirlər. Məsələn, "Reuters" agentliyinin 94 ölkədə 200 şəhərdə bürosu var, "Associated Press"-in 120 ölkədə 243 bürosu var və 1700-dən çox qəzet, 5000-dən çox televiziya və radio bu xəbər agentliyinin məlumatlarını efirə ötürür. Belə olan halda isə informasiya təminatı birtərəfli və daha çox məqsədli olur. Dünya ictimaiyyəti bir sıra hallarda reallıqla deyil, bu agentliklərin istədiyi şəkildə məlumatlandırılır. Müşahidələr göstərir ki, bu media nəhənglərin məqsədlərinə uyğun gəlməyən xəbərlərin dünya ictimaiyyətinə çatdırılması praktiki olaraq mümkün deyil.

Media qurumların fəaliyyətində xüsusi bir məqam da nüfuzlu media rəhbərlərinin Bilderberq klubunun ənənəvi iştirakçıları olması ilə bağlıdır. İctimaiyyət üçün fəaliyyəti açıq olmayan Bilderberq klubu daha çox siyasi prosesləri yönləndirmək üçün Qərbdəki bəzi dairələrin yaratdığı bir formatdır. Başlıca məqsədi həqiqi informasiya təminatı olan kütləvi informasiya vasitələrinin gizli təşkilatların işində iştirakı isə medianın plüralizm və şəffaflıq prinsipləri ilə uyğun gəlmir.

Bilderberq klubunun Məsləhət qrupunun sədri olan Devid Rokfellerin 1991-ci ildə Baden Badendə klubun illik iclasındakı sözləri dünyanın nüfuzlu media qurumlarının bu pərdəarxası siyasi proseslərdə iştirakını təsdiq edir: "Biz Vaşinqton Post, Nyu York Times, Time jurnalına və digər böyük nəşrlərə minnətdarıq. Bu nəşrlərin direktorları artıq 40 ilə yaxındır ki bizim yığıncaqlarımızda iştirak edir və bu illər ərzində konfidensiallıqla bağlı öz vədlərinə hörmət edirlər. Əgər biz o illərdə ictimaiyyətin qarşısında işıqlandırılsaydıq dünya ilə bağlı planlarımızı yerinə yetirmək imkanımız olmayacaqdı"[1].

Maraq üçün qeyd edək ki, mətbuata sızan məlumatlara görə 2012-ci ildə Bilderberq klubunun iclasında "Washington Post Company", "The Economist", "Financial Times", "Le Monde", "Bonnier AB" (İsveçrə), "Der Standard" (Avstriya) və "Hürriyyət" (Türkiyə) qəzetlərinin rəhbər şəxsləri iştirak etmişlər. Ona görə də yaxın vaxtlarda dünyanın siyasi mənzərəsi ilə bağlı bu nəşrlərdə dərc oluna biləcək materiallar xüsusi həssaslıq tələb edir.

Beləliklə, araşdırmalar göstərir ki, dünyanın kino istehsalı, televiziya verilişləri prodakşnları, televiziya kanalları, kitab nəşriyyatları, qəzet və jurnallarının əksəriyyəti təxminən 50-yə yaxın şirkətin əlində cəmləşib. İstənilən demokratik standartlara əsasən medianın bu cür təmərküzləşməsi qəbuledilməzdir. Maraqlıdır ki, kino çəkilişindən tutmuş qəzet və jurnal nəşrinə qədər media sahəsini əhatə edən bu şirkətlərin səhmdarları arasında bank və digər maliyyə institutları da iştirak edir. Beləliklə də, iri bankirlər və ya biznes sahibləri həm də media maqnatları olaraq qlobal çərçivədə siyasi və iqtisadi proses və trendlərə istiqamət vermək imkanına malikdirlər. Belə olan halda isə gündəlik həyatımızda aldığımız informasiyanın məqsədli olub-olmaması sual doğurur.

**Ərəstü Həbibbəyli,**
***iqtisad üzrə fəlsəfə doktoru***
19 iyul 2012

[1] http://www.crossroad.to/Quotes/globalism/rockefeller.htm



### *1.13. Qlobal teleşəbəkələr: bəşəriyyət informasiya "əsarətində"*

Hazırkı tarixi mərhələdə insanın həyatında informasiya mühüm yer tutur. Telekanallar yüz milyonlarla insanın dünyagörüşünə, həyat tərzinə və mənəvi-əxlaqi keyfiyyətlərinə ciddi təsir edir. Bəşəriyyət, bir növ, özünə ekrandan baxmağa vərdiş edir.

**İnformasiya uğrunda yarış**

Müasir cəmiyyətlərdə informasiyanın oynadığı əhəmiyyətli rolu hər kəs qəbul edir. Hətta informasiyanın dünyanı idarə etdiyinə belə inam var. Doğrudan da, insanların hər gün məlumat almaq ehtiyacı yaranıb. Ancaq bu ehtiyacın ödənməsinin planlı olması və hansısa konkret məqsədlərə xidmət etməsi məsələsi heç də hər kəsə aydın deyil. Başqa sözlə, informasiyanın yayılması üsulları və bu zaman qarşıya qoyulan məqsədlər maraq doğurur.

İndi "teleşəbəkə" termini ilə kimsəni təəccübləndirmək real deyil. Əksinə, bu sözü eşitməyənə istehza ilə yanaşırlar. Lakin çoxlu sayda telekanalların mövcudluğunun insan şüuruna, hisslərinə, dünyagörüşünə və bütövlükdə həyat tərzinə necə təsir etdiyi təhlil olunmalıdır. Çünki həmin aspektdə maraqlı və düşündürücü məqamlar olduqca çoxdur.

Keçən əsrin ikinci yarısından dünyanın geosiyasi mənzərəsi köklü dəyişikliklərə uğramağa başladı. Bir-birindən coğrafi olaraq ən uzaq məsafədə yerləşən ölkələr arasında belə əlaqələr genişlənməyə başladı. Artıq görünürdü ki, dünya "qlobal kəndə" (Marşall Maklyüen) çevrilir. Onu iqtisadi və informasiya əlaqələri hörümçək toru kimi əhatə edir. Bu proses informasiyanı yayan sistemlərin də dəyişməsi ehtiyacını ortaya çıxarmalı idi.

Sosialist düşərgəsinin dağılması ilə həmin tendensiya daha da gücləndi. Təsadüfi deyil ki, məhz keçən əsrin 90-cı illərinin əvvəllərində qlobal miqyasda fəaliyyət göstərən bir neçə informasiya vasitəsi formalaşdı. Onlardan CNBC (1989-cu il), BBC World News (1991-ci il), Euronews (1993-cü il), Bloomberg TV (1994-cü il), Əl-Cəzirə (1996-cı il) və başqalarını göstərə bilərik.

Həmin prosesin vüsət almasının geosiyasi şərtləri aydındır. Qloballəşan dünyada informasiyanın sürətli və genişmiqyaslı yayılması zərurətə çevrilir. Eyni zamanda, müxtəlif sahələrdə çalışan insanların anında informasiya almaq ehtiyacı ödənməlidir. Deyək ki, bizneslə məşğul olan adamın daha çox uğur qazanması informasiya təminatı ilə sıx bağlıdır. O cümlədən, transmilli şirkətlərin dünya miqyasında fəaliyyəti qlobal səviyyədə informasiya şəbəkələrinin fəaliyyətindən birbaşa asılıdır.

Bunlar dünyada gedən müxtəlif təbiətli proseslərin qlobal teleşəbəkələrin formalaşmasına əsas yaratdığını göstərir. Ona görə də, bir neçə informasiya vasitəsi arasında dünyada liderlik uğrunda yarış intensivləşdi. Nəticədə, çox dinamik informasiya məkanı yarandı. Milyonlarla insan özlərindən asılı olmayaraq həmin qlobal informasiya sahəsinin cazibəsinə düşdü. Ancaq burada açıq deyilməyən bir neçə məqam da vardı.

## İnformasiya siyasəti: əsas hədəf beyinlərdir

Milyonlarla auditoriyası olan teleşirkətlər dünyaya obyektiv informasiya yaymaq xatirinə fəaliyyət göstərmirlər. Onların hər biri konkret məqsədə uyğun proqramlar tərtib edirlər. İlk baxışdan bunu duymaq çətindir. Çünki peşəkar jurnalistlər o dərəcədə maraqlı və diqqətçəkən verilişlər hazırlayırlar ki, tamaşaçının aldığı informasiyaları qiymətləndirmək imkanı olmur.

CNN-də tok-şou aparan Larri Kinq və ya BBC World News-dakı Tim Sebastian çoxlu sayda tamaşaçı auditoriyası toplaya biliblər. Onların danışıqları heyrətedici, nəfəskəsən və natiqlik məharəti aspektində "gözlənilməz" olduğundan pərəstişkarları çoxdur. Dünyanın aktual problemlərinə həsr edilən həmin tok-şoular, şübhəsiz ki, tamaşaçılarda hadisələr haqqında konkret fikir formalaşdırır.

Larri Kinq və Tim Sebastianın tok-şouları, məsələn, "ərəb baharı" haqqında rəy yaratmağa qadirdir. Bu üsuldan Qərb ictimai rəyi idarə etməkdə geniş miqyasda yararlanır. CNN-in yaradıcısı Ted Törner bir dəfə vurğulamışdı ki, televiziya cəmiyyətə təsir etmək üçün güclü vasitədir. O, informasiyanı heç bir mövqeni müdafiə etmədən, obyektiv qaydada yaydıqlarını desə də, faktlar tamamilə başqa mənzərəni ortaya qoyur.



Dünyanın demək olar ki, bütün regionlarını əhatə edən qlobal televiziya kanalları dəyərlər, zövqlər və həyat tərzlərindən asılı olaraq xüsusi auditoriyaların yaranmasına təsir ediblər. Məsələn, MTV musiqi teleşəbəkəsinin yeniyetmələrdən ibarət 500 milyonluq tamaşaçısı vardır. Onların həyat tərzi və davranışlarına bu musiqi telekanalı ciddi təsir edir. Gənclərin zövqləri və ritorikalarının formalaşmasında bu kimi informasiya vasitələrinin rolu böyükdür.

CNN-in verilişləri isə siyasəti, iqtisadiyyatı, ekologiyanı, sosial məsələləri və mədəniyyəti əhatə edir. "Sizin bugünkü dünyanız", "Diplomatik lisenziya", "İnsayt", "Larri Kinq canlı yayımda", "Larri Kinqlə vikend" kimi verilişlər dünyada məşhurdur. Bu proqramların hər birinin də özəl xüsusiyyətləri var. Onlar sosial həyat, cəmiyyət, siyasət, ünsiyyət, mədəniyyət və s. haqqında konkret fikir formalaşdırırlar. CNN şirkəti dünyada ilk dəfə olaraq 24 saat informasiya yaymaq konsepsiyasını təklif edib. 2005-ci ildə onun 37 xarici bürosu vardı. Onun xəbərlər verilişinə dünyanın 212 ölkəsindən 200 milyon insan baxa bilir. CNN-in xəbərlərini 38 kosmik peyk yayır. Bu teleşirkətin taleyində 1991-ci ildə Fars körfəzində olan müharibəni canlı yayımla vermək və 2001-ci il sentyabrın 11-də Nyu-Yorkdakı terror aktı haqqında təcili məlumatlar yaymaq ayrıca yer tutur.

BBC World News, Bloomberg TV, CNBC, Əl-Cəzirə, Euronews və digər məşhur informasiya vasitələri də eyni üsulla fəaliyyət göstərirlər. BBC Britaniya yayım korporasiyasının birbaşa varisidir. Hazırda bu teleşəbəkənin əsas vəzifələrindən biri tamaşaçı auditoriyasını informasiya ilə "zənginləşdirməkdən" ibarətdir. İndi BBC ilə ciddi rəqabət aparan şəbəkələr formalaşıb. Ancaq bu teleşəbəkə xəbərlər proqramının yüksək keyfiyyəti, analitikanın yüksək səviyyəsi, aparıcıların peşəkarlığı sayəsində nüfuzunu saxlaya bilir. Maraqlıdır ki, BBC informasiyalarında tamaşaçının hadisələrə reaksiyasını nəzərə alır. Məsələn, telekanal zorakılıq səhnələrini ciddi seçim əsasında göstərir və bəzən bunu etmir.

BBC-nin əsas şüarı baş verən hər bir şeyi dərk etmək və ona məna verməkdən ibarətdir. Təbii ki, teleşəbəkə bunu Avropa dəyərləri çərçivəsində edir. Ona görə də yüksək səviyyəli analitik verilişlərdə

Qərb siyasi və mədəni maraqlarına cavab verən ideyalar daha çox yer alır. BBC-nin "Tim Sebastianla ciddi söhbət", "Müxbir", "Koni haqqında söhbət" və başqa daimi verilişləri mövcuddur.

Euronews konkret bir regionun – Avropanın teleşirkəti olmasına baxmayaraq, təsir dairəsi bütün dünyanı əhatə edir. Bu teleşəbəkənin əsas şüarı belədir: "Biz 7 dildə danışırıq, ancaq bir istiqamətə baxırıq". Bu cümlədə Euronews-un əsas məqsədi ifadə olunub. Yəni Avropa İttifaqının siyasi, iqtisadi, mədəni həyatı haqqında insanlarda müsbət rəylər formalaşdıran informasiyalar yaymağa üstünlük verilir. Analitiklər bu teleşəbəkənin Şərqi Avropada populyarlığının səbəbini həmin məkanda yerləşən ölkələrin Avropa İttifaqına üzv olmaq istəyi ilə izah edirlər. Ona görə də o ölkələrin vətəndaşları Euronews-a baxmağı vəzifə hesab edirlər.

Bu teleşəbəkədə verilişlərin böyük hissəsi Avropa həyat tərzinə həsr edilib. "Avropa" və "Avropalılar" verilişində Avropa İttifaqı quruculuğundan danışılır, əhalinin həyatının aktual problemlərinə toxunulur. "Parlament"də Avropa Parlamentinin fəaliyyəti işıqlandırılır. "Perspektiv" verilişində isə müxtəlif sahələr aid mövzular üzrə geniş müzakirələr aparılır.

CNBC və Bloomberg TV əsasən maliyyə və iqtisadi sahələrə aid məlumatlar yayır. Bu şəbəkələr biznes dünyasına ünvanlanıb. Onlar müxtəlif xarakterli aktual informasiyalar vasitəsi ilə iş dünyasının nəbzini müəyyənləşdirməyə çalışırlar. Bu üsulla uğurlu biznesmen və ölkə imici formalaşdırırlar. Həmin teleşəbəkə, təbii ki, konkret olaraq iş adamlarına güclü informasiya dəstəyi verir. Ancaq hər bir halda əvvəlcədən müəyyənləşmiş dəqiq fəaliyyət kursuna uyğun hərəkət edilir.

Əl-Cəzirə son dövrlər çox populyarlıq qazanmış telekanallardan biridir. Onun tamaşaçı auditoriyası 35 milyonu keçir. Bu telekanal Qətərə məxsusdur, lakin qlobal miqyasda nüfuz əldə edə bilib. Maraqlıdır ki, Əl-Cəzirəni nə ABŞ, nə də ərəb ölkələrinin əksəriyyəti tam qəbul edir. Amerika ona müəyyən informasiya məhdudiyyətləri qoymağa çalışır. Çünki Əl-Cəzirənin yaydığı məlumatlarda ABŞ-ın maraqlarına uyğun gəlməyən məqamlar olur.



Ərəb dövlətlərinin bir çoxu da öz maraqları naminə Əl-Cəzirənin bürolarını bağlayırlar. Məsələn, Küveyt və İordaniya belə edib. Bunlara baxmayaraq, həmin telekanal öz populyarlığını saxlaya bilir.

Beləliklə, teleşəbəkələr qlobal miqyasda insanların həyat tərzinə, düşüncəsinə, siyasi və iqtisadi proseslərə və mədəniyyətə ciddi təsir edirlər. Onlar faktiki olaraq bəşəriyyətin informasiya məkanını formalaşdırırlar. Bu, məşhur Kanada sosioloqu M.Maklyüenin dünya "qlobal kəndə çevrilə bilər" proqnozunu təsdiqləyir. Bəşəriyyət bütövlükdə öz həyatına "ekrandan baxmağa" vərdiş edir.

**Newtimes.az**
10 dekabr 2012

### *1.14. BP: maraqların anatomiyası*

Böyük dövlətlər tarixən enerji mənbələri uğrunda kəskin mübarizə aparıblar. XX əsrdən başlayaraq rəqabətin forması və miqyası dəyişib. Bu prosesdə müxtəlif şirkətlər aktiv iştirak etməyə başlayıb. Onların sırasında BP-nin öz yeri var. Onun 100 ildən çox müddətdəki fəaliyyətinin düşündürücü məqamları mövcuddur.

#### Neft və siyasətin ingilissayağı əlaqəsi

Umberto Ekonun "Qızılgülün adı" romanının qəhrəmanı eyni zamanda filosof, keşiş və fırıldaqçıdır. Klassik dövrdən fərqli olaraq, müasir insanların bir neçə sifəti özündə birləşdirməsini bəzən "qəhrəmanlıq" kimi təqdim edirlər. Fərdlərlə bağlı bu mövqe ilə mübahisə etmək olar. Ancaq elə transmilli şirkətlər var ki, onların həqiqi siması doğrudan da gizlədilir – zahirən iqtisadi fəaliyyətlə məşğul olur, əslində isə, pərdəarxasında siyasi, ideoloji və hətta kəşfiyyat məqsədləri güdürlər. "British Petroleum" və ya "Beyond petroleum" (BP) da yalnız biznes fəaliyyəti ilə məşğul deyilmiş...

Bu şirkətin əsasını 1901-ci ildə ingilis Uilyam Noks d'Arsi qoyub. O, İranda neft axtarışları aparmaq üçün həmin ölkənin hökumətindən icazə alır. Lakin tezliklə maliyyə sıxıntıları ilə üzləşir. Uilyam d'Arsi məcburən "Burmah Oil" şirkəti ilə birgə işləmək razılığına gəlir. Bu,

1905-ci ildə olur. Üç illik axtarışlardan sonra "Burmah Oil" İranda zəngin neft yatağı tapır. 1909-cu ildə yeni neft kəşfiyyatları aparmaq üçün U.d'Arsi və "Burmah Oil" "Anglo-Persian Oil Company"ni qururlar. Həmin şirkəti BP-nin xələfi adlandırırlar.

Ancaq "Anglo-Persian Oil Company" o dövrdə daha güclü olan "Royal Dutch Shell"in təsiri altına düşməmək üçün Britaniya hökumətinin himayəsi altına keçməyə çalışır. Nəhayət, 1914-cü ildə Birinci dünya müharibəsi ərəfəsi şirkət arzuladığı sazişi Britaniya hökuməti ilə imzalayır. Bununla onun tarixində yeni dönəm başlayır. Bu, həm biznes fəaliyyətində, həm də dünya miqyasında cərəyan edən siyasi hadisələrə təsirdə öz ifadəsini tapır.

Artıq 1927-ci ildə şirkət neft məhsulları bazarında lider idi. 1935-ci ildə şahın "Persian" sözünü "İran"la əvəz etmək tələbi qəbul edilir və "Anglo-İranian Oil Company" yaranır. Lakin 1949-cu ildə İranda Məhəmməd Müsəddiq hakimiyyətə gəlir. O, ölkənin neft sərvətini milliləşdirmək kursunu götürür. 1951-ci ildə neftin milliləşdirilməsi ilə bağlı İran parlamenti qanun qəbul edir. Britaniya və ABŞ dəfələrlə danışıqlar yolu ilə M.Müsəddiqi fikrindən daşındırmağa çalışırlar. Ancaq baş nazir dövlətinə bağlı adam olduğundan danışıqlar heç bir nəticə vermir. İran üçün bu andan ağır günlər başlayır.

ABŞ və Britaniya İran cəmiyyətində Müsəddiqin mənfi imicini formalaşdırır və dövlət çevrilişi həyata keçirirlər. 1953-cü ildə "Ayaks" adlı planla İranda iğtişaşlar törədirlər. Müsəddiqi devirib hakimiyyətə gələnlər 1965-ci ildə "Britiş Petrolium"la (1954-cü ildə "Anglo-İranian Oil Company" "British Petroleum"a çevrilmişdi) 25 illik əməkdaşlıq müqaviləsi imzalayır. Həmin dövrdən ABŞ BP-nin qazancına ortaq olur – bir neçə Amerika şirkəti neftdən pay alır. O zamandan hər bir böyük sazişdə ABŞ-BP işbirliyi normaya çevrilir.

Əslində, hər şey gizli olaraq XX əsrin əvvəllərində başlamışdı. Britaniya generalı Con Fişer o zaman demişdi ki, "neftə sahib olan, dünyanı idarə edir". 1918-ci ildə admiral Edmond Sleyd xüsusi memorandumda Britaniyanın Yaxın Şərq siyasətinin əsas məqsədinin İranın və regionun bütün ölkələrinin neft ehtiyatı üzərində nəzarəti ələ keçirmək olduğunu göstərir.



Bu siyasəti London ciddi-cəhdlə həyata keçirir. Məhz ingilis gizli xidməti dəfələrlə ərəblərlə Osmanlı arasında intriqalar yaradaraq, regionda öz mövqeyini möhkəmləndirməyə çalışmışdır.

Bunlar onu ifadə edir ki, BP yarandığı vaxtdan Britaniyanın neft siyasəti və geosiyasi maraqlarının təmin edilməsi ilə sıx bağlı fəaliyyət göstərib. Ona görə də, o, əməkdaşlıq etdiyi heç bir ölkənin sona qədər inkişafında maraqlı olmayıb. Zamanı gələndə öz mənafeyi naminə hətta neftindən milyonlar qazandığı ölkəni qarışdırıb, yerli dövləti zəiflətməyə çalışıb. Dəfələrlə üsyanlar təşkil edib, cəmiyyətlərdə iğtişaşlar törədib (İranla yanaşı Qvatemala, Panama və Boliviyanı yada sala bilərik), dövlət çevrilişləri həyata keçirib. XX əsrin 90-cı illərində isə BP-nin fəaliyyət üsulunda yeni çalarlar özünü göstərməyə başlayıb.

### "British Petroleum"dan "Beyond petroleum"a transformasiyanın sirri

BP XX əsrin ikinci yarısından neft və qazla yanaşı başqa sahələrə də baş vurur. Qida məhsulları istehsalı və biznesin müxtəlif sferalarında özünü sınayır. Lakin 1990-cı illərdən yalnız enerji sahəsi ilə məşğul olmağa qərar verir. Səbəb nədir? BP neft və qazla bərabər qeyri-ənənəvi enerji növləri istehsalına önəm verdiyini bəyan edir. Həmin istiqamətdə müəyyən addımlar da atır.

Lakin bununla yanaşı, nədənsə bu şirkət Britaniyanın dövlət siyasətinin tam mərkəzində görünür. Rəsmi London öz geosiyasi maraqlarını təmin etmək üçün həmin şirkətdən geniş istifadə edir. Yəni XX əsrin əvvəllərindən qaynaqlanan ənənə yeni şərtlər daxilində davam edir. Axı, ingilislər ənənəyə tarixən sadiqdirlər!

Ona görə də, İraq və Liviya hadisələrində Britaniyanın "neft müharibələri"nin izlərinin olması təəccüblü deyil. Səddam Hüseyn və Müəmmər Qəddafinin "ən böyük günahları" öz ölkələrinin neftindən istifadədə BP-nin istəklərini nəzərə almamaq olub. İndi bunu Qərbdə də etiraf edirlər. Həmin hadisələrdə ingilislər adətləri üzrə özləri arxa planda qalmaqla, amerikanlar və fransızları qabağa veriblər.

Ekspertlərin qənaətinə görə, BP-ni İraqda müharibə yaratmağa Səddam Hüseynin Fransanın "TotalFinaElf" şirkəti ilə saziş imzalamağa hazırlaşması təhrik edib. Bununla fransız şirkəti dünyada lider

ola bilərdi. Nəticədə, BP həm bu planı pozdu, həm də fransızlara İraq neftindən özünə sərf edən payı verdi.

Buna oxşar hadisələr Liviyada cərəyan edib. M.Qəddafi ABŞ tələbələri ilə videokonfransda nefti tamamilə milliləşdirmək istədiyini bəyan edib. Buna Vaşinqton və London dərhal reaksiya verərək, prosesi öz xeyirlərinə yönəltməyə başlayıblar.

Liviya dünyada neftlə zəngin olan ölkələrdəndir. Üstəlik, onun ərazisində geniş sahədə enerji daşıyıcılarının kəşfiyyatı aparılmayıb. Bu səbəbdən, Liviyanı bombalamağa "dəyərdi". Həmin proseslərlə bağlı bir maraqlı məlumat da var. O dövrdə M.Qəddafinin Qərb ölkələri banklarında 200-250 milyard dollar sərvəti varmış. ABŞ və Avropa ölkələri üsyançılara yalnız 15 milyard dollar qaytarıb. Həmin pullar ölkənin neft sənayesini bərpa etməyə güclə yetib. Geridə qalan təqribən 200 milyard dollardan xəbər yoxdur.

Bütün bunlar BP-nin 100 ildən çox dövrü əhatə edən fəaliyyətinin yalnız bəzi fraqmentləridir. Lakin onlar da bu şirkətin əsl simasını dərk etməyə kifayət edir. Zahirən özünü dünyanın müxtəlif regionlarında ölkələrin inkişafına yardımçı kimi göstərən BP əslində, çox təhlükəli və məkrli siyasət yeridir. Tam aydındır ki, o, tam şəffaf və dürüst biznes fəaliyyəti göstərmir.

Təsadüfi deyil ki, ABŞ hökuməti məhz "düzgün və şəffaf sahibkarlıqla məşğul olmadığına görə" BP ilə yeni saziş imzalamaqdan imtina edib. Vaşinqton bu qərara həmin şirkətin Meksika körfəzindəki qəzaya laqeyd yanaşdığına görə gəlib. Qəribədir ki, BP günahı üzündən insanlara dəyən 100 milyardlarla ziyanı ödəmək əvəzinə Rusiya ilə Arktikada daha çox qazanc gətirən müqavilə imzalayıb. Onu deyək ki, Moskva da bu şirkətlə əməkdaşlıqdan yayınmağa başlayıb.

**İndi də Azərbaycanda...**

Britaniya şirkəti SSRİ dağılandan sonra Azərbaycanla sazişlər imzaladı. "Əsrin müqaviləsi" iştirakçı şirkətlərə və Azərbaycana böyük gəlirlər gətirməlidir. Sazişdə tərəflərin üzərinə götürdükləri öhdəliklər dəqiq göstərilib. Azərbaycan Prezidenti BP-nin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyi üçün irad bildirdi və vəziyyəti düzəltməsini tələb etdi.



Məhz bundan sonra bəzi Qərb ölkələrinin mediasında anti-Azərbaycan kampaniyası başladı. Almaniya KİV-i bu işdə xüsusi fəallıq göstərdi. Britaniya mediası da Azərbaycana qarşı böhtan prosesinə qoşuldu. Bu prosesə ABŞ-ın qlobal enerji və maliyyə çevrələrinə bağlı "Forbes" kimi jurnalı da qatıldı. Həmin nəşrdə Azərbaycanla bağlı dərc edilən məqalələrin ümumi ruhu, məzmunu və məqsədi "Independent", "Guardian" və "Financial Times" qəzetlərində çap edilənlərdən fərqlənmir. "Forbes" jurnalında Azərbaycan hakimiyyətinin ünvanına şantaj xarakterli fikirlər səsləndirildi.

Əslində, bütün bunlar Azərbaycan oxucusuna tanış məlumatlardır. Düşündürücüsü odur ki, həmin işlərdə BP-nin əli olduğu haqqında informasiyalar mövcuddur. BP-nin tarixinə qısaca nəzər saldıqda, onun nə qədər təhlükəli işlər törətdiyinə əmin oluruq. Azərbaycan neftindən özünə sərf edən həddə qədər maksimum yararlanır, sonra isə ziyan vurmağa çalışır. Eyni zamanda, dünyanın müxtəlif regionlarında KİV vasitəsi ilə Bakıya təzyiq etməyə cəhd edir.

Görünür, Britaniya şirkətini rəsmi Bakının müstəqil siyasət yeritməsi, milli maraqlara üstünlük verməsi təmin etmir. Bəlkə də Azərbaycanın müstəqil dövlət kimi bu cür sürətlə inkişafını gözləmirdilər. Onlara elə gəlirdi ki, azərbaycanlılar həmişə Qərbdən asılı olacaq. Burada dini faktorun mövcudluğunu inkar etmək olmaz. Qlobal miqyasda BP-nin tutduğu mövqe çoxlu sayda amillərlə bağlıdır. Belə görünür ki, bu şirkət müstəqilliyini əldə etmiş ölkələrin inkişafına ədalətlə yardım etməkdə yox, onların Qərbdən asılı qalması üçün sərfəli şərait yaratmaqda maraqlıdır.

Görünür, hələ XX əsrin 80-ci illərində ABŞ-ın dövlət katiblərindən birinin "biz transmilli şirkətlərin dünya siyasətinə hansı təsirləri göstərə biləcəyini indidən deyə bilmərik", – söyləməsinin ciddi əsasları varmış.

**Newtimes.az**
25 dekabr 2012

# II Fəsil
# QƏRBİN SEÇİMİ: QLOBAL LİDERLİK, YAXUD HÖKMRANLIQ

## *2.1. ABŞ – İmperiya, yoxsa superdövlət?!*

### "Mayflower"dən başlayan yol

1620-ci ilin sentyabrında Britaniyanın Plimut limanından bir gəmi Şimali Amerikaya yola düşdü. Gəmidəkilər İngiltərədə repressiyalara məruz qalmış puritançıların (xristian dini təriqətidir, "saf" deməkdir) bir qrupu idi. 1620-ci il noyabrın 21-də "Mayflower" ("May çiçəyi") Amerikaya çatdı (indiki Massaçusets ştatının sahilləri). Həmin gün gəmidə qrupun iki lideri – Uilyam Brüster və Uilyam Bredford yeni Plimutun birgəyaşayış qanunlarının əks olunduğu saziş imzaladılar.

Bu saziş 300 ildən çoxdur ki davam edən kiçik müstəmləkənin böyük bir imperiyaya çevrilməsi prosesinin başlanğıcı hesab edilir. O imperiyanın adı Amerika Birləşmiş Ştatlarıdır. Ziddiyyətli, heyrətedici və düşündürücü tarixi olan, digər imperiyalara bənzəməyən nəhəng dövlət...

XX əsrin sonlarında Amerikanın tanınmış siyasətşünası Z.Bjezinski "Böyük şahmat taxtası: Amerikanın hökmranlığı və onun geostrateji imperativləri" əsərində yazırdı: "1898-ci il amerikan-ispan müharibəsi Amerika üçün qitənin sərhədlərindən kənarda olan ilk işğalçı savaş idi. Bunun sayəsində Amerika hakimiyyəti Sakit okeana qədər yayıldı, sonra Havay adalarına və Filippinə çatdı"

Z.Bjezinski "Seçim: dünya hökmranlığı və ya qlobal liderlik" əsərində açıq qeyd edib: "ABŞ-ın dünyanı idarə etmək rolunu etiraf etmək zəruridir... Dünya paytaxtı yaranıb... – dünya tarixində ilk dünya paytaxtı... Nə Roma, nə Qədim Pekin – regional imperiyaların keçmiş paytaxtları... qlobal güc və qərarların qəbul edilməsi imkanları baxımından... Vaşinqtonun mərkəzi hissəsinin sahib olduğu qüdrətə malik deyildilər...".



*Maraqlı müqayisə var. Z.Bjezinski* ABŞ-ın dünya hökmranlığını masonların sevimli üçbucaqlarının kəsişməsinin verdiyi məna ilə müqayisə edir. Ağ Ev-Kapitoli binası-Pentaqon bir üçbucaq, Ağ Ev-Ümumdünya bankı-Dövlət Departamenti digər üçbucaqdır. Bu üçbucaqların kəsişməsi "qlobal təsir üçbucağı"nı əmələ gətirir.

Bu kimi müqayisələrə ABŞ-ın müasir siyasətşünas və analitiklərinin bir çoxunun əsərlərində rast gələ bilərik. Özünü demokratiyanın beşiyi, azadlığın müdafiəçisi, əməkdaşlığın mərkəzi sayan bir dövlətin imperiya ambisiyalarını açıqca və qürurla ifadə etməsinin mənası nədən ibarətdir? ABŞ doğrudan da imperiyadır, yoxsa superdövlət?

### Dövlət çevrilişlərinin pərdəarxası ssenariləri

Faktlar göstərir ki, ABŞ 1898-ci il işğalı ilə kifayətlənmədi. İqtisadçı Uilyam Enqdal və Massaçusets Texnologiyalar İnstitutunun professoru Noam Çomski təsdiq edirlər ki, XX əsrin 40-cı illərinin sonunda ABŞ-da bir neçə analitik mərkəz Amerikanın yeni imperiya siyasətinin konsepsiyasını hazırlayıb. Sənədlərdə göstərilir ki, ABŞ Britaniyanın səhvlərini təkrar etməməlidir.

Nədən ibarət idi Britaniyanın səhvi? Bunu ABŞ-ın 40-cı illərin sonundan yeritdiyi xarici siyasətin mahiyyəti aydın ifadə edir – dünyada Amerika ilə bərabər səviyyədə rəqabət apara biləcək dövlətin formalaşmasına imkan verməmək! Amerika imperiyası demokratiya, azadlıq, xalqların öz taleyini özünün təyinetməsi, bazar iqtisadiyyatı prinsipləri üzərində qurulmalı idi (Uilyam Enqdal).

Öncə bu, Qərb yarımkürəsini əhatə edirdi, SSRİ dağılandan sonra bütün dünyanı əhatə etdi. Xüsusilə postsovet məkanı ölkələrinə qarşı imperialist planlar həyata keçirilməyə başlandı.

Vaşinqtonun "qlobal güc üçbucağı"nın "canı" bu tezisdədir. Amerikanın o vaxtdan keçən müddətdə həyata keçirdiyi siyasət birmənalı bu məqsədə xidmət edib. İmperialist məqsədlərinə çatmaq üçün Amerika bütün vasitələrdən istifadə edib. Nikolo Makiavelli və German Buzenbaum ABŞ-ın bu cür davranışına haqq qazandırardılar.

Lakin bu cür siyasət çoxlu sayda dövlətlərin suverenliyini məhdudlaşdırır, bəzi hallarda onları okeanın o tayından asılı hala salırdı. Bu siyasətin ilk qurbanı 1949-cu ildə Almaniya oldu. Almaniya

hərbi əks-kəşfiyyat idarəsinin keçmiş başçısı Gerd-Helmut Komossa təsdiqləyir ki, 1949-cu il mayın 11-də imzalanmış sənədə əsasən Almaniyanın qızıl ehtiyatlarının hamısı ABŞ banklarında saxlanılır[1]. Amerika bunu Almaniyanın bir daha kontinental gücə çevrilməməsi üçün edib və indi də onu nəzarətdə saxlayır.

Bununla belə, yeni imperiya konsepsiyasının baş məşqi Tehranda oldu. 1953-cü ildə qanuni seçilmiş M.Müsəddiqi devirmək planı ortaya çıxdı. Dövlət Departamentinin keçmiş əməkdaşı Uilyam Blam deyir ki, planı ABŞ prezidentinin özü hazırlamışdı[2].

M.Müsəddiqin "səhvi" həmin il amerikan-ingilis neft şirkəti olan BP-ni milliləşdirmək olub. İngiltərənin xəbərdarlığına baxmayaraq M.Müsəddiq şirkəti milliləşdirib... cəmi bir neçə aydan sonra Tehranın küçələrində "diktatora istefa" sədaları yüksəlib. Noam Çomski bu hadisəni belə şərh edir: "Bütün çevrilişlərin səbəbi eynidir. Sərvətin bərabər bölüşdürülməsi məsələsi çıxanda çevriliş olur".

İranda hakimiyyət çevrilişindən cəmi 1 ay sonra bu ölkənin nefti ABŞ-ın ixtiyarında idi.

Bir il keçmədi ki, Qvatemalanın prezidenti H.Arbens M.Müsəddiqin taleyini yaşadı. Onun da "səhvi" banan plantasiyalarını milliləşdirmək istəyi oldu. H.Arbens dərhal "dikatator"a və "antidemokrat"a çevrildi. H.Arbensi Harvardda təhsil alması da xilas edə bilmədi – 1954-cü ildə hərbi çevriliş baş verdi.

Bundan sonra ABŞ-ın təşkil etdiyi çevrilişlərin ayrıca növbəsi yarandı. Braziliya, Yunanıstan, Panama, Türkiyə, Çili... Siyahı uzundur.

Braziliya 60-cı illərdə müstəqil olmaq istəyirdi, öz sərvətlərinə yiyələnmək siyasəti yürüdürdü. Mərkəzi Kəşfiyyat İdarəsinin Braziliyada 3 illik gizli fəaliyyətindən sonra çevriliş oldu. Çilidə S.Alyende 70-ci illərdə böyük şirkətləri milliləşdirmək istəyəndə devrildi. Türkiyədə XX əsrin ikinci yarısında iki dəfə narazı hərbçilərdən istifadə edən MKİ çevriliş təşkil etdi. Türkiyə hələ də o çevrilişlərin

[1] Gerd-Helmut Komossa. Die deutsche Karte: Das verdeckte Spiel der geheimen Dienste. Ein Amtschef des MAD berichtet. Graz: Ares-Verlag, 2007, 216 s.

[2] Империя добра. Документальный фильм: 2007 год. Авторская программа Константина Семина. Реж. Виолетта Сергеева. URL: http://rutube.ru/tracks/264338.html.



yaratdığı siyasi, hərbi və sosial-psixoloji problemlərdən tam qurtula bilməyib.

Bir vaxtlar MKİ-nin əməkdaşı olmuş, sonra isə Panamada prezident seçilmiş M.Noryeqa, Panama kanalının Panama dövlətinin sərvəti olduğu fikrinə düşdü və 1989-cu ildə devrildi. Böyük Corc Buş jurnalistlərə o vaxt belə dedi: "Noryeqa diktatordu, o, hakimiyyətdən getməlidir və demokratiya bərqərar olmalıdır".

Bir canlı şahid var. MKİ-nin 1957-1968-ci illərdə zabiti olmuş Filip Eyci. O, xatırlayır: "Mən MKİ-də həvəslə işə başladım. Ekvadorda geniş təbliğat işi aparırdıq. Ekvadorun aparıcı jurnalistlərindən E.Solqado bizə işləyirdi. O, MKİ-nin sifarişi ilə hazırlanan məqalələri öz imzası ilə dərc etdirirdi. Məqsəd ölkədə qorxu və çaşqınlıq yaratmaq idi"[1].

Qısa müddətdə Ekvador qan gölünə döndü və təbii ki, "növbəti diktator" devrildi. O, iqtisadiyyatı milliləşdirmək eşqinə düşmüşdü. Ekvadorun sərvətini ABŞ-ın transmilli şirkətlərinin ixtiyarından çıxarmaq istəyirdi. Dərhal "diktator"a çevrildi və bədəlini ağır ödədi.

F.Eyci sonra Uruqvay və Meksikada etdiklərindən danışır (1962-1963-cü illər). Vyetnam, Laos, Kamboca... "Nikson doktrinası", "Karter doktrinası", "Reyqan doktrinası"... Zəncirvari prosesin "düyünləri". ABŞ-ın imperiya ambisiyalarının qurbanı olan "qaynar nöqtələr" və bunun arxasında duran "Ağ Evin sənədləri"... Onları Dövlət Departamentinin keçmiş əməkdaşı Uilyam Blam yığcam belə ifadə edir: "ABŞ son 60 ildə 50-dən çox ölkədə çevriliş etməyə çalışıb, 25-dən çox ölkədə bu baş tutub"[2].

### Yeni "qaynar nöqtələr" və "diktatorlar" axtarışı

ABŞ-ın müasir xarici siyasət kursunda prinsipial dəyişiklik baş verməyib. Prezidentlərin ad və soyadlarından başqa. İndi "İslam faşizmi" hədəfdədir.

XX əsrin sonu – XXI əsrin əvvəlləri müsəlman ölkələrindəki iğtişaşlarla xarakterizə olunur. Əfqanıstan, İraq, İran, Pakistan, Liviya,

[1] Империя добра. Документальный фильм: 2007 год. Авторская программа Константина Семина. Реж. Виолетта Сергеева. URL: http://rutube.ru/tracks/264338.html.

[2] Yenə orada.

Suriya, Misir... Yaxın və Orta Şərqin neftlə zəngin bütün dövlətləri "demokratikləşir". Adını "ərəb baharı" qoyublar. Gerçəkdə isə ərəb xalqlarının faciəsidir. İraqda S.Hüseyn, Liviyada M.Qəddafi nefti ABŞ-ın ssenarisi ilə satmaq istəmədilər.

Növbə müstəqil siyasət yürütmək istəyən İranındır. 1960-1990-cı illərdə MKİ-nin zabiti olmuş Rey Mak Hovern deyir: "ABŞ-da enerji qıtlığı yarananda İraqa qoşun yeridildi. Hər hansı bir ölkə strateji ehtiyatlarını öz nəzarəti altına almaq istəsə, ABŞ onu transmilli şirkətlərin nəzarətinə qaytarmağa çalışır. Bunun üçün bütün vasitələrdən, o cümlədən üsyanlardan, inqilablardan, hakimiyyət çevrilişlərindən istifadə edir"[1].

Bu çevrilişlərin müxtəlif mexanizmini tətbiq edilir. Yerli ölkənin mediasına, hakimiyyət dairələrinə, narazı hərbçilərə, tələbə cəmiyyətlərinə, milli azlıqların qurumlarına və s. nüfuz edib, nifaq yaradılır.

Sonra adət üzrə "diktator", "insan haqları", "siyasi məhbus", "demokratiyanın bərqərar olması" kimi terminlər işlədilir. Sadə insanın şüuru bu manipulyasiyalardan çaşır və kütlə öz ölkəsini xaricilərə təslim edir. Hələ Vyetnam hadisələrində Nikson "asiyalılarla asiyalıların özləri savaşmalıdır", – demişdi.

SSRİ-nin dağılmasından sonra postsovet məkanı ABŞ-ın xarici siyasətinin diqqət mərkəzində oldu. Müstəqilliyinə qovuşmuş ölkələrə qarşı okeanın o tayından xüsusi sifarişlər gəldi. Bu sifarişlər əsasən "rəngli inqilablar" vasitəsi ilə verilməyə başladı. Gürcüstan, Ukrayna və Qırğızıstan "rəngli inqilabların" qurbanı oldular. Açıq görünürdü ki, ABŞ postsovet məkanına da yalnız öz maraqları prizmasından baxır.

Yuxarıda nəzər saldığımız, müxtəlif ölkələrdə təşkil edilmiş dövlət çevrilişləri ssenariləri keçmiş SSRİ respublikalarına da tətbiq edilirdi. Yəni 1953-cü ildə İranda, 1954-cü ildə Qvatemalada, sonra Panama, Çili və başqa ölkələrdə hansı məqsəd güdülürdüsə, postsovet dövlətlərində də eyni niyyət özünü göstərirdi.

[1] Империя добра. Документальный фильм: 2007 год. Авторская программа Константина Семина. Реж. Виолетта Сергеева. URL: http://rutube.ru/tracks/264338.html.



Cəmiyyətdə süni narazılıq yaradıb, iğtişaşlar təşkil edərək qanuni hakimiyyətləri devirmə ssenariləri keçən əsrin 50-80-ci illərində tətbiq edilənlərdən fərqlənmirdi. Gürcüstanda, Ukraynada, sonra Qırğızıstanda hiddətlənmiş kütlə qarşısına çıxan hər şeyi əzib keçməyə hazır idi. Günahsız insanlar öldürüldü. Cəmiyyətə isə nifaq düşdü.

Maraqlıdır ki, bu proseslər ABŞ hərbi qüvvələrinin dünyanın müxtəlif regionlarına yerləşdirilməsi fonunda baş verirdi. Hazırda dünyanın 600 nöqtəsində amerikan əsgərləri vardır. Onlar əsasən enerji ehtiyatları zəngin olan məkanlarda yerləşirlər. Harada neft və qaz varsa, orada amerikan əsgərləri var. İndi bu, hörümçək toru kimi dünyanı bürümüş geniş şəbəkəni xatırladır. Demokratiya adı altında dünyanın müxtəlif guşələrinə böyük hərbi güc göndərilir, lokal müharibələr aparılır.

MKİ-nin 1967-73-cü illərdə məsləhətçisi olmuş Çalmres Conson etiraf edir ki, "ABŞ hərbi bazalar imperiyasıdır"[1]. R.Reyqanın prezidentliyi dövründə Ağ Evin mətbuat xidmətinin rəhbəri olmuş Patrik Byukenen: "Biz 100-dən çox ölkədə hərbi hissələri yerləşdirmişik. Bu, ola bilsin ki, imperiya deyil, ancaq imperiyanın dəqiq imitasiyasıdır"[2].

2005-ci ilin məlumatına görə, ABŞ xaricə 191.000 əsgər göndərib. Amerikanın xaricdəki əsgərlərinin ümumi sayı isə 1 milyon 842 min nəfərdir. ABŞ-ın hərbi büdcəsi ondan sonra gələn böyük dövlətlərin hərbi büdcəsinin cəmindən çoxdur. Hazırda ABŞ-ın xaricdəki əsgər kontingenti dünyada ən böyükdür.

Sadalanan hadisələrin hamısının arxasında bir məqam durur: ABŞ dünyanın hər bir ölkəsində daxili və xarici siyasəti idarə etmək iddiasını inadla davam etdirir. Müasir anlamda bu, məhz imperiya deməkdir[3]. Tarixçi Con Lyüs Heddis açıq deyir ki, "Biz (ABŞ) konk-

[1] Империя добра. Документальный фильм: 2007 год. Авторская программа Константина Семина. Реж. Виолетта Сергеева. URL: http://rutube.ru/tracks/264338.html.

[2] Yenə orada.

[3] Уткин А.И. Единственная современная империя – США // Золотой Лев, №77-78. URL: http://www.zlev.ru/77_6.htm.

ret olaraq imperiyayıq, imperiyadan da artığıq və indi bizim dünya qlobal rolumuz var". "Standart Uikli" nəşrinin redaktoru Uilyam Kristol isə meydan oxuyur: "kim demək istəyirsə ki, biz imperiyayıq, olsun – biz nəhəng imperiyayıq".

ABŞ qlobal miqyasda davranış modellərini və mümkün təhdidlərin yaranmasını müəyyənləşdirmək iddiasındadır. O, harada və nə zaman güc nümayiş etdirmək və ədaləti təmin etmək üsulunu da üzərinə götürür. Bu halda Amerikanın suverenliyi mütləq xarakter alır. Başqalarının suverenliyi isə ABŞ-ın mərhəmətindən asılı olur.

Bu cür radikal strateji ideyalar və motivlər ABŞ-ın yeni növ imperiya olmasını təsdiqləyir. Amerika şüurlu surətdə qlobal hegemonluğa yönəlmiş imperialist siyasət yeridir. Nüfuzlu "The Wall Street Journal" qəzeti yazır ki, "Amerika "azadlıq imperiyasının" maraqları naminə dəhşətli müharibələr aparmaqdan qorxmamalıdır". Yəni ABŞ elə bir imperiyadır ki, dünyanın istənilən guşəsində insanları onların azadlıqları naminə qətlə yetirə bilər. Bu da superdövlətin metamorfozudur. O metamorfozun "nəfəsi" hər yerdə duyula bilər

**Newtimes.az**
27 avqust 2012

### *2.2. Sarsıntılar əsrində ABŞ-ın milli strategiyası: Qərbdə "Böyük birlik", Şərqdə "Böyük tarazlıq"*

İndi dünyanı qlobal geosiyasi sistem kimi qəbul etmək olar. Bu sistem çox həssas dövrünü yaşayır. Analitiklərin fikirlərində planetin geosiyasi güclərinin taleyi ilə bağlı bəzən ilk baxışdan təəccüb doğuran proqnozlar ifadə olunur. Dünyada tanınmış politoloqların hər bir təhlili özünəməxsusluğu ilə seçilir.

Zbiqnev Bjezinskinin "Foreign Affairs" jurnalında dərc olunan "Şərqi tarazlaşdırmaq, Qərbi yeniləmək. Sarsıntılar əsrində ABŞ-ın milli strategiyası" ("Balancing the East, Upgrading the West. U.S. Grand Strategy in an Age of Upheaval") məqaləsinə münasibət də bu qəbildəndir. Məqalə bütövlükdə müasir geosiyasi vəziyyətə sistemli nəzər yetirir.



Z.Bjezinski ABŞ-ın dünyadakı aparıcı strateji rolunun zəifləyəcəyi halda planetdə hansı zəncirvarı geosiyasi proseslərin baş verə biləcəyini təhlil edir. O, bu proseslərin daxili məntiqini açmağa çalışır, bu zaman əsas tezisini ABŞ-ın liderliyinin pozitiv və neqativ tərəflərinin vəhdətini göstərmək üzərində qurur. Məhz bu bağlılıqda paradoksal görünən fikirlər irəli sürür.

Onların sırasında ABŞ-ın tənəzzülə uğramasının Çin tərəfindən arzulanması diqqət çəkir. Məsələ ondan ibarətdir ki, müxtəlif təxminlərə görə, Çin 2020-ci ildə dünya lideri ola bilər və onun bu yolda ən böyük rəqibi ABŞ-dır. Ona görə də, normal məntiqlə Çin ABŞ-ın zəifləməsində maraqlıdır.

Z.Bjezinski məqaləsində bir epizodu xatırladaraq yazır ki, bu yaxınlarda Çin məmuru özünün amerikalı həmkarından xahiş edib: "ABŞ-ın tezliklə iflasa düçar olmasına imkan verməyin". Əgər bu hadisə baş veribsə, onun geosiyasi maraqlar müstəvisində məntiqi izahında ziddiyyətli məqam yoxdur. Əslində, bu ideya Z.Bjezinskinin məqaləsinin mahiyyətini göstərir.

Ümumiyyətlə, Z.Bjezinskinin apardığı təhlillərin əsas tezisi belədir: "Beynəlxalq arenada qeyri-müəyyənlik, qlobal rəqiblər arasında toqquşmaların kəskinləşməsi və açıq xaos ABŞ-ın tənəzzülünün nəticəsi olacaq". Yəni dünyanın geosiyasi dinamikasında qeyri-müəyyənliklər, geosiyasi güclərin toqquşması, xaotik proseslərin çoxalması kimi tendensiyaların üstünlük təşkil etməsi mühüm yer tutur. Əsas təhlükə bundadır.

Belə olan halda konkret geosiyasi gücün kimliyi arxa plana keçir və prosesin müəyyən mərhələsində nəzarət hər kəsin əlindən çıxa bilər. Bu baxımdan, liderin ABŞ və ya Çin olmasının dünya üçün əhəmiyyəti yoxdur. Həmin məntiqlə Çin dünyadakı proseslərə nəzarət edəcək güclərin mövcudluğunda maraqlı olmalıdır. Çin üçün məsələnin başqa tərəfi "ABŞ olmasa, hansı dövlət Çinə rəqib ola bilər" sualına cavab tapmaqdır.

Analitiklərin proqnozuna görə, bu siyahıda Rusiya, Braziliya, Hindistan və Türkiyə var. Bu dövlətlər, əslində, daha çox risk daşıyırlar. Rusiya, Hindistan və Türkiyə Çinə coğrafi olaraq daha yaxındır və bu, onlara ABŞ-ın malik olmadığı üstünlükləri verir. Braziliya isə

dünyada liderlik potensialına malik deyil və bu, yaxın perspektivdə əlavə risklərin yaranması deməkdir.

Bu məsələlərdə İslam amilini nəzərə almaq lazımdır. Çinin ərazisində müsəlman türkləri yaşayırlar, onların baş verə biləcək proseslərdə necə davranacaqları bəlli deyil. ABŞ xristian dövləti kimi, İslam məsələsində Çinlə ortaq maraqlara malik ola bilər.

Lakin Z.Bjezinskinin arqumentində sətiraltı məqamlar yer alır. Belə ki, Çin yalnız müəyyən müddətə – dünyada təsirinin tam üstünlük təşkil edəcəyi vaxta qədər ABŞ-ın tənəzzülünü istəməyəcək. Hələlik rəsmi Pekini ABŞ-ın Uzaq Şərqin güclü dövlətləri arasında tarazlı geosiyasi mühit yaratmaq siyasəti qane edir.

Z.Bjezinski məqaləsində Uzaq Şərqin nəhəng dövlətlərini bir-birinə qarşı qoymaq əvəzinə, onlar arasında münasibətləri ABŞ-ın xeyrinə yönəltməyin vacibliyini daha konstruktiv sayır. Bu, Pekini ona görə qane edir ki, güclü Hindistan və Yaponiya ilə düşmən mövqedə dayanmaq sərfəli deyil. Müəllif xüsusi vurğulayır ki, ABŞ həmin regionda Çinin geosiyasi prosesləri tənzimləyən dövlət olmasına etiraz etməyəcək. Çin isə sürətli inkişaf tempini saxlamaqla təhlükəsizliyini təmin etməkdə və regiondakı güclü dövlətlərlə tarazlı geosiyasi münasibətlər sistemi qurmaqda ABŞ-dan faydalana bilər.

Bundan əlavə, ABŞ nəzərə almalıdır ki, Rusiyanın müstəqil geosiyasi güc olaraq Çinə qarşı siyasət yeritmək ehtimalı azdır. Z.Bjezinski "Böyük Qərb" layihəsinin reallaşacağı təqdirdə bu amilin ön plana çıxacağı fikrindədir. Bu isə Qərbin (ABŞ da daxil olmaqla) möhkəm birliyi nəticəsində mümkündür. Həm də bu birliyə nail olmaq üçün Rusiyanın Avropa İttifaqına üzv seçilməsi lazımdır.

Z.Bjezinskinin bu ideyası kifayət qədər cəsarətlidir, bir sıra riskləri göz önünə alır. Belə ki, Qərb birləşə bilməsə, Almaniyanın və İtaliyanın Rusiya ilə Aİ-dən kənar ikitərəfli sazişlər imzalamaq istəyi yarana bilər. Lakin İngiltərə və Fransa Almaniyanın və İtaliyanın bu addımına yol verməzlər. Çünki həm Qərb zəifləyər, həm də Rusiya zəngin Çin qarşısında daha aciz duruma düşər.

Z.Bjezinski bildirir ki, demokratiya haqqında arzular ABŞ üçün uğur qazanmaq modeli ola bilməz. Bu nailiyyətə millətsevərlik, güclü hakimiyyət və təmiz dini təsəvvürlərin vəhdətinə (sintezinə, orqanik birliyinə) əsaslanan milli təhlükəsizlik modelləri vasitəsilə çatmaq mümkündür.



O, mühüm bir məsələyə diqqət yetirərək yazır ki, Hindistan, Yaponiya, Rusiya və bəzi Avropa ölkələri ABŞ-ın tənəzzülünün nəticələrini indidən hesablayırlar. Onlar gələcəkdə yarana biləcək vəziyyətdən çıxış yolları axtarırlar. Məsələn, Rusiya çox güman ki, Amerikanın qeyri-müəyyən perspektivi ilə əlaqədar planlar qurur. Rusiya, heç şübhəsiz, keçmiş SSRİ-nin yerində yaranan müstəqil dövlətlərə "göz yetirir". Əgər inadkar Çin millətçiliyi özünü göstərərsə, qonşularla münasibətlər kəskinləşər, "Asiya XX əsrin qana susamış və zorakı Avropasına oxşayar". Bu fikirlərdən ABŞ-ın nədən ehtiyat etdiyi aydın görünür.

Z.Bjezinski daha sonra vurğulayır ki, ABŞ-ın tənəzzülü zəif dövlətlər üçün də təhlükəlidir. O, bununla bağlı aşağıdakı arqumentləri göstərir: "ABŞ-ın zəifləməsi Meksika ilə əməkdaşlığa son qoyar. Əgər Birləşmiş Ştatlarda millətçilik güclənərsə və təhlükəsizliklə bağlı qorxu yaranarsa, Meksika ərazi iddiaları irəli sürə bilər. Bu da həyəcan doğurur. Çünki ABŞ-ın dəniz yolları, kosmos, kiberfəza və ətraf mühit sahələrində, eləcə də münaqişələrin baş verdiyi hər yerdə sabitliyi təmin etmək üçün nəzarətini azaltmaq çox risklidir". Ona görə də politoloq ABŞ-ı ya "yeni xarici siyasət strategiyası həyata keçirməyə, ya da qlobal fəlakətə hazırlaşmağa" çağırır. Onun gəldiyi qənaətlərdən biri də "ABŞ-ın qlobal əhəmiyyətinin zəifləməsi nəticəsində regional münaqişələrin yaranacağıdır".

"Foreign Affairs" jurnalındakı məqalədə Z.Bjezinski xəbərdarlıq edir, Amerikanın tənəzzülündən sarsılacaq 8 ölkənin adını sadalayır.

Müəllif düşünür ki, Gürcüstan Rusiyanın "siyasi hədəsi və hərbi təcavüzü" qarşısında dayana bilməyəcək. Bu, "Avropanın neft-qaz təchizatının "cənub dəhlizi" üzərində Rusiyanın hökmranlığı, Avropaya təzyiqin güclənməsi, Azərbaycanda "domino effektini" Moskvanın siyasi məqsədlərinə görə sakitləşdirməklə bağlıdır".

Tayvan Çinin təzyiqləri qarşısında zəifləyəcək və onun iqtisadi uğurlarının cazibəsi altına düşəcək. Yenidən birləşmə Pekin üçün faydalı olan şəraiti yaxınlaşdıracaq. Bu, Çinlə ciddi konfrontasiya riski ilə əlaqədardır.

Dilemma qarşısında qalan Cənubi Koreya ya Çinin regional ağalığına tabe olmalı, ya da Yaponiya ilə münasibətləri möhkəmləndirməlidir. Belə vəziyyətdə Koreya yarımadasında hərbi-iqtisadi sabitlik üçün təhlükə yaranar, ABŞ-ın öhdəliklərinə Yaponiyanın və Cənubi Koreyanın inamı itər.

Müəllifin fikrincə, Amerikanın tənəzzülü Rusiyaya Belarusu yenidən "udmaq" şansı verər, Baltik ölkələrinin, xüsusilə Latviyanın təhlükəsizliyi təhdid altına düşər.

Hazırda Avropada Ukraynanın Qərb cəmiyyətinə inteqrasiya arzusu və imkanları zəifləyir. Bu, Rusiyanın imperiya ambisiyalarının yenidən oyanışı ilə bağlıdır.

Əfqanıstan artıq xarabaya çevrilib. Əgər Amerika qoşunları bu ölkədən tələsik çıxarılarsa, Əfqanıstanın tənəzzülü və qonşularının nüfuz rəqabəti qaçılmazdır. Bu, "Taliban" hərəkatının yenidən dirçəlməsi, Hindistan-Pakistan arasında "özgə əli ilə müharibə", beynəlxalq terrorizm üçün sığınacaqların meydana gəlməsi deməkdir.

Pakistan, hərbçilərin idarəçiliyi altında olan radikal islamçı ölkəyə, hərbçi-islamçı idarəçilərin kombinə edildiyi məkana və ya mərkəzi hakimiyyəti olmayan kvazidövlətə çevrilə bilər. Bu, nüvə silahına sahib səhra komandirləri, İran tipli anti-qərb hökumətinin formalaşması və Mərkəzi Asiyada regional qeyri-sabitliyin yaranması ilə əlaqədardır. Zorakılığın Çin, Hindistan, eləcə də Rusiyaya yayılması çox təhlükəlidir.

Amerikanın tənəzzülü İsraildə və bütövlükdə, "Böyük Orta Şərq"də siyasi sabitliyi pozacaq əsl "tektonik dəyişikliklərə" səbəb ola bilər. Bu, ABŞ və ya İsrailin İranla birbaşa konfrontasiyasına, islam radikalizminin və ekstremizminin artmasına gətirib çıxarır. Həmin prosesə ümumdünya neft-qaz böhranının, Fars körfəzində ABŞ-ın müttəfiqlərinin zəifləməsinin ciddi təsirini nəzərə almaq lazımdır.

Ümumilikdə bu ölkələrə Z.Bjezinskinin "yeni 8-liyi" deyə bilərik. Çünki diqqətlə nəzər salsaq, politoloq təkcə ölkələri sadalamır. Onun fikrinin əsasında "dünyanın geosiyasi güc mərkəzi Şərqə tərəf sürüşür" tezisi dayanır. Coğrafi baxımdan həmin ölkələr postsovet məkanını, Yaxın və Orta Şərqi əhatə edir, eyni zamanda, Çinə, Rusiyaya və Türkiyəyə yaxındırlar.



Beləliklə, Z.Bjezinskinin adıçəkilən məqaləsi dünyanın geosiyasi güc mərkəzinin dəyişməsi halında konkret olaraq hansı proseslərin baş verəcəyinin geosiyasi proqnozudur. Bu proqnozdan görünür ki, postsovet məkanı qeyri-müəyyənliklərə və mümkün xaotik proseslərə düçar ola bilər. Bu mənada, Z.Bjezinskinin məqaləsi mümkün risklərə diqqət yetirməyin vacibliyini bir daha ifadə edir.

P.S. Daha geniş məlumat üçün baxın: Brzezinski Z. Balancing the East, Upgrading the West. U.S. Grand Strategy in an Age of Upheaval // Foreign Affairs, January/February 2012. URL: http://www.foreignaffairs.com/articles/136754/zbigniew-brzezinski/balancing-the-east-upgrading-the-west

**Newtimes.az**
6 iyul 2012

## *2.3. Konqresin Azərbaycana qarşı üç haqsız sənədi*

ABŞ dünyanın ən qüdrətli dövlətidir. Güc, qüdrət əməldə özünü göstərir. Franklin Ruzvelt demişdir: "Qüdrətli olmaq üçün millət mütləq deyil ki, ədalətsiz olsun". Qüdrətli dövlətin ədaləti olmalıdır.

1992-ci ildə ABŞ Konqresi "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişi qəbul etdi. Bu düzəliş ABŞ hökumətinin Azərbaycana birbaşa yardımını qadağan edir. Səbəb kimi Azərbaycanın Dağlıq Qarabağı və Ermənistanı blokadada saxlaması göstərilir. Qəribəsi odur ki, bu bədnam düzəliş Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi vaxtlarda qəbul edilib. Konqresmenlər, əslində, heç nəyi düzəltməyiblər, ədalətə xidmət etməyiblər, əksinə, "həqiqəti əyiblər". "Qaynar nöqtəyə" "soyuq başla" yanaşmaq əvəzinə, odun üzərinə yanacaq atıblar. F.Ruzvelt haqlıdır: "Həqiqət insanların onu axtarmaq azadlığı olanda tapılır". ABŞ Konqresində kimsə (məsələn, senator Riçard Luqar kimi) həqiqət axtarışına çıxsa, dərhal erməni lobbisi "sandıqdan tullanır". Və F.Ruzveltin dediyi reallaşır: "Mənə 10 milyon dollar verin, Konstitusiyaya istənilən dəyişikliyin qarşısını alım".

Azərbaycan əsgərləri dünyanın müxtəlif bölgələrində terrora qarşı mübarizədə amerikan əsgərləri ilə bir yerdə savaşırlar. Ancaq nədənsə ABŞ Azərbaycanın erməni terroruna qarşı mübarizə aparmaqda beynəlxalq cəbhə yaratmasına dəstək vermir.

Azərbaycan ABŞ-ın antiterror koalisiyasına qoşulub. Azərbaycan Prezidenti ABŞ Prezidenti Barak Obamaya yazdığı məktubda terrorla mübarizədə bundan sonra da yanlarında olacağını ifadə edib. Lakin Azərbaycan xalqı hələlik ABŞ Prezidentinin Azərbaycanın dövlət başçısına erməni terroru ilə mübarizədə dəstək olacağı haqqında məktub yazdığını eşitməyib.

20 ilə yaxındır ki, ABŞ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik edir. O, Fransa və Rusiya ilə birlikdə ATƏT-in Minsk qrupunda həmsədrdir. Ancaq ABŞ indiyə qədər yalnız vasitəçi olub, problemi həll edən yox. Ola bilsin ki, onların vasitəçilikdən xoşları gəlir. Lakin "bacarıqlı usta iz buraxmır". ABŞ da öz tarixində "Dağlıq Qarabağ münaqişəsini həll edə bilmədi" ləkəsini saxlamalı deyil. Paulo Koelonun bir fikrini yadda saxlamaq faydalı olardı: "onlar mübarizədən, həyat da onlardan imtina etdi". Əgər münaqişəni ədalətlə həll etməkdən imtina etsələr, həyat da onlardan imtina edər.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra onun enerji ehtiyatlarından istifadə etməyə ilk can atanlar sırasında Amerika şirkətləri də vardı. Onlar Azərbaycanın neft və qaz layihələrində iştirak etdilər. ABŞ regionda beynəlxalq enerji layihələrinə aktiv dəstək verməkdə davam edir. Bu prosesdə Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir. "Nabukko", "Cənub axını", "Transxəzər"... bu enerji layihələrini ABŞ Azərbaycansız təsəvvür etmir.

ABŞ Konqresi isə Ticarət Aktına 1974-cü ildə etdiyi Cekson-Venik düzəlişi ilə Birləşmiş Ştatların normal ticarət münasibətlərini Azərbaycansız təsəvvür edir. Bu, ümumiyyətlə, absurd bir addımdır. Həmin düzəliş mühacirət azadlığına məhdudiyyət qoyulmasına görə daxil edilib. Özü də sovet dövründə yəhudilərin mühacirətinə qoyulan məhdudiyyətlərlə bağlı qəbul olunmuşdu. Azərbaycanda isə mühacirətə heç bir məhdudiyyət yoxdur.



Hətta ermənilər Azərbaycanda yaşayırlar, istədikləri vaxt mühacirət də edə bilirlər. Ümumiyyətlə, qəribədir – lazım gələndə bizi kimlərisə ölkədən "qovmaqda" ittiham edirlər, yenə özlərinə lazım olanda həmin kimlərinsə ölkədən getməsinə "əngəl törətməkdə" günahlandırırlar. Bernard Şou deyirdi ki, "İnsan hərdənbir düşünsə yaxşıdır. Mən bir neçə dəfə düşünməklə dünyanın məşhur yazıçısı oldum". Amerikanlar da hərdən düşünsələr çox yaxşı olardı.

Cekson-Venik düzəlişi ABŞ-Azərbaycan münasibətlərinin inkişafı yolunda əngəldir. Həyat daimi təşəkküldə olan prosesdir. O heç zaman özünü bir naxışla məhdudlaşdıra bilməz. Dəyişmək, yeniləşmək gərəkdir. Barak Obama Türkiyəyə səfəri zamanı Baş nazir R.T.Ərdoğana "biz dəyişdik, sizlər də dəyişin" demişdi. Azərbaycan dəyişib. O artıq 1992-ci ildəki Azərbaycan deyil. Lakin nədənsə nə "907-ci", nə də Cekson-Venik düzəlişi dəyişdi. Bu da strateji tərəfdaşlığın ruhuna uyğun gəlməyən haldır.

1992-ci ildən dəyişməyən başqa bir məqam da var. ABŞ Konqresi Dağlıq Qarabağdakı qanunsuz rejimə hər il milyonlarla yardım ayırır. Bu il həmin yardımı 2 milyondan 5 milyona qədər artırmaq haqqında düşünürlər. ABŞ-da "Dağlıq Qarabağ Respublikasının ofisi" açılıb. "Ofis" Ədliyyə Nazirliyində lobbiçilik qanunu çərçivəsində qeydiyyata alınıb. Birləşmiş Ştatlar "DQR" nümayəndələrinə Ermənistan pasportu vasitəsi ilə vizalar da verir. Onlar da ABŞ-a rahat səfər edir və oradan əliboş dönmürlər.

Amerika alimləri müasir dünyada proseslərin çox sürətlə getdiyini yazırlar. Onları dərk etmək işi xeyli çətinləşmişdir. Ona görə də bu gün həll edilməli məsələni sabaha saxlamaq olmaz. Qədimdə 7 müdrik adamdan birgə tələb olunanı, indi bir alimdən tələb edirlər. Teodor Ruzvelt deyirdi ki, "bir bu gün iki sabahdan yaxşıdır". Yəni bu gün ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirən məqamlar aradan qaldırılmalıdır. Bu, əslində, ABŞ-Azərbaycan münasibətlərinin məntiqi nəticəsi olmalıdır. Lakin nədənsə ABŞ heç kimdə öz məntiqi və ya məntiqsizliyi ilə şübhə doğurmayan belə məqamları asanlıqla həzm etməkdə davam edir.

**Kamal Adıgözəlov**
1 iyul 2012

### 2.4. Senator Robert Menendezə açıq məktub

Cənab Menendez,

Macarıstanda həbsdə olan Azərbaycan ordusunun zabiti Ramil Səfərov Azərbaycana ekstradisiya edildikdən sonra region və beynəlxalq mətbuatda məsələ ilə bağlı müsbət və mənfi bir sıra fikirlər səsləndi. ABŞ Milli Təhlükəsizlik Şurasının rəsmi nümayəndəsi Tommi Vietor Azərbaycan zabiti Ramil Səfərovun əfvinə münasibət bildirərək Barak Obamanın Macarıstandan Azərbaycana qayıdan Ramil Səfərovun əfvindən narahat olduğunu vurğulayıb:"Ramil Səfərov 2004-cü ildə Budapeştdə Ermənistan ordusunun zabitini qətlə yetirdiyini etiraf edib və ömürlük həbs cəzası alıb. Biz Azərbaycan hökumətinə təəssüfümüzü çatdıracağıq. Bu addım regionda gərginliyin azaldılmasına və barışığa yardıma xidmət etmir". Ağ ev nümayəndəsi bəyan edib ki, Birləşmiş Ştatlar Macarıstandan da izahat gözləyir.

Əlbəttə ABŞ Prezidenti bu və yaxud digər məsələlərə münasibət bildirə bilər. Bu zaman beynəlxalq münasibətlər sistemində ümumən qəbul edilmiş, ancaq iki qütblü dünyanın dağılmasından sonra bir xeyli korroziyaya uğramış beynəlxalq hüquq, siyasi mədəniyyət və ədalət anlayışı qaydalarına da əməl etməli idi. Səfərovun Azərbaycana ekstradisiya edilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əfv edilməsinin Azərbaycan qanunları və beynəlxalq hüquq çərçivəsində həyata keçirildiyindən nə sizin, nə də Prezident Obamanın şübhəsi olmasın.

Siz şəxsi internet səhifənizdə bu məsələyə münasibət bildirərkən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Qurqen Markaryanın *ailəsindən üzr istəməsi*, Səfərovun ömürlük həbs cəzasını çəkməsi üçün Macarıstana geri verilməsi gərəkdiyini ifadə etmişsiniz.

Senator olmağınıza baxmayaraq, nə beynəlxalq hüquq qaydalarını bilirsiniz, nə də suveren bir ölkənin konstitusiyasına hörmət edəcək qədər əxlaqlı bir davranış sərgiləmisiniz. Sizin üçün əhəmiyyətli olan senator seçkilərində Nyu Cersi ştatında yaşayan erməni əsilli seçicilərin səslərini toplamaqdır. Ermənilərin diaspor quruluşları



vasitəsilə maliyyə imkanlarınızı genişləndirmək ehtirası gözlərinizi o qədər örtüb ki, hədəyan danışmaqdan belə özünüzü saxlaya bilmirsiniz. Sizdən daha məntiqli bir bəyanat gözləyərdim, ancaq təəssüflər olsun ki, öz gözünüzdə tiri görmədən başqasının gözündə tük axtarırsınız.

Belə ki:

-Babalarınızın yerli qızıl dərililəri kütləvi şəkildə öldürdükləri üçün sizin yerli xalqın son nümayəndələrindən;

-Afrikadan gətirdiyiniz və kölələşdirdiyiniz, heyvan kimi davrandığınız insanların varislərindən;

Eləcə də:

-XX əsrin 70-ci illərinə qədər Afrika əsilli insanlara qarşı aparteid siyasəti həyata keçirərək onların insan hüquq və azadlıqlarını ciddi şəkildə pozduğunuz üçün;

-İkinci Dünya Müharibəsinin bitdiyi ərəfədə 6 Avqust 1945-ci ildə Xirosimaya, 9 Avqust 1945-ci ildə Naqasakiyə atdığınız atom bombalarının nəticəsində 100 min yaponiyalı mülkü vətəndaşı öldürdüyünüz və yüz minlərlə insanı şikəst qoyduğunuz üçün;

-Vyetnam müharibəsində 1962-1971-ci illər arasında mülkü insanları qətl etdiyiniz, onlara qarşı 80 milyon litr kimyəvi dioksin qazından (dəmir çəlləklərdəki zəhərli qazın etiketinin rənginə görə bu zəhərli qaza portağal qazı da deyirsiniz) istifadə edərək 5 milyon vyetnamlını öldürdüyünüz, milyonlarla insanı şikəst buraxdığınız üçün;

-Koreya xalqını iki yerə bölərək, bir-birinə düşmən etdiyiniz və bu düşmənçiliyin davam etməsi siyasətini həyata keçirdiyiniz üçün;

-Amerikanın İraqın enerji mənbələrinə sahib olması naminə bu *ölkəni işğal edib milyonlarla* insanı öldürdüyünüz üçün;

-11 sentyabr hadisəsindən sonra Əfqanıstanı işğal edərək yüz minlərlə insanı öldürdüyünüz üçün;

-İraq və Əfqanıstanda sizin iddia etdiyiniz kimi nöqtə vuruşlu silahlarla silahlı hədəfləri deyil, mülki insanları öldürdüyünüz üçün;

-"sülhməramlı" əsgərlərinizin İraq və Əfqanıstanda sivil insanları öldürüb, onların cəsədlərini təhqir edərək uşaqları və nəvələri üçün xatirə şəkilləri çəkdirdiklərinə görə onları cəzalandırmadığınız üçün;

-Liviyada hakimiyyəti devirərək və Suriyada devirməyə cəhd edərək regionda xaos yaratdığınız üçün;

-beynəlxalq terrorizmə müharibə elan edərkən öz dövlətinizdəki erməni terrorçuları vaxtından əvvəl əfv etdiyiniz üçün;

-Xocalı soyqırımını törədən Ermənistan Prezidentləri Robert Köçəryan və Serj Sərkisyanı ittiham etmədiyiniz üçün;

**Cənab Menendez,** Sizin və Amerika dövlətinin sadəcə bu qurbanlardan deyil, ümumən bəşəriyyətdən üzr istəməniz gərəkməzmi?

Hörmətlə,

**Dr. Hatəm Cabbarlı**
*Avrasiya Təhlükəsizlik və Strateji*
*Araşdırmalar Mərkəzinin sədri*
12 sentyabr 2012

### *2.5. Avropanın "ədalət" anlayışı: Tahleryan, Səfərov və Breyvik*

Avropa qitəsi tarixin qaranlıq mərhələlərində inkvizisiya və intibah dövrlərini, 30 illik, yüz illik müharibələri və nəhayət XX əsrdə iki dünya müharibəsini yaşamış və bugünkü görkəmini almışdır. Kilsə neçə-neçə gələcəyi parlaq olan elm adamını, filosofu diri-diri yandırmışdır. Ancaq yaşadıqları zəmanənin qaranlığını kilsənin ölümə məhkum etdiyi bu insanların fəlsəfi fikirləri və dünyagörüşləri deyil, yandırıldıqları tonqalın alovları sadəcə bir anlıq işıqlandıra bilməzdir.

Avropa və xristian dünyası hər zaman bütün məsələlərdə eqoist davranmış, "mənim" və "özgənin" təfəkkürünə sahib olmuşdur. Bu, inkvizisiya, intibah və iki dünya müharibəsində də belə olmuşdur və bu gün də belədir.

Avropa yalanı və iftiranı sevir. Amma bu yalan və iftiranı onlar özləri deyirsə və mənafelərinə uyğun gəlirsə sevirlər. Başqalarının haqlı olmaları, reallıqları və yaxud doğru söyləmələri onlar üçün o qədər də əhəmiyyətli deyil.



Yuxarıdakı söylənən fikirlər Avropanın bugünkü inkişafını şübhə altına almır. Ancaq yenə də Avropa sivilizasiyasının künc daşları olaraq qəbul edilən məsələlərdə bəzi ciddi problemlərin və çatışmazlıqların olduğu şübhəsizdir.

1917-1918-ci illərdə Osmanlı Sədr-əzəmi olmuş Tələt Paşanı 15 mart 1921-ci ildə Berlin Hardenbergstrdəki evindən çıxdığı zaman arxadan başına bir güllə vuraraq öldürən Soğomon Tahleryan cəmi 2 gün davam edən məhkəmədən sonra sərbəst buraxıldı. Alman məhkəməsi bəlkə də tarixinin ən tragikomik qərarını vermişdi. Bu qərar əmsal təşkil etsəydi, Almaniyada ümumiyyətlə məhkəmə sisteminin ləğv edilməsi gərəkirdi. Buna görə, hər hansı bir vətəndaş onun yaxınını öldürdüyü iddiasiyla (sübutla deyil) qarşısına çıxan birini rahatlıqla öldürə və sərbəst qala bilərdi.

O zamankı alman dövlətinin cinayət məcəlləsinə görə, qəsdlə adam öldürmə (yəni əvvəlcədən planlaşdırılmış şəkildə) edamla cəzalandırılmalı idi. Əgər ölüm təsadüfən, öldürülən şəxsin ağır təhqirləri nəticəsində baş vermişsə, yüngülləşdirici səbəb kimi qəbul edilir və müttəhim altı aylıq; qətl qəsdlə, amma əvvəlcədən planlaşdırılmadan törədilərsə müttəhim beş il ağır cəza alırdı. Ayrıca müttəhimin hadisə zamanı yaddaşı pozulmuşsa və anlaqsız olduğu üçün nə etdiyini bilməmiş cinayət törətmişsə heç bir cəza almırdı. Alman məhkəməsi də bunu diqqətə alaraq Tahleryanı sərbəst buraxmışdır. Əgər məhkəmə buna istinadən Tahleryanı sərbəst buraxdısa, onu ictimai təhlükəli şəxs kimi məcburi müalicəyə göndərməli idi. Ancaq nədənsə Tahleryanın bu xəstəliyi daha sonra heç bir zaman təkrarlanmadı və Tələt Paşanı öldürməklə özünü tam "müalicə etməyi" bacardı. Alman məhkəməsi sadəcə Tələt Paşanı öldürən Tahleryanı istintaqa cəlb etdi və sonra sərbəst buraxdı. Ona bu işdə kömək edən, silah təşkil edən və Tələt Paşanın yaşadığı yeri, hərəkət istiqamətini deyənlər isə istintaqdan kənarda qaldı.

Ramil Səfərov 1977-ci ildə Cəbrayıl rayonunda anadan olub. Yaşadığı rayon Ermənistan tərəfindən işğal edilərkən yaxın qohumları Ermənistan ordusu tərəfindən əsir alındıqdan sonra işgəncələrə məruz qalaraq öldürülüb. Erməni işğalının fəsadlarını və törətdikləri vəhşilikləri Tahleryandan fərqli olaraq, Səfərov gözləri ilə görüb,

yaşayıb, birinci dərəcədən yaxınlarını itirib. Ramilin doğulub-böyüdüyü rayon bu gün də Ermənistanın işğalı altındadır. Ramil, ailəsi və təxminən bir milyon qaçqın Ermənistan işğalı altında olan doğulub boya-başa çatdıqları doğma torpaqlarına geri dönə bilmir. Ramil 2004-cü ildə Macarıstanın Budapeşt şəhərində ingilis dili kursunda Azərbaycan dövlətini və Azərbaycan bayrağını təhqir etməsinə dözməyərək erməni zabitini öldürüb. Macarıstan məhkəməsi ona ömürlük cəza verib. Nədənsə Macarıstan məhkəməsi Səfərovun müharibədə ermənilərin törətdikləri vəhşilikləri görməsini, birinci dərəcədən yaxınlarının öldürülməsini, psixoloji vəziyyətini və erməni zabitin təhqirlərini diqqətə almayıb.

Anders Berinq Breyvik 13 fevral 1979-cu ildə doğulub. 22 iyul 2011-ci ildə Norveçin paytaxtı Osloda bomba partlayışı və hakimiyyətdəki Əmək Partiyasının Ütöya adasında təşkil etdiyi gənclər düşərgəsinin iştirakçılarına qarşı həyata keçirdiyi silahlı hücum nəticəsində 77 nəfəri öldürməkdə və 97 nəfəri yaralamaqda ittiham edilirdi. Cinayətləri etiraf etsə də, özünü təqsirkar kimi qəbul etmir. Xristianlığın lüteran cərəyanına etiqad edir. Breyvik bu cinayəti törətdikdən sonra Avropa mətbuatı İslam terroru xofunu yaratmağa çalışsa da, daha sonra cinayətin Breyvikin törətdiyi məlum olunca hadisəni başqa cür izah etmək üçün dəridən-qabıqdan çıxdı. Maraqlı budur ki, Norveç prokurorluğu da cinayəti daha dərindən və geniş araşdırmaqdansa, Breyvikin anlaqsız olub-olmadığı məsələsini əsas məsələ kimi gündəmə gətirdi. Breyvikin mətbuata çıxan beynəlxalq əlaqələri haqqında məsələlər araşdırılmadı. Bombanı necə əldə etdiyi, kimlərdən kömək aldığı kimi vacib məsələlər demək olar ki, araşdırılmadı. Bu iri miqyaslı terror aktının Breyvikin təkbaşına həyata keçirdiyini düşünmək sadəcə mümkün deyildir.

Norveç məhkəməsi təxminən bir ildən sonra Breyvikə 21 il cəza verdi. Yəni, Breyvik öldürdüyü hər adama görə 3,2 ay həbsxanada qalacaq. Tahleryan Tələt Paşanı öldürdü, ancaq cəza almadı. Səfərov Azərbaycan dövlətini və bayrağını təhqir edən erməni zabitini öldürdüyü üçün ömürlük cəzaya məhkum edildi.

Adı terrorçu siyahısında olan müsəlmanlar isə heç bir sübut, dəlil olmadan illərdir Quantanamo həbsxanasında saxlanılır. Onların insan hüquqları, azadlıqları ciddi şəkildə pozulur. Avropanın demokratik dəyərləri, insan haqları, təhlükəsizliyi, ədalət anlayışı budursa, digər dövlətlərdə gördüyü problemləri müzakirəyə çıxararkən düşünməlidir. Evi şüşədən olan biri, başqasının damına daş atmasa daha yaxşı olar.

**Newtimes.az**
3 sentyabr 2012

### *2.6. Avropa yol ayrıcında – dünya iqtisadi böhranı və Avropa evinin perspektivləri*

Napoleon imperiyasının süqutundan sonra Avropa xeyli dərəcədə monolit görünürdü. Avropa dövlətləri müharibədəki müttəfiqlikdən sonra siyasi birliyə isti baxırdılar. Lakin həmin dövrdə belə Avropa XXI əsrin əvvəllərində olduğu qədər birləşmiş və Şərqə doğru genişlənmə imkanına malik qurum təsiri bağışlamırdı.

Hazırda Avropa İttifaqının ümumilikdə 500 milyondan çox əhalisi olan 27 dövləti ilk baxışdan bir bazarda birləşmiş sarsılmaz geosiyasi vahidi xatırladır. Bu bazarın Şərqə doğru irəliləməsini postsovet ölkələrinin iqtisadçıları və siyasətçiləri dönməz tarixi proses kimi qiymətləndirirlər və getdikcə daha çox yeni ölkə Avropa inteqrasiyası orbitinə cəlb olunurlar. Aİ MDB-nin altı respublikası ilə Şərq Tərəfdaşlığı bazasında yeni danışıqlara başlamışdır. Danışıqların mahiyyəti yenə də Avropa İttifaqının genişlənməsinə gətirib çıxarır.

Lakin dünya iqtisadi böhranı öz təsirini göstərir və bu gün biz artıq Avropa perspektivlərini problemsiz açıq səma kimi qəbul edə bilmirik. 2012-ci ildə Beynəlxalq Əmək Təşkilatı (BƏT) qlobal məşğulluğa dair növbəti xülasə dərc etmişdir. BƏT-in hesablamalarına görə, bu və gələn il dünyada işsizliyin səviyyəsi müvafiq olaraq 6.1 faiz və 6.2 faiz təşkil edəcəkdir və 2016-cı ilədək böhrandan əvvəlki 5.4 faizə enməyərək, 6 faizdən yuxarı səviyyədə qalacaqdır. Lakin bu bədbin göstəricilər reallığı tam nümayiş etdirmir. Məsələ burasındadır ki, Avropada vəziyyət daha pisdir – avrozonada iş axtaran adamların sayı 11 faizə yaxınlaşır. Ümumiyyətlə, inkişaf etmiş

ölkələrdə işsizliyin səviyyəsi ümumdünya səviyyəsindən xeyli çoxdur və 2013-cü ilədək 9.4 faizdən artıq olacağı proqnozlaşdırılır.

Beynəlxalq təşkilatlar Avropada resessiyanın davam etməsinin beş əsas səbəbini göstərirlər: daxili tələbatın aşağı olması; şirkətlərin iqtisadiyyata əvvəlki kimi sərmayə qoymaması; bankların pis aktivlərlə yüklənməsi və kreditləri ixtisara salması; avrozonada dövlət borcunun və büdcə kəsirinin borcalma faizlərini artırması; valyuta məzənnələrinin olmaması devalvasiyaya imkan vermir. Qeyd etmək olar ki, bütün bu səbəblər görünür daha çox indiyədək məlum olmayan daha dərin amillərin nəticəsidir.

Qərbin liberal iqtisadçılarının düşüncələri hansı tərəfə yönəlmişdir? İqtisadiyyatın natarazlığının həmin bu dərin amillərinin üzə çıxarılmasınamı? Xeyr. Avropa və Amerika iqtisadçıları iki müxtəlif "prinsipial" düşərgəyə bölünmüşlər: maliyyə asketizmi tədbirlərinin tərəfdarları və iqtisadi yüksəlişin stimullaşdırılmasının tərəfdarları.

Bu yaxınlaradək Avropanın ən güclü iqtisadiyyatı sayılan Almaniya tərəfindən dəstəklənən qənaət tədbirlərinin tərəfdarları üstünlük təşkil edirdilər. Yunanıstanın, İrlandiyanın, Portuqaliyanın, İspaniyanın, İtaliyanın borcları Avropanın bir çox siyasətçi və iqtisadçılarını qorxuya saldı və Avropa İttifaqının demək olar ki, bütün ölkələri xanım Merkelin kursunun ardınca getməyə razılıq verdilər. 2012-ci ilin martında Avropa İttifaqının 25 ölkəsi xanım kanslerin müdafiə etdiyi yeni fiskal müqaviləni imzaladılar. Almaniyanın təkliflərinin mahiyyəti sadədir. Ölkələr kəmərlərini bərk çəkməli və Maastrixt göstəricilərinə, - büdcə kəsiri ÜDM-nın 3 faizindən, dövlət borcunun ÜDM-yə nisbəti 60 faizdən çox olmamalıdır, – nail olmağa can atmalıdırlar. Əslində bu, dövlət xərclərinin azaldılması, vergilərin, özü də ilk növbədə, qeyri-korporativ vergilərin artırılması, əmək haqqının, pensiyaların azaldılması, dövlət qulluqçularının işdən çıxarılması deməkdir. Almaniya bunları çox sadə izah edir: bu ölkə Yunanıstanın və digər ölkələrin borclarını ödəmək istəmir və hamını alman qənaətçiliyinə çağırır. Lakin Yupiter üçün mümkün olan öküz üçün əlçatmazdır və dövlət xərclərinin ixtisara salınması siyasəti problemli ölkələrdə nəticə vermir.



Yunanıstan yenə də defolta doğru gedir. İtaliya, Belçika, Niderland və Çexiyanın ardınca İspaniya da rəsmən son üç ildə ikinci dəfə resessiyaya uğramışdır. Avrostatın məlumatına görə, bu il Fransada dövlət borcu ÜDM-in 86 faizini təşkil edərək Maastrixt normativlərindən xeyli yüksək olmuşdur. Elə Almaniyanın özündə də hər şey yaxşı deyildir: DAX birja indeksi qonşu ölkələrin maliyyə bazarlarında həyəcanlanmanın ardınca aşağı düşür, milli borc ÜDM-in 80 faizindən çoxdur. Hollandiyada maliyyə qənaəti strategiyasına ciddi zərbə vurulmuşdur. Baş nazir Mark Rutte büdcənin 14 milyard avro ixtisara salınması planının parlamentdə müzakirəsindən sonra istefa verməli olmuşdur. Halbuki Hollandiya Avropa İttifaqının çiçəklənən ölkələrindən biri və Almaniyanın sadiq müttəfiqidir.

İqtisadi yüksəlişin stimullaşdırılmasının tərəfdarları deyirlər: "Bu, təəccüblü deyildir, fiskal ixtisarlar siyasəti iqtisadi problemlərin həlli üçün deyil, mühasibat və maliyyə hesabatlarının qaydaya salınması üçün yaxşıdır". Son günlər stimullaşdırma tərəfdarlarının sıralarından xeyli səslər eşidilməkdədir. BVF-in icraçı direktoru, Avropa Mərkəzi Bankının başçısı, İtaliyanın Baş naziri, ABŞ xəzinəsinin katibi Avropa ölkələrinin, ilk növbədə Almaniyanın fiskal qənaət tədbirləri ilə məhdudlaşmayaraq Avropa İttifaqının iqtisadiyyatının stimullaşdırılması siyasətinə başlamağa çağırmışlar.

Nobel mükafatı laureatı, Amerika iqtisadçısı Pol Kruqman hesab edir ki, korporativ vergilərin və dövlət xərclərinin azaldılması iş yerlərinin və iqtisadiyyatın ixtisarına gətirib çıxararaq depressiv iqtisadiyyatlarda vəziyyəti daha da pisləşdirir. Hər bir iqtisadçı bilir ki, iqtisadiyyatın azaldılması dövlət borcunun getdikcə artmasına gətirib çıxarır, başqa sözlə, borc azalmaqdansa, perspektivdə artır.

Lakin iqtisadi artımın stimullaşdırılmasının tərəfdarları nə təklif edirlər? Fransa sosialisti, bu gün isə artıq Fransa Prezidenti, cənab Oland bu yaxınlarda təkliflərin bir hissəsini açıqlamışdır. Sosialistlər Avropa İttifaqının bu yaxınlarda imzalanmış müqaviləsinə 4 düzəliş təklif edirlər: infrastruktur layihələrinin maliyyələşdirilməsi üçün kollektiv avrobondların buraxılması, Aİ struktur fondlarından daha geniş istifadə olunması, maliyyə əməliyyatlarına vergi, Avropa Mərkəzi Bankının yeni iş yerlərinin yaradılmasını maliyyələşdirilməsi. Aydın-

dır ki, özəl sektorun kreditlərlə dəstəklənməsi və daxili tələbatın artırılması məqsədi ilə pul təkliflərinin genişləndirilməsi təşəbbüslərin əsasını təşkil edir.

Almaniya kollektiv avrobondların buraxılmasının əleyhinədir, çünki bu halda öhdəliklərin gələcəkdə ödənilməsi yükü alman vergi ödəyicilərinin boynuna düşəcəkdir. Ancaq məsələ heç bunda da deyildir. Əvvəla, maliyyələşdirmənin genişləndirilməsi belə bir sadə faktla üzləşəcəkdir ki, Avropa Mərkəzi Bankı ABŞ Federal Rezervindən fərqli olaraq pul intervensiyası üçün geniş səlahiyyətlərə malik deyildir. AMB-nin başlıca vəzifəsi tamamilə əksinə, daha dəqiq desək, inflyasiyanı saxlamaqdan ibarətdir. Digər tərəfdən iqtisadiyyata pul qoyulmasının nəticə verəcəyinə heç kim zəmanət vermir. ABŞ Federal Rezervi artıq bir neçə ildir ki, ABŞ iqtisadiyyatı müxtəlif yollarla dollarla təmin edir. Lakin hələlik bu, nəzərəçarpacaq nəticələr vermir. ABŞ iqtisadiyyatının rüblük artımı statistik xətalar çərçivəsində qalır, məşğulluğun səviyyəsi isə artmır.

Əgər kreditin genişləndirilməsinin də nəticə vermədiyi aydın olarsa, onda bir opsiya qalır. Artıq indi bəzi iqtisadçılar iddia edirlər ki, vahid valyuta devalvasiya yolu ilə iqtisadiyyatın və ixracın rəqabət qabiliyyətliyini artırmağa imkan vermədiyi üçün problemli ölkələrə mane olur. Bir sıra ölkələrin avrozonadan çıxması, öz növbəsində, tamamilə başqa konfiqurasiyanın, məsələn, iki və ya üç səviyyəli Avropanın, yaxud AİB-in köhnə sərhədlərinə qayıdışının əvvəli ola bilər. Bu, həqiqətə uyğun görünmür. Hər halda Aİ ölkələrinin iqtisadiyyatlarının Maastrixt normativlərinə uyğunlaşacağı ehtimalı getdikcə azalır. Bu isə yeni Avropa müqaviləsinin əsas şərtlərindən biridir.

Alman filosofu Şpenqlerin ardınca Avropanın süqutundan danışmaq tez olduğu kimi, Avropadakı indiki əhval-ruhiyyəni bəzi şərhçilərin etdiyi kimi, Veymar Respublikası ilə müqayisə etmək də nəzakətsizlikdir. Hər halda bütün Avropada avroskeptiklərin və radikal sağ hərəkatın artması faktı şübhəsizdir və buna görə də daha ciddi münasibət tələb edir.

**Ayaz Qədirov**
24 may 2012



### *2.7. Avropa İttifaqı: yeniləşmə ssenariləri*

Qərbdə Avropa İttifaqının hazırkı formada uzun müddət mövcudluğuna şübhə ilə yanaşırlar. Bunun səbəbi qurumun dərin böhran içində olmasıdır. Onun bir neçə variantda yeniləşməsi proqnozlaşdırılır.

**Böhranın səbəbləri və miqyası**

Avropa İttifaqı (Aİ) tarixinin böhranlı mərhələsini yaşayır. Yarandığı vaxtdan o, bu qədər dərin ziddiyyətlər sahəsinə düşməmişdi. Analitiklər Aİ-nin indiki vəziyyətini "soyuq müharibə"dən sonra Qərb üçün ən çətin mərhələ kimi qiymətləndirirlər. Bunun səbəbi həm Aİ-nin daxilində yetişmiş, həm də qlobal geosiyasi mühitdə formalaşmış bir çox faktorla bağlıdır.

Doğrudan da Avropa İttifaqı sosial, siyasi, ideoloji, iqtisadi, maliyyə və mədəni sahələrdə böhran keçirir. Digər tərəfdən, qlobal miqyasda geosiyasi mühitdə cərəyan edən hadisələr Aİ-nin XXI əsrdə qarşısında çox çətin vəzifələrin durduğunu göstərir.

Geosiyasi aspektdə əsasən iki faktor Aİ-yə təsir edir: birincisi, ABŞ-da maliyyə böhranının davam etməsi. İkincisi, Amerikanın əsas diqqətini Sakit okean məkanına yönəltməsi. Birinci faktora nisbətən ikinci daha çox təsir gücünə malikdir. Çünki ABŞ Aİ-nin təhlükəsizliyi məsələsinə əvvəlki dövrlərdə olduğu qədər diqqət yetirə bilmir. Vaşinqton öz gücünü Uzaq Şərq istiqamətində yenidən qruplaşdırır. Bu vəziyyət Avropanın təhlükəsizliyinin yeni modelini işləməyi tələb edir.

Aİ ölkələrinin təhlükəsizliyinə başqa təhdid onun sərhədləri yaxınlığında siyasi və geosiyasi xarakterli böhranların yaranmasıdır. Burada ilk olaraq Suriyadakı vətəndaş müharibəsinin və İran-İsrail qarşıdurmasının yaratdığı gərginlik yada düşür. Eyni zamanda, Rusiyanın sürətlə inkişaf etməsi Aİ üçün ayrıca problemlər yaradır. Xüsusilə, enerji təminatı məsələsi yeni məzmun kəsb edir.

Bunlara Avropa ölkələrinin daxilində güclənən bir çox böhranlı vəziyyəti əlavə etmək lazımdır. Burada maliyyə böhranı ilk yerdə durur. Onun əlamətlərindən biri Aİ üçün ortaq vergi-büdcə

siyasətinin formalaşdırılmamasıdır[1]. Hazırda İttifaqın əsas çətinliyi bu sahə üzrədir. Onun fonunda vahid Avropa valyutasının, avronun ümidləri doğrultmaması xüsusi psixoloji çətinliklər yaradır. Bəzi Aİ ölkələrinin avrozonadan çıxmaq təhlükəsi ilə üzləşməsi böhranın ən təhlükəli əlamətlərindən biri sayılır.

Beləliklə, ABŞ-ın əsas diqqətini Sakit okean regionuna yönəltməsi ilə Avropa özünü "geosiyasi yetim" kimi hiss edir. Maliyyə-iqtisadi böhranın yaratdığı psixoloji apatiya siyasi-ideoloji qeyri-müəyyənlik fonunda təşkilatın təhlükəsizliyi problemini xeyli çətinləşdirib. Bununla yanaşı, Avropada sosial-iqtisadi inkişafın fərqli modellərinin axtarışı prosesi gedir. Sol təmayüllü partiyalar bu sahədə təşəbbüsü ələ almağa çalışırlar. Onların ritorikasında "ədalətli bölgü" və "rifah" ifadələrini "iqtisadi inkişaf kursu" əvəz edir[2]. Aİ-də yeni sosial-iqtisadi inkişaf modelinə ehtiyacın yaranması bütövlükdə bu qurumun taleyi ilə bağlı müxtəlif proqnozlara yol açıb. Anlitiklər bir-birindən fərqli inkişaf ssenariləri göstərirlər. Hətta Aİ rəsmiləri də mövcud vəziyyətin dəyişməsi zərurətini vurğulayırlar. Təşkilatın hansı model üzrə inkişaf edəcəyi məlum deyil. Mümkün variantların təhlili göstərir ki, burada hətta İttifaqın parçalanması ehtimalı vardır.

### Avropa İttifaqının yenidən qurulma perspektivləri

Ən güclü inteqrasiya modelini Avropa Komissiyasının rəhbəri Joze Manuel Barrozu təklif edir. O, Avropa Parlamentindəki çıxışı zamanı təşkilatın yenidən qurulmasına ehtiyac yarandığını vurğulayıb. J.M.Barrozu Avropa Federasiyası yaratmaq zamanının gəldiyini deyib. Aİ-nin yeni adını isə Avropa Birləşmiş Ştatları kimi təklif edib. Bu, möhkəm federal əsasda dövlətlərin güclü birliyini formalaşdırmağı nəzərdə tutur. Onun vahid valyutası, büdcəsi və mərkəzləşmiş iqtisadiyyatı olmalıdır. İdarəetmə bir mərkəzdən həyata keçirilməlidir[3].

[1] Barış Tınay. Entegrasyon Teorisi ve Avro Krizi: Değişen Ekonomi Politikaları. "Uluslarası Politika Akademisi": politikaakademisi.org, 09 Ekim 2012.
[2] Barış Tınay. Avrupa Birliği ve Savaş Ekonomisi. «Uluslarası Politika Akademisi»: politikaakademisi.org, 30 Ağustos 2012.
[3] Баррозу предложил преобразовать ЕС. Newtimes.az, 19 сентября 2012.



Avropa İttifaqının federal dövlətə çevrilməsi ilk baxışdan cəlbedici ideya təsiri bağışlayır. Lakin Aİ-yə daxil olan ölkələrin vətəndaşları bir qədər fərqli düşünürlər. Alman sosioloqların apardığı tədqiqatlar göstərib ki, rəyi soruşulan almanların yalnız yarısı və fransızların üçdə biri Avropa İttifaqında inteqrasiyanın onların həyatlarına daha yaxşı təsir edəcəyinə inanır. Aİ-nin yaranmasından həyatlarının daha yaxşı olduğu fikrində olan almanlar 29 faiz, fransızlar isə 34 faiz təşkil edir.

Bunlar avrozonaya etibarın azalması prosesi ilə müşayiət olunur. Rəyi soruşulan almanların üçdə ikisi hesab edir ki, alman markası dövriyyədə olsaydı, həyat səviyyəsi daha da yüksələrdi. Fransızların 89 faizi avronun ölkədə qiymətlərə pis təsir etdiyi fikrindədir. 67 faiz isə Avropa İttifaqının bir hissəsi olmaq istəmədiklərini bildirib (daha ətraflı bax: 4).

Təbii ki, hər bir sosioloji sorğu tam mənzərəni ifadə etmir. Ancaq bu kimi tədqiqatlar cəmiyyətin ümumi əhval-ruhiyyəsini müəyyən etməyə imkan yaradır. Sorğuların nəticələrindən görünür ki, Avropa İttifaqına daxil olan ölkələrin cəmiyyətlərində ziddiyyətli proseslər gedir.

Vətəndaşlar qurumun gələcəyi ilə bağlı aydın təsəvvürə malik deyillər. Onların sırasında bədbinliyə qapılanlar vardır. Bunlar bir qurum olaraq Aİ-nin daxilində böhranın dərinləşməsi əlamətidir. Belə bir şəraitdə Avropa Birləşmiş Ştatları ideyası yalnız xoş arzu təsiri bağışlayır.

Qərb analitikləri içərisində Aİ-nin gələcəyinə daha geniş mövqedən yanaşanlar da vardır. ABŞ-ın Alman Marşal Fondunun (AMF) aparıcı elmi işçisi Konstansa Ştelsenmüller yaxın 10 il üçün Avropa İttifaqının üç inkişaf ssenarisini proqnozlaşdırır. Onlardan birincisi parçalanmış və bölünmüş Avropanı, ikincisi inteqrasiya proseslərinin dərinləşməsi hesabına müvəffəqiyyət əldə edilməsini, üçüncüsü isə zəifləmiş və hissələrə ayrılmış Avropanın yenidən qurulmasını nəzərdə tutur.

### Parçalanmış və bölünmüş Avropa

Birinci ssenari ən pis variant hesab edilir. Bu halda Avropa İttifaqı bir təşkilat olaraq parçalanır və böyük geosiyasi güclərdən asılı

hala gələcək. Hətta zəngin avropalılar övladlarını Çin və Hindistana təhsil almağa göndərməli olacaqlar. Buradan məlum olur ki, birinci ssenaridə Avropanın bilik və informasiya sahəsində geridə qalması ehtimalı nəzərə alınır.

Digər parametr kimi təhlükəsizlik, kəşfiyyat və polis sisteminin təkmilləşməsi sahələrində Aİ-nin lazımi nəticələr əldə edə bilməməsi göstərilir. Belə çıxır ki, avropalılar qarşıdakı 10 ildə dövlət üçün əsas problemlərin təhlükəsizliyin təmini ilə bağlı olacağını proqnozlaşdırırlar. Müəllifin bu arqumentdə nə dərəcədə haqlı olduğunu demək çətindir. Ancaq o da faktdır ki, dünyanın müxtəlif regionlarında münaqişələr artır və onların ədalətli həlli modeli təklif edilmir. Ona görə də kəşfiyyat, polis, ordu kimi məsələlər aktuallığını artıra bilər.

Nəhayət, birinci ssenariyə görə, Aİ-nin vergi-maliyyə sistemini vahid mərkəzdə cəmləşdirə bilməməsi həlledici rol oynamalıdır. İqtisadi sahədəki böhran bütövlükdə Aİ-nin infrastrukturunu çökdürə bilər. Bu proses narkoticarətin və terrorun artması fonunda daha geniş miqyas alar. Nəticədə, Avropa iqtisadi cəhətdən parçalanmış və zəifləmiş bir geosiyasi məkan halına gələr.

Burada maraqlı olan məqamlardan biri Aİ-ni əhatə edən geosiyasi məkanlarda proseslərin proqnozlaşdırılması ilə bağlıdır. Rusiyanın zəifləyəcəyi təxmin edilir. Yaxın Şərqdə xaosun davam edəcəyi və bunun da regionun böyük dövlətlərinə təsir göstərəcəyini proqnoz edirlər. Türkiyə Aİ-dən imtina edəcək, lakin onunla əlaqələrini saxlamağa çalışacaq. ABŞ-ın dünyaya təsiri azalacaq, Çin daha sürətlə inkişaf edəcək.

**Dərin inteqrasiya modeli**

Birinci ssenaridən fərqli olaraq, bu variantda Avropa İttifaqı inkişaf edərək güclü geosiyasi məkana çevrilə bilər. Bu, iqtisadiyyatın ən yeni texnologiyalar əsasında intensiv inkişafı sayəsində mümkün ola bilər. Burada bilik iqtisadiyyatı modeli əsas götürülməlidir. Avropa ölkələri dünyanın ən yaxşı təhsil sistemini yaratmalıdır. Aİ məkanında olan universitetlərə bütün ölkələrdən çoxlu sayda tələbə axını olmalıdır.



Aİ təhlükəsizlik və kəşfiyyat sahələrində aparıcı yer tutmalıdır. Bunun üçün ən mükəmməl texnologiyalardan istifadə ediləcək. Bununla Avropa ölkələri terrorizmə, narkoticarətə və korrupsiyaya qarşı səmərəli mübarizə aparmaq şansına malik olacaq. Onun sərhədləri etibarlı şəkildə qorunacaq. Aİ-yə qonşu olan ölkələrdən qaynaqlana biləcək təhlükələrin qarşısı dərhal alınacaq. Üstəlik, onlarda sabitliyin yaradılması üçün 250 minlik peşəkar Avropa ordusundan istifadə etməyə ehtiyac yaranacaq.

Maraqlıdır ki, bu variantda analitik Böyük Britaniyanın Aİ-dən çıxması ehtimalını nəzərə alır. Onun əvəzində Xorvatiya və İslandiya İttifaqa daxil olmalıdır. Lakin Böyük Britaniyasız da Aİ sürətlə inkişaf edəcək. Bütün sahələrdə inteqrasiya dərinləşəcək. Avropa iqtisadiyyatı faktiki olaraq "küldən dirçələrək" intensiv inkişaf mərhələsinə qədəm qoyacaq.

Bu variantda Aİ-nin dünyanın əsas geosiyasi gücü olması proqnozlaşdırılır. Çünki Rusiya parçalanma prosesi nəticəsində zəif düşməlidir. Onun hakim elitası dövlətin qüdrətinin bərpası qayğısına qalmayacaq. ABŞ daha zəif vəziyyətə gələcək. Çin və Hindistan isə Aİ-nin potensialı qarşısında geri çəkiləcək. Türkiyə bu variantda da Aİ-yə daxil olmaqdan imtina edəcək. Bununla yanaşı, Ankara İttifaqla yaxın əməkdaşlıq etməyə çalışacaq. Aİ Türkiyə vasitəsi ilə Yaxın Şərqdəki xaosun öhdəsindən gələcək.

**Avropanın yeniləşməsi ssenariləri**

Üçüncü ssenari Aİ-nin zəifləməsi və hissələrə parçalanmasından sonra, özünü toparlayıb, yenidən formalaşmasını nəzərdə tutur. Bu, avropalıların öz səhvlərini dərk etməsi əsasında mümkün ola bilər. Onlar hazırkı İttifaq modelinin zəif cəhətlərini təhlil edərək, qüsurları aradan qaldırmağa çalışmalıdırlar. Lakin əgər üçüncü ssenaridən söhbət gedirsə, bu, Aİ-nin indiki formada mövcudluğunun mümkünsüzlüyünü qəbul etmək deməkdir.

Yəni hazırda Aİ-də ümumi vəziyyət çox ağırdır. Proseslər gec və ya tez Avropa İttifaqının parçalanmasına aparacaq. Avrozona dağılacaq. Yeni vahid valyuta yaratmaq ehtiyacı meydana çıxacaq. Avropa

İttifaqına daxil olan ölkələrin öz təhlükəsizliyini təmin edə bilməməsi bu sahədə ümumi problemlər yaradacaq. ABŞ-ın diqqətini Sakit okean regionuna yönəltməsi nəticəsində Aİ özünü qoruya bilməyəcək.

Avropaya Rusiyanın yardım etməsi imkansız olacaq. Çünki bu ölkənin özü zəifləyəcək. Belə görünür ki, Aİ-nin taleyi ilə bağlı hər üç variantda Rusiyanın zəifləməsi nəzərə alınır. Ancaq bu, belə olmaya bilər. Rusiyanın güclənəcəyi şərtini nəzərə alaraq Aİ-nin taleyi ilə bağlı hər hansı proqnoz verilmir. Bu, təbii ki, qüsurlu yanaşmadır.

Avropa İttifaqının zəifləməsi və hissələrə ayrılmasına baxmayaraq, özünü yeniləşdirə biləcək. Bu, daha demokratik bir sistem olacaq. Üçüncü variantda da Böyük Britaniyanın qurumdan çıxması ehtimalı nəzərə alınır. Eyni zamanda, yeniləşmiş Aİ-yə çox az sayda ölkənin qəbul edilməsi proqnozlaşdırılır. Yenidən qurulacaq Avropa öz təhlükəsizliyini tam təmin edə biləcək. Onun digər regionlarla əlaqəsi daha da genişlənəcək.

Sonuncu ssenari Avropa İttifaqının 2022-ci ildə daha güclü bir təşkilata çevrilməsini nəzərdə tutur. Həmin variantda Aİ-nin qlobal geosiyasi mühitdə əsas rəqibləri ona qarşı düşmən mövqe tutmamalıdırlar. Daha maraqlısı odur ki, Avropanın ABŞ-ın dəstəyinə elə bir ehtiyacının qalmayacağı proqnozlaşdırılır. Görünür, avropalılar Amerikanın əsas gücünü Sakit okean regionuna yönəltməsinin uzun sürəcəyi qənaətindədirlər. Digər tərəfdən, ABŞ-ın özünün daxili sosial-iqtisadi inkişafının ləngiməsini də nəzərə alırlar[1].

**Hansı variant daha realdır?**

Hələlik bu suala birmənalı cavab verən yoxdur. Əslində, müxtəlif ssenarilər quranlar da etiraf edirlər ki, söhbət nəzəri modellərdən gedir. Onlardan hansının reallaşacağını zaman göstərəcək. Bununla yanaşı, üçüncü ssenarinin bugünkü reallığa daha yaxın olduğu fikri var. Avropa İttifaqı ilə bağlı fərqli təkamül ssenarilərindən danışılması isə bir həqiqəti ortaya qoyur.

Həqiqət ondan ibarətdir ki, Qərbdə Avropa İttifaqının hazırkı formada uzun müddət mövcudluğuna inanmırlar. Bunun səbəbi qurumun indi dərin böhran içində olmasıdır. Böhran siyasəti, idarəetməni, iqtisadiyyatı, mədəniyyəti və ideologiyanı əhatə edir. Buna görə, Avropa İttifaqı yeniləşməyə məhkumdur.

[1] Констанца Штельценмюллер. Европа, предоставленная сама себе // «Россия в глобальной политике», №4 Июль/Август, 2012.



Ancaq məsələ ondan ibarətdir ki, Aİ-nin daxili vəziyyəti və qlobal geosiyasi reallıqlar, yeniləşmə prosesinin hansı ssenari üzrə gedəcəyini proqnozlaşdırmağı mürəkkəbləşdirir. Əgər söhbət uzun müddətdən gedirsə, bu cür proqnoz vermək çox risklidir. Ona görə də Aİ-nin müxtəlif ssenari üzrə təkamül edə biləcəyi haqqında yalnız nisbi mənada danışmaq mümkündür.

Diqqəti çəkən başqa məqam Avropa İttifaqının təhlükəsizliyi ilə bağlı ciddi narahatlıqların olmasıdır. Bu, hərbi və energetik sahələri əhatə edir. Avropaya yaxın regionlarda baş verən geosiyasi proseslər Qərbi qorxuya salır. Görünür, qlobal miqyasda geosiyasi mənzərənin dəyişməsində qeyri-müəyyən məqamlar çoxdur[1].

Həmin məqamlardan biri sürətlə inkişaf edən bir sıra dövlətin güc mərkəzi olmaq iddiasından qaynaqlanır. Bir neçə yüz il aparıcı rol oynayan Qərb üçün bu iddialar qorxulu röyalara bənzəyir. Onlar alternativlərdən çəkinirlər. Bu səbəbdən də proqnozlarda bədbinliyə daha çox meyl edirlər. Reallıqda isə söhbət ümumiyyətlə dünya nizamının tam və birdəfəlik dağılmasından getmir – məsələ Qərblə yanaşı, digər sivilizasiyaların da söz sahibi ola bilməsi şansının artmasındadır.

Bunlar onu göstərir ki, Avropa İttifaqı ilə bağlı verilən proqnozlarda əsas məqsəd Qərbin alternativ geosiyasi mərkəzlərin mövcud olduğu dünyaya adaptasiya imkanlarının müəyyənləşdirilməsindən ibarətdir. Təklif edilən ssenarilərdən də göründüyü kimi, Avropa üçün dünya hələ uzun müddət risk və təhlükələrlə dolu olacaq. Risklərin hökm sürdüyü dünyada yeniləşmənin bir variantda olması mümkün deyildir.

**Kamal Adıgözəlov**
22-23 oktyabr

[1] Henry A.Kissinger. The limits of universalism // "The New Criterion", June 2012.

## *2.8. Avropanın "dəbdəbəli" tənəzzülü*

**500 illik hegemonluq...**

Avropa sivilizasiyası tənəzzül dövrünü yaşayır. O, inkişaf zirvəsini artıq keçib. Zahirən cəlbedici görünsə də, Qərb mədəniyyətinin böhranı dərinləşir. Bunu iki tarixi prosesin başa çatması ilə əlaqələndirirlər. Birincisi, 500 ildir ki, mövcud olan avropamərkəzli dünya mənzərəsi dağılır. İkincisi, 200 illik sənaye sivilizasiyasının tarixi müddəti başa çatır.

Bu proseslər iki tendensiyanı meydana çıxarır. Birincisi, yeni sivilizasiyalar – Çin, Hind, İslam, Latın Amerikası və s. irəli çıxır. İkincisi, postsənaye sivilizasiyası formalaşır. Qərb mədəniyyətinin tənəzzülü fonunda baş verən bu hadisələr qlobal miqyasda ziddiyyətlərin daha da kəskinləşməsi ilə müşayiət olunur. Onun bir çox əlaməti vardır. Onlar Qərb cəmiyyətlərinin bütün sahələrini əhatə edir. Artıq alimlər həyəcan təbili çalırlar. Dərinləşən mədəniyyət böhranının müxtəlif cəhətlərini təhlil edirlər.

Yazıçı Mixail Veller vurğulayır ki, "bir zamanlar Avropada əxlaqın sərt xeyirxahlığı vardı". İndi bundan əsər-əlamət yoxdur. Bütövlükdə, Qərb mənəvi-əxlaqi dəyərləri aşılanıb. Cinayətlərin sayı durmadan artır. Daha qorxulusu odur ki, əvvəllər müşahidə edilməyən cinayət növləri meydana gəlir.

Xüsusilə, uşaqlar və qadınlara qarşı ağlagəlməz hərəkətlər edilir. Norveçdə 77 günahsız insanın qətlə yetirilməsi, nikahdankənar uşaqların sayının çoxalması, gənclərin islamofobiyaya yoluxması, ultraradikal və şovinist qrupların getdikcə fəallaşması kimi hadisələr Qərbdə müşahidə edilir.

Qərb cəmiyyətlərinin mənəvi deqradasiyası təsadüfi deyil. Prosesin təməli Frensis Bekonun yaşadığı XVI əsrdə qoyulub. F.Bekon "elm – güçdür" tezisini irəli sürdü. Bununla avropalılar elmi təbiəti fəth etmək vasitəsi hesab etməyə başladılar. İqtisadiyyatın bütün sahələrində böyük uğurlar əldə etdilər. Texniki tərəqqi vüsət aldı. XIX əsrdə isə aydın oldu ki, cəmiyyətin maddi cəhətdən zənginləşməsi ciddi sosial-mədəni ziddiyyətlər yaradır. İzafi maddi istehsal böhrana səbəb olur.



Ən böyük zərbə isə mənəvi-əxlaqi dəyərlərə dəyir. İlk olaraq cəmiyyətin ailə institutu böhrana düşür. Ailələrin dağılması ilə bütövlükdə sosial strukturlar tənəzzülə uğrayır. Hazırda bu proses Qərbdə xeyli dərinləşib. Orada gənclərin ailə qurmasında iki mənfi tendensiya özünü göstərir.

Birinci, ailə quranlar az uşaq dünyaya gətirirlər. Bu, ciddi demoqrafik problemlər yaradır. Bəzi hesablamalara görə, 2050-ci ildə Qərb ölkələri xalqları dünya əhalisinin yalnız 10 faizini təşkil edəcək. Bu zaman yaşı 60-dan çox olanlar ümumi sayın 1/3-i qədər olacaq.

İkinci, eyni cinsdən olan gənclərin evlənməsi halları çoxalır. Bəzi Avropa ölkələrində bu eybəcərliyi qanuniləşdiriblər. Həmin tendensiyanın artması müşahidə edilir. Bunlar ailənin cəmiyyətin təməli funksiyasını yerinə yetirməsinə böyük maneələr yaradır. Eyni zamanda, insanların əxlaqına mənfi təsir edir.

Mədəniyyət və əxlaqın tənəzzülü "yalançı mədəniyyət" adlı qəribə bir hadisəni ortaya çıxarıb. Narkomaniya, alkoqolizm, fahişəlik, cinsi istismar həyat norması kimi təqdim olunur. Ümumi sosial-mədəni normalardan kənara çıxmalar yeni mədəniyyət nümunəsi hesab edilir. Sosioloji tədqiqatlar göstərir ki, Qərb cəmiyyətlərini bu cür təbəqələşmə daha dərin böhranlara sürükləyir. Cəmiyyətin bütövlüyü pozulur.

Bir çox tədqiqatçı yaranmış bu vəziyyətin hələ XVI əsrdə Avstriyanın Osmanlıda səfiri olmuş Q.de Busbekin təsvir etdiyi bir mənzərə ilə müqayisə edirlər. Səfir yazırdı: "Onların (türklərin) tərəfində möhtəşəm imperiyanın ehtiyatları, qələbə qazanmaq vərdişi, birlik, intizam və ayıqlıq var. Biz tərəfdə isə dağınıqlıq, tərəddüdlər... əxlaqsızlıq, inamsızlıq, sınmış mənəviyyat, qətiyyət çatışmazlığı... Məgər biz sonucun necə olacağına şübhə edə bilərik?".

**Varlılar və kasıblar: uçurum dərinləşir**

Səfir Q.de Busbek yanılmamışdı. Qərbin hətta iqtisadi qüdrəti ziddiyyətli məqamlarla doludur. İndi orda varlılarla kasıblar arasındakı fərq hədsiz dərəcədə çoxdur – 74:1. Sosioloqlar bunu cəmiyyətin böyük ölçüdə qütbləşməsi kimi xarakterizə edirlər. Mövcud sosial təbəqələr bir-birinə qarşı düşmən mövqeyi tuturlar. Bu gün Qərbin hətta ən çox inkişaf etmiş ölkələrində insanların etiraz aksiyaları keçirməsi həmin tendensiyanın təsdiqidir.

Avropa İttifaqına üzv olan ölkələrin bir çoxunda isə böhran cəmiyyətin iqtisadi dayaqlarını sarsıdır. Yunanıstan artıq adalarının bir qismini satmağı düşünür. İspaniya Avropa İttifaqını Türkiyədən nümunə götürməyə çağırır. Almaniya isə bundan sonra digər Avropa ölkələrinin maliyyə yükünü çəkməyəcəyini bəyan edir. İtaliya və Portuqaliya sosial-iqtisadi böhrandan ciddi surətdə narahatdır.

Təcrübə göstərir ki, Qərbin sosial-iqtisadi böhranı insanlarda bir sıra neqativ cəhətləri gücləndirir. Məsələn, aqressivlik, amansızlıq, tamahkarlıq, təcavüzkarlıq, zəbt etmə kimi mənfi keyfiyyətlər daha çox yayılır. Bunlar cəmiyyətdə olduqca təhlükəli meyllər yaradır. Avropa İttifaqına üzv ölkələrdə və ABŞ-da son illər baş verən kütləvi qətliamlar bunun təsdiqidir.

Amerikada filmlərin nümayişi zamanı insanların qəfil atəşə tutulması dünyanı lərzəyə saldı. Qatil cinayəti əyləncə üçün törətdiyini dedi. Bu, əxlaqın süqutudur! Məktəblərdə dərslərin gedişində sinfə daxil olub həmyaşıdlarını güllələbaran edən gənc hansı mənəviyyatın daşıyıcısıdır? Qərb sosioloqları hələ də bu suala cavab tapa bilmirlər.

Son zamanlar İnternetdə küçələrdə və nəqliyyatda insanların gözü qarşısında intim münasibətdə olan gənclər haqqında informasiyalar yayılır. Onlar "çeşidli yalançı mədəniyyətə" sahib olmaları ilə öyünürlər. Özlərini müdafiə etmək üçün insan haqlarından və azadlıqdan danışırlar. Bəzi gənclərin miqrantlara qarşı son dərəcə təcavüzkar davranışları haqqında çox danışılır. Almaniyada bir gənc əlində silah müsəlman ailəsinin yaşadığı mənzilə daxil olaraq terror həyata keçirib. Polis isə nədənsə cinayətkarı hələ də tapa bilməyib.

Bütün bunlara görə son zamanlar Qərbdə islamofobiyanın vüsət alması təsadüfi görünmür. Avropa ölkələrində müsəlmanların sayının çoxalmasına bəzi dairələr dözümsüz yanaşırlar. Eyni zamanda, inkişaf edən müsəlman ölkələrinə qarşı ədalətsiz addımlar atırlar. Görünür, Qərbdə cəmiyyətin daxilində getdikcə kəskinləşən ziddiyyətlərdən diqqəti xaricə yayındırmağa çalışırlar. Lakin insanlar hədsiz dərəcədə varlananlara qarşı etirazlarını da getdikcə gücləndirirlər. Bu da Qərb cəmiyyətlərinin bütövlükdə deqradasiyaya uğradığının göstəricisidir.



Varlılarla kasıblar arasındakı fərqin artmasının ciddi sosial-mədəni problemlər yaratması ümumilikdə mədəniyyətin tənəzzülü fonunda baş verir. Ona görə də bu proses insanların mənəvi-əxlaqi dəyərlərini yüksək dərəcədə pozur. Bunun nəticəsi cəmiyyətin daha dərin qatlarda qütbləşməsi olur. İndi Qərb tədqiqatçıları bu tendensiyadan çox ehtiyat edirlər. Lakin problem yalnız daxili ziddiyyətlərin kəskinləşməsi ilə məhdudlaşmır.

**Şərq sivilizasiyalarının yüksəlişi**

Roma klubunun fəxri sədri Aleksandr Kinqin maraqlı bir etirafı var. O yazır: "Biz sağ qalmaq üçün kor-koranə çıxış yolu axtarırıq. İnsanı heyvanlar aləmindən ayıran sərhəd mənəviyyat idi. Hazırda istehlak siyasəti və praktikası insanı insaniyyətin ən aşağı pillələrinə atır. Bu, real təhlükədir. Buradan fəlakətə isə cəmi bir addım qalır".

Qərbin tanınmış analitiklərinin fikrincə, geosiyasi aspektdə həmin fəlakətin nəfəsi duyulur. Arnold Toynbi əvvəlcədən görürdü ki, dünya geosiyasi səhnəsinə nəhəng Asiya sivilizasiyaları çıxır. Onların əhalisinin yarıdan çoxu gənclərdir. Güclü insan və təbii ehtiyatlarına malikdirlər. Hazırda həmin sivilizasiyalar intensiv surətdə inkişaf edir, ancaq maddi praqmatizm əsas götürülmür. Xüsusilə, Çin və İslam sivilizasiyası daha perspektivli görünür.

Həmin sivilizasiyalar mənəvi-əxlaqi dəyərlərə böyük diqqət yetirirlər. Ona görə də, Qərbə nisbətən Çin və İslam ölkələrinin daha çox şansının olduğu qənaəti var. Avropa alimlərinin gəldiyi bu nəticə onu göstərir ki, Qərb mədəniyyətə strateji faktor kimi baxır.

Şübhəsiz ki, mədəniyyətin tənəzzülünün qarşısının alınması üçün uyğun addımların atılmasını da zəruri hesab edir. Hazırda Qərbdə informasiya cəmiyyəti modelini təkmilləşdirməklə total böhrandan xilas olmağa çalışırlar. Bu üsulun hansı nəticə verəcəyini indidən demək çox çətindir.

Lakin bir məqam tam aydındır – Qərb sivilizasiyasının böhranı dünyada fərqli mədəniyyət sistemlərinin əhəmiyyətini artırmışdır. Bu əsasda ümumiyyətlə bəşər sivilizasiyasının tənəzzülündən danışmaq olmaz. Belə çıxır ki, Qərb indi fərqli mədəniyyət sistemlərinin təkamül dinamikasını öyrənməklə böhrandan xilas olmaq şansı əldə

edir. Məsələnin bu tərəfi maraqlıdır və hələ XX əsrin 70-ci illərində Pol Feyerabend həmin ideyadan söhbət açırdı.

Təcrübə bir qədər fərqli mənzərəni ortaya qoydu. Qərb hələ də öz dəyərlərini dünyaya qəbul etdirmək məqsədindən əl çəkməyib. Müxtəlif regionlarda baş verən münaqişələr, müsəlman ölkələrinə olan hərbi təcavüz, demokratiya adı altında "inqilab ixracına" cəhdlər və s. kimi hadisələr problemlərin qaldığını göstərir. Xüsusilə, müsəlman dövlətlərinə qarşı qərəzli siyasət davam edir. Belə bir şəraitdə Qərb sivilizasiyasının böhrandan xilas olmaq şansı çox az görünür.

**Newtimes.az**
20 dekabr 2012

### *2.9. Nobel sülh mükafatı: siyasi məqamlar*

Bugünlərdə beynəlxalq ictimaiyyət Nobel mükafatının yeni sahibləri ilə tanış oldu. Bunların arasında isə Avropa İttifaqının Nobel Sülh Mükafatına layiq görülməsi ən çox diskussiyaya səbəb oldu. Bu da həmin mükafatın hansı meyarlar əsasında verilməsi məsələsini gündəmə gətirdi.

Məlum olduğu kimi, Nobel ölümündən 1 il əvvəl, 1895-ci il noyabrın 27-də Parisdə özünün məşhur vəsiyyətnaməsini tərtib etmişdir. Həmin vəsiyyətə əsasən, onun kapitalı etibarlı bir formada fonda toplanmalı və bu fondun gəliri hər il bəşəriyyətə ən böyük xidməti olan şəxslərə 5 əsas sahə üzrə verilməli idi. Belə ki, vəsaitin bir hissəsi fizika sahəsində ən böyük kəşfi və ya ixtiranı edən şəxsə, bir hissəsi kimya, bir hissəsi fiziologiya və tibb sahəsində ən böyük kəşf edən elm adamına, bir hissəsi ədəbiyyat sahəsində ən gözəl əsəri yazan şəxsə verilməli idi.

Həmin vəsiyyətə əsasən, vəsaitin digər bir hissəsi də millətlərarası qardaşlıq, silahların azaldılması və yaxud ləğvi və sülh üçün ən çox çalışan şəxsə verilməli idi.

Nobel öz vəsiyyətində bu mükafatların kim tərəfindən veriləcəyini də müəyyənləşdirmişdir: fizika və kimya sahəsində mükafatlar İsveç Elmlər Akademiyası tərəfindən, fiziologiya və təbabət sahəsində



işlərə görə mükafatlar Stokholmdakı Karolina İnstitutu tərəfindən, ədəbiyyat üzrə mükafat Stokholm Akademiyası tərəfindən, sülh uğrunda mübarizəyə görə mükafat isə Norveç Stortinqinin seçdiyi 5 nəfərdən ibarət komitə tərəfindən verilməli idi.

1901-ci ildən verilməyə başlayan Nobel Sülh Mükafatının indiyə qədər 124 laureatı olmuşdur ki, bunlardan 100-ü fiziki şəxs, 24-ü isə təşkilatdır (BQXK 3 dəfə, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı 2 dəfə bu mükafata layiq görülüb).

Bu məsələnin görünən tərəfidir. Bu gün isə verilən sual ondan ibarətdir ki, görəsən Nobel Sülh Mükafatına təqdim olunan və layiq görülən şəxslər həqiqətən də Nobelin nəzərdə tutduğu meyarlara cavab verirmi? Nobel özü sağ olsaydı, mükafatının bu şəxslərə verilməsini istərdimi? Məncə istəməzdi.

Necə ki, mən istəmirəm. Yəqin ki, bəziləri deyə bilər ki, sənin istəyib-istəməməni soruşan da yoxdur. Ancaq bu doğru deyil və bu heç kəsə qəribə gəlməsin. Elə bir nöqteyi-nəzərdən, Nobelin ona-buna payladığı həmin pulların bir hissəsi Bakı neftindən əldə edilən pullardır. Nobelin özü vəsiyyətnaməsində ifadə etməsə də, onun ailəsi, bu pulların bir hissəsini Azərbaycanda qazanıb və bir Azərbaycanlı olaraq vətənimin zənginliklərindən əldə edilən gəlirlərin kimlərə paylanmasına qərar verilməsində mənim də fikir söyləməyə mənəvi hüququm çatır.

Düzdü, sevindirici haldır ki, münsiflər heyəti bir zamanlar Hitler, Stalin, Mussolini kimi namizədliyi təqdim olunan şəxslərə "yox" cavabı vermişdir. Elə Çerçil, Taft, Ruzvelt, Trumen, Adenauer, Nehru kimi tanınmış liderlərin də namizədliyinin təqdim olunmasına baxmayaraq, mükafatı ala bilməmişlər. Lakin SSRİ-nin dağılması müsbət hal olsa da, bu mükafatın Qorbaçov kimi şəxslərə hansı xidmətlərinə görə verilməsi müəmmalıdır və bu addım daha çox siyasi maraqlara xidmət etdi. Necə ola bilər ki, 5 dəfə təqdim olunmasına rəğmən, Mahatma Qandi kimi iyirminci əsrin ən böyük sülh tərəfdarlarından biri olan adama verilməyən mükafat ona verilsin? Axı o bəşəriyyət üçün nə edib? Eyni şəkildə, Yasir Ərəfat, Şimon Perez və İshaq Rabinə də mükafatın hansı əsasla verildiyi məlum deyildir. Axı İsrail-Fələstin münaqişəsinin həlli perspektivləri hələ də yoxdur. Eləcə də, Barak Obama. Axı vəsiyyətə riayət edilərsə,

bu mükafat avans, həvəsləndirmə kimi verilə bilməz, əksinə, həyata keçirilmiş hər hansı bir xidmətin əvəzində verilməlidir. Əgər həvəsləndirmə kimi verilirdisə, o zaman niyə Qərbi Avropaya 44, Şimali Amerikaya 19, Afrikaya isə cəmi 6 mükafat düşüb? Tərsinə olsaydı daha stimulverici olmazdımı?

Belə halları görəndə, istər-istəməz yadıma Vyetnamlı siyasətçi Le Duc Tho düşdü. O, 1973-cü ildə müasir diplomatiyanın korifeylərindən hesab olunan Henri Kissincer ilə birlikdə Vyetnam müharibəsinin həlli istiqamətindəki müzakirələrdə göstərdikləri xidmətinə görə bu mükafata layiq görülsə də, mahiyyət etibarı ilə onu almaqdan imtina etmişdi. Elə fransız mütəfəkkir Jan-Pol Sartr da ədəbiyyat sahəsində ona verilən mükafatdan imtina etmişdir. Məncə bu hal həm Qorbaçov, həm Obama, həm də elə bu il Avropa İttifaqı üçün nümunə ola bilərdi.

Son zamanlar Nobel mükafatının verilməsinin siyasiləşməsinin şahidi oluruq. Nəinki, sülh mükafatı, eləcə də ədəbiyyat sahəsində verilən mükafatlar da demək olar ki, siyasi motivlərə görə verilir. Mükafatı alan şəxs ya gərək hədəf seçilən ölkənin dissidenti olsun (bir zamanlar Pasternak, Solyenitsin, Brodski kimi sovet dissidentlərinə, daha sonra isə Qrass, Fo, Saramaqo kimi ABŞ-ı sevməyənlərə), ya da ki, hansısa meyara görə kiməsə və nəyəsə bağlı olsun. Yoxsa necə ola bilər ki, bir zamanlar Tolstoy, Çexov, Zola, Prust, Tven kimi namizədlərə verilməyən mükafat, bu gün Orhan Pamuka verilir?

Bu da bizə onu söyləməyə əsas verir ki, Nobel komitəsi özünün əbədi missiyasını tamamən unudub. Yavaş-yavaş yuvarlanaraq, deyəsən heç özü də bilmədən geosiyasi ambisiyaların girovuna çevrilib. Lakin bununla belə, komitə özünü elə aparır ki, onun səmimiliyinə heç bir şübhə qalmasın. Amma, təəssüflər olsun ki, dünyanın bir nömrəli mükafatı artıq özünün dəyərini və reytinqini riyakarlıqla, yarınmaqla saxlamaq istəyir.

Əgər bu mükafat Avropa İttifaqına 10 il əvvəldə verilsəydi, yenə də inandırıcı olmazdı. İndi Aİ-nin ən böhranlı dövrüdür. Əgər söhbət sülhdən gedirsə, Asiyanın elə ölkələri vardır ki, illərdir müharibə etmir. Avropa İttifaqı isə hər hansı bir münaqişənin həllinə töhfə verə bilməyib. Qonşuluğunda yerləşən münaqişə ocaqlarının alovunu söndürə bilməyib. Elə uzağa getməyək, Cənub Qafqaz bunun əyani nümunəsidir. Bu təşkilat bu gün daha çox geosiyasi qurum kimi fəaliyyət göstərir. Onu saxlayan da geosiyasi ambisiyalardır.

Təsadüfi deyildir ki, Çex Respublikasının Prezidenti Vatslav Klaus Nobel mükafatının bu sahədə verilməsini faciəvi səhv adlandırmış və belə addımların Nobel mükafatını dəyərdən saldığını bildirmişdir.

**Dr.Turab Qurbanov**
7 noyabr 2012

### *2.10. Britaniya: beynəlxalq hüquqa hörmətsizlik*

"WikiLeaks" yenidən dünya siyasətinin diqqət mərkəzindədir. Bu dəfə onun yaradıcısı Culian Assanjın taleyi ilə bağlı qalmaqal yaranıb. Bir neçə dövlət arasında sözün həqiqi mənasında diplomatik gərginlik müşahidə olunur.

**Assanj və Berezovski: fərq nədədir?**

C.Assanjı İsveç hüquq-mühafizə orqanları seksual cinayətdə ittiham edir. Ekvadorun Britaniyadakı səfirliyi isə ona siyasi sığınacaq verib. İndi C.Assanjı oradan çıxarmaq çox çətin həll edilən məsələyə çevrilib. Əvvəlcə, britaniyalılar Ekvadorun Londondakı səfirliyinə hücum edəcəklərini açıqladılar. Dünya dərhal buna reaksiya verdi – bu, beynəlxalq hüququ pozmaq deməkdir!

"The Times" qəzeti rəsmi Londonu nəzərdə tutaraq "münaqişə yaratmaqdan çəkinmək lazımdır", yazdı. Qəzet mövqeyini əsaslandırmaq üçün sual edirdi: "bəlkə hansısa həqiqi dissident Britaniya səfirliyinə sığındı. Onda nə olacaq?"

"Independent" açıq xəbərdarlıq etdi ki, təhdid heç nəyi həll etmir. Assanjı silah gücünə səfirlikdən çıxarmaq Ekvadorun əlinə diplomatik arqument vermiş olardı.

"Financial Times" isə daha dərinə gedərək, "səfirliyin şərəfsiz mühasirəsi" ifadəsini işlədib. Qərbin digər tanınmış nəşrləri də təqribən bu mövqeni tutdular.

Əsas məsələ odur ki, Britaniya kimi qocaman bir dövlət nəyə görə beynəlxalq hüququ belə ucuz çeynəmək fikrinə düşdü? Bizcə, bu

sualın cavabı bütövlükdə Qərb dövlətlərinin özlərini, heç şübhəsiz, haqq və ədalətin beşiyi hesab etməsindədir. Buna görə də onlar istədikləri kimi davranmağı normal hesab edirlər.

Britaniya yüzlərlə adama siyasi sığınacaq verib. Sığınacaq alanlar haqqında heç də birmənalı mövqe bildirmək olmur. Onların bəzilərinə sığınacağın siyasi, bəzilərinə iqtisadi, bəzilərinə isə digər maraqlar xatirinə verildiyi haqqında məlumatlar yayılır.

Britaniya hökuməti ilə onların heç birinin qaytarılması ilə bağlı danışıq aparmaq mümkün deyil. Amma, görünür, Britaniyaya olar. Bir sıra hallarda sığınacaq rüşvət müqabilində verilir. Məsələn, B.Berezovskinin 2002-2008-i illərdə sığınacaq üçün offşor şirkətlər vasitəsi ilə 320.000 funt-sterlinq pul verdiyi haqqında məlumat var[1].

**Vyana Konvensiyasına atılan ələk**

Beynəlxalq hüquq müstəvisində isə Britaniya Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasını pozmağa cəhd edib. Həmin sənədin 22-ci maddəsində yazılıb: "1. Nümayəndəliyin binaları toxunulmazdır. Yerləşmə dövlətinin hakimiyyət orqanları nümayəndəlik başçısının razılığı olmadan bu binalara daxil ola bilməzlər. 2. Nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq və nümayəndəliyin sakitliyinin istənilən formada pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün hər cür lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir"[2].

Britaniya hakimiyyət orqanları isə Ekvadorun Londondakı səfirliyinə hücum edib, siyasi sığınacaq almış adamı həbs etmək iddiasına düşmüşdü. Qərbin inkişaf etmiş bir ölkəsində bu dərəcədə açıq-saçıq hüquq pozuntusuna cəhd olursa, ondan hansı demokratik nümunədən danışmaq olar? Bu kimi haqsızlığı görən və eşidən

---

[1] Sam Greenhill. So why did a controversial Russian oligarch give Queen's cousin Prince Michael £320000 through offshore companies? / Daily Mail, 13 May 2012; URL:http://www.dailymail.co.uk/news/article-2143711/Queens-cousin-given-320-000-controversial-Russian-oligarch-pay-grace-favour-flat-upkeep.html.

[2] Vienna Convention on Diplomatic Relations. United Nations Treaty Collection. URL:http://treaties.un.org/Pages/ViewDetails.aspx?src=TREATY&mtdsg_no=III-3&chapter=3&lang=en.



insanların ümumiyyətlə, hüquqa, insan haqlarına əməl olunmasına, ədalətə inamı qalmaz.

Digər ölkələrə müxtəlif iradlar bildirən, onları insan haqlarını tapdalamaqda günahlandıran bir ölkə öz maraqları üçün nə qədər qərəzli olduğunu bir daha nümayiş etdirmiş oldu. Beynəlxalq hüquqa və insan haqlarına bu cür münasibətin olduğu dünyada terrorun qarşısını almaq olmaz. Ermənistan kimi təcavüzkar dövlətlər işğalçılıqdan əl çəkməz.

Bir məsələ getdikcə daha çox aydın olur. Dünyanın böyük dövlətləri ədalətli, beynəlxalq hüquqa dəqiq əməl edən mövqe tutmasalar, bəşəriyyət zərər görməkdə davam edəcək. İnsanlar nahaq yerə həyatlarını itirəcəklər. Dünyada barış və rifah olmayacaq

**Newtimes.az**
30 avqust 2012

# III Fəsil
# DÜNYA SİYASƏTİNİN GEOİQTİSADİ ÖLÇÜSÜ

## *3.1. Azərbaycanın neft diplomatiyası və yaxud asimmetrik müzakirələrdə uğur strategiyası*

Sentyabr ayının 20-də Azərbaycanın müəllifi olduğu "Əsrin müqaviləsi"nin imzalanmasının 18 ili tamam oldu.

Məsələ bundadır ki, ötən 20 il ərzində nəhəng enerji və infrastruktur layihələri yaratma düşüncəsi hər zaman gündəmdə olmuşdur. Böyük və kiçik dövlətlər müxtəlif adlar altında iri miqyaslı layihələr irəli sürmüş, beynəlxalq münasibətlər sistemini bu cür məsələlərlə gündəmdə tutmuşlar. Lakin, nəticəyə gəldikdə isə, demək olar ki, ortada Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tibilisi-Qars dəmir yolundan başqa real heç nə olmamışdır. Azərbaycanın həmmüəllifi olduğu TANAP layihəsi də elə bu il imzalanaraq reallığa qovuşmuşdur.

Bunları görəndə istər-istəməz Azərbaycanın bu layihələrdən ən çətini və ilki olan "Əsrin müqaviləsi"nin imzalandığı dövrə nəzər salmaq istədim: o zamanlar Azərbaycanın siyasi, iqtisadi, geosiyasi, texnoloji vəziyyəti regionun və dünyanın bəzi dövlətlərinin indiki vəziyyətindən o qədərmi güclü idi ki, tək başına belə nəhəng layihələri reallaşdıra bildi?

O zamankı vəziyyətə daha ətraflı nəzər salsaq aydın şəkildə görərik ki, vəziyyət tamamən başqa cür idi.

**Geoloji baxımdan** Xəzər regionunda mövcud olan karbohidrogen ehtiyatlarının həcmi haqqında qeyri-müəyyənlik hökm sürürdü: bölgədə nə qədər enerji ehtiyatının mövcud olduğu bəlli olmadığı üçün, buraya yüksək həcmli investisiya yatırılmasının iqtisadi baxımdan verimliliyi sual altında idi.

**Texnoloji baxımdan** yeni müstəqil olmuş ölkənin mövcud ehtiyatların istismar edilməsi üçün lazımi imkanları demək olar ki, yox vəziyyətində idi.



**Coğrafi baxımdan** beynəlxalq bazara birbaşa çıxışı olmayan Azərbaycanın istehsal edəcəyi enerji məhsullarının dünya bazarına çıxarılması imkanları olduqca məhdud vəziyyətdə idi. Boru xəttinin keçəcəyi ərazilərdə real münaqişələr boru xəttinin təhlükəsizliyi məsələsini gündəmə gətirirdi: Ermənistan-Azərbaycan münaqişəsi, Türkiyədə terror problemi, Gürcüstanda Osetiya və Abxaziya münaqişələri, Rusiyada Çeçenistan münaqişəsi, Əfqanıstanda taliban riski, İranın ABŞ sanksiyasına məruz qalması.

**İqtisadi baxımdan** Azərbaycanda yüz faizlərlə ölçülən inflyasiya, cəmi bir neçə milyon dollara bərabər olan dövlət büdcəsi, yüksək həcmdə xarici borc, istehsalatın dayanması, ərzaq çatışmazlığı və digər bu kimi makroiqtisadi problemlər xarici səhmdarları çəkindirən faktorlardan biri idi.

**Siyasi baxımdan** vətəndaş müharibəsi təhlükəsi, inzibati-siyasi iqtidarın zəifliyi, siyasi etibarın zəifləməsi və sivil itaətsizlik ölkədə mövcud olan problemlərin əsasını təşkil edirdi.

**Diplomatik baxımdan** bəzi qonşu ölkələrlə münasibətlərin gərginləşməsi, aktivləşən erməni təbliğatı ölkənin xaricdəki imicini zəiflədirdi.

**Geosiyası baxımdan** xarici dövlətlərin regiondakı toqquşan maraqları vəziyyəti daha da gərginləşdirirdi.

Və ən nəhayət, **hərbi baxımdan** Ermənistanın hərbi təcavüzü nəticəsində ölkənin ərazisinin 20 faizinin işğal olunması və 1 milyona yaxın əhalinin qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi ölkənin yüksək riskli zonada yerləşməsinə səbəb olmuşdur.

Beləcə, xarici investisiyaların təməlində dayanan risk analizi nöqteyi-nəzərindən Azərbaycanın enerji resurslarına 60 milyard dollar məbləğində kapital qoyuluşu mümkünsüz görünürdü.

Azərbaycan həmin dövrdə zəif olduğu halda dünyanın super güclərinin nəhəng neft şirkətləri ilə müzakirələr apardı və bunu bacardı. "Əsrin müqaviləsi" imzalandı.

Lakin Azərbaycan bununla kifayətlənmədi: əlavə digər transmilli layihələrin reallaşmasına çalışdı və bunlara da nail oldu.

Bunun da əsas iki səbəbi vardı. Birincisi o idi ki, Azərbaycana dahi şəxsiyyət Heydər Əliyev rəhbərlik edirdi. Demək olar ki, bir zamanlar SSRİ Kommunist Partiyası Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Generalı kimi elə dünyanı idarə edənlərdən biri olmuşdu. O, dünyanın gedişini çox yaxşı başa düşürdü və nə etmək istədiyini də yaxşı bilirdi.

İkincisi isə, Azərbaycan öz mövqeyində və xarici siyasətində səmimi idi. Çünki, bu siyasət heç bir dövlətə qarşı yönəlməmişdi, rəqabət yaratmaq üçün deyil, əməkdaşlığı gücləndirmək üçün formalaşdırılmışdı, balanslaşdırılmış xarici siyasət idi. Azərbaycan həm də daxili siyasətində səmimi idi, çünki bu siyasət dövlətin və millətin maraqlarına xidmət edirdi, hər bir vətəndaşın rifahının yüksəlməsinə yönəlmişdi.

Azərbaycanın yürütdüyü düzgün daxili və xarici siyasətin nəticəsidir ki, bu gün ölkədə misli görünməmiş inkişaf səviyyəsi qeydə alınmışdır. Ölkədə daxili sabitlik bərpa edilmiş, iqtisadi göstəricilər dəfələrlə artmış, xaricdə dövlətin nüfuzu güclənmişdir.

Məsələyə səthi yanaşan bəziləri Azərbaycanın əldə etdiyi bu uğuru neftlə əlaqələndirməyə çalışırlar. Lakin mahiyyətə varıldığında, bunun doğru olmadığı açıqca görünməkdədir. Ona görə ki, bu gün dünyada Azərbaycandan dəfələrlə zəngin olan neft, qaz və digər təbii zənginliyə malik ölkələr vardır. Ancaq onların heç birisi Azərbaycanın qazandığı nailiyyətləri əldə edə bilməmişdir.

Demək ki, Azərbaycanı digər dövlətlərdən fərqləndirən başqa bir amil mövcuddur. Bu amil isə ölkədə aparılan daxili və xarici siyasətin düzün seçilməsidir. Neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun, eləcə də insan kapitalının inkişafına yönləndirilməsi bunun səbəblərindən biridir. Davamlı inkişaf təmin olunur. Bir sahədə əldə edilən uğur digər sahələrə də sirayət edir.

Ölkədə həyata keçirilən siyasətin düzgün seçilməsi özlüyündə digər bir vacib amilə yol açmışdır: lider-xalq vəhdətinə.

Bəzi ölkələrdə siyasi liderlər xaldın mənafeyini unudaraq, hakimiyyətdə qalmağı xarici amillərin yardımına bağlamağa üstünlük verirlər. Lakin beynəlxalq təcrübə sübut edir ki, bu siyasətin gələcəyi yoxdur. Siyasət adı altında xalqın və millətin mənfəətinə zidd olan oyunların oynanması heç vaxt uğurlu nəticə verə bilməz. Azərbaycandan dəfələrlə zəngin olan ərəb ölkələrində, eləcə də Azərbaycanın yerləşdiyi regionun digər ölkələrində bu gün yaşananlar deyilənləri doğrulayır.

Ölkəsi, milləti, dövləti və xalqı üçün çalışan bir liderin müvəffəqiyyət qazanmama riski yoxdur. Münasibətlər hər zaman qarşılıqlı olur. Xalqını sevən, ona xidmət edən lider xalqı tərəfindən sevilir və dəstəklənir. Bu durumda isə xarici havadarlara artıq ehtiyac qalmır. Hər bir oyunda olduğu kimi, siyasətdə də əsas qayda vardır: qazanan komanda dəyişməz.

**Newtimes.az**
1 oktyabr 2013

### *3.2. Almaniyanın Avropada hegemonluq siyasəti*

Almaniyanın neokolonializm siyasəti Avropada ciddi narazılığa səbəb olub. Almaniya əvvəl Yunanıstan və böhrandan əziyyət çəkən başqa dövlətlərdə böhranın dərinləşməsi siyasətini yürütdü. Məsələn, Almaniya bankları hələ 2010-cu ilin əvvəlindən başlayaraq Yunanıstana kredit verməkdən imtina edərək onu çıxılmaz vəziyyətə saldılar. 2010-cu ilin fevralında aydın oldu ki, gözlənilmədən Almaniyanın dövlət maliyyələşdirilməsi ilə məşğul olan ən iri bankları, "Hypo Real Estate" və başqaları Yunanıstanın qiymətli kağızlarını almaqdan imtina etdilər. Habelə "Postbank" sərmayə yatırmaqdan imtina etdi. "Deutsche Bank", "Bayeren LB" və "LBBW" banklarının davranışı da Yunanıstanı böhranın girdabına yuvarladı. Almaniya bankları həlledici məqamda elə qərar qəbul etdilər ki, Yunanıstanda böhran dərinləşsin və ölkə çıxılmaz vəziyyətə düşsün.

Bütün bunlar 2010-cu ilin fevralında baş verdi. Bankların belə davranışını ardınca, yəni 2010-cu ilin martın 3-də Almaniya Bundestaqının Xristian-demokrat partiyasından deputatı, kansler Angela Merkelin yaxın silahdaşı Marko Vendevits Yunanıstana təklif etdi

ki, Avropa İttifaqına olan borcları müqabilində yunan adalarının bir hissəsini versin. Buna paralel olaraq Bundestaqın Azad demokratlar partiyasından olan üzvü, xarici işlər naziri Gido Vestervellenin silahdaşı Frank Şeffler belə bir ideya ilə çıxış edir ki, yunanlar borcun əvəzində özlərinin bəzi adalarını şirkətlərdəki payları ilə birlikdə satsınlar. Almaniyada çıxan «Bild» qəzeti bu bəyanatı belə ifadə etmişdi: «Biz sizə pul, siz bizə Korfu adasını». Onu da qeyd etmək lazımdır ki, Korfu adası Yunanıstan sahillərinin ən iri adalarından biridir. Bu adada 100 mindən artıq əhali yaşayır.

O zaman adalar məsələsində güzəştə getmək istəməyən Baş nazir Georgios Papandreu bəyan etdi ki, əgər Avropa İttifaqı onun ölkəsinə kömək etməsə Beynəlxalq Valyuta Fonduna müraciət edəcək. Bu məqam avroya böyük zərbə vura bilərdi. Xüsusilə Almaniyanın və Fransa Prezidenti Sarkozinin planlarını BVF-nin o zamankı icraçı direktoru Dominik Stross Kanın bəyanatı da poza bilərdi. Dominik Stross Kann bəyan etdi ki, əgər Afina müraciət edərsə Fond Yunanıstana kömək edə bilər. Ancaq tezliklə Dominik Stross Kann müəmmalı şəkildə Fondun rəhbərliyindən uzaqlaşdırıldı və onun əvəzinə Sarkozinin silahdaşı gəldi.

Beləliklə, Almaniya əvvəlcə Yunanıstanın böhrana yuvarlanmasına təkan verir, bunun ardınca isə dərhal borc əvəzində yunan adalarının verilməsini tələb edir. Bu həm iqtisadi, həm də geosiyasi məsələdir. Bir tərəfdən, Yunanıstan suverenliyini itirir və Almaniyadan asılı olur, o biri tərəfdən də Almaniya Aralıq dənizinə çıxaraq burada adalara sahib olur. Həmin adalardan həm də hərbi məqsədlərlə də istifadə etmək imkanları qazanır.

Yunanıstana qoyulmuş tələblər təkcə adaların Almaniyaya verilməsi ilə bitmir. Yunanıstanı 50 milyard avro dəyərində olan strateji dövlət müəssisələrini özəlləşdirməyə vadar edirlər.

Afina Almaniyanın tələbləri qarşısında totalizator sahəsində inhisarçı olan "OPAP" şirkətini, neft emalı sahəsində başqa bir inhisarçı olan "Hellenic Petroleum"u özəlləşdirməyə çıxarıb. Həm də məsələ ondadır ki, Yunanıstan özəlləşdirmədən gələn vəsaiti də Almaniya və Beynəlxalq Valyuta Fonduna faiz kimi verir.



Bundan başqa, Almaniya Yunanıstana verilən borclardan da qazanır. Məsələn, Almaniyanın maliyyə naziri Avropa Sabitləşdirici Fondundan praktik olaraq faizsiz pul götürərək həmin pulları Yunanıstana borc kimi verir və faizlərdən qazanır. Yunanıstanın maliyyə naziri olmuş Evangelos Venizelosun bəyan etdiyinə görə bu üsulla son iki ildə Almaniya Yunanıstana verdiyi borclardan 400 milyon avro qazanıb.

Eyni metod başqa ölkələrə də tətbiq edilir. Həm də təkcə kreditlərin verilməsindən deyil, Yunanıstana silah satışı da Almaniyanın qazanc mənbəyidir. Məsələn, Almaniya Yunanıstana sərt büdcə siyasəti yeritməyi şərt kimi irəli sürsə də hərbi xərclərini azaltmamağa çalışır. Ona görə ki, Yunanıstan Almaniyanın ən böyük silah satışı bazarıdır. Almaniyanın silah ixracının 15%-i Yunanıstanın payına düşür. Hətta Yunanıstanın Almaniyadan sualtı qayıqlar alması üçün Yunanıstanın keçmiş xarici işlər nazirinə rüşvət də verilmişdi.

Belə çıxır ki, Almaniyanın Yunanıstana verdiyi borcun böyük bir hissəsi bir tərəfdən kreditə görə faizlər və hərbi xərclər vasitəsilə yenidən Almaniyaya qayıdır. Bu iqtisadiyyatın dirçəldilməsi modeli deyil. Deməli, Almaniyanın Yunanıstanda islahatlar adı ilə qoyduğu tələblər dövlətin zəifləməsi və əhalinin yoxsulluq içərisində batmasına paralel olaraq hərbi əməkdaşlıq sahəsində Almaniyanın qazanmasına səbəb olacaq. Əhalidən –pensiyaçıdan kəsib silah alınmasına xərclənəcək. Bu yunan pensiyaçılarının hesabına Almaniyanın varlanması sxemidir.

Halbuki, ekspertlər belə hesab edirlər ki, əgər Yunanıstan ötən illər ərzində hərbi xərclərə bu qədər çox vəsait ayırmasaydı hazırkı böhranın nəticələri daha yüngül olardı.

Beləliklə, Almaniyanın Yunanıstana tətbiq etdiyi islahatlar modeli Yunanıstanın adalarının ələ keçirilməsini, Yunanıstana verilən kreditlərdən pul qazanılmasını, Yunanıstanın hərbi xərclərinin yüksək səviyyədə qalmasını, eyni zamanda Yunanıstana sərt büdcə siyasəti tətbiq etməklə ölkədəki hökumətləri asılı vəziyyətdə saxlamağı nəzərdə tutur. Yeri gəlmişkən, sərt büdcə siyasəti vasitəsilə Almaniya ona nail ola bilir ki, bütün Avropada iqtisadiyyat artmır və bu durğunluq və tənəzzül fonunda yalnız Almaniya iqtisadiyyatı cüzi də olsa artım tempinə malikdir.

Almaniyanın neokolonializm siyasətinin ən mühüm iqtisadi-siyasi tərkib hissəsi Almaniyanın tələbi və Fransanın keçmiş Prezidenti Sarkozinin dəstəyi ilə, Britaniya istisna olmaqla bütün Avropa dövlətləri öz büdcələrini Avropa İttifaqının komissiyasında təsdiqlətməlidirlər. Avropa İttifaqı isə hazırda Almaniya deməkdir. Bu o deməkdir ki, dövlətlər öz xərclərini və gəlirlərini müəyyənləşdirmək və hara nə qədər xərcləməyi Almaniyadan soruşacaqlar. Soruşmayanlar və yaxud Almaniyanın dediklərinə əməl etməyənlərə cəza tətbiq ediləcək.

Nəhayət, Almaniya ümumi Avropanın bondlarını, yəni qiymətli kağızlarının buraxılmasının qarşısını almaqla öz milli bondlarından qazanmaq imkanı əldə edir.

Sxem belədir: Avropanın böhranın dərinləşdiyi ölkələrindən pullar böhranın nisbətən az toxunduğu Almaniyanın qiymətli kağızlarının alınmasına cəlb etməklə başqa ölkələrin iqtisadiyyatının çökməsi hesabına qazanır. Hazırda Almaniyanın bondlarının qiyməti yüksək səviyyədədir. Bu sxemə Fransa da daxil olmaqla bütün ölkələr etiraz etsələr də Almaniya ümumavropa bondlarının buraxılmasına müqavimət göstərir.

Beləliklə, Almaniya çıxışlar zamanı bütövlükdə Avropa iqtisadiyyatının xilasından danışsa da əməldə başqalarının çökdürülməsi və iqtisadiyyatının nəzarətə götürülməsi hesabına öz Milli iqtisadiyyatının gücləndirmək və Avropanın hegemonuna çevrilmək siyasətini tətbiq edir.

Ancaq ötən həftə Çinin rəsmiləri bəyan etdilər ki, onlar Avropanın qiymətli kağızlarını almaqdan imtina edirlər. Ona görə ki, risk yüksəkdir. Çox böyük ehtimalla Avropanın qiymətli kağızlarının qiymətdən düşməsi Avropa İttifaqının, xüsusilə də Almaniyanın xarici siyasətində sərtləşmə meyllərini daha da gücləndirəcək. Ola bilər ki, başqa ölkələrə olduğu kimi Çinə də insan haqları və s. iddialarla təzyiqlər göstəriləcək. Ancaq məqsədin insan haqları yox, qiymətdən düşmüş qiymətli kağızların satışı olduğu şübhə doğurmur.

**İbrahim Məmmədov,**
***"Azərbaycan Televiziya və Radio Verilişləri"***
***QSC-nin sədr müavini***
18 may 2012



### *3.3. Qlobal iqtisadi böhran və Ərəb dünyasında çaxnaşma*

**İqtisadi böhranların siyasi fəsadları**

Böhran tarixi inkişaf prosesinin bir mərhələsidir. İstər sivilizasiya müstəvisində, istər iqtisadi sahədə inkişaf-yüksəliş-pik-durğunluq-böhran və yenidən inkişaf siklləri bəşəriyyətin zəruri həyat yoludur. İqtisadi sahədə hər bir böhran müəyyən mərhələdə inkişafın yekunu və yeni dövr inkişafın başlanğıcıdır. Geosiyasi mühitdə isə böhran yeni siyasi mənzərənin formalaşmasının əsasında dayanır.

Tarixə nəzər saldıqda iqtisadi böhranların siyasi müstəvidə mühüm dəyişikliklərə, bəzən isə hətta faciələrə səbəb olduğunu müşahidə edirik. Müasir dünyamızda əsas siyasi qüvvə olan Qərb sivilizasiyasının tarixində bu arqumenti əsaslandıran bir çox tarixi hadisələri sadalamaq olar. Səlib yürüşləri, böyük coğrafi kəşflər, II dünya müharibəsi və dünyanın taleyini dəyişəcək digər hadisələrə bu aspektdən yanaşdıqda maraqlı mənzərənin şahidi oluruq.

Misal üçün bəşəriyyət tarixinin sivilizasiyaların toqquşmasında ən kulminasiya mərhələlərindən hesab olan səlib yürüşləri hər nə qədər dini faktor üzərində qurulsa da, iqtisadi amillərin də bu hadisədə mühüm rol oynadığı danılmazdır. Tarixi faktlar göstərir ki, səlib müharibəsinin səbəbləri XI əsrin sonlarında Avropada baş verən quraqlıq, aclıq və nəticədə çoxsaylı işsizlərin yaranması, kasıblamış feodalların varlanmaq hərisliyi, torpaqsız cəngavərlərin sayının artması, ruhanilərin yeni torpaqlar ələ keçirmək istəyi idi. Sadəcə hərəkatın başlaması üçün ona dini don geyindirilmişdi. Yəni, həmin dövrdə Avropanın qarşılaşdığı iqtisadi durğunluq səlib yürüşlərinə təkan verdi. Nəticədə "Köhnə qitə" izafi insan resurslarından azad olundu, işsizlərin azalması daxili bazarda tələb-təklif harmoniyasının yaranmasına təkan verdi, hərbi qənimət kimi maddi resurslar Avropaya daşındı. Bütün bunlar Avropanın iqtisadi böhrandan çıxmasına şərait yaratdı. Öz növbəsində bu yürüşlər dünyanın gələcək siyasi mənzərəsinə də təsir etdi. Qərb dövlətləri yeni ticarət yolları axtarırdılar və bu, qurudan mümkün olmadığı üçün, sonralar dəniz yollarının kəşfi üçün əsas yaratdı.

Ən güclü iqtisadi böhran olan 1930-cu illərdə baş vermiş "Böyük depressiya"nın II dünya müharibəsinə gətirib çıxardığını da iddia etmək olar. 1929-cu ildə ABŞ-da başlayan böyük böhran zamanı işsizlik maksimum həddə çatmışdı, istehsal aşağı düşmüş, bir çox müəssisələr müflisləşmişdi. Həmin dövr dünya iqtisadiyyatında durğunluğun başlıca səbəblərindən biri Qərbin inkişaf etmiş ölkələrinin əvvəlki dünya müharibəsi zamanı böyük istehsal gücünə malik hərbi sənayesinin zəifləməsi idi. Böyük depressiyadan isə dünya iqtisadiyyatı məhz aparıcı ölkələrin hərbi xərclərini və istehsalı artırması ilə qurtara bildi. Nəticədə hərbi qüdrət yeni qüvvələr nisbəti və yeni siyasi mənzərənin formalaşması uğrunda müharibə ilə yekunlaşdı. Yəni, Qərb yenə də iqtisadi böhrandan xilas yolu kimi ekspansiya siyasətinə üstünlük verdi. Sadəcə əsas hədəflər digər böyük dövlətlər olduğu üçün bu siyasət qarşı duran tərəflərin müharibəsinə və son nəticədə qlobal müstəvidə yeni siyasi konfiqurasiyaya gətirib çıxardı.

### Hazırki qlobal maliyyə iqtisadi böhranın şahmat taxtasında dəyişiklikləri

Beləliklə, iqtisadi böhran və tərəddüdlərin yeni dünya nizamının formalaşmasına yol açması şübhəsizdir. Bu mənada 2008-ci ildən başlayan qlobal iqtisadi böhran da həmin trendlərin davamıdır. Bir çox mütəxəssislərin fikrincə, Qərbin sürətli və mövcud potensialından artıq inkişaf templəri real iqtisadiyyata söykənmir. Ona görə də "sabun köpüyünün" nə vaxtsa partlayacağı qaçılmaz idi. Məlum olduğu kimi, 2007-ci ildən başlayaraq dünyada yanacaq-enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətinin sürətli artımı aşağı gəlirli ipoteka borclularını çətin vəziyyətə saldı və onların ödəmə qabiliyyətinin olmadığı üzə çıxdı. Kredit verən banklar, kreditlərin geri qaytarılmasını gözləmədən, təminat daxilindəki tikintilərin qiymətini qarşılıq göstərərək bazara istiqraz vərəqəsi ixrac etdilər və yeni kreditlər verdilər. Satın alınan bu istiqraz vərəqələri isə təsərrüfat yiyələrinə fond olaraq yenidən satıldı.

Bununla da, ilkin olaraq ipoteka-kredit-tikinti-qiymətli kağızlar bazarı istiqamətində dərinləşən böhran tələbatın və müvafiq olaraq istehsalın azalmasına, işsizliyin artmasına, sosial-iqtisadi problemlərin



siyasi xarakter almasına səbəb oldu. Bir çox Qərb mütəxəssislərinin fikrincə, inkişaf etməkdə olan ölkələrdə xammal qiymətlərinin artması fonunda istehsalın azalması və bu tendensiyanın inkişaf etmiş ölkələrin kreditləşmə mexanizmində nəzərə alınmaması böhrana gətirib çıxardı.

Başqa sözlə desək kredit götürənlər onu real olaraq vermək imkanlarını itirdikləri üçün bazarda zəncirvarı xəyali vəsait yaranmışdı. Bu xəyali vəsaitin dövriyyəsinin bir neçə il ərzində davam etməsi sistemin çökməsinə səbəb oldu. Yəni, böhranda başlıca seqment olaraq xammal və ərzaq qiymətlərinin artmasını əsas görürlər. Hətta Tunis və Misirdə inqilabları ərzaq böhranı ilə əlaqələndirməyə çalışırlar. Lakin biz böhran halqaları arasında başlıca seqment olaraq tələbat faktoruna üstünlük veririk. Məlum olduğu kimi, Qərb ölkələrində sosial, təhsil, səhiyyə, nəqliyyat və sairə kimi fundamental xərclər ildən-ilə artır. Eyni zamanda əhalinin demoqrafik strukturunda baş verən qocalma prosesi dövlətlər üçün əlavə vəsaitlər tələb edir. Qərb dövlətlərinin həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı rəqabəti ölkə daxilində yüksək təbəqələşməyə səbəb olur. Qərbin dünyada siyasi ambisiyaları isə xaricdə donor, investor, kreditor və bu kimi digər missiyaların yerinə yetirilməsini tələb edir.

Bütün bunlar isə əlavə daxilolmaları şərtləndirir. Son 100 illik tarixə baxsaq, Qərb bu ehtiyacını hər zaman yeni-yeni bazarlar əldə etməklə ödəyib. III minillikdə proseslərin mahiyyətində baş verən dəyişikliklər geosiyasi gedişlərin də dəyişdirilməsinə səbəb olmuşdur. Keçən əsrdə əvvəlcə müstəmləkə sistemi, sonra yeri yaranmış müstəqil dövlətlər və onların texnoloji cəhətdən asılılığı, sosialist bloku ölkələrinin transformasiya mərhələsində olması Qərbə böyük üstünlüklər və geniş bazarlar açmışdı. Hazırda isə müstəmləkə sistemi artıq tarixin yaddaşına köçmüş, Çin başda olmaqla Asiyanın bir çox ölkələri texnoloji cəhətdən inkişaf edərək bir çox bazarlarda, o cümlədən Qərbin öz bazarlarında əsas iştirakçıdırlar. Digər tərəfdən Avropada resessiyanın davam etməsini daxili tələbatın aşağı düşməsi, şirkətlərin iqtisadiyyata əvvəlki kimi sərmayə qoymaması, bankların kreditləri ixtisara salması, avrozonada dövlət borcunun və büdcə kəsirinin borcalma faizlərini artırması, devalvasiya imkanının olmaması ilə əlaqələndirirlər.

### Qərbin böhrandan çıxış strategiyası

Bütün bu nüansları nəzərə alaraq Qərb ölkələrinin mövcud sistemdə üstün mövqelərini qorumaq və daha da gücləndirmək üçün səylərini artırması labüd görünür. Avroatlantik məkanı bürüyən böhranın dərinləşməsi və qlobal üfüqdə yeni güc mərkəzlərinin parlaması Qərbi böhrandan çıxış yolu kimi yeni strategiya müəyyənləşdirməsinə yönləndirmişdir: yeni xammal və ticarət bazarlarının tapılması iqtisadi böhran üçün çarə ola bilər. Görünən odur ki, bütün tarixi dövrlərdə Qərb ölkələri dünyada gedən siyasi, iqtisadi, hətta bəzən ekoloji proseslərin kataklizm mərhələlərində hər zaman öz inkişaf istiqamətlərinin oriyentirlərini dəyişmiş və buna uyğun yeni dünya nizamı formalaşmışdır. İnkişaf etmiş ölkələrin tələbatının səviyyəsi artıq yalnız yeni xammal bazarlarının tapılması hesabına ödənilə bilməzdi. Buna görə kardinal dəyişikliklər tələb olunurdu. Qərb dairələri tərəfindən irəli sürülən "Böyük Orta Şərq" planı da bu missiyaya xidmət edir. Bu planın əsas hədəfləri ərəb ölkələridir. Maraqlıdır ki, XX əsrdə müstəqillik qazandıqdan sonra ərəb ölkələri Qərblə fəal əməkdaşlıq etmişdir. Qlobal iqtisadiyyat neft erasına daxil olduqdan sonra bu region Qərbin əsas xammal mənbəyi olmuşdur. Əvəzində həmin dövrdə ərəb ölkələrində idarəetmənin Qərb meyarlarına uyğun gəlməməsi, hakimiyyətin hərbi avtokratiyanın əlində cəmlənməsi heç kəsi narahat etmirdi. Əsas olan karbohidrogen ehtiyatlarının davamlı və etibarlı təminatı olmuşdur. Hətta Qərb indi diktatura adlandırdığı bir çox ərəb ölkələrinə uzun illər boyu siyasi, iqtisadi, hərbi, maddi resurslar daxil olmaqla bütün növ yardım göstərmişdir. Təsadüfi deyil ki, ABŞ hələ də dünyada İsraildən sonra ən çox Misirə vəsait ayırır. Güman etmək olar ki, hazırkı qlobal iqtisadi böhrandan tək xammal hesabına çıxmaq mümkün olmadığı üçün alternativ yollar axtarılır. Bu yenilik isə hərbi sənayenin sifarişlərinin artırılması, dağıdılmış infrastrukturun bərpası üçün şirkətlərə birbaşa yeni iş, ölkənin yenidənqurulması üçün təhsil, səhiyyə, ordu da daxil olmaqla bütün sahələrdə konsaltinqdən tutmuş maddi-texniki bazaya qədər Qərb texnologiya və xidmətləri üçün sifarişlər və yeni bazarlardan rəqiblərin uzaqlaşdırılmasını nəzərdə tutur. Faktlar sübut edir ki, "azadlıq və demokratikləşmə" dövründə iqtisadiyyatı iflic vəziyyətinə düşən bu dövlətlər infrastrukturun bərpası üçün tenderləri Qərb şirkətlərinə verirlər, yeni sistemdə bütün sahələrdə Qərb təcrübəsi və müvafiq xidmətlər təklif olunur. Yeni ordu da Qərb silahları ilə təchiz olunur. Ərəb dünyasında çaxnaşmanın yaranması bu regionda digər güc mərkəzlərinin sıxışdırılması da deməkdir. Müşahidələr göstərir ki, indi hədəfdə olan ölkələrdən yalnız Cənubi Sudan Respublikasında Qərblə bərabər Çin də fəallıq göstərir. Bunun da özünəməxsus səbəbləri vardır. Əsas səbəb isə odur ki, zəngin neft ehtiyatlarına malik bu ölkənin neftin daşınması üçün lazımi infrastrukturu yoxdur. Bütün boru kəmərləri Sudandan keçir. Yeni infrastrukturun yaradılması isə böyük maliyyə vəsaiti tələb edir. Qərbin hazırki böhran zamanı buna imkanı çatmadığından Çin investisiyalarının qoyuluşu neftin bazarlara çatdırılması baxımından bütün tərəflərə sərf edir. Qeyd etməliyik ki, Qərbin iqtisadi böhrandan qurtarma planına bu cür yanaşmaya qarşı Çin də öz siyasi istiqamətini ortaya qoyur. Belə ki, regionda hazırki vəziyyətdə heç bir xüsusi mövqe tuta bilməyəcəyini nəzərə alaraq, Çin daha çox Qərb ölkələrini daxili iqtisadiyyatına nüfuz etməyə çalışır. Belə ki, Çin ABŞ qiymətli kağızlar bazarında ən çox sərmayə yerləşdirən ölkədir. Milli valyutası olan yuanın məzənnəsini isə məqsədli şəkildə aşağı salmaqla xarici investorları cəlb edir. Təsadüfi deyil ki, ABŞ-da prezident seçkiləri debatlarında Romni və Obamanın iqtisadi proqramlarında Çinə qarşı ticarət strategiyası əsas müzakirə mövzusudur. Qızıl-valyuta ehtiyatlarına görə dünyada lider olan Çin bu üstünlüyündən Avropa İttifaqı ölkələrinə də qarşı istifadə edir. Beləliklə, Qərbin Yaxın Şərq planlarında Çinə yer verməməsinə Çin ABŞ və Avropanın daxili bazarlarına nüfuz etməklə qarşılıq verir. Bütün hallarda qlobal iqtisadi böhran Qərb-Çin qarşıdurmasını kəskinləşdirdi və ABŞ-da prezident seçkilərindən sonra bu meylin yeni xarakter alacağını güman etmək olar.

### Böhrandan qurtarmanın gözlənilməz tərəfləri

Bir məqamı da xüsusi qeyd etmək istərdik ki, iqtisadi böhrandan qurtuluş planlarında bir sıra nüansların nəzərə almamağı Qərbin bəzi gözlənilməzliklərlə üz-üzə qoyur.

Belə ki, Avropa İttifaqının Şərqə doğru genişlənməsinin davam etdiyi bir dövrdə ərəb oyanışının başlaması müəyyən çətinliklər yaratmışdır. Çünki yeni üzvlər daxil olduqdan sonra vahid bazar kimi hələ tam formalaşmamış məkanda ölkələr arasında inkişaf səviyyəsindəki fərqləri aradan qaldırmaq üçün mərkəzin maliyyə resurslarının kifayət etməməsi böyük problemlər yaradır. Keçmiş sosialist ölkələrinin öz daxili bazarlarını Qərbin güclü şirkətlərinə tam açması bu dövlətlərin iqtisadiyyatına ciddi zərbədir. Öz növbəsində Avropa İnvestisiya Bankının və digər maliyyə institutlarının kredit və tranşları Almaniya başda olmaqla böyük dördlüyün əlindədir. Nəzərə alsaq ki, ərəb dünyasındakı yeni sifarişlər də kiçik Avropa dövlətləri üçün heç nə vəd etmir Avropanın gələcəyi üçün təhlükə yaranır.

Artıq Baltikyanı dövlətlərdə, Rumıniya, Macarıstan, hətta Portuqaliya, İspaniya kimi ölkələrdə vahid bazarla bağlı mövqe dəyişmişdir. Ən çox əziyyət çəkən isə heç şübhəsiz Yunanıstandır. Beynəlxalq reytinq agentlikləri bu ölkənin reytinqini sürətlə endirirlər. Yunanıstanın dövlət borcu 350 milyard avroya çatıb və ölkə bu borcları ödəmək iqtidarında deyil. Hər gün işsizlərin sayı artır, digər tərəfdən isə miqrantlar böyük problemlər yaradırlar. Analitiklər bildirirlər ki, Yunanıstan şoku həm Avrozonanı, həm də ətrafını ciddi mənfi təsirlərə məruz qoya bilər. Bu ölkədə baş verənlər ümumilikdə dünya maliyyə sistemi üçün ciddi təhlükə yaradır. Görünən odur ki, Qərbin böhrandan çıxış yolu tədbirləri Avropanın özünün siyasi konfiqurasiyasında belə gözlənilməzliklər vəd edir. Beləliklə, qlobal iqtisadi böhranın ilk siyasi fəsadları ərəb dünyasında müşahidə edilməkdədir. Qərb böhran zamanı hər zaman öz nicatını xaricdə axtarır.

Tarix sübut etmişdir ki, süni müdaxilələr kataklizmlərə səbəb olur. Böhranın davam etməkdə olduğunu nəzərə alsaq, hətta kənardan bu proseslərə müdaxilə edənlərin özləri belə bumeranq təsirindən sığortalanmayıb.

**Ərəstü Həbibbəyli,**
***iqtisad üzrə fəlsəfə doktoru***
5-6 noyabr 2012

### *3.4. Nabukko – geosiyasi oyunların və psixoloji apatiyanın zavallı qurbanı*

"Nabukko" layihəsi, qəhrəmanları missiyasını yerinə yetirə bilməyən və süjeti sonsuz uzanan nağıla çevrilib. Son zamanlar ondan bəziləri siyasi məqsədləri üçün spekulyasiya obyekti kimi istifadə etməyə başlayıb. Bu keyfiyyətdə "Nabukko" nəinki həyata keçmək şansı olmayan enerji layihəsi təsiri bağışlayır, hətta qlobal enerji təhlükəsizliyinə təhdid halına gəlir. Bu layihəni siyasi və ideoloji aspektdə informasiya dövriyyəsində istismar edənlər bütövlükdə enerji sahəsində əməkdaşlığın təməl prinsiplərini sarsıtdıqlarının fərqində deyillər.

Mediada "Nabukko" haqqında ziddiyyətli fikirlər yer almaqda davam edir. Gerçək olanı budur ki, bu layihənin reallaşması üçün konkret addım atan yoxdur. Mediada verilən analizlərə görə, Almaniya bu məsələni siyasi-ideoloji spekulyasiya mövzusuna çevirib. Layihəni başlamaq üçün maliyyə qaynağını dəqiqləşdirmək əvəzinə, onu Azərbaycanın hesabına ucuz gəlir mənbəyinə çevirmək cəhdləri özünü göstərir. Buna rəsmi Bakıya müxtəlif siyasi, hüquqi və maliyyə məsələlərini bəhanə edərək təzyiq etməklə nail olmaq xülyasına düşənlər var. Almaniyanın RWE şirkətinin sahibi "bizə sərf edən şərtlərlə layihəni reallaşdıra bilərik" deyir və addım atmır. Layihədə iştirak etməli olan Avstriya, Macarıstan, Rumıniya və Bolqarıstan şirkətləri də məsələnin bu məqamında susurlar. Bunların əvəzində Avropanın müxtəlif qurumlarından Azərbaycana qarşı iddialar çoxalır. Problemin əsas tərəfi də həmin iddiaların məzmunu ilə bağlıdır.

Əslində, bu ssenarilər bizə keçən əsrin 90-cı illərindən tanışdır. Bakı-Tbilisi-Ceyhan neft layihəsinə qarşı Rusiya müxtəlif addımlar atdı, bəhanələr gətirdi. Lakin Heydər Əliyevin siyasi iradəsi bütün maneələri dəf etdi. İndi də Avropa "Nabukko"nu reallaşdırmaq üçün siyasi iradə göstərmək əvəzinə, Azərbaycana qarşı siyasi məhbus,

insan haqları, demokratik islahatlar və s. kimi ittihamlara baş vurur. Bütün Avropanın siyasətçiləri cəm halında Heydər Əliyevin siyasi qətiyyətini nümayiş etdirə bilmirlər. Səbəb nədir? Enerji təminatına getdikcə daha çox ehtiyac duyan və xarici siyasətində enerji təhlükəsizliyini ilk sıraya qoyan Avropa niyə əfəl davranır? Biz bunun iki səbəbini görürük.

Birincisi, Qərb cəmiyyətində islamofobiya baş alıb gedir. Azərbaycan Prezidenti İlham Əliyev bu psixoloji meylin siyasətə verdiyi zərərlər haqında dəqiq fikirlərini bildirib. İslamofobiya Qərb siyasi düşüncəsinə o dərəcədə nüfuz edib ki, artıq qlobal miqyasda yaratdığı təhlükələr aydın görünür. Ziqmund Freydin nəzəriyyəsinə görə, şüuraltı əsas hədəfini gizlətmək üçün süni bir obraz formalaşdırır və şüura məhz həmin obrazı ötürür. Məsələn, yuxuda şənlik mənzərəsi əslində ola biləcək kədərli hadisəni gizlətmək üçündür. Freydin bu yanaşmasına görə, İslama inkaredici münasibətin formalaşması səlibçiliyi gizlətməyin bir formasıdır. Müsəlman cəmiyyətlərinin inkişafı potensialı bu psixoloji apatiyanın işığında kimlərəsə təhlükəli görünür. "Nabukko"nu enerji ilə təmin edə biləcək və onun nəqli marşrutunda həlledici rol oynaya biləcək ölkələr İslam aləminə aiddir. Ona görə də Avropanın siyasi dəhlizlərindən layihə ilə bağlı konkret təkliflərin yox, "siyasi məhbus", "insan haqları", "söz azadlığı" və s. epitetləri informasiya məkanında dövriyyəyə buraxan göstərişlərin sədası gəlir. Əlbəttə, bunları müşahidə edən sağlam düşüncə enerji layihəsini reallaşdırmaq əvəzinə kimlərisə ittiham etmək üsulunu konstruktiv dəyərləndirə bilmir. Lakin ikinci səbəb mövcud vəziyyəti daha dəqiq təsəvvür etməyə imkan verir.

İkinci səbəb Azərbaycanın müstəqil enerji siyasəti yeritməsini bəzilərinin həzm edə bilməməsidir. Bunun kökündə islamofobiyanın durduğuna şübhə etmirik. Azərbaycanın yerinə hər hansı xristian dövləti (məsələn, Ermənistan) eyni siyasəti yeritsə idi, Brüsseldən də, Vaşinqtondan da, Moskvadan da dəstək alardı. Azərbaycan regionun lider dövləti kimi enerji təhlükəsizliyini təmin etmək üçün özünün strateji maraqlarına cavab verən addımlar atır. Bunu ustalıqla, təmkinlə və ədalətli şəkildə edir. Azərbaycanın bu cür mövqeyindən qıcıqlanan bəziləri "Nabukko"da öhdəsinə düşənləri etmək əvəzinə həm bizim ölkənin hesabına qazanc əldə etmək istəyir, həm də informasiya məkanının "ekologiyasını pozaraq" dövlətimizin mənfi obrazını yaratmağa çalışır. Deyək ki, Avropa Şurası Azərbaycanla bağlı növbəti "siyasi məhbus" oyununa başlamağa cəhd edir. Bu oyun o qədər bivec və zəhlətökən məzmun kəsb edib ki, Avropa Şurası onu "idarə edə biləcək hakim" də tapa bilmir. Alman məruzəçi bu səbəbdən öhdəsinə götürdüyü işi başa çatdıra bilmədi.

Bütün bunların fonunda Azərbaycan tərəfinin bu terminin hamı üçün ortaq olan meyarlarını müəyyənləşdirmək tələbinə isə barmaqarası baxılır. Paralel olaraq, Ermənistan bütün bu proseslərin xaricində tutulur; ona hər hansı bir meyarı tətbiq etmək istənilmir. Əvəzində, qonşu dövlətlərdən Ermənistanın xeyrinə nələrdəsə güzəşt etmək tələb olunur. Özü də bu, sürəkli baş verir.

Təbii ki, bir enerji layihəsini bu dərəcədə geosiyasi və ideoloji faktorlara bağlamaq xoş məşğuliyyət deyil. Lakin gerçəklik budur və onu biz yox, özünü dünyanın aparıcı kəsimi sayan ölkələr yaradırlar. Məhz onların əsassız iddiaları "Nabukko"nu enerji layihəsindən geosiyasi oyunların elementinə çevirir.

Məşhur fransız filosofu Qaşton Başlyar XX əsrin 30-cu illərində yazırdı ki, avropalıların psixologiyasında gerçəkliyin təhrif olunmuş obrazını yaratmağa meyl güclənib. Bunun səbəbini o, Avropanın özünü dünyanın mərkəzi saymağa başlamasında və kənardan gələnlərin yalan danışıqlarına avropalıların sadəlövhcəsinə inanmalarında görürdü. Bu iki faktor avropalı psixologiyasında təhlükəli hakimi-mütləq və universal münsif iddiasına qida verirdi. Görünür, Q.Başlyarın bu ehtiyatlılığı əsassız deyilmiş. XX əsrin başlanğıcında Başlyarın tapdığı psixoloji apatiyanın bəzi xristian dairələrində ən yüksək həddə çatdığı müşahidə edilir.

**Kamal Adıgözəlov**
25 may 2012

### 3.5. *Geoiqtisadiyyat, enerji və beynəlxalq təhlükəsizlik*

Müasir beynəlxalq münasibətlər sistemində iqtisadiyyatın getdikcə əhəmiyyət qazanma meyli özünü büruzə verir. Bu baxımdan, beynəlxalq münasibətlər leksikonunda geo-siyasət və geo-iqtisadiyyat anlayışlarının paralellik göstərməsi təsadüfi deyil. İqtisadiyyat sahəsində isə enerjinin əhəmiyyəti inkar edilməzdir. Hətta hal-hazırda enerji məsələsi ölkələrin milli təhlükəsizlik konsepsiyalarının əhəmiyyətli hissəsini təşkil edir.

Belə bir vəziyyətin mövcud olması iqtisadiyyat və enerjinin milli təhlükəsizlik baxımından ələ alınmasına əsas təşkil edir.

**a. Geo-İqtisadiyyat: Soyuq müharibə sonrası dəyişən təhlükəsizlik anlayışı**

Soyuq müharibə dövrünə nəzər salsaq, beynəlxalq nizamın şərtlərinə uyğun olaraq hərbi gücə söykənən təhlükəsizlik yanaşmasının üstünlük təşkil etdiyini görərik. Lakin 1973-cü ildə meydana gələn neft böhranı və 1980-ci illərdə Yaponiya və Almaniya kimi dövlətlərin iqtisadi baxımdan güclənməsi iqtisadi gücün əhəmiyyətli meyar kimi önə çıxmasına səbəb olmuşdur. Bunun ardından, Sovet İttifaqının dağılmasında iqtisadi səbəblərin ağırlıq təşkil etdiyi müşahidə edilmişdir. Belə olan halda, hərbi gücün dominant mövqedəki əhəmiyyəti müzakirə edilməyə başlamışdır. Bu səbəblə, beynəlxalq nizamda təhlükəsizlik yanaşması baxımından hərbi gücün yanında, iqtisadi gücə söykənən təhlükəsizlik yanaşmasının da əhəmiyyət qazandığı müşahidə edilmişdir. Soyuq müharibə sonrasında dəyişən təhlükəsizlik yanaşmasında isə, iqtisadiyyat ilə birlikdə iqtisadiyyatın əsas faktorlarından biri olan enerjinin də iştirak etdiyi görülməkdədir.

Bununla birlikdə, Soyuq müharibədən sonra iqtisadiyyat və enerjinin təhlükəsizlik məsələsi ilə əlaqələndirilməsi enerji resursları baxımından bəzi nəticələrə gətirib çıxarmışdır. Bu vəziyyət, enerjinin milli və beynəlxalq maraqlara mövzu olmasına səbəb olmuşdur. Beləliklə, Soyuq müharibə sonrası nizamda aktorların təhlükəsizlik



axtarışı səbəbiylə enerji resurslarına yönəldiyi və bu resurslara rahat çata biləcəkləri bölgələrə yönəlik siyasətlər yeritdiyi görülmüşdür.

Buna bağlı olaraq, beynəlxalq nizamdakı dəyişmələrin neft və təbii qaz axımının təmininə təsirləri vardır. Məsələn, Soyuq müharibə dövründə, RF və Xəzər bölgəsinin neft və təbii qaz resurslarının dünyanın geri qalan hissəsi üçün tamamən əlçatmaz olduğu deyilə bilər. Soyuq müharibə sonrasında isə, Sovet İttifaqı və digər Şərq Bloku ölkələrində meydana gələn iqtisadi və siyasi dəyişikliklərin bu bölgələrdəki enerji resurslarının daha rahat əldə edilməsinə imkan yaratdığı söylənilə bilər. Bundan başqa, 1989-ci ildə Berlin Divarının yıxılmasının əhəmiyyətli nəticələrindən biri kimi beynəlxalq enerji bazarında daha çox enerji resursunun mövcud olması qeyd oluna bilər.

Beləliklə, Soyuq müharibə sonrasında dünyanın müxtəlif bölgələrində tranzit baxımından yaşanan sərbəstliyin beynəlxalq dövriyyədəki enerji müxtəlifliyinin artmasına gətirib çıxardığı ifadə edilə bilər. Bu vəziyyət beynəlxalq siyasətdə aktorların hərəkət sahəsini genişləndirmiş, enerji mənbələri və enerji tranzit yollarında hakimiyyət mübarizəsinin dünya miqyasında yayılmasına səbəb olmuşdur. Beləliklə təhlükəsizliyin enerji ölçüsü üzərindəki rəqabət beynəlxalq siyasətin ən əhəmiyyətli mövzularından biri halına gəlmişdir. Bu mövzuda, qarşıya çıxan enerji mənbələrinin başında isə neft və təbii qaz dayanır. Bu vəziyyətin səbəbləri arasında neft və təbii qazın istifadə sahəsinin müxtəlifliyi, kömürə görə nəql baxımından asanlığı və daha az çirklənməyə səbəb açması göstərilə bilər.

**b. Beynəlxalq münasibətlər baxımından enerji təhlükəsizliyi**

Soyuq müharibə sonrası dövrə nəzər salarsaq görərik ki, bu dövrdə enerji təhlükəsizliyinin ölkələrin milli təhlükəsizliyi ilə əlaqələndirilməsindən danışıla bilər. Bu səbəblə, enerji təhlükəsizliyinin beynəlxalq siyasətdə dövlətlərin əsas maraq sahələrindən biri olaraq önə çıxmasından bəhs etmək mümkündür. Bu mövzuda, dövlətlərin enerji strategiyalarının və siyasətinin əsas hədəfi enerji təminatı təhlükəsizliyinin iqtisadi, sosial və ətraf mühit təhlükəsizliyinə zərər vermədən, mümkün olan ən aşağı xərclə təmin edilməsi şəklində görülməkdədir. Enerji təhlükəsizliyinin ən əhə-

miyyətli faktorları arasında isə enerjinin fasiləsiz axımının təmin edilməsi, mənbə müxtəlifliyinin artırılması və enerji mənbələri üçün alternativ tranzit yollarının yaradılması yer alır. Bu hədəfin reallaşması istiqamətində tətbiq olunacaq metod ölkə və mənbədən asılı olaraq müxtəliflik göstərməkdədir.

Enerji mənbələrində müxtəliflik haqqında düzgün mülahizə yürütmə baxımından bu mövzuda önə çıxan anlayışlara açıqlıq gətirmək yararlı ola bilər. Məsələn, enerji mənbələri ümumi olaraq əsas və ikinci enerji mənbələri şəklində iki əsas başlıq altında araşdırıla bilər. Əsas enerji mənbələri öz içində yenilənə bilməyən və yenilənə bilən enerji mənbələri olaraq iki alt başlıqda ələ alına bilər. Məsələn neft, təbii qaz və kömür yenilənə bilməyən enerji qaynaqları arasındadır. Bununla birlikdə, hidrolik enerji, külək enerjisi və günəş enerjisi isə yenilənə bilən enerji mənbələridir. İkinci enerji mənbəyi isə elektriktir. Bunun yanında, əsas enerji mənbələri arasında olan qalıq yanacaqlar- neft, təbii qaz və kömür olaraq ifadə edilə bilər.

Bundan başqa, enerji təhlükəsizliyinin üç ölçüdə ələ alınması mümkündür. Bunlar təminat təhlükəsizliyi, tələb təhlükəsizliyi və tranzit təhlükəsizliyi şəklində sadalana bilər. Enerji təhlükəsizliyini təşkil edən faktorlardan biri olan təminat təhlükəsizliyi bir ölkənin inkişafı üçün zəruri olan, kafi miqdarda keyfiyyətli və ətraf mühitə zərər verməyən enerjinin məqbul qiymətlərlə və kəsintisiz olaraq təmin edilməsi şəklində yekunlaşdırıla bilər. Bu nöqteyi-nəzərdən, enerji təhlükəsizliyi enerji mənbələrini kənardan təmin edən istehlakçı mövqedəki ölkələr baxımından əhəmiyyətli görünür. Digər tərəfdən, enerji mənbələrinə sahib olan ölkələr üçün tələb təhlükəsizliyi əhəmiyyət kəsb edir. Buna əlavə olaraq, enerji resurslarının nəqli yolunda olan ölkələr baxımından enerji nəqli təhlükəsizliyinin önə çıxan bir faktor olduğu ifadə edilə bilər. Enerji nəqli təhlükəsizliyinin ön planda olduğu ölkələrə nümunə kimi Türkiyə və Ukrayna göstərilə bilər. Digər tərəfdən, enerji təhlükəsizliyinin təmin edilməsinin əhəmiyyətli şərtlərindən birinin müxtəlifliyin təmin edilməsi olduğunu ifadə etmək mümkündür.

Beynəlxalq münasibətlər baxımından enerji təhlükəsizliyinin gələcəyinə baxdıqda 2030-cu ilə qədərki dövr daxilində «mövcud enerji siyasəti və istehlak seçimlərinin davam etməsi şərtilə» dünya



üzrə əsas enerji tələbatının 2007-ci ilin məlumatlarına nisbətən 40% həcmində artacağına işarə edilməkdədir[1]. Ayrıca 2030-cu ilə qədərki dövrdə, qalıq yanacaqların ümumi enerji istehlakındakı istifadəsinin 80%-ni qoruyacağı proqnozlaşdırılır[2]. Qalıq resurslar arasında istehlakın isə 2035-ci ilə qədər neft baxımından 50% nisbətində artması gözlənilir. Beləcə, 2035-ci ilə qədərki dövrdə qalıq resurslar arasında neftin enerji istehlakında dominant yerini qoruyacağı hesablanır. Bir başqa qalıq resurs olan təbii qazın istifadəsinin isə 2035-ci ilə qədərki dövrdə 44% artım göstərəcəyi nəzərdə tutulur[3]. Bu istiqamətdə 2030-cu ilə qədərki dövrdə, təbii qaz istehlakının dünya enerji istehlakının ikinci sırasında yer alması proqnozlaşdırılır. Beləliklə 2030-cu ilə qədərki dövr daxilində neft və təbii qazın ümumi enerji istehlakında payının 60% səviyyəsini qoruması nəzərdə tutulur[4]. Bu səbəblə neft və təbii qazın «istehsalı, işlənməsi və ticarətində nəzarət sahibi olma» uğrunda mübarizənin beynəlxalq münasibətlər sahəsindəki əhəmiyyətini qoruyacağı proqnozlaşdırılır[5].

### c. Enerji və beynəlxalq təhlükəsizlik

Yuxarıda ifadə edilənlər bu gün dünyada baş verən hadisələrin doğru analiz edilməsinə imkan yaradır. Beləcə, yüksək miqdarda neft və təbii qazın mövcud olduğu, eyni zamanda neft və təbii qaz boru xətlərinin keçdiyi bölgələrdə meydana gələn münaqişələrin səbəbi aydınlaşır.

---

[1] Türkyılmaz, O. (2009). Türkiye'nin Enerji Durumu. Türkiye Makine Mühendisleri Odası TMMOB: http://www.mmo.org.tr/resimler/dosya_ekler/8e4b957fb560a53_ek.pdf.

[2] U.S. Securities and Exchange Commission. (2011). Exxon Mobil Corp. Form 8-K Current Report. Edgar Online: http://google.brand.edgar-online.com/EFX_dll/EDGARpro.dll?FetchFilingHTML1?ID=7797918&SessionID=uAZFHqfYVohHtP7. S.6.

[3] U.S. Energy Consumption by Energy Source 2010. U.S. Energy Information Administration EIA: http://www.eia.gov/energyexplained/index.cfm?page=us_energy_home.

[4] U.S. Securities and Exchange Commission. (2011, Mart 09). A.g.e.

[5] Aksay, H. (2009). Enerji Güvenliğine Ortak Çözüm Arayışları Uluslararası Sempozyumu. Harp Akademileri Komutanlığı Stratejik Araştırmalar Enstitüsü SAREN: http://www.harpak.edu.tr/saren/default.asp?sayfa=5&alt_sayfa=14. S.7.

Xarici siyasətin yalnız bugünkü iqtisadi vəziyyətinin gücləndirilməsi deyil, eyni zamanda sabahın təhlükəsizliyinin də təmin edilməsi olduğu deyilə bilər. Lakin burada əhəmiyyətli bu məsələ gözə dəyir:

Bilindiyi kimi, beynəlxalq münasibətlərdə dominant olan realizm nəzəriyyəsinə əsasən, dövlətlər mənfəətləri istiqamətində, öz gücünə və digər dövlətlər üzərindəki təsir həcminə əsaslanaraq siyasət yeridir[1]. Bu səbəblə realizmə əsasən «siyasət bir güc mübarizəsi» olaraq qəbul edilir[2]. Bu baxımdan realizm, beynəlxalq nizamı dövlətlərin davamlı olaraq daha çox güc əldə etməyə yönəldiyi bir quruluş olaraq qəbul etməkdədir.

Təhlükəsizlik sahəsində realizm yanaşmasına baxıldığında isə dövlətlərin, milli təhlükəsizliyini «digər dövlətlərin təhlükəsizliyi bahasına təmin etmək» meylində olduğu görülməkdədir[3]. Bu vəziyyətdə realizm dünyagörüşü ilə güc mübarizəsi qaçılmaz olur. Buna bağlı olaraq, dövlətlərin tətbiq etdiyi təhlükəsizlik yanaşmalarının dövlətin mənfəətini təmin etməyə yönəlik olduğu görülə bilər. Buna əsaslanaraq, dövlətin mənfəətini təmin etmək məqsədi ilə strategiyaların təyin edilməsindən bəhs edilir. Buna əlavə olaraq, dövlətlərin sahib olduqları gücü öz maraqlarını reallaşdırmağa yönəlik olaraq istifadə etdiyi deyilə bilər.

Beynəlxalq münasibətlərdə iqtisadiyyatın güclənməsi və enerji təhlükəsizliyinin təmin edilməsi üçün aparılan mübarizələr, realizm nəzəriyyəsinin təhlükəsizlik yanaşmasını təsdiqləməkdədir. Bu mübarizə xüsusilə təhlükəsizliyin enerji ölçüsü üzərində cəmləşməkdədir. Xüsusilə neft və təbii qaz sahəsindəki ziddiyyətlər

---

[1] Morgenthau, H. J. (1985). Politics Among Nations The Struggle for Power and Peace. (Der. K. W. Thompson). New York: McGraw-Hill. s.5.

[2] Walt, S. M. (1998, Bahar). International Relations: One World, Many Theories. Foreign Policy Special Edition: Frontiers of Knowledge. Maxwell School of Syracuse University: http://faculty.maxwell.syr.edu/hpschmitz/PSC124/PSC124Readings/WaltOneWorldManyTheories.pdf

[3] Baylis, J. (2008). Uluslararası İlişkilerde Güvenlik Kavramı. Uluslararası İlişkiler. Cilt: 5 Sayı: 18, s. 69-85. Uluslararası İlişkiler: http://www.uidergisi.com/wp-content/uploads/2011/06/UIde-Guvenlik-Kavrami.pdf.



beynəlxalq təhlükəsizliyi təhdid edir. Bu mövzu bizi daha həssas bir suala yönləndirir: Görəsən, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsimi, yoxsa bu mübarizədən əldə edilən gəlirlərmi daha əhəmiyyətlidir?

**Duygu Genç,**
*Türk Silahlı Qüvvələri Baş Qərargahı*
*Hərb Akademiyaları Komandanlığı*
*Strateji Araşdırmalar İnstitutu*
*Beynəlxalq Münasibətlər Magistr*
*proqramı məzunu*
7 dekabr 2012

### *3.6. Hec-fondlar və sərmayə bankları virtual iqtisadiyyatın bələdçiləri və operatorlarıdır*

İqtisadi təfəkkürün klassiki hələ XIX əsrdə nəyin bahasına olursa-olsun maksimal mənfəətə can atan kapitaldan bəhs etmişdir. ABŞ-ın maliyyə bazarlarına bugünkü baxış sözləri təsdiq edir.

Bəzi analitiklər 2008-ci ildə başlanmış iqtisadi böhranı maliyyə qurumlarının "başbilənləri"nin spekulyativ fəaliyyəti ilə bağlayaraq "Lehman Brothers" sərmayə bankının müflisləşməsini və "Freddie Mas" və "Fannie Mae" federal mülkiyyət agentliklərinin problemlərini növbəti hadisələrin özünəməxsus tətikçisi hesab etmişlər. Dünya böhranının real səbəblərindən asılı olmayaraq, Amerika maliyyə bazarı, bu böhrandan çıxmaq üçün şəraitin yaradılmasına az yardım göstərir.

Müasir maliyyə-sərmayə kapitalizminin hansı şəraitdə fəaliyyət göstərməsinə qısa nəzər salaq. Bu barədə danışarkən dünya bazarlarında hec-fondların və sərmayə banklarının rolunu qeyd etməmək mümkün deyildir. Ümumiyyətlə, bu maliyyə qurumlarının yaranma tarixi özü dolaşıq və qeyri-müəyyəndir. Məlumdur ki, 30-cu illərdə ABŞ birjalarında, əsasən, pul sərmayədarları özündə birləşən birgə fondlar təmsil olunurdu. Onları İstiqrazlar və Birjalar üzrə Federal Komissiya qeydiyyata alırdı və onların fəaliyyəti bir neçə qanunvericilik aktı, o cümlədən 1940-cı il tarixli "Sərmayə şirkətləri haq-

qında" Qanun tərəfindən tənzimlənirdi. Hec-fondların yaranması ilə birgə fondların fəaliyyət dairəsi xeyli məhdudlaşdı.

Prinsipcə, hec-fondlar birgə fondların işini yerinə yetirirlər. Onlar maliyyə bazarlarında özəl sərmayədarların adından müxtəlif sərmayə və ticarət əməliyyatları həyata keçirir, qiymətli kağızları alır və satırlar. Lakin daha ciddi fərqlər də vardır: hec-fondlar Federal Komissiyada qeydiyyatdan keçmir və "Sərmayə şirkətləri haqqında" Qanunla tənzimlənmirlər. Faktiki olaraq, bu fondlar dövlət tənzimləyicisinin təsisat səviyyəsində nəzarəti altında olmur. Eyni zamanda, onlar fəaliyyəti və maliyyə vəziyyəti barədə xarici aktorlara ətraflı informasiya verməyə borclu deyillər. Hec-fondların təxminən yarısı ofşorlarda yaradılır. Bundan əlavə, hec-fondlar zənginlər klubudur və burada üzvlük haqqı təxminən 1 milyon dollardır. Bunu demək kifayətdir ki, dünya üzrə fondlardakı vəsaitin ümumi məbləği təxminən 2 trilyon dollar təşkil edir.

Adından göründüyü kimi, bu fondlar guya sərmayədarların risklərinin sığortalanması üçün yaradılır. Bəli, hec-fondlar öz sərmayədarlarının risklərini nisbətən sığortalayır, lakin onların əsas funksiyası yüksək mənfəətin və likvidliyin təmin edilməsindən ibarətdir. Əslində bu, xarici oyunçular üçün yüksək dərəcədə riskli və təhlükəli işdir. Beləliklə, hec-fondların səciyyəvi cəhətləri aşağıdakılardır: dövlət orqanlarına hesabat verməməsi və fəaliyyətinin qeyri-şəffaflığı, çox varlı insanların maraqlarının birləşdirilməsi, fövqəl mənfəətə can atma. Bütün bunlar birlikdə həmin fondların həyata keçirdiyi əməliyyatların son dərəcə spekulyativliyini əvvəlcədən müəyyən edir. Hec-fondların vəzifəsi öz sahiblərini mümkün qədər tezliklə zənginləşdirməkdir və bu baxımdan aktivlərin gələcək taleyi fondlar üçün maraqsızdır.

Fondun sərmayədarları uzunmüddətli inkişafda maraqlı olan müəssisə sahibləri deyil, müəyyən vaxt intervalında satış və alış qiymətləri arasında fərqdən mənfəət əldə etmək istəyən oyunçulardır. Hec-fondun həyata keçirdiyi adi əməliyyat "qısa satışlar"dır. Fond səhmləri, yaxud hər hansı digər qiymətli kağızları borc götürür, sonradan qiymətlərin aşağı düşəcəyinə ümid bəsləyərək onları satır, həmin kağızları bir neçə müddətdən sonra yenidən alır, sahibinə



(birja brokerinə) qaytarır, fərqi isə cibinə qoyur. Aydındır ki, bu cür yanaşma şəraitində qiymətli kağızları hərraca çıxarılan müəssisənin strateji inkişafından söhbət gedə bilməz. Corc Soros 1992-ci ildə valyuta bazarında təxminən belə bir spekulyasiya nümunəsi nümayiş etdirmiş və funt-sterlinqə qarşı "qısa mövqedən" oynamışdır. Nəticədə Sorosun hec-fondu bir neçə gün ərzində bir milyard dollardan artıq qazanc əldə etmiş, İngiltərənin valyuta bazarı isə faktiki olaraq dağılmışdır.

Fondların spekulyativ xarakterini daha bir fakt da aydın nümayiş etdirir. Onlar yalnız iqtisadi yüksəliş zamanı son dərəcə səmərəli olurlar. 70-ci illərin resessiya dövründə hec-fondların əksəriyyəti fəaliyyətini dayandırmışdı. Onlar ikinci populyarlığını 90-cı illərin yüksəlişi dövründə qazandı. "Hedge Fund Research" fondunun hesablamalarına görə, indiki böhranın ilk ilində ABŞ-da 700-dən çox fond müflisləşmişdir. Deməli, risklərdən sığortalama imkanlarının olmasını bəyan etməsinə baxmayaraq, hec-fondlar məhz ehtiyac yarandıqda bu funksiyalarının öhdəsindən daha pis gəlirlər.

İnvestisiya banklarının fəaliyyəti də az maraqlı deyildir. Bu banklar birjada vasitəçi funksiyasını yerinə yetirir, korporasiyalara qiymətli kağızlar buraxmaqda kömək etmək, öz müştərilərinin adından kağız və öhdəliklərin ticarəti ilə məşğul olmaqla sərmayədarlara qərarlar qəbul etməkdə yardım göstərirlər. Böyük Depressiya zamanı sərmayə bankları kommersiya banklarından Qlass Stiqalın qanunu əsasında ayrılmışdı. Konqres qanunla sərmayə şirkətlərinə depozitlər qəbul etməyi, başqa sözlə, kommersiya banklarının funksiyalarını yerinə yetirməyi qadağan etmişdi. Lakin 90-cı illərin axırlarında iqtisadi yüksəliş dalğasında getdikcə daha çox maliyyə təsisatları bir neçə funksiyanı yerinə yetirməyə can atır və bununla da bazarda paylarını və gəlirlərini artırmağa çalışırdı. 1999-cu ildə konqres Stiqal qanununa Qramm-Litç-Blili düzəlişi qəbul etməklə sərmayə banklarının, kommersiya banklarının, sığorta şirkətlərinin, qiymətli kağızların ticarəti üzrə şirkətlərin faktiki olaraq artıq başlanmış birləşməsi prosesini qanuniləşdirməyə məcbur olmuşdu.

1999-cu ildən investisiya bankları müştərilərinə həm də kommersiya bankları kimi xidmət göstərməyə başladılar. Hec-fondlarla oldu-

ğu kimi, Qərbin son 20 ildə yaşadığı iqtisadi bum dövründə də işlər yaxşı gedirdi və yeni holdinqlər daha çox pul qazanırdılar. Problemlər 2008-ci ildə üzə çıxmağa başladı və "Lehman Brothers" iri sərmayə bankının müflisləşməsi böhranın başlanmasının əlaməti oldu.

Aydın oldu ki, qanunun 1999-cu ildə dəyişdirilməsi bankların yaradılması zamanı keyfiyyətin və tələblərin aşağı düşməsinə gətirib çıxardı. Prezident Obama özü Qramm-Litç-Blili düzəlişini tənqid etməklə bunu etiraf etdi. Yeni holdinqlər müflisləşmə üçün çox böyük idilər və buna görə də tənzimləyicilər onlara qarşı təhlükəsizlik tələblərini aşağı saldılar. Banklar da öz növbəsində özlərini "çox böyük və etibarlı" hesab edirdilər və bu səbəbdən onların portfelində riskli əməliyyatların payı artdı.

Bundan əlavə, məlum oldu ki, bir neçə funksiyanın bir maliyyə təsisatında birləşməsi bir neçə müstəvidə maraqların toqquşmasına gətirib çıxarır. Əvvəla, kommersiya və sərmayə üzrə bölmələrin, habelə sığorta qurumlarının bir bankda birləşməsi müştərilərin kommersiya sirlərinin və maraqlarının açılmasına gətirib çıxarırdı. İkincisi, bankın hansı halda öz adından, hansı halda müştərinin adından fəaliyyət göstərməsi aydın deyildi.

Hec-fondların və sərmayə banklarının ən sevimli maliyyə alətlərindən biri təhkim edilmiş baza aktivinin qiymətindən asılı olaraq qiymətləri müəyyənləşən qiymətli kağızlar – derivativlərdir. Əvvəlcədən derivativlər şirkətlərin risklərinin sığortalanması üçün nəzərdə tutulmuşdu. Lakin vaxt ötdükcə onlar böyük pulların qazanılması üçün vasitəyə çevrildi. İlk baxışdan şirkətlər derivativlərin satışı vasitəsilə kredit risklərini aşağı salırdılar, bu isə bazarda əməliyyatları nəzarətsiz genişləndirməyə imkan verirdi. Yaxın keçmişdən buna nümunə ipoteka kreditlərinə təhkim edilmiş derivativlərin buraxılması buna parlaq sübutdur.

Bu cür taktika bum dövründə yaxşı işləyirdi. Belə ki, baza qiymətlərinin az da olsa dəyişdirilməsi derivativlərin qiymətlərinin böyük məbləğdə dəyişməsinə səbəb olurdu və bu maliyyə lingi prinsipi sayəsində yüksək gəlir əldə edilirdi. Bir çox normativlərin aid olmadığı derivativ bazarının tənzimlənməsinin və şəffaflığının aşağı səviyyədə olması da səciyyəvi məqam idi. Bu bazarda bir çox normativlər qüvvədə deyildir. Bu, derivativləri balansarxası hesabata çıxarmağa imkan verirdi və şirkətin işləri olduğundan daha yaxşı görünürdü.



Lakin tənəzzül zamanı derivativlər çox böyük itkilərə səbəb olurdu. "JP Morgan" Bankının London sərmayə bölməsi ilə bağlı son hadisələr göstərdi ki, kredit və indeks derivativləri ilə riskli spekulyasiya iqtisadiyyatda vəziyyətin pisləşməsi və derivativlərin təhkim edildiyi bəzi baza indekslərinin aşağı düşməsi şəraitində bankın borclarının kəskin artmasına gətirib çıxardı. Özü də bankın bölməsinin fəaliyyətinin qeyri-şəffaflığı üzündən bankın idarə heyəti və müştəriləri son anadək bilmirdilər ki, derivativlərlə əməliyyatlar şirkətə 5 milyard dollar məbləğində ziyan vurmuşdur.

Qeyd etmək lazımdır ki, Amerika hakimiyyət orqanları maliyyə bazarında müəyyən qayda-qanun yaratmağa çalışırlar. 2010-cu ildə Prezident Obama Dodd-Frank Qanunu imzaladı. Qanunun məqsədi hec-fondları və sərmayə bankları üzərində nəzarəti artırmaq, şübhəli əməliyyatların aparılmasının mümkünlüyünü azaltmaq, derivativlər bazarını daha şəffaf və tənzimlənən etməkdir. Lakin Uoll-Strit bu qanunun tətbiqinə fəal müqavimət göstərir, nüfuzlu konqresmenlər, ilk növbədə respublikaçılar vasitəsilə qanunun nataraz müddəalarına düzəlişlər edilməsinə çalışır.

Maraqlıdır ki, bir çox hec-fondlar yeni qaydaların tətbiqi perspektivindən narahatdırlar. Bu qaydalar fond kənar müştərilərin aktivlərini idarə etdiyi halda ondan daha çox şəffaflıq və İstiqrazlar və Birjalar üzrə Federal Komissiyada qeydiyyatdan keçməyi tələb edəcəklər. Elə həmin o Soros qeydiyyatdan keçməkdən yayınmaq məqsədi ilə artıq bildirmişdir ki, onun hec-fondu kənar sərmayədarların pullarını geri qaytarır və xalis ailə müəssisəsinə çevrilir.

Ailə podratı yaxşı və başlıcası isə etibarlı işdir. Heç kim buna şübhə etmir. Yalnız bir sual doğur: nə üçün bəşəriyyəti açıq cəmiyyətlə xoşbəxt etməyə çalışan, - bu, əlbəttə, tərifə layiqdir, - bəzi filantroplar və havadarlar həmin prinsipləri öz bizneslərində tətbiq etmək istəmirlər?

**Ayaz Qədirov**
18 iyun 2012

# IV Fəsil
# BƏŞƏRİYYƏT YOL AYRICINDA: MULTİKULTURALİZM, YOXSA SİVİLİZASİYALARIN TOQQUŞMASI

## *4.1. Multikulturalizm: bəşəri ideya, yaxud Qərb dəyərləri*

Multikulturalizm bir anlayış olaraq yeni, həyat tərzi və mahiyyət baxımından isə qədim tarixə malikdir. Tarixin ilk çağlarından müxtəlif sivilizasiya daşıyıcıları eyni məkanda və ya qonşu ərazilərdə yaşayaraq bir-birləri ilə sıx təmasda olmuşlar. Böyük imperiyaların yaranması ilə bu fərqli mədəniyyət təmsilçiləri bir dövlət daxilində olmaqla daha sıx əlaqələr qurdular. Bəşəriyyət bu əlaqələr nəticəsində fərqliliklərin daha da dərinləşməsi ilə bərabər, hər zaman qarşılıqlı bəhrələnmə, təsir və əks-təsirə şahid olmuşdur. Yəni, müxtəlif mədəniyyətlərin bir-birlərinə təsiri və bəhrələnməsi min illərdir davam edən prosesdir. Nəticədə eyni məkanda fərqli mədəniyyət təmsilçiləri öz mövcudluqlarını qoruyub saxlaya bildikləri üçün müasir dünyamız rəngarəng etno-mədəni kolorita sahibdir.

Tarix sübut edib ki, multikultural dəyərlər olmasaydı heç böyük bəşər mədəniyyəti də ola bilməzdi. Çünki müəyyən sərhədlər daxilində təcrid olunmuş və özünə qapanmış hər hansı bir mədəniyyət tənəzzülə məhkumdur. Qloballaşma dövründə isə heç bir ölkə multikulturalizmin təsirindən kənarda qala bilməz. Günümüzdə multikulturalizmin böhranı və ya süqutu ilə bağlı Qərbdə səslənən fikirlər heç də birmənalı qəbul edilmir. Qərbin bir ideologiya olaraq baxdığı multikulturalizm bir çox yerlərdə, o cümlədən Azərbaycanda həyat tərzi olaraq qəbul olunur. İnsanlar minillər boyu yaşadıqları çoxmədəniyyətli həyatı bir zənginlik kimi qəbul edirlər.

Multikultural dəyərləri müxtəlif mədəniyyətlərə, dinlərə, sivilizasiyalara tolerant münasibət şərtləndirir. Yalnız tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, müxtəlif xalqları birləşdirən dəyərlər sisteminin formalaşmasına



səbəb olur. Belə olan halda müasir dünyanı düşündürən aktual sual yaranır. Bu gün Avropa multikulturalizmin məğlubiyyətə uğradığını bəyan edir. Qərb cəmiyyətində siyasi liderlər və intellektual dairələr tərəfindən multikulturalizm siyasətinin məğlubiyyətə uğraması ilə bağlı səslənən fikirlər nə qədər realdır? Multikulturalizm Qərb ideologiyası kimi yoxsa bir həyat tərzi olaraq özünü doğrultmamışdır? Bu suallara cavab tapmaq üçün multikulturalizmin Qərb dəyərlərini yaxud bəşəri ideyaları əks etdirməsinə aydınlıq gətirmək lazımdır.

**Multikultural dəyərlərə Qərb və Şərq cəmiyyətlərində fərqli yanaşma**

Müasir nəzəri yanaşmaya əsasən multikulturalizm demokratiya, insan haqları, tolerantlıq və digər prinsipləri daşımaqla bu gün daha çox Qərbə məxsus dəyər kimi təqdim olunmağa çalışılır. Hətta bəzi Avropa mütəxəssisləri bir qədər də irəli gedərək multikulturalizmin məhz Qərbdə yarandığını və multikultural cəmiyyətin ilk növbədə Qərbi Avropa və Şimali Amerikanın demokratik ölkələrində mövcud olduğunu iddia edirlər.

Multikulturalizmi bir həyat tərzi olaraq qəbul edərək biz bu ideyalarla razılaşmırıq. Lakin qeyd etməliyik ki, bu mülahizənin yaranmasında Şərq cəmiyyətlərinin daha qapalı xarakterli olması da rol oynamışdır. Tarixdən məlumdur ki, Şərqdə, xüsusən də Çin, Yapon, Koreya kimi cəmiyyətlərdə bir neçə əsr bundan əvvələdək dövlətlərin rəsmi xarici siyasəti "bağlı qapılar" olmuşdur. Əcnəbilərin buraxılmadığı yasaq şəhərlər var idi. İslam dünyası ölkələrində də əcnəbilər üçün məhdudiyyətlər tətbiq olunurdu. Əslində müəyyən mənada həmin ənənə bu gün də davam edir. Müasir dövrün ən çoxsaylı miqrant axınını təşkil edən çinlilər əsrlərdir ki, köçüb getdikləri ölkələrdə özlərinə məxsus həyat tərzlərini kompakt yaşayış yerlərində "çaynataun"larda davam etdirirlər. Əvvəllər bu Çin şəhərcikləri Asiyanın müxtəlif ölkələrində daha məşhur idisə, indi Avropa ölkələrində sayları günü-gündən artmaqdadır. Ancaq nədənsə Şərqdə çinlilərin bu həyat tərzinə dözümlü yanaşırlarsa, Qərb cəmiyyətlərində bu daha çox gələcəyə yönəlmiş təhdid kimi qəbul olunur. Eynilə emiqrant müsəlmanların öz mədəni-dini

irslərinə sadiq qalmaları, həyat tərzlərini, davranış və əxlaq normalarını qoruyub saxlamaları Qərb dəyərlərinə zidd hesab olunur.

Əslində Şərqdəki bu tendensiyaya özünütəcrid deyil, mənəvi dəyərlərin qorunması vasitəsi kimi baxmaq daha doğru olar. Çünki Şərq özü mədəni müxtəliflik baxımından yetərincə rəngarəngdir və bu çoxmədəniyyətlilik əsrlər boyu qonşu sivilizasiyaların təması üzərində qurulmuşdur. Yəni, qonşu sivilizasiya daşıyıcıları olaraq Uzaq Şərqdə Çin-Türk, Çin-Yapon, Çin-Hind, Türk-Hind, Yaxın Şərqdə Türk-İran-Ərəb, Afrikada Ərəb-Bərbər və sadalamadığımız daha neçə nümunələrin ortaq mədəni irsləri fərqli mədəniyyətlərə dözümlülük və birgə yaşayış tərzini əks etdirir. Misal üçün, Hindistanın Aqra şəhərində ucaldılan Tac Mahal abidəsi Türk, Hind və İslam mədəniyyətlərinin səciyyəvi xüsusiyyətlərini özündə daşıyır. Avropada bütün bunların multikultural dəyər kimi nəzərə alınmamağının əsas səbəbi Şərq cəmiyyətlərində qonşu mədəniyyətlərin deyil, məhz Qərb dəyərlərinin qəbul edilməməsi olmuşdur. Bunun da obyektiv səbəbləri var və məsələnin mahiyyətini müstəmləkəçilik siyasətində axtarmaq lazımdır.

Beləliklə, Qərb dəyərlərinin dominantlığı üzərində qurulan multikulturalizmdən fərqli olaraq min illərdir yanaşı yaşayan sivilizasiya təmsilçilərinin çoxmədəniyyətli həyat tərzində böhran müşahidə olunmur. Müxtəlif mədəniyyətlərin paralel mövcudiyyətinə tolerant yanaşmanı həyat tərzi olaraq qəbul edənlər üçün multikulturalizm bəşəri ideya kimi qəbul olunur. Bütün bunların fonunda multikulturalizmin yalnız Qərbə məxsus dəyər hesab edilməsi və ona alternativ olaraq özünütəcrid və ya sivilizasiyaların toqquşması ideyasının təqdim edilməsi birmənalı qarşılana bilinməz.

### Qərbsayağı multikulturalizmin formalaşma mərhələləri

Multikulturalizm hərfi mənada çoxmədəniyyətlilik, faktiki olaraq isə fərqli mədəniyyətlərin yanaşı və ya birgə yaşayış tərzidir. Nəzəri baxımdan bu anlayışa münasibətdə 2 yanaşma müşahidə olunur: çoxmədəniyyətlilik və Qərbsayağı multikulturalizm. Əsas məqam fərqli mədəniyyət daşıyıcılarının yanaşı mövcudiyyəti yoxsa birgə yaşayış tərzidir.



Qərbdə multikulturalizm müxtəlif dövrlərdə fərqli ideoloji məqsəd daşımışdır. Tarixi ardıcıllıqla baxsaq, multikultural dəyərlər Qərbdə birinci mərhələdə xristian dininə və Papalığa xidmət etmək üçün birləşdirici faktor olaraq nəzərdə tutulmuşdur. Məlumdur ki, Roma imperiyası dövründə katolik kilsəsinin əhatə dairəsi Avropanın və hətta imperiyanın hüdudlarını aşsa da fərqli mədəniyyətlərin simbiozuna səbəb ola bilmədi. Bizansın timsalında pravoslavlığın ayrılması isə kilsənin nüfuzuna daha bir zərbə oldu. Lakin Qərbin vahid dəyərlərinin yaradılması üçün kilsə öz səylərini davam etdirirdi. Xüsusən də orta əsrlərdə Avropa dövlətlərinin bir-birinə qarşı amansız müharibəsi zamanı kilsənin üzərinə birləşdirici missiya daha çox düşürdü. Papalıq müxtəlif Avropa xalqlarının birgəyaşayışını təmin etmək üçün müəyyən mənada çökmüş imperiyanın da vəzifələrini yerinə yetirirdi.

Həmin dövrdə anqlo-saks, german, roman mədəniyyət daşıyıcılarının mədəni simbiozu və birgə yaşayış tərzi imkansız görünürdü. Belə olan halda, bir ideologiya altında birləşmək üçün kənarda vahid düşmən və düşmənə qarşı birgə mübarizə Papalığın taktiki gedişi oldu. Səlib müharibələrinin başlıca səbəblərindən biri də bu idi. Düşmən obrazında İslam dini daşıyıcılarının qəbul edilməsinə isə dinlərarası ədavət kimi də baxmaq lazımdır. Kilsənin hamiliyi altında Avropada simbioz təşkil edə bilməyən müxtəlif xalqlar səlib yürüşlərində vahid düşmənə qarşı mübarizədə mədəni yaxınlıq və qarşılıqlı təsir baxımından müəyyən məsafə qət etmiş oldular. Doğrudur, sonrakı hadisələr göstərdi ki, mədəniyyətlərin qarşılıqlı təsiri hələ dinc yanaşı yaşamaq anlamı vermir. Avropada yüzillik müharibə, xristian kilsəsinin parçalanması, Müqəddəs Roma imperiyasının dağılması, dünya müharibələri bu deyilənlərin əyani təsdiqidir. Lakin bütün hallarda multikulturalizmin Qərb modelinin formalaşmasında birinci mərhələni dini birlik kimi xarakterizə etmək olar. Artıq uzun əsrlərdir ki, xristianlıq Qərb sivilizasiyasının əsas mənəvi dəyərinə çevrilmişdir. Eyni zamanda, ola bilsin ki, məhz xristianlıq Qərb sivilizasiyasının nüvəsini təşkil etdiyi üçün bu gün multikulturalizmin Qərb modelini ayrıca fərqləndirməli oluruq.

**Multikulturalizmin "Amerika" modeli**

Qərbsayağı multikulturalizmin formalaşmasında ikinci mərhələyə Avropa dövlətlərinin müstəmləkə sisteminə xidmət edən ideologiya kimi baxmaq olar. Bu zaman 2 fərqli yanaşma müşahidə olunur. Birincisi, Avropa dövlətlərinin müstəmləkə ölkələrin əhalisinə yanaşması. Avropa dövlətləri Qərb dəyərlərinin dominantlığı üzərində formalaşdırdıqları ideologiyanı müstəmləkə ölkələrində yeganə üstün sivilizasiyalı mədəniyyət kimi təqdim etməyə çalışır və yerli mədəniyyətlərə qarşı etinasız yanaşırdılar. Yalnız Qərb mədəni və dini dəyərlərinin üzərində qurulan Avropa cəmiyyəti dünya miqyasında universal standart kimi təqdim olunurdu. Belə olmasaydı Amerika qitəsində qədim Mayya mədəniyyəti, Afrikada Misir mədəniyyəti, Şərqi Asiyada Hind, Malay, Çin kimi ilkin sivilizasiya mədəniyyətləri yalnız istismara məruz qalmazdı. Maraqlıdır ki, bu gün işçi qüvvəsi kimi Avropaya gələn miqrantların Qərb dəyərlərini qəbul etmədiyi üçün multikulturalizmin məğlubiyyətə uğradığını iddia edənlər bir neçə əsr əvvəl okeanın o tayında nə yerli xalqların, nə də zorla Afrikadan gətirdikləri qulların mədəni müxtəlifliklərini nəinki qəbul etmir, hətta məhv edirdilər. Nədənsə o zaman belə münasibət multikulturalizmin böhranına səbəb kimi qiymətləndirilmirdi.

İkincisi şərti olaraq "Amerikan modeli" adlandıracağımız multikultural yanaşmanı fərqləndirmək olar. Avropa xalqları "Köhnə qitə"dən kənarda yeni dünya ölkələrində Amerikada, Avstraliyada, Yeni Zelandiyada yerli mədəniyyətləri qəbul etməməklə bərabər, öz aralarında mədəni cəhətdən daha da yaxınlaşdılar. Yəni, Avropada bir-birindən fərqlənən protestant, katolik, pravoslav dini daşıyıcılar, eləcə də anqlo-saks, german, latın dil qrupu təmsilçiləri Amerikada və ya Avstraliyada vahid mədəni dəyərlərin yaradılmasına doğru istiqamətləndirildi. ABŞ-da bu nəzəriyyəni "əridici qazan" (melting pot) adlandırırlar. Bu zaman multikulturalizm konsepsiyası bütün millətlərin bir xalq kimi birləşdiyi "əritmə qazanı" konsepsiyası ilə qarşılaşdırılır.

Belə olan halda Qərbsayağı multikulturalizmdə milli dəyərlər öz əvvəlki əhəmiyyətini itirmiş oldu və yeni vahid universal bir Qərb



dəyərinin yaranmasına keçid başlandı. "Amerikan modeli" dəqiq millət anlayışı olmayan, vahid vətəndaş identikliyi əsasında dövlətin yaranmasına təkan verdi. Misal üçün, ABŞ-da Amerikan identikliyi – anqlo-saks ideologiyası üzərində qurulsa da, hər hansı bir millətin milli dəyərlərini əks etdirmir. Bu model daha çox yeni yaradılmış dəyərlərin əks olunduğu mozaik birləşmədir. Lakin bu mozaik birləşmədə yerli xalqların mədəni dəyərləri əks olunmur. Aborigen xalqlar hələ də cəmiyyətdən təcrid olunmuş şəkildə yaşayırlar. Misal üçün, hazırda Avstraliyanın yerli əhalisinin əksəriyyəti rezervasiya adlanan əlahiddə yaşayış məntəqələrində məskunlaşdırılmışdır. Onlar demək olar ki, yüksək mədəniyyətə yaxın buraxılmırlar. Eyni proses digər yeni dünya ölkələrində də izlənilir.

Qərbsayağı multikulturalizmin formalaşmasında II mərhələ bir ölkədə fərqli millətlərin və mədəniyyətlərin birgə mövcud olduğu və dəqiq millət anlayışı olmayan dövlət modelinin yaranması ilə nəticələndi. Bu gün "Köhnə qitə" və ondan kənardakı Qərbsayağı multikulturalizm arasında yaranmış fərqlərin də səbəblərini burda axtarmaq lazımdır. Avropanın multikulturalizmin iflası və ya böhranı haqqında danışdığı bir halda okeanların o tərəfindəki Qərb modellərində (ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və s.) çoxmədəniyyətliyə dövlətlərin inkişafına təkanverici qüvvə kimi baxılır. Bu fərqin yaranmasında ilk növbədə tarixi ənənə faktoruna diqqət yetirmək lazımdır. Yəni uzun əsrlər bir-biri ilə rəqabət aparan Avropa dövlətlərinin vahid Qərb mədəniyyətini milli dəyərlərdən üstün tutması daha çox vaxt aldı. Yeni torpaqlarda isə belə bir tarixi qarşıdurma olmadığı üçün "əridici qazan" daha tez və effektiv işləməyi bacardı. "Amerikan modeli"nin uğurundan danışdıqda başqa bir incə məqama da fikir vermək lazımdır. Multikulturalizmin uğurlu modelindən danışdığımız regionlara nəzər saldıqda bu məkanda yerli mədəniyyət daşıyıcılarının tam sıxışdırıldığını, məhv edildiyini, qalanlarının isə rezervasiyalarda saxlanıldığının şahidi oluruq.

Konkret olaraq ABŞ-da isə yerli xalqlarla bərabər Afrikadan köçürülən əhali də uzun müddət bu multikultural mühitə daxil edilməmişdir. Hətta 1965-ci ilədək ABŞ-da bəzi ştatlarda qaradəri-

lilərin səsvermə hüququ da yox idi. Maraqlı bir mənzərənin şahidi oluruq. Avropalıların zorla Afrikadan gətirdikləri əhali quldarlığın ləğvindən sonra hələ uzun müddət irqi ayrı-seçkiliyə məruz qalmışdır. Avropalılar qul ticarəti vasitəsilə öz iqtisadiyyatlarını gücləndirdilər, amma eyni zamanda milyonlarla insanı öz vətənlərindən, həyat tərzlərindən ayıraraq zorla Amerikaya gətirdikləri azmış kimi həm də Afrika xalqlarının mədəniyyətlərinə, ənənələrinə, sosial həyatlarına tolerant yanaşmadılar. Ona görə multikulturalizmin "Amerika" modelinin uğurundan danışdıqda bunun hansı məhrumiyyətlər hesabına əldə edildiyini nəzərə almaq lazımdır. Bu uğura gedən yol yerli xalqların kütləvi şəkildə qırğını, irqi ayrı-seçkilik kimi çətin sınaqlardan keçmişdir. Tarixin mühakiməsinə buraxsaq isə bəlkə heç keçə də bilməmişdir.

Avropalıların ələ keçirdikləri ərazilərdə yerli əhalinin çoxluq təşkil etdiyi ölkələrdə isə multikultural dəyərlərin dialoqu ilə deyil toqquşması ilə rastlaşırıq. Cənubi Afrika Respublikasını buna misal göstərmək olar. Sayca üstünlük təşkil etməyən avropalılar bu ölkəyə Qərb dəyərlərini zorla sırıya bilmədilər. Təsadüfi deyil ki, XX əsr boyunca bu ölkə dünyada irqi ayrı-seçkiliyin təcəssüm olunduğu ölkə kimi yaddaşlarda qalmışdır. Beləliklə, "Köhnə qitə"dən kənar ölkələrdə Qərbə məxsus multikulturalizm modeli bu gün nə qədər uğurlu hesab edilsə belə aborigen xalqlara münasibətdə bu ideologiya özünü doğrulda bilməmişdir.

### Multikulturalizmin "Avropa" modeli

Qərbin multikulturalizm ideologiyasının formalaşmasında III mərhələ kimi XX əsrdə Avropa ölkələrinin həyata keçirdiyi miqrasiya siyasətini fərqləndirmək olar. Məlum olduğu kimi, ikinci dünya müharibəsindən sonra Avropa ölkələrinin sürətli iqtisadi artımı daxili işçi qüvvəsini bir neçə dəfə üstələyirdi. Əhalinin yaşlaşması və qitədən kənar ölkələrdə ucuz işçi qüvvəsinin bolluğu Qərb dövlətlərinin keçmiş müstəmləkə ölkələrindən miqrasiyanı təşviq etməsi ilə nəticələndi. Bu zaman hər bir Avropa dövləti öz keçmiş imperiya təbəələrinə üstünlük verirdi. Tarixi bağlılıq, dil, mədəni faktorlar miqrasiya axınları üçün həlledici amil sayılırdı. Misal üçün,



Britaniyada Hindistan və Pakistandan, Fransada fransızdilli Afrika ölkələrindən, Hollandiyada Karib hövzəsi müstəmləkələrdən miqrantlar çoxluq təşkil edirdi. Əslində keçmiş imperiyalar bu miqrasiyanı təşviq edirdilər və bunun üçün müxtəlif təşkilatlar da yaratmışdılar. Britaniyanın başçılığı ilə Millətlər Birliyi (54 ölkə), Fransanın rəhbərliyi ilə Frankofoniya Beynəlxalq Təşkilatı (56 ölkə), İspaniyanın lider olduğu İbero-Amerikan Dövlətləri Təşkilatı, Portuqaliyanın himayəsində Portuqal Dilli Ölkələrin Birliyi (9 ölkə) keçmiş müstəmləkə əhalisinə siyasi-iqtisadi maraqlar müqabilində miqrasiya üçün əlverişli şərait yaradırdı.

Bu mərhələdə multikulturalizm müstəmləkələrdən gələn yeni sakinlərin Qərbin vahid dəyərlər sisteminə daxil olması və miqrantların assimilyasiyasına yönəlmiş ideologiyaya xidmət edirdi. Lakin hadisələr göstərdi ki, Qərbin müstəmləkə siyasəti həmin dövrdən əks effekt verməyə başladı. Vaxtilə Avropalıların qanlı-qadalı işğalçılıq siyasətindən fərqli olaraq miqrantlar Avropada səssiz-səmirsiz məskunlaşmaqla bu məkanı "işğal" etməkdədirlər. Fərqli mədəniyyət daşıyıcılarını universal modelə tam uyğunlaşdırmaq mümkün olmadı və bu prosesi təbii də qarşılamaq lazımdır.

Qərbsayağı multikulturalizmin böhranı və ya məğlubiyyəti ilə bağlı mülahizələr də bu mərhələdən başlayaraq səslənməyə başladı. Amerikan modelindən fərqli olaraq "Köhnə qitə"də mozaik cəmiyyət yaratmaq mümkün olmadı. Burda əsas səbəb olaraq dominant etnosun yalnız öz mədəni və dini dəyərlərinə üstünlük verməsini göstərmək olar. Qərbin gözündə yeni gələn miqrantlar mühacir qəbul edən cəmiyyətin yeknəsəq tərkib hissəsi olmalıdır. Onların fərqli davranış və ya əxlaq normaları Qərb dəyərləri ilə uyğun gəlmədiyi üçün qəbuledilməzdir. Lakin hətta ikinci və üçüncü nəsil miqrantların uyğunlaşma problemləri və dini ənənələri saxlaması multikultural siyasətdə nəyinsə çatışmadığını göstərdi.

Avropanın əksər ölkələrində hadisələrin belə axarına hazır deyildilər və buna görə də miqrantlara münasibətdə aqressivlik müşahidə olunur. Əslində "Köhnə qitə" indiyədək heç vaxt bu qədər yeni sakinlə qarşılaşmamışdı. XX əsrin əvvəllərində miqrantların ilk dalğası daha çox siyasi mühacirlər idi. Həm kəmiyyət, həm də

təfəkkür tərzi baxımından hazırkı işçi emiqrantlardan tamamilə fərqlənən siyasi mühacirlər Qərb mədəni dəyərlər sisteminə daxil olmaqda heç bir problemlə qarşılaşmadı. Hətta bu təbəqənin əksər hallarda II nəsildən sonra milli identiklik xüsusiyyətlərini itirdiyi və Qərb cəmiyyətinə tam inteqrasiya olunduğu müşahidə olunur. Paralel olaraq gedən assimilyasiya da öz yerində. Ona görə də II dünya müharibəsindən sonra kütləvi xarakter daşıyan işçi miqrantlara ilk vaxtlar həmin münasibət bəslənilirdi.

Almaniyanın kansleri Angela Merkel etiraf edir ki "1960-cı illərdə biz xarici işçi qüvvəsini Almaniyaya dəvət edəndə elə bilirdik ki, onlar qayıdıb gedəcəklər. Lakin bu baş vermədi və bizim multikulturalizm siyasətimiz isə iflasa uğradı".

Fransanın keçmiş Prezidenti Nikola Sarkozi də multikulturalizmin məğlubiyyətə uğramasında aparılan yanlış siyasəti deyil, fərqli mədəniyyət daşıyıcılarını, xüsusən də İslam həyat tərzini ittiham edir. O, bildirirdi ki, "əgər insan Fransaya gəlirsə o, fransız xalqının bir hissəsi olmalıdır, əgər bunu istəmirsə burda ona yer yoxdur. Fransızlar öz dəyərlərinə yenidən baxmaq fikrində deyillər, insanların küçələrdə ibadət etməsini, qızların məktəbə getməsinin qadağan edilməsini, qadın və kişilərin bərabərliyinə dair dəyərləri itirmək istəmirlər". Mühafizəkar bəyanatdır və kimlərinsə fransız dəyərlərinə zorla müdaxiləsi həqiqətən də yolverilməzdir. Lakin görəsən yəhudilərin Fransada yalnız XIX əsrin sonlarında vətəndaşlıq hüququ qazandığını nəzərə alsaq, mənşə etibarı ilə yəhudi olan cənab Sarkozi bu bəyanatı 100 il əvvəl də verərdimi?

Beləliklə qeyd etməliyik ki, hazırda həyəcan təbili vurulan multikulturalizmin böhranı Qərb ölkələrinin yanlış siyasətinin nəticəsidir. İqtisadi vəziyyətdən asılı olaraq xaricdən işçi qüvvəsinin dəvət edilməsi və sonradan həmin miqrantlara qarşı göstərilən ayrı-seçkilik multikultural dəyərlərə bir araya sığmır. Bu işçi qüvvəsinin öz milli-mənəvi dəyərlərindən imtina etməsi multikulturalizmin qələbəsi hesab edilirsə, hansı tolerant yanaşmadan söhbət gedə bilər?

**İslam Qərb multikulturalizminə təhlükədirmi?**

Avropaya fərqli mədəniyyət daşıyıcılarının işçi miqrasiyası Qərb multikulturalizmini yeni bir çağırışla qarşı-qarşıya qoydu. Türkiyədən, Şimali Afrika, Yaxın və Orta Şərqin keçmiş müstəmləkə ölkələrindən gələn miqrantlar müsəlman olduqları üçün Qərb İslamla yenidən qarşılaşmalı oldu. Tarix indiyədək İslam dini daşıyıcılarının Avropaya birbaşa təsiri ilə 2 dəfə qarşılaşmışdır. Birinci dəfə İspaniyada Kordoba Xilafətinin yaradılması zamanı, ikinci dəfə isə Vyanayadək Avropa torpaqlarının Osmanlı imperiyasının nüfuz dairəsinə daxil olması ilə. Lakin hər iki halda imperiyaların zəifləməsi və ya dağılmasından sonra Avropa müsəlmanlara qarşı dini dözümsüzlük göstərmişdir. İspaniyada, Balkanlarda müsəlmanların dini səbəblərdən təqib olunması, islam mədəniyyətinin dağıdılması Qərbin İslama münasibətdə tarixi ənənəsini göstərir. İndi isə vəziyyət fərqlidir. İşçi miqrantlar Avropaya işğal yolu ilə deyil, cəmiyyətin içərisinə nüfuz etməklə daxil olurlar. Belə olan halda isə Avropanın bu yeni İslam dalğası ilə əvvəlki metodla mübarizə apara bilməsi real görünmür.

Avropada müsəlmanların öz dinlərinə sadiq qalmaları, bununla yanaşı islamın bir din il olaraq populyarlaşması, müsəlman əhalinin demoqrafik artım göstəriciləri Qərb cəmiyyətinin gələcəyi üçün əsas narahatedici məqam kimi qəbul olunur. Bunun nəticəsidir ki, Qərbdə islamı bir fobiya olaraq görürlər. Azlıqların çoxluqlara çevrilməsi qorxusu Qərbsayağı multikulturalizmin qarşısında duran əsas çağırışdır. Bir müddət əvvəl Vatikan Ədalət və Sülh icmasının sədri kardinal Pyotr Turksonun "Sinodo" ruhani məclisində İslam dinini Avropanın gələcəyinə təhdid kimi qiymətləndirməsi də bunu göstərir. O, bildirmişdir ki, 2026-cı ildə Avropa müsəlmanlar qarşısında azlıqda qalacaq, Fransa isə 39 ildən sonra İslam dövləti olacaq.

Avropada belə hesab edirlər ki, miqrantlar Avropanın insan hüquqları Konvensiyasının verdiyi imkanlardan, burada mövcud olan insan hüquqları və azadlıqlarından sui-istifadə edirlər. İndi Avropada demokratiya yaxud şəriət qaydaları, islam yoxsa azadlıq kimi əslində qətiyyən müqayisə oluna bilməyəcək məfhumlar cəmiyyətin qarşısında əks dilemmalar kimi ortaya qoyulur.

Bundan başqa iqtisadi faktor da mühüm rol oynayır. Miqrantların sayının artması fonunda Avropada dominant millət arasında artan iş-

sizlik və zəif sosial təminat Qərbin multikultural dəyərlərinə və tolerantlığına zərbə vurmuş oldu. Belə bir fikir formalaşdırılır ki, multikulturalizmin Avropa modelinin məğlubiyyətə uğramasının səbəbi miqrantların universal Qərb həyat normasına daxil ola bilməmələri, demokratik prinsipləri və insan hüquqlarının aliliyini rəhbər tutan Avropa qanunlarının isə olduqca mülayim olması ilə əlaqədardır. Hadisələrin belə axarı isə Avropada ifrat millətçilik ideologiyasının və ultrasağçı siyasi partiyalarının tərəfdarlarının artmasına, irqçi və şovinist çıxışlara səbəb olmuşdur. Görünən odur ki, vaxtilə Avropa dövlətlərinin özlərinin dəvət etdiyi, stimullaşdırdığı miqrantların iqtisadi vəziyyət pisləşdikdə ədalət, demokratiya, tolerantlıq, insan haqları kimi bəşəri dəyərlərdən kənar hər cür münasibətlə üzləşməsi normal qarşılanmalı və bu Qərb identikliyinin özünü qoruması kimi qəbul olunmalıdır. Hətta miqrantlara qarşı hazırkı siyasi kursu demokratik prinsiplərdən geriyə addım olsa belə Avropanın siyasi liderləri bu addımları atmaqdan çəkinmirlər. Qərb cəmiyyətinin bu tədbirləri dəstəkləməsi isə ümumilikdə "tolerant" yanaşmanın bariz nümunəsidir.

Maraqlıdır ki, multikulturalizmin böhranı ilə bağlı səslənən bəyanatlar qlobal iqtisadi böhranla zaman etibarilə üst-üstə düşür. Qərbdə bir çox dairələr qlobal iqtisadi böhranın yaranma səbəbi olaraq real iqtisadiyyata söykənməyən mexanizmin çökməsini deyil, miqrantların yaratdığı problemləri qabardırlar. Lakin Avropa cəmiyyətində miqrantlara sosial və iqtisadi problemlər yaradan təbəqə kimi baxanlar mühacirlərin elitası və orta təbəqəsi tərəfindən Qərbə gətirilən "intellekt" və "sərmayə" haqqında danışmaq istəmirlər. Halbuki Avropanın gələcəyi və davamlı inkişafı naminə bu nüanslar miqrantların yaratdığı problemləri dəfələrlə üstələyir. Ümumiyyətlə qlobal iqtisadi böhran Qərbdə multikulturalizmlə yanaşı, mənəviyyatın da, hətta beynəlxalq hüququn da böhran yaşadığını göstərdi. Beynəlxalq siyasi arenada dövlətlərə qarşı ikili standartlar prizmasından yanaşmanın da bununla əlaqəli olduğu açıq-aydın görünür.

Hazırda belə fikirlər səslənir ki, Qərb və İslam mədəniyyətləri yanaşı yaşaya bilməz. İslam əleyhinə kəskin çıxışları ilə tanınan hollandiyalı siyasətçi Qert Vilders "Multikulturalizmin yenilməsi



yaxud İslam hücumunun qarşısını necə almalı" adlı məqaləsində İslamı təhlükəli ideologiya adlandırır və bildirir ki, İslam bizim Qərb həyat tərzimizlə uyğun deyil.

İslam Avropada cəmiyyətə düzgün təqdim edilmir. Bəzi radikal qüvvələr və onların siyasətdə, mətbuatda havadarları tərəfindən islam və terror anlayışları yanaşı çəkilir. İslam dini abidələrinə, müsəlman geyim və davranış normalarına Fransa, İsveçrə, Belçika və digər Avropa ölkələrində dözümsüzlük nümayiş etdirilir. Tarixə nəzər saldıqda Avropada indi islama qarşı sərgilənən münasibətin zamanında digər dinlərin daşıyıcılarına da tətbiq olunduğunu görürük. Tarix boyunca yəhudilər fərqli dini əqidə daşıyıcıları olduğu üçün bir neçə dəfə Avropadan qovulmuşlar. XV əsrdə İspaniyadan yəhudilərin qovulması, II dünya müharibəsi zamanı isə bütünlükdə Avropada yəhudilərin təqib olunmasını misal göstərmək olar.

Orta əsrlərdə baş qaldıran rekonkista hərəkatı Qərbin dini müxtəlifliyə dözümsüzlüyünün əyani göstəricisidir. Məlum olduğu kimi, Ərəb passionarlığının intibahı dövründə islam dini bütün Cənubi Avropada geniş yayılmışdı. Xüsusilə, İspaniyada Kordova Xilafətinin təsiri altında əhali arasında islam dini geniş yayılmışdı. Lakin xristianlıq ideyaları üzərində yüksələn və digər dinlərə qarşı dözümsüzlük göstərən rekonkista hərəkatı nəticəsində müsəlmanlarla bərabər yəhudilər də qitədən sıxışdırılıb çıxarıldılar. 1492-ci ildə İspaniyada ərəblərin hakimiyyətinə son qoyulmasından sonra, 1610-cu ilə qədər müsəlmanlar və yəhudilərin hamısı İspaniyadan qovuldu. İspaniyada güclü katolik dövləti yaradıldı. Xristianlığı qəbul edən müsəlmanlar vəzifələrə təyin olunur və onlara torpaq sahələri verilirdi. Təkcə XVI əsrdə üç milyon müsəlman sürgün və ölümlə üzləşmişdir. Xristianlar tərəfindən aparılan təbliğatın əsas istiqamətlərindən biridə, müsəlmanlar tərəfindən tikilmiş tikililərin dağıdılması və ya fəaliyyət sahələrinin dəyişdirilməsindən ibarət idi. Bu yolla onlarla məscid və kitabxana dağıdılaraq yandırılmışdır. Maraqlıdır ki, İspaniyadan qovulan yəhudiləri heç bir Avropa dövləti deyil, məhz Osmanlı imperiyası qəbul etmişdir.

Beləliklə tarixi hadisələr göstərir ki, Qərbin dini tolerantlıq və multikultural dəyərləri yalnız öz dini dəyərlərinin digərlərinə qəbul

etdirilməsi üzərində qurulmuşdur. Belə olan halda immiqrant ölkələr olaraq xarakterizə olunan Avropa dövlətləri fərqli mədəniyyət və dini daşıyıcılar olan mühacirləri Qərb cəmiyyətinə yalnız assimilyasiya etməyə çalışırlar. Yəni çoxmədəniyyətlilik yalnız Qərb dəyərlərinin dominantlığı və vahid mozaik quruluşun heç nə ilə seçilməyən tərkib hissəsi kimi qəbul oluna bilər. Bu isə müasir dövrdə əhalisi müxtəlif mədəniyyətləri və millətləri təmsil edən Avropa üçün multikulturalizmin gələcək taleyini təhdid edir. Bugünkü reallıq ondan ibarətdir ki, Avropanın əksər dövlətləri artıq immiqrant ölkələrdir. Yəni, əhalinin ən az 10%-ni əcnəbilər təşkil edir. Buna görə də, multikulturalizm Qərb cəmiyyəti üçün bir seçim deyil, məhz zərurətdir.

Əhalisi gənc olan ölkələr üçün bu problem yaranmır. Lakin Avropanın əksər aparıcı ölkələrində əhalinin yaşlanması və əmək-qabiliyyətli əhalinin xüsusi çəkisinin azalmasının inkişaf üçün əsas problemlərdən olduğunu nəzərə aldıqda Avropanın multikulturalizm ideologiyasından imtina etmək şansının da olmadığını görürük. Misal üçün aparılan tədqiqatlara görə, Avropanın əhalisinin sayına görə lider ölkəsi olan Almaniyada əhalinin sayı 50 ildən sonra 10 milyon nəfər azalaraq 72 milyon nəfər olacaq. Paralel olaraq əhalini yaşlanması prosesi də nəzərəçarpacaq dərəcədə artacaq. Belə ki, 2012-ci ildə 65 yaşdan yuxarı əhalinin xüsusi çəkisi 20,5% olduğu halda, 2062-ci ildə bu nisbətin 30,1% olması proqnozlaşdırılır. Yəni, kənardan işçi qüvvəsinin miqrasiyası qaçınılmazdır. "Böyük yeddiliyin" digər Avropa ölkələrində də oxşar vəziyyətdir. Bu ölkələrə gələn miqrantların əksəriyyətinin isə müsəlmanlardan ibarət olduğunu nəzərə almaq lazımdır. Beləliklə də bütün bunlar onu göstərir ki, Qərbsayağı multikulturalizmin gələcək taleyi Avropada xristianlıq və islamın dialoqundan, dini və dünyəvi dəyərlərin birgəyaşayışından asılıdır.

**Qərbin multikulturalizmin böhranından sonrakı strategiyası**

Qərbsayağı multikulturalizmin bu mərhələsini bir vaxtlar Sovetlər İttifaqında formalaşdırılmağa çalışılan beynəlmiləlçilik ideologiyası ilə müqayisə edirlər. Məlumdur ki, Sovetlər İttifaqında dövlət siyasəti milli mədəniyyət və ideologiyanın məhv edilməsinə



yönəlmişdi. Süni yaradılmış xalqların qardaşlığı meyarına xidmət, dini, tarixi, mədəni ənənələrdən imtina və əvəzində vahid sovet cəmiyyəti və vətəndaşı yaradılması siyasəti özünü doğrultmadı. Çünki bu ideologiyada fərqli milli, mədəni, dini dəyərlərin birgəyaşayışına hörmət prinsipi gözlənilmirdi. Universal dəyərlər sistemi milli-mədəni mentaliteti nəzərə almadan formalaşdırılmağa çalışılırdı. Vahid mədəni məkanın yaradılması üçün isə ilk növbədə tolerant münasibət zəruridir. Bu mənada beynəlmiləlçilik və Qərbsayağı multikulturalizmin arasında müəyyən oxşarlıqların olduğu görünür. Beynəlmiləlçilik ideologiyası özünü doğrultmadı, fərqli mədəniyyətləri öz mədəni dəyərlərinə təhlükə hesab edən multikulturalizmin "Avropa" modeli isə böhran yaşayır.

Qərbin multikultural dəyərlərinin formalaşmasında böhrandan sonrakı dövr üçün yeni tendensiya müşahidə olunur. Qərb böhranla qarşılaşdıqdan sonra çıxış yolu kimi Qərb dəyərlərinin bəşəri ideya olaraq qlobal miqyasda qəbul etdirilməsinə çalışır. Bu mərhələni Qərb modelinin universal bəşəri dəyərə çevrilməsi istiqamətində cəhd kimi qiymətləndirmək olar. Yəni, Avropaya yeni gələn miqrantlara Qərb dəyərlərinin qəbul etdirilməsi onlar hələ miqrasiya etməmişdən əvvəl öz ölkələrində ikən başlanır. Bununla da Qərb Avropa cəmiyyəti daxilində miqrantlara münasibətdə həll edə bilmədiyi problemləri qlobal miqyasda milli-mədəni mentalitetdən kənar kosmopolit dəyərlər hesabına həll etməyi düşünür. Bu gün qloballaşma prosesi multikulturalizm müstəvisində mədəni dəyərlərin universal modelini yaratmağa yönəlmişdir. Bu yeni tendensiyada əsas xarakterik xüsusiyyət ondan ibarətdir ki, Qərb mədəniyyəti təkcə öz mədəni dəyərlərini diktə etməklə kifayətlənmir, həm də başqa mədəniyyətlərin dəyər meyarlarının formalaşmasına nəzarət edir.

Qərb həyat tərzinin qlobal miqyasda dominant təsir mexanizminin yaradılması taktikası Qərbin mədəniyyətlərin qarşıdurmasından çıxış strategiyası kimi nəzərdən keçirilir. Bu gün siyasi, iqtisadi, mədəni həyatda qloballaşma prosesləri, tolerantlıq, çoxmədəniyyətlilik kimi gündəlik həyatımızı zəbt edən proseslər bu istiqamətə yönəldilir. Beynəlxalq hüquq və universal normalar, mətbuat, internet, kino, musiqi, kulinariya, brend məhsullar və daha ağla gəlməyən hər bir şey bu məqsədlə istifadə olunur. Misal üçün,

gününümzdə sırf Qərbə məxsus ənənə olaraq "Cadılar bayramı" (Halloween) adlı bir mərasimi kütləviləşdirmək və qlobal miqyasda, xüsusən də İslam dünyasına təqdim etmək üçün "Macdonalds" restoranlar şəbəkəsindən istifadə olunur. Müsəlman ölkələrdə "Macdonalds" restoranlarında bu bayramın təmtəraqla keçirilməsi yeni nəslin hafizəsində qalmaqdır. Çünki məlum olduğu kimi bu restoranlar ən çox uşaqların sevimli məkanıdır.

Hollivud kino industriyası da Qərb dəyərlərinin bəşərilik qazanması üçün xüsusi rola malikdir. Bu kinolarda təqdim olunan Qərb həyat tərzinin cazibədarlığı heç də reallığı əks etdirmir. Bir tərəfdən güclü texnologiyaya əsaslanan hərbi qüdrət, ədalət uğrunda mübarizə, gündəlik həyatda lüks avtomobillər, restoranlar, zərif cinsin ehtiraslı libidosunun təqdimatı izləyicilərdə fərqli təsəvvürlər yaradır. Uşaqlar üçün multfilm qəhrəmanlarının da yaradıcıları onlardır. Mickey Mouse, Tom və Ceri, Superman, Betman kimi personajlar Qərb dəyərlərinin təqdimatına öz töhfələrini verirlər. Bu gün kino mütəxəssisləri də həyəcan təbili çalırlar ki, artıq multfilmlər uşaqların vaxtından əvvəl böyüməsinə səbəb olur və ümumilikdə yaş kateqoriyasına uyğun deyil. Beləliklə, hələ uşaqlıqdan insanların hafizəsinə sevimli əyləncə kimi daxil olan media imperiyalar bütün sonrakı həyatı boyu insanlara təqdim etdiyi informasiyaya inandırmaq üçün bünövrə hazırlayırlar.

Musiqi də bəşəri dəyər ola bilmək üçün güclü təsirə malikdir. İslam ölkələrində Qərb musiqisi mühüm təsir vasitəsi hesab olunur. Belə ki, bəzi islam ölkələri vardır ki, yerləşdiyi çətin coğrafi şəraitə görə Qərb üçün əlçatmazdır. Bu mənada Əfqanıstanı xüsusi fərqləndirmək lazımdır. Lakin maraqlıdır ki, bir neçə yüz ildir Qərbə silahla təslim olmayan Əfqanıstana da Qərb dəyərləri musiqi vasitəsilə nüfuz etmək iqtidarındadır. 2011-ci ildə Kabildə keçirilən rok festivalı öz ətrafında əfqan gənclərini, hətta qadınları da toplaya bilməsi maraq doğurur.

Bu gün insan hüquqlarının müdafiəsi altında atılan addımlarda belə Qərbin sinxron münasibət tələb etməsi müəyyən maraqlara xidmət edir. Belə ki, Avropanın xüsusən islam ölkələrində ən həssas yanaşdığı məsələlər gender bərabərliyi, cinsi azlıqların müdafiəsi.



kənd yerlərində maarifləndirmə kimi demoqrafik struktura təsir edə biləcək məsələlərdir. Avropa İttifaqının islam ölkələrinə yardım proqramlarında da qeyd edilən istiqamətlər prioritet təşkil edir. Göstərilən sahələrdə islam ölkələrinin min illərdir formalaşmış ənənələri, əxlaq normaları heç bir halda nəzərə alınmır və Qərbdə tətbiq olan normalar islam ölkələrinin qarşısında insan hüquqları standartı olaraq qaldırılır. Məsələnin görünməyən tərəfi isə bundan ibarətdir ki, bu yanaşma Qərbin demoqrafik siyasətinə xidmət edir. Belə ki, məlum olduğu kimi, Avropada əhalinin təbii azalması və eyni zamanda yaşlaşması prosesi gedir. Əsas səbəb kimi isə ailə dəyərlərinin tənəzzülə uğraması, müxtəlif cinsi azlıqların sayının artması, boşanmalar, qadınların karyeranı ailədən üstün tutması, urbanizasiya səviyyəsi və digər amilləri sadalamaq olar.

Bütün bunların fonunda Qərb inkişafı təmin edə biləcək insan resursları çatışmazlığını işçi miqrantlar hesabına doldurur. Bu miqrantların yeni gəldikləri ölkələrdə öz ənənəvi əxlaq və ailə normaları çərçivəsində həyatlarını davam etdirməsi isə onların say olaraq xüsusi çəkisinin artmasına səbəb olar. Belə olan halda, Qərb əvvəlcədən müsəlman ölkələrində cinsi azlıqları müdafiə etməklə, ailədə və işdə sərbəst qadın tipajı yaratmaqla, kənd yerlərində şüurlara təsir etməklə İslam ölkələri ilə demoqrafik balansı tənzimləmək istəyir.

Beləliklə, Qərbin multikulturalizm böhranından çıxa bilmək üçün bəşəri ideyalar adı altında qlobal müstəvidə universal dəyərlər yaratmaq niyyəti əvvəlcədə uğursuzluğa məhkumdur. Doğrudur, atılan addımlar təsirsiz də deyil. Çünki hazırda islam ölkələrində cəmi 40-50 il əvvəl tabu kimi görünən bir çox xarakterik xüsusiyyətlər transformasiya olunmuş və ya adiləşmişdir. Ailə dəyərləri sürətli şəkildə deqradasiyaya uğrayır. Mətbuatda, televiziyada ənənəvi olmayan cinsi münasibətlər həyat tərzi olaraq təqdim olunur. Əhalinin müəyyən təbəqəsi üçün bütün bunlar adiləşmişdir və maraqlıdır ki, Avropa bu qismi mühacir olaraq heç bir şərtsiz qəbul edir. Bütün bunların islam ənənələrinə uyğun gəlməməsinə isə dözümsüzlük kimi baxılır. Belə olan halda Qərbsayağı multikulturalizmin gələcəyi dumanlı görünür və hansı trendlərə səbəb olacağını proqnozlaşdırmaq çətinlik yaradır.

**Multikulturalizm – həyat tərzi**

Beləliklə, mədəniyyətlərarası münasibətlərdə bir modelin hökmranlığı özünü doğrultmur. Qərbsayağı multikulturalizmin qarşılaşdığı böhran da bunu bir daha təsdiq edir. Yalnız Qərb dəyərləri üzərində qurulan universal dəyərlərin heç bir mill-mədəni xüsusiyyətləri nəzərə almadan qlobal arenada qəbul olunması mümkünsüzdür.

Lakin bu heç də o demək deyil ki, multikulturalizm iflasa uğrayıbdır, onun gələcəyi yoxdur. Biz qənaətimizə görə, multikulturalizmin bu günü də, gələcəyi də vardır. Hər bir regionun və hətta bəzən ayrılıqda götürülmüş hər bir ölkənin özünəməxsus multikultural dəyərləri mövcuddur. Min illərdir yanaşı yaşayaraq sərbəst qarşılıqlı təsir hesabına zəngin mədəni mühit formalaşdırılması bəşəriyyətin təbii inkişaf yolunu əks etdirir. Belə məkanlardan biri də Azərbaycandır. Şərqlə Qərbin, Şimalla Cənubun, xristianlıqla islamın, müxtəlif sivilizasiya və mədəniyyətlərin qovşağında yerləşən Azərbaycan multikulturalizmin əbədiyaşar olduğunu təsdiqləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İkinci Bakı Beynəlxalq Humanitar Forumunda çıxışında bildirdiyi kimi "Multikulturalizm bizim həyat tərzimizdir. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar." Multikulturalizmin uğurunun başlıca şərti bəşəri və milli ideyaların birgə mövcudluğu, eləcə də multikultural dəyərlər sisteminin əhatə dairəsində olan xalqların milli identikliklərinin qorunmasıdır. Başqa mədəniyyətə, dinə, tarixə olan hörmət öz dəyərlərinə olan hörmətdən başlamalıdır.

Beləliklə, maraqlı mənzərə yaranır. Necə olur ki, dünyanın ən inkişaf etmiş regionu hesab olunan Qərbdə multikulturalizm böhran yaşayır, digər əksər yerlərdə isə multikulturalizm inkişaf üçün əsas prinsip hesab olunur. Fikrimizcə, əsas fərq bu anlayışa ideologiya yaxud həyat tərzi olaraq baxılmasından yaranır. Qərbsayağı multikulturalizm dünyada universal model kimi təqdim olunmağa çalışılır, eyni zamanda digər mədəniyyət daşıyıcılarının fərqli dəyərlərini qəbul etmir. Buna görə özünü doğrultmur. Halbuki qloballaşan dünya fərqli mədəniyyətlərin birgəyaşayışı olmadan mümkün deyil. Bu gün dünyada monoetnik dövlətlər çox az qalıb. Eyni zamanda beynəlxalq münasibətlərdə də istər siyasi, istərsə iqtisadi və ya mədəni sahə olsun hər hansı dövlət özünütəcrid şəraitində inkişaf edə bilməz. Bəşəriyyət yalnız fərqliliklərin dəyərlərinə hörmət etməklə inkişaf edə bilər.



Lakin Qərb təcrübəsinin uğursuzluğu multikulturalizmin tənəzzülü və ya süqutu demək deyil. Fərqli sivilizasiya və mədəniyyət daşıyıcılarının eyni məkanda yanaşı yaşaması və qarşılıqlı zənginləşməsini həyat tərzi kimi qəbul etmək bəşəriyyətin nicat yoludur. Multikulturalizmin "Azərbaycan modeli" də sübut edir ki, fərqli millətlərin və dinlərin təmsilçiləri öz identikliklərini qorumaqla və digərinə hörmətlə yanaşmaqla inkişaf etmək iqtidarındadırlar. Sadəcə olaraq bunu fərqlilikləri assimilyasiya etməyə çalışan ideologiya deyil, əsrlər boyu davam edən gündəlik həyat tərzi kimi qəbul etmək lazımdır. Əslində bəşəriyyətin gələcək inkişaf üçün başqa yolu da yoxdur. Ona görə də, bəşəriyyət var olduqca multikulturalizm da mövcud olacaqdır. Bu dəyərlərdən standart meyar yaratmağa yönəlmiş ideologiya isə nəinki böhrandadır, hətta yaşamaq hüququnu itirmişdir.

**Ərəstü Həbibbəyli,**
***iqtisad üzrə fəlsəfə doktoru***
3-5 dekabr 2012

### *4.2. Postmodern inkişafın Qərb modeli: demokratiyadan milliyyətçiliyə keçid*

Bu gün Qərbin müasir inkişafın zirvəsində dayandığını söyləsək, yəqin ki yanılmarıq. Təkcə Avropa İttifaqının özü 27 üzv ölkə ilə dünyada ərazisinə görə 7-ci, əhalisinə görə 3-cü, ÜDM-nə görə 1-ci yeri tutur. Dünya ÜDM-nin təxminən 30%-ni, ixracatının 14,7%-ni, idxalatının isə 16,7%-ni təşkil edir. G-8 qrupuna daxil olan ölkələrin 4-ü Avropa İttifaqının üzvüdür. Təşkilatın 2 üzvü BMT Təhlükəsizlik Şurasının daimi üzvü, eyni zamanda qanuni atom silahı sahibidir. Siyasi, hərbi və elmi-texnoloji baxımdan üstünlüyü isə heç kəsdə

şübhə doğurmur. Bura dünyanın superdövləti olan ABŞ-ı da əlavə edərsək, əlavə şərhə ehtiyac qalmır.

Qərb özü də bu zirvəyə təsadüfən yüksəlməyib. Bunun üçün nə qədər çətinliklərdən keçib, ağrı-acı yaşayıb. Bir tərəfdən ziyalıların düşüncələri, digər tərəfdən isə insanların mübarizəsi siyasiləri bu istiqamətdə radikal addımlar atmağa məcbur edib. Nəhayət ki, demokratiyanın, insan hüquqlarının, hüquq dövlətinin bərqərar olduğu bir cəmiyyətin qurulmasına nail olunub.

Lakin, təhlillər və proqnozlar Qərbin bundan sonrakı inkişafı haqqında bir o qədər də nikbin danışmağa əsas vermir. Müasir proseslərin gedişatı onu göstərir ki, Qərb artıq bu istiqamətdə tənəzzül dövrünü yaşamaqdadır. Son vaxtlar bəzi Avropa ölkələrində radikal sağ partiyasının iqtidara gəlməsi, həmin ölkələrdə digər dinlərin mənsublarına, xüsusilə də müsəlmanlara qarşı acıq-açığına aparılan məkrli təbliğat və hücumlar bu deyilənlərin əyani sübutudur.

Norveçli xristian terrorçu Anders Breyvikın terror hücumuna qarşı Qərb ölkələrinin göstərdikləri mövqe isə bunu bir daha sübut etdi. Qərb dünyasının niyyətlərinin məkrli olduğu elə terror hadisəsinin ilk günündən bəlli idi: onlar hadisəni törədənin şəxsiyyətinin hələ bəlli olmadığı vaxtda bunu "islam terrorizmi" ilə bağlamağa çalışırdılar. Lakin hadisəni törədənin müsəlman deyil, xristian dininin nümayəndəsi olduğu və onun radikal islam düşməni olduğu bilinəndə, Qərb dairəsinin mövqeyi də anidən radikal dəyişdi: Breyvik az qala milli qəhrəmana çevrildi. Qərb mətbuatı hadisəni pisləmək əvəzinə ona müxtəlif yollarla haqq qazandırmağa çalışdı, hətta onu "o da bu cür adamdır" şəklində şərh etməyə çalışdı.

Maraqlıdır, əgər Breyvik özü müsəlman olsaydı və bu qədər xristian uşağı nümayişkarcasına qətl etmiş olsaydı, sonra isə etdiyi hərəkətə görə peşman olmadığını, hətta qürur duyduğunu desəydi, o zaman nələr olardı? Breyvikin özü ilə necə rəftar edilərdi, ona neçə il həbs verilərdi? Onun qohumlarının, tanışlarının, dostlarının, facebook-dakı və başqa sosial şəbəkələrdəki üzünü belə görmədiyi insanların aqibəti necə olardı? Terrorizmə qarşı qlobal mübarizə adı altında əlavə neçə müsəlman ölkəsi bombalanardı? Quantanamo kimi əlavə neçə həbsxana yaradılardı? Neçə insan həbs edilərək ora atılardı?



Demokratiyanın, insan hüquqlarının, hüquq dövlətinin, ədalətin fəlsəfi düşüncə, sonralar isə təməl hüquq prinsipi kimi qəbul edilib Avropada yayılmasına töhfə vermiş dahi Qərb mütəfəkkirləri görəsən bilirdilərmi ki, bu prinsiplər bir zamanlar onların elə öz ölkələrində tətbiq oluna bilməyəcək? Görəsən onlar xəbərdar idilərmi ki, elə bir dövr gələcək ki, Qərb demokratiya naminə müstəmləkədən azad etdiyi ölkələrdəki qeyri-xristian əhalini ölkələrinə gətirərək, onları ən pis işlərdə işlətdikdən sonra ikinci kateqoriyalı insan yerinə qoyaraq bu prinsipləri onlara şamil etməyəcək? Görəsən onlar bilirdilərmi ki, bu prinsipləri başqa ölkələrə universal dəyərlər adı altında idxal etməyə çalışan dövlətlərin elə özləri onları tapdalayanların başında gələcək?

Deyirlər tarix təkrar olunur. Qərb universal dəyərlərin beşiyi olduğu kimi, elə faşizmin də beşiyidir. Qərb son bir əsrdə bəşəriyyətə inkişaf, tərəqqi bəxş etdiyi kimi, iki böyük dünya müharibəsi də bəxş etmişdir: elmi texniki tərəqqi sayəsində milyonlarla insana yenidən həyat verdiyi kimi, milyonlarla insanın da həyatına son qoymuşdur. Qərb minlərlə elm adamı, mütəfəkkir yetişdirdiyi kimi, Bin Laden kimi terroristlər də yetişdirmişdir, humanitar sahədə fəaliyyət göstərən qurumlar, böyük elm ocaqları yaratdığı kimi, Əl-Qaidə kimi terror təşkilatları da yaratmışdır.

Son dönəmlərdə demokratiya və insan hüquqları devizi altında İraqda, Əfqanıstanda, Misirdə, Liviyada (və bundan sonra digər müsəlman ölkələrində) həyata keçirilən inqilablarla görəsən nəticə olaraq hansı irəliləyiş əldə edilib: Qərb həmin ölkələrin xalqlarına hansı əmin-amanlıq, rifah, ədalətli, demokratik hüquq dövləti inşa edərək təqdim edib?

Bütün bunlar hansı mənaya gəlir? Bu o deməkdirmi ki, artıq qərb dünyası icad etdikləri sistemləri, mövhumları, prinsipləri təyinatına görə sistemləşdirir: özləri üçün demokratiya və insan hüquqları, başqaları üçün faşizm və imperializm; özləri üçün inkişaf və tərəqqi, başqaları üçün inqilab və müharibələr?

Ümid edirəm ki, mən yanılıram.

**Dr. Turab Qurbanov**
11 may 2012

### *4.3. Avropada irqçilik və ksenofobiya*

Son bir neçə ildə əksər Avropa ölkələrində irqçilik və diskriminasiya hiss olunacaq dərəcədə artıb. Neo-nasistlərin ənənə halını alan mitinqləri, miqrantlara qarşı artan hücumlar, irqçi və radikal sağ yönümlü təşkilatların çoxalması və siyasi aktivlik nümayiş etdirməsi bunun göstəriciləridir.

İrqçiliyin artdığını göstərən ilkin əlamətlər keçən əsrin 90-cı illərində Avstriya, Fransa, Almaniya, İsveç, Hollandiya, Bolqarıstan və digər ölkələrdə neo-nasist təşkilatların artması, müxtəlif etnik və dini mənsubiyyətə malik olan insanların, xüsusən də miqrantların tez-tez hücumlara və təhqirlərə məruz qalması idi. 2001-ci il 11 sentyabr hadisəsindən sonra dünyada sürətlə yayılan islamafobiya da Avropadakı irqçi və neo-nasist hərəkatların genişlənməsinə güclü təkan verdi. Ənənəvi irqçi ideyalarla islamafobiyanın birləşməsi daha təhlükəli tendensiyalara gətirib çıxara bilər. 2011-ci ilin iyulunda Norveçdə terrorçu Anders Breyvikin törətdiyi 77 nəfərin ölümünə səbəb olan kütləvi qətl bunun nəticəsi idi.

**"Qoca qitə"də irqçiliyin kökləri**

Əslində, irqçilik Avropa qitəsində müxtəlif təzahür formasında qədim zamanlardan mövcud olub. Özündən olmayanları, başqa mədəniyyət sahiblərini barbar, vəhşi adlandırmaq, irqi xüsusiyyətlərinə görə insanları ali və aşağı dərəcəli qruplara ayırmaq ənənəsi burada dərin köklərə malikdir. Avropalıların irqçi təfəkkürü orta əsrlərdə böyük coğrafi kəşflər dövründə ayrı-ayrı qitələrdəki yerli əhalinin kütləvi şəkildə məhvi ilə də özünü göstərdi.

XIX əsrin ikinci yarısından etibarən Avropada rasizmi nəzəri cəhətdən əsaslandırmağa çalışan ideya cərəyanları daha da genişləndi. Belə ki, Çarlz Darvinin təkamül prosesində yalnız güclülərin yaşamını sürdürməsi və təkmilləşməsi ilə bağlı bioloji nəzəriyyəsi sosioloqlar tərəfindən cəmiyyətin sosial-siyasi həyatına tətbiq edilməyə başlandı. Herbert Spenser, Frensis Qalton kimi sosioloqlar guya şüur baxımından daha çox inkişaf etmiş, mədəni irqlərin digər xalqlar üzərindəki sosial, siyasi ağalığına haqq qazandırırdılar.



Təsadüfi deyil ki, sosial darvinizm XX əsrin I yarısında Avropada faşizmin və nasional-sosializmin ideya əsaslarına çevrildi. II Dünya müharibəsində milyonlarla günahsız insanın ölümünə səbəb olan bu cərəyanlar məhz irqçi dünyagörüşünün məhsulu idi.

Faşizm üzərində qələbədən sonra Avropada irqi düşmənçiliyə aparan bütün ideyaların təbliği qadağan edildi, irqçi təşkilatlanmalar aradan qaldırıldı, xalqlar arasında bərabərlik, humanizm, tolerantlıq, insan haqları kimi ali prinsiplər qitə sakinlərini və bütün bəşəriyyəti birləşdirən dəyərlər olaraq önə çəkildi.

**Avropa dünyaya yaydığı dəyərlərdən imtina edir?**

Lakin görünən odur ki, son illərdə əksər Avropa cəmiyyətlərində qeyd olunan dəyərlər, xüsusən də tolerantlıq, yəni dini, etnik dözümlülük əvvəlki əhəmiyyətini itirməkdədir. Avropa İttifaqı və onun tərkibindəki qurumların dünyanın müxtəlif regionlarında, hətta irqi və dini zəmində ciddi münaqişələrin yaşanmadığı ölkələrdə insanlara tolerantlıq, humanizm dərsləri keçdiyi bir vaxtda İttifaqa üzv ölkələrin özündə bu dəyərlər aşınmaqdadır. Burada artan miqrasiya ilə yanaşı, iqtisadi böhranın rolunu xüsusi vurğulamaq lazımdır.

Avropada dərinləşən böhran on minlərlə insanın işsiz qalması, milyonlarla işçinin əmək haqqının miqdarının azalması nəticəsində işsizlik və yoxsulluğun artması kimi sosial problemlərə səbəb olur. Aİ-də, xüsusən də vahid valyutadan istifadə edən avrozona ölkələrində gənclər iş tapmaqda çətinlik çəkir. Belə bir vəziyyətdə böhrandan əziyyət çəkən ölkələrə xaricdən əmək miqrantlarının axınının davam etməsi yerli əhalidə narazılıq və qəzəb hissini artırır.

Lakin rasizmin güclənməsini yalnız iqtisadi böhranla əlaqələndirmək doğru olmazdı. Məsələn, neo-nasist hərəkatının kifayət qədər güclü olduğu Avstriyada bu ənənə gizli və açıq formalarda öz mövcudluğunu daim sürdürüb.

Sağçı radikallara olan ictimai dəstəyin son illərdə daha da artmasının mühüm səbəbi kimi qloballaşmanın xalqları bir-birinə yaxınlaşdırması nəticəsində meydana gələn sivilizasiyalararası toqquşmanı göstərmək olar. Avropa ölkələrinə gələn fərqli mədəniyyət daşıyıcıları olan insanların toplu halda məskunlaşması onların yerli

mühitə uyğunlaşmasını və assimilyasiyasını çətinləşdirir. Britaniyanın baş naziri Devid Kameronun miqrasiya tendensiyaları ilə bağlı böyük marağa səbəb olan 2011-ci il aprel çıxışı bu məsələnin mühafizəkarları nə dərəcədə narahat etdiyini gözlər önünə sərir.

Beləliklə, bir vaxtlar xaricilərə qucaq açan və onların əməyinin sosial, iqtisadi, mədəni inkişafa verdiyi töhfələrdən yararlanan Avropa ölkələri indi immiqrasiya templərini aşağı salmaq üçün yollar axtarır.

**Neo-nasistlərin və irqçilərin siyasi arenadakı dirçəlişi**

İrqçi düşüncələrə dəstəyin artması sosial barometr rolunu oynayan seçkilərdə özünü daha qabarıq göstərməyə başlayıb. Belə ki, seçki kampaniyaları dövründə namizədlər miqrantlara qarşı sərt mövqeləri və millətçi çıxışları ilə seçicilərin dəstəyini qazanmağa çalışır, səsvermənin nəticələrində isə irqçi partiyaların göstəricilərinin əvvəlki dövrlərlə müqayisədə xeyli yüksəldiyi görünür. Təkcə son ildə bir sıra ölkələrdə gedən siyasi proseslərdə qeydə alınan faktlar radikal sağçıların gücləndiyini təsdiq edir. Bu prosesin qarşısının alınması üçün hökumətlər səviyyəsində ciddi addımların atılmadığı da sirr deyil. Fransada ultra-sağçı «Milli cəbhə» partiyası ilk dəfə olaraq builki parlament seçkisində 13%-dən artıq səs toplayıb. Partiyanın lideri Marina le Pen öz millətçi çıxışları ilə məşhurdur.

Yunanıstanda 2012-ci ilin may ayında keçirilən parlament seçkisinin nəticələrindən məlum olub ki, ümumilikdə, səslərin 20 faizi sağçı partiyalara verilib. Onların içərisində ən radikal və irqçi «Qızıl Şəfəq» partiyası 7%-ə yaxın səs toplayaraq, ilk dəfə parlamentə daxil olaraq, 300 nəfərlik parlamentdə 18 yerə sahib olub. Partiyanın nüfuzu isə sürətlə artmaqda davam edir. Oktyabrda Yunanıstanda əhali arasında keçirilən sorğu göstərib ki, əgər yenidən seçki keçirilsə idi, «Qızıl Şəfəq» səslərin 14%-ni qazanaraq Yunanıstanın üçüncü böyük siyasi partiyası olardı. Sentyabrda keçirilən sorğu isə göstərib ki, may ayı ilə müqayisədə «Qızıl Şəfəq»ə rəğbət bəsləyənlər 12%-dən 22%-ə yüksəlib.



Ukraynada ultra-sağçı «Svoboda» partiyası 2007-ci il növbədənkənar parlament seçkisində 0,76 % səslə yer tuta bilməmişdisə, 2012-ci il oktyabrın 28-də keçirilən növbəti parlament seçkisinin nəticələrinə əsasən, ksenofob mövqeyi ilə seçilən partiya 10 %-dən bir qədər çox səs toplayaraq, 450 nəfərlik parlamentdə yerlərin 37-nə sahib olmaq imkanı qazanıb.

Doğrudur, Avropada radikal millətçiliyə, irqçiliyə qarşı çıxanlar da kifayət qədər çoxdur. Lakin ictimai şüurdakı radikallığa doğru artan meylliliyi danmaq mümkün deyil. Əgər seçkilərdəki qeyd olunan tendensiya bu sürətlə davam edərsə, yaxın gələcəkdə bir sıra Avropa ölkələrində irqçi siyasi partiyalar hökumətin qərarlarına təsir göstərmək gücünə, yaxud koalisiyalar tərkibində hakimiyyətdə təmsil olunmaq imkanına sahib ola bilərlər. O zaman Avropanın öyündüyü tolerantlıq, bərabərlik, insan haqları və s. demokratik dəyərlərin aqibətinin necə olacağını indidən təsəvvür etmək mümkündür.

**Hülya Məmmədli**
16 noyabr 2012

## *4.4. Sivilizasiyaların mübarizəsi: dünyanın gələcəyinə olan təhlükələr*

Bəşəriyyəti müharibələr bürüyüb. Dünyanın müxtəlif guşələrində alovlanan savaşlar qlobal miqyasda təhlükə yaradır. Bunun kökündə sivilizasiyaların mübarizəsinin durduğu barədə fikirlər vardır. Bəşəriyyətin gələcəyi ilə bağlı narahatlıqlar isə artır.

**Sivilizasiyalararası münasibətlər: əsas əlamətləri**

1952-ci ildə alman mənşəli ABŞ antropoloqları A.Krober və K.Klukhon mədəniyyət və sivilizasiyanı bir-birindən ayırmağın yanlış olduğu ideyasını irəli sürdülər[1]. Bu, XIX əsrdən başlayaraq Qərb təfəkkürünə hakim olmuş mədəniyyətlə sivilizasiyanın qarşıdurma

[1] L. Kroeber, Clyde Kluckhohn, Wayne Untereiner, Alfred G. Meyer. Culture: A Critical Review of Concepts and Definitions. New York, Vintage Books, 1952, 448 pages.

ideyasından imtina etmək demək idi. Onda bu ideya dəyişikliyinin dünya geosiyasətini hansı istiqamətə aparacağı bilinmirdi.

Keçən əsrin 80-ci illərində Amerikanın tanınmış sosioloqlarından olan Samuel Hantinqton belə bir tezis irəli sürdü: sivilizasiyalar çoxdur və onların birgə mövcud olması yolu tapılmalıdır[1]. S.Hantinqtonun özünün gəldiyi nəticə isə xeyli dərəcədə düşündürücü idi – "sivilizasiyaların toqquşması qaçılmazdır".

Geosiyasətdə bu cür ideya dəyişikliyi demək olar ki, bütün Qərb nəzəriyyələrində yerini aldı. Bu proses filosofların gəldiyi yeni qənaətlərlə sanki özünə daha çox tərəfdar toplayırdı. Belə ki, ötən əsrin sonlarında Rusiya filosofları P.Şedrovitski və E.Ostrovski bəşəriyyətin tamamilə "dil və mədəniyyət" prinsipinə keçdiyi fikrini irəli sürdülər.

XX əsrin sonu və XXI əsrin əvvəlləri doğrudan da sivilizasiyaların gərgin mübarizəsinin şahidi oldu. Dünyanın müxtəlif guşələrində baş verən geosiyasi hadisələr bəşəriyyət qarşısında çox mürəkkəb vəzifələrin durduğunu bir daha təsdiqlədi. Tarixin indiki mərhələsində mübarizənin "mədəniyyət və dil" uğrunda getməsi əvvəllər müşahidə edilməmiş ziddiyyət məqamlarını meydana çıxarır.

Keçən əsrin 90-cı illərində sosialist düşərgəsinin dağılmasını sivilizasiya hadisəsi kimi qiymətləndirən yəqin ki, çox az adam vardı. Proseslərin sonrakı gedişatı göstərdi ki, əslində, sivilizasiya və mədəniyyət mənsubluğu eyni geosiyasi məkanda yerləşən ölkələrə fərqli münasibəti şərtləndirir. Bunu Cənubi Qafqazda daha aydın hiss etmək olurdu.

Ermənistanın Azərbaycanın ərazisinin bir hissəsini işğal etməsi faktına Qərb dövlətlərinin münasibətində obyektivlik əvəzinə dini ayrı-seçkiliyə dayanan mövqe gördük. Təcavüzkar Ermənistanı xristian havadarları hər fürsətdə müdafiə edirdilər. Bu cür yanaşma siyasətdə "ikili standart" adlanır. Yəni onun mənbəyində məhz sivilizasiyaların mübarizəsinə böyük inanc durur.

Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün yaratdıqları xüsusi Minsk qrupu da "ikili standart" prinsipindən yaxa qurtara bilmədi. Vasitəçi həmsədr dövlətlər açıqca münaqişənin həllinə sivilizasiya fərqləri aspektində yanaşdılar.

[1] Samuel P. Huntington. The Clash of Civilizations and the Remaking of World Order. New York, Simon & Schuster, 1996, 368 pages.



Hazırda Ermənistan o dərəcədə arxayınlaşıb ki, havadarlarını belə eşitmək istəmir. Dünyanın qlobal geosiyasi mühitinə sivilizasiyaların mübarizəsi prizmasında baxmağın mənfi nəticələrini qafqazlılar hələ də öz üzərilərində hiss etməkdədirlər.

Qərbin qlobal miqyasda geosiyasi reallıqlara sivilizasiyaların mübarizəsi aspektində yanaşdığını sübut edən faktorlardan biri də Türkiyənin Avropa İttifaqına (Aİ) üzv olmaq cəhdlərinə olan münasibət ifadə edir. Artıq 50 ildir ki, Ankara bu birliyə daxil olmaq istiqamətində çalışır. Lakin onu müxtəlif bəhanələrlə bu quruma qəbul etmirlər. Bunun fonunda isə Şərqi Avropanın zəif və daxili inkişaf potensialı Türkiyədən bir neçə dəfə az olan ölkələri artıq Aİ-nin üzvləridirlər.

Məsələn, Bolqarıstan, Polşa, Litva, Latviya, Estoniya, yunan Kipri və s. ölkələrin sosial-iqtisadi inkişaf imkanları Türkiyədən çox azdır. Bəs nə üçün müsəlman ölkəsi olan Türkiyəni yox, ondan zəif olan xristian dövlətləri Aİ-yə daxil edirlər. Çünki dünya siyasətinə sivilizasiyaların mübarizəsi prinsipi ilə yanaşırlar.

### Müharibələr əsasən hansı məkanlarda gedir?

Hazırda dünyanın müxtəlif guşələrində gedən müharibələrin xəritəsinə nəzər salaq. Onların hamısı İslam ölkələrini əhatə edir. Görəsən, səbəbi nədir? İslam dünyanın ən humanist dinlərindəndir. Bu din terroru və savaşı qətiyyən təbliğ etmir. Əksinə, müsəlman dürüst, başqasının hüququnu tanıyan olmalıdır. Lakin hansısa "gözəgörünməz əllər" müsəlman ölkələrini qarışdırır və oralarda müharibə yaradır.

Əfqanıstan neçə onilliklərdir ki, müharibə meydanına çevrilib. Dünyanın böyük geosiyasi gücləri bu ölkə uğrunda mübarizə aparırlar və məqsədlərinə çatmaq üçün müxtəlif üsullara əl atırlar. Müsəlman Əfqanıstanda qan tökülməsi dayanmır. İraq da eyni aqibəti yaşamaqdadır. Ermənistanın təcavüzkarlığına ciddi reaksiya verməyən böyük dövlətlər, İraqı Küveyti işğal etməkdə günahlandırıb, bombalar yağdırdılar.

İndi Liviya, Misir, Suriya və başqa müsəlman ölkələrində müharibə və silahlı qarşıdurmalar davam edir. Pakistan sözün əsl mənasında terror meydanına çevrilib. Türkiyəni qarışdırırlar və İranı hədələyirlər. Bütün bu proseslərin hamısının kökündə bir səbəb durur.

Qərb müsəlman dövlətlərini özlərinə uyğun olan sosial-mədəni, siyasi, iqtisadi və mədəni mühitdə yaşamağa məcbur edir. Qloballaşma adı altında öz sivilizasiya dəyərlərini başqalarına zorla qəbul etdirirlər. İndi "vesternizasiya" ("qərbləşmə") adlı elmi termin geniş işlədilir. Demokratikləşmə pərdəsi altında məhz vesternizasiya, Qərb sivilizasiyasının dəyərlərini fərqli sivilizasiya daşıyıcıları olan cəmiyyətlərə yeritmək prosesi aparılır.

Bu cür hərəkətlər dünyanın müxtəlif geosiyasi məkanlarında toqquşmalar meydana gətirir və nə qədərki ikili standart siyasəti var, belə də davam edəcək. Düşündürücüdür ki, Qərb dövlətləri seçdikləri bu yanlış yoldan dönmək istəmirlər. Onlar Rusiya və Çinlə bağlı da eyni siyasəti yeridirlər.

Çinin məhz fərqli mədəniyyətə malik olmasını təhlükə hesab edirlər. Bu barədə məşhur siyasətçilər və analitiklər açıq yazırlar[1].

Bu mövqenin nəzəri əsaslarını isə Qərbdə sivilizasiyaların qruplaşdırılması fəlsəfəsi təşkil edir. Hələ 1996-cı ildə S.Hantinqton "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" adlı əsərində dünyanı 8 fərqli sivilizasiyaya bölmüşdü. Onların içərisində İslam və Çin sivilizasiyalarının daha perspektivli olduğunu vurğulamışdı. S.Hantinqton 2025-ci ilə qədər olan dövrü əhatə edən proqnozunda əsas fikir olaraq, Qərbin bu sivilizasiyaları ötüb keçməsini irəli sürmüşdü.

Bu yanaşma avtomatik olaraq Qərb üçün sivilizasiyaların rəqabətini ön plana çıxarır. Həmin prosesin necə getdiyini indi dünyanın müxtəlif yerlərində baş verən hadisələrdə aydın görürük. Ona görə də istər-istəməz belə fikir yaranır: Qərb fərqli sivilizasiyaları inkişafdan saxlamaq üçün xüsusi planlar hazırlayır. Onların həyata keçirilməsi üçün uzun müddətə hesablanmış geosiyasi gedişlər edir.

[1] Henry A. Kissinger. On China. Penguin Books, 2011, 624 pages.



Qərbin belə bir strategiya seçməsi sivilizasiyalararası münasibətləri son dərəcə gərginləşdirir. "Ərəb baharı" adlanan prosesin mahiyyəti ilə bağlı Qərbin aparıcı analitikləri arasında fikir ayrılığının olması bunun əlamətidir. Çünki artıq analitiklər dünya miqyasında geosiyasi proseslərin dalana dirənməsindən ehtiyat edirlər. O baxımdan sual edirlər ki, "ərəb baharı" prosesinin arxasında duran əsl məqam nədən ibarətdir?

Sivilizasiyalararası mübarizənin bu cür dramatik xarakter alması bütövlükdə bəşəriyyətin gələcəyi ilə bağlı müəyyən qayğılar yaradır. Belə təəssürat formalaşır ki, həmin mübarizənin sivilizasiyalararası dialoq formasına keçməsi ehtimalı azdır. Onda təbii sual meydana çıxır: dünya hansı istiqamətdə inkişaf edir?

**Bəşəriyyətin gələcəyi: hansı inkişaf modeli üstündür?**

Hələlik bu suala birmənalı cavab yoxdur. İndi qlobal miqyasda sivilizasiyalararası mübarizə Yaxın Şərqdə və Uzaq Şərqdə intensivləşib. Avrasiya məkanı da bu baxımdan olduqca həssas bir məkana çevrilib. Bu geosiyasi məkanların hamısı üçün ortaq olan faktor qeyri-müəyyənlikdir.

Yaxın Şərqdə müsəlman ölkələri daxilində baş qaldıran ixtilaflar getdikcə daha geniş miqyasda sosial təbəqələri əhatə edir. Meydana çıxan müxtəlif xarakterli problemlərin beynəlxalq birlik tərəfindən obyektiv və səmərəli həlli yolu isə gözə dəymir. Məsələn, Suriyada böyük bir humanitar faciə yaşanır, ancaq böyük dövlətlər hələ də öz geosiyasi maraqları çərçivəsindən kənara çıxa bilmirlər.

İranın nüvə proqramı ətrafında getdikcə daha da kəskinləşən informasiya müharibəsi faktiki olaraq bir neçə dövləti qarşı-qarşıya gətirib. İndi bu məsələnin müharibə vasitəsi ilə həll edilməsi barədə ən yüksək səviyyələrdə belə danışırlar. Düşündürücüdür ki, həm Qərb, həm də İran tərəfdən problem sivilizasiya dəyərləri aspektində təqdim edilir. Yəni İsrail İranın müsəlman dövləti kimi dünyaya təhlükə törətdiyini iddia edir. Tehran isə "sionist rejimi dünya xəritəsindən siləcəyi" ilə hədələyir. O, məsələni birmənalı olaraq İslam və xristian sivilizasiyalarının qarşıdurması kimi qələmə verir.

Təxminən eyni mənzərə hazırda Uzaq Şərqdə müşahidə edilir. Çinin fərqli mədəniyyət sisteminə və sivilizasiya dəyərlərinə sahib olan ölkə kimi təqdimatı açıqca özünü göstərir. Bunun ətrafında həmin regionda geosiyasi vəziyyət getdikcə daha da gərginləşdirilir. Artıq ABŞ-ın hərbi-dəniz donanması ora xeyli qüvvə toplayıb. Qərbli ekspertlər proqnozlarını Çin sivilizasiyasının Qərbə qalib gəlməsinin qarşısını necə almaq üzərində qururlar.

Bu proseslər bütövlükdə bəşəriyyətin daha təhlükəli bir vəziyyətə doğru getdiyini təsdiqləyir. Müxtəlif sivilizasiyalar arasında mübarizənin barışmaz olaraq aparılması dünyanı böyük mənada təhdid edir. Proseslərin bu məzmunda davam etdiyi təqdirdə bəşəriyyətin gələcəyi xeyli müəmmalı görünür.

Qədim Şərq müdriklərindən biri demişdi ki, "özünü xilas etmək üçün dünyanı xilas etməlisən". Hər hansı sivilizasiyanın xilası ümumiyyətlə, dünyanın xilası ilə bağlıdır. Başqa mədəniyyət daşıyıcılarını məhv etməklə Qərb özünü də çıxılmaz dairəyə salır. "Özünə arzulamadığını başqalarına rəva görənlər" (Konfutsi) dünyanı məhvə aparırlar.

**Newtimes.az**
3 oktyabr 2012

### 5.5. *Dünya həmin dünyadır, amma Avropa həmin Avropa deyil*

Dünya həmin dünyadır, amma Avropa həmin Avropa deyil. Keçən əsrlərdəki Avropa ilə müqayisədə XXI əsrin ikinci onilliyinə qədəm qoymuş Avropa arasında böyük fərq yaranmışdır. Bu, ilk növbədə avropalıların insanlığa baxışlarında özünü büruzə verir.

Demokratiya, qeyri-avropalılara hörmət və ehtiram kimi dəyərlər həmişə yüksək tutulan Avropada insanlıq ləyaqəti tapdalanır, rasizm, separatizm və şovinizm kimi meyllər güclənir. Bu vəziyyət, xüsusilə yeni yetişməkdə olan gənclərin qeyri millətlərə baxışlarında bariz şəkildə özünü büruzə verir. Qitə ölkələrinin əksəriyyətində milli mənsubiyyət əhval-ruhiyyəsinin açıq formada təzahürü Avropanın gələcəyini təhlükə altına alır. Avropanın daha inkişaf etmiş İngiltərə, Fransa, Belçika, Hollandiya, Danimarka, İsveç kimi ölkələrində baş qaldıran millətçilik hissləri bəşəriyyətin ümumu bəlasından, üzləşdiyi fəlakətdən xəbər verir.



Bu gün Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı və Avropa Təhlükəsizliyi və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi nüfuzlu beynəlxalq təşkilatların demokratiyanın, insan haqlarının və qanunun aliliyinin özlərinin fəaliyyət prioritetləri olması barədə səsləndirdikləri fikrə baxmayaraq, Avropada xristianlığın islama qarşı qoyulması, qeyri avropalıların təhqir edilməsi, insanlıq ləyaqətlərinin alçaldılması, hüquqlarının tapdanılması tək meyllər güclənir.

Faşizmin, irqi ayrı-seçkilik meyllərinin gücləndiyi Avropada fəaliyyət göstərən millətçi təşkilatların sayı son 10 ildə 4 dəfə artmışdır. Bu təşkilatlar başqa xalqlara nifrət hissi aşılamaqla məşğuldurlar.

Aşağıda toxunacağımız bəzi məqamlar müasir Avropanın əsl simasını açıb göstərir.

Fransanın Milli Cəbhə Partiyasının əsasını qoyan, uzun müddət ona rəhbərlik edən və 2002-ci ildə keçirilən prezident seçkilərində sədr olduğu partiyadan prezidentliyə namizədliyini irəli sürən Jan-Mari Le Pən prezident seçiləcəyi təqdirdə "Fransa fransızlar üçün" ideyasını özünün proqram müddəalarından biri kimi həyata keçirəcəyini, ölkəni qeyri fransızlardan, xüsusilə, ərəblərdən təmizləyəcəyini çəkinmədən, açıq-aydın şəkildə bəyan etmişdir.

Bu yaxınlarda Fransanın ikinci böyük şəhəri Lionda baş verən hadisə Jan-Mari Le Pən arzusunun təcəssümü olmuşdur. Etnik qruplara, qeyri fransızlara qarşı köklənmiş millətçi əhval-ruhiyyəli sağ ekstremistlər icazəsiz nümayiş keçirməyə cəhd göstərmişlər. Əksəriyyəti soyuq silah və dəmir parçaları ilə silahlanmış millətçi gənclər şəhərin mərkəzinə doğru hərəkət etmək istərkən qanun keşikçiləri onların qarşısını almışlar. Sağ ekstremistlər "Fransa fransızlar üçündür!", "Fransızlara öz ölkəsində danışmaq qadağan edilir!", "Qanunlarımız xaricilər tərəfindən yaradılır" və digər antisemitizm şüarlar səsləndirmişlər.

Bu və buna oxşar hadisələr dünyanın mədəniyyət beşiyi hesab olunan Fransada baş verirsə, onda digər ölkələrdə qeyri-millətlərə qarşı dözümsüzlüyü təsəvvür etmək heç də çətin olmaz.

Hollandiya parlamentində təmsil olunan Yaşıllar Partiyasının lideri də qeyri-millətlərə nifrət hissini gizlətmir, onların ünvanlarına təhqiramiz ifadələr işlətməkdən çəkinmir. İngiltərə hökuməti bu üzdəniraq millətçi "lideri" ölkə üçün arzuedilməz şəxs hesab etmiş və onun İngiltərəyə gəlişinə yasaq qoymuşdur.

Belçikada millətçilik əhval-ruhiyyəsi baş qaldırdığından yerli flamandlar keçən əsrlərdən bu ölkədə məskunlaşmış fransızlarla bir araya gəlmədiyindən uzun müddət ökuməti təşkil etmək mümkün olmamışdır.

Qeyri-avropalılara münasibət yalnız yuxarı təbəqələrdə deyil, əhalinin ayrı-ayrı ünsürləri arasında da özünü büruzə verir. Son illər Fransada müsəlmanlara və yəhudilərə məxsus qəbiristanlıqlar dəfələrlə dağıdılmış, qəbirlər təhqirlərə məruz qalmış, məscidlər və sinaqoqlar yandırılmışdır. Bütün bunlar ölkədə rasizm, separatizm və şovinizm meyllərinin güclənməsindən xəbər verir. Artıq Fransanın bəzi siyasi dairələri bunu etiraf etməyə məcbur olmuşlar.

Danimarka və İsveç mətbuatı müsəlmanların hisslərinə toxunan materiallar dərc etməkdən belə çəkinmir, müsəlman dünyasının sitayiş etdiyi müqəddəs Məhəmməd peyğəmbərin karikaturasını verməklə onları təhqir edir.

Bəzi siyasətçilər Avropada qeyri-avropalılara qarşı belə meyllərin meydana gəlməsinin əsas səbəbi kimi qlobal problemlərlə - dünyanı təhdid edən iqtisadi böhran, həyat səviyyəsinin getdikcə aşağı düşməsi və işsizliyin durmadan artması ilə əlaqələndirirlər. Onların fikirləri Avropada rasizm, separatizm və şovinizm meyllərinin "çiçəklənməsinə" heç də əsas vermir. Vaxtilə Avropa dəfələrlə iqtisadi böhranla, işsizliklə üzləşmişdir. Amma həmin dövrlərdə qeyri-millətlərə hörmət və ehtiramla yanaşılmış, onların ləyaqəti, hissləri tapdalanmamışdır. Başqa xalqlara münasibət Avropanın ictimai mühitindən irəli gəlir. Bir sözlə Avropa öz simasını başqa istiqamətdə dəyişir. Bu isə özlüyündə bəşəriyyət üçün ciddi təhlükə yaradır.

**Əsgər Əliyev (Paris)**
5 iyul 2012



### *4.6. Azərbaycana qarşı erməni lobbisi-islamofobiya alyansı*

Müstəqil dövlət quruculuğu mürəkkəb prosesdir. Dünyada elə bir cəmiyyət yoxdur ki, bu yolu asanlıqla keçsin. Hazırkı tarixi mərhələdə isə müsəlmanların müstəqil və inkişaf etmiş dövlət qurmasına əlavə çətinliklər törədilir.

Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 20 illiyinə həsr edilmiş tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev söylədiyi nitqində müstəqil dövlət quruculuğunun əsas prinsiplərini dəqiqliklə ifadə etdi. Həmin sırada Azərbaycana qarşı düşmən mövqedə olan iki əsas qüvvə – erməni lobbisi və islamofobiyanı ayrıca vurğuladı.

Bu, tarixi qiymətləndirmədir. İlk dəfə olaraq müstəqil dövlət quruculuğuna kənardan mane olan dairələr konkret şəkildə göstərilir. Onun həm geosiyasi-nəzəri, həm də praktiki mənası vardır. Çünki postsovet məkanında müstəqil dövlət qurmağın fəlsəfəsi dünyanın digər regionlarında yerləşən ölkələrdən fərqlənir. Əsas məsələ bu fərqliliyin başlıca faktorlarını müəyyənləşdirib, dövlət quruculuğu konsepsiyasında tətbiq etməkdən ibarətdir. Həmin məqam üzərində düşünməyə ehtiyac vardır.

Azərbaycan mürəkkəb geosiyasi və hərbi mənzərənin hakim kəsildiyi bir məkanda müstəqilliyini əldə etdi. Kənardan ölkəyə böyük təsirlər vardı. Onların başında isə erməni lobbisinin Azərbaycana, ölkənin ərazi bütövlüyünə qarşı fəaliyyəti dururdu. Ulu öndər Heydər Əliyev bu məqamı çox gözəl dərk etdi və ona qarşı bütün tədbirləri aldı. Keçən əsrin 90-cı illərində Azərbaycanın xarici siyasəti erməni lobbisinə qarşı bir sıra parlaq qələbələr əldə etdi.

Burada bir mühüm məqamı vurğulamaq gərəkdir. Ermənilər əsasən iki istiqamətdə anti-Azərbaycan fəaliyyəti göstərirdilər. Onlardan birincisi ideoloji təbliğat əsasında azərbaycanlıların vəhşi, geridə qalmış, dövlət qurmağı bacarmayan cəmiyyət obrazını yaratmaqdan ibarət idi.

İkincisi isə regionda yaranmış geosiyasi ziddiyyətlərdən istifadə edərək, hər fürsətdə terrorla Azərbaycan dövlətçiliyinə zərbə vurmaqdır. İkinci istiqamətə ölkənin ərazisinin bir qismini işğal edib, yeni erməni dövləti yaratmaq daxil edilmişdi. Sonrakı mərhələdə

isə, ümumiyyətlə, dünya xəritəsindən Azərbaycan adlı dövləti yox etmək məqsədi vardı.

Hər iki istiqamətə qarşı ölkə rəhbərliyi ciddi addımlar atdı. Tədricən Azərbaycana qarşı terror olayları səngidi. Ancaq itkilər az olmadı. Ölkə ərazisinin bir hissəsi isə işğal altında qalmaqdadır. Bu faktdan istifadə edən erməni lobbisi ideoloji təbliğat sahəsində fəaliyyətini daha da gücləndirdi. Hazırda əsas olaraq məhz həmin istiqamətdə ermənilər düşmən fəaliyyətlərini davam etdirirlər. Ona görə də Prezident İlham Əliyevin erməni lobbisini birinci düşmən adlandırması real vəziyyətə ciddi yanaşmanın nəticəsidir.

Erməni lobbisi son illər Azərbaycan dövləti tərəfindən güclü zərbələr aldı. Faktdır ki, o, artıq əvvəlki dövrlərdə olduğu kimi istədiyini edə bilmir. Dünyanın bütün regionlarında Azərbaycan dövlətinin müqaviməti ilə rastlaşır. Lakin hələ də bu cinayətkar dairəni aktiv müdafiə edən böyük dövlətlər vardır. Onlar müxtəlif üsullarla – siyasi, diplomatik, iqtisadi, hərbi, informasiya və s. – ermənilərə yardım göstərməklə onların tam iflas etməsinə əngəllər törədirlər. Bu mərhələdə erməni lobbisinə qarşı Azərbaycan dövlətinin mübarizəsi yeni çalarlar kəsb etməlidir. Cənab Prezident nitqində məhz bu məqamı vurğulamışdır.

Burada sivil üsullarla düşmənə qarşı mübarizə ön sıraya çıxır. Siyasi-diplomatik və informasiya aspektləri xüsusi əhəmiyyət kəsb edir. Bunlarla yanaşı, dövlətin bütün sahələrinin gücləndirilməsi, o cümlədən qüdrətli ordunun qurulması prinsipial əhəmiyyət daşıyır. Azərbaycan hazırda bütün bu sferaların uzlaşdırılması şəraitində erməni lobbisinin təxribatlarının qarşısını alır. Həmin bağlılıqda ən vacib məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaqdan ibarətdir.

Hesab etmək olar ki, münaqişənin həlli erməni lobbisini zəiflədəcəkdir. Son zamanlar sadə ermənilər və Ermənistandakı bəzi siyasi qurumlar lobbinin neqativ rolunu hiss edirlər. Onların etiraz səsləri ara-sıra eşidilir. Lakin Ermənistan hakimiyyəti hələ də tam olaraq lobbinin təsiri altındadır. Ona görə də müstəqil qərarlar verə bilən siyasətçilərin hakimiyyətə gəlməsi orada əsas siyasi problemdir. Bu aspektdə ümidverici tendensiyalar hələlik gözə dəymir. Həmin



səbəbdən Azərbaycan erməni lobbisinə qarşı ayıq-sayıqlığını itirməməlidir.

Hazırda Dağlıq Qarabağdakı separatçı qurumu lobbi aktiv dəstəkləyir. Müxtəlif təxribatçı layihələrlə Azərbaycan ərazisində müstəqil erməni dövlətinin mövcud olduğu təəssüratı yaratmağa çalışır. Xocalıda hava limanı inşa etmək bu siyasətin tərkib hissəsidir.

Təəssüf ki, Qərbin siyasi-diplomatik dairələrində erməni lobbisinin bu kimi qanunsuz hərəkətlərinə arxa duranlar vardır. Onlar öz ölkələrində yaşayan ermənilərin seçici səsini qazanmaq üçün asanlıqla ədalətsiz addımlar atırlar. Bu da Prezident İlham Əliyevin YAP-ın qurulmasının 20 illiyinə həsr edilmiş tədbirdəki çıxışında ifadə etdiyi fikirlərin dərin mənalar daşıdığını bir daha sübut edir. Belə ki, Azərbaycan dövlət olaraq erməni lobbisinə dəstək verən güclü siyasi dairələrə qarşı da səmərəli addımlar atmalıdır. Bunun üçün ən müasir təbliğat texnologiyalarından istifadə etmək lazım gəlir.

Bu məqamda Prezidentin ifadə etdiyi ikinci tezisin əhəmiyyətini anlamaq gərəkdir. Erməni lobbisinə yardım edənlərin də müsəlmanlarla bağlı öz "dərdi" vardır. Həmin "nöqtədə" erməni lobbisinin anti-Azərbaycan əhval-ruhiyyəsi ilə Qərbin siyasi dairələrinin qarşıya qoyduqları məqsəd üst-üstə düşür. Söhbət Qərbdə getdikcə daha da genişlənən islamofobiyadan gedir.

Hazırda Qərbdə islamofobiyaların sayı artır. Onlar müsəlman dövlətlərinin inkişafını həzm edə bilmirlər. Bəzi inkişaf etmiş ölkələrdə siyasi hakimiyyətə gələnlər sırasında belə, bu xəstəliyə tutulmuşlar az deyil. Onlar, o cümlədən, Azərbaycanın sürətlə inkişaf etməsini həzm edə bilmirlər. Bu məqamda onların ən yaxşı tərəfdaşları erməni lobbisidir.

Dünyanın müsəlmanlar yaşayan regionlarında baş verən geosiyasi proseslərin səthi analizi belə, islamofobiyanın gücləndiyini təsdiq edir. Azərbaycan "Avroviziya-2012" beynəlxalq mahnı müsabiqəsinə ev sahibliyi edəndə bir sıra dairələr hansı təxribatlara əl atmadılar? Onlar ölkənin antidemokratik, qeyri-tolerant imicini formalaşdırmaq üçün xeyli çalışdılar.

Qərbin bəzi aparıcı media orqanlarında belə Azərbaycana qarşı qərəzli məlumatlar yaydılar, saxta faktlara dayanan təhlillər apardı-

lar. Cəmiyyətin vəhşi obrazını yaratmaq üçün dəridən-qabıqdan çıxdılar. Onların bütün ümidlərini yarış iştirakçılarının və qonaqların Bakıda gördükləri alt-üst etdi.

Azərbaycanın BMT TŞ-yə müvəqqəti üzv seçilməsindən pərişan olanların qərəzli hərəkətləri də yaddan çıxmayıb. Onlar ölkəyə qarşı müxtəlif şər-böhtan atdılar. Bakının BMT-dəki nüfuzunun qarşılığında çox cılız görünən Ermənistanın zavallı obrazını dəyişməyə cəhdlər etdilər.

Məsələyə qlobal miqyasda müsəlman ölkələrinə qarşı atılan addımlar prizmasında yanaşmağın faydası vardır. Təəssüf ki, bu tendensiya çox genişlənib. Bir xristian dövlətinin problemlərinə verilən reaksiya ilə müsəlmanlara qarşı olan münasibət arasında böyük fərqlər özünü göstərir.

Məsələn, Yaxın Şərqdə nələr baş verdiyini hər kəs bilir. Müsəlmanlara atılan bombalara "kiminsə özünümüdafiə haqqı" adını qoyurlar. Bir müsəlman dövləti özünü müdafiə etmək istədikdə, dərhal başqa meyarlar ortaya çıxır. Əslində, bizlər üçün bu məsələ çoxdan aydındır. Çünki 20 ildən çoxdur ki, təcavüzkar Ermənistana qarşı tutarlı addım atmayan böyük dövlətlər, hər fürsətdə Azərbaycana təzyiq göstərməyə çalışırlar.

Bunlar erməni lobbisi ilə islamofobiyanın ortaq maraqlarını yaxşı ifadə edir. Gözləmək olar ki, bu iki şər qüvvənin əməkdaşlığı daha da genişlənəcək. İslama qarşı olanlar erməni lobbisi sırasından özlərinə tərəfdarlar tapacaqlar. Hər ikisini birləşdirən məqsədlərdən biri isə Azərbaycanda müstəqil, güclü və demokratik dövlət quruculuğuna mane olmaqdır. Azərbaycan Prezidentinin bu məqama ayrıca diqqət yetirməsi problemin ciddiliyindən xəbər verir.

Həmin tendensiyanın təhlükəli tərəfi ondan ibarətdir ki, islamofobiyanın yayılması bütövlükdə xristian dünyasında müsəlmanlar haqqında yanlış təsəvvür yaradır. Məlumdur ki, erməni terrorunu qidalandıran ideoloji qaynaq da məhz bu faktora əsaslanır. Demək olar ki, islamofobiyanın güclənməsi başqa fəsadlarla yanaşı, erməni terroruna da yeni güc verə bilər. Son nəticədə isə bundan bütün dünyanın zərər görəcəyinə şübhə yoxdur.



Erməni lobbisinin islamofobiyadan geniş yararlanmağa cəhdlər edəcəyinə şübhə etmirik. Xüsusilə, Azərbaycan mədəniyyətinə qarşı təxribatlarda, işğal siyasətini əsaslandırmaqda və cəmiyyəti dözümsüzlükdə ittiham etməkdə onlar ortaq hərəkət edə bilərlər. Ermənilər lap əvvəllərdən azərbaycanlıların fərqli dinin nümayəndələrini təqib etdiklərini deyirdilər. Hətta bir zamanlar Dağlıq Qarabağ münaqişəsinin səbəbini dini faktora bağlamağa çalışdılar. İslamofobiyanın genişlənməsi ermənilərin bu böhtanlarının ayaq tutmasına rəvac verə bilər. Şübhə yoxdur ki, dini faktor bundan sonra da aktual olaraq qalacaq. Ona görə də məsələnin bu tərəfinə diqqət daim olmalıdır.

Bütün bunlar Prezident İlham Əliyevin Azərbaycan dövlətinə qarşı düşmənçilikdə erməni lobbisi ilə islamofobiyanı bir yerdə vurğulamasının dərin səbəblərə dayandığını göstərir. Bunu yeni formalaşan geosiyasi faktor hesab etmək olar. Həmin təhlükəyə qarşı uyğun addımların atılması zərurətini dərk etmək gərəkdir. Bütün cəmiyyət bu mübarizədə Prezident ilə birdir. Azərbaycan birləşəndə istənilən problemin öhdəsindən gələ bilir. Tarix bu həqiqəti dəfələrlə sübut edib. O bizə növbəti qələbəni də göstərəcək!

**Newtimes.az**
27 noyabr 2012

### *4.7. İslamofobiya – Avropanın yeni xəstəliyi*

Sosialist düşərgəsinin dağılması ilə Qərbin kommunizmdən onillər boyu yaratdığı düşmən obrazı yox oldu. Gözləmək olardı ki, insanlar düşmənsiz dünyada rahat yaşaya biləcək. Ancaq Samuel Hantinqtonun 1993-cü ildə dərc edilən "Sivilizasiyaların toqquşması" adlı məqaləsi tamamilə başqa məqamlardan xəbər verirdi. Bu məqalə Qərb siyasi şüurunun özünə yeni düşmən obrazı yaratmaq arzusunun ilk siqnalı idi. Bu dəfə hədəf kimi fərqli sivilizasiyalar seçilmişdi.

Bu, təsadüfi deyildi. İndi Qərb analitikləri içərisində yeni düşmən obrazı qismində məhz sivilizasiyaların seçilməsinin səbəbləri haq-

qında danışan yoxdur. Çünki məsələ Qərbdə əsrlərlə formalaşmış bir ənənədən qaynaqlanır. Tarixin hər mərhələsində Avropa özü üçün elə bir düşmən obrazı yaratmalıdır ki, ondan istifadə edib, dünya hökmranlığı planlarını həyata keçirə bilsin. Keçən əsrin 90-cı illərinin əvvəllərindən bu keyfiyyətdə İslam ən yaxşı hədəf ola bilərdi. Bunun iki ciddi səbəbini göstərə bilərik.

Birincisi, SSRİ-nin süqutu ABŞ-ı təkbaşına dünya lideri etdi. Artıq Kreml strateji düşmən ola bilməzdi. Kommunizm ideologiya olaraq çökmüşdü. Bunu hansı ideoloji sistemlə əvəz etmək olardı? Siyasi-ideoloji konseptlərdən heç biri Qərb liberalizmi və konservatizminə qarşı dura bilmirdi. Deməli, hədəf başqa müstəvidə axtarılmalı idi.

İkincisi, həmin mərhələdə dünyada İslam faktoru yeni səviyyədə özünü göstərməyə başlayırdı. Avropada bu dini qəbul edənlərin sayı artırdı. Xristianlıq dini dünyagörüşü kimi böhranın astanasına gəlmişdi. Qərbdə bütövlükdə mədəniyyətin süqutundan yazan alimlərin sayı çoxalırdı. Onlar Osvald Şpenqlerə dualar edirdilər.

Bu, İslamı Qərbin siyasi-ideoloji və hərbi dairələrinin birbaşa hədəfinə çevirirdi. Tarixdən də təcrübə vardı – İslam təhlükəsinin artması bəhanəsi ilə gizli planları həyata keçirmək. 1993-cü ildə "hardansa" peyda olan "əl-Qaidə" Dünya Ticarət Mərkəzinin binasına bomba atdı. Hamı bilirdi ki, buna ehtiyac yox idi. Lakin müsəlmanların adı ilə böyük terror aktı törədilmişdi və Qərb təbliğat maşınını işə sala bilərdi. Elə bu zaman S.Hantinqtonun yuxarıda xatırlatdığımız məqaləsi əsas ideoloji mayak rolunu oynaya bilərdi – düşmən İslamdır!

2001-ci il sentyabrın 11-də Nyu-Yorkda baş verən terror olayı dünyanı lərzəyə gətirdi. Təbii ki, bu işi də "müsəlmanların layiqli təmsilçisi" "əl-Qaidə" həyata keçirməli idi. Artıq düşmən obrazı tamamlanmışdı – o, saqqallı, amansız, qəddar, qaniçən terrorçu olan müsəlman idi! Bundan sonra Qərbdə İslama qarşı həyata keçirilən təxribatlar çox düşündürücüdür.

2005-ci il sentyabrın 30-da Danimarkada "Jyllands-Posten" qəzetində Məhəmməd Peyğəmbəri (s.ə.s.) terrorçu kimi təqdim edən karikatura dərc edildi. Onu Kurt Westergaard çəkmişdi. Dərhal Fransa, Almaniya, Hollandiya, İtaliya və İspaniyanın bəzi qəzetləri bu iyrənc



əmələ dəstək əlaməti olaraq karikaturanı dərc etdilər. Bu hadisəyə müsəlmanların təpkisi sərt oldu. Nəticədə, 100-dən çox adam həlak oldu. Bununla karikaturanı mediaya ötürənlər məqsədlərinə çatdılar – sadə avropalılarda müsəlmanlar haqqında terrorçu təsəvvürü möhkəmləndi. İslamofobiya qazandı, insanlıq itirdi!

2007-ci il mart ayının 27-də hollandiyalı siyasətçi Geert Wilders İslamı təhqir edən "Fitnə" adlı qısametrajlı filmi İnternetdə yayımladı. Filmin müəllifini məhkəməyə verdilər. Lakin hakim filmdə müsəlmanların deyil, İslamın hədəf seçildiyi kimi qəribə bir arqument irəli sürərək Wildersə bəraət verdi. Əslində, bu hadisə Qərbdə məhz islamofobiyanın getdikcə gücləndiyinin təsdiqi idi.

2010-cu il sentyabrın 11-ni amerikalı rahib Terry Jones "Quranı yandırma günü" elan etdi. Etirazların yüksəlməsi nəticəsində bu, baş tutmadı. Ancaq Terry Jones, başqa dinin nümayəndəsi, martın 20-də dediyini etdi. Nəticədə, Əfqanıstanda etirazlar baş qaldırdı və onlarla insan həlak oldu. Bu hadisə də islamofobiyanı inkişaf etdirmək istəyənlərə əlavə bəhanələr verdi.

Nəhayət, məlum "Müsəlmanların məsumiyyəti" filmi Avropada İslama qarşı yeni nifrət dalğası yaratdı. Bu filmə etiraz edən müsəlmanlar radikal hisslərin təsiri altında bir çox cinayətlər etdilər. Əks tərəf İslamı gözdən salmaq üçün daha bir arqument əldə etdi.

Hazırda Avropa cəmiyyətlərində müsəlmanlara qarşı əhval-ruhiyyə mövcuddur. Aparılan sosioloji tədqiqatlara görə, İspaniyada əhalinin 52 faizi, Almaniyada 50 faizi, Polşada isə 46 faizi İslama mənfi münasibət bəsləyir. Bu tendensiya getdikcə güclənir. Təsadüfi deyil ki, artıq Avropa ölkələrində müsəlmanlara qarşı terror hadisələri çoxalır. Breyvikin yazdığı 1600 səhifəlik manifesti, törətdiyi terror bunun əyani sübutudur.

Bu qısa xronologiya Avropada çox təhlükəli bir ideoloji və psixoloji prosesin getdiyini göstərir. İslamı gözdən salmaq üçün ardıcıl olaraq müxtəlif təxribatlar həyata keçirilir. Burada əsas məqsəd müsəlmanlarda radikal hissləri alovlandırıb, onları cinayətlərə sövq etməkdən ibarətdir. İslamın dünyada daha geniş yayılmasının qarşısını bu yolla almağa çalışırlar.

İslamofobiyanı alovlandırmaqda başqa bir məqsəd müsəlman dövlətlərin sürətli inkişafını əngəlləməkdir. Qərbin aparıcı analitikləri hazırda İslam sivilizasiyasının daha çox inkişaf potensialına malik olduğunu təsdiqləyirlər. Z.Bjezinski və S.Hantinqtonun bu məsələ ilə bağlı konkret araşdırmaları vardır.

Onların proqnozlarına görə, yaxın gələcəkdə İslam ölkələri dünya geosiyasətində ciddi rol oynaya bilərlər. Qərbin ciddi demoqrafik problemlər yaşadığı bir dövrdə müsəlmanların sayı durmadan artır. Ona görə də, inkişaf edən İslam dövlətləri qarşısına müxtəlif əngəllər çıxarılır. Onları gözdən salmaq məqsədi ilə müxtəlif təxribatlar həyata keçirilir.

Lakin islamofobiya yaradanlar bir məqamı unudurlar. Tarixdə yalnız layiqli ideyalar və ideologiyalar sonda qalib gəlirlər. Kimlərsə hardasa qərəzli planlar qura bilərlər, ancaq haqq-ədalətə qalib gəlmək mümkün deyil. Rabindranat Taqorun bir yaxşı kəlamı var: "Mən sənin nəfəsini duyuram, o, mənə puç ümidlərdən pıçıldayır".

**Newtimes.az**
12 dekabr 2012

### *4.8. Berinq Breyvikin Qərb mədəniyyətinə və dünyagörüşünə atdığı güllələr*

Bu gün dünyanın terrorun "qanla sulamadığı" guşəsi qalmayıb. İnformasiya kanallarının məlumatları "günahsız insanlar həyatını itirdi" cümləsi ilə başlayır, "cinayətkarlar axtarılır" cümləsi ilə bitir. Ancaq nə günahsız insanların həyatını itirməsi bitir, nə də axırıncı terrorçu axtarışı nəticə verir. Artıq insanların beynində terrorçu ilə məsumluğun yeri qarışıq salınır. Eyni mahiyyəti olan hadisələrə o dərəcədə fərqli izahlar verirlər ki, adamın ədalət və vicdan duyğusu şoka düşür. Qoca Sokrat belə bu məntiqsizlik və ədalətsizlik qarşısında "vicdan və kişilik" anlayışlarından imtina edərdi.

Avropa mediası indi də "Breyvik olayı" adını almış hadisəni informasiya məkanının aktual ünsürünə çevirməyə girişib. Anders Berinq Breyvik 2011-ci il iyulun 22-də Norveçin paytaxtı Oslo şəhərində və



kurort adası Utoyyada 77 insanı qətlə yetirib. Həmin insanların heç birinin Breyviklə münasibəti olmayıb. Onların bir nəfəri belə bu norveçli gəncə qarşı pis iş görməyib. 77 nəfəri A.Breyvik müsəlmanlara nifrət bəslədiyinə, müxtəlif dinə və mədəniyyətə sahib adamların Norveçə gəlməsinə görə qətlə yetirib.

33 yaşlı A.Breyvikin kimliyi və həyat yolu həyata keçirdiyi qətlin mahiyyətini anlamaq və Avropa informasiya məkanında baş verənlərin izahı üçün maraq doğurur. O, 1979-cu ildə doğulub. Atası diplomatdır. Ən yaxın dostlarından biri pakistanlı miqrant olub. 15 yaşında A.Breyvik protestantlığı qəbul edib. Bir neçə il sonra ondan imtina edib. Anası növbəti dəfə evlənəndən sonra onunla münasibətləri pozulub. Aktiv siyasi fəaliyyətlə məşğul olub. Bir neçə radikal faşist meylli təşkilatla əlaqə saxlayıb. Britaniyanın iki antimüsəlman təşkilatı ilə əlaqə qurub. Onlar "İngilis müdafiəsi liqası" (English Defence League) və "Avropanın islamlaşmasının dayandırılması" (Stop the Islamification of Europe) təşkilatlarıdır. 2002-ci ildən "səlibçilərin milliyyətçiliyi" uğrunda mübarizə aparan Norveçin PCCTS adlı radikal təşkilatına üzv olub. Gizli adı "Siqrud"dur. Maraqlısı odur ki, A.Breyvik həm də Oslonun "Johannes Lodge Solilene" mason lojasına daxil imiş (bax: Jonathan Corke. Nazi-loving Freemason Who Made The World Crumble. - "Daily Star Sunday", 24.07.2011 və "Sean Rayment". Norway killings: the quiet and modest man who became peacetime Europe's worst mass killer. - "The Telegraph", 23.07.2011).

Bu qısa bioqrafik arayış A.Breyvikin kimliyi sərhədlərini çox aşan və Qərb dünyası üçün xarakterik olan bir neçə məqamdan xəbər verir. Görünür ki, A.Breyvik Qərb mühitinin yetişdirdiyi, ziyalı ailəsində və yaxşı məktəblərdə təhsil almış, bir neçə şirkətdə çalışmış, hətta özəl firması olan avropalıdır. Onun psixi xəstə olmasından söhbət gedə bilməz. Bunun əvəzində aktual olanı A.Breyviki yəhudi lojasınınmı radikal xristian qruplaşmasına yönəltdiyini, yoxsa radikal "səlibçilərin"mi yəhudi lojasına istiqamətləndirdiyini aydınlaşdırmaqdan ibarətdir. Yəni söhbət bir sərsərinin səhlənkar və yaxud xəstə əhvalda olanda etdiyi hərəkətindən getmir.

Problem Avropa cəmiyyətində daha dərində kök salmış həyat tərzi, dünyagörüşü və informasiya dövriyyəsi prinsiplərinin böhranındadır. Fransada 4 nəfəri qətlə yetirən müsəlmanın kimliyi ilə yanaşı, dərhal hansı təşkilatla əlaqəsi olması araşdırıldı. Qardaşını tapdılar, danışdırdılar, onlardan mütəşəkkil hərəkət edən qrup düzəltdilər. Qərb ictimaiyyətinə həmin olayı də məhz bu aspektdə təqdim etdilər. Qərbin informasiya vasitələri dərhal "İslam terroru", "müsəlman radikalizmi" və "müsəlman dözümsüzlüyü" ilə bağlı bir yığın cızma-qara ilə informasiya məkanını doldurdular.

Bundan bir neçə il öncə, Macarıstanda Ramil Səfərov haqqında belə buna bənzər informasiyalar yaymışdılar. R.Səfərova vətəninin, xalqının və özünün şərəfini qoruduğuna görə ömürlük həbs cəzası kəsdilər. Hər dəfə də ortaya "müsəlman dözümsüzlüyü və terroru" ifadəsini atıb, insanların şüurunu istismar etdilər. 77 nəfəri qətlə yetirən, Avropanın bir neçə terrorçu təşkilatının üzvü olan, mason lojasına daxil edilmiş bir avropalı terrorçuya isə 77 günahsızı qətlə yetirdiyinə görə cəmi 21 il həbs cəzası verməyi düşünürlər. Üstəlik, Qərb mediası bu qədər ədalətsizliyi gizlədib, qərəzli informasiya savaşı aparır.

Bunların fonunda A.Breyviklə bağlı Qərb informasiya vasitələrinin konkret təqdimatlarına baxanda nələrin baş verdiyini daha aydın görə bilərik. Onun haqqında yuxarıda qeyd etdiklərimizdən də geniş məlumat ola-ola öncə A.Breyviki dəli kimi qələmə verdilər. Paralel olaraq qurbanlardan bəzilərinin yaxınlarını danışdırıb, "Anders də insandır, istərdik ona qarşı insan kimi davranılsın" dedirtdilər. Bunu deyən Breyvikin qətlə yetirdiyi 21 yaşlı norveçli gəncin anasıdır.

Qərbin müxtəlif media təmsilçiləri A.Breyviki manşetlərə çıxarıb, hadisənin miqyasını kiçiltməyə və onu bir fərdin adi cinayəti kimi təqdim etməyə başladılar. Həmin təqdimatların heç birində bu terrorçunu yetişdirən təşkilatlardan, Qərbin böhranda olan sosial-mədəni və mənəvi-psixoloji mühitindən, islamofobiyadan, fərqli düşünənlərə qarşı dözümsüz münasibətin formalaşması səbəblərindən danışan yoxdur. Qərbin əksər mediası terrorçunun fərdi keyfiyyətlərini önə çəkir və məhkəmənin ona qarşı daha ədalətli olması zərurətindən danışırlar.



Bəzi Qərb media orqanı və ziyalıları bu informasiya yanlışlığının və süniliyinin fərqindədirlər. Məsələn, Almaniyanın "Tagesspiegel" qəzeti sual edir ki, "kütləvi qırğın törədənə nə qədər diqqət yetirmək olar? Norveçin "Dagbladet" qəzeti isə ümumiyyətlə bu məsələni gündəmdən çıxarmağı təklif edir.

Lakin bu təqdimatın başqa zərərli tərəfi də var. A.Breyviki bu hala gətirən sosial-psixoloji və ideoloji mexanizmləri dünyaya izah edib, onu aradan qaldırmaq əvəzinə unutdurmaq yenə də xristian terrorizminə və dözümsüzlüyə xidmət etmək deməkdir.

Görünür, Qərbin ən böyük informasiya agentliklərinin qoşulduğu bu kampaniya hansısa dairələrə çox lazımdır. İnformasiya savaşında növbəti antiislam dalğasını başqa donda göstərib, bəd əməllərinə davam etməyin izindədirlər. Ancaq onlar çox yanılırlar. Çünki A.Breyvik tək deyil, onu kimilərini yetişdirən ideoloji sistem və konkret təşkilatlar bütün Qərbi bürüyüb.

Terrorun Qərbi bundan sonra daha şiddətlə sarsıtmaq ehtimalı böyükdür. İslam dünyasına aid edilən "bumeranq" artıq orada trayektoriyasının maksimal nöqtəsini keçib müəlliflərin özünə qayıdır. Ona görə də A.Breyvikin hərəkətinin əsl səbəbini gizlətmək, Qərb cəmiyyətinin düçar olduğu ideoloji, mənəvi-əxlaqi və informasiya xəstəliyini müalicə etmək ilk növbədə onların özünə ziyandır. Berinq Breyvik fərd olaraq birdir, lakin Qərb cəmiyyətinin yetişdirdiyi berinqlər Berinq dənizindəki su damcıları qədərdir. Berinq dənizi coğrafi olaraq Asiya ilə Amerikanı ayırır. Bu, problem deyil – müasir inkişaf onu asan aradan qaldırır. Berinq Breyvik isə Qərb düşüncə tərzinin özünü təcrid etməsinin sübutudur. Bax, onu aradan qaldırmaq çox çətindir. Bu haqda düşünmək lazımdır.

**Kamal Adıgözəlov**
6 iyun 2012

# V Fəsil
# AVRASİYA MƏKANINDA GEOSİYASİ MƏNZƏRƏ. BÖHRANLI YAXIN ŞƏRQ

## *5.1. Mərkəzi Asiyanın "münaqişə üçbucağı"*

Mərkəzi Asiya haqqında həyəcan doğuran məlumatlar yayılır. Bir az əvvəl vəziyyət sabit görünürdü. Reallıqda isə Avrasiya məkanında geosiyasi mənzərəyə təsir edə biləcək proseslər baş verirdi. Onları iki hissəyə ayırmaq olar. Birincisi, region ölkələri arasında münasibətlərin dəyişməsini əhatə edən hadisələr. İkincisi, böyük dövlətlərin bölgədə nüfuz uğrunda apardığı mübarizənin nəticələri.

2012-ci ilin iyun ayının 26-da Rusiya quru qoşunları komandanı, general-polkovnik Vladimir Çirkin Federasiya Şurasının müdafiə və təhlükəsizlik komitəsinin iclasında bəyan etdi ki, Mərkəzi Asiyada Özbəkistan, Tacikistan və Qırğızıstanın iştirakı ilə lokal silahlı münaqişələr yarana bilər. General bunun səbəbini həmin dövlətlər arasında enerji, su təchizatı və ərazi məsələləri ilə bağlı yaranmış ziddiyyətlərin kəskinləşməsi ilə izah edib. Tacikistan bu məlumata kəskin reaksiya verərək, regionda vəziyyəti gərginləşdirmək istəyən qüvvələrin olduğunu bildirib.

Ancaq real mənzərə doğrudan da düşündürücüdür. Mərkəzi Asiyada siyasi toqquşmaların mümkünlüyü haqqında bir neçə mənbə proqnoz verib. Beynəlxalq böhran qrupunun eksperti Luiza Arbor 2011-ci ildə "Foreign Policy" jurnalında "2012-ci ilin 10 müharibəsi" adlı proqnozunu dərc etdi. Mərkəzi Asiya həmin proqnozda reytinqə görə 6-cı yerdə göstərilirdi. ABŞ-ın "EurasiaNet" internet-resursu 2012-ci ildə Mərkəzi Asiyada ən çox ehtimal edilən silahlı münaqişə qismində Özbəkistanla Tacikistan arasında mümkün hərbi toqquşmaları qeyd edirdi. Bu proqnozlar Mərkəzi Kəşfiyyat İdarəsinin 2011-ci il hesabatına da daxil edilmişdi.

2011-ci ilin sentyabrında Rusiya Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Nikolay Makarov bəyan etdi ki, Mərkəzi Asiyada vəziyyət "Liviya ssenarisi" üzrə inkişaf edə bilər. Bu bəyanatdan iki



ay əvvəl isə Rusiyanın NATO-dakı daimi nümayəndəsi Dmitri Roqozin region üçün əsas təhlükənin ABŞ hərbçilərinin Əfqanıstanı tərk etməsindən sonra yaranacağını bildirdi.

Bu proqnozları hansı faktların əsasında verirlər? İlk növbədə, SSRİ dövründə Mərkəzi Asiya ölkələrində yaradılmış anklavları göstərirlər. Qırğızıstanda özbək anklavı mövcuddur - 40-50 min əhalisi olan Şox və Şahmərdan anklavları. Özbəkistanda Qırğızıstanın tərkibinə aid edilən Barak kəndi var. Qırğızıstandakı Vorux anklavında 20 min tacik yaşayır.

Bunlardan başqa, Qırğızıstan və Tacikistan arasında su və ərazilərdən istifadə məsələsində 1980-ci illərdən yaranmış münaqişə mövcuddur. Özbəkistanla Tacikistan sərhədində lokal toqquşmalar qeydə alınır. Səbəb su ehtiyatlarından istifadədə və etnik münasibətlərdə özünü göstərən anlaşılmazlıqlardır.

Etiraf etmək lazımdır ki, sadalanan faktorlar Mərkəzi Asiya ölkələri arasında münasibətləri gərginləşdirir. Özbəkistan, Qırğızıstan və Tacikistan arasında münaqişənin silahlı toqquşmaya çevrilməsi ehtimalı yox deyildir. Lakin burada böyük dövlətlərin region uğrunda apardığı mübarizəni mütləq nəzərə almaq lazımdır.

### "Əndican-2" xəbərdarlığı

Özbəkistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) fəaliyyətini dayandırması Rusiyada narahatlıqla qarşılandı. Təqribən eyni vaxtda Qırğızıstan və Tacikistan öz ərazilərində olan Rusiyaya məxsus hərbi obyektlərin kirayəsinə Moskvadan daha çox maliyyə tələb etdilər. Analitiklər bu hadisələrin bir-biri ilə bağlı olduğuna əmindirlər. Bunun səbəbinin ABŞ və Çinin Mərkəzi Asiya siyasəti olduğunu deyirlər. Tacikistan Prezidenti E.Rəhmonun Çindən 2 milyard dollar yardım almasını rəsmi Düşənbənin geosiyasi mövqeyini dəyişməsi əlaməti hesab edirlər. Digər tərəfdən, ABŞ-ın Əfqanıstandan çıxaracağı silahların bir hissəsini Tacikistana verəcəyini və orada hərbi hissə yaradacağından danışılır. Ehtimal edilir ki, Amerika eyni vədləri Özbəkistana verib.

Rəsmi Daşkənd Əfqanıstan tərəfdən ola biləcək təhlükəyə qarşı KTMT-nin təsirli bir planının olmamasını səbəb göstərir.

Özbəkistanın başqa arqumenti bu hərbi təşkilat çərçivəsində əməkdaşlığın düzgün inkişaf etdirilməməsi ilə bağlıdır. Doğrudur, Moskva bunları bəhanə hesab edir və əsas faktor kimi Vaşinqtonun bölgədə fəallaşmasını göstərir.

Prezident V.Putin iyulun 9-da Rusiya Federasiyasının səfirləri və daimi nümayəndələri ilə keçirdiyi müşavirədə "MDB məkanında inteqrasiya Rusiyanın xarici siyasətinin ana xəttidir", fikrini söyləyib. O, Ukraynanı bu inteqrasiya prosesinə qoşulmağa çağırıb. Yəni MDB məkanında inteqrasiya Moskva üçün strateji məsələdir. Ona görə də Mərkəzi Asiya ölkələrinin atdıqları addımlara Rusiyadan cavab gecikmədi. Geosiyasi problemlər Akademiyasının prezidenti Leonid İvaşov hesab edir ki, Rusiya Avrasiyada inteqrasiya proseslərini sürətləndirməlidir.

Demoqrafiya, miqrasiya və regional inkişaf İnstitutunun müşahidə şurasının sədri, "İnkişaf hərəkatı"nın lideri Yuri Krupnov isə Özbəkistanın KTMT-dən çıxmasının Kremlin Əfqanıstan siyasətinin dolaşıqlığı ilə izah edir. O, Rusiyanın siyasi dairələrində NATO-nun Əfqanıstandakı fəaliyyəti ilə bağlı düzgün mövqenin olmadığını vurğulayır. Belə ki, Rusiya NATO-nun Əfqanıstanı tərk etməsinin sabitliyi pozacağından ehtiyat edir. Onda Mərkəzi Asiya ölkələrinin həmin təşkilata meyl etmələri normal qarşılanmalıdır. Ancaq Y. Krupnov bu proseslərin Avrasiya inetqrasiyasına böyük fayda verəcəyini düşünür. Çünki Moskva səhvlərini analiz edib, daha təsirli siyasət yeridəcək.

Bunlarla yanaşı, Mərkəzi Asiyada ikinci Əndican hadisələri yaratmaqla bağlı xəbərdarlıqlar da eşidilir. Region ölkələrinə Rusiya hərbi hissələrinin bölgəni tərk etməsi ilə qarışıqlığın başlaya biləcəyi çatdırılır. Xatırladaq ki, SSRİ-nin dağılması ərəfəsində Özbəkistanın Əndican vilayətində böyük qarışıqlıq yaradılmış və minlərlə türkü oradan qovmuşdular. Həmin hadisələrdə çoxlu zorakılıq halları qeydə alınmışdı. Onu da deyək ki, Əndican olaylarında ermənilərin də iştirak etdiyi haqqında məlumatlar var.

### Böyük savaşların səssizliyi

Qədim Şərq müdriklərindən biri deyib ki, "nə vaxt savaşmalı olduğunu və nə zaman susmaq lazım gəldiyini bilən qalib gələcək". Mərkəzi Asiya ilə bağlı hay-küylü geosiyasi proseslərin getdiyi bir vaxtda Çin və ABŞ-dan səs çıxmır. Amerikanın Dövlət katibi ilə Özbəkistanın xarici işlər naziri Əfqanıstandan çıxarılacaq silahların bir hissəsinin Daşkəndə verilməsi və əlavə maliyyə yardımı ayrılması haqqında razılığa gəlmələri mediada az təhlil edilir. Reallıqda isə Mərkəzi Asiyada geosiyasi mənzərəni bu kimi sövdələşmələr formalaşdırır. Aydındır ki, regionda "geosiyasi bomba" partladıldı. İndi informasiya partlayışını təşkil etmək mərhələsi başlayıb.

Rəsmi Vaşinqton isə Əfqanıstandan hərbi hissələrini çıxarıb Mərkəzi Asiya ölkələrinə yerləşdirməklə iki hədəfi birdən vurur. Birincisi, özünü əfqan bataqlığından kənara çəkir. İkinci, Mərkəzi Asiyada hərbi mövcudluğunu gücləndirir. Sonuncu məqam geosiyasi aspektdə Amerikaya dividendlər verir. Rusiyanın əsrlərdir söz sahibi olduğu regionda ABŞ hərbi təşəbbüsü ələ alır. Mərkəzi Asiya ölkələri üçün təhlükəsizlik məsələsi çox vacibdir. Amerika həm Əfqanıstandan mümkün dini radikalizmin ixracına manc olacaq, həm də Rusiyanın Asiya sərhədləri boyu öz qüvvələrini yerləşdirəcək. Asiya-Sakit okean regionunda baş verən prosesləri nəzərə alsaq, bu, Vaşinqtonun ciddi strateji üstünlüyü deməkdir.

Başqa tərəfdən, Avrasiyada Rusiya modeli üzrə inteqrasiya prosesi pozulmuş olur. Bu, faktiki olaraq, Rusiyanın xarici siyasətinin prioritetlərinə qarşı yönəlmiş addımdır. Avrasiya məkanında inteqrasiya proseslərinin dayandırılması Yaxın və Orta Şərqdə Moskvanın kartlarını əlindən alır. Yəni Kreml ABŞ-ın başını Yaxın Şərqdə qatmaq istədiyi halda, özü Mərkəzi Asiyada problemlərlə üzləşir.

Amerika susmur, işləyir. Mübarizə yeni kəskin və gərgin səviyyəyə qalxır. Gözləmək olar ki, müəyyən vaxtdan sonra Çinin aktiv surətdə proseslərə qoşulmasının şahidi olacağıq. ABŞ-ın Tacikistanda hərbi baza yerləşdirməsi ilə İranın da reaksiyası özünü göstərəcək. Etnik cəhətdən yaxın olduğu Tacikistana qarşı İranın hansı addımları atacağı maraqlıdır. Analitiklər xəbərdarlıq edirlər ki, Düşənbə uğrunda Rusiya, Çin və İran birgə hərəkət edə bilərlər. Hər bir halda həmin bölgədə geosiyasi vəziyyətin daha da mürəkkəbləşəcəyini təxmin etmək olar.

Daha kəskin reaksiyanı isə Moskvanın verəcəyinə şübhə yoxdur. Rusiya üçün Mərkəzi Asiya strateji əhəmiyyət daşıyır. Coğrafi və geosiyasi aspektdə bu region böyük rol oynayır. Enerji təhlükəsizliyi məsələsində Mərkəzi Asiya Qərb, Rusiya və Çin üçün prinsipial yer tutur. Əsas faktor isə bu regionun gələcək geosiyasi güc mərkəzinə daxil olması proqnozu ilə bağlıdır. Oradan Qafqaza və Uzaq Şərqə yol qısadır. Mərkəzi Asiya geosiyasi güc mərkəzinin dəyişməsi marşrutu üzərindədir. Bizcə, həmin məkanda böyük savaşlar başlayıb. Qədim şərqlilər tövsiyə edirdilər ki, "...sakitlikdə hay-küy gözlə". Bəs savaş səslərinin yüksəldiyi bir məkanda sakitliyə nail olmaq mümkündürmü?

**Newtimes.az**
10 avqust 2012

### *5.2. Türkiyə – Avrasiyanın yeni böyük gücü*

ABŞ-ın keçmiş prezidenti Bill Klinton Əhməd Davudoğlundan Türkiyənin dünya miqyasında fəallaşması səbəbini soruşanda, xarici işlər naziri belə cavab verib: "Xəritədə Türkiyənin ətrafında diametri 1000 km olan dairə çəkin. Ora 20 dövlət düşür. Diametri 3000 km olan dairə çəkin, ora 70 ölkə düşəcək. Bəs ABŞ ətrafında belə bir dairə çəksək, ora neçə dövlət düşər? Türkiyə onu əhatə edən dövlətlərlə maraqlanmaqda davam edəcək"[1]. Bu cümlələrdə Ə.Davudoğlu faktiki olaraq Türkiyənin strateji dərinlik kursunu lakonik ifadə edib. Türkiyə yaxın ətrafında 70 dövlətin yerləşdiyi ölkə olaraq fəal xarici siyasət yeritməlidir. "Rusiya qlobal siyasətdə" jurnalının baş redaktoru Fyodor Lukyanov bu vəziyyəti normal hesab edir. O, "Türkiyə Rusiyanın qisasını alır" kimi diqqətçəkən başlığı olan məqaləsində yazır: "Türkiyənin fəallaşması hər kəsi qəfil yaxaladı, xüsusilə Avropa buna necə reaksiya verəcəyini bilmir"[2].

[1] Ahmet Davudoğlu. Evet yeni Osmanlıyız/İsrihbarat Strateji Analiz, 24 Kasım 2009, URL: http://istihbarat-strateji-analiz.blogspot.com/2009/11/ahmet-davutoglu-evet-yeni-osmanlyz.html.
[2] Федор Лукьянов. Турция мстит за Россию // «Россия в глобальной политике», № 5 Сентябрь/Октябрь 2011. URL: http://www.globalaffairs.ru/redcol/Turtciya-mstit-za-Rossiyu-15322.



Qərbin özündə də Türkiyənin yeni xarici siyasətini dərk etməyə çalışırlar. Almaniyanın nüfuzlu siyasi jurnalı "Süddeutsche Zeitung" qeyd edir ki, bir neçə mütəxəssisdən ibarət qrup yaradılıb və o, rəsmi Ankaranın geosiyasi strategiyasını təhlil etməklə məşğuldur. Bu qrupa daxil edilmiş amerikalı analitik Türkiyənin xarici siyasəti ilə bağlı belə bir fikir bildirib: "Türkiyə nə Qərbə, nə də Şərqə üz tutur, o, özü səhnəyə çıxır"[1]. Yəni Türkiyə dünya siyasətində heç bir güclü dövlətin və ya dövlətlər qrupunun deyil, özünün sözünü deməyə çalışır. Bizcə, düzgün qiymətləndirmədir.

#### Türkiyənin strateji dərinlik kursu

Yuxarıdakı fikirlərə oxşar olan iqtibasların sayını artırmaq olar. Lakin aydındır ki, cəmi 30 il bundan əvvəl Türkiyəyə geridə qalmış və dünya siyasətində rolu olmayan bir ölkə kimi baxanlar mövqelərini dəyişiblər.

Türkiyəni dünyanın siyasi gündəminə gətirən səbəblər hansılardır? 1980-ci illərə qədər Türkiyə ABŞ-ın göstərişlərini yerinə yetirən və daha çox öz varlığını qorumağın qeydinə qalan dövlət idi. İqtisadi sistemdə ciddi dəyişikliyin edilməsi və sosialist düşərgəsinin dağılması Ankaranı dinamik dəyişən geosiyasi mühitin mərkəzinə atdı. Bu, onun coğrafi mövqeyi ilə bağlı idi. Türkiyənin xarici işlər naziri Ə.Davudoğlu bu bağlılıqda "Strateji dərinlik" kitabında qeyd edir ki, "Türkiyə...dünyanın ən böyük qitəsinin mərkəzindədir və bəşər tarixinin şah damarının yerləşdiyi sahələri əhatə edir"[2].

1990-cı ildən başlayaraq Türkiyə yaxın regionlara təsir edən siyasət yeritməyə başladı. Lakin Qafqaz istiqamətində ilk cəhd uğursuz oldu. Avropada bunun səbəbini Türkiyənin Rusiya faktorunu kifayət qədər nəzərə almaması ilə izah etdilər. Buna baxmayaraq, rəsmi Ankara inadla yeni xarici siyasət kursunu reallaşdırmaqda davam etdi. XXI əsrin əvvəlində artıq Türkiyə dünya miqyasında yeni siyasət

[1] Stefan Kornelius. Türkei und der – Westen Die Nase voll von Europa // "Süddeutsche Zeitung", 12. Juni 2011. URL: http://www.sueddeutsche.de/politik/tuerkei-und-der-westen-die-nase-voll-von-europa-1.1107694.
[2] Ahmet Davutoğlu. Stratejik derinlik. Türkiyenin uluslararası konumu. İstanbul, Küre Yayınları, 2011, 584 s.

yeridən dövlət olaraq qəbul edilirdi. Bu siyasi xəttin müəlliflərindən biri Əhməd Davudoğludur. Onun Türkiyənin yeni siyasətinə baxışı məşhur "Strateji dərinlik" kitabında əks olunub.

Kitabda Ə.Davudoğlu Türkiyənin indiki vəziyyətini bir vaxtlar Almaniya, Rusiya, Böyük Britaniya və Fransanın düşdüyü durumla müqayisə edir. O qeyd edir ki, adıçəkilən dövlətlər bir zamanlar imperiya olmuşlar. İmperiya süqut etdikdən sonra yeni siyasət formalaşdıraraq, dünya miqyasında fəaliyyət göstərmişlər. Yalnız Avstriya-Macarıstan öz ərazisinə sığınmışdır. Bunun da səbəbi onun Almaniya kimi bir dövlətlə qonşu olmasıdır[1]. Türkiyə Almaniya, Rusiya və ya Yaponiya kimi hərəkət etməlidir. Yəni o, özünə yaxın olan regionlarda aktiv siyasət yeritməli, sonra dünya miqyasında söz sahibi olmalıdır[2]. Bu bağlılıqda Ə.Davudoğlu yazır: "Türkiyənin dinamik özəlliyinin beynəlxalq mühitin dinamikliyi ilə uzlaşaraq tarix səhnəsinə çıxması...onun strateji əhəmiyyətinin təməl faktorudur"[3].

Türkiyə üçün strateji dərinlik Avrasiya məkanında inteqrasiyanın təşkilatçılarından biri olmaqdan ibarətdir. Ona görə də Ə.Davudoğlunu yeni türk avrasiyaçılığının müəlliflərindən biri kimi qəbul edirlər[4]. Professor Novruz Məmmədov bununla bağlı yazır: "Əhməd Davudoğlunun konsepsiyasına görə, Türkiyə Avropa İttifaqı ilə tərəfdaşlıq və ABŞ-la strateji müttəfiqlik əlaqələrindən bəhrələnərək, Rusiyanın bölgədə yürütdüyü slavyan-ortodoks avrasiyaçılığına (Yunanıstan, Kipr (Cənubi), Ermənistan və İranla reallaşdırdığı geosiyasi müttəfiqliyə) qarşı, Türkiyə-Qərb və Türkiyəyə yaxın digər dövlətlərin geosiyasi avrasiyaçılığını formalaşdırmalı və bölgədə "yeni bir geosiyasi güc" reallaşdırmalıdır"[5]. Bu cümlələrdə Ə.Davudoğlunun yeni avrasiyaçılıq konsepsiyasının mahiyyəti ifadə olunub. Eyni zamanda, Rusiyanin avrasiyaçılıq siyasəti ilə

[1] Ahmet Davutoğlu. Stratejik derinlik. Türkiyenin uluslararası konumu. İstanbul, Küre Yayınları, 2011, 584 s. Yl

[2] Yenə orada, s.6-12

[3] Yenə orada, s.9

[4] Novruz Məmmədov. Geosiyasətə giriş (İki cilddə. I cild). Bakı, "Azərbaycan" nəşriyyatı, 2011, s.399-404, 576 s.

[5] Yenə orada, s.400



müqayisəsi aparılıb. Buradan görünür ki, Türkiyə "yeni bir geosiyasi güc" formalaşdırmağı qarşısına məqsəd kimi qoyub.

Təsadüfi deyil ki, müasir geosiyasətdə Türkiyə Balkanlar, Orta Şərq, Qafqaz və Mərkəzi Asiyanı əhatə edən geniş bir geosiyasi məkanda birləşdirici rol oynamaq iddiasındadır. Bunun üçün Ankara ABŞ, Aİ və Rusiya ilə böyük geosiyasi oyun aparır. İran və yaxın qonşularla "sıfır problem" (Ə.Davudoğlu) prinsipi ilə münasibətlər qurur. Yəni Türkiyə bütün qonşuları ilə dost olmaq siyasətinə üstünlük verir. Burada Abraham Linkolnun bir deyimi yada düşür: "Mən öz düşmənlərimə onlarla dost olmaqla qalib gəlirəm".

**Böyük güclərlə "türk ruleti" oyunu**

Ə.Davudoğlu "Türkiyənin xarici siyasəti və Rusiya" adlı məqaləsində vurğulayır ki, "Türkiyə ədalətli və dayanıqlı dünya nizamının bərqərar olacağına inanır..."[1]. Bu, strateji dərinlik siyasətinin başlıca məqsədidir. Ə.Davudoğlu bu məqsədə çatmağın 6 prinsipini müəyyənləşdirib. Həmin prinsiplərin hamısı mədəniyyət tutumludur. Onlar azadlıqla təhlükəsizlik arasında tarazlığın yaradılmasını, bütün regional dövlətlərin sülh prosesinə cəlb edilməsini, qonşu regionlara münasibətdə səmərəli siyasətin yeridilməsini, BMT-nin rolunun artırılmasını, beynəlxalq qurumların fəallaşmasını və Türkiyənin yeni obrazının yaradılmasını əhatə edir[2].

Bu prinsiplər strateji dərinliyin reallaşması metodunu aydınlaşdırır. Yəni Türkiyə yerli və regional inteqrativ qurumlar formalaşdırmaqla yeni dünya nizamının təşəkkülünə nail olmaq siyasəti yeridir. Bu, ABŞ-ın hegemonluq iddialarına uyğun gəlmir. Çoxqütblü dünya modelinin konkret növüdür. Bu mənada, Rusiya ilə Türkiyəni qlobal miqyasda birləşdirən məqamlar az deyil. Təsadüfi deyil ki, son illər bu iki ölkənin əməkdaşlığı xeyli sürətlənib və irəliləyib.

[1] Ахмет Давутоглу. Внешняя политика Турции и Россия // «Россия в глобальной политике», №1 Январь/Февраль 2010. URL: http://www.globalaffairs.ru/number/n_14562.

[2] Ahmet Davutoğlu. Turkey's Zero-Problems // Foreign Policy, May 20, 2010. URL: http://www.foreignpolicy.com/articles/2010/05/20/turkeys_zero_problems_foreign_policy?page=full.

Türkiyə xarici siyasətinin prioritetləri qeyd etdiyimiz 6 prinsipdən çıxış edilərək müəyyənləşdirilmişdir. Prioritetlər strateji dərinlik ideyasının məzmununa uyğundur. Bu prioritetlər Yaxın və Orta Şərqi, Qafqazı və Mərkəzi Asiyanı əhatə edir. Bir sıra Rusiya analitiki Qafqaz və Mərkəzi Asiyada Ankara ilə Moskvanın toqquşa biləcəyini proqnozlaşdırırlar. Lakin hələlik Türkiyə Cənub (ərəb ölkələri və İran) və Qərb (Avropa və Balkanlar) istiqamətinə daha çox diqqət yetirir[1].

Türkiyənin Qərb siyasətini araşdıran Amerika və Avropalı analitiklər də Ankara ilə Vaşinqton-Brüssel tandeminin toqquşması ehtimalından danışırlar. Lakin bu cür qiymətləndirmələrin birtərəfli olduğunu düşünürük[2]. Çünki onlar belə proqnozları Türkiyənin strateji dərinlik xəttinin real məzmununa görə deyil, bir çox dövlətin müsəlman ölkələrə qarşı qərəzli münasibət göstərməsinə əsaslanaraq verirlər. Onlar siyasətdə "türk ruleti"nin əsas prinsipini unudurlar. Bu prinsip ədalət və barışa dayanır. Məşhur siyasətçilərdən olan Pyetro Kolletta deyib ki, "xalqlara sivilizasiyadan çox ədalət lazımdır".

**Avrasiyada inteqrasiya modelləri: rəqabət, yaxud toqquşma?!**

Rusiya özünün Avrasiya inteqrasiya modelini meydana çıxardı. Moskva dünya siyasətinin Böyük şahmat taxtasının (Z.Bzejinski) "şahı" olmaq arzusundadır. Rusiya Türkiyənin bu prosesdə ciddi rol oynaya biləcəyini qəbul edir, lakin onu "birinci skripka" kimi görmək istəmir.

Türkiyənin öz kursu var. Ankara Orta Şərq, Balkanlar, Qafqaz və Mərkəzi Asiyada söz sahibi olmaq istəyir. Lakin onu siyasi-ideoloji aspektdən çox, iqtisadi faktor maraqlandırır. Türkiyəli analitiklər bu məqamı qeyd edirlər. İstanbul Universitetinin professoru İlter Turan Türkiyənin, ümumiyyətlə, Rusiya ilə mübarizə aparmaq id-

[1] Евгений Бахревский. Политика «нового османизма» Турции и постсоветское пространство / Информационное агентство «Regnum», 16 ноября 2011. URL: http://www.regnum.ru/news/1467970.html#ixzz1dxtHQJS6.

[2] Юрий Тыссовский. «Стратегическая глубина» Турции. Влияние Анкары на мировую политику стремительно растет / Информационное агентство "Столетие", 9 июля 2010. URL: http://www.stoletie.ru/geopolitika strategicheskaja_glubina_turcii_2010-07-09.htm.



diasında olmadığını vurğulayır. O yazır ki, "Türkiyə təftişçi ritorika və praqmatik siyasətini davam etdirəcək. Qürurlu rəhbərliyi olan, bəzən öz imkanlarını həddən çox qiymətləndirən... orta səviyyəli bir dövlət formalaşır..."[1]. Zirvə Universitetinin dosenti Gökhan Bacik isə Türkiyənin böyük güclərlə toqquşmasına səbəb olmadığı qənaətindədir. Çünki Ankara geosiyasi gücə qarşı iqtisadi faktoru qoyur. Məsələn, Türkiyə ABŞ ilə strateji tərəfdaşdır, lakin Rusiya ilə atom elektrik stansiyası tikməklə bağlı saziş imzalayır, Çinlə iqtisadi əlaqələri sürətlə inkişaf etdirir, İrandan neft və qaz alır[2].

Türkiyə Avrasiya məkanında aparıcı dövlətlərdən biri olmağa çalışacaq. Qafqazda Azərbaycan məsələsində Rusiya ilə ortaq mövqe formalaşdırmağa can atacaq. Rusiya üçün Türkiyə ilə əməkdaşlıq çox önəmlidir. Türkiyə bütün İslam dünyasında Rusiyanın müsbət imicinin formalaşmasına yardım edə bilər. Rusiyanın ərazisində milyonlarla türk-müsəlman yaşayır. Ankaranın Şimali Qafqazın müsəlman əhalisinə təsir imkanları da məlumdur.

Rəsmi Ankara üçün Azərbaycan faktorunun ayrıca əhəmiyyəti vardır. Türkiyə Ermənistanla münasibətlərini Azərbaycanın maraqlarını nəzərə alaraq qurmağa məcburdur. Məlum Sürix protokollarına Azərbaycan və Türkiyə ictimaiyyətinin reaksiyası bir daha göstərdi ki, "bir millət, iki dövlət" ifadəsinin tam əsası vardır. Türkiyə və Azərbaycan ilk növbədə cəmiyyət olaraq çox yaxındırlar. Ona görə də Türkiyə Cənubi Qafqaz və daha böyük miqyasda postsovet məkanı siyasətində Azərbaycanı ilk sıraya qoyur. Azərbaycanla Türkiyə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirirlər.

Azərbaycan Türkiyə üçün Cənubi Qafqazda ən vacib ölkədir. Türkiyənin Mərkəzi Asiyaya çıxışında Azərbaycan böyük rol oynayır. Türkiyə xarici siyasəti bu məqamı ciddi nəzərə alır. Eyni zamanda, Azərbaycan Rusiya-Türkiyə əməkdaşlığının inkişaf

[1] Илтер Туран. Турция на подъеме. От неразвитой страны к региональной державе // «Россия в глобальной политике», № 5 Сентябрь/Октябрь 2011. URL: http://www.globalaffairs.ru/number/Turtciya-na-podeme-15362.

[2] Gokhan Bacik. Asya Pasifik Yüzyılını Tasarlamak: Türkiye, Amerika İle Çin Arasında Kaldı // Turquie diplomatique, №39 15 Nisan – 15 Mayıs 2012. URL: http://www.trdiplo.com/Haber.aspx?HaberNo=97.

etməsinə müsbət yanaşır. Azərbaycanın hər iki böyük dövlətlə yaxşı münasibətlər qurması bütövlükdə Cənubi Qafqazda sülhün bərqərar olmasına və qarşılıqlı etimadın yüksəlməsinə ciddi təsir edir. Bütün bunlara görə, Cənubi Qafqazda Türkiyə ilə Rusiya arasında ciddi ixtilafın yaranması ehtimalı yüksək görünmür.

**Newtimes.az**
17 yul 2012

### *5.3. İransayağı İslam həmrəyliyi: arxadan zərbə*

Allah-Taala insanı cəzalandırmaq istəyəndə onun ağlını əlindən alır. Ağlını itirmiş adamdan ağırlıq umulmaz. Belə adamın sözünün nə sərhədi olar, nə də məzmunu. Sədi deyirdi ki, "insanı məsxərə edən, dilidir". Hakimiyyəti də verdiyi bəyanatlar, atdığı addımlar həm öz xalqı, həm də dünya qarşısında məsxərəyə qoya bilər. Hakimiyyətin "ağlını itirməsi" bu səbəbdən daha faciəli nəticələr verir...

İranın hakimiyyət dairələrinin son vaxtlarda danışdıqları və hərəkətləri İran dövləti üçün eyni faciəli nəticələr verə bilər. Elə bir məqam gəlir ki, ən güclü hərbi silah və ideologiya belə faciənin qarşısını ala bilmir. Müdrik dövlətin gücü hərbdə deyil, ölkəni o uçuruma aparmamaqdadır.

İran tez-tez hərbi gücü ilə qonşularını hədələyir. İrana qonşu olan dövlətlər bu çılğınlığa və məsxərəyə təmkinlə cavab verirlər, çünki əsl gücün mədəniyyətdə, düşüncədə və sözdə olduğunu bilirlər. Bu keyfiyyət tarixən formalaşır. Firdovsinin aşağıdakı sözləri çox dərin mənalardan xəbər verir: "Xam düşüncələri ancaq ağıl bişirər". Nə yazıq, İranda bəzilərinin başı siyasi nəfslərinə və ədalətsiz ambisiyalara dəstək verməyə o qədər qarşıb ki, öz klassiklərini belə oxumurlar. Görünür, onlar Beydəbanın "hökumətlərin ən pisi, günahsızı qorxudandır" tövsiyəsini eşitmək belə istəmirlər. Hər halda İran rəsmiləri öz yolunu seçib və sağa-sola hədələr yağdırmaq, şərböhtan atmaq, günahsızı qorxutmaq kimi işlərlə insanları aldatmağa çalışırlar. Son günlərin bəzi hadisələrinə nəzər salaq. Öncə İranın daxili siyasi durumunun bir sıra məqamlarına diqqət edək.



**"Köhnə İran, köhnə siyasət"**

Bu ilin mart ayında İran parlamentinə keçirilən seçki cənub qonşumuzun indiki və gələcək siyasi xəttinin əsas məqamlarını anlamağa yardım edir. Analitiklər seçkidə islahatçıların faktiki olaraq iştirak etməməsinin səbəbini İranın daxili və xarici siyasət strategiyasının mahiyyəti ilə izah edirlər. İslahatçı Məhəmməd Xatəmiyə yaxın olan siyasi qrupların hamısı seçkidə iştirakdan müxtəlif üsullarla uzaqlaşdırıldılar. Əvəzində mühafizəkarların dini lideri Seyid Əli Xamneyinin nəzarətində olan 6 siyasi qruplaşma (Mühafizəkarların Birləşmiş Cəbhəsi, İslam İnqilabının Sabitliyi Cəbhəsi, Müqavimət Cəbhəsi, Vəhdət və Ədalət Cəbhəsi, Bəsirət və İslami Oyanış Cəbhəsi, Millətin Səsi Cəbhəsi ) seçkidə iştirak etdi. Bu qruplaşmaların hamısı üçün ortaq olanı İranın dəmir əllərlə idarə edilməsinə üstünlük vermələridir. Onlar İslam inqilabının ixrac edilməsini əsas xətt sayırlar. Yeri gəlmişkən, hələ 2001-ci ildə bu məsələ mühafizəkarlarla islahatçılar arasında əsas toqquşmaya səbəb olmuşdu. Onda Xamneyi tərəfdarları o zaman prezident olan M.Xatəminin konstitusiyadan inqilab ixracına rəvac verən maddələrin (152-155-ci maddələr) çıxarılması təklifinin qarşısını almışdılar. İslahatçılar İranın xarici siyasət kursunda ciddi dəyişikliklər etmək istəyirdilər. Onlar daxili vəziyyəti dözümsüz hala gətirmiş bir konsepsiyanı başqalarına da sırımağın gülünc olduğunu deyirdilər. Bütün bunlara görə, builki parlament seçkisi faktiki olaraq İranın dövlət kimi daxili və xarici siyasətinin məğzini ifadə edir.

Rəsmi Tehran cəmiyyəti demokratikləşdirmək əvəzinə onu ətraf aləmdən daha çox təcrid edir, sərt və mərkəzləşdirilmiş idarəetməyə üstünlük verir, ənənəvi düşmən-dost bölgüsünü davam etdirir. Həmin məqam bir çox məsələlərdə İran və Ermənistanın geosiyasi seçimlərinin üst-üstə düşdüyü təəssüratı yaradır. İranın ətrafında baş verən hadisələrin mahiyyəti və ölkənin təcrid vəziyyətinə düşməsinin kökündə məhz bu məqam durur. İranın qonşulara qarşı atdığı konkret geosiyasi addımların mahiyyəti bu fikri tam təsdiqləyir.

Məsələn, Azərbaycan hakimiyyətinə qarşı Avropanın bəzi dairələrinin və Ermənistanın atdığı addımlarla müsəlman İranın etdikləri üst-üstə düşür. Avropa və Ermənistan mediasının Azərbaycan əley-

hinə istifadə etdiyi mövzular həm də İran jurnalistlərinin sevimli məşğuliyyətinə çevrilib. "Avroviziya" mahnı müsabiqəsi, İsrail-Azərbaycan münasibətləri, Azərbaycan rəhbərliyinin yeritdiyi siyasət, insan haqları, "siyasi məhbuslar" və azərbaycanlıların milli kimlikləri ilə bağlı mövqedə son zamanlar Berlin və İrəvan ilə Tehranın arasında elə bir fərq qalmayıb.

Sual olunur: "İranı Avropa demokratiyasının düşməni sayanlarla, İsrail və Avropanı İslamın düşməni elan edənləri Azərbaycan məsələsində bir araya gətirən nədir?". Bunların heç birininmi ədalət hissi yoxdur? Məsələ ədalətdə deyil – yeridilən xarici siyasətin mahiyyətindədir. Tarix sübut edir ki, Azərbaycanın (ümumiyyətlə, türklərin) dövlət müstəqilliyi, inkişafı, geosiyasi statusunun yüksəlməsi məsələsi gələndə özünü müsəlman sayanlar kafir adlandırdıqları ilə bir gəmiyə minirlər. İslami dəyərlərin üstündə əsdiklərini deyən mühafizəkarların müsəlmanların qatilləri ilə dostluq etməsini sağlam düşüncə qəbul etməz. İslam həmrəyliyini əldə bayraq tutub, müsəlman ölkələrinə qarşı məkrli siyasət yeritməyin adı yoxdur. İran Azərbaycanı "Avroviziya" məsələsində İslamın qoruyucusu adı ilə ittiham edir. Lakin nədənsə İran siyasiləri Xomeyninin "Avroviziya" ideyasının geniş yayıldığı Fransada bir zamanlar sığınacaq tapmasını normal sayırlar. Keçən il prezident Əhmədinejat Xomeyninin həmin gəlişini tam ifadə edən səhnə düzəltmişdi. Nədənsə onda da rəsmi Tehran Fransanı "Avroviziya" ideyasına görə qınamadı.

İran indi də ermənilərlə geniş siyasi-diplomatik, iqtisadi və mədəni əlaqələrini inkişaf etdirir. Bölgədə strateji problemlərin həllində Tehran həmişə rəsmi İrəvanı dəstəkləyib. Özü də Ermənistanda hansı siyasi qüvvənin hakimiyyətdə olması rəsmi Tehranın bu məsələdə mövqeyini dəyişməyib. Bu kontekstdə bəzi faktlara nəzər salmağın faydası vardır.

Ermənistan silahlı qüvvələri Qarabağda məscidləri dağıdıb. Allah-Taalanın ilahi kəlamı sayılan müqəddəs "Qurani-Kərim"i yandırıb. Müsəlman qəbiristanlıqlarını dağıdıb və qəbirləri təhqir edib. Ermənilər hər fürsətdə İslam sivilizasiyasının nadir incilərini yer üzündən silməyə çalışıblar, mədəniyyət nümunələrini oğurlayıblar.



Ermənistan havadarlarının yardımı ilə 1 milyon azərbaycanlı müsəlmanı öz yurdundan didərgin salıb. Bütün bunlara nədənsə İranın dini dairələrindən tutarlı bir etiraz olmayıb. Azərbaycanda bir yazıçının məqaləsi ilə bağlı fətva verən İran ayətullahları müsəlman məscidlərini təhqir edən, müsəlman qadınların namusuna toxunan, 1 milyon müsəlmanı yurdundan qovan xristian terrorçulara fətva verməyib. Rəsmi Tehran bir an da olsun bu cinayətləri törətmək əmri vermiş Ermənistan rəhbərliyi ilə əlaqələri kəsməyib. Ermənilər indi də deyirlər ki, Qarabağ müharibəsi zamanı İran onlar üçün həyat yolu olub. İran prezidentləri R.Koçaryanı və S.Sarkisyanı tez-tez Tehranda qəbul edib, əməkdaşlıq sazişləri imzalayıblar.

İran-Ermənistan münasibətlərində təhlükəsizlik aspekti də ciddi yer tutur. İran tərəfi həmişə Ermənistana təhlükəsizliyin təminində yardım edib və bu, indi də davam edir. Ermənistan Qərbin qoyduğu qadağalara baxmayaraq İrandan qaz kəməri çəkilişinə başlayıb. Son vaxtlar İran və Ermənistan rəsmiləri yenə də yüksək səviyyədə görüşlər keçiriblər və strateji əməkdaşlığı inkişaf etdirmək haqqında bəyanat veriblər. Qərbin Ermənistana elə bir irad tutduğunu eşitməmişik. Niyə? Ermənistanın əvəzinə Azərbaycan bu cür hərəkət etsəydi, Qərb nə deyərdi? Tamam başqa vəziyyət yaranardı. Hətta Qərbin arxa durduğu İsrailin Azərbaycana silah satmasını Qərb mediası qərəzli şəkildə və bizim əleyhimizə informasiya məkanında müxtəlif məqsədlərlə yaymaqda davam edir. Bütün bunların fonunda Qərb və Ermənistan mediasında Azərbaycana qarşı aparılan kampaniyanın faktiki olaraq İran tərəfindən davam etdirildiyi qənaətinə gəlmək çətin deyil. Bu məqam həm də ona görə təəssüfedicidir ki, İranın dövlətçilik tarixində azərbaycanlıların yeri və rolu əvəzsizdir.

### İran dövlətçiliyi və azərbaycanlılar

Tanınmış fransız yazıçısı və siyasi xadimi Alfons dö Lamartin (XIX əsr) yazırdı ki, "Tarix hadisələrə qərəzsiz və sakit yanaşmalıdır. Əks halda o, dəhşətə gələr və öyrənməyinə girişdiyinin həqiqi təbiətini anlamaz". İran tarixində azərbaycanlıların həlledici rolunu qəbul etməmək Lamartinin qeyd etdiyi bu yanlışlığa düçar olmaq deməkdir. Bu bir gerçəklikdir ki, hazırda İranda 30 milyondan

çox azərbaycanlı yaşayır. Bu rəqəm İran tarixində dövlətçilik və mədəniyyət baxımından əsas rol oynamış etnosun kimliyini aydın göstərir. Yəni İran Azərbaycan türklərinin bu coğrafiyada yaratdığı imperiyalara daxil olmuşdur. 642-ci ildə ərəblər Nəhavənd yaxınlığında farsların ordusunu darmadağın etdikdən sonra 1400 il onların dövləti olmayıb. Səlcuqlar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar XX əsrin əvvəllərinə qədər İran coğrafiyasında dövlət sahibləri olublar. İranın zəngin dövlət ənənəsi məhz bu oğuz-türk tayfalarının tarixi xidmətidir. Təbriz həmişə İranın paytaxtı olub. İranda "Azərbaycan şahzadəsi" kübarlığın və hakimliyin rəmzi idi. XX əsrin əvvəllərində Qacarların hakimiyyətini ingilislərin siyasəti və rusların silahı ilə məhv edəndən sonra fars məsələsi önə çıxarıldı. 1935-ci ildə "İran" dövlət adı kimi işlənməyə başladı ki, bu da ölkənin türk tarixini baltalamaq yolunda atılmış növbəti addım idi. Sonra Cənubi Azərbaycanın parçalanması və əhalinin süni miqrasiyası prosesi başladı.

Bütün bunlara rəğmən, bu gün də İranda azərbaycanlıların siyasi, iqtisadi, mədəni, elmi təsiri böyükdür. İran hakimiyyətində azərbaycanlılar çoxluq təşkil edirlər. Xamneyi və Şəbüstəri də Azərbaycan türkləridirlər. Lakin tarixin istehzasıdır ki, Tehrandan Xamneyi Təbrizdəki Şəbüstəriyə müasir tarixi mərhələdə bütün azərbaycanlıların yeganə müstəqil dövləti olan Azərbaycana qarşı aksiya təşkil etmək göstərişini verir. Özü də əsası olmayan, böhtan xarakterli məsələləri bəhanə edərək bu addımı atırlar. Azərbaycanlıların mərdliyini, kişiliyini bilə-bilə guya "mavi"lərin paradını keçirəcəklərini demək, öz kökünə xəyanətdir. Ona görə də Azərbaycan Respublikasının Təbrizdəki konsulluğunun önündə azərbaycanlıları azərbaycanlılara qarşı aksiya keçirməyə məcbur edənlər bir sıra tarixi məqamlara diqqət etsinlər. İran dövlətçiliyi Azərbaycan türklərinə borcludur.

Azərbaycan Prezidentinin BMT Təhlükəsizlik Şurasında sədrlik etməsi həm də İran üçün iftixar qaynağı olmalıdır. Bunun əvəzində "Səhər-2" telekanalının efirindən "zəhər tökmək" həm də oturduğun budağı kəsmək mənasını verir. Ermənistan mediası Azərbaycan rəhbərliyinin uğurunu hansı mənfi çalarda təqdim edirsə, İran mediası da eyni üslubdan istifadə edir. Onda belə çıxır ki, hər ikisi eyni mərkəzdən sifariş alır. Bu mərkəzin xristian ölkələrinin birində olduğu aydınlaşanda İranın öz ayıbına kor olmadığı da bəziləri üçün aydın olacaq. Nə yazıq ki, bu gün Təbriz və Tehranda Azərbaycana etiraz edən sadə dindaşlarımız rəsmi Tehranın din faktorunu istismar etdiyini, öz siyasi məqsədləri üçün alətə çevirdiyini yalnız o zaman başa düşəcəklər. Gec olmayacaq ki?! Bizcə, İranın indi dost itirən vaxtı deyil. Azərbaycanlılar İranın dövlətçilik tarixində həlledici rol oynadığı kimi, müasir Azərbaycan dövləti İranın suverenliyinə hörmətlə yanaşır. Ona görə də elə bu gün Azərbaycanın İran siyasətini Tehranda qərəzsiz və sakit dərk etməyə çalışmalıdırlar.

Unutmamalıdırlar ki, Azərbaycan Prezidenti ölkəmizin ərazisindən İrana qarşı kimsənin hərbi əməliyyatlar aparmaq üçün hər hansı şəkildə istifadə edə bilməyəcəyini dəfələrlə bəyan edib. Azərbaycan BMT-də İrana qarşı sanksiya tətbiq etməyi nəzərdə tutan sənədə səs verməyən dövlətlərdən biridir. Deməli, Azərbaycan İranın dövlət maraqlarına hörmətlə yanaşır və sözsüz ki, özünə qarşı da bu cür münasibət gözləyir.

"Avroviziya" yarışmasının Bakıda keçirilməsi İranın dini dairələrinin və dünya ermənilıyinin (Bu gün İranın din qardaşı sanki Ermənistandır) əlinə Azərbaycana qarşı növbəti dəfə qərəzli mövqe nümayiş etdirmək üçün sanki yeni bəhanə verib. Azərbaycanın "Avroviziya"ya ev sahibliyi etməsi erməniləre ona görə sərf etmir ki, dünya azərbaycanlıların nə qədər inkişaf etmiş olduğunu öz gözü ilə görəcək, Azərbaycanın bu cür möhtəşəm tədbirləri keçirmək qüdrətində olduğuna əmin olacaq. Əslində, müsəlmanların xeyirxah, mədəni və başqalarına qarşı dözümlü olduğunu göstərmək İrana da çox lazımdır. Axı, bu dövlət dünyaya car çəkir ki, "mən müsəlmanların haqqını, hüququnu müdafiə edirəm". Bəs onda nə üçün Azərbaycanın müsəlmanların terrorçu olmadığını, mədəniliyini, qüdrətini dünyaya göstərməsinə rəsmi Tehran terror törətmək hədələri ilə cavab verir? Ona görə ki, rəsmi Tehran dindən sui-istifadə edir, onu müsəlmanların mədəni və sivil obrazı maraqlandırmır. Görünür, İranda bəzi dairələr müsəlmanların qorxunc terrorçu obrazının qalmasında maraqlıdır ki, bundan bir sıra dövlətlərə qarşı şantaj və

hədə kimi yararlana bilsin. Bu siyasət müsəlmanlarla dünyanın başqa xalqları arasına sədd çəkir ki, İranın köhnəlmiş, kif iyi verən, insanları zorla təsiri altında saxlayan idarəetmə fəlsəfəsi bir az da nəfəs ala bilsin. Məhz bu kimi məqamda rəsmi Tehranla bəzi xristian dövlətlərin (məsələn, Ermənistanın) maraqları üst-üstə düşür.

**"Haqsızlığa baş qaldırmayanlar onlardan gələcək hər pisliyə qatlaşmalıdırlar"**

Təbii ki, İranın ziddiyyətli mövqeyinə baxmayaraq, Azərbaycan dövləti İslama diqqət yetirməkdə davam edəcək. Əgər sovet dövründə Azərbaycanda cəmi 18 məscid vardısa, indi 2000-ə yaxın məscid fəaliyyətdədir. Son 10 il ərzində Azərbaycanda dövlətin yardımı ilə 417 məscid təmir edilib. Azərbaycan dövləti ölkədən kənarda da dini məbədlərin tikilməsi və bərpasına böyük yardımlar göstərir. Dünya üzrə müsəlmanların hüququnu qorumaq sahəsində addımlar atır. Təsadüfi deyil ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının aktiv üzvlərindəndir. Azərbaycanın İslama bu cür önəm verməsi fonunda İranın hakim dairələrinin etdikləri başa düşülən deyil. Bu haqsızlığa qarşı çıxılmalıdır. Həzrət Əlinin (ə) yuxarıda gətirdiyimiz sözləri bunu təsdiq edir. Yəni siyasət nə qədər zalım və amansız olsa da, insanlar haqsızlığa mütləq baş qaldırırlar. İranın dövlətçilik ənənəsinin memarları olan azərbaycanlıların ana dilində təhsil almaq hüququnun əlindən alınması heç bir çərçivəyə sığmır. Onlar baş qaldıracaqlar. Azərbaycanlıları yeganə müstəqil dövlətləri olan Azərbaycanla düşmən etmək cəhdi odla oynamaqdır. Buna da etiraz edəcəklər. Qarabağda əli qana bulaşmış ermənilərin Təbrizdə biznesinə, "soyqırımı" yürüşlərinə, mədəniyyət tədbirlərinə şərait yaradanlara qarşı çıxış edənlər də az olmayacaq. Olmayan "erməni soyqırımı"nı müdafiə edən bəzi İran rəsmilərindən Qarabağda qətlə yetirilmiş müsəlman uşaq, qadın və qocanın hüquqlarından niyə danışmadıqlarını, Xocalıda yaşanan insanlıq dramına niyə soyqırımı demədiklərini soruşacaqlar. Beydəbanın bir tövsiyəsini unutmamaq faydalı olardı: "İnsan zəhərli ağac əkdiyini o zaman başa düşür ki, ağacın meyvəsini onun özünə yedizdirirlər".

Azərbaycan təbii ki, müstəqil xarici siyasət kursunu bundan sonra da davam etdirəcəkdir. "Avroviziya" yarışması uğurla keçəcəkdir. Azərbaycana, onun rəhbərinə atılan böhtanlar boşa çıxacaqdır. Necə deyərlər, "görünən dağa bələdçi lazım deyil". Bütün bunlardan sonra, İran siyasiləri öz vətəndaşları olan azərbaycanlıların üzünə necə baxacaqlar? Hansı mənada müsəlmançılıqdan, İslam həmrəyliyindən, dini təəssübkeşlikdən danışacaqlar? Onda İranda kimlərinsə nəfəsi daralacaq. Bu, mütləq baş verəcək!

**Newtimes.az**
27 may 2012



## *5.4. Rusiya: yeni geosiyasi güc mərkəzinə doğru*

20 il bundan əvvəl Henri Kissincer "Diplomatiya" əsərində Rusiyanı nəzərdə tutaraq sual edirdi: "O, öz tarixi ritmini bərpa etməyə və itirilmiş imperiyanı yenidən qurmağa can atacaqmı? O, ağırlıq mərkəzini Şərqə keçirəcəkmi və Asiya diplomatiyasında aktiv iştirakçı olacaqmı? Öz sərhədləri yaxınlığında, xüsusilə dəyişkən-narahat Orta Şərqdəki qarışıqlığa hansı prinsip və metodlarla reaksiya verəcək?"[1].

Rusiya prezidenti Vladimir Putinin "Rusiya Federasiyasının xarici siyasət kursunun reallaşması tədbirləri haqqında" fərmanı[2] məşhur alim və siyasətçinin suallarının uzaqgörənliyini təsdiqləyir. Həmin fərmanda hər üç suala cavab vardır.

V.Putin yenidən prezident seçiləndən sonra ilk xarici səfər marşrutu belədir: Minsk, Berlin, Paris, Daşkənd, Pekin, Astana. Bu marşrutu Rusiya xarici siyasətinin əsas trayektoriyası kimi qəbul etmək olar. V.Putin ittifaqa daxil olan dövlətdən başlayır (Belarus), Avropa İttifaqının iki böyük dövlətinə baş çəkərək (Almaniya və Fransa), Mərkəzi Asiyada ayaq saxlayır (Özbəkistan), sonra Uzaq Şərqin böyük dövlətində danışıqlar aparır (Çin), nəhayət, Gömrük ittifaqına daxil olan Qazaxıstanda səfər başa çatır.

V.Putinin yuxarıda xatırladığımız fərmanına nəzər salsaq, ilk xarici səfərin xüsusi məna daşıdığını görərik. Rusiya üçün MDB

---

[1] Henry Kissinger. Diplomacy. New York: Simon & Schuster, 1994, 912 pp. s.8

[2] Модест Колеров. Новая внешняя политика Путина. URL: http://www.regnum.ru/news/1528564.html.

məkanı xüsusi geosiyasi əhəmiyyət kəsb edir. Fərmandan bir bənd: "Müstəqil Dövlətlər Birliyi məkanında hərtərəfli qarşılıqlı əlaqələrin və əməkdaşlığın inkişafına Rusiya Federasiyasının xarici siyasətinin açar istiqaməti kimi baxmaq". Bu məkanda əməkdaşlığın perspektivi Avrasiya İqtisadi Birliyinin formalaşmasına bağlı olmalıdır. Birliyin qapısı açıqdır. Yeni inteqrasiya strukturlarının beynəlxalq mövqeyinin konkretləşdirilməsi də Rusiya xarici siyasətinin əsas hədəflərindəndir.

Avropa İttifaqı ilə bərabərhüquqluluq və qarşılıqlı faydalılıq prinsipinə əsaslanan yeni saziş imzalanmalıdır. Bunda məqsəd Aİ ilə əlaqələri iqtisadi və humanitar aspektdə cəmləşdirərək, siyasi aspektdə məsafə saxlamaqdır. Rusiya Aİ-nin postsovet məkanına siyasi-hərbi təsirini minimuma endirmək kursu götürür.

Rusiya Uzaq Şərq ölkələri ilə münasibətlərdə fərqli ritorikadan istifadə edir. Fərmanda deyilir: "Şanxay Əməkdaşlıq Təşkilatı ilə... çoxtərəfli diplomatiyanın müxtəlif formalarını fəal surətdə hərəkətə gətirmək".

**Avrasiya inteqrasiyasının ilk "yol xəritəsi"**

Rusiya xarici siyasətinin əsas hədəflərinin qısa xülasəsi göstərir ki, Avrasiya məkanında yeni geosiyasi proseslər başlaya bilər. Moskva MDB məkanında inteqrativ proseslərə yeni nəfəs verməyə çalışır. İnteqrasiya iqtisadi və humanitar sahələri əhatə etməlidir. Minsk, Daşkənd və Astananın ilk xarici səfər marşrutu üzərində olması yalnız rəmzi məna daşımır. Belarus Avropa istiqamətində, Qazaxıstan və Özbəkistan isə Asiya və Uzaq Şərq istiqamətində Rusiyanın əsas tərəfdaşı kimi qəbul edilir. Belarus ilə bağlı situasiya aydındır – Rusiya bu dövlətlə "bütün mümkün istiqamətlərdə əlaqələri inkişaf etdirmək" strategiyasını seçib. Qeyd edək ki, fərmanda başqa heç bir dövlətlə bu səviyyədə əməkdaşlıqdan danışılmır.

Almaniya və Fransanın, Avopa ölkələri kimi geosiyasi aspektdə Rusiya üçün xüsusi geosiyasi əhəmiyyəti vardır. İlk növbədə ABŞ-a alternativ güc olmaq baxımından Berlin və Paris Moskvaya çox lazımdırlar. Bununla yanaşı, Çin məsələsində Rusiyanın ehtiyatlı davranması lazım gəlir ki, bu yöndə də Fransa və Almaniyadan sərfəli



tərəfdaş yoxdur. Çünki Avropa "Çin dalğasından" çox qorxur və Rusiyadan "divar" kimi istifadə etməyə çalışır.

Rusiyanın Mərkəzi Asiyada Qazaxıstan və Özbəkistanı seçməsinin geosiyasi səbəbləri var. Özbəkistan həmin regionda ABŞ-a ən çox müqavimət göstərən dövlətdir. Bu ölkə GUAM-dan da çıxıb və xarici siyasətdə Rusiya faktorunu çox nəzərə alır. Özbəkistan potensial imkanlarına görə, Mərkəzi Asiyada Qazaxıstandan sonra ikinci dövlətdir. Digər tərəfdən, bu ölkə Uzaq Şərqə gedən enerji marşrutlarının üstündədir. Özbəkistan Türkmənistan, Qırğızıstan və Tacikistanla həssas münasibətlərə malikdir. İstənilən vaxt həmin dövlətlərə təsir etmək olar. Əfqanıstan istiqamətində də Özbəkistan əsas məntəqələrdən biridir. Bütün bunlara görə, Özbəkistanı Mərkəzi Asiyanın geosiyasi konfiqurasiyasında əsas punkt kimi götürmək olar.

Qazaxıstan Belarusdan sonra Rusiya ilə ən sıx əlaqəsi olan ölkədir. Bu dövləti ümumiyyətlə, Uzaq Şərqə açılan qapı hesab etmək olar. Rusiya həmin istiqamətdə bütün geosiyasi planlarının əsas punktlarından biri kimi Astananı görür. V.Putinin ilk xarici səfərə Belarusdan başlayıb, Qazaxıstanda nöqtə qoymasının incə geosiyasi mənası vardır. O, sanki Rusiyanın ətrafında formalaşa biləcək gələcək geosiyasi konfiqurasiyanın sərhədini göstərir. Elə bu aspektdə də Pekinin ayrıca rolu vardır.

**Böyük Çin səddinə doğru**

Rusiya prezidentinin ilk xarici səfər marşrutuna Z.Bzejinskinin "dünyanın geosiyasi ağırlıq mərkəzi Qərbdən Şərqə doğru sürüşür"[1] fikrinin işığında baxanda düşündürücü məqamları görürük. Rusiya ABŞ-la Çin arasında gedən qlobal liderlik oyununda xüsusi bir mövqe seçir. İlk növbədə Moskva dünyanın iki böyük iqtisadi gücünün yarışına birbaşa qarışmır. Əksinə, bir qədər kənarda durub, onların mübarizəsini izləyir və eyni zamanda, hər ikisi ilə əməkdaşlığı in-

[1] Zbigniew Brzezinski. Balancing the East, Upgrading the West. U.S. Grand Strategy in an Age of Upheaval // Foreign Affairs, January/February 2012. URL: http://www.foreignaffairs.com/articles/136754/zbigniew-brzezinski/balancing-the-east-upgrading-the-west.

kişaf etdirir. Rusiya Mərkəzi Asiyanı nə ABŞ-a, nə də Çinə güzəştə getmək istəmir.

Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində Moskva Pekinlə yaxın tərəfdaşdır. Keçən il bu təşkilatın yaradılmasının 10 ili tamam oldu. İndi ŞƏT-in qlobal geosiyasi miqyasda rolunu yeni səviyyəyə qaldırmaq vəzifəsi qarşıda durur. V.Putinin Çinə səfərində bu məsələ əsas yerdə durmalıdır. Bu addımla Rusiya və Çin Mərkəzi Asiya və Uzaq Şərqdə amerikan idarəçiliyinin qarşısına sədd çəkmək niyyətindədirlər. ŞƏT hər şeydən öncə Mərkəzi Asiyanın enerji daşıyıcıları məsələsində Qərbin planlarına qarşı durmaqda rol oynamalıdır. Burada Çinin ayrıca əhəmiyyəti vardır.

Çin onu əhatə edən dövlətlərlə münasibətində ehtiyatlıdır. Çinin ətrafında böyük güclər (Hindistan, Rusiya və Yaponiya), müharibə ocaqları (Əfqanıstan) və inkişaf edən dövlətlər qrupu (Koreya, Vyetnam, Sinqapur, Malayziya və s.) vardır. ABŞ isə Sakit okean regionuna nəzarət planlarını həyata keçirməkdədir. Bütün bunlara görə, Çin bir tərəfdən, ətrafındakı dövlətlərin çox qabağa getməsini istəmir və bu aspektdə ABŞ ona lazımdır. Digər tərəfdən isə, Çin ABŞ-ın tək hegemonluğunu qəbul etmir. Təmkinli, hiyləgər və səbrli Çin siyasəti bu dilemma üzərində qurulub[1]. H.Kissincer və A.Fridberq (Priston Universitetinin professoru, Dik Çeyninin xarici siyasət üzrə məsləhətçisi) son kitablarında Çin siyasətinin bu tərəfini təhlil ediblər[2].

**Geosiyasi qüvvələr nisbəti dəyişə bilərmi?**

Rusiya prezidentinin xarici səfər marşrutu və onun arxasında duran bəzi məqamlar meydana bir neçə sual çıxarır. Rusiyanın Avrasiya inteqrasiyası planı konkret məzmun kəsb edə bilərmi? Belə görünür ki, Moskva MDB məkanında getdikcə iqtisadi və humanitar məsələlərə daha çox diqqət yetirəcək. Qərbin postsovet məkanı ölkələrinə qarşı qərəzli mövqeyi, münaqişələrin həllinə ikili standartlarla yanaşması, Avropanın böhran zolağına düşməsi, ABŞ-ın "rəngli inqilablar" siyasətindən əl çəkməməsi və müsəlman dövlətlərə qarşı tutduğu mövqedə ziddiyyətli məqamların çox olması, Rusiyanın şansını artırır. Moskvanın bu prosesdə müəyyən yerə qədər Çindən istifadə etmək niyyəti başa düşüləndir. Dünyanın geosiyasi aktivliyi Şərqə doğru genişlənirsə, Qərbi Mərkəzi Asiyada başda Rusiya və Çin olmaqla dövlətlər qrupunun qarşılaması maraqlı olardı. Təxmin etmək olar ki, yaxın perspektivdə geosiyasi hadisələrin əsas mərkəzi məhz Mərkəzi Asiya olacaq. Cənubi Qafqaz bu halda aktiv mübarizə meydanının arxa cəbhəsi olur ki, bu da situasiyanı son dərəcə həssas edir. Münaqişələrin həllində qeyri-müəyyənliklər arta bilər. Böyük güclərin onlardan süni istifadə etmək istəyinin güclənməsini gözləmək olar. Belə vəziyyət postsovet məkanı ölkələrinin bəzilərini strateji seçimlərində dəyişiklik etməyə meyləndirə bilər.

Dünyanın Qərb və Rusiya-Çin ikiliyinin başçılıq etdiyi geosiyasi güc mərkəzlərinə bölünməsi "çoxqütblülük" modelini sual altına alır. Lakin hər bir halda Rusiyanın xarici siyasətdə yeni mərhələyə qədəm qoymasının qlobal miqyasda geosiyasi mənzərədə ciddi dəyişikliklərə təkan verəcəyi şübhəsizdir. Artıq yeni mərhələdə aktorlar kimi planlar və məqsədlər də dəyişir. Avrasiya geosiyasi məkanında hər bir dövlətin öz yerini müəyyənləşdirməsi məsələsi aktuallaşır. Z.Bzejinskinin "böyük şahmat taxtası"nda yeni partiyanı Putin başlayır. Növbəti gedişi kim edəcək?

**Newtimes.az**
5 iyun 2012

[1] Henry Kissinger. On China. New York: Penguin Press, 2011, 608 pp.

[2] Aaron Louis Friedberg. A Contest for Supremacy: China, America, and the Struggle for Mastery in Asia. New York: Norton, 2011, 352 pp.



### *5.5. Rusiyanın strateji dərinlik siyasəti*

**Avrasiyada yeni geosiyasi konfiqurasiya**

7 may 2012-ci il. Vladimir Putin "Rusiya Federasiyasının xarici siyasət kursunun reallaşdırılması tədbirləri haqqında" fərman imzalayıb (bundan sonra qısaca – fərman). Dünya siyasi dairələri bunu adi sənəd kimi qəbul etməyiblər. Onun təhlilinə çoxlu sayda yazılar həsr edilib. Xüsusilə, Qərb analitikləri, politoloqları və siyasətçiləri fərmanın mahiyyətini dərk etməyə çalışırlar. Səbəb nədir?

Rusiya üzrə məşhur mütəxəssis Jean Geronimo Kanadanın «Mondialisation.ca» saytına verdiyi müsahibədə qlobal geosiyasi konfiqu-

rasiya ilə bağlı maraqlı fikirlər söyləyib[1]. O, Avrasiya məkanında böyük geosiyasi güclərin (ABŞ, Rusiya, Avropa İttifaqı və Çin) "soyuq müharibə"dən "sərin müharibə"yə keçdiyini deyir. Yəni indi geosiyasi güclər qarşıdurmanı nisbətən yumşaq münasibətlər müstəvisinə keçiriblər. "Soyuq müharibə" dövründəki mübarizə motivləri, hegemonluq və rəqibi zəiflətmək strategiyası qalır. Bu parametrlər üzrə Avrasiya məkanında yeni geosiyasi konfiqurasiya formalaşır. Rusiyanın xarici siyasət kursu bu dəyişməyə uyğunlaşma cəhdidir. Həmin dəyişmələr hansı faktorlarda ifadə olunur?

Birinci faktor ərəb ölkələrində iğtişaşların genişlənməsi və kütləvi hal alması ilə bağlıdır. Bu, Rusiya üçün Avrasiya məkanında qeyri-sabit sərhəd zonasının yaranması anlamına gəlib. Suriya bu sırada indi hadisələrin episentrini təşkil edir. Bundan sonra silkələnmələr postsovet məkanına sıçraya bilər. Həmin prosesin əsas geosiyasi faktoru dindir. Çünki "ərəb baharı"nda dini faktor əsas hərəkətverici qüvvə sayılır. Dini həmrəylik, əhalisinin 15%-i müsəlman olan Rusiyanın Qafqaz və Mərkəzi Asiya ilə sərhədlərində güclü silkələnmələr yarada bilər.

İkinci faktor ABŞ-ın Raketdən Müdafiə Sistemlərini (RMS) Avropaya yerləşdirməsidir. Moskva bunu güc tarazlığının pozulması kimi qəbul edir.

Üçüncü faktor Əfqanıstanda baş verən hadisələrlə bağlıdır. Kreml hesab edir ki, NATO əsgərlərinin Əfqanıstandan çəkilməsi ilə, bu ölkədən radikal dini ideyaların postsovet məkanına yayılması imkanı genişlənə bilər. Təsadüfi deyil ki, Özbəkistan MDB çərçivəsində azad ticarət zonasının yaradılmasını bu məkanın təhlükəsizliyinin təmini ilə birbaşa bağlayır. Bütün Mərkəzi Asiya dövlətləri bu *məqamı* ayrıca qeyd edirlər. Qazaxıstanın Çinlə sərhəddə olan hərbi məntəqəsində baş verən müəmmalı kütləvi qətl hadisəsi, açıq deyilməsə də, xəbərdarlıqdır.

Nəhayət, enerji faktoru Avrasiya məkanında yeni konfiqurasiyaya ciddi təsir edir. Rusiya dərin strategiya xəttini seçir. Yəni Qərbin dərinliklərinə təsir edə biləcək geosiyasi parametrlər formalaşdırır.

[1] La pensée stratégique russe – Guerre tiède sur l'échiquier eurasien. Entretien avec Jean Géronimo Centre de recherche sur la mondialisation (CRM), 23 février 2012 URL: http://mondialisation.ca/index.php?context=va&aid=30607.



Ukraynanın taxıl məhsulu və Qazaxıstanın enerji ehtiyatlarına nəzarət böhran içində olan Avropaya təsir mexanizmi ola bilər. Bununla Moskva özünə bağlı bir geosiyasi məkan formalaşdırmaq istəyir. Həmin məkanın məsuliyyətini və dotasiyasını isə boynuna götürmür.

### Rusiyanın "xüsusi" kontinental gücü

V.Putinin xarici siyasətlə bağlı imza atdığı fərmanının məzmunu qeyd edilən geosiyasi parametrləri nəzərə alır. Bu kursun fəlsəfəsi "beynəlxalq münasibətlərin yeni polisentrik sisteminin formalaşması şəraitində praqmatizm, açıqlıq və çoxvektorluluq prinsipləri əsasında Rusiya Federasiyasının milli maraqlarının təmin edilməsi"ndən ibarətdir (2). Görünür ki, Rusiya indiki mərhələdə ABŞ-ın hegemonluq siyasətinə qarşı çoxqütblü dünyada güc tarazlığının saxlanması prinsipini qarşı qoyur. Bu, Rusiyanın "xüsusi" kontinental supergüc olmasından irəli gəlir.

Corc Fridman Vladimir Putinin yenidən prezident seçilməsi ilə bağlı yazır: "Putinin missiyası Rusiyaya sabitlik və təhlükəsizliyi qaytarmaqdan ibarətdir. Bu, dünyada ən böyük, daxilən qeyri-bircins və potensial düşmən olan nəhəng dövlətlərlə əhatə olunmuş ölkənin lideri üçün mühüm vəzifədir"[1]. Bu cür geosiyasi xüsusiyyətlərin nəzəri izahını H.Kissincer "Diplomatiya" əsərində vermişdir[2].

O, ABŞ-la Avropanı müqayisə edərkən yazır ki, ABŞ-ı tarixən güclü dövlətlər əhatə etmədiyindən, onun üçün "güc tarazlığı" xarici siyasətin strategiyası olmayıb. Avropa dövlətləri isə həmişə potensial düşmən dövlətlərlə əhatə olunub. Ona görə də Avropa dövlətlərinin xarici siyasəti üçün təqribən eyni gücə sahib dövlətlərin mövcudluğu şəraitində tarazlıq prinsipi əsas olmuşdur[3]. Doğrudur, Rusiyanı tipik Avropa dövləti hesab etmirlər. Lakin onun xarici siyasəti sırf kontinental gücün mahiyyətinə uyğundur.

[1] George Friedman. Putin's Evolving Strategy in Europe // Stratfor, May 8, 2012. URL: http://www.stratfor.com/weekly/putins-evolving-strategy-europe?utm_source=freelist-f&utm_medium=email&utm_campaign=20120508&utm_term=gweekly&utm_content= readmore&elq=5c9cacdd235446d1a7610026l0e4cd02.

[2] Henry Kissinger. Diplomacy. New York: Simon & Schuster, 1994, 912 pp. s.10-19

[3] Yenə orada, s.12-13

H.Kissincerin bu tezisləri işığında Rusiyanın yeni xarici siyasət prioritetlərinə nəzər salanda, onun daxili məntiqi aydın olur. Faktiki olaraq, hər bənd böyük geosiyasi mərkəzlər arasında güc tarazlığını təmin etməyə xidmət edir. Bu bağlılıqda iki məqama nəzər salaq.

Putin əvvəlcə Rusiyanı daxilən birləşdirmək və sabitlik yaratmaq xəttini seçdi. Bunun üçün Qafqazda separatizmi səngitdi, ölkəni oliqarxlardan təmizlədi, iqtisadi və siyasi sistemi mərkəzləşdirdi. Prosesdə güc strukturları ciddi rol oynadı. Bu, mahiyyətcə, klassik Rusiya idarəçiliyinin yeni tarixi şəraitdə qeyri-klassik improvizasiyasıdır.

İkinci addım Rusiyanın yaxın xaricdə daha fəal siyasət yeritməsindən ibarət olmalı idi. Lakin yaxın xaric ölkələrinin əksəriyyəti Rusiyadan üz döndərmişdi, üstəlik, Aİ və NATO ölkənin sərhədlərinə doğru irəliləyirdi. Belə situasiyalarda ənənəvi Rusiya reaksiyası hərbi güc tətbiq etməkdən ibarətdir! V.Putin müasir şəraiti nəzərə alıb, başqa yol seçdi. O, Qərbi diplomatik yolla daxildən parçalamaq kursuna üstünlük verdi. Bunun üçün Qərb dövlətləri ilə ikitərəfli sazişlər imzalayıb, onları sakitcə üz-üzə qoymağa çalışdı. Bu işdə Rusiya enerji faktorundan siyasi məharətlə istifadə etməyə başladı.

V.Putin Almaniya, Fransa və İtaliya ilə münasibətləri yaxın əməkdaşlıq səviyyəsinə qaldırdı. Çox keçmədi ki, Avropanı şimaldan "Şimal axını", cənubdan isə "Mavi axın" layihələri məngənəsinə aldı. Bu layihələr Belarus, Ukrayna və Moldovanı Avropa üçün enerji təchizatı baxımından bir qədər aşağı statusa saldı, Baltikyanı ölkələrlə Aİ-nin başqa dövlətləri arasında nisbi soyuqluq yaratdı, NATO-nun Şərqə genişlənməsini mürəkkəbləşdirdi (Ukrayna və Gürcüstan istiqamətində). Putin Fransa ilə qlobal geosiyasi məsələlərdə ABŞ və Böyük Britaniyaya qarşı tandem yarada bildi (məsələn, ABŞ-ın İraq siyasətini Moskva və Paris birgə qınadı). Bunlara paralel olaraq, Rusiya kapitalı Avropanın enerji nəhənglərini "işğal" etməyə başladı. Böyük Britaniya həyəcan siqnalı çalırdı ki, Avropanın iri şirkətlərinin səhmlərinin xeyli hissəsi Rusiya maqnatlarının əlinə keçib. Onlar Putinə yaxın adamlar idilər. Bununla V.Putin iki məqsədə nail oldu. Birincisi, təhlükəni Rusiyanın sərhədindən uzaqlaşdırdı. İkincisi, Qərb cəbhəsini parçaladı.



V.Putin bu dəfə prezident kürsüsünə əyləşəndə artıq qarşısında dəyişmiş Avropanı gördü. Böhran içində olan Avropa daha çox daxili problemlərinə diqqət yetirir. Rusiya Aİ siyasətində düzəlişlər edir. O, Avropa daxilindəki paçalanmanı saxlamaqla, oradan maliyyə və texnologiya dəstəyi almaq istəyir. Aİ-Rusiya sammiti göstərdi ki, bu istiqamətdə Moskvanın şansları az deyil. Hələlik Rusiya Aİ ilə sosial-iqtisadi, elmi-texnoloji əməkdaşlığı gücləndirməyi planlaşdırır. Bununla yanaşı, geosiyasi aspektdə müttəfiqliyi Uzaq Şərqdə axtarır. Mərkəzi Asiya və Çin bu səbəbdən V.Putinin bir səfərinin ortaq hədəfi oldu. Ancaq bu siyasət çox mühüm bir istiqaməti – Qafqazı kölgədə qoymamalı idi.

**Rusiyanın yeni xarici siyasət kursunun "düyün" nöqtələri**

Yuxarıdakı geosiyasi faktorlar Rusiyanın xarici siyasətinin yeni prioritetlərinin müəyyənləşməsində istiqamətverici rol oynayıb. Sənəddə xarici siyasətin hazırkı tarixi mərhələ üçün strateji məqsədi Rusiyanın daxili monolitliyini gücləndirmək əsasında postsovet məkanında geosiyasi inteqrasiyaya nail olmaq və qlobal güclərlə tarazlığı təmin etmək hesabına Avrasiya birliyinə təkan verməkdən ibarətdir. Bu zaman Rusiya daxilində və ona bitişik ərazilərdə ("yaxın xaric") konkret səmərə verən diplomatik-siyasi fəaliyyət nəzərdə tutulur. Qlobal güclərlə münasibətlərdə isə vaxt udmaq taktikasına üstünlük verilir. Vaxt qazanmaq taktikasının əsas səbəbi yuxarıda sadaladığımız parametrlər üzrə Rusiyanın daxilinə olan təhlükələri neytrallaşdırmaqdır. Bu prosesin fonunda Rusiyanın daxili monolitliyi və yaxın xaricin inteqrasiyası həyata keçirilməlidir. Bundan sonra isə bütövlükdə Avrasiya məkanında inteqrasiya modelinin konkret reallaşması mərhələsi başlamalıdır.

Sənəddə Rusiya xarici siyasəti iki geniş sahəni – Asiya-Sakit okean və Avro-Atlantika məkanlarını əhatə edir. Hər iki istiqamətdə konkret vəzifələr qarşıya qoyulur. Asiya-Sakit okean regionu istiqamətində yeridilən siyasətdə "inteqrasiya proseslərinə yardım etmək və...beynəlxalq təhlükəsizlik strukturunun formalaşmasına dəstək vermək" (2, z bəndi) nəzərdə tutulur. Avro-Atlantika istiqamətində isə "beynəlxalq hüquq əsasında bərabər və bölünməz

təhlükəsizlik sistemi yaratmaq, ...NATO ilə münasibətləri Rusiyanın maraqlarını nəzərə almaqla inkişaf etdirmək, ...Avropada təhlükəsizlik modelində islahatlar aparmaq..." (2, k bəndi) diqqət mərkəzindədir. Göründüyü kimi, bu əsas istiqamətlər arasında fərqlər Rusiyanın təhlükəsizliyini təmin etməyə bağlıdır.

Bununla bağlı sənəddə konkret punktlar nəzərdə tutulub. Onları şərti olaraq üç səviyyəyə ayırmaq olar. Birinci səviyyə sənədin 1-ci punktunda ifadə edilib: "Rusiya Federasiyasının uzunmüddətli inkişafı, onun iqtisadiyyatının modernləşməsi, ölkənin dünya bazarında bərabərhüquqlu mövqeyinin möhkəmlənməsi üçün uyğun xarici şərait yaratmalı"[1]. Sonrakı üç punktda bu məqsədə nail olmaq üçün konkret diplomatik təşəbbüsləri həyata keçirmək ifadə olunub. Bunlar BMT-nin dünya işlərində rolunu yüksəltmək (b punktu), müxtəlif inteqrativ beynəlxalq təşkilatlar (BRİCS, "iyirmilər qrupu", "səkkizlər qrupu", Şanxay Əməkdaşlıq Təşkilatı) istiqamətində çoxtərəfli diplomatiyadan aktiv istifadə etmək (v punktu) və qlobal təhlükə və çağırışlara qarşı beynəlxalq kollektiv müqavimət təşkil etməkdir(q punktu).

Rusiyanın bu seçimləri etməsinin konkret səbəbləri var. Keçən əsrin 90-cı illərindən BMT dünya işlərini həll etməkdə böhran keçirir. ABŞ faktiki olaraq təkbaşına istədiyi qərarları bu qurumdan keçirə bilir. Rusiya ABŞ-ın hegemonluq planlarının qarşısını Nyu-Yorkda – BMT-də kəsmək istəyir. Bunun üçün BMT təkmilləşməli və aktiv surətdə dünya işlərini tənzimləməlidir.

Rusiya paralel olaraq inteqrativ qlobal və regional təşkilatlar daxilində diplomatik fəallığı artırmaqla birqütblülüyün bərpa edilməsinə mane olmağa çalışır. Qlobal geosiyasi mühitdə çoxqütblü dünya modelini konkret reallaşdırmağı nəzərdə tutur. Bu, Rusiyanın daha güclü ABŞ-a qarşı cəbhə yaratmasına imkan verərdi.

Nəhayət, qlobal miqyasda özünü göstərən təhlükələrə qarşı kollektiv müqavimət təşkil etməklə həm də geosiyasi təhlükəsizliyin təmininə əlverişli şərait yaratmaq olar. Bu punktda kütləvi qırğın silahlarının yayılması, beynəlxalq terror və regional münaqişələrin əks olunması təsadüfi deyil (bax: 2, q bəndi).

[1] Указ «О мерах по реализации внешнеполитического курса Российской Федерации». Официальный сайт Президента России, 7 мая 2012. URL: http://kremlin.ru/acts/15256.



Sadalanan diplomatik-siyasi fəaliyyət iki səviyyədə həyata keçirilən tədbirlər vasitəsi ilə konkret nəticə verməlidir. Onların birincisi postsovet məkanı ölkələrinə yönəlmiş siyasətdir. Sənəddə bu siyasətin üç əsas istiqaməti qeyd olunub. Birinci istiqaməti Ukrayna, Belarus, Moldova təşkil edir. Burada mühüm bir məqam qeyd edilməlidir.

Sənəddə Ukraynanın adı çəkilmir. Bir sıra analitik və politoloqlar bunu sənədin çatışmayan tərəfi hesab edir[1]. Lakin əslində, Rusiya ustalıqla Ukrayna faktorundan istifadə edir. Sənəddə Belarusla əlaqələrin bütün istiqamətlərdə şərtsiz inkişaf etdirilməsi zərurəti göstərilir. Moldovaya münasibətdə isə ikibaşlı "bitərəflik" mövqeyi fonunda Dnestryanıya "xüsusi status" verilir. Yəni Ukrayna üç istiqamətdən geosiyasi "mühasirəyə" alınır – Rusiya şərqdən, Belarus cənub-qərbdən və Moldova şimal-qərbdən. Ukrayna Qərb üçün çox əhəmiyyətli ölkə olduğundan onunla bağlı planlar sənədin "yazılmamış hissəsinə" salınıb. İndiki mərhələdə Ukrayna azad ticarət zonası üçün lazımdır. Ondan istifadə edib, Moskva Avropanın strateji dərinliyinə nüfuz edir və onun fonunda vaxt qazanır.

Sənəddə Rusiyanın Qafqaz siyasəti də əksini tapıb. Burada Gürcüstanla bağlı konkret mövqe bildirilir. Abxaziya və Cənubi Osetiya həmin sənəddə "yeni müstəqil dövlət" kimi təqdim edilir və onların müdafiə olunması vacibliyi vurğulanır. Bu, Gürcüstan istiqamətində vəziyyəti müəyyən mərhələyə qədər sabit saxlamaq istəyindən xəbər verir. Gürcüstan Rusiya xofunu daim üzərində hiss etməlidir, lakin Moskva hələlik bu məkanda ABŞ-la toqquşmaya getmək istəmir, çünki gücü çatmır. Həm də Ermənistan və Azərbaycan məsələsi var.

Ermənistan sənəddə Dağlıq Qarabağla bağlı yalnız ümumi fikir bildirilməsindən çox narahatdır. Erməni politoloqlar və onlara yaxın olan analitiklər bundan həyəcanlanırlar. "Rusiya kimi seçir

[1] Модест Колеров. Новая внешняя политика Путина / Информационное агентство «Regnum», 7 мая 2012. URL: http://regnum.ru/news/analitics/1528564.html.

– Ermənistanı, yaxud Azərbaycanı" kimi suallar verirlər[1]. Onların təlaşı əsassız deyil. Rusiya Ermənistanı özünün forpostu hesab edir. Rəsmi İrəvan onun tam nəzarəti altındadır. Bu fikri sənəddə qeyd etməyin mənası yoxdur. Əgər Rusiya üçün Ermənistanın geosiyasi əhəmiyyəti dəyişsəydi, sənəddə qeyd edilərdi. Yəni Ermənistan köhnə rolunda qalmalıdır və o, gözləməlidir. Nəyi? Məsələ Azərbaycanla bağlıdır.

Azərbaycan Cənubi Qafqazın açar ölkəsi kimi Rusiya üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan öz iqtisadi, mədəni və geosiyasi potensialına görə, Rusiyanın regionda əsas tərəfdaşıdır. Yaxın Şərqdən radikal dini təhlükənin aktuallaşdığı bir məqamda Azərbaycana qarşı çox ehtiyatlı olmaq lazımdır. Əsas faktor isə Türkiyədir! Məlumdur ki, Azərbaycan tək deyil, yanında həmişə Türkiyə var. "Anadolu pələngi" Rusiyanın Yaxın və Orta Şərqdə yaxın müttəfiqi ola bilər. Ankaranın bölgədə rolu sürətlə artır. Türkiyə bir çox prinsipial məsələlərdə müstəqil siyasət yeridir.

Rusiya avrasiyaçılıq siyasətində Türkiyəni nəzərə alır. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun tədqiqatçısı Vladimir Avatkov yazır ki, Rusiya bütün Avrasiya məkanını birləşdirən ideyaya üstünlük verməlidir[2].

Türkiyənin Qafqazda maraqları var. O sırada Azərbaycan birinci yerdədir. Deməli, Azərbaycan məsələsi Rusiya üçün indi çox vacibdir. Ancaq Ermənistanı qıcıqlandırmaq da Kremlə sərf etmir – onun ABŞ-ın ağuşuna düşməsindən ehtiyatlanır. Ona görə də Ukrayna məsələsində olduğu kimi Azərbaycan və Ermənistan sənədin yazılmamış hissəsində yer alıb.

Rusiyanın xarici siyasətinin Qafqaz istiqamətində bu cür məzmun kəsb etməsi Azərbaycanın şansını artırır. Bəli, bəzilərinin təxmin etdiyi kimi, Rusiya Azərbaycan üçün qorxu deyil, əksinə,

[1] Алексей Мартынов. Новейшие государства в новой внешнеполитической повестке Владимира Путина / Информационное агентство «Regnum», 8 мая 2012. URL: \http://regnum.ru/news/analitics/1528630.html.

[2] Владимир Аватков. Евразийская идеология Путина и будущее российско-турецких отношений / Информационное агентство «Regnum», 8 мая 2012. URL: http://регнум.рф/news/fd-abroad/turkey/analitics/1528772.html.



yeni səviyyədə əməkdaşlıq imkanıdır. Çünki Putinin çevik alyanslar modelinə Azərbaycan uyğun reaksiya verməklə regionda geosiyasi mövqeyini möhkəmlədə və Rusiya ilə daha etibarlı əməkdaşlığı inkişaf etdirə bilər.

Üçüncü istiqaməti Mərkəzi Asiya təşkil edir. Bu istiqamətdə Rusiyanın Özbəkistanı ilk sırada ziyarət etməsi yuxarıda qeyd etdiyimiz radikal dini qrupların yarada biləcəyi təhlükə ilə bağlıdır. ABŞ Əfqanıstanı tərk etdikdən sonra həmin istiqamətdən radikal dini qruplar Özbəkistan və Rusiyanı təhdid edə bilər. Qazaxıstan isə gömrük ittifaqının üzvü kimi artıq Rusiya ilə inteqrasiyanın ilk mərhələsini keçmişdir.

Rusiyanın xarici siyasətinin prioritetləri arasında Uzaq Şərqə, o cümlədən Çinə böyük önəm verilməsi qismən yuxarıda apardığımız təhlildən aydındır. Bu, sənəddə *ikinci səviyyə əməkdaşlıq dairəsini* təşkil edir. Sənədin z bəndində Çin, Hindistan, Vyetnam, Yaponiya və b. Uzaq Şərq ölkələri ilə strateji əməkdaşlığı inkişaf etdirmək açıq qeyd edilir.

Sənədin üçüncü səviyyə əməkdaşlıq dairəsi ABŞ və Aİ-ni əhatə edir. Bunlarla bağlı ehtiyatlı və məsafəli əlaqələr qurmaq strategiyası mövcuddur. Aİ ilə "ortaq insani və iqtisadi məkan yaradılmasından" danışılır (j bəndi), ABŞ ilə bərabərhüquqlu, bir-birinin daxili işlərinə qarışmamaq, maraqlara qarşılıqlı hörmət prinsipləri əsasında sabit və davamlı münasibətlərin formalaşdırılması qeyd edilir (i bəndi). Görünür, Rusiya ABŞ və Avropa istiqamətində daha çox vaxt qazanmaq taktikasına sadiq qalır.

## Rusiya strateji dərinliyi hədəfə alır

Rusiya xarici siyasətinin prioriteti MDB məkanında inteqrasiyaya nail olmaqdan ibarətdir. Bunun üçün Avropa və Asiya qitələri daxil olmaqla, geniş bir sahədə aktiv diplomatik-siyasi fəaliyyət nəzərdə tutulub. Rusiya həm xarici siyasətin həyata keçirilməsi üsullarında, həm də məzmununda yeniliklər etməklə çoxqütblü dünya modelini bərqərar etməyə çalışır. O, müxtəlif istiqamətlərdən təhlükə gözləyir.

Moskva postosvet məkanında "iqtisadi maraqları uyğunlaşdırmaqla strateji dərinliyə nail olmaq" xəttini seçib[1].

ABŞ-da Rusiyanın bu planına münasibət birmənalı deyil. Bəziləri Amerikanın Rusiyanı başa düşməsini vacib sayır. Vaşinqton Strateji Tədqiqatlar və Beynəlxalq Münasibətlər Mərkəzinin əməkdaşı Endryü Kaçins qeyd edir ki, ABŞ-Rusiya münasibətlərinin ən dinamik dövrü artıq arxadadır. İndi Amerika Cekson-Venik düzəlişini ləğv etməli, Rusiyanın ÜTT-yə üzvlüyünü dəstəkləməlidir və "irəliyə doğru addım atmalıdır"[2].

Rusiyanın xarici siyasətinin prioritetlərində MDB ən vacib geosiyasi məkan kimi qeyd edilir. Bu məkanın özündə də Moskva əhəmiyyətlilik dərəcəsinə görə dövlətlərlə münasibətin strategiyasını həyata keçirir. Sənəddən görünür ki, Ukrayna, Azərbaycan və Özbəkistan üç müxtəlif istiqamətdə Kreml üçün çox əhəmiyyət daşıyır. Özbəkistanı Rusiya artıq öz tərəfinə çəkə bilibsə, Ukrayna və Azərbaycanla bağlı bir qədər gözləmə mövqeyindədir. Çox şey geosiyasi proseslərin bundan sonrakı gedişindən asılı olacaq.

Rusiyanın hazırda ən çox ehtiyat etdiyi faktor "ərəb baharı" dalğası ilə Şərqə tərəf irəliləyən radikal dinçilikdir. ABŞ Rusiyanın ətrafında RMS yaratmaqla Avropa dövlətlərini müdafiə etdiyini göstərir. Paralel olaraq, Rusiyanın daxilində ixtilaflar törətməyə çalışır. Bunu "Rusiyanın geosiyasi sıxışdırılması" (Corc Fridman) adlandırırlar. Rusiyanın xarici siyasətin prioritetləri ilə bağlı qəbul etdiyi sənəddə ABŞ-ın bu siyasətini neytrallaşdırmağa çalışdığı görünür.

Paralel olaraq, rəsmi Moskva Uzaq Şərqdə yeni geosiyasi güc mərkəzi yaratmaqla qlobal mübarizəni şaxələndirib, vaxt qazanmaq istəyir. Onun məqsədi MDB məkanında möhkəm iqtisadi, mədəni, humanitar və geosiyasi birlik yaratmaqla ABŞ-ın təsirini neytrallaşdırmaqdan ibarətdir. Bu aspektdə gözləmək olar ki, MDB ölkələrində rus mədəniyyəti və rus dilinin daha geniş yayılması ilə bağlı yeni addımlar atılacaq.

---

[1] George Friedman. Russia's Strategy // Stratfor, April 24, 2012. URL: http://www.stratfor.com/weekly/russias-strategy.

[2] Юрий Жигалкин, Аллан Давыдов. Президент Путин: взгляд из США / Radio Free Europe, 8 мая2012. URL: http://www.svobodanews.ru/content/article/24573942.html.



Qlobal miqyasda baş verən bu proseslərin sonu necə ola bilər? Dünya yenə iki qütbə bölünəcəkmi? Yaxud çoxqütblü dünya modeli bərqərar olacaq? Birmənalı proqnoz vermək çətindir, lakin Z.Bzejinskinin Böyük şahmat taxtasında dünyanı silkələyə bilən proseslərin getdiyi şübhəsizdir.

**Newtimes.az**
25-26 iyun 2012

### *5.6. Uzaq Şərq – yeni qaynar region*

Qlobal geosiyasət üçün yeni ciddi problem yetişməkdədir. Uzaq Şərqdə ABŞ və Çinin nüfuz uğrunda mübarizəsi daha da gərginləşib. Pekində hesab edirlər ki, Amerika ölkəni dənizdən mühasirəyə alır.

#### Böyük mübarizənin əlamətləri

"Ərəb baharı" dünyanın geosiyasi mənzərəsinə ciddi təsir göstərir. Hazırda Yaxın və Orta Şərq qlobal miqyasda siyasi mühitin ən çox diqqət yetirilən məkanıdır. Lakin bunun Uzaq Şərqdə baş verən geosiyasi prosesləri kölgədə qoyduğunu demək yanlışlıq olardı. Orada dünyanın ən böyük gücləri nüfuz uğrunda mübarizə aparırlar.

ABŞ KİV-i ölkənin hərbi-dəniz donanmasının 80%-ni Sakit okean hövzəsinə topladığı haqqında informasiyalar yayıb. Vaşinqton ən müasir hərbi gəmilərini həmin bölgəyə yeridir. İlk baxışdan bunun üçün elə bir səbəbin olmadığı qənaəti yarana bilər. Çünki hələlik həmin regionda müharibə aparan ölkə yoxdur. Daha geniş miqyasda vəziyyətə nəzər saldıqda isə başqa məqamlar meydana çıxır.

Çinin sürətli inkişaf tempini saxlaması Qərb siyasətçilərini düşündürür. Pekinin bir neçə ildən sonra ABŞ-la qlobal miqyasda rəqabət apara biləcək gücə sahib ölkə olacağı ehtimal olunur.

Bəzi proqnozlara görə, Pekin hətta dünya lideri ola bilər. Bunu Çin rəhbərliyi inkar edir. Onlar özlərini "inkişaf etməkdə olan ölkələr" sırasına aid edirlər. Lakin real rəqəmlər başqa mənzərəni ortaya qoyur.

Qərbdə Vaşinqtonun həmin rəqabətdən qalib çıxması şansının yüksək olmadığı qənaətində olan analitiklər var. ABŞ bu mübarizədə uduzmamaq üçün sistemli həyata keçirilən geosiyasi kurs yürütməyə başlayıb.

Qərbin tanınmış politoloqları da (məsələn, H.Kissincer və Z.Bjezinski) ABŞ-Çin rəqabətinin dünyanın gələcək geosiyasi mənzərəsinin əsas məsələsi olacağı qənaətindədirlər. Bu prosesdə kimin daha şanslı olduğunu birmənalı müəyyənləşdirmək çətindir. Hər hansı təsadüf qüvvələr nisbətini kəskin dəyişə bilər.

Asiya-Sakit okean regionunda gedən geosiyasi və iqtisadi proseslər onların bu proqnozlarının əsaslı olduğuna dəlalət edir. Eyni zamanda, Amerika üçün geosiyasi risk faktorunun yüksəldiyi təəssüratı yaranır.

**Uzaq Şərqin "ada" münaqişələri**

Dünya KİV-ində Uzar Şərqlə bağlı yayılan məlumatlar və analizlərin təhlili göstərir ki, bu məkanda bir neçə münaqişə ocağı yaranmaqdadır. Onları iki qrupa bölmək olar. Birincisi, region ölkələrinin bir-birinə qarşı olan ərazi iddiaları. Onlar, əsasən, adalarla bağlıdır. Maraqlıdır ki, həmin münaqişələrin bir tərəfi həmişə Çin olur.

Çinin Vyetnam, İndoneziya, Filippin və Bruneylə Parasel adaları ilə bağlı problemləri vardır. Parasel üç adadan ibarət arxipelaqdır. O, Cənubi Çin dənizində yerləşir.

Çinin Yaponiya ilə də "ada problemi" meydana çıxıb. Yaponiya Senkaku adalarının (Çin dilində adı Dyaoyuydao) ona məxsus olduğunu bəyan edib və onları satın alıb. Rəsmi Pekin Tokionun bu addımına da sərt reaksiya verib. Çin həmin əraziyə hərbi gəmilər göndərib. Hazırda adalar ətrafında Yaponiya ilə Çin arasındakı gərginlik davam edir.

Bəs bu regional münaqişələrin ABŞ-la nə əlaqəsi var? Çinin "Global Times" və "Jenmin Jibao" qəzetlərinin yazdıqlarına görə, Amerikanın həmin məsələlərə birbaşa aidiyyəti vardır. "Global Times" avqustun 6-da dərc edilən sayında qeyd edirdi ki, "ABŞ başa düşməlidir ki, Cənubi Çin dənizi ilə Aralıq dənizi arasında böyük fərq var". Yəni Amerika Yaxın Şərqlə Uzaq Şərqi səhv salmasın.



"Jenmin Jibao" isə daha kəskin ifadələr işlədib: "Biz ABŞ-ın üstünə qışqıra bilərik: "mumla!"". Çin tərəfdən bu cür reaksiyaların olması əsassız deyil.

Məsələ ondan ibarətdir ki, ABŞ-ın regionun Çinlə rəqabət aparan ölkələrinə əhəmiyyətli hərbi yardımı ilə "ada problemləri"nin alovlanmasında paralellik vardır. Vyetnamın "Kamran" portunda ABŞ hərbi-dəniz donanmasının gəmiləri peyda olublar. Amerikanlar Vyetnam və Filippinlə birgə hərbi təlimlər keçiriblər. ABŞ Filippin ordusunun modernləşməsinə yaxından kömək edəcəyini bildirib. Bütün bunlar bu ilin aprelində adalarla bağlı mübahisələrin qalxdığı vaxta təsadüf edir.

Vaşinqton Çinlə Yaponiya arasında adalarla bağlı yaranmış mübahisədə birmənalı Tokionu müdafiə edir. O cümlədən, ABŞ "Gündoğan ölkə"yə hərbi yardımları artırır.

Beləliklə, "adalar problemi" fonunda ABŞ-ın Çin sərhədi boyunca hərbi təzyiqləri durmadan artır. Çinin su sərhədləri boyunca əlavə hərbi gəmilər yerləşdirilir. Amerika Yaponiya və Cənubi Koreyaya yeni silahlar göndərib. Asiya-Sakit okean hövzəsində hava hücumundan müdafiə sistemləri gücləndirilir. Avstraliyada dəniz piyadalarının yeni bazası yaradılır. Bundan başqa, həmin regionda hava qüvvələrinə məxsus daha bir baza formalaşdırılır.

**Enerji və xammal: yeni zərbə istiqaməti**

İkinci münaqişə ocağı enerji və xammal sahəsində Amerikanın Çinə qarşı həyata keçirdiyi tədbirlərlə bağlıdır. Vaşinqtonun Əfqanıstandakı hərbi kontingenti Çinin ora sərmayə qoymasına ciddi əngəldir. Pekin Əfqanıstan üzərindən Pakistan və İranla da xammal sahəsində əməkdaşlıq üçün lazımi səviyyədə quru yol əlaqəsi yarada bilmir.

ABŞ Mərkəzi Asiyanın neft və qaz ehtiyatlarından Çinin istifadə etməməsi üçün bütün imkanlara əl atır. Bu sahədə regionda münaqişələrin alovlanması təhlükəsi belə artmışdır. Türkmənistan, Qırğızıstan və Özbəkistanın Çinlə enerji sahəsindəki əməkdaşlığı hazırkı səviyyədən xeyli yüksək ola bilərdi.

İndi Vaşinqton Çinin Afrika "yolunu bağlamaq" istiqamətində addımlar atır. Hillari Klintonun bu ilin avqustunda "qara qitə"yə

səfəri zamanı Çin məsələsi ciddi müzakirə olunub. Afrika ölkələri ilə Çinin ticarət dövriyyəsi 2011-ci ildə 166 milyard dollar təşkil etmişdi. Amerika bunun əvəzində həmin ölkələrə kreditlər və hərbi yardım təklif edib.

Amerika bunlara paralel olaraq ASEAN ölkələrinə də təzyiqlər edir. Çinin bu ölkələrlə ticarət dövriyyəsinin həcmi 2011-ci ildə 363 milyard dollar təşkil etmişdi. Artıq ASEAN-a üzv olan bir sıra ölkələr ABŞ-Çin qarşıdurmasında Vaşinqtonu seçib. Çinin regionda ən böyük rəqiblərindən olan Hindistanın da Amerika ilə əməkdaşlığa üstünlük verməsi Pekini narahat edir. Analitiklər bu tendensiyanın güclənəcəyini proqnozlaşdırırlar.

**Çinin "qürurlu tənhalığı" və yeni reallıqlar**

Bütün bunlardan çinli analitiklər heç də nikbin nəticə çıxarmırlar. ÇXR-in Hərbi-dəniz tədqiqatları İnstitutunun analitiki Li Szenin gəldiyi nəticəyə görə, Amerika Çin üçün həyati əhəmiyyəti olan dəniz yollarını bağlaya bilər. Buna görədir ki, ABŞ ölkəni dənizdən mühasirəyə alır.

Çinin qurudan da sədaqətli müttəfiqi yox dərəcəsindədir. 2 min illik tarixdə Pekinin qonşularının hansı münasibəti göstərdiyini təsdiqləyən kifayət qədər faktlar vardır. "Böyük Çin səddi"nin XXI əsr texniki imkanları qarşısında etibarlı manеə olacağını düşünmək isə sadəlövhlükdür. Çin rəhbərliyi ABŞ-la mübarizənin gərginliyini getdikcə daha çox hiss edir.

Uzaq Şərqdə geosiyasi vəziyyətin bu cür inkişaf etməsi bütövlükdə dünya üçün ciddi təhlükələr törədir. Burada Rusiya faktorunu da mütləq nəzərə almaq lazımdır. Moskvanın son zamanlar Uzaq Şərq istiqamətində xeyli fəallaşdığını gözardı etmək olmaz. Şübhə yoxdur ki, Rusiya özünün lazım bildiyi məqamda ABŞ-Çin mübarizəsinə təsir edəcək.

Sakit okean hövzəsində suların isinməsi Mərkəzi Asiyada da "geosiyasi hərarəti yüksəldə" bilər. Artıq həmin regionda hadisələr daha təhlükəli müstəviyə keçməkdədir. Region dövlətləri arasında mübahisələrin olması diqqətdən yayınmır.

Bəzi ölkələrdə, məsələn, Özbəkistan, Tacikistan və Qırğızıstanda daxili sosial-siyasi gərginlik artır. Fərqanədə (Özbəkistan) etirazlar yüksəlir, Pamirdə (Tacikistan) hökumət təmsilçilərinə qarşı təxribatlar artır, Oşda (Qırğızıstan) etnik zəmində narazılıqlar yenə də özünü göstərir.



Bununla da ABŞ-Çin qarşıdurması böyük bir geosiyasi regionda gərginliyin yüksəlməsinə səbəb olur. Bu tendensiyanın azalacağına təminat yoxdur. Ona görə də analitiklər dünyanın geosiyasi səhnəsində növbəti qlobal miqyaslı qarşıdurmanın baş verəcəyini istisna etmirlər.

**Newtimes.az**
2 oktyabr 2012

### *5.7. Asiya-Sakit okean regionu: inteqrasiyanın perspektivləri*

**Qlobal geoiqtisadiyyatın mühüm oyunçusu**

Asiya-Sakit okean regionu qlobal geosiyasi müstəvidə böyük güc mərkəzlərinin maraqlarının toqquşduğu məkanlardan biridir. Məhz bu region okeanın hər iki tərəfindəki dövlətlər üçün platsdarm rolunu oynayır. Keçən minilliyin sonlarından başlayaraq region ölkələrinin qruplaşması və inteqrasiya prosesləri intensivləşmişdir.

Asiya-Sakit okean İqtisadi Əməkdaşlıq Forumu (ASİƏF) 1989-cu ildə Avstraliya və Yeni Zelandiya baş nazirlərinin təşəbbüsü ilə Kanberrada yaranıb. Bu təşkilat iqtisadi məsələləri müzakirə etmək üçün beynəlxalq forum, məşvərət orqanıdır. Əsas məqsədi regionda azad ticarəti inkişaf etdirmək və liberal sərmayə qoyuluşu mühitini formalaşdırmaqdan ibarətdir. ASİƏF bu şərtlər daxilində Asiya-Sakit okean məkanında inteqrasiyanı sürətləndirməyə böyük əhəmiyyət verir. Onun sərt təşkilati strukturu yoxdur. Katibliyi Sinqapurda yerləşir.

ASİƏF-ə üzv olan ölkələrin dünya iqtisadiyyatı və siyasətində oynadıqları rol onun əhəmiyyətini təsdiqləyir. Həmin təşkilatda ABŞ, Rusiya və Çin kimi müasir geosiyasətdə və iqtisadiyyatda mühüm yeri olan böyük dövlətlər vardır. Bu dövlətlər arasında dünya geosiyasətində liderlik uğrunda gedən mübarizə dinamikasının qlobal miqyasda qüvvələr nisbətinə ciddi təsir etdiyini hər kəs qəbul edir.

Bu baxımdan, ASİƏF həmin böyük dövlətlərin iqtisadi əməkdaşlıqla geosiyasi maraqları uyğunlaşdırmağın perspektivli modeli təsiri

bağışlayır. Bu rolu oynaya biləcək başqa beynəlxalq qurum hələlik mövcud deyildir.

Ümumilikdə, Asiya-Sakit okean regionunun 21 ölkəsi bu qurumun üzvüdür. Dünyada ümumi daxili məhsulun 57 faizi, beynəlxalq ticarət dövriyyəsinin 46 faizi, birbaşa investisiyaların həcminin 40 faizdən çoxu ASİƏF ölkələrinin payına düşür.

Təşkilatın yüksək iqtisadi və demoqrafik potensiala malik olması təbii ki, ciddi üstünlükdür. Ona görə də onun dünya iqtisadiyyatı və siyasətində, qlobal təhlükəsizlik sisteminin formalaşmasında oynaya biləcəyi rolun təhlili diqqət mərkəzindədir.

Rusiyanın Uzaq Şərq şəhəri olan Vladivostokda 2012-ci il 2-9 sentyabr tarixində ASİƏF ölkələrinin növbəti zirvə görüşü yeni mərhələnin başlanğıcı oldu. Bu cür görüşlər hər il keçirilir. Vladivostok sammitinə dünya siyasi dairələri böyük diqqət yetirdi. Bu da səbəbsiz deyildi. Qurumun qarşısına qoyduğu məqsədlər və hazırda dünya geosiyasətində müşahidə edilən tendensiyalar Vladivostok görüşünü daha da aktuallaşdırdı.

Tədbirdə Rusiya prezidenti Vladimir Putin Asiya-Sakit okean məkanında inteqrasiya proseslərini genişləndirməklə bağlı fikirlərini ifadə edib. O, iqtisadi əməkdaşlıqla yanaşı, geosiyasi inteqrasiya prosesini də dərinləşdirməyi nəzərdə tutan model təklif edib. Hazırda Moskvanın Asiya-Sakit okean məkanında inteqrasiya modelini ekspertlər təhlil edirlər. V.Putinin fikirlərində Rusiyanın MDB-də, Gömrük İttifaqı çərçivəsində inteqrasiyanı Asiya-Sakit okean regionuna qədər genişləndirməklə bağlı addımlar əks olunub.

**Rusiyanın üçsəviyyəli geosiyasi inteqrasiya planı**

Moskvanın yeni planında Asiya-Sakit okean regionunda (ASR) inteqrasiya prosesi üç pillədən ibarətdir. Bunlar Gömrük İttifaqı çərçivəsində inteqrasiyanı genişləndirmək əsasında MDB məkanında geosiyasi birliyə nail olmaq və həmin modeli bütövlükdə ASR-ə yaymaqdan ibarətdir.

Rusiyanın Gömrük İttifaqı modelini, ümumiyyətlə, MDB məkanında inteqrasiya prosesinin mərkəzinə qoyması təsadüfi deyil.



Bu, bütövlükdə, Moskvanın ASR-də iqtisadi inteqrasiyanı baza kimi qəbul etməsi ilə bağlıdır. Bunun isə səbəbi Rusiyanın iqtisadi əməkdaşlığın genişləndirilməsi faktorundan geosiyasi dividendlər əldə etmək məqsədi ilə bağlıdır. Yəni artıq Moskva heç bir ölkəni özünə yük etmək istəmir. O, sağlam iqtisadi mühitdə bərabər hüquqlu dövlətlərin siyasi və geosiyasi lideri olmağa çalışır.

Rusiyanın bu funksiyanı yerinə yetirməyə imkanı vardırmı? Mütəxəssislər bu suala cavabda birmənalı mövqe nümayiş etdirmirlər. Hələlik Moskvanın iqtisadi vəziyyəti bu suala müsbət cavab verməyə nikbin əsas vermir. Lakin bir neçə ildən sonra vəziyyətin necə olacağı barədə də təkzibedilməz proqnoz yoxdur. Burada Rusiya ilə bağlı müxtəlif təkamül ssenariləri yer alır. Onların sırasında bu ölkənin intensiv inkişaf edəcəyini təsdiqləyən variant da vardır.

Hər bir halda prezident Vladimir Putin inteqrasiya planını açıq ifadə etdi. ABŞ və Çin də Moskvanın MDB məkanında nüfuzunu heç kəslə bölüşmək istəmədiyini eşitdilər. Müşahidəçilər V.Putinin bu addımının təsadüf olmadığı qənaətindədirlər.

Əksər ekspertlər hesab edirlər ki, Rusiyanın strateji məqsədi özünün dünyada geosiyasi mövqeyini möhkəmlətməkdən ibarətdir. Corc Meyson universitetinin professoru Mark Kats Putinin praqmatik siyasət yürütdüyü qənaətindədir. Professor Rusiya prezidentinin inteqrasiya planının əsaslı olduğuna inanır.

Boston universitetindən tarixçi və siyasətşünas İrina Pavlovnaya görə, Rusiya həmin regionda qlobal oyunçu olmaq iddiasını ortaya qoyub. Moskva buna Avrasiya İttifaqının lideri kimi nail olmaq niyyətindədir. Əsas məqsəd isə ABŞ-ın dünyadakı geosiyasi rolunu zəiflətməkdən ibarətdir.

Beləliklə, Rusiyanın üçpilləli inteqrasiya planının arxasında ciddi geosiyasi məqsədlərin durduğuna bir əminlik var. Ona görə də ASİƏF-in Vladivostok sammitinə yalnız iqtisadi perspektiv prizmasında nəzər yetirilmir. O cümlədən, quruma daxil olan böyük dövlətlərin Moskvanın bu planlarına münasibəti ciddi maraq doğurur.

### Vaşinqton və Pekinin sükutu

Çin və ABŞ Rusiyanın irəli sürdüyü ideyalara diqqətlə yanaşırlar. Eyni zamanda, öz planlarını reallaşdırmaq üçün addımlar atırlar. Çin ASİƏF-də yuanın mövqeyini möhkəmlətməyə çalışır. Hələlik Çin valyutası ilə ASİƏF məkanında yapon pul vahidi (yen) rəqabət apara bilir.

Stenford universitetinin professoru Maksim Braterski rublun yaxın perspektivdə yuan və yenə rəqib ola biləcəyini real hesab etmir. Onun fikrincə, V.Putin bunu başa düşür və "müxtəlif valyuta ehtiyatı yaratmaq" formulunu irəli sürür.

M.Braterski bu qənaətini Rusiyanın Uzaq Şərq və Sibirdə kifayət qədər güclü iqtisadi infrasturktura malik olmaması ilə izah edir. Ona görə də o, 10-15 ilə rublun yuan və yen qarşısında dəyər qazanacağına inanmır. Eyni zamanda, professor "Amerikanın səsi" radiosuna verdiyi müsahibədə Rusiyanın MDB məkanında inteqrasiya planlarının elə də real əsasa dayanmadığını vurğulayıb. Hələlik bu inteqrasiyanın konkret iqtisadi nəticələri gözə dəymir.

Bu fikirlərdən Vaşinqton və Pekinin özünü təmkinli aparmasının səbəbləri aydın olur. Həmçinin Çin real təkliflər irəli sürür. Məsələn, ASİƏF-in son toplantısında Pekin öz iqtisadiyyatına 150 milyard ABŞ dolları həcmində sərmayə qoyacağını bəyan edib.

Bu prosesin Çin iqtisadiyyatına ciddi təkan verəcəyini düşünürlər. Hətta Rusiya Çinin sərmayə imkanlarından istifadə etmək niyyətini gizlətməyib. Bu isə yenə də yuanın mövqeyini möhkəmləndirəcək.

Təbii ki, Yaponiya Rusiya və Çinin planlarına qarşı öz mövqeyini ortaya qoyacaq. Güclü yapon iqtisadiyyatı ASİƏF-ə təsirini artırmağa çalışır. Bu prosesdə Tokioya tərəfdaşı Vaşinqton da yardım edir. İndi Yaponiya və Çin Rusiyanın Uzaq Şərq bölgəsinə nüfuz etmək uğrunda gizli rəqabət aparırlar.

Nəhayət, hələ də dünyanın ən böyük iqtisadi gücü sayılan ABŞ Rusiyanın ASİƏF-lə bağlı planlarını qəbul etmir. Amerika iqtisadi və geosiyasi vasitələrdən istifadə edərək həmin qurumda liderlik mövqeyini saxlamağa çalışır. Onun bu sahədə çox geniş imkanlara malik olduğuna şübhə yoxdur. Yaxın gələcəkdə ASİƏF daxilində rəqabətin daha da güclənəcəyini proqnozlaşdırmaq olar.

**Newtimes.az**
28 sentyabr 2012



### *5.8. Ərəb inqilabları və ya iqtisadi böhrandan qurtuluş mexanizmi*

Bu gün beynəlxalq münasibətlər sistemində ən çox müzakirə edilən məsələlərdən biri də Ərəb dünyasında baş verən inqilablardır. Bu inqilabların yaranma səbəbləri və həyata keçirilməsinə dair səsləndirilən mövqelər həmin ölkələrdə yaşayan əhalinin demokratiya arzuları və bəzi xarici qüvvələrin maraqları arasında geniş yelpazəni əhatə edir. Məni isə düşündürən başqa bir məsələdir ki, ümumiyyətlə o haqda demək olar ki, heç bir yerdə bəhs edilmir: devrilən liderlərin Qərb banklarındakı pullarının taleyi.

Beynəlxalq təcrübə göstərir ki, böyük dövlətlər öz iqtisadiyyatlarını gücləndirmək üçün hər zaman zəif dövlətlərin imkanlarından geniş şəkildə istifadə ediblər. Mahiyyət eyni olsa da, dəyişən yalnız metodologiya olub.

Bildiyimiz kimi, İkinci dünya müharibəsinə qədər, Avropa ölkələri kontinentdən kənarda, xüsusilə də Afrika və Asiyada müstəmləkələrə malik idi və öz iqtisadiyyatlarını həmin ölkələrin təbii resursları üzərində inşa etmişdilər. Keçən əsrin 60-cı illərində müstəmləkəçilik ləğv olunsa da, onların əvəzinə yeni dövlətlər yaransa da, imperiya dövlətləri həmin dövlətləri öz nəzarətlərində saxlamaq məqsədilə müəyyən əməkdaşlıq çərçivələri (Birləşmiş Krallığın başçılığı ilə Millətlər Birliyi (54 ölkə), Fransanın rəhbərliyi ilə Frankofoniya Beynəlxalq Təşkilatı (56 ölkə), İspaniyanın lider olduğu İbero-Amerikan Dövlətləri Təşkilatı, Portuqaliyanın himayəsində Portuqal Dilli Ölkələri Birliyi (9 ölkə) ) yaratdılar. Bu siyahıya müəyyən mənada SSRİ-nin rəhbərlik etdiyi sosialist blokunu da əlavə etmək olar.

Müstəqil görünmələrinə baxmayaraq, yenə də o dövlətlər əvvəlki mərkəzdən və mərkəzin "təyin etdiyi" rəhbərlər tərəfindən idarə olunurdu. Ümumiyyətlə soyuq müharibə belə davam edirdi və hər iki blokun lider dövlətləri öz "satellit" dövlətlərini bu şəkildə öz nəzarəti altında saxlayırdı.

Sosialist blokunun çöküşü yeni dünya nizamı yaratdığı kimi, qalib blok uçun həm də yeni bazar yaratmışdı. Müstəqilliyini yenicə qazanmış bu ölkələrdə demək olar ki, heç nə mövcud deyildi. İsteh-

salat yox vəziyyətində idi. Bu da Qərb üçün yeni fürsətlər verirdi: adi corabdan tutmuş ağır sənaye mallarına, köhnəlmiş hərbi texnikadan tutmuş istifadə müddəti bitmiş minik maşınlarına qədər bütün mallarını həmin ölkələrə ixrac etmək və onların sahib olduğu təbii sərvətlərdən istifadə etmək imkanı.

Bu ölkələrdə isə yetərli maliyyə resursları olmadığı üçün uzun müddətli kredit yardımı mexanizmi tətbiq olunurdu: həmin ölkələrə faizlə kredit verilir, o ölkələr isə həmin kreditlə krediti verən dövlət və qurumların şərtlərinə uyğun olaraq göstərilən yerdən göstərilən malı göstərilən qiymətə almaq məcburiyyətində qalırdılar. Beləliklə, bu proses son 20 ildə Qərbin rəqabətsiz sürətli iqtisadi inkişafına şərait yaratdı.

Lakin bunun da məhdudiyyəti vardı. Müəyyən müddətdən sonra artıq bazar doymuş hala gəlirdi. İxracat davam etsə də, əvvəlki qədər ehtiyac duyulmurdu, bu da Qərbə o qədər də pul qazandırmırdı. Bir də ki, bu dövrdə Qərbdə maliyyə böhranı yaşanırdı və bu böhrandan çıxmaq üçün kifayət qədər maliyyə vəsaitinə ehtiyac vardı. Ona görə də, daha yüksək məbləğdə pul qazanmaq üçün yeni mexanizmlər düşünmək, yeni bazarlara girmək lazım gəlirdi. Bunun da ən rahat yolu ərəb dünyası idi.

Ərəb dünyasında onilliklər boyu elə Qərb ölkələrinin təyinatı əsasında ölkəyə liderlik edən rəhbərlər bu müddət ərzində öz xalqının sərvətlərini talamış, mənimsəmiş, bir hissəsini öz qərb himayədarları ilə bölüşmüş, onların seçki kampaniyalarını maliyyələşdirmiş, qalan hissəsini isə elə qərb ölkələrindəki banklarda saxlamışdılar. Qərbə də elə bu lazım idi.

Təbii ki, bu pulların qərb banklarında qalması həmin dövlətlərə yetərli mənfəət verirdi: banklar bu pulları dövriyyəyə buraxaraq zənginləşdikcə zənginləşirdi, onların hesabına geniş miqyaslı investisiyalar qoyur, başqasının pulu ilə gəlirini artırırdı. Lakin uzun vədədə bu o qədər də təminatlı məsələ deyildi, çünki pulun əsl sahibləri onu istənilən vaxt geri çəkə bilərdi. Bunun da qarşısını almağın ən rahat yolu inqilab, dövlət çevrilişi idi.

Devrilən liderlər onsuz da etdikləri zülmün cəzasını çəkməli idilər. Çəkdilər də: Səddam Hüseyn edam edildi, Ben Ali başqa bir



ölkəyə qaçdı, Qəddafi bir qrup insan tərəfindən küçədə döyülərək öldürüldü, Hüsn Mübarək iflic olaraq xəstəxanaya yerləşdirildi. Onların milyardlarla pulu isə əbədi olaraq banklarda qaldı: nə o pul əsl sahibi olan xalqa, nə də rəsmi varislərə qaytarılacaq.

Bu mexanizm heç də Ərəb ölkələri üçün icad edilmiş bir mexanizm deyil. Daha əvvəllər də mövcud olmuş və geniş şəkildə tətbiq edilmişdir. Tarixə nəzər salarsaq, aydın şəkildə görə bilərik ki, Rusiyada, eləcə də digər sovet respublikalarında yaşamış zəngin oliqarxların, elə çar Nikolayın özünün də pulu Oktyabr çevrilişindən sonra bu şəkildə batmışdır. İran şahı Rza Pəhləvinin, bəzi Əfqanıstan və Pakistan liderlərinin də aqibəti eyni olmuşdur. Batan bu pulların hamısı hesablanarsa, Qərbin nədən bu qədər zəngin olduğu daha aydın anlaşılar.

Təbii ki, bu liderlərin devrilməsi Qərbə təkcə onların banklarda batan pulları ilə mənfəət qazandırmır. Sonra həmin ölkələrdə mövcud olan təbii sərvətlər: İraqda neft, Liviyada neft və təbii qaz, Misirdə yeni bazara, Əfqanıstanda isə narkotik ticarətinə nəzarət, o cümlədən bu kimi pul ilə hesablanmayan digər resurslar, eləcə də regiona geosiyasi nəzarət Qərbə daha güclü dividentlər qazandırmaqda davam edir.

**Dr. Turab Qurbanov**
30 may 2012

### *5.9. Yeni dünya nizamının təsiri – Ərəb oyanışı*

Son yüz ildə planetin geosiyasi durumu əvvəl ikiqütblü, sonra isə təkqütblü olması ilə səciyyələnmiş və baş verən bütün proseslər bu qütblərin birbaşa müdaxiləsi ilə formalaşmışdır. Əgər ikiqütblü model dünya müharibələrinə və sonralar soyuq müharibəyə səbəb olmuşdusa, Varşava Müqaviləsi Paktının dağılmasından sonra yaranmış təkqütblü model planetimizin müxtəlif yerlərində münaqişə ocaqlarının yaranmasına, radikallığa və bunun təsiri altında terrorizmin güclənməsinə səbəb olmuşdur.

Lakin artıq geosiyasətdə yeni trendlər müşahidə olunur. Avropa İttifaqının Qərb bloku daxilində fərqlənməsi, eləcə də BRİC

ölkələrinin (Braziliya, Rusiya, Hindistan, Çin) hələlik iqtisadi də olsa yeni güc mərkəzinə çevrilməsi yaxın gələcəkdə təkqütblü dünya nizamının problemlərlə üzləşəcəyindən xəbər verir.

Yeni dünya nizamının formalaşmasının müxtəlif təlatümlərlə müşahidə olunacağı şübhəsizdir. Eyni zamanda yeni sistemin yaranması iqtisadi böhran və tərəddüdlərin də təkanverici qüvvəsidir. Bütün bu nüansları nəzərə alaraq Avropa İttifaqının və Avro-Atlantik blokun mövcud sistemdə üstün mövqelərini qorumaq və daha da gücləndirmək üçün səylərini artırması labüd görünür.

Bir sıra mütəxəssislər belə hesab edirlər ki, "ərəb oyanışı" adlı hərəkatın həqiqi səbəbləri Qərb ölkələrinin yeni bazarlara daxil olmaq planları ilə bağlıdır.

Digər tərəfdən, hazırda qlobal maliyyə böhranının ən güclü təsiri Avropa iqtisadiyyatında hiss edilir. Avropa İttifaqına üzv ölkələrdən 25-nin liderləri (Birləşmiş Krallıq və Çex Respublikası istisna olmaqla) avrozonada maliyyə böhranının qarşısını almaq üçün 2012-ci ilin 2 mart tarixində yeni maliyyə sazişi imzaladılar. Bu saziş büdcə kəsiri səbəbindən müflisləşmə ilə üzləşən ölkələrin sanksiyalara məruz qalmasını nəzərdə tutur. Lakin yalnız büdcə xərclərinə nəzarəti artırmaqla böhrandan çıxmaq olduqca çətin görünür. Avropa İttifaqının geosiyasi maraqlarının onun iqtisadi vəziyyətini bir neçə dəfə üstələməsi böhranın ayrı-ayrı ölkələrə daha ciddi təsir göstərməsinə səbəb olur və yeni çıxış yollarının axtarılmasına zərurət yaradır.

Bir sıra mütəxəssislər belə hesab edirlər ki, "ərəb oyanışı" adlı hərəkatın həqiqi səbəbləri Qərb ölkələrinin yeni bazarlara daxil olmaq planları ilə bağlıdır. Belə ki, Varşava Müqaviləsi Paktı dağıldıqdan sonra Avropa İttifaqı öz geosiyasi maraqlarında, eləcə də iqtisadi maraqlarında Şərqə doğru genişlənmək tendensiyası götürmüşdü.

Bu siyasətin nəticəsidir ki, Avropa İttifaqı Şərqə doğru genişlənərək keçmiş sosialist bloku ölkələrini ittifaqa daxil etdi və hazırda 27 dövləti əhatə edir. Bundan sonrakı ərazilər isə həm bufer olaraq inteqrasiya proseslərinə qoşulur, həm də müxtəlif liberallaşma, üstün iqtisadi potensial və digər metodlar hesabına Aİ üçün yeni bazar rolunu oynayır. Aİ-nın maliyyə institutları, dövlət və özəl şirkətləri tərəfindən bu ölkələrə investisiya qoyuluşları, hətta əvəzsiz maliyyə



yardımları, qrantlar, texniki yardımlar özü-özlüyündə yeni bazarın tam potensialına hesablanmışdı.

Yəni, bütün bu maliyyə resursları dövri hərəkət edərək nəticədə ilkin mənbəyə qayıdır, Qərb ölkələrinə gəlir gətirirdi. Qoyulan investisiyalar yüksək texnologiyaların, daha sonra isə ərzaq məhsullarından tutmuş maşın və avadanlıqların satışı da daxil olmaqla demək olar ki, əksər məhsulların ixracı hesabına yenidən maliyyə transferlərinin Qərbə istiqamətlənməsinə səbəb olur. Əvəzsiz yardımlar belə donor ölkələrin siyasi və iqtisadi maraqlarına xidmət edir.

Lakin yeni müstəqil dövlətlərin iqtisadi potensialı artıq Avropanın genişlənən geosiyasi tələblərinin ödənilməsinə kifayət etmir. Digər tərəfdən Avropanın Şərq qonşularının iqtisadi cəhətdən güclənməsi onların bir çox məhsulları özlərinin istehsal etməsi və hətta bəzi kateqoriya məhsulları Avropaya ixrac etməsinə gətirib çıxarmışdır. Bu dövlətlər artıq Avropa bazarlarına daxil olmağa çalışır, rəqabət yaradır, Avropaya investisiya qoyaraq bundan faydalanmağa başlayırlar. Belə bir şəraitdə yeni gəlir mənbəyinin istiqaməti Cənuba doğru dəyişir və müvafiq olaraq Aİ-nin xarici siyasətinin prioriteti də Şərqdən Cənuba yönəlir. Bunu 5 mart 2012-ci ildə "Vışeqrad qrupu", "Şərq Tərdaşlığı" və Avropa İttifaqı ölkələrinin görüşündə Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Ketrin Eştonun aşağıdakı sözləri də təsdiq edir: "Şərq Tərəfdaşlığı ölkələri ilə əməkdaşlıq Aİ-nin xarici siyasətinin prioritet istiqamətlərindən biri olaraq qalır, baxmayaraq ki, Avropa diplomatiyasının səyləri artıq Cənub qonşuları regionuna yönəlib".

Aİ-nin xarici siyasətdə prioritet istiqamətini dəyişməsində xüsusi bir məqam müşahidə olunur. Maraqlıdır ki, Varşava Müqaviləsi Paktının dağılmasından sonra formalaşan dünya nizamı yeni tələblərlə çıxış etdiyi dövrdə Avropa öz xarici siyasətində həmin dövrədək prioritet olan Afrika-Karib-Sakit okean regionunu (ACP) ikinci plana düşürmüş, Şərq istiqamətini isə prioritet etmişdi.

Avropanın xarici siyasətində 1957-ci ildən prioritet olan ACP regionu Avropanın keçmiş müstəmləkə ölkələri ilə xüsusi münasibətlərini tənzimləmək və bu ölkələrdən xammal asılılığını kompensasiya etmək üçün eyni siyasəti həyata keçirirdi. 1957-ci ildə

Avropa İqtisadi Birliyinin altı üzv dövləti ilə 18 keçmiş müstəmləkə dövlətləri arasında əməkdaşlığı əhatə edən bu proqram hazırda Aİ-nin Afrika-Karib-Sakit okean regionunun 78 ölkəsi ilə münasibətlərini əhatə edir. Bu qrupa Afrikanın Şimal hissəsi, yəni ərəb ölkələri istisna olmaqla kontinentin bütün digər ölkələri daxil idi. Yalnız 1990-cı illərdəki məlum dəyişikliklərdən sonra bu region Aİ-nin xarici siyasətində öz əvvəlki əhəmiyyətini itirdi.

Maraqlıdır ki, Aİ-nin həmin dövrədək xüsusi münasibətdə olduğu ölkələrlə siyasətində əsas istiqamət ticarətin liberallaşması, özəl sektorun təşviqi, qeyri-dövlət aktorlarının cəmiyyətdə və iqtisadiyyatda rolunun artması, vətəndaş cəmiyyəti üstünlük təşkil etdiyi halda, sonrakı mərhələdə həm Şərq, həm də Cənub qonşuları ilə münasibətlərdə demokratikləşmə tələbi ilkin şərtə çevrilmişdir.

Nəhayət III minilliyin ikinci onilliyində – dünya ərəb oyanışı ilə silkələnir. Demokratikləşmə, söz və fikir azadlığı tələbləri səslənir. Hədəf Şimali Afrikanın və Yaxın Şərqin ərəb ölkələridir. Hər şey sadə görünə bilər. Yalnız Qərbin bu proseslərdə əsas aktor olması proseslərə bir qədər dərindən baxmağı tələb edir.

Avroatlantik məkanı bürüyən böhranın dərinləşməsi və qlobal üfüqdə yeni güc mərkəzlərinin parlaması Qərb ölkələrini iki çağırış qarşısında qoyur: yeni xammal və ticarət bazarlarının tapılması iqtisadi böhran üçün çarə ola bilər. Dünyanın geopolyarlaşmasının tələblərinə cavab vermək üçün nüfuz dairəsinin genişləndirilməsi yeni təhlükəsizlik və təsir zonasının yaradılmasına xidmət edə bilər.

Aİ-nin son 50 ildə "xüsusi" münasibətlərdə olduğu yuxarıda qeyd etdiyimiz regionları xəritə üzrə canlandırsaq Ərəb dünyasının "köhnə-yeni" bazar olduğu açıq-aydın görünür. Eyni zamanda son illər bəzi ərəb dövlətlərinin dünya ağalığı ilə hesablaşmadığını nəzərə alsaq regionun niyə hədəf seçilməsi aydınlaşır. Regionun zəngin təbii ehtiyatları, eləcə də geostrateji mövqeyi onun qarşıya çıxan hər iki çağırış üçün əhəmiyyətini göstərir. Bu iki faktordan başqa niyə məhz ərəb dünyası sualına belə bir əlavə etmək olar ki, son illər islam ölkələrinin və ümumilikdə müsəlman cəmiyyətinin radikallıqda ittiham olunması hazırda bu regionda aşılanmağa çalışılan



tənzimlənən demokratik islahatların istənilən effekti verməyəcəyi halda ssenarinin dəyişdirilməsi planı ola bilər.

Yəni, bir sıra ərəb ölkələrində baş verən hakimiyyət dəyişiklikləri Qərbin istəmədiyi qüvvələrin (müsəlman qardaşları kimi dini qruplaşmaların) güclənməsinə səbəb olacağı halda (bunun da bəzi işartıları artıq görünür) ikinci bir müdaxilə olacağı ehtimalı hər zaman gündəlikdədir. Belə ehtimal etmək olar ki, proseslərin axarında indiki tendensiyalar yalnız birinci mərhələdir. Ümumiyyətlə «ərəb oyanışı»nın Yaxın Şərqə və Şimali Afrikaya tərəqqi və rifah gətirəcəyini hələlik heç kim iddia edə bilməz.

Digər tərəfdən ərəb dünyasına daxildən baxdıqda çox da dinamik olmayan bu cəmiyyətdə son bir neçə yüz ildə təxminən 50 ildən bir geosiyasi mühitə təsir edəcək tsiklik proseslərin baş verdiyini görürük. XIX əsrin əvvəllərindən bəri aşağıdakı hadisələri sadalamaq olar: 1850-ci illərdən Əlcəzairdə fransız müstəmləkəçilərinə qarşı hərəkat, XX əsrin əvvəllərində Osmanlı imperiyasını dağılması dövründə panərəbizm, 1948-ci ildə Ərəb-İsrail müharibəsi bütünlükdə Ərəb dünyasının həyatına böyük təsir göstərmişdir. Ola bilsin ki, 50 illik tsiklik periodun yaxınlaşması müəyyən proseslərə təkan verə bilərdi. Lakin hazırda xarici müdaxilənin birbaşa təsiri ilə yaranan ərəb oyanışından fərqli olaraq bütün digər hadisələr zamanı proseslər ərəblərin xarici müdaxiləçilərə qarşı mübarizəsini əks etdirir. «Ərəb baharı» kimi səciyyələndirilən olayların başlanmasında və dinamikasında güc mərkəzlərinin müdaxiləsi isə proseslərin ərəb sosiumunun daxili tələbatı olmadığı qənaətinə gəlməyə əsas verir.

Görünən odur ki, Qərb ölkələri dünyada gedən siyasi, iqtisadi, hətta müxtəlif tarixi epoxalarda ekoloji proseslərin kataklizm mərhələlərində hər zaman öz inkişaf istiqamətlərinin oriyentirlərini dəyişmiş və buna uyğun yeni dünya nizamı formalaşmışdır.

Hazırda Avropada iqtisadi böhranın qarşısının alına bilinməməsi öz növbəsində ərəb oyanışına rəvac vermişdir. Əsas tələb isə demokratikləşmədir. Ancaq demokratiya üstün dəyər kimi bu gün daha çox siyasi spekulyasiya vasitəsinə, hətta qlobal güc mərkəzlərinin imperiya maraqlarının reallaşdırılmasına xidmət edən alətə çevrilib.

«Demokratiya» mərkəzlərindən ixrac edilən bu cür sosial sifarişlər isə heç də həqiqi demokratiya istəyən xalqların inkişaf səviyyəsi, milli maraqları, adət-ənənələri, dini dünyagörüşü ilə harmoniya təşkil etmir. Dünyada baş verən kataklizmlərin hər zaman süni müdaxiləyə səbəb olduğunu isə tarix artıq dəfələrlə təcrübədə görmüşdür. Qərb hər zaman böhran zamanı öz nicatını xaricdə axtarır. Ərəb oyanışının səbəblərini də məhz bu amillə əlaqələndirmək doğru olar.

**Newtimes.az**
20 aprel 2012

### *5.10. Böyük dövlətlərin Yaxın Şərq qambiti: Suriyaya üç aspektdən baxış*

**Suriya müxalifəti: daxili ziddiyyətlərin palitrası**

Yaxın Şərqdə silahlar susmur. Hərbi toqquşmaların xəritəsi regionun bir neçə ölkəsinin ərazisini əhatə edir. Türkiyə, İraq, Suriya, Livan, Misir, Fələstin, Liviya, İsrail... Ancaq bölgənin ən "qaynar nöqtəsi" hələ də Suriyadır. Son günlər bu ölkədə baş verənlər və onlara böyük dövlətlərin münasibəti, vəziyyətin daha da dramatikləşdiyini göstərir.

İndi döyüşlər demək olar ki, Suriyanın bütün ərazisini əhatə edir. Paytaxt Dəməşqdəki vəziyyətlə bağlı ziddiyyətli informasiyalar yayılır. Artıq şübhə yoxdur ki, bu ölkə düşdüyü böhrandan böyük itkilərlə çıxacaq. Ola bilsin ki, masa üzərinə Suriyanın bölünməsi məsələsi qoyulsun. Ölkəni parçalayan yalnız bəzi xarici qüvvələr deyil – indi müxalifətdə olan bir neçə qruplaşmanın da hansı məqsədləri güddüyü aydın deyil.

Suriya üçün belə mürəkkəb vəziyyətdə böyük dövlətlərin Yaxın Şərq siyasəti özünün daha kəskin və amansız tərəfləri ilə diqqəti çəkir. Burada bir neçə məqamı müşahidə etmək mümkündür.

Birincisi, Suriyanın daxilində məzhəblərarası münasibətlər gərginləşdirilir. Sünnilər və şiələrin silahlı münaqişələri haqqında informasiyalar yayılır. Məsələn, bir neçə gün əvvəl yüzlərlə ələvinin qətlə yetirildiyi barədə Qərb mediasında məlumat verildi. Orada



açıq və üstüörtülü şəkildə bu işi sünni qrupların həyata keçirdiyinə işarələr vardı. Bu hadisədən əvvəl isə sünnilərin kütləvi qətli hadisəsi törədilmişdi.

Düşündürücüdür ki, məzhəb savaşı Suriyaya qonşu olan Livanda da müşahidə edilməkdədir. Orada Bəşər Əsədi dəstəkləyən ələvilərlə sünnilər arasında bir neçə dəfə silahlı qarşıdurma qeydə alınıb. Son olaraq livanlılar bir qrup ələvini Əsədin xeyrinə işlər görməkdə ittiham edərək, onlara hücum etmişdilər. Buna bənzər hadisələr İordaniya və Liviyada da baş verir. Ekspertlər Türkiyə və İraq üçün də eyni problemlərin yarana biləcəyini istisna etmirlər.

İkincisi, Suriya müxalifəti Liviyada olduğu kimi monolit deyil. Onun tərkibində fərqli ideologiyaya və siyasi məqsədlərə malik qruplar vardır. ABŞ onlardan birini, "əl-Nüsrə"ni terrorçu təşkilat kimi tanıyıb. Bu qrupun "əl-Qaidə"yə yaxın olduğunu bildirirlər. Ancaq "əl-Nüsrə" müxalifətin ən döyüşkən hissəsidir. Odur ki, Suriya müxalifəti Vaşinqtonun bu hərəkətinə etiraz edir. Hazırda bir neçə aksiyanın keçirilməsi planlaşdırılır.

Hər bir halda artıq müxalifətin sıralarında ayrı-seçkilik meyli güclənir. B.Əsəd rejimi çökəndən sonra onlar arasında fikir ayrılıqlarının dərinləşəcəyi ehtimal olunur. Belə şəraitdə Suriyada Əsəddən sonrakı dövrün ziddiyyətsiz olacağını düşünmək çətindir. İstisna deyil ki, bəzi kənar qüvvələr müxalifətin bu vəziyyətindən süni istifadə etmək fikrinə düşsün. Ölkədə sabitliyin bərqərar olmasında marağı olmayan dairələrin mövcudluğu şübhə doğurmur. Həmin məsələyə daha geniş müstəvidə baxdıqda əlavə faktorların rol oynaya biləcəyi təəssüratı yaranır.

**Regional liderlik iddiaları və Suriya böhranı**

Ölkənin daxili siyasi-ideoloji ziddiyyətləri bəzi region dövlətlərinin liderlik iddiaları fonunda daha təhlükəli görünür. Türkiyə, İran, İsrail və Misir tarixi fürsətdən istifadə edib, Yaxın Şərqdə əsas söz sahibi olmağa çalışırlar. Onlar arasında gedən açıq və gizli mübarizənin fəsadları həm də Suriyaya təsir edir.

Türkiyənin addımlarının Qərblə üst-üstə düşməsi göz qabağındadır. Onun iqtisadi və hərbi potensialı böyükdür. Bundan əlavə,

region dövlətləri ilə güclü tarixi bağlantıları var. Təsadüfi deyil ki, Suriya ilə əlaqəli bütün beynəlxalq tədbirlərdə Ankara aktiv iştirak edir. Son vaxtlar regionda cərəyan edən geosiyasi hadisələr göstərir ki, Türkiyənin Suriya məsələsini həll etməkdə imkanları genişdir və bunu böyük dövlətlər də qəbul edirlər. O cümlədən, Moskva Ankara ilə prinsipial məqamları razılaşdırmaq məcburiyyətindədir.

Bunlar Türkiyənin Suriya məsələsində ciddi faktor olduğunu təsdiqləyir. Lakin İran, Misir və İsraili kənara qoymaq olmaz. Onlar bilirlər ki, Türkiyənin regional liderliyi prinsipial şəkildə regionun geosiyasi mənzərəsini dəyişəcək. Məhz bu məqamda həmin dövlətləri qane etməyən proseslərin başlaya biləcəyini göz önünə almaq lazım gəlir. İranla bağlı Qərbin mövqeyi aydındır. Tehrana qarşı sanksiyalar getdikcə güclənir. Həmin kontekstdə İran Türkiyənin nüfuzunun artmasına qısqanclıqla yanaşa bilər.

Təsadüfi deyil ki, rəsmi Tehranın B.Əsədi aktiv müdafiə etdiyi dəfələrlə vurğulanıb. O cümlədən, Ankara bununla bağlı etirazını İran rəsmilərinə bildirib. İstisna deyil ki, Tehran Suriyadakı müxalifətin tərkibinin müxtəlifliyindən və məzhəb faktorundan istifadə edib, oradakı xaosun ömrünü uzatmağa çalışsın.

Misir prezidenti M.Mursinin ərəb ölkələrinin lideri olmaq iddiası Qəzzə ilə bağlı son olaylarda özünü qabarıq göstərdi. Ancaq M.Mursi «Müsəlman qardaşları» hərəkatının nümayəndəsidir. Bu qrupun siyasi-ideoloji yönü haqqında Qərbin birmənalı mövqeyi yoxdur. Həmin məqam Qərb analitiklərinin Misirdəki hadisələrlə bağlı apardıqları təhlillərdən aydın görünür. Ona görə də, Qərbin Mursinin regionda liderlik roluna iddia etməsini rahat qəbul edəcəyini gözləmək sadəlövhlük olardı. Hazırda Təhrirdə Misir müxalifətinin aksiyalar keçirməsi bu aspektdə xeyli düşündürücüdür.

Mümkündür ki, Qərb Misirin Fələstindən sonra Suriyada nüfuz sahibi olmasının bəri başdan qarşısını alsın. "Suriyanın dostları" sırasında Misirin adının elə də çəkilməməsi bunun əlamətlərindən biri ola bilər. Hər bir halda Qahirənin regionla bağlı geosiyasi iddialarını arxa plana atmaq tezdir. M.Mursi sadəcə fasilə götürə bilər. Onun Dəməşqlə bağlı planlarını həyata keçirməyə çalışacağı ehtimalı az deyil.



İsrail daha müəmmalı faktordur. Təl-Əviv həm İrana hərbi zərbə endirmək istəyir, həm də Türkiyənin regional liderliyinə qısqanclıqla yanaşır. Eyni zamanda, İsrailin öz təhlükəsizliyinin qayğısına qalmaq haqqı tanınmalıdır. Bu baxımdan, Təl-Əvivin Suriyadakı hadisələrə və onunla bağlı region dövlətlərinin apardığı gərgin geosiyasi mübarizəyə seyrçi qalması mümkün deyil. İsrail həmin aspektdə "Müsəlman qardaşları"na, "Həmas"a, "əl-Qaidə"yə və "Hizbullah"a ehtiyatla yanaşır. Eyni zamanda, o, ilk növbədə həmin təşkilatların hərbi imkanlarını və siyasi nüfuzunu azaltmaqda maraqlıdır.

Bütün bunlar regionda nüfuz sahibi olmaq istəyən dövlətlər arasında gərgin mübarizənin getdiyini və onun Suriya böhranına ciddi təsir göstərdiyini təsdiqləyir. Lakin bu prosesi dünyanın böyük geosiyasi güclərinin Yaxın Şərq siyasətindən kənarda təsəvvür etmək doğru olmazdı.

**Böyük dövlətlərin "Yaxın Şərq tanqosu"**

Dünyanın bəzi ölkələrinin media orqanları "Suriyanın dostları" qrupunun Mərakeşdəki toplantısına istehza ilə qiymət veriblər. Həmin tədbirdə iştirak edənləri "Mərakeş liliputları" adlandırıblar. Yəni iştirakçılar yaşca yetkin olsalar da, real imkanları xırdadır.

Bəzi dairələrin "Suriyanın dostları" qrupuna belə kəskin reaksiya verməsi gözləniləndir. Çünki söhbət dünyanın 130 dövlətinin Suriyanın birləşmiş müxalifətini tanımasından gedir. Bu isə B.Əsəd hakimiyyətinin faktiki sonunun gəlməsi deməkdir. Belə bir vəziyyətdən əsəbilik keçirənlər tədbir iştirakçılarını "siyasi cırtdanlar" adlandıra bilərlər. Reallıq isə başqa ciddi məqamlar üzərində düşünməyin vacibliyini göstərir.

Belə görünür ki, ABŞ və Rusiya müəyyən dərəcədə Suriya məsələsində razılığa gəliblər. V.Putinin Türkiyəyə səfərindən sonra bunun əlamətləri özünü daha qabarıq göstərir. Hazırda Əsəddən sonrakı Suriyada kimin hansı dərəcədə söz sahibi olacağı ilə bağlı müzakirələr aparılır. Artıq rəsmi Vaşinqton Suriya müxalifətini tanıyıb və ona maliyyə yardımı ayıracaq. Səudiyyə Ərəbistanı da müxalif qüvvələrə 100 milyon dollarlıq kömək ayırdığını bildirib. Sözsüz ki, digər ölkələrdən də Suriya müxalifətinə yardımlar olacaq.

Bunlar rəsmi Dəməşqin olduqca ağır vəziyyətə düşdüyünü göstərir. Eyni zamanda, dünyanın böyük dövlətlərinin Suriya məsələsində birgə fəaliyyət istiqamətində irəliyə doğru bir addım da atdıqları hiss edilir. Lakin Rusiya, İran və Çinlə bağlı vəziyyətin tam aydın olmadığını da qeyd etmək lazımdır. Çünki onların geosiyasi mövqelərinin zəifləsaid ilə razılaşmayacağı aydındır. İran isə ümumiyyətlə, öz təhlükəsizliyinin təmin edilməsi qayğısındadır.

Digər tərəfdən, ABŞ-ın "əl-Nüsrə" cəbhəsini terror təşkilatı kimi tanıması yeni sualları ortaya çıxarıb. Suriya müxalifətinin lideri Əhməd əl-Xətib Mərakeşdə çıxış edərək Vaşinqtonun bu addımını tənqid edib. Bunun daha da genişlənib ciddi fikir ayrılığına gətirib çıxarmayacağına heç kəs təminat vermir. Böyük dövlətlərin "Yaxın Şərq tanqosu"nun hansı sonluqla bitəcəyi məlum deyil.

Belə bir ziddiyyətin Suriyanın daxili vəziyyətinə ciddi təsir edəcəyi gözlənilir. Məsələn, ölkədə antiamerika aksiyalarının başlaması hansı nəticələri verə bilər? Bunun Suriyanın daxili vəziyyətini daha da gərginləşdirəcəyinə şübhə yoxdur. Üstəlik, söhbət artıq xarici müdaxilənin yarada biləcəyi fəsadlardan gedir. Demək çətindir ki, rəsmi Vaşinqton "əl-Nüsrə" ilə bağlı mövqeyini dəyişsin. Görünür, ABŞ Əfqanıstan, İraq, Liviya və Misirdə yol verdiyi səhvləri təkrarlamaq istəmir. Həmin ölkələrdə Vaşinqtonun arxalandığı İslami mahiyyətli siyasi qüvvələr müstəqil kurs yeritməyə daha çox meyllənirlər. Bununla yanaşı, "əl-Qaidə"yə yaxın olan qrupun müxalifətdə mühüm yer tutması sonradan siyasi müstəvidə ABŞ üçün ciddi problemlər yarada bilər. O cümlədən, Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiyada Qərbin mövqeləri zəifləyər. Həmin səbəbdən, Vaşinqton Suriyada özünə yaxın siyasi qüvvələrin hakimiyyətə gəlməsinə çalışır. Ya da ki, vəziyyət mürəkkəb olaraq qalmaqda davam etməlidir.

Vurğulanan məqamlar Suriya məsələsi ilə bağlı Yaxın Şərqdə kifayət qədər mürəkkəb geosiyasi vəziyyətin yarandığını göstərir. Regionda gedən proseslərdə qaranlıq məqamlar vardır. İndiki mərhələdə hərbi faktordan çox, geosiyasi və ideoloji amillərin həlledici rol oynadığını demək olar. Çünki artıq hər kəs B.Əsədin hakimiyyətdən gedəcəyinə inanır. Yəni onun hərbi gücü uzun müddət hakimiyyətdə duruş gətirməsinə yetməyəcək. Ona görə də, əsas suallardan biri Əsəddən sonrakı dönəmdə regionda təriqətlərin müharibəsinin qarşısını almaqdan ibarətdir.

Müsəlman ölkələrində dini təriqətlər arasında intriqaların dərinləşib, uzunmüddətli silahlı toqquşmalar səviyyəsinə keçməsi təhlükəsi realdır. Suriyada silahlar susandan sonra məzhəblərarası ziddiyyətlərin ətraf ölkələrə sıçraması ehtimalı istisna edilmir. Bu prosesin təsir dairəsi daha da genişlənə bilərmi?

Suriya məsələsi ilə bağlı digər sual Qafqaz və Mərkəzi Asiyada geosiyasi vəziyyətin sonrakı taleyi aspektindədir. Bu kontekstdə mənzərə aydın deyil. Böyük dövlətlərin həmin regionlar uğrunda geosiyasi mübarizədə hansı üsullara əl atacaqlarını əvvəlcədən müəyyənləşdirmək çətindir. Çünki təcrübə göstərir ki, onlar öz maraqları naminə heç bir vasitədən çəkinmirlər. Bu məsələlər artıq region xalqlarını düşündürür və narahat edir.

Newtimes.az<br>28 dekabr 2012

### *5.11. Yaxın Şərqdə ermənilərin mövqeyi – Ərəb oyanışından sonra*

Hazırda Ərəb dünyasında baş verən proseslər bütün dünya ictimaiyyətini ciddi maraqlandırır və bu hadisələrin qlobal geosiyasətdə yeni trendlərə təkan verəcəyi heç şübhəsizdir. Hadisələrin səbəbləri barəsində müxtəlif fikirlər mövcuddur. Region ölkələrinin demokratik dəyişikliklər tələbindən tutmuş Qərbin yeni bazarlar uğrunda mübarizə planına qədər ideyalara rast gəlirik.

Biz Yaxın Şərqin dünya geosiyasətində mühüm regionlardan biri olduğunu nəzərə alaraq, baş verən hadisələrin yeni dünya nizamının yaratdığı tələblərdən irəli gəlməsi qənaətindəyik.

Bu hadisələri əvvəlcədən təxmin etmək üçün isə ABŞ-ın 43-cü Prezidenti Corc Buşun 2003-cü ildə irəli sürdüyü "Böyük Orta Şərq" konsepsiyasını xatırlamaq lazımdır. Bu konsepsiyaya görə, Qərbdə Mərakeşdən Şərqdə Pakistana, Şimalda Türkiyədən Cənubda Sudana qədər böyük bir ərazini əhatə edən regionda ABŞ-ın strategiyası

"beynəlxalq terror" adlandırdığı düşmənlə mübarizə, Orta Asiyadan körfəz bölgəsinə qədər uzanan neft mənbələri üzərində idarəçilik, yeni dünya güc mərkəzlərini (Çin, Rusiya və Hindistan) neytrallaşdıraraq islam dünyasında nüfuz sahibi olmağa yönəlmişdir.

Böyük Orta Şərq regionunda Qərb əleyhdarlarının getdikcə artması, Çin və Rusiya kimi dövlətlərin iqtisadi mövqelərini gücləndirməsi proseslərin bu məcraya döndərilməsinə təkan verdi. Region ölkələrində demokratikləşmə inqilabları isə Qərbin müttəfiqi olub-olmamağından asılıdır. Yəni, bu proseslər Qərbin müttəfiqi olmayan və ya onun təsir dairəsindən çıxmağa çalışan ölkələrə şamil edilir. Qərb tərəfdarı olub, ancaq demokratik prosesləri ümumiyyətlə nəzərə almayan dövlətlərin isə indiki mərhələdə ərəb oyanışının qurbanı olmayacağı güman olunur.

Digər bir xüsusi məqam proseslərin silsilə xarakteri daşıması və domino effekti təsiri bağışlamasıdır. Əksər ekspertlər proseslərin Tunisdən başlandığını Liviya-Misir-Yəmən-Suriya marşrutu üzrə davam etdiyi fikrindədirlər. Lakin, bizim qənaətimizcə, ilk hədəf Sudan olmuşdur. Afrikanın ən böyük dövlətinin bölünməsinin gizli səbəbləri arasında Sudanın əksər iqtisadi layihələrdə Qərbin əsas rəqibi olan Çinlə əməkdaşlığını göstərmək olar. Çinin maraqlarının Afrikada zərərsizləşdirilməsi Sudanın parçalanmasına səbəb olsa da, bu ölkənin taleyi hələ də tam müəyyənləşməmişdir.

ABŞ-ın Böyük Orta Şərq adlandırdığı region ölkələrində baş verən hadisələrin özünəməxsus bir xüsusiyyəti də qeyd edilməlidir. Hadisələr kənar müdaxilə hesabına cərəyan etsə də, tam idarə oluna bilmir. Proseslər olduqca sürətlidir, xarici qüvvələrin və daxildəki oyunçuların məqsədləri və əldə etdikləri çox zaman fərqli olur. Hətta proseslərin əks-effekt verəcəyini, Qərbin maraqlarının əleyhinə çevrilə biləcəyini belə gözləmək olar.

Bəzi ölkələrdə radikal islam tərəfdarlarının hakimiyyətə gəlməsi ehtimalının Qərbin planlarına uyğun gəlmədiyi artıq görünür. Real mənzərə onu göstərir ki, Qərbin ərəb ölkələri ilə planlarında hakimiyyətdə olan rejimlərlə sıx əməkdaşlıq edən yerli xristian icmaları nəzərə alınmamışdır. İraq, Misir və Suriyada bu proseslər özünü daha qabarıq göstərir.



Bütün bunların fonunda regionda baş verən hadisələrə Yaxın Şərq ölkələrində yaşayan ermənilərin tutduğu mövqe maraqlıdır. Yaxın Şərq erməni diasporasının ən güclü olduğu regionlardan biridir, onlar bu ölkələrdə güclü iqtisadi və lobbi qüvvəsinə malikdirlər.

Erməni diasporunun internet məlumatlarına istinadən regionda təxminən 500 000-dən 1 milyonadək erməni yaşayır və ən böyük icmaları Suriya, Livan və İrandadır. İraq, Misir və Türkiyədə, eləcə də İsraildə - Yerusəlimdə yaxşı təşkilatlanmış erməni icması mövcuddur. Ermənilər bu ölkələrdə milli və ya dini azlıq kimi təmsil olunurlar və müvafiq imtiyazlardan yararlanırlar. Suriya, Livan, İran parlamentlərində və hökumətlərində (Livan) öz təmsilçiləri var.

Xüsusi qeyd etməliyik ki, ermənilər dini əqidədən siyasi məqsədlər üçün məharətlə istifadə edirlər. Livanın konfessional tarazlıq sistemində ermənilər qriqoryan, katolik, protestant, evangelist dini əqidə daşıyıcısı olaraq ayrı-ayrılıqda təmsil olunmaq hüququna malikdirlər. Bu ölkədə milli deyil, dini azlığın təmsilçisinə verilən imtiyazlar ermənilərin dini sektalara bölgüsünü şərtləndirən başlıca amildir. Dünyada bəlkə də ikinci bir millət tapmaq mümkün deyil ki, bu qədər dinə xidmət etmiş olsun. Məsələnin mahiyyətində isə siyasi ambisiyalar durur.

Yaxın Şərqdə ermənilər tarix boyunca hər zaman xəyanətkar rolunu oynamış, öz xristian hamilərinin maraqlarına xidmət etmişlər. Hələ səlib yürüşləri zamanı ermənilər himayəsində yaşadıqları türklərə və birgə yaşadıqları ərəblər başda olmaqla digər müsəlmanlara xəyanət edərək, səlibçilərin tərəfində vuruşmuşlar. Səlibçilərin qalalara hücumu zamanı qala-şəhərlərin içərisində yaşayan ermənilərin şəhəri (Edessa, Antioxiya) təslim etməsi ilə bağlı onlarla faktlar var[1].

Beləliklə, ermənilər tarixən xəyanətkar xalq olaraq tanınmışlar. Səlib yürüşləri qurtardıqdan sonra onların bu torpaqlarda rahat yaşaya bilməsi isə türklərin tolerantlığı və ümumilikdə müsəlmanların bağışlaya bilmək hissi ilə əlaqədardır.

Hazırda davam edən Ərəb oyanışı proseslərində də ermənilərin mövqeyi dəyişməmişdir. Suriyanın siyasi mənzərəsində ermənilər

[1] Кэрол Хилленбранд. Крестовые походы. Взгляд с востока мусульманская перспектива. Москва. 2008.

özlərini neytral göstərməyə çalışsalar da, əslində vəziyyət fərqlidir.

Suriyada əhalinin cəmi 11%-ni təşkil edən ələvilər hakimiyyətdədirlər və cəmiyyətdə üstün mövqelərə yiyələnmişlər. Çoxluq təşkil edən sünnilər rejimin əleyhdarıdırlar. Belə bir mühitdə ələvilərin əsas müttəfiqləri digər bir azlıq qrup olan xristianlardır (10%). Əhalinin sünni olmayan qrupları rejimin devrilməsinin onlara xeyir gətirməyəcəyini bilir, Suriyanın Misir, Liviya, Tunis kimi dünyəvilikdən islamlaşmağa yönələcəyindən ehtiyat edirlər. Bu baxımdan Suriyanın dini azlıqları əsasən Bəşər Əsəd rejimini dəstəkləyirlər[1]. Bununla belə müxalifət sıralarında da onların, hətta ələvilərin özlərinin belə nümayəndələri var.

Hazırda Suriyada təxminən 200 minə yaxın erməni yaşayır. 1928-ci ildən başlayaraq ermənilər Suriya Parlamentində daimi təmsil olunurlar. Əsəd rejimi altında ermənilər öz icma mühiti daxilində, kifayət qədər sabit həyat sürürlər və icma üçün çox da xarakterik olmayan miqrasiya başlıca olaraq iqtisadi səbəblərə dayanır.

Hökumət əleyhinə çıxışlar başlayandan erməni diasporu bitərəf qalmaq görüntüsü yaratsa da, əsasən rejimi dəstəkləyirlər. Erməni diasporunun əsas nəşrlərindən olan "Armenian weekly"nin məlumatına görə faktiki olaraq ermənilər Əsəd rejiminə öz dəstəklərini hökumət tərəfdarı mitinqlərdə iştirak etməklə və bəziləri Suriya xüsusi xidmət orqanlarına işləməklə göstərirlər[2].

Ölkədəki erməni icmasının ictimai-siyasi təşkilatlarından heç biri baş verən hadisələrlə əlaqədar hökumət qarşısında məsələ qaldırmamış və qəti mövqe bildirməmişlər. Hətta xristianların ən çox yaşadığı ikinci şəhər olan Homsda hökumət ordusu əməliyyatlar keçirəndə belə ermənilər öz həmşəhərlilərinin müdafiəsi ilə bağlı heç bir ictimai mövqe bildirmədilər.

Suriya Milli Şurasında sünnilər, ələvilər, xristianlar, druzlar, assuriyalılar, kürdlər, Qafqaz əsillilər qrup olaraq iştirak edirlər, ermənilər isə bir qrup kimi təmsil olunmurlar. Erməni icmasını passiv qalmaqda şərtləndirən iki başlıca faktor var: digər ərəb ölkələrində, xüsusilə Misir və İraqda baş verən dəyişikliklərdən sonra xristianlara qarşı münasibətin pisləşməsi və müxalifəti təmsil edən Suriya Milli Şurasının Türkiyə ilə yaxınlığı.

Ermənilər hazırkı rejimin yanında olmağı və mövcud sosial imtiyazlardan faydalanmağı üstün tuturlar. Çünki Müsəlman qardaşları və ya radikal sünni müsəlman qrupların hakimiyyətə gəlməsi ilə bu imtiyazlar da əldən çıxa bilər. Fikrimizcə, məhz bu səbəblərdən hələlik ermənilər müxalif düşərgədə təmsil olunmaqdan çəkinirlər.

Lakin hadisələrin belə axarı və ermənilərin ölkədə gələcəyi artıq onları narahat edir. Suriya erməni icmasının gələcəyi ilə bağlı onların əsas düşüncəsi belədir ki, "Hökumət tərəfdarı və ya əleyhdarı olaraq siyasi proseslərdə iştirak erməni icmasının gələcəyini təmin etmək üçün vacibdir.

Ermənilər icma olaraq öz talelərini nə hazırkı iqtidara, nə də müxalifətə bağlamamalıdırlar. Münaqişənin hər iki tərəfində iştirak etmək ermənilər üçün güclü siyasi strategiya olardı və bununla da özlərini siyasi proseslərə inteqrasiya edər və erməni icmasının maraqlarının cəmiyyətdə nəzərə alınmasına nail olarlar.

Digər milli azlıqlar, xüsusilə kürdlər və assuriyalılar artıq bu strategiyanı tətbiq edirlər. Onların hökumət əleyhinə proseslərdə iştirakı müxalifətin onların milli azlıqlarla bağlı tələblərini qəbul etməsinə və Suriya Milli Şurasını yeni konstitusiya layihəsinə xüsusi müddəalar salmasına təhrik etmişdir"[1].

Yaxın Şərqdə ermənilərin təklif olunan ikili siyasət yeritməsi artıq Livan təcrübəsində öz təsdiqini tapmışdır. Ölkənin siyasi həssaslığını nəzərə alaraq 1932-ci ildən əhalinin tərkibi ilə bağlı heç bir rəsmi statistikanın aparılmadığı Livanda qeyri-rəsmi statistikaya görə 250 000 nəfər erməni mənşəlidir və onlar ümumi əhalinin 4%-ni təşkil edir. Bu ölkədə ermənilərə Parlamentdə 6 yer və hökumətdə 2 nazir vəzifəsi ayrılmışdır. Livan Hökuməti tərəfindən rəsmi olaraq 3 erməni dini məzhəbi ölkədə yaşayan dini sekta kimi tanınır: erməni qriqoryan, erməni katolik və erməni evangelistlər.

[1] Kurt J. Werthmuller Research Fellow, Hudson Institute Center for Religious Freedom/ Setting Up Triage in Syria: Strategies to Save a Struggling Nation's Minorities/ 28 mart 2012

[2] Nanore Barsoumian. Between a rock and a hard place: the Armenians in Syria. February 16, 2012. http://www.armenianweekly.com

[1] Syrian revolution and future of the Armenian community – Filor Nigoghosian March 8, 2012. http://www.syrian-christian.org

Livanda erməni siyasi partiyaları hakimiyyətə gələn qrupu müdafiə etməsi ilə tanınırlar. Əsas erməni partiyaları Daşnaksütun, Hnçak və Ramgavardır. Livanda Vətəndaş müharibəsi zamanı ermənilər hər tərəfə yarınmaq istəyirdilər. Həm bitərəf görünənlər, həm də vuruşan qrupların hər iki düşərgəsində iştirak edən erməni siyasi qüvvələri var idi.

Erməni İnqilab Federasiyası (Daşnaksütun partiyası) şiə Hizbullah və Xristian Azad Vətənpərvər Hərəkatını təmsil edən düşərgənin tərəfdarı idi. Demokratik-Liberal (Ramgavar) və Sosial-Demokrat (Hnçak) partiyaları isə sünnilərin Gələcək Partiyası və Maronit Livan Qüvvələrinin birləşdiyi düşərgədə idi. ASALA erməni terror təşkilatı da müharibənin əsas iştirakçılarından biri olmuş, sağçı qüvvələrə qarşı radikal livanlı və fələstinli qruplarla müttəfiqlik etmişdir.

Müxtəlif düşərgələrdə olmasına baxmayaraq erməni partiyaları daim öz aralarında əlaqə saxlayırlar. Bununla da onlar hakimiyyətdə kimin olmasından asılı olmayaraq öz maraqlarını təmin edə və təmsil oluna bilirlər. Münaqişənin aqibəti ermənilərin siyasi strategiyasında həlledici rol oynamamışdır.

Ermənilərin ikili siyasəti İraqda da özünü göstərmişdir. Məlum olduğu kimi, ABŞ və müttəfiqlərinin İraqa hərbi müdaxilə ərəfəsində ölkədəki xristianların nümayəndələri, xüsusən də ermənilər ölkədə dini zəmində təqiblərə məruz qaldığını bildirir və köməklik göstərilməsini xahiş edirdilər.

Onlar xarici qüvvələrə xidmət etmək və bununla da daha çox imtiyaz qazanmaq istəyirdilər. Lakin sonrakı hadisələr göstərdi ki, ssenarini sona qədər hesablaya bilməmişlər. Səddam Hüseyn rejimi devrildikdən sonra ölkədə xristianlara qarşı cəmiyyətin bir aqresiyası yarandı və nəticədə xristianların kütləvi köçü başlandı. Hərbi müdaxilədən əvvəl 18 000-lik erməni icmasının da ən azı 3-4 mini ölkəni tərk etdi, qalanları isə böyük tərəddüd içərisindədir. Eyni zamanda İraq presedenti hazırda Suriya erməniləri üçün çəkindirici nümunədir.

Ermənilərin Liviyadakı hadisələrdə iştirakı ilə bağlı da məlumatlara rast gəlinir. Liviyada üsyançıların silahlandırılması məqsədilə Moldovadan Benqaziyə Ermənistan qeydiyyatlı təyyarə ilə silah daşınması faktı ortaya çıxanda ermənilərin bu ölkədə baş verənlərdə izi göründü.

Qərbin ədalətli dünya çağırışı qarşısında ermənilərin qanunsuz silah ticarətinə göz yumması isə paradoksal görünür. Ermənilər Yerusəlimdə də ara qarışdıran rolu oynayırlar. Qüdsdə Müqəddəs Məqbərə Kilsəsində hər il erməni keşişlər digər xristian icmaların nümayəndələri ilə problem yaradır, dava-dalaş salırlar.

Beləliklə, Yaxın Şərq regionunda ermənilər öz ənənəvi mövqeyindədirlər. Sədaqət nə olduğunu bilməyən bu xalq hərdən bir qütbə meyllənir. Kimə xidmət etmələrindən asılı olmayaraq öz maraqları naminə bütün qütbləri təmsil edən ermənilər hər kəsi satmağa hazırdırlar. Hər zaman böyüklərin əlində alət olan ermənilər yeri gələndə hamını qurban verməyə hazırdırlar. Yaxın Şərqdəki proseslərdə də, onların bu mövqeyi özünü göstərir.

**Newtimes.az**
30 aprel 2012

### *5.12. Suriyada vətəndaş müharibəsi: növbəti zəif bənd kimdir?*

Yaxın Şərqin ən qaynar nöqtəsi olan Suriyada gərginlik davam etməkdədir. İrimiqyaslı vətəndaş müharibəsi nəticəsində yaranmış xaosun nə qədər davam edəcəyini ehtimal etmək çətindir. Bəşər Əsədin hakimiyyətdən getməsinin isə nəyisə dəyişəcəyi şübhəli görünür.

Suriyada humanitar fəlakətin baş verdiyi artıq faktdır. Yaxın aylarda böhranın daha da dərinləşəcəyi şübhə doğurmur. Lakin nədənsə Suriyada baş verən humanitar fəlakət heç kimi ciddi şəkildə qayğılandırmır. Daha çox Bəşər Əsədin tezliklə hakimiyyətdən devrilməsi, onun yerinə gətiriləcək qüvvələrin hökumətinin formalaşdırılması üzərində baş sındırılır. Əslində burada təəccüblü heç nə yoxdur, böyük dövlətlərin maraqlarının hakim olduğu yerdə sadə insanların taleyi əhəmiyyət kəsb etmir. Bu, dünya siyasətinin reallığıdır.

Bütövlükdə, regionun gələcəyi baxımından ciddi təsir gücünə malik olan bu vətəndaş müharibəsi artıq çoxdan ölkə sərhədlərindən

kənara çıxıb və bu məqam xaosun qarşısının alınmasında əsas maneəyə çevrilib. Əsəd rejimi ilə müxalifət arasında atəşkəsin əldə olunması və problemdən çıxış yolu tapmaq üçün dialoqun başladılmasına dair təkliflər münaqişənin fərqli məcrada davam etməsində maraqlı olan qüvvələr tərəfindən qəti şəkildə rədd edilir. BMT-nin Suriya üzrə keçmiş elçisi Kofi Annanın planı da bu səbəbdən iflasa uğramışdı. BMT-nin və Ərəb Dövlətləri Liqasının hazırkı elçisi Lakdar Brahiminin də bu istiqamətdəki təşəbbüslərinin uğur qazanacağı ehtimalı yoxdur. Ölkə daxilində hökumət qüvvələri ilə müharibə aparan dini və etnik qrupların, digər tərəfdən regional və böyük dövlətlərin fərqli maraqları vəziyyətin sabitləşdirilməsinə və təxirəsalınmaz məsələlərin həllinə imkan vermir. Görünən odur ki, indiki şəraitdə yeganə məqsəd Bəşər Əsədin hakimiyyətdən devrilməsidir.

Sözsüz ki, Suriyadakı böhran Əsədin hakimiyyətdən getməsini qaçılmaz edir və bu, gec-tez baş verəcək. Lakin hadisələrin bu cür inkişafı nəyisə dəyişəcəkmi? Əsədin yerinə hakimiyyətə gələcək qüvvələr ölkəni xaosdan çıxara biləcəklərmi? Müxalifət cəbhəsində baş verənlər hələlik bunu deməyə əsas vermir. Müxalifət daxilindəki pərakəndəlik, rejimə qarşı döyüşən qüvvələrin fərqli məqsədləri vahid müxalifətin formalaşdırılmasını çətinləşdirən faktorlardır. Region dövlətlərinin dəstəyi ilə əvvəlki illərdə ölkədən mühacirət etmiş suriyalılardan təşkil olunmuş və hətta bir sıra ölkələr tərəfindən "Suriyanın qanuni hökuməti" kimi tanınmış Suriya Milli Şurasını ölkə daxilindəki müxalif qüvvələr qəbul etmədiyindən, bu qurum real təsir gücünə malik olmadı. ABŞ-ın və regional dövlətlərin böyük səyi sayəsində yaradılmış və müxalifətin daha geniş cəbhəsini, o cümlədən Suriya Milli Şurasını, Azad Suriya Ordusunu və döyüşən ayrı-ayrı qüvvələri özündə birləşdirmiş Suriya Müxalifəti və İnqilab Qüvvələrinin Milli Koalisiyası isə Suriya müxalifətinin real vəziyyətini əks etdirir. "Ümumi düşmən" qarşısında birləşməkdə belə çətinlik çəkən, yaradılacaq keçid hökumətində indidən yerlər uğrunda mübarizə aparan müxaliflərin Əsəddən sonrakı Suriyada vahid qüvvə kimi çıxış etməsi perspektivini ciddi şəkildə şübhə altına alır.



Vəziyyəti qəlizləşdirən digər bir məqam isə Suriyada dini ekstremizmin sürətlə artmasıdır. "Əl-Qaidə" terror təşkilatının üzvlərinin, ayrı-ayrı radikal qrupların da müxalifətlə birgə hökumətə qarşı vuruşduğu məlumdur. Qərb dairələri bunun əhəmiyyətini azaltmağa çalışsalar da, müşahidəçilər radikal islamçıların müxalif cəbhədə döyüşənlərin üçdə birini təşkil etdiyini və əhəmiyyətli qüvvəyə çevrilməyə başladığını bildirirlər. Milli Koalisiyanın yaranmasından dərhal sonra hakimiyyətə qarşı döyüşən 14 islamçı qruplaşma yeni quruma tabe olmayacaqlarını və onların məqsədinin "azad olunmuş ərazilərdə ədalətli İslam dövlətinin yaradılması" olduğunu bəyan ediblər. Göründüyü kimi, bu qüvvələr Suriyanın gələcək həyatında rol oynamaqda qətiyyətlidirlər və mövcud rejimin devrilməsindən sonra yarana biləcək hakimiyyət boşluğunda radikal islamçıların əyalətlərdə nəzarəti ələ keçirməsi təhlükəsi realdır.

Suriya əhalisinin 10 faizini təşkil edən kürdlərin necə davranacağı da müxalifət üçün aktual məsələdir. PKK ilə əlaqəsi olan və ölkənin şimalında bəzi yerlərdə idarəetməni ələ keçirmiş kürdlərin "Demokratik İttifaqı" müxalifət qüvvələrinə tabe olmasa da, Suriya Kürdlərinin Milli Şurası müxalifətlə həmrəy olduğunu bəyan etmişdir. Nəticə etibarilə, Əsədin devrilməsindən sonrakı dövrdə kürdlərin vəziyyətdən istifadə edərək, muxtariyyət tələbləri irəli sürməsi istisna edilməməlidir ki, bu da onsuz da sünnilər, ələvilər və digər azlıqlar arasındakı ziddiyyətlərlə boğuşan Suriya cəmiyyəti üçün yeni bir parçalanma deməkdir.

Sözsüz ki, Qərb və region dövlətləri bunun fərqindədirlər, lakin bu faktorların Suriyadakı gələcək proseslərə təsir effektini azaltmaq üçün heç nə etmirlər. Bəlkə də Suriyanın bu şəkildə idarə olunması daha məqbul hesab edilir. İndiki vəziyyətdə yeganə məqsəd müxalifəti sürətlə silahlandırmaqla Əsəd rejimini devirməkdir. Silahların məqsədli şəkildə həm müxalifətə, həm də radikal islamçılara ötürülməsi isə o deməkdir ki, onları dəstəkləyən qüvvələr gələcəkdə Suriyada söz sahibi olacaqlar.

Regiondan kənar qüvvələrin baş verən proseslərdə davranışı da diqqəti cəlb edir. Münaqişə tərəflərindən hansısa birini öz maraqlarına uyğun şəkildə dəstəkləməklə, prosesləri regiondakı dövlətlərin əli ilə idarə etməklə minimum güc sərf etməyə və maksimum qazanc əldə etməyə çalışırlar. Təbii ki, bu qüvvələrin qlobal miqyasda rəqabəti də Suriyadakı vəziyyətə təsir edən faktorlardan biridir. Suriyada kimin qələbə qazanacağından asılı olmayaraq, maraqların növbəti hədəf üzərində toqquşacağı şübhəsizdir.

Bir çoxları "Ərəb baharı"nı "xalqın demokratiya tələbinin təzahürü" kimi görməkdə israrlıdır. Təbii ki, "Ərəb baharı"nın təsirinə məruz qalmış ölkələrdə müəyyən daxili şərtlər mövcud idi, lakin bu şərtlərin öz-özlüyündən hakimiyyət dəyişikliyi ilə nəticələnən proseslərə təkan verdiyini və Yaxın Şərq kimi geniş bir regionda "domino effekti" yaradaraq, başqa ölkələrə də sıçradığını düşünmək sadəlövhlük olardı. Görünən odur ki, bütün bu proseslər "gizli əllər" tərəfindən məharətlə idarə olunur və Suriyadakı vətəndaş müharibəsi də növbəti nümunədir. Lakin əvvəlki təcrübələr və Misir, Tunis və Liviya kimi ölkələrdəki mövcud vəziyyət nəzərə alınarsa, kənardan idarə olunan, ölkənin daxili reallıqları və tələbləri ilə ayaqlaşmayan proseslərin müsbət effekt vermədiyi, dövlətin əsaslarını sarsıtdığı, cəmiyyətin daxilində parçalanmaya səbəb olduğu və yalnız kənar qüvvənin və ona tabe olan qrupların maraqlarını təmin etdiyi müşahidə olunur. Başqa sözlə Əsəd rejimi devrilsə belə, mövcud reallıqlar və şərtlər Suriyadakı xaosun hələ bir müddət davam edəcəyini göstərir.

Bəzi müşahidəçilər Qərbin regiondakı maraqları qarşısında Suriyadan sonrakı növbəti zəif bəndin İran olduğunu düşünürlər. Hətta Suriyadakı prosesləri İrana müdaxilənin anonsu hesab edənlər də var. İranın regiondakı qüvvələr balansında yeri və daxili reallıqları isə tam fərqlidir. Bənzər proseslərin İranda təkrarlanması cəhdi regionda və daha geniş miqyasda ciddi təlatümlərə səbəb ola bilər.

**Elmar Hüseynov**
19 dekabr 2012



### *5.13. Qərbin İran siyasəti: fikir ayrılıqlarının səbəbləri*

İsrail İrana önləyici hava zərbəsi endirməyi planlaşdırır. Təl-Əviv ABŞ-ın tərəddüdlərinə qarşı hiddətini gizlətmir. Qərbin siyasi dairələrində müharibə variantını qəbul etməyənlər az deyil. Onlar maliyyə və iqtisadi sanksiyalara üstünlük verirlər.

**Tehrana qarşı yeni sanksiyalar**

Qərb İranla bağlı mövqeyini bir qədər də sərtləşdirir. Almaniya, Fransa və Böyük Britaniya ilə yanaşı, Kanada da Tehrana təzyiq edir. Kanadanın xarici işlər naziri Con Berd İrandakı səfirliyi bağladıqlarını bəyan edib. Artıq bütün kanadalı diplomatlar İranı tərk edib.

Ottava bu addımını İran hökumətini qlobal dünya üçün əsas təhlükə hesab etməsi ilə əsaslandırır. İran nüvə proqramı ilə bağlı BMT-nin qətnamələrini yerinə yetirməkdən imtina edir. Üstəlik, rəsmi Tehran Suriya rejiminə getdikcə daha çox yardım göstərir.

Bütün bunlara görə, Ottava İranı terrora dəstək verən ölkələr siyahısına daxil edib. Kanadanın bu bəyanatı Avropa İttifaqının İrana qarşı sanksiyaları gücləndirməsi ilə eyni vaxta düşür. Almaniyanın xarici işlər naziri Gido Vestervelle rəsmi Tehrana qarşı yeni məhdudlaşdırıcı mexanizmlər tətbiq etmək təklifi ilə çıxış edib. "Reuters" agentliyinin yaydığı informasiyaya əsasən, Fransa və Böyük Britaniya bu təşəbbüsü dəstəkləyir.

Fransanın xarici işlər naziri Loran Fabius jurnalistlərə verdiyi müsahibədə qeyd edib ki, yeni tədbirlər maliyyə və neft sektorlarını əhatə etməlidir. Bu da İranın xarici ticarət dövriyyəsinə təsir göstərəcək. Britaniyanın xarici işlər naziri də analoji fikir söyləyib. Avropa İttifaqının əsas etirazı Tehranın nüvə proqramı ilə bağlı dialoqa getməməsi və öhdəliklərə əməl etməməsi ilə əlaqəlidir.

Avropanın İran məsələsində nümayiş etdirdiyi bu mövqenin fonunda İsrail-ABŞ münasibətlərində müəyyən gərginliyin yaranması ekspertlərin diqqətini cəlb edib. Konqresmen Maykl Rocers Qüdsdə baş nazir Benyamin Netanyahu ilə görüşündən sonra maraqlı fikirlər söyləyib.

Onun sözlərinə görə, Netanyahu Amerikanın İran məsələsində tərəddüdlü mövqe tutmasından çox hiddətlənib. "BBC" televiziya kanalı M.Rocersin bununla bağlı dediklərinin tam mətnini yayıb. İsrailin baş naziri İrana önləyici zərbə endirə biləcəklərini xüsusi qeyd edib.

**İsrail ABŞ-a güvənmir**

Məsələ ondan ibarətdir ki, israillilər Obama administrasiyasının "hər bir variant mümkündür" fikrinin doğruluğuna inanmırlar. Ona görə də Təl-Əviv ABŞ-dan dəqiq təminat almağa çalışır. Yalnız bu halda o, İrana hava zərbəsi endirməyəcəyinə söz verir. Ən pis halda İsrail İranın nüvə proqramını 1-2 il ləngidə biləcək hava zərbəsi endirməyi planlayır. Həmin müddətdə qlobal geosiyasi mühitdə yeni faktorların meydana çıxa biləcəyinə ümid edir.

Ekspertlər İsrail rəhbərliyinin "yeni elementlər" dedikdə nəyi nəzərdə tutduğunu izah etməyə çalışırlar. Belə bir fikir var ki, Təl-Əviv həmin müddətdə Suriya məsələsinin həll ediləcəyinə və beynəlxalq birliyin diqqətini İrana yönəldəcəyinə ümid edir. Bu da Qərbin Yaxın və Orta Şərqlə bağlı uzunmüddətli planlarının olmasını dolayısı ilə təsdiqləyir.

Bunlarla yanaşı, İsrail İranın özündə siyasi dəyişikliklərin baş verməsi ehtimalını istisna etmir. İran demokratikləşsə, onun nüvə proqramı da təhlükə yaratmayacaq. Bu bağlılıqda "Financial Times"ın siyasi təhlilçisi Fil Stivens düşündürücü bir versiya ortaya atıb.

Onun fikrincə, Qərbin İrana qarşı hərbi əməliyyat aparması Tehranın nüvə silahı istehsal etməsi ilə nəticələnəcək. Çünki kənardan təhlükə hiss edən İran üçün başqa çıxış yolu qalmır. Yəni F.Stivensə görə, ən yaxşı yol İran məsələsini siyasi danışıqlar vasitəsi ilə həll etməkdir.

Bunlar göstərir ki, İsrailin İrana həribi zərbə endirmək ideyasını Qərbdə birmənalı qəbul etmirlər. Təl-Əvivin aqressivliyi İranı bir çox radikal addımlar atmağa sürükləyəcək ki, bu da beynəlxalq birlik üçün yeni problemlər yaradacaq. Qərbin siyasi dairələrindəki bu fikir ayrılığı hansı nəticələri verə bilər?



**İrana hərbi zərbənin mümkün fəsadları**

Hər şeydən əvvəl, Qərbin siyasi dairələri İraqdakı səhvləri təkrar etmək istəmir. İraq müharibəsi müsəlman ölkələrinin ABŞ-a olan etibarını azaltdı. Bundan başqa, Qərbin geosiyasi rəqibləri fürsətdən istifadə edərək öz nüfuzlarını artırmağa başladılar. Hazırda Rusiya və Çin İslam aləmi ilə daha yaxından əlaqə qurmağa çalışır. Nəhayət, hərbi gücdən daha geniş miqyasda istifadə dünya müharibəsinin başlamasına səbəb ola bilər.

Görünür, Qərb İran siyasətinə müəyyən düzəlişlər edə bilər. Əsasən maliyyə və istisadi sanksiyaların gücləndirilməsi ehtimalı üzərində dayanılır. İranı uzun müddət təcrid vəziyyətində saxlamaqla siyasi islahatlar apamağa məcbur etmək kursu seçilə bilər. Lakin bu məqsədə nail olmaq üçün Qərb Cənubi Qafqaz siyasətində ciddi dəyişikliklər etməlidir.

Məsələondanibarətdirki,rəsmiTehranErmənistanlaəməkdaşlığını daha da genişləndirir. Hətta qanunsuz bank əməliyyatları aparılır. Regiondakı iqtisadi inteqrasiya prosesindən kənarda qalan İrəvan İran fürsətini əldən vermək istəmir. Ona görə də ekspertlər Tehran-İrəvan xəttində əməkdaşlığın dərinləşməsi və genişlənməsinə az ehtimal vermirlər. İran həm də Qərbin Ermənistana qarşı xeyli loyal olmasını nəzərə alır. Tehran əmindir ki, İrəvanı Qərb incitməyəcək.

Belə çıxır ki, Qərb İran məsələsini həll etmək üçün Ermənistan siyasətinə də yenidən baxmalıdır. Bu, bütün variantlarda baş verməlidir. İsrail İrana qarşı hərbi əməliyyat keçirsə belə, Ermənistanı əsassız himayə etmək siyasətinə son qoyulmalıdır. Qərb üçün vəziyyəti bu məsələdə çətinləşdirən əsas məqamlardan biri Rusiyanın ermənilərə tam nəzarət etməsidir.

Ermənilər həmişə Qərblə Rusiya arasında tərəddüd ediblər. Ona görə də hətta İran məsələsi kimi prinsipial problem kontekstində Ermənistan dünya üçün əngəl ola bilər. Bu çətin və ziddiyyətli vəziyyətdən Qərbin necə çıxacağını zaman göstərəcək.

**Newtimes.az**
24 sentyabr 2012

### *5.14. Siyasət və din: sələfilər*

Son zamanlar analitiklər sələfizmi siyasi aspektdə tez-tez təhlil edirlər. Müsəlman ölkələrində sosial-siyasi proseslərin intensvləşməsi fonunda bu, maraq doğurur. Siyasət meydanına yeni gücmü atılır? Bu proses hansı nəticələri verə bilər? Bu kimi suallar üzərində düşünməyə ehtiyac yaranıb.

**İslam və siyasət**

İslamın bir din olaraq geniş yayıldığı həqiqətdir. XX əsrin sonu, XXI əsrin əvvəllərində həmin proses daha geniş vüsət almağa başlayıb. Maraqlıdır ki, İslamın din kimi yüksəlişi müsəlman ölkələrində siyasi proseslərin aktuallaşması ilə müşayiət olunur. Ona görə də son illər "İslamın siyasiləşməsi" ifadəsi analitiklər tərəfindən tez-tez işlədilir. Əslində isə nələr baş verir? İslam doğrudanmı siyasiləşir?

Bu suallara analitiklərin və alimlərin müxtəlif cavabları vardır. Lakin reallıq belədir ki, müsəlman ölkələrinin siyasi səhnəsində İslam faktorunu öz ideoloji konseptində geniş istifadə edən partiyalar daha tez-tez görünürlər. Qərbdə isə həm İslamı qəbul edənlərin sayı artır, həm də siyasi-ideoloji müstəvidə islamofobiya güclənir. Bu paralelləri təsadüf hesab etmək çox çətindir.

Ənənəvi olaraq, İslamın siyasətə qarışması xüsusi məzmun kəsb edib. Dövlət başçıları ondan ictimai asayişi təmin etməkdə, barış yaratmaqda, ədalətli inkişaf modeli qurmaqda istifadə ediblər. Məsələn, Osmanlının idarəedilməsində islami dəyərlər mühüm yer tuturdu. Səfəvilər də bu faktordan geniş yararlanırdılar. Müasir tarixi mərhələdə isə vəziyyət bir qədər fərqlidir.

İndi dünya ictimaiyyətində belə bir təsəvvür formalaşdırılıb ki, İslam siyasətə qarışan kimi qan tökülür, terror baş alıb gedir. Hətta Qərb mediası İslamı daha çox terror kontekstində təqdim edir. Breyvik islamofobiyaya düçar olmuş terrorçudur. O, insanlara sadəcə, müsəlman olduqlarına görə nifrət edir və öldürürdü.

Təbii ki, İslamın terror və zorakılıqla heç bir əlaqəsi yoxdur. Ancaq o da həqiqətdir ki, bəzi radikal qruplar İslamın adından istifadə edərək cinayətlər törədirlər. Onlar fəaliyyətlərini hansısa islami ideologiya ilə izah etməyə çalışırlar. Buradan müasir tarixi şəraitdə İslamla siyasi fəaliyyət arasında sintez yaratmağa çalışan bəzi ideoloji cərəyanların tədqiq edilməsi aktuallığı yaranır. Həmin cərəyanlardan biri də sələfilikdir.



**Sələfizmin bəzi ideoloji özəllikləri**

İslamda bu cərəyanın əsası bir neçə əsr əvvəldən qoyulub. Onun baniləri sırasında Əhməd bin Hənbəli və Əbdüssəlam İbn Teymiyyəni göstərmək olar. Sələfizm "sələf" sözündəndir ki, "özündən əvvəl olan" mənasını verir. Dini cərəyan kimi sləfizmin mahiyyəti İslamda hər hansı yeniliyin düzgün olmadığını qəbul etməkdən ibarətdir. Yəni Məhəmməd Peyğəmbərin (s.) zamanında İslamda formalaşmış qanun-qaydalardan kənara çıxılmamalıdır.

Sələfilər İslamın təmizlənməsinə ehtiyac olduğuna əmindirlər. "Təmizlənmə" dedikdə onlar İslamda sonradan əlavə edilmiş yeniliklərdən azad olmağı və məzhəbçilikdən qurtulmağı nəzərdə tuturlar. Bu əsasda sələfilər özlərinin mövqeyinə uyğun gəlməyən hər bir dini müddəaya qarşı barışmaz mövqedədirlər. Uzun müddət bu mövqedə olan sələfilərdə fərqli baxışlara qarşı bir dözümsüzlük formalaşıb. Onlar özlərini tam haqlı sayırlar. Ona görə də İslam haqqında fərqli fikir söyləyənlərə dözümsüzdürlər. Həmin əsasda sələfilər daha çox fanatdırlar.

Fərqli dini baxışlara dözümsüzlük sələfilərin davranışlarını radikallaşdırıb. Onlar kütlə arasında "təmiz İslam" adlandırdıqları ideyaları başqa mövqeləri inkar etmək yolu ilə yaymağa çalışırlar. Hər hansı ortaq mövqe sələfilər üçün qəbuledilməzdir. İslamın yarandığı tarixi mərhələdə qəbul edilən bütün dini həqiqətlərdən başqa hər bir fikri yalan hesab edirlər. Eyni zamanda, dində edilən yeniliklərə qarşı mübarizə aparırlar. Fəlsəfənin təsirini isə qətiyyən qəbul etmirlər.

Bütün bu kimi ideoloji özəlliklər sələfiliyi hazırda ciddi bir faktora çevirib. Bəzi siyasi dairələr də məhz sələfiliyin həmin özəlliklərindən istifadə edərək, ondan öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Nəticədə, sələfizmin siyasi müstəvidə təhlükəli bir ideoloji mövqe olduğu haqqında son zamanlar tez-tez fikirlər söylənilir.

### Müasir siyasət və sələfilik

Son zamanlara qədər sələfilər siyasi partiya qismində fəaliyyət göstərmək istəmirdilər. Onlar demokratiyanı qəbul etmirdilər. Hər bir situasiyada fərqli siyasi mövqe tuturdular. "Müsəlman qardaşlar"ın siyasi karyerası sələfilərin mövqeyini dəyişməsinə təkan verdi. İndi onlar siyasi idarəetmədə iştirak etmək arzusundadırlar. Dünyanın müxtəlif ölkələrində də fəaliyyətlərini bu məqsədə yönəldirlər.

Söhbət sələfiliyin siyasi müstəvidə varlığından gedəndə bir xüsusiyyəti qeyd etmək lazımdır. Səudiyyə Ərəbistanı sələfiliyin dünyaya siyasi-ideoloji faktor kimi yayılması üçün çoxlu pullar xərcləyir. Daha çox "vəhhabilik" adı altında sələfilər fəaliyyətlərində radikalizmlə siyasəti birləşdirməyə çalışırlar. "Əl-Qaidə" bunun nümunələrindən biridir.

"Əl-Qaidə"nin Misir və Suriyada yeni fəaliyyət üsuluna keçməsi haqqında məlumatlar yayılır. Suriyada onlar tədricən əyalətlərdə öz hakimiyyətlərini qurmağa çalışırlar. Xüsusi adamlarını yerlərdə idarəetməyə cəlb edirlər və orada öz ideoloji mövqelərinə uyğun strukturlar qurmağa çalışırlar. Bəzi yerlərdə buna nail olublar. Bu prosesi müşahidə edənlər belə qənaətə gəliblər ki, vəhhabilər əvvəlki kimi demokratiyaya qarşı çıxmırlar.

Beləliklə, sələfizm tədricən siyasi-ideoloji fəaliyyətə keçir. "Müsəlman qardaşları" kimi hakimiyyətə gələndən sonra isə hansı addımlar atacaqlarını heç kəs bilmir. Sələfiliyin bu ideoloji transformasiyası Qərbi narahat edir. Eyni zamanda, bəzi dairələr bundan müsəlman dövlətlərinin özünə qarşı istifadə etməyə cəhdlər edirlər.

Məsələnin bu tərəfi olduqca ciddi miqyas alıb. Çünki İslam ölkələri inkişaf etdikcə onların beynəlxalq miqyasda söz demək imkanları da genişlənir. Həmin proses bir sıra dairələri narahat edir. Onun qarşısını almağın yollarından biri müsəlman ölkələrində İslama bağlı, lakin fərqli siyasi mövqeləri olan partiyaların sayını çoxaltmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün öz radikal və barışmaz dini baxışları ilə fərqlənən sələfilikdən istifadə etmək daha sərfəlidir. Sələfiliyi siyasi cərəyan olaraq gücləndirməklə müsəlman ölkələrində intriqalar üçün geniş imkanlar yaradılır.



Bu zaman siyasətlə məşğul olan hər bir qrupun demokratik dəyərlərə sadiq olduğu təəssüratı da yaradılır. Məsələn, "Müsəlman qardaşları"nın demokratik obrazını formalaşdırırlar. Ancaq Henri Kissincer bu məsələyə ciddi şübhə ilə yanaşır. Misirdə siyasi islahatların hansı istiqamətdə aparılacağının hələ aydın olmadığı fikrini söyləyir. O əmindir ki, dinə bağlılığı olan qruplarla çox ehtiyatlı hərəkət etmək lazımdır. Bu tezis xristian dini ilə əlaqəli olan siyasi qruplaşmalara da aiddir. Çünki son zamanlar Qərbdə dini fundamentalizmin siyasətə sirayət etməsindən narahatlıq ifadə olunur. Rusiyada da belə bir problem özünü göstərməkdədir.

Sələfilərin nə dərəcədə demokrat olduqları onların ənənəvi ideoloji mövqeyindən aydın görünür. Fərqli dini baxışı sələfizm hələ də qəbul etmir. Deməli, siyasi aspektdə sələfilik risk faktorudur. Sözdə deyilməsinə baxmayaraq, konkret siyasətdə onların sülhpərvər və demokratik kurs yeridəcəklərinə inam yoxdur.

### Dini parçalayanlar: dünya üçün böyük təhlükə

Hazırda İslam adından istifadə edib, siyasi fəaliyyət göstərən qrupların sayının artması dinin taleyi baxımından düşündürücüdür. İslam mənəvi-əxlaqi dəyərlər və sosial-mədəni normalar sistemi kimi böyük üstünlüklərə malikdir. İndi dünyada İslamı qəbul edənlərin sayı sürətlə artır. Bu prosesə mane olmaq üçün İslamı siyasətə cəlb etmək fikrində olanlar meydana çıxıblar. İlk baxışdan İslamın yüksəlişi kimi görünən bu proses bir qədər sonra qarşısıalınmaz mənfi tendensiyaya çevrilə bilər.

Məsələ ondan ibarətdir ki, din siyasətlə çulğalaşanda şəxsi və qrup maraqları hər şeydən üstün olur. İnsanlar İslama siyasi hadisə kimi yox, məhz mənəvi-əxlaqi dəyərlər sistemi kimi üstünlük verirlər. Onun bu obrazının dəyişməsinin kimlərə xeyirli olduğu aydındır.

Sələfilik kimi cərəyanların siyasət meydanına demokrat obrazında daxil olması İslam dünyasının parçalanmasına gətirib çıxara bilər. Müsəlmanlar İslam ümməti olaraq fərqli siyasi baxışlara malik ola bilərlər. Lakin bu fərqliliyin kökünə hansısa dini müddəanı qoyanda məsələ inama gedib çıxır. Bu da faktiki olaraq İslamın daxildən parçalanması, onun siyasi ehtirasların məhvedici axınına atılması deməkdir.

"Ərəb baharı" adlanan prosesin fonunda bu məsələ daha aktual görünür. Çünki məhz həmin kontekstdə müxtəlif radikal dini cərəyanlar siyasi status almağa çalışırlar. Onlar "ərəb baharı"nın yaratdığı sosial-psixoloji çətinliklərdən yararlanmağa cəhd edirlər. Hazırda bu tendensiya "ərəb baharı"nın əhatə etdiyi ölkələrdə daha kəskin şəkildə özünü göstərir. H.Kissincerin bu prosesin mahiyyətinin tam aydın olması haqqında söylədiyi fikirlərdə həmin məqamın rolu az deyil.

Təbii ki, bu prosesdən bütün dünya ziyan görə bilər. Çünki müasir tarixi mərhələdə din kimi İslamın üzərinə böyük məsuliyyət düşür. Bu din bəşəriyyətə barış və tərəqqi bəxş edə bilər. Digər dinlərlə yanaşı mövcud olması ümumilikdə dünyanın sülh içində yaşamasına ciddi töhfə olar. Bunun səbəbi məhz İslam dünyasının sivilizasiya olaraq sürətli inkişaf mərhələsini yaşamasındadır.

Bu gün İslamı parçalamaq istəyənlər, əslində öz gələcəklərini məhv edirlər. Yeganə doğru yol dini siyasətə qatmamaqdır. Din həmişə özünə yol tapır. İnsan bundan siyasi məqsəd üçün istifadə etməyə başlayanda isə, inkişaf yolları bağlanır. Belə bir məsəl var: ağıllı adam oturduğu budağı kəsməz. Yəqin ki, bu məsəli cəmiyyətə də aid etmək olar.

**Kamal Adıgözəlov**
30 oktyabr 2012

### *5.15. Müharibə və blef: İran, İsrail və Birləşmiş Ştatlar*

ABŞ-ın "Stratfor" analitik mərkəzinin qurucusu və icraçı direktoru professor Corc Fridmanın "Müharibə və blef: İran, İsrail və ABŞ" adlı məqaləsi dərc edilib.

Müəllif bir neçə maraqlı tezis irəli sürüb. Onlar, bütövlükdə Qərb hakimiyyət dairələrinin Yaxın və Orta Şərq siyasətinin mühüm aspektlərini dərk etməyə imkan verir. O cümlədən, İran ətrafında aparılan oyunların bəzi pərdəarxası məqamlarına nəzər salmaq imkanı yaradır.

C.Fridman Qərbin İran siyasətinin mürəkkəb olduğunu vurğulayır. İsrail-İran-ABŞ xəttində həyata keçirilən geosiyasi gedişlərin tam mənası hələ aydın deyil. Burada hər bir oyunçunun açıq və gizli



istifadə etdiyi kartı var. Onların nə zaman tam anlamda masaya qoyulacağı vaxt da məlum deyil. Oyunçular da bunu bilirlər və ona görə də hər biri öz xəttini davam etdirir.

Əsas narahat olanlar isə bu oyunu müşahidə edən region dövlətləridir. Düşündürücüdür ki, C.Fridman Yaxın və Orta Şərqi geosiyasi gərginlikdə saxlamaqda İsrail, İran və ABŞ-ın maraqlarının üst-üstə düşdüyünü sətiraltı vurğulayır. Bunu onların atdığı siyasi və diplomatik addımlardan, apardıqları informasiya müharibəsinin gedişindən hiss etmək olur.

Bu oyunda İsrailin öz maraqları var. O, bir tərəfdən, İrana yerini göstərməklə regional miqyasda söz sahibi olduğunu sübut etməyə çalışır. Bu kontekstdə Tehrana hədə-qorxu gəlir, nüvə obyektlərinə hava zərbəsi endirməkdən danışır. Digər tərəfdən isə, ABŞ-la razılaşdırılmış geosiyasi oyun qurur.

Amerikanın stratejidə İranın güclənməsinə əngəl olacağına Təl-Əviv əmindir. Çünki Vaşinqton dünyada heç bir çox güclü dövlətin meydana gəlməsinə imkan verməməyə çalışır. Ona görə də İsrail İrana indi hərbi zərbə endirməyə elə də həvəsli deyil.

ABŞ-ın məqsədləri daha qlobal xarakter daşıyır. Vaşinqton həvəslə İranın Suriya məsələsində nüfuzunu itirməsini izləyir. Tehran nüvə proqramı vasitəsi ilə dünyada siyasi çəkisini artırmışdı. Ən azından BMT TŞ-nin beş üzvü və Almaniya ilə nüvə məsələsini bir masa ətrafında müzakirə etmək hüququ əldə etmişdi. Bu, istənilən dövlət üçün geosiyasi nüfuz deməkdir.

İndi Suriyada B.Əsədin siyasi karyerasının faciəli başa çatması ilə Tehranın kimi müdafiə etdiyi sadə adamlara belə aydın olur. Yəni İran geosiyasi proqnozlarında yanıla bilir. Bu da dövlətin nüfuzunu zədələyən amildir. Bundan başqa, ABŞ İranın nüvə proqramı ətrafında süründürməçi və qeyri-müəyyən mənzərə yaratmaqla, hər zaman situasiyaya müdaxilə etmək şansını saxlayır. Məhz buna görədir ki, rəsmi Vaşinqton İsraillə İrana hərbi hücum məsələsini müzakirə etməkdən yayınır.

Buna paralel olaraq rəsmi Vaşinqton sanksiyalarla Tehranı təzyiq altında saxlayır. Yəni o, Qərb siyasətinin hədəfində qalmaqdadır. ABŞ həmin üsulla özünün böyük geosiyasi rəqibləri olan Rusiya və Çini də

öz oyununun bir parçasına çevirə bilib. Çünki dünyanın bütün böyük gücləri Suriya-İran xəttində baş verənlərə həssas yanaşırlar – onların hər biri öz geosiyasi maraqlarının təmin edilməsinə çalışırlar.

C.Fridmanın məqalədə irəli sürdüyü tezislər əsasında gəldiyi ümumi qənaət diqqətçəkicidir. O, İsrailin Amerika siyasətini yönəltdiyi görüntüsünü yanlış hesab edir. Dərindən vəziyyətə nəzər salanda tamamilə fərqli mənzərə alınır.

İsrail bir neçə ildir ki, İranı hədələməklə, əslində, Vaşinqtonun siyasətinə xidmət edib. Çünki İsrail faktorundan ABŞ istifadə edərək İrana təzyiqlərini tədricən artırıb, onu beynəlxalq aləmdən təcrid edib. Amerikanın əsas məqsədi İranın nüvə proqamını məhv etmək deyil. Başlıca məqsəd İranı müharibəsiz inkişafdan saxlamaqdır. Bu mənada, İsrail siyasətçilərinin ritorikası Amerika üçün çox faydalıdır.

Həmin məntiqlə Netanyahu reallıqda Vaşinqtonun əlinə oynayır. O, özünü Amerikanı İrana qarşı müharibəyə cəlb edən tərəf qismində göstərir. Netanyahunun müharibə haqqında alovlu danışıqları son nəticədə ABŞ-ın İrana təzyiqi artırmaq planlarının bir fraqmentidir. Ona görə də İrana psixoloji təsirin daha da güclənəcəyini proqnozlaşdırmaq olar.

**Newtimes.az**
19 sentyabr 2012

### *5.16. Yaxın Şərq böhranı: Ankaranın yol xəritəsi*

2011-ci il oktyabrın 14-də A.Tokvill adına mükafatın təqdim olunma mərasimində çıxış edən Z.Bjezinski demişdi ki, "qlobal gücün bir neçə dövlətin inhisarına keçməsi... siyasi qüdrətin parçalanması ilə müşayiət olunur"[1]. Z.Bjezinski hesab edir ki, qlobal miqyasda ABŞ-ın geosiyasi təsiri azalır. Şərqin gücü isə əsas dövlətlər arasında potensial münaqişələrin və güzəştsiz rəqabət təhlükəsi fonunda artır. Qlobal miqyasda gərgin geosiyasi mübarizə gedir.

[1] Zbigniew Brzezinski Receives Jury du Prix Tocqueville Prize // Center for Strategic and International Studies (CSIS), October 14, 2011. URL: http://csis.org/publication/zbigniew-brzezinskis-de-tocqueville-prize-speech.



C.Fridman Suriyanın türk qırıcısını vurmasının V.Putinin İsrail səfərinə "çox gözlənilməz dinamika verdiyi"ni vurğulayır[1]. Z.Bjezinskinin yuxarıdakı qiymətləndirmələri işığında bu, maraqlı görünür. Hadisə qlobal səviyyədə aparılan geosiyasi oyunların bir fraqmentidirmi? Əgər bu da "siyasi gücün regionlara yayılması" əlamətidirsə, sonrakı mərhələdə toplanan enerji geosiyasi "partlayışa" gətirib çıxaracaqmı?

Suriya ilə Türkiyə arasında müşahidə edilən gərginliyin səbəbləri haqqında aparılan təhlillərdə bu suallar müxtəlif aspektlərdə qoyulur. Dolayısı ilə əksər analitiklər əmindir ki, gərginlik sadəcə bir qırıcının vurulmasından yaranmamışdır. Yaxın və Orta Şərqdə geosiyasi gərginliyi kəskinləşdirən qorxunc mexanizmin nəfəsi duyulur. Bu, kimlərin marağındadır?

#### Müəmmalarla dolu hadisə

Türk qırıcısı vurulandan sonra, onunla bağlı hadisələr qəribə və müəmmalarla dolu tərzdə baş verir. Suriya və Türkiyə hadisənin gedişini fərqli təsvir edirlər. Suriya bir qədər istehzalı və saymazyana davranır. Ağır daxili çəkişmələrə məruz qalan və hərbi imkanlarına görə Türkiyədən zəif olan bir dövlət normal halda belə hərəkət etməzdi. Deməli, onun arxalandığı başqa qüvvə və ya qüvvələr var. Türkiyədə analitiklər məhz buna işarələr edirlər.

Rusiya rəsmi səviyyədə dərhal reaksiya verdi. Xarici işlər naziri S.Lavrov türk həmkarı ilə telefon danışığında hadisəni müzakirə etdi. Rusiya XİN tərəfləri təmkinli davranmağa çağırdı. İran daha aktiv görünür. Əvvəlcə İran Xarici İşlər Nazirliyinin sözçüsü Türkiyə və Suriyanı təxribatlara uymamağa dəvət etdi. Sonra isə İran Məclisi xarici siyasət komissiyasının rəsmi nümayəndəsi Hüseyn Nakavi Türkiyənin Suriyaya tələ qurduğunu dedi. Onun sözlərinə görə, Türkiyə bununla NATO-nun Suriyanı vurmasına şərait yaradır[2].

[1] George Friedman, Putin's Visit and Israeli-Russian Relations // Stratfor, June 26, 2012. URL: http://www.stratfor.com/weekly/putins-visit-and-israeli-russian-relations.
[2] 'Türkiye komplo peşinde' // Milliyet Gazetesi, 26 Haziran 2012, URL: http://dunya.milliyet.com.tr/-turkiye-komplo-pesinde-/dunya/dunyadetay/26.06.2012/1559112/default.htm.

Çindən isə heç bir rəsmi mövqe bildirilməyib. Hər halda rəsmi Pekin zahirən sakit və laqeyd görünür...

Qərbin hadisəyə reaksiyası düşündürücüdür. Yəni zahirən Qərb dövlətlərinin hər biri Suriyanı qınayır. ABŞ və Avropanın çoxlu sayda media orqanı hadisəni geniş şərh etdilər. BBC radiosu NATO-nun Suriyanın hərəkətlərini pislədiyini bildirdi. AFP informasiya agentliyi Türkiyənin özünümüdafiə haqqının olduğu haqqında məlumat verdi. "Der Spiegel" jurnalı Suriyanın "qana susamış diktatordan və qrupdan qurtarılması" zərurətindən yazdı[1].

ABŞ dövlət katibi və Avropa İttifaqı Suriyanın hərəkətlərini kəskin pislədi. Türkiyənin haqlı olduğu vurğulandı. İyunun 26-da Türkiyənin tələbi ilə toplanan NATO üzvlərinin hamısı Suriyanın hərbi təyyarəni vurmasını "kəskin surətdə pislədi". NATO-nun bəyanatında rəsmi Dəməşqin ünvanına ittihamlar yer aldı.

Qərbin bu münasibəti fonunda Suriyaya qarşı konkret addım atmaq istəmədiyi də açıq göründü. NATO-nun baş katibi Anders Foq Rasmussen Suriyaya qarşı hansı tədbirlərin görülə biləcəyi ilə bağlı verilən sualı cavabsız buraxıb. ABŞ da sözdə dəstəkdən başqa konkret bir şey təklif etməyib. Aİ üzvləri də qurumun hansısa konkret addım atmasından söz açmırlar. C.Fridman əvvəlcədən proqnoz vermişdi ki, Qərb bu məsələdə "şiddətli ritorika, zəif hərəkət" taktikasını seçəcək[2]. Qərbin bəzi media orqanı ABŞ-ın Rusiyaya güzəştə getməkdə tələsdiyini vurğulayırlar. Isabel Kershner "The New York Times" qəzetində dərc edilən məqaləsində yazır ki, Rusiya Suriya və İran siyasətini dəyişməyəcək. Ona görə də Moskvaya güzəştə getməyin mənası yoxdur[3].

---

[1] Dünya flaş haber olarak gördü // Milliyet Gazetesi, 26 Haziran 2012, URL: http://dunya.milliyet.com.tr/dunya-flas-haber-olarak-gordu/dunya/dunyadetay/26.06.2012/1559092/default.htm.

[2] George Friedman, Putin's Visit and Israeli-Russian Relations // Stratfor, June 26, 2012. URL: http://www.stratfor.com/weekly/putins-visit-and-israeli-russian-relations.

[3] Isabel Kershner, Just Passing Through, Putin Consults With Israeli Leaders on Syria and Iran // The New York Times, June 25, 2012. URL: http://www.nytimes.com/2012/06/26/world/middleeast/putin-visits-with-israeli-leaders.html.



**"Türkiyənin qəzəbi şiddətlidir"**

Türkiyə Suriyanın bu hərəkətinə "şiddətli cavab verəcəyini" bildirdi. Baş nazir Rəcəb Tayyib Ərdoğan partiyasının iyunun 26-da keçirilən qrup toplantısında bu haqda xeyli danışdı. Sonra Azərbaycanla Türkiyə arasında Transanadolu qaz boru kəməri layihəsi haqqında sazişin imzalanmasına həsr edilən mərasimdə eyni sərt mövqeyini bildirdi. Türkiyə mediası ordunun Suriya ilə sərhədə hərbi güc topladığı haqqında məlumatlar verir. Rəsmi Ankara Suriya tərəfdən sərhədinə yaxınlaşan hər bir hərbi obyekti təhlükə kimi qiymətləndirib, xəbərdarlıqsız vuracağını bəyan etdi. R.T.Ərdoğan NATO-nun mövqeyindən razılığını bildirdi. Hiss olunur ki, Türkiyə Suriyadakı rejimə qarşı mövqeyini daha da sərtləşdirəcək, ancaq xalqı müdafiə edəcək. Rəsmi Ankara aydın qeyd edib ki, Suriya xalqının apardığı mübarizəni dəstəkləyir.

Bəzi analitiklər Suriya ilə Türkiyə sərhədində qaçqın düşərgələrinin olmasını təhlükə mənbəyi adlandırır. Rəsmi Dəməşqin orada hər an təxribat törədə biləcəyini istisna etmirlər. Görünür, Türkiyə Suriyaya müdaxilə etməyi düşünmür. Rəsmi Ankara təmkinli davranır. Türkiyə hadisənin arxasında başqa qüvvələrin dura biləcəyinin fərqindədir. Ona görə də Türkiyə NATO-ya müraciət etdi. BMT-də də məsələnin müzakirəyə çıxarılması gözlənilir. Suriyaya təzminat tələbi ola bilər. Bununla da Türkiyə problemi beynəlxalq təşkilatlar səviyyəsinə qaldıraraq, özünü sığortalayır. Əgər kimlərsə, Türkiyəni Suriya ilə toqquşdurub, ondan geosiyasi dividend götürmək fikrində olubsa, rəsmi Ankara onlara bu imkanı vermədi. Suriyanı Türkiyə ilə toqquşdurmaqla B.Əsədə də yardım etmiş olurlar. Bu halda rəsmi Dəməşq xaricdən təhlükə olduğunu və ölkənin rəsmən müharibə apardığını bəhanə gətirmək şansı əldə edəcək. Belə hallarda daxildə hakimiyyətə qarşı hər hansı hərəkəti "milli xəyanət" kimi qiymətləndirə bilirlər. Digər tərəfdən, Suriya-Türkiyə savaşını başlatmaqla əsas problemi – B.Əsəd rejiminin dəyişdirilməsini arxa plana atırlar. Bununla da Suriyada qeyri-müəyyənlik qalır. Paralel olaraq, çoxlu sayda dövlətin başı bu məsələyə qarışmış olur. Həmin qarışıq vəziyyətdən kimlərsə geosiyasi dividend götürməyi planlaşdırır.

**Yaxın Şərqdə böyük oyunların ssenariləri**

Nədənsə, Suriyanın Türkiyə qırıcısını vurması V.Putinin İsrail, Fələstin və İordaniyaya səfəri ərəfəsi baş verdi. Bunu təsadüf də adlandırmaq olar. Ancaq Qərbin bir çox tanınmış analitikləri Rusiya prezidentinin səfərini Suriya, İran siyasəti və türk qırıcısının vurulması ilə əlaqələndirdilər. Onların içərisində C.Fridmanın mülahizələri və proqnozları diqqəti çox çəkir[1]. Rusiya ABŞ-ın diqqətini Yaxın və Orta Şərqdə cəmləşdirməsinə çalışır. Səbəb odur ki, Moskva özü üçün həyati əhəmiyyətli saydığı geosiyasi məkanda mövqeyini möhkəmlətməlidir. Həmin məkan postsovet ərazisidir. Ukrayna, Qafqaz və Mərkəzi Asiyada Amerikanın planlarını həyata keçirməməsi üçün Yaxın Şərqdə vəziyyət kəskinləşməlidir. Maraqlıdır ki, jurnalist Fred Ueyr də oxşar fikirdədir. O, "The Christian Science Monitor"da yazır ki, "Rusiya və İsrail üçün ərəb dünyasında bazarlıq oyunları və qarışıqlıq İran üzrə fikir ayrılığından daha əhəmiyyətlidir"[2].

Rusiya ilə İsrail Suriya məsələsində də ortaq məqamlar tapa bilərlər. İsrailin Suriyaya təsir etmək imkanları azdır. İraqda İran öz nüfuzunu artırdıqdan sonra İsrail üçün Suriyada da hərəkət etmək çətinləşib. Moskvanın isə Dəməşqə təsiri böyükdür. Bundan başqa, Suriyada mötədil sünni hakimiyyətinin olması Təl-Əvivi və Moskvanı qane edə bilər. Ancaq bu hakimiyyət antiiran meylli olmamalıdır. B.Əsəddən bu şərtlər daxilində imtina etmək olar. Rusiya və İsrail B.Əsəd rejiminin çökməsinə inanmağa başlayıblar. Rusiya İsrailə görə İranla münasibətləri pozmaq istəmir. Ona görə də elə bir "yumşaq mövqe" seçməyə çalışır ki, hər iki dövlətlə münasibətlərini saxlasın.

---

[1] George Friedman, Putin's Visit and Israeli-Russian Relations // Stratfor, June 26, 2012. URL: http://www.stratfor.com/weekly/putins-visit-and-israeli-russian-relations.

[2] Fred Weir, Israel and Russia: Trade and restive Arab world outweigh differences on Iran // The Christian Science Monitor June 25, 2012, URL: http://www.csmonitor.com/World/Europe/2012/0625/Israel-and-Russia-Trade-and-restive-Arab-world-outweigh-differences-on-Iran.



Bu fikirlərin fonunda Suriyanın türk qırıcısını vurmasının bir çox faktorlarla bağlı olduğu qənaəti yaranır. Görünür, hər şeydən əvvəl Türkiyə, ABŞ və Avropa üçün Yaxın Şərqdə yeni problemlər yaratmağa çalışırlar. Onları ərəb dünyası ilə üz-üzə qoyub, regionda gərginliyi artırmaq istəyirlər. Lakin nə Türkiyə, nə də NATO bu tələyə düşmədi. Proseslərin sonrakı inkişafı Türkiyənin ictimai rəyi necə sakitləşdirəcəyindən və mümkün təxribatların qarşısını nə dərəcədə alacağından asılıdır. Burada Türkiyə faktorunun geosiyasi əhəmiyyəti çox vacib məsələdir.

Z.Bjezinski sadəcə geosiyasi prosesləri təhlil etmir – o, həm də bu cür prosesləri yaradanlardandır. Amerikalı siyasi xadim və politoloq Türkiyəni Rusiya ilə bərabər böyük bir geosiyasi məkanda əsas güc kimi gördüyünü deyirsə, bunun arxasında konkret plan var. Türkiyənin Yaxın Şərqdə, Qafqazda və Mərkəzi Asiyada nüfuzunun artması bunu təsdiq edir. Son aylar isə "ərəb baharı" ilə bağlı olan proseslərdən Türkiyənin nüfuzunu azaltmaq üçün istifadə cəhdləri aydın görünür. Hətta bəziləri Ə.Davudoğlunun "qonşularla sıfır problem" konsepsiyasının iflasa uğradığını deyirlər. Bunu göstərmək üçün gah daxildə münaqişə yaratmağa çalışırlar, gah da regionda Türkiyəyə qarşı təxribatlar törədirlər. Onu da deyək ki, Suriya ilə münaqişə Azərbaycanla Türkiyənin Transanadolu enerji layihəsini imzalaması ərəfəsində başladı. R.Ərdoğan bu layihənin Türkiyə və Azərbaycanın strateji əhəmiyyətini xeyli artırdığını qeyd edib.

Dünyanın bəzi KİV orqanları Ankaranın Suriyaya hücum etməli olduğunu manşetlərə çıxardılar. Məsələyə İsraili, Yunanıstanı və Kiprin yunan hissəsini qatmağa çalışdılar. Bəzi analitiklər Rusiya-İsrail-Yunanıstan-Kipr geosiyasi xəttinin formalaşması ehtimalını irəli sürdülər. Başqaları Rusiya-Çin-İran "üçbucağı"nın fəallaşdığını iddia etdi. Hətta bir neçə politoloq türk qırıcısının rus raketi ilə vurulduğunu yazdı. Qırıcını yunanların İsrail raketi ilə vurduğu versiyasını ortaya atanlar da tapıldı. Maraqlıdır ki, bu kimi informasiyalar Türkiyə mətbuatında daha çox yer aldı. Rusiya mediası isə iyunun

26-da Suriyaya C-300 raketlərinin satışının dayandırıldığı haqqında məlumat yaydı.

V.Putin Yaxın Şərq səfərinin yekunlaşması ilə bağlı brifinq keçirib. Rusiya prezidenti qeyd edib ki, Suriya məsələsinin həllində "daha çox dövlətlərin iştirak etməsi" konstruktiv nəticələr verərdi. O, konkret olaraq İranın bu məsələnin həllinə cəlb edilməsi ehtiyacını qeyd edib. Rusiya prezidenti bəzi qonşuların Suriyanın daxili vəziyyətinə təsir etmək imkanlarının olmasını xatırladıb. Ona görə də İranın Suriya probleminin həllinə cəlb edilməsi "konstruktiv addım olardı"[1]. Siyasətdə sözü adətən dolayısı ilə deyirlər.

Bütün bunlar Suriya-Türkiyə münaqişəsinin doğrudan da qlobal miqyasda geosiyasi proseslərlə bağlı olduğunu təsdiqləyir. Əlbəttə, bu, üzücü və yorucu bir oyundur. Daha səbirli, təmkinli və güclü olan bu şərtlərdə qalib gələ bilir. Kimin güclü olduğunu zaman göstərəcək. Çörçill tövsiyə edirdi ki, "heç zaman təslim olmayın!"

**Newtimes.az**
9 avqust 2012

### *5.17. Ərəb baharı, yoxsa dramı? 8 fakt və 7 fəlsəfi sual*

Yəqin "dram" tam uyğun söz deyil və əlbəttə ki, bu hadisələri bahar adlandırmaq olmaz. Və bəlkə də "fəlsəfi suallar" təvazökar səslənmir. Lakin milyonlarla teleseyrçilərin gözü qabağında hər gün Yaxın Şərq xalqlarının faciəsi baş verir və bu insanı düşündürməyə vadar edir. Vəziyyətə hətta gözucu baxış bir xüsusiyyəti açıqlayır – regionda vətəndaş çaxnaşmalarının yaranmasında və inkişafında aydın görünən lokal faktlar universal xarakterli suallarla yanaşı durur.

Əvvəla aydın adlandırdıqlarımız barədə.

1. Ben Əli, Mübarək, Saleh, Qəddafi, Əsəd kimi avtoritar rəhbərlər onilliklərlə hakimiyyətdə olduqlarına rəğmən bu və ya digər

[1] Владимир Путин: Урегулированием в Сирии должен заниматься широкий круг стран РИА Новости, 26 июня 2012, URL: http://ria.ru/arab_sy/20120626/685639028.html.



səbəblərdən öz hakimiyyətlərinin legitimliyinin davamlı əsaslarını yarada bilmədilər.

2. Bu ölkələrdə cəmiyyətin böyük hissəsinin hakimiyyətə qarşı çıxışı baş vermişdir. Suriyanı NATO təyyarələri bombalamır, lakin Əsəd qoşunları ölkənin yarısına nəzarət edə bilmir. Bu bir nəzəri faktdır ki, üsyançıları xarici qüvvələr dəstəklədiyinə görə vətəndaş müharibəsi "vətəndaş müharibəsi" keyfiyyətini itirmir.

3. Hadisələr ardıcıl surətdə, ölkədən ölkəyə cərəyan edir, növbəti ölkəyə keçid zamanı əvvəlki ölkə media işıqlandırmasından itir. İnqilablar kasıb və avtoritar "respublikalarda" baş verir, neft monarxiyalarında məsələ hələ ki yerli narazılıqlarla məhdudlaşır.

4. Demək olar ki, əksər hallarda hakimiyyət uduzur. Əgər bu Mübarək və yaxud Ben Əli kimi Amerika tərəfdarı olan rəhbərlərdisə, kapitulyasiya daha tez baş verir. Lakin bütün hallarda hakimiyyət dəyişikliyi stabilləşmə ilə nəticələnmir, o ki qaldı demokratiyanın təşviqi və sayır məsələlər. Xaos davam edir və yeni hakimiyyətə gəlmiş qüvvələr cəmiyyətin parçalanması və dövlətin dağılması təhlükəsi ilə üz-üzə qalırlar. Belə söyləmək mümkündürsə, "sirli fələk" yeni hakimiyyətə demokratiyanı qurmağa imkan vermir.

5. Hakimiyyətin devrilməsindən sonra bərqərar olan yeni xaosu iki əsas məqamla səciyyələndirmək olar: ərazi-etnik əlamətə görə parçalanma, bu, xüsusən, ölkədə neft və qazın mövcudluğu halında aktualdır. O zaman neft yataqları ətrafında mərkəzdən müstəqil milli təsisatlar yaranır; sosial müstəvidə parçalanma, yəni müxtəlif sosial qruplar, dini cərəyanlar arasında ixtilaflar.

6. Qərb xalq üsyanlarının dəstəklənməsində müstəsna rol oynayır, lakin Yaxın Şərqdə demokratik dövlətlərin yaradılması barədə Qərbin bəyan etdiyi niyyətlər bir çox analitiklərin skeptisizmi ilə qarşılanır. Hesab edilir ki, demokratiya və insan haqları avtoritar rəhbərlərə təzyiq göstərmək üçün Qərbin istifadə etdiyi alətlərdi. Bu kontekstdə bütün regionun yenidən bölüşdürülməsindən və Yaxın Şərq rejimlərinin dəyişdirilməsi barədə Amerikada "Böyük Yaxın Şərq" adlı bir planın olmasından danışılır.

7. Sui-qəsd nəzəriyyələri çərçivəsində ərəb inqilablarının təhriki və dəstəyi Qərbin 3 həyati əndişəsi ilə əlaqələndirilir – dünya iq-

tisadi böhranı, müsəlman və rus "təhlükəsi". Bu digər dövlətlərin destabilizasiyası vasitəsilə öz böhranından çıxmaq, müsəlman sivilizasiyasının qarşısını almaq və Rusiyaya təzyiq göstərmək cəhdləri kimi ba°a dü°ülür.

8. Regionun əksər dövlətləri Qərbin hərəkətlərini təqlid edir və problemli ölkələrdə etiraz nümayişlərini dəstəkləyirlər. Lakin 2 dövlətin mövqeyi bu ümumi mənzərə ilə dissonans təşkil edir – İran və İsrail. İran heç də "ərəb baharından" vəcdə gəlməmişdir. Dini faktor da mühüm rol oynayır və bu xüsusilə İranın Bəhreyn və Suriya hadisələrinə fərqli münasibətində özünü büruzə verir. İsrail isə ərəb hadisələrini həvəssiz şərh edir və ümumiyyətlə elə təəssürat yaranır ki, bu ölkə öz bilavasitə qonşularından daha çox İranla məşğuldur.

Yaxın Şərqdə cərəyan edən hadisələrin əsas determinantları bunlardır. Lakin onlar "Sonra nə olacaq?" və xüsusilə də "Nə etməli?" kimi klassik suallara məqbul cavab vermirlər. Bəlkə də ona görə ki, daha konkret, ancaq elmi baxımdan hələ də dürüst ifadə edilməmiş suallar mövcuddur:

1. Niyə onilliklərlə qurulan rejimlər, olsun ki avtoritar tipli, kağızdan düzəldilmiş qəsrlərə bənzəyir – tez və cırıltı ilə dağılırlar?

2. Niyə Misirdə və ya Suriyada cəmiyyətin bir hissəsi içində daxili etirazını gizlədərək illərlə hakimiyyətə passiv və gizlin müxalifətdə yaşayırdı? Problem yalnız pis iqtisadiyyat, yoxsulluq, savadsızlıq və hakimiyyətin avtoritar təbiətindədirmi? Normal imkanı olan intellektualların, orta təbəqənin mətbəx müxalifətinə keçidini nə şərtləndirdi və onlar necə dini fanatiklərlə ortaq dil tapdılar?

3. Narazıların Qərb tərəfindən dəstəklənməsi hakimiyyətin taleyini həll edən yeganə səbəb idimi? Cavab "yox"dursa, o zaman niyə illərlə yatan cəmiyyətlər birdən və birlikdə oyandılar? Niyə etirazların gücü xaricdən gələn bəyanatlarla sinxron artırdı?

Cavab müsbətdirsə, o halda insanların ağıl və ürəklərinə Qərbin ovsunlu təsirinin fenomeni nədən ibarətdir? O fenomenin ki, onun təsiri altında irrasional hərəkətlər görülür və bu hərəkətlər heç də demokratiya və rifahla nəticələnmir.

4. Əgər bu doğrudan da belədirsə, iqtisadi böhrandan çıxış üçün Qərb hansı üsullarla kasıb Şərq ölkələrindəki iğtişaşlardan yaralanmaq fikrindədir? Tələbin azalması və inkişafı əngəlləyən texnoloji baryerlər kimi qlobal struktur problemlərin həllində geridə qalmış ölkələrin dağıdılması necə yardım edə bilər?

5. Niyə Qərb tərəfindən dəstəklənmiş üsyanlar nəticəsində bir sıra hallarda hakimiyyətə "islamçılar" gəlir və Qərbə qarşı bəyanatlarla çıxış etməyə başlayırlar?

6. Regional güc mərkəzlərinin mövqeləri nə dərəcədə bu dövlətlərin əsl maraqlarını əks etdirir və nə dərəcədə onlar xarici təsirdən asılıdırlar? "Ərəb baharı"nın bu dövlətlərdə davam etməsi ehtimalı varmı?

7. Mübarək və digərləri nəyi düzgün etmirdilər, onların əsas səhvləri nədən ibarətdir? Demokratik hüquq cəmiyyətinin çox gec qurulmasında idimi bu səhv? Qərb demokratiyasının (ayrı demokratiya növü hələ ki dünyada yoxdur) Şərq ölkələrində inşası ümumiyyətlə mümkün idimi? Əgər mümkün deyildisə, onlar nə etməli idilər ki bugünkü fəlakətlər baş verməsin?

**Ayaz Qədirov**
15 noyabr 2013

# VI Fəsil
# CƏNUBİ QAFQAZDA VƏZİYYƏT VƏ ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ

## *6.1. Qarabağ münaqişəsində multistandartlı Qərb ədaləti*

2012-ci ilin mart ayından Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsinə dair danışıqlara başlandı. Bu da yəqin ki, özünün xarici siyasətində qərbyönümlülüyü prioritet hesab edən Azərbaycanın Avropa ailəsinə inteqrasiyasına öz töhfəsini verəcəkdir.

Lakin əməkdaşlıq əlaqələri nə qədər inkişaf edirsə etsin, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması Azərbaycanla Qərb arasında ən böyük narazılığa səbəb olaraq qalır. O münaqişə ki, onun nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon işğal olunmuşdur. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılmış, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu ərazilərdə qədim mədəniyyət abidələri məhv edilmiş, məktəblər, muzeylər, məscidlər dağıdılmış, məzarlıqlar təhqir olunmuş, dünya sivilizasiyasının nadir inciləri yer üzündən silinmişdir.

Havadarlarına arxalanan Ermənistan isə münaqişə ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, o cümlədən BMT-nin Baş Məclisi, ATƏT, Avropa Şurası, NATO, Avropa Parlamenti, İƏT və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymamaqda davam edir. Ona isə gözün üstə qaşın var deyən yoxdur.

Bu baxımdan, müasir dünyanın liderinə çevrilən Qərb siyasi, iqtisadi, hüquqi, hərbi və digər yollarla münaqişəni həll etməyə qadir olan və mənəvi baxımdan da borclu olan tərəf kimi səciyyələndirilir. Lakin Qərb dairələrindən münaqişənin həllinə dair səsləndirilən mövqelər və təqdim edilən təkliflər Azərbaycan tərəfinin ciddi narazılığına səbəb olmaqda və hər kəsin düşüncəsində bəzi cavabsız suallar yaratmaqdadır. Bu yazıda məqsəd də həmin mövqe və təkliflərin qısaca təhlilini verməkdir.



Qərbin aparıcı dövlət və təşkilatları öz hesabatlarında Ermənistanı birbaşa təcavüzkar kimi göstərməkdən çəkinirlər. Məsələ burasındadır ki, Azərbaycan ordusu əsla Ermənistan ərazisinə girməmiş və müharibə ancaq Azərbaycan torpaqlarında getmişdir.

Hər kəsə bəllidir ki, bu müharibədə Ermənistan ordusu da minlərlə əsgər itirdi. O zaman belə bir sual yaranır: bəs Ermənistan əsgərləri harada öldülər? Əgər bu bir hərbi təcavüz deyilsə, o zaman o əsgərlərin Azərbaycan torpaqlarında nə işi vardı?

Bəzən münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin nümayəndələrindən olduqca absurd fikirlər eşidilir. Onlar qeyd edirlər ki, "Ermənistanla Azərbaycan öz aralarında razılığa gəlsinlər, biz də onları dəstəkləyək". Bu təcavüzkarı və təcavüzə məruz qalan dövləti eyni səviyyəyə qoymaq deyilmi?

Bəzən belə bəyanatlar səslənir ki, "münaqişə qarşılıqlı kompromis əsasında həll olunmalıdır". Ərazisinin 20%-i işğal olunmuş, əhalisinin 15%-i qaçqın və məcburi köçkün vəziyyətində yaşayan bir münaqişə tərəfindən daha hansı kompromis gözlənilir? Torpaqların qalan hissəsini də Ermənistana verməsinimi? Artıq 20 ilə yaxındır ki, Azərbaycan atəşkəs vəziyyətində yaşayır. Ermənistan tərəfindən atəşkəsin demək olar ki, hər gün pozulmasına rəğmən, Azərbaycanın öz öhdəliyinə əməl etməsi və haqlı olduğu halda müharibəni başlamaması təcavüzkara qarşı ən böyük kompromis deyilmi?

Qarabağ münaqişəsinin həlli üçün bəzi qurumlar referendum tələb edir. Səbəb də onu göstərirlər ki, oradakı ermənilər Azərbaycanlılarla birlikdə yaşamaq istəmirlər. Avropanın özündə istənilən qədər o ölkənin əhalisi ilə birlikdə yaşamaq istəməyən və öz aralarında kompakt yaşayan fərqli dini və etnik qruplar göstərmək olar. Nədən onlar üçün referendum təşkil edilmir? Şübhə yoxdur ki, əgər həmin o yerlərdə ictimai rəy sorğusu keçirilərsə, əhalinin əksəriyyəti "müstəqilliklərinə" "hə" deyəcək. O zaman hər narazı olan dini-etnik azlıq qrupuna müstəqillikmi verilməlidir? Bu cür hərəkatlar Qərbdə baş verəndə "separatizm", Azərbaycanda isə öz "müqəddəratını təyin etmə"mi olur?

Azərbaycanda 2005-ci ildə keçirilən parlament seçkilərindən sonra, heç bir qarşıdurma yaranmadığı halda, bəzi qərbyönümlü beynəlxalq QHT-lər Qərb dövlətlərini hətta Azərbaycana qarşı sanksiya tətbiq etməyə, rəsmi səfərləri boykot etməyə çağırdı. Ermənistanda isə prezident seçkilərindən sonra Avropa miqyasında misli görünməmiş insanlıq faciəsi baş verdi: ordu öz xalqını güllələbaran etdi. Qərb isə deyəsən o zaman bu güllələbaranı qalib gələn tərəfin "bayram atəşfəşanlığı" ilə səhv saldı və heç bir tədbir görülmədi. Öz xalqına qarşı güllə atmaq əmrini verən rəhbərlik də, o güllələri atan ordu da bir zamanlar Xocalıda Azərbaycan xalqına qarşı soyqırımı törədənlərdir. Öz doğma xalqına bunu edən insanlar özlərinə düşmən hesab etdiyi Azərbaycanın mülki şəxslərinə görəsən nələr edib? *Bunu izah etməyə lüzum varmı?*

1990-cı illərin əvvəllərində Azərbaycana hücum edən, onun torpaqlarını işğal edən və suverenliyinə qəsd edən Ermənistan 1992-ci ildə suverenliyin simvolu olan BMT-yə üzv oldu və Avropada demokratiyanın simvolu olan ATƏT-ə üzv olduqdan 3 həftə sonra Xocalı soyqırımını törətdi.

1990-cı illərin sonlarında öz parlamentini güllələboran edən həmin terrorist dövlət insan hüquqlarının simvolu olan Avropa Şurasına üzv qəbul edildi. Güman edirəm ki, prezident seçkilərindən sonra xalqını güllələbaran edən bir dövləti xüsusi qəhrəmanlığına görə NATO-ya və ya malik olduğu "universal dəyərlərə" görə Avropa İttifaqına üzv qəbul etməyi də düşünürlər. Lakin maneəni aradan qaldıra bilmirlər. Ümumiyyətlə belə bir dövlətin Avropa qurumları içərisində, Avropa ailəsi daxilində yaşamağa mənəvi haqqı çatırmı? Bütün bu qeyd edilənlər Avropa dəyərləri, universal dəyərlərlə nə qədər üst-üstə düşür?

Qərb ölkələri Türkiyədən 90 il əvvəl heç ümumiyyətlə baş verməmiş bir "soyqırımı" tanımasını tələb edirlər, lakin 20 il bundan əvvəl Ermənilərin Xocalıda mülki şəxslərə qarşı hər kəsin gözləri önündə törətdikləri və etiraf etdikləri soyqırımı xatırlamaq belə istəmirlər. Türkiyədən Azərbaycanın ərazilərini işğal etdiyi üçün Ermənistanla bağladığı sərhədlərinin açılmasını istəyirlər, bunun üçün xüsusi səylər nəticəsində protokol imzaladırlar. Həmin protokolu hazırlamaq üçün iki il birlikdə gizli danışıqlar apardılar.



Ancaq nəyə görə həmin Qərb bir dəfə də olsun Türkiyənin beynəlxalq ictimaiyyət tərəfindən tanınan və qəbul edilən sərhədlərinin Ermənistan tərəfindən tanınmasını və Ermənistanın Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməsini tələb etmir? Qərbin Ermənistanın özünün belə tanımadığı həmin sərhədlərin açılmasını istəməsi qəribə görünmürmü?

Azərbaycan rəsmilərinin öz nitqlərində beynəlxalq hüququn onlara verdiyi imkanlardan istifadə edərək, işğal altındakı torpaqlarını geri qaytarmaq üçün silah işlədiləbiləcəyinə dair fikirləri dərhal Qərbin "sülhsevər" dairələri tərəfindən etirazla qarşılanır və bu cür nitqlərin sülhə təhlükə yaratdığı bildirilir. Bəs nəyə görə Ermənistan Prezidenti Serj Sarkisyanın gənclərlə "Qarabağı biz aldıq, Ağrını da siz alarsınız" şəklində məsləhət verməsi heç bir reaksiya doğurmur?

Terror hücumuna məruz qalan Qərb və Avropa ölkələri beynəlxalq ictimaiyyəti əlbir şəkildə terrorizmə qarşı mübarizəyə səsləyəndə, terrorizmi qlobal təhdid kimi qəbul edən Azərbaycan hökuməti müraciəti gözləmədən, birmənalı şəkildə yardıma qalxdı. Müsəlman dünyasına aid olmasına və bu səbəbdən də islam dünyasının həssas münasibətinə baxmayaraq, Qərb ölkələri ilə birlikdə Kosovoda, Əfqanıstanda, İraqda əməliyyatlarda iştirak etdi.

Ancaq Azərbaycan özü erməni terrorunun hədəfinə çevriləndə dünya ictimaiyyəti "gedin Ermənilərlə aranızda razılığa gəlin" dedi. Artıq terroristlər də "bizim"-"sizin" kateqoriyasına bölünməyəmi başlayıb? Sizə qarşı olanlar terrorist, bizə qarşı olanlar demokratiya carçısı olurlar?

Azərbaycanda bu gün müxtəlif dinlərin nümayəndələri sülh, firavanlıq, dözümlülük içərisində yaşayır. Azərbaycan ideal bir tolerantlıq cəmiyyəti qurmağa nail olub ki, bu bütün dünya ölkələrinə, hətta Avropaya nümunə kimi göstərilməlidir. Bunu Roma Papası II Johan Pavel Bakıya səfəri zamanı dünyaya bəyan etdi. Ancaq nədənsə bunu görmək və dəyərləndirmək istəyi azdır. Ermənistan dini, milli radikalizmin, ekstremizmin ən son mərhələsi olan etnik təmizləmə nəticəsində mütləq təkdinli və təkmillətli dövlətə çevrilib. Dini, milli radikalizmə, ekstremizmə qarşı mübarizəni özünün əsas məqsədi seçən Qərb nədən özünü görməməzliyə vurur? Bu kimi təhdid və ça-

ğırışlar Qərbi hədəf alanda qlobal mübarizə tələb edir, Azərbaycanı hədəf alanda plüralizm, ifadə azadlığımı təşkil edir?

Bəzi təşkilatların və dövlət qurumlarının hesabatlarında Azərbaycanda demokratiya, insan hüquqlarının pozulmasından danışırlar, ancaq bir milyon qaçqının hüquqlarının kim tərəfindən, necə və nədən pozulmasına mövqe bildirmirlər. İnsan hüquqları, demokratiya sadəcə iqtidar-müxalifət kontekstindəmi müdafiə edilməlidir? Qaçqın və məcburi köçkünlər insan deyillərmi, onların hüquqları yoxdurmu, və ya müdafiə edilməyə layiq deyilmi?

Qarabağda yaşayan 60 minlik erməni icmasının mülki-siyasi hüquqlarının qorunmasını hər zaman dilə gətirən Qərb dairələri bir milyon Azərbaycan qaçqın və məcburi köçkününün təməl hüququ olan yaşama hüququndan ya bəhs etmir, ya da sanki ermənilərin mülki-siyasi hüquqlarının yanında ikinci dərəcəli hüquq kimi dəyərləndirilir. Görəsən bu dəyərləndirmədə əsas meyarlar nədən ibarətdir?

Məyusedici haldır ki, 300-400 illik dövlətçilik tarixi olan ölkələr hələ də korrupsiya kimi problemi həll edib qurtara bilməyiblər. Belə ki, Avropa ölkələrində, Qərbdə erməni diasporası müxtəlif yollarla siyasi liderləri, millət vəkillərini ələ alırlar, seçkilərə külli miqdarda pul qoyaraq bu və ya başqa şəxsi hökumətə və ya parlamentə seçdirirlər. Hətta qərb dairələrinin özləri bunu demokratiyanın bir amili kimi qəbul edirlər. Bunun özü korrupsiyanın yeni bir şəkli deyilmi? Axı sonradan həmin deputatlar öz dövlətlərinin və xalqlarının maraqlarını bir tərəfə qoyaraq, özlərini az qala erməni diasporasının bir üzvü kimi aparır, nəticədə isə Qarabağ münaqişəsinin həllinə maneçilik törədilir.

Qərb ictimaiyyətinin dəstəyini hiss edən ermənilər isə bundan sui-istifadə edərək təxribat xarakterli məlumatlar yaymağa çalışırlar ki, Qərbin onları dəstəkləməsinin arxasında xristianlıq amili dayanır. Bu da olduqca təhlükəli tendensiyadır və sonu bəlli olmayan təhlükəli vəziyyətə səbəb ola bilər. Dünya ictimaiyyətinin sivilizasiyalararası dialoqu inkişaf etdirməyə çalışdığı bir dönəmdə, inkişafın zirvəsinə qədər ucalmış Qərbin belə bir imic yaratmasına lüzum varmı? Qərb bunun fərqində deyilmi?



Bütün bu qeyd edilənlər artıq dünyada "ədalət vakumu"nun olduğuna işarədir. Bəs o zaman "beynəlxalq hüquq" mexanizmini nə üçün yaradılırdı? Bu qədər beynəlxalq və regional əməkdaşlıq təşkilatları niyə mövcuddur? Nədən dövlətlər onların fəaliyyətlərini davam etdirmələri üçün milyon dollarlarla üzvlük haqqı ödəyir? Bu o deməkdirmi ki, bəzi mütəxəssislərin qeyd etdiyi kimi, beynəlxalq hüquq ancaq güclü dövlətlərin öz siyasətlərini həyata keçirmələri üçün bir vasitədir?

**Newtimes.az**
12 aprel 2012

### *6.2. "Erməni məsələsi" – Qafqaz üçün böyük təhlükə*

Süni yaradılmış "erməni məsələsi" bir neçə yüz ildir ki, Qafqazı qarışdırır. Dağlıq Qarabağ münaqişəsi də region üçün ciddi problemdir. Bu problemin yaranmasında dünyanın böyük dövlətlərinin rolu olub. Onlar öz maraqları naminə ədaləti pozublar. Bununla münaqişəni "qapalı dairə"yə salıblar.

Tarixi faktlar reallığı bütün dolğunluğu ilə ortaya qoyur. Bu reallığı dünya birliyi qəbul etməlidir. Əks halda, Qafqazda sabitlik yaratmaq mümkün olmayacaq. Rusiya arxivlərindəki sənədlərin məzmununun geniş ictimaiyyətə çatdırılması həmin məsələdə çox şeyləri dəyişə bilər.

"Erməni məsələsi"nin yaranmasının kökündə imperiyaların siyasi maraqları durur. Bunu ermənilərin inqilabçılığına və ya azadlıqsevərliyinə bağlamaq düzgün deyil. Ermənilər yalnız başqalarının yaratdığı tarixi fürsətdən xaincəsinə istifadə etməyə çalışıblar. Qafqazla bağlı bu fürsəti ilk dəfə 1724-cü il noyabrın 10-da rus çarı I Pyotrun erməni xalqına fərmanı yaradıb.

I Pyotr A.Rumyantsevə göndərdiyi məktubda yazırdı: "Erməni deputatları düşməndən qorunmaq xahişi ilə bizə sığınmışlar; əgər biz bunu etmək iqtidarında deyiliksə, onda bizim yeni ələ keçirdiyimiz İran əyalətlərində məskunlaşmağa icazə verək. Biz onlara... bizim Xəzərsahili əyalətlərimizdə məskunlaşmalarına icazə verdik

və xatircəmlik fərmanı göndərdik. Əgər türklər bu barədə sizinlə danışsalar, onda cavab verin ki, biz erməniləri çağırmamışıq, amma onlarla həmməzhəb olduğumuzdan onları himayəyə götürməyi rica etdilər; biz, xristianlıq naminə xristian olan ermənilərə rədd cavabı verə bilməzdik..."[1].

Rusiya çarı məsələni konkret qoyur – Cənubi Qafqazda öz hakimiyyətini saxlamağa yardım edəcək erməniləri Azərbaycan ərazilərinə köçürmək lazımdır. Özü də elə şərtlər altında bunu həyata keçirmək gərəkdir ki, ermənilər həmişə imperiyaya bağlı olsun, ona minnətdarlıqları tükənməsin. Bunun üçün müsəlmanları ermənilərin düşməni kimi təqdim etdilər. Eyni zamanda, ermənilərə öz dövlətlərini qurmaqda kömək ediləcəyi vədini verdilər. Bunun yolu isə ermənilərdən ibarət üsyankar dəstələr yaradıb, regionu daim təhdid altında saxlamaqdan ibarət idi.

Bütün bunlar çarın erməni xalqına ali fərmanı və ermənilərin Xəzərsahili torpaqlara köçürülməsinə dair ali buyruqlarını ifadə edən sənədlərdə sətiraltı öz əksini tapdı. Həmin sənədlərin birincisində deyilir: "Biz sizi, ailələrinizlə və nəsillərinizlə öz ali İmperator Himayəmizə qəbul etmişik və bundan sonra sərbəst yaşamanız üçün Xəzər dənizi boyu yeni alınmış İran əyalətlərimizdə sakit yaşayacaq və öz qanunlarınız əsasında xristian məzhəbinizə qulluq edə bilməyiniz üçün rahat ərazilərin ayrılmasını əmr etmişik. Nə qədər ki, Biz, xristianlıq naminə sədaqətli erməni millətini öz himayəmizdə saxlayırıq, biz bunun naminə sizə Əlahəzrətin fərmanını lütf edirik və həmin yeni alınmış İran əyalətlərinin başçılarına Öz Adımızdan fərman göndərmişik ki, sizlərdən kimsə oralara gələndə, onlar sizi Gilan və Mazandaranda olduğu kimi, Bakıda və digər uyğun yerlərdə nəinki qəbul etsinlər, hətta yaşamaq və məskunlaşmaq üçün rahat ərazilər ayırsınlar və bundan belə hər cür şəfqətdə və təhlükəsizlikdə saxlasınlar"[2].

[1] Rus çarı I Pyotrun erməni xalqına fərmanı. 10 noyabr 1724-cü il // Qafqazda «erməni məsələsi». Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Ön söz: Tale Heydərov. Tərtibçi-müəlliflər: T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. Üç cilddə. Birinci cild. 1724-1904. Bakı: «Elm» nəşriyyatı, 2010, XX+716 s. s.3

[2] Yenə orada, s.4



I Pyotrun ölümü həmin prosesləri bir qədər səngitdi. Yalnız II Yekaterina Rusiyanın Qafqazda yenidən möhkəmlənməsi siyasətinə diqqətini artırdı. Azərbaycan torpaqlarında erməni dövləti yaradılması planları aktuallaşdı. Ancaq rus-türk müharibələri bu planları təxirə saldı. XIX əsrin əvvəllərindən isə təhlükə daha böyük miqyasda Cənubi Qafqazda özünü göstərməyə başladı.

1828-ci il Türkmənçay müqaviləsində "erməni məsələsi" artıq konkret maddədə ifadə olunub. Müqavilənin 15-ci bəndindən bir parçanı təqdim edirik: "...Bundan əlavə, bu tarixdən etibarən həmin məmurlara və əhaliyə (Azərbaycan nəzərdə tutulur – müəl.) İran əyalətlərindən Rusiya vilayətlərinə ailələri ilə sərbəst keçidləri üçün, daşınan əmlakın – hökumət və yerli rəhbərlik tərəfindən heç bir maneə olmadan və bu şəxslər tərəfindən satılan və ya çıxarılan əmlaka heç bir vergi və rüsum almadan – çıxarılması və satılması üçün bir il müddət verilir.

Daşınmaz əmlaka gəlincə isə, onun satılması və ya onun barəsində sərbəst şəkildə qərar verilməsi üçün beş il müddəti müəyyən edilir..."[1].

Göründüyü kimi, maddədə konkret ermənilərin adı çəkilməsə də, əsasən ermənilərin köçürülməsi məsələsi nəzərdə tutulur. Bu müqavilədən sonra ermənilərin kütləvi surətdə Azərbaycanın Naxçıvan, Qarabağ, İrəvan kimi bölgələrinə köçürülməsi həmin fikrin doğruluğunu təsdiqləyir. O dövrdə elə bir fakt olmayıb ki, müsəlman əhali xristianların yaşadıqları bölgələrə yerləşdirilsin. Əksinə, müxtəlif bəhanələrlə məhz ermənilər azərbaycanlıların yaşadıqları ərazilərdə məskunlaşıblar.

Bu prosesi həyata keçirənlər N.Astaraketsi, A.Qriboyedov, general Paskeviç, polkovnik Lazarev və başqaları əvvəlcədən hazırlanmış plan üzrə hərəkət edirdilər. Rusiya arxivlərində olan sənədlərin məzmunu təsdiq edir ki, 1828-ci il 5 aprel-10 iyun tarixlərində

[1] Rusiya-İran Türkmənçay müqaviləsi. 10 fevral 1828-ci il // Qafqazda «erməni məsələsi». Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Ön söz: Tale Heydərov. Tərtibçi-müəlliflər: T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. Üç cilddə. Birinci cild. 1724-1904. Bakı: «Elm» nəşriyyatı, 2010, XX+716 s. s.4

ermənilərin İrəvan və Naxçıvana köçürülməsi dövlət siyasəti olaraq rəsmi qaydada hazırlanıb[1]. Sənədlərdə göstərilir ki, ermənilərin köçürülməsi üçün İranın Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq ödədiyi ləvazimatdan 50 min gümüş rubl ayrılıb[2].

Bununla da Rusiya imperiyasının ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi siyasəti yeni mərhələyə keçib. Köçürmə əməliyyatlarını həyata keçirən adamlar Rusiya rəhbərliyinə dəfələrlə məlumat yazıblar ki, erməniləri Rusiyanın mərkəzi torpaqlarına yerləşdirməsinlər. Səbəb kimi ermənilərin qısa zamanda məskunlaşdıqları torpaqların onlara aid olduğu iddiasını ortaya atacaqları göstərilirdi. Yəni ermənilərin xisləti hamıya bəlli idi.

Ermənilərin müsəlmanlara qarşı üsyankar olmasında Britaniya imperiyası da az rol oynamayıb. Böyük Britaniyanın konsulları erməniləri müsəlmanlar və ruslara qarşı qızışdırıblar. Rusiya bunu bilən kimi prosesləri öz xeyrinə daha çox dəyişmək siyasətinə keçib.

Beləliklə, Qafqazda "erməni məsələsi" tarixin bir mərhələsində tamamilə süni olaraq yaradılıb. Onlar bura ayaq basandan müharibələrin arası kəsilməyib. Bu regiona yad olan ermənilər yerli xalqlara qarşı son dərəcə aqressiv ruhda tərbiyə olunublar. Ona görə də bu gün Dağlıq Qarabağda yaşananlarda erməniləri həmin əraziyə yerləşdirənlərin tarixi məsuliyyəti vardır. Hazırda bütün bölgə erməni separatizmi və terrorundan əziyyət çəkir. "Erməni məsələsi"nin gerçək mənası dünyanın böyük dövlətləri tərəfindən etiraf edildikdən sonra Qafqaz rahatlıq görə bilər. Bölgədəki münaqişələrin həllinə də bu, çox müsbət təsir edər.

**Kamal Adıgözəlov**
30 avqust 2012

---

[1] Qafqazda «erməni məsələsi». Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Ön söz: Tale Heydərov. Tərtibçi-müəlliflər: T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. Üç cilddə. Birinci cild. 1724-1904. Bakı: «Elm» nəşriyyatı, 2010, XX+716 s. s.66-141

[2] Qafqazda «erməni məsələsi». Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Ön söz: Tale Heydərov. Tərtibçi-müəlliflər: T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov. Üç cilddə. Birinci cild. 1724-1904. Bakı: «Elm» nəşriyyatı, 2010, XX+716 s. s.7



### *6.3. Sarkisyanın məkrli miqrasiya siyasəti*

Seçki prosesi müasir dövlətin və cəmiyyətin simasını göstərən məqamlardan biridir. Ermənistanda parlament seçkisinə hazırlıq prosesini izləyəndə onun dövlət və cəmiyyət olaraq əsl simasını görmək asandır. İndiki tarixi şəraitdə ermənilərin bir millət və Ermənistanın dövlət kimi malik olduğu keyfiyyətlər seçkinin necə keçiriləcəyinə aydınlıq gətirir.

"Regnum" agentliyinin baş redaktorunun müavini Vigen Akopyanın ermənilər və Ermənistana həsr edilmiş analitik yazısında bu məsələyə də aidiyyəti olan məqamlar vardır. O yazır ki, müasir ermənilər üçün millətlə dövlətin münasibəti aydın deyil.

Ümumiyyətlə, ermənilərin dünya üzrə sayı 10 milyondursa, Ermənistanda 3 milyondan az erməni yaşayır. Yəni dünyanın müxtəlif guşələrinə səpələnmiş ermənilərin sayı erməni dövlətində yaşayanlardan 3 dəfə çoxdursa, hansı mənada dövlətçilikdən danışmaq olar? V.Akopyan bu suala cavab axtarır.

Bunun işığında Ermənistandan miqrasiya edənlərin illər üzrə sayını verir. O göstərir ki, 1989-cu ildə Rusiyada 532,4 min erməni yaşayırdısa, 2002-ci ildə bu rəqəm 1 milyon 130 min nəfər, 2010-cu ildə 1 milyon 180 min nəfər olmuşdur. Rəqəmlərin artımı Ermənistandan olan miqrasiya ilə bağlıdır. Sübut üçün V.Akopyan dünya üzrə miqrasiya dinamikası ilə son 20 ildə Ermənistandan olan miqrasiyanın dinamikasının müqayisəsini verir. Əgər 2005-2006-cı illərdə dünya üzrə miqrasiya dünya əhalisinin 3%-ni təşkil edibsə, son 20 ildə Ermənistanı 1 milyondan çox adam tərk etmişdir ki, bu da əhalinin ümumi sayının 20%-i qədərdir. Yəni Ermənistandan miqrasiya edənlər orta dünya göstəricisindən 20 dəfə çoxdur. Bu rəqəmlərdən hansı nəticələr çıxır?

Hər şeydən öncə, Ermənistanın dövlət kimi taleyi qeyri-müəyyən, ermənilərin millət kimi ortaq ideyaya sahib olması ehtimalı isə çox aşağıdır. Ermənistanın dövlət kimi zəifliyi onun sosial-mədəni və siyasi durumunu müəyyənləşdirir. Bunu da başqa bir erməninin tədqiqatında ifadə etdiyi fikirlə sübut etmək olar.

Çikaqo Universitetinin (ABŞ) politologiya kafedrasının professoru Ronald Qriror Süni yazır ki, "daxili sabitliyini saxlaya bilməyən zəif dövlətlər beynəlxalq münasibətlərdə arzuolunan tərəfdaş deyillər və daha böyük, güclü qonşularının imperiya fantaziyalarına dəstək verirlər"[1]. Ermənistan zəif dövlət kimi daxili sabitliyini zaman-zaman saxlaya bilməmişdir. Hər seçki öncəsi orada faciələr baş vermişdir. Parlamentdə məlum kütləvi terror olayı, son prezident seçkisi zamanı mart qırğını, indi də güc strukturlarına verilən "hər şeyə nəzarət və müdaxilə" əmri, bunlar Ermənistanın son 20 ildə seçki ilə bağlı yaşadıqlarının bir qismidir.

Levon Ter-Petrosyan seçkidə Koçaryana uduzanda erməni xalqını xəbərdar etmişdi ki, "siz müharibə ilə sülh arasında seçimi birincinin xeyrinə etdiniz". Bu fikir hər bir sonrakı seçkidə özünü doğruldur. Burada qeyri-adi heç nə yoxdur. Çünki Ermənistan EA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru Gevork Poqosyan Ermənistanın daxili sosial, siyasi və mədəni-psixoloji durumunu xarakterizə edəndə elə dəlillər göstərir ki, Ermənistanın bir dövlət kimi mövcud olması böyük sual doğurur.

O, yerli jurnalistlərin sualına cavab verərkən deyir ki, Ermənistanın hakimiyyət dairələri ölkədən insanların getməsində maraqlıdırlar. Çünki, birincisi, ölkədə iş yeri olmadığından işsizlərin getməsi sosial gərginliyi azaldır. İkincisi, gedənlərin Ermənistana göndərdiyi pulun miqdarı təqribən Ermənistanın büdcəsi qədərdir – 1,3 milyard dollar. Nəhayət, üçüncüsü, hakimiyyət siyasi rəqiblərini miqrasiya axını ilə zəiflədir. Yəni Ermənistan iqtidarı hakimiyyətini saxlamaq üçün cəmiyyəti iflic halına salır. Bunun səbəbini G.Poqosyan Ermənistan iqtidarında və vətəndaşlarında dövlətçilik şüurunun olmaması ilə izah edir[2]. Bu, xüsusilə seçki prosesini təşkil etməkdə, onu keçirməkdə və nəticələri təqdim etməkdə ciddi faktordur. Belə mühitdə hər hansı demokratik institutlaşmadan danışmaq mümkün deyildir. G.Poqosyan bu məqamı lakonik ifadə edir ki, Ermənistanda

[1] Сюни Р.Г. Живя с другими: конфликт и сотрудничество между кавказскими народами. – Кавказские региональные исследования, 1997, вып.1, т.2.

[2] Акопян В. Армяне и Армения – когда нация шире государства. URL: http://www.regnum.ru/news/1505505.html.



məmurun əsas məqsədi çoxlu pul qapmaq və onu xarici banklara yerləşdirməklə "potensial miqranta çevrilməkdir". Adi adam üçün də aydındır ki, məmuru özünü potensial miqrant kimi hiss edən ölkədə obyektiv və demokratik seçkidən kəlmə kəsmək belə mümkün deyildir.

Göründüyü kimi, Ermənistan dövlət və cəmiyyət olaraq keçən əsrin 90-cı illərindəki səviyyəsindən bir addım da qabağa gedə bilməmişdir. Ermənilər indi-indi millət olmaqları ilə dövlətçilikləri arasındakı nisbəti müəyyənləşdirməyə çalışırlar. Onların seçki ənənəsi isə terror, qanunsuzluq, başqalarının haqqını tapdalamaq kimi hadisələrlə zəngindir. Öncəki seçkilərdə öldürülən, həbsə atılan, təhqir olunanların taleyinin qeyri-müəyyənliyi, bu dəfəki seçkidə də eyni olayların yaşanacağını təsdiq edir.

Bu günün reallığından baxanda isə Ermənistan geniş okean sularında yelkənsiz qayığı xatırladır.

**Newtimes.az**
31 may 2012

### *6.4. Ermənistanın dumanlı gələcəyi*

Korrupsiya, insan haqlarının tapdanması və Azərbaycanla müharibənin başlaması riskinin olması hər il on minlərlə ermənini öz vətənini tərk etmək məcburiyyətində qoyur. Ölkədə qalanlar isə məyusluq içindədirlər.

Fransanın "Slate.fr» internet dərgisində Emmanuyel Danielin Ermənistanla bağlı analitik məqaləsi dərc edilib. Müəllif ölkənin sosial-iqtisadi və siyasi vəziyyətini təhlil edib. Yazıda diqqəti çəkən bir sıra məqamlar var. Onlar müəyyən dərəcədə Ermənistanın daxili vəziyyətini obyektiv əks etdirirlər.

Müəllif yazır ki, korrupsiya, insan haqlarının tapdanması və Azərbaycanla müharibənin başlaması riskinin olması hər il on minlərlə ermənini öz vətənini tərk etmək məcburiyyətində qoyur. Ölkədə qalanlar isə məyusluq içindədirlər. Yəni ermənilərin intensiv miqrasiyasının səbəbi Ermənistan rəhbərliyinin yeritdiyi yarıtmaz daxili və xarici siyasətlə bağlıdır. Hakimiyyətin bu məsələ ilə bağlı gətirdiyi bəhanələrin heç birinin əsası yoxdur.

Bu fikirlər rəsmi İrəvanın ölkəni düzgün siyasətlə idarə etdiyi haqqında tez-tez yaydığı bəyanatların da puç olduğunu sübut edir. O da aydın olur ki, S.Sarqsyan iqtidarı Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində nəyə görə maraqlı deyil. Bununla o, öz günahlarını Azərbaycanın üstünə yıxmaqla populistcəsinə Ermənistan vətəndaşlarının dəstəyini qazanmaq istəyir.

E.Daniel obrazlı ifadələrlə ermənilərin miqrasiya prosesini təsvir edir. O, miqrasiya xidmətinin binası qarşısında hətta zabitlərin durduğunu göstərir. Bu məqam Ermənistan ordusunun mənəvi durumu haqqında təsəvvür yaradır. Əsgərlər belə qorumalı olduqları ölkəni qoyub qaçırlarsa, hansısa döyüşkən silahlı qüvvələrdən danışmaq yersizdir. Hər bir gənc miqrant potensial fəraridir.

**İtirilən əhali**

Məqalədə maraqlı bir məqam vurğulanır. Ermənistan Miqrasiya Xidmətinin 2010-cu il məlumatına görə, ölkəni 28 min 960 adam tərk edib. Ermənistanın əhalisinin sayının 2 milyona yaxın olduğunu nəzərə alanda, bir il üçün bu, böyük rəqəmdir. Miqrasiya Xidmətinin rəhbəri Qagik Yeqanyan "vəziyyətin narahatedici olduğunu" söyləyir.

Ancaq demoqraf Ruben Yeqanyan vəziyyətin daha ağır olduğunu deyir. Onun sözlərinə görə, 50 ildən sonra Ermənistanda əhalinin sayı 500-600 min nəfər olacaq. Mütəxəssis bədbin variantdan danışmağa qorxduğunu vurğulayır.

Bu rəqəmlər faktiki olaraq ölkə əhalisinin yoxa çıxmaqda olduğunu göstərir. Kiçik bir dövlətdə demoqrafik vəziyyətin ağırlaşma istiqmətində getməsi sözün əsl mənasında Ermənistanın dünya xəritəsindən silinməsi deməkdir. Ölkəni bu vəziyyətdən qurtarmaq planı isə yoxdur. Ermənilərin tarixi təkamül tərzini nəzərə alsaq, belə bir planın yarana bilməsi ehtimalı çox azdır.

Çətinliyin başqa bir tərəfi əhalinin daha çox Rusiyaya miqrasiya etməsinə bağlıdır. Avropa ölkələrinə viza almaq çətin olduğundan insanlar Rusiyanı seçir. Orada isə ermənilərə münasibət getdikcə pisləşir. Bundan başqa, iş tapmaq məsələsi də çətinləşir. Ona görə də hətta miqrasiya edən ermənilərin həyatları risklərlə doludur.



Məqalə müəllifi mütəxəssisin gəldiyi bu nəticələrin Ermənistanın sosial, iqtisadi və siyasi durğunluq vəziyyətini təsdiq etdiyi fikrini vurğulayır. Belə ki, ölkədə orta aylıq əmək haqqı 235 avrodur. 2008-2010-cu illərdə yoxsulluqdan da aşağı səviyyədə yaşayanların sayı 270 min nəfər olub ki, bu da 25 faizdən yuxarıdır.

**Ermənistan dəyişə bilərmi?**

Müəllifin məqalədə qoyduğu əsas sual bundan ibarətdir. Ölkədəki ümumi vəziyyətin təhlili əsasında belə qənaət yaranır ki, Ermənistanın müsbətə doğru dəyişməsi ehtimalı çox azdır. İndi işsizlərin sayı 30 faizi keçib. İqtisadiyyatın inkişaf tempi çox aşağıdır.

Maliyyə sahəsində hansısa islahatlar gözlənilmir. Ermənistanla bağlı çoxlu sayda tədqiqatın müəllifi olan Haidz Minasyanın qənaətinə görə, ölkənin inkişaf etməsi üçün iqtisadiyyatda hər il ən azı 10 faiz artım olmalıdır. Bu isə indiki şərtlər daxilində mümkün deyil.

Digər tərəfdən, Ermənistanda iqtisadi vəziyyət bir qrup erməni və rus biznesmenin əlindədir. Korrupsiya o dərəcədə yayılıb ki, situasiyanın dəyişməsi imkanı sıfırdır. "Transparency International" təşkilatının reytinqində Ermənistan 129-cu yerdədir. Ölkəni haqlı olaraq "oliqarxlar respublikası" adlandırırlar.

İnsan haqlarının vəziyyəti də acınacaqlıdır. Təkcə 2011-ci ildə 3 min 600 adam siyasi təqiblərə məruz qalaraq Fransa hökumətindən siyasi sığınacaq istəyib. Hakimiyyət orqanları hər gün vətəndaşların hüquqlarını pozur. Şikayətlərə isə baxan yoxdur. Hər yerdə məhkəmələr oliqarxların xeyrinə qərarlar çıxarır. Ermənistanın adi vətəndaşları ümidsizləşiblər. Onlar ölkədə ədalətin bərqərar olacağına artıq inanmırlar. Bütün bunlar Ermənistanı "ölü ölkəyə" çevirib. Hətta xarici yardım hesabına bu dövlətin "dirilməsi"nə inanan artıq yoxdur.

**Newtimes.az**
22 oktyabr 2012

### 6.5. Sistemin qırılma nöqtəsi: Qafqaz

Əhməd Davudoğlunun «Strateji Dərinlik» tezisinə uyğun olaraq, yumşaq güc və qarşılıqlı asılılıq qaydaları çərçivəsində formalaşdırmağa çalışdığı Türkiyə xarici siyasətinin ən əhəmiyyətli istiqamətlərindən biri olan Qafqaz regionu mövcud siyasi-sistemik görünüş etibarilə tam bir barıt çəlləyi xüsusiyyətinə malikdir. Regionda rol oynayan dövlətlərin bir-biri ilə yaşadıqları tarixi, torpaq əsaslı-irredentist, siyasi və sosial-mədəni problemlərə paralel olaraq beynəlxalq nizamı qorumağa, ya da dəyişdirməyə çalışan qlobal aktorların ümumiyyətlə Avrasiyada, xüsusilə də Genişlənmiş Qara dəniz hövzəsində apardıqları mübarizənin bütün Qafqazı əhatə edən bir mənzərə yaratması bölgənin içərisinə yuvarlandığı qarışıqlığın qısa müddətli bir mahiyyət daşımayacağını da göstərir. Bu nöqteyi-nəzərdən, mövcud olduğu regionda təsirli bir regional güc kimi meydana çıxmağı və qlobal miqyasda təsirli olmağı qarşısına məqsəd qoyan Türkiyənin Qafqazdakı prosesləri yaxından izləyərək, doğru bir şəkildə anlaması lazımdır.

Hal-hazırkı vəziyyətdə Qafqaz regionunu bir-birini tamamlayan iki ayrı reallıq şəklində təhlil etmək doğru olar. Onsuz da bu gün bölgənin siyasi mənzərəsi bu fərqliliyi təsdiq edir. SSRİ dağıldıqdan sonra Rusiya torpaqları içərisində qalan Şimali Qafqaz həm sahib olduğu etno-mədəni müxtəliflik, həm də bölgədə yaşayan fərqli etnik qrupları bir bayraq altında birləşdirməyə çalışan radikal siyasi və mədəni yanaşmalar çərçivəsində təhlil edilməlidir. Regionda ciddi bir etno-mədəni və dini müxtəlifliyin mövcud olduğu söylənsə də, region xalqlarının əksəriyyətinin İslam kimliyi ətrafında birləşə bilən bir təəssürat yaratması Rusiya əleyhdarı separatçı siyasi hərəkatların «Müsəlmanlıq» ortaq məxrəci ilə davranmalarına səbəb olmuşdur. Çünki 1990-cı illərin ortalarında və 2000-ci illərin əvvəllərində yaşanan Çeçenistan müharibələri əsnasında etnik kimliyə əsaslanan mübarizənin regionun sahib olduğu ictimai müxtəliflik səbəbiylə lazımi birləşdiricilik imkanına malik olmadığı bəlli olmuşdur. Üstəlik İslam kimliyinə istinad edərək həyata keçirilən separatçı cəhdlər, başda Səudiyyə Ərəbistanı və Körfəz ölkələri olmaqla öz siyasi legitimliyini bu çərçivədə təşkilatlandıran bəzi zəngin ölkələrin Şimali Qafqazda İslam adı altında siyasi mübarizəyə başlayan təşkilatlara və liderlərə dəstək vermələrinə imkan yaratmışdır. Bu gün başda Çeçenistan və Dağıstan olmaqla bütün Şimali Qafqazda Rusiya əleyhdarı bir siyasi müstəqillik mübarizəsi aparan Doku Umarovun öz legitimliyini İslam ilə əlaqələndirməyə çalışması, həmçinin çeçen separatçıların öz mübarizələrini sələfilik və vəhabiliklə əlaqələndirməyə çalışmaları başda Səudiyyə Ərəbistanı və Körfəz ölkələri olmaqla bütün dünyadakı radikal qruplardan dəstək alma taktikası kimi görülməlidir.

Rusiyanın Şimali Qafqazda yaşadığı separatizm probleminin başqa bir mühüm səbəbi isə sosial-mədəni və torpaq əsaslı qayğılar ilə deyil, sistemli tərcih və mübarizə ilə əlaqəlidir. Rusiyanın ABŞ-ın liderliyini etdiyi Avro-Atlantik İttifaqa meydan oxumağa başlaması və beynəlxalq sistemin çox qütblülük istiqamətinə dönməsinə ehtiyac olduğunu davamlı olaraq vurğulaması başda ABŞ olmaqla bu ölkənin «yeni bir SSRİ» olmasını istəməyən qlobal və regional aktorları hərəkətə keçirmiş və bu aktorların Rusiyanın milli təhlükəsizlik çevrəsi oxunda ən zəif nöqtəsi kimi ön plana çıxan Şimali Qafqazdakı separatçı cəhdlərə siyasi, iqtisadi və hərbi dəstək vermələrinə rəvac vermişdir. Əslində bu cəhd Soyuq Müharibə dövründə olduğu kimi Rusiyanı boğma strategiyasının prekursoru kimi görülə bilər. Əslində, boğma strategiyasının olduqca yavaş irəlilədiyini görürük. Bunun ən əhəmiyyətli səbəbi isə qlobal və regional aktorların Rusiyaya qarşı yeritdikləri siyasətin birləşmiş bir təəssürat yaratmaması və xüsusilə Çin ilə Hindistanın öz çoxqütblülük strategiyaları daxilində Avro-Atlantik İttifaqa lazımi dəstəyi göstərməməsidir.

Cənubi Qafqaz regionu isə Soyuq Müharibə sonrası ortaya çıxan 3 yeni respublika və bu respublikaları bir-birləriylə mübarizəyə sürükləyən etno-mədəni və torpaq əsaslı mübarizələr və müharibələr ilə gündəmə gəlməkdədir. Rusiya, Türkiyə və İran kimi əhəmiyyətli aktorlar tərəfindən əhatə olunan bu region Şimali Qafqaz qədər qarışıq etnik və dini müxtəliflik göstərməsə də, xüsusilə sahib olduğu enerji resursları və bu resursların Avropaya çatdırılması baxımından Rusiyanı kənarda qoymağı hədəfləyən layihələr ilə yadda qalır. Av-

ro-Atlantik İttifaqı və Türkiyə Xəzərdəki enerji resurslarının reallaşdırılan (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum) və reallaşdırılması planlanan (NABUCCO-Qərb, TANAP, Trans-Xəzər) layihələr vasitəsilə Avropaya nəqlini və beləcə Rusiyanın ən əhəmiyyətli silahı olan enerji asılılığı faktorunun nisbətən azaldılmasını hədəfləyərkən, Rusiya özünün qlobal aktor olması istiqamətində ən əhəmiyyətli töhfəni verən enerji silahını itirməmək üçün istər region ölkələrinə, istərsə də enerji qaynaqları baxımından özündən asılı olan AB ölkələri və Türkiyəyə təzyiq göstərir. Dağlıq Qarabağ münaqişəsi, Abxaziya və Cənubi Osetiya problemləri, eləcə də Xəzər dənizinin bölüşdürülməsi məsələlərində ən əhəmiyyətli aktor olan Rusiya bu problemləri şəraitə uyğun olaraq öz istədiyi şəkildə istifadə edir və ümumiyyətlə Avrasiya, xüsusilə də Qafqaz regionunda gücünü isbat edir. Cənubi Qafqaz bölgəsinin Şimali Qafqaza nisbətən fərqli bir mənzərə təşkil etməsinə imkan yaradan ən mühüm amillərdən ikisi də bölgənin din və mədəniyyət məzmununda müştərək olmaması və bölgə ölkələrinin sistemsəl üstünlük nöqtəsində bir-birlərindən ayrılmasıdır. Məsələn, Gürcüstan «Qızılgül İnqilabı» sonrası beynəlxalq sistemdə seçimini ABŞ-a yönəldibdirsə, Ermənistan tarixi, siyasi, geosiyasi və iqtisadi səbəblərlə Rusiyanın Cənubi Qafqazdakı forpostuna çevrilmişdir. Enerji resursları və layihələri oxunda Rusiyadan asılı olmayan və hətta bu ölkə ilə gizli bir rəqabətə girmiş olduğunu söyləyə biləcəyimiz Azərbaycan isə Rusiya və Avro-Atlantik Dünyası arasında tarazlığı gözləməyə çalışır. Ancaq Türkiyə faktoru və iqtisadi səbəblər nəzərə alınarsa, Azərbaycanın Avro-Atlantik İttifaqına çox daha yaxın olduğu deyilə bilər.

Geosiyasi nəzəriyyələrdə, xüsusilə də Spaykmenin Kənar-Qurşaq nəzəriyyəsi ilə Samuel Hantinqtonun Mədəniyyətlərin Qarşıdurması tezisində çox əhəmiyyətli bir qırılma nöqtəsi kimi təsvir edilən Avrasiya regionuna bağlı bir alt komponent olan Qafqaz bu gün başda Rusiya və ABŞ olmaqla bir çox qlobal və regional aktorun siyasi gündəliyində əhəmiyyətli yer tutur. Bu baxımdan, bölgənin siyasi-sistemik gələcəyinin yenə «güc əlaqələri» və sərt güc ünsürləri çərçivəsində formalaşdırılması gözlənilə bilər. Avrasiyada çox əhəmiyyətli bir regional güc olduğunu söyləyə biləcəyimiz



Türkiyə isə sahib olduğu potensial və məlumat bazası sayəsində bölgədə yaşanma ehtimalı olan siyasi və hərbi münaqişələr baxımından əhəmiyyətli bir aktor olaraq ön plana çıxacaq. Bu səbəblə, Türkiyənin xüsusilə Rusiya ilə yaratdığı əməkdaşlıq körpüsünü yıxmadan və həmçinin Azərbaycan ilə əlaqələr baxımından İran həqiqətini də nəzərə alaraq, öz yumşaq gücünə və region ölkələrinə təqdim edə biləcəyi imkanlara uyğun formalaşdıracağı qarşılıqlı asılılıq zəncirlərinə dəyər verərək hərəkət etməsi lazımdır.

**Dr. Göktürk Tüysüzoğlu**
***(Uluslararası Politika Akademisi)***
2 aprel 2013

### *6.6. Əgər müharibə olmasaydı...*

"Qafqaz! – Bu söz necə də ecazkardır!" Rus şairi və publisisti Vasili Lvoviç Veliçko məşhur "Qafqaz" kitabını bu sözlərlə başlayır. O, Qafqazı "sosioloq üçün, o cümlədən dövlətçilik elminin nümayəndəsi üçün xüsusi dəyər kəsb edən, müxtəlif təbii laboratoriyaları olan nəhəng bir akademiya" kimi təqdim edir.

Qafqaz demək olar ki, bütün tarixi boyu geosiyasi ekspansiya proseslərinə cəlb edilmiş, fatehlər üçün yağlı tikə olmuşdur. Qafqazla həmhüdud olan dövlət qurumlarının hərfi mənada hamısı Qafqazı ələ keçirməyə, bu regionda dominantlıq etməyə çalışır, öz hakimiyyətinin sərhədlərini genişləndirməyi, ən mühüm nəqliyyat və ticarət-iqtisadi magistrallara nəzarətin təmin edilməsini qarşısına məqsəd qoyurdu. Avropanı Şərq ölkələri ilə birləşdirən ənənəvi ticarət yolları məhz buradan keçirdi. Beləliklə, Qafqaz üzərində hərbi nəzarət və regionda siyasi üstünlük çox böyük maddi səmərələr vəd edirdi.

Makedoniyalı İsgəndər dövründən başlamış ta sovet dövrünə qədər bütün imperiyalar burada öz nüfuz dairəsini bərqərar etməyi zəruri sayır, çox vaxt yerli əhalinin maraqlarını nəzərə almırdılar. Məsələn, XIX əsrdə Rusiya imperiyası tərəfindən Cənubi Qafqazın işğalı ermənilərin buraya kütləvi şəkildə köçürülməsi ilə müşayiət

olunurdu. Sonradan bu xalq Cənubi Qafqazın əzəli sakinləri üçün ciddi başağrısına çevrildi.

Məhz həmin dövrdə əzəli Azərbaycan torpaqlarında erməni dövləti formalaşması başlanır. Cənubi Qafqazın inzibati-ərazi bölgüsündə dəqiq sərhədlərin olmaması ənənəvi haldır. Burada mövcud olan sərhədlər çox vaxt yalnız şərti xarakter daşıyırdı. Marqaret Tetçer "İdarəçilik sənəti" kitabında yazır ki, mehriban qonşuluğun ən yaxşı təməli çox vaxt möhkəm çəpərdir. Bəlkə də Cənubi Qafqazın problemi məhz belə bir möhkəm çəpərin olmamasıdır?!

Erməni etnosu təbiətinə görə miqrasiyalara və öz vətəninin hüdudlarından kənarda yaşamağa meyillidir. Belə olmasaydı, bu faktı necə izah etmək olar ki, sayı müxtəlif mənbələrdə 6,5 milyondan 10 milyona qədər göstərilən xalqdan bu gün Ermənistan respublikasında yaşayanların sayı 2,5 milyondan azdır. Təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən xeyli əvvəl ermənilər yaşayış yeri kimi Azərbaycan ərazisini, o cümlədən Bakını seçmişdilər. Burada yaşayan ermənilərin sayı 300-400 min nəfər idi. Onlardan 250 minə yaxını Bakıda yaşayırdı.

20 ildən artıq bundan əvvəl başlanmış Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı rayonlarda yaşayan insanlar üçün deyil, həm də Bakı erməniləri üçün acınacaqlı nəticələr vermişdir. Onlar özləri üçün doğma saydıqları şəhəri tərk etmişlər. Bu insanların bir qismi Ermənistana, digərləri Avropaya, ABŞ-a köçüb getmişdir, lakin onların çoxu hələ də daha firavan yer tapıb orada qərarlaşmaq ümidi ilə gəzib dolaşır. Hərçənd, azərbaycanlıların tamamilə qovulduğu Yerevandan fərqli olaraq o çətin illərdə ermənilərin heç də hamısı Bakını tərk etmədilər. Rəsmi məlumata görə hazırda təkcə Azərbaycanın paytaxtında 30 mindən çox erməni yaşayır.

Məlumdur ki, hər bir xalq layiq olduğu hökumətə malikdir. Yəqin ki, "başıbəlalı erməni xalqı" uzun illər boyu əhaliyə guya qədim dövrdə mövcud olmuş "Böyük Ermənistan" ideyasını təlqin edən avantürist rəhbərləri olmağa layiqdir. Ermənilər əsrlər boyu özlərinin nüfuzlu dostlarının himayəsi altında yaşamağı real azadlıqdan üstün tutmuşlar. Bu dostlar Ermənistanı iqtisadi, siyasi və sosial uçuruma



aparırdılar və indi də aparırlar. Təəssüf ki, onların siyasəti nəinki Ermənistana, bütün Cənubi Qafqaz regionuna ziyan vurur.

Zənnimcə, Cənubi Qafqaz əhalisinin əksəriyyəti bu fikirdədir ki, biz hamımız sülh şəraitində yaşamaq, Cənubi Qafqazdakı bütün münaqişələrin, o cümlədən Ermənistan tərəfindən başlanmış *Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin* tezliklə, dinc yolla və ədalətli həll edilməsini istəyirik. Taleyin qismətindən Ermənistan elə öz rəhbərlərinin düşünülməmiş siyasətinin girovuna çevrilmişdir. Əgər keçən əsrin səksəninci illərində Ermənistan Azərbaycana qarşı müharibəyə başlamasaydı, bu gün bu ölkə qat-qat əlverişli iqtisadi vəziyyətdə olardı.

Bu gün və əslində bütün tarix boyu bu ölkənin rəhbərləri öz xalqına qarşı soyqırımı siyasəti yeridir. Erməni sosioloqlarının son araşdırmaları göstərir ki, təkcə Yerevanda sorğuda iştirak etmiş respondentlərin 48 faizi potensial miqrantlardır. Üstəlik, Ermənistan paytaxtının əhalisinin 15,5 faizi bu ölkəni tərk etməyi artıq qəti qərara almışdır, daha 32,3 faizi isə bildirmişdir ki, imkan yaranan kimi onlar, necə deyərlər, çamadanlarını yığışdıracaqlar.

Şübhəsiz ki, Azərbaycan, Türkiyə və Gürcüstanda iqtisadi proseslərin sürətləndiyi, həyatın keyfiyyət göstəricilərinin artdığı bir vaxtda Ermənistan xalqı tədricən və qəti surətdə yoxsullaşmaqdadır. Mənim fikrimcə, Ermənistanda çoxları qonşu dövlətlərdə qazanılan uğurları həsəd hissi ilə izləyərək belə bir sual verirlər: əgər Dağlıq Qarabağda müharibə olmasaydı, onların ölkəsinin taleyi necə olardı?...

Bununla əlaqədar ağlıma gələn ilk fikir odur ki, bu halda bağlı sərhədlər olmazdı. Ermənistan bütün inteqrasiya proseslərində tamdəyərli iştirak edə bilərdi. Ermənistan beynəlxalq sərmayədarlar üçün iqtisadi baxımdan daha cəlbedici olardı. Bu da öz növbəsində yeni iş yerlərinin açılmasına, hər şeyi məhv edən işsizlik probleminin həllinə gətirib çıxarar və nəticə etibarilə ölkə əhalisi bir tikə çörək qazanmaq üçün öz evlərini tərk etməzdi. Enerji resursları sarıdan yoxsul olan Ermənistan regionda həyata keçirilən iri enerji layihələrinin fəal iştirakçısı olar, bu da öz növbəsində Ermənistanın başqa dövlətlərdən asılılığını azaldardı. Ermənistanın nəqliyyat layihələrində iştirak etməsi isə onun üçün Qərb bazarlarına çıxmaq imkanı yaradardı.

Aşkardır ki, praktiki olaraq bütün əhalinin köç etmək fikri ilə yaşadığı, ən yaxşı zəka sahiblərinin özlərini və yaxınlarını yedirtmək üçün axtarışlarla məşğul olduğu ölkədə heç bir demokratik dəyişikliklər barədə söhbət belə ola bilməz. Şübhəsiz, Dağlıq Qarabağ münaqişəsi olmasaydı, Ermənistan cəmiyyətində demokratik qüvvələr qalib gələr, demokratiya, insan hüquqları və qanunun aliliyi prinsipləri kütlələrin şüuruna hakim kəsilərdi. Beləliklə, Qərb, Avropa və bir sıra başqa ölkələr bəzən bütün diplomatik və hüquqi çərçivələrdən kənara çıxaraq Ermənistana – bu işğalçı ölkəyə iqtisadi, hərbi, maliyyə, humanitar və başqa şəkildə kömək göstərməli olmazdılar.

Tarixi geri döndərmək olmaz, buna görə indi biz "əgər belə olmasaydı..." mövzusunda yalnız mühakimə yürüdə bilərik. Lakin hətta bu gün də Ermənistan Dağlıq Qarabağ münaqişəsini tənzimləsə, bütün sahələrdə onun vəziyyəti daha əlverişli olacaqdır. Sülh, ilk növbədə, Ermənistanı özünün vətəni hesab edən və ağır həyat şəraitinə baxmayaraq, orada yaşamaqda davam edən sadə insanlara lazımdır.

**Newtimes.az**
12 aprel 2012

### *6.7. Dəyişən dünyada sülh problemləri və Dağlıq Qarabağ münaqişəsi*

Elmi ədəbiyyatlarda sülh həm dar, həm də geniş mənalarda işlənilən bir məfhumdur. Geniş mənada sülh həmçinin sosial ədalət məsələsini özündə ehtiva etsə də, əksər müəlliflər bu məfhumu daha çox dar mənada istifadə etməyə meyl edirlər. Belə ki, sülh dedikdə ilk növbədə birbaşa, şəxslərə yönəlmiş zorun, güc tətbiqinin aradan qaldırılması nəzərdə tutulur. İnsanlara qarşı bu formada güc tətbiqi isə əsasən müharibələr zamanı baş verir. Bu baxımdan sülh bəşəriyyətin həm də beynəlxalq müstəvidə qorumalı olduğu ən yüksək dəyərdir. Sülh olmayan yerdə digər bəşəri dəyərlərin praktiki olaraq əhəmiyyəti qalmır. İbarəli desək, sülh hər şey demək deyilsə də, sülhsüz hər şey heç nə deməkdir.



Ümumən, dünyada bu gün söz və güc sahibi olan dövlətlər böyük müharibələrin baş verməsində maraqlı görünmürlər. Çünki ən azından belə müharibələr asanlıqla dünya və ya nüvə müharibəsinə çevrilə bilər ki, bundan da heç bir tərəf qalib çıxmaz. Tarixə baxdıqda məsələn I və II dünya müharibələri arasında yalnız 20 il sülh "fasiləsi" olmuşdursa da, son dünya müharibəsindən artıq 70 ilə yaxın bir müddət keçir. Amma bu günün gerçəkliyi həm də odur ki, dünyada tam sülh şəraitinin bərqərar edilməsi və müharibələrsiz bir dünya düzəninin formalaşması obyektiv olaraq mümkün deyil. Bunun üçün dünya çox böyük və rəngarəngdir. Belə ki, regional və lokal müharibələrin baş verməsi gələcəkdə də istisna deyildir.

Bununla yanaşı qloballaşan dünya düzənində ən mühüm tendensiya olaraq bu gün beynəlxalq güc tarazlığı dəyişir. Bu ilk növbədə tarazlığın Qərbdən Şərqə meyllənməsi şəkilində baş verir. Xüsusən də Çin və Hindistanın timsalında yeni böyük güclərin meydana gəlməsini qeyd etmək olar. Digər tərəfdən isə başda ABŞ olmaqla Qərb dünya hegemonluğunu itirməyə başlamışdır.

Maraqlı məqam ondan ibarətdir ki, tarixən bu cür qlobal tarazlıqların dəyişməsi həmişə müharibələrlə müşahidə olunub. Bu baxımdan sülh ideyası, missiyası xüsusən aktual bir məsələyə çevrilib. Tədqiqatçıları düşündürən əsas suallardan biri odur ki, hansı şərtlər təmin olunmalıdır ki, qlobal güc tarazlığının dəyişməsi müharibələrsiz, sülh yolu ilə həyata keçsin.

Amma qlobal güc tarazlığının dəyişməsi şəraitində bu tarazlığın "sərhədlərində" yaranmış regional və lokal münaqişələrin qızışması istisna deyil. Belə münaqişələrdən biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. İlk növbədə Qarabağ münaqişəsinin beynəlxalq dairələrdə necə qəbul edilməsi məsələsinə toxunmaq lazımdır. Aydındır ki, geniş mənada həqiqətin, gerçəkliyin necə olmasından çox onun necə qəbul edilməsi daha önəmlidir. Bu cəhətdən Dağlıq Qarabağ münaqişəsinə beynəlxalq dairələrdə münasibətin həm də bir qavranılma məsələsi olması qənaətinə gəlmək olar. Hər bir məsələ kimi Qarabağ məsələsi də yaxınlığından və uzaqlığından, habelə "istiliyindən" və "soyuqluğundan" asılı olaraq müxtəlif güclər tərəfindən fərqli qəbul olunur.

Bəs qlobal güc tarazlığının dəyişdiyi bir dövrdə Qarabağ münaqişəsinə beynəlxalq münasibət özünü konkret necə büruzə verir? İlk növbədə Qərbdə böyük bir regional münaqişə kimi, hətta demək olar ki, postsovet məkanının ən çətin problemi kimi qəbul olunsa da, regionun çox mürəkkəb geosiyasi durumu ilə əlaqədar, xüsusən də Azərbaycanın müxtəlif güclərin maraq dairələrinin kəsişdiyi bir ölkə olduğuna görə kənar təsirlər münaqişənin effektiv həlli üçün əlverişli deyil. Azərbaycan münaqişə nəticəsində böyük ziyan çəkib ki, bu da ölkənin iqtisadi və siyasi həyatına təsirsiz ötüşməyib. Burada əsas qane etməyən məqam beynəlxalq güclərin münaqişənin sülh yolu ilə həlli prosesində işğalçı dövlətə açıq siyasi təzyiqlər etməməsidir. Türkiyədən başqa region dövlətləri də Ermənistanı təcavüzkar adlandırmayıb.

Digər tərəfdən isə son illər Qarabağ münaqişəsinin həlli ilə bağlı əsas təşəbbüsün Rusiyanın əlində olması aydın şəkildə görünür. Qərb gücləri də bunun belə olmasını qəbul edirlər. Onlar hesab edirlər ki, ilk növbədə beynəlxalq müstəvidə yenidən güclənmiş Rusiyanın iradəsinə qarşı münaqişənin həlli qeyri-mümkündür. Qarabağ münaqişəsinin ədalətli həllinin ABŞ və Avropa İttifaqının əsas maraq dairəsində olmadığını nəzərə aldıqda, onların münaqişənin həllində daha çox seyrçi mövqe tutması göz qabağındadır.

Bundan başqa Qərbdə ümumi fikir həm də belədir ki, Ermənistan və Azərbaycan kiçik dövlətlərdir və onların arasındakı münaqişə dünya sülhü üçün o qədər də əhəmiyyət kəsb etmir. Yəni qismən səthi bir yanaşma var. Hesab edilir ki, münaqişə ilə bağlı bir hərbi-siyasi status-kvo formalaşıb, nisbi "sakitlikdir", müəyyən regional layihələr həyata keçirilir və sair. Yəni problemin həllinə "aktual" motivi görməməklə yanaşı həm də hazırkı duruma bir "öyrəşmə" effekti diqqəti cəlb edir. Nəyi isə dəyişmək üçün müəyyən resurslar, səylər tələb olunur ki, Qərb güclərinin buna hələ hazır olmadığı görünür.

Qarabağ münaqişəsinə beynəlxalq münasibətlə bağlı başqa məsələ isə erməni diasporasının rolu və erməni xalqının beynəlxalq arenada tarixən formalaşmış qurban imici ilə bağlıdır. Qərbdə, eləcə



də Rusiyada hesab edirlər ki, Ermənistan tərəfini elə də "sıxışdırmaq" olmaz. Bundan dolayı həm Qərb, həm də Rusiya əsas olaraq ona çalışır ki, iki ölkə arasında "müharibəsizlik" şəraiti davam etsin. Habelə konkret olaraq Ermənistanın münaqişə ilə bağlı hazırkı durumda əsas günahkar olması müəyyən dairələrdə hələ də qəbul edilmir.

Azərbaycan torpaqlarının işğal olunması, yüz minlərlə insanın qaçqın düşməsi, Azərbaycan xalqına qarşı törədilən müharibə cinayətləri heç bir formada qəbuledilməzdir. Bununla belə ilk növbədə dünya siyasətində bir struktur ədalətsizliyinin olmasını dərk etmək lazımdır. Azərbaycan öz ərazilərinin itirilməsi ilə əsla barışmamaq kimi prinsipial mövqeyində haqlıdır. Hər halda beynəlxalq güclər yaxşı anlayırlar ki, Qarabağın müstəqilliyi və ya Ermənistana birləşməsi yalnız Azərbaycan xalqının və rəhbərliyinin bununla razılaşması halında mümkün ola bilər.

Beləliklə Azərbaycan gələcəkdə də Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində uzaqgörən siyasətini davam etdirməli, iqtisadi, siyasi, regional baxımdan daha da güclənməsini təmin etməlidir. Elə bir vəziyyət yaranmalıdır ki, beynəlxalq güclər xüsusən də Qərb və Rusiya Azərbaycansız regionun tərəqqisinin, habelə Ermənistanın özünün inkişafının və regional sülhün mümkün olmamasını görsün. Bunu ilk olaraq qlobal güclər dərk edərlərsə, sonda Ermənistan da bu vəziyyətdən ən çox özünün itirən olmasını görməli olacaqdır. Çünki bu gün dünya siyasətində ərazilərə hakim olmaq vacib deyil. Əsas amil resurslara malik olmaqdır. Resurslar isə təbii ehtiyatlarla yanaşı insan amili, təhsilin və iqtisadiyyatın və digər sahələrin yüksək səviyyədə inkişafıdır. Bu istiqamətdə Azərbaycanın uğurları yaxın 5-10 il ərzində dəyişən dünyada münaqişə ilə məşğul olan böyük gücləri yeni fakt qarşısında qoyacaqdır.

**Azər Babayev,**
***siyasi elmlər doktoru (Almaniya)***
9 iyul 2012

### 6.8. *Ermənilər hara köçməlidir?*

Gürcüstanda keçirilən son seçkilərdə qalib gələn "Gürcü arzusu" müxalifət koalisiyasının lideri Bidzina İvanişvili bu günlərdə diqqət mərkəzindədir. Demək olar ki, bütün Qərb dünyası onun Gürcüstanın xarici siyasətinə dair fikirlərini öyrənmək istəyir. Ona görə də, onun bu sahədə verəcəyi bəyanat və yaxud atacağı addım bu və ya başqa qrup tərəfindən diskussiyalara səbəb olacaq.

Hər kəsin ondan belə bir işarə gözlədiyi bir zamanda, B.İvanışvili «The New Times» qəzetinə müsahibəsində ermənilərlə bağlı maraqlı fikirlər səsləndirib. Belə ki, B.İvanişvili gürcülərin öz torpaqlarına bağlı olduğunu bildirərək erməniləri misal çəkib: "Bizdə ermənilər yaşayır. Mən təəccüblənirəm, onların vətənləri bir addımlıqdadır, amma onlar burda yaşayırlar. Ola bilsin ki, sizin üçün belə məsələ yoxdur. Mənim üçünsə aydın deyil. Mən Fransada, Amerikada yaşamışam, amma mənim kəndim, torpağım həmişə yuxuma girib".

Əslində bir nöqteyi-nəzərdən, B.İvanişvili bu fikirləri söyləməkdə haqlıdır. Qafqazda yaşayan bu siyasi xadim Ermənilərin xislətinə bələddir. O yaxşı bilir ki, ermənilər başqalarına aid olan hər şeyə necə və hansı üsullarla sahiblənirlər. O yaxşı bilir ki, bir müddətdən sonra Ermənilər Gürcüstandakı ərazilərə, Gürcüstanda olan milli-mənəvi dəyərlərə sahib çıxmağa çalışacaq, özlərinin bu torpaqların qədim sakinləri olduğunu, gürcülərin isə buralara başqa yerdən gəldiyini iddia edəcək, bar-bar bağıraraq aləmə səs salacaqlar.

Bu fikirləri söyləyərək, B.İvanişvili öz vətəninin, onun torpağının, milli-mənəvi dəyərlərinin bir növ müdafiəsinə qalxır. Ona görə də gürcülərin yaxasını ermənilərdən mümkün qədər tez qurtarmasını istəyir.

Lakin B.İvanişvili bir məqamı unudur. Bəs ermənilər hansı vətənlərinə qayıtmalıdır ki? Axı indiki Ermənistan da onların əsl vətəni deyil. Bu torpaqlar əzəli türk torpaqları olmuşdur, ermənilər isə buralara 19-cu əsrdən başlayaraq çar Rusiyası tərəfindən İrandan və Osmanlı torpaqlarından köçürülmüşlər. İndi İran və Türkiyə onları təkrar qəbul edərmi? Açığı, inanmıram.



Bir az daha qədimə getsək, ermənilərin əsl vətəni Yaxın Şərqdir, Mesopotamiyadır. Bu nöqteyi-nəzərdən, ermənilərin oralara qayıtması lazım gələrdi. Ancaq orada yaşayan xalqların da belə bir milləti qəbul etmələrinə şübhəm var.

Bunu ermənilərin özləri də yaxşı başa düşür. Onlar bilirlər ki, Ermənistan onların vətəni deyil və gec-tez Azərbaycan torpaqlarından çıxmalı olacaqlar. Ona görə də, onlar indiki Ermənistan deyilən ölkədə yaşamaq istəmirlər. Dünyanın dörd bir yanına səpələniblər. Ermənistanda olanlar isə bu ölkəni tərk etmək üçün fürsət axtarırlar.

Statistik məlumatlar indiki Ermənistanı tərk etmək istəyənlərin sayının ildən-ilə artdığını göstərir. ABŞ səfirliyindən verilən məlumata əsasən, 2013-cü ildə təkcə ABŞ-a köçmək üçün rəsmi müraciət etmiş Ermənistan vətəndaşlarının sayı 107 minə yaxındır. 2 milyon əhalisi olan bir ölkə üçün isə bu olduqca yüksək rəqəmdir və əhalinin 5 %-dən artıqdır.

Bəs görəsən Ermənistan rəhbərliyi və erməni xalqı bu haqda nə fikirləşir? Onlar bunun fərqindələrmi?

Ermənistan rəhbərliyi üçün bunun zərrə qədər mənası yoxdur. Gələcəkdə erməniləri hansı aqibətin gözləməsi onların heç vecinə də deyil. Ölkədə nə qədər az adam olsa, o qədər asan idarə etmək olar. Çünki bu gün Ermənistan əhalisi bir qrup avantürist separatçının girovuna çevrilib və heç cür xilas ola bilmir.

Ona görə də, erməni xalqının vəziyyəti daha acınacaqlıdır. Xüsusilə də Ermənistandan qaça bilməyənlərin. Ermənistan vətəndaşları isə bundan tez və düzgün nəticə çıxarmalıdır.

**Dr. Turab Qurbanov**
12 oktyabr 2012

### 6.9. *"Tanrının seçilmiş milləti"*

Deyirlər insanı tanımağın ən yaxşı yolu onun özünün özünü necə görməsinin və ətrafındakılarda necə təəssürat yaratmasının vəhdətindən keçir. Elə bunu bir millət üçün də tətbiq etmək mümkündür. Bu baxımdan, daha əvvəl yazılmış "Xəyanətkar əcdadların

"mötəbər" övladları" adlı məqalədə fərqli zamanda və fərqli məkanlarda yaşamış dahilərin ermənilər haqqında söylədikləri artıq oxuculara təqdim edilib. Həmin tədqiqata əlavə kimi, və onun ermənilərdə qərəzlilik təəssüratı yaratmaması məqsədilə, bu yazıda fərqli zamanlarda və fərqli məkanlarda yaşamış və erməni millətindən olan mütəfəkkirlərin və tədqiqatçıların özlərini necə görmələrinə yer verilir. Tədqiqat isə əsasən üç istiqamətdə, milli özünüdərk, tarixə baxış və özünəqiymət istiqamətlərində aparılır.

Bir çox erməni tədqiqatçılar ermənilərin yüksək mənəviyyata sahib olduğunu göstərməyə çalışırlar. Lakin ermənilərin heç də hamısı bu fikri paylaşmır[1]. Belə ki, tanınmış erməni şairi Yeqişe Çarens etiraf edir ki, onlarda riyakarlıq ana bətnində olarkən yaranır. Tanınmış şair və yazıçı Ovanes Tumanyan isə məyusluqla ifadə edirdi ki, "... həqiqi qurtuluş daxildən başlanmalıdır, çünki biz daxilən xəstəyik"

Erməni kilsəsinin fəaliyyətindən bəhs edən N.S.Vartapetov isə bildirir ki, həmin kilsə xristian bayrağı ilə silahlanaraq bütün zamanlarda tarixi Albaniyanın və onun ayrılmaz hissəsi olan Qarabağın xalqlarını məhv etmişdir və bir vaxtlar tarixi vəziyyətə məharətlə uyğunlaşaraq Bizans imperiyasına, İran Sasanilərinə, ərəb xəlifələrinə və monqollara xidmət etdiyi kimi, Səfəvilərə, daha sonra Rusiya imperiyasına xidmət etmişdir[2].

Tanınmış tarixçi alim, ermənişünas K.Patkanov isə şikayətlənir ki, ermənilər bəşər tarixində heç zaman xüsusi rol oynamamışlar. Ermənilər həmişə yaşadığı torpaqların pis sahibləri olmuşlar, ancaq onlar çox məharətlə öz yaxınlarını sataraq güclülərə xidmət göstərmişlər[3].

Ermənilərin tarixə baxışı bizə məlumdur. Onlar qədim tarixə və mədəniyyətə malik olması, tarixdə dənizdən-dənizə "böyük Ermənistan" imperiyası yaratmaları haqqında qürurla danışmağa aludədirlər. Lakin, məsələ burasındadır ki, ermənilərin tarixi saxtalaşdırdıqlarını bildirən tarixçilərin sayı yüzlərlə, bəlkə də minlərlədir.

[1] Bu məqalədə istifadə olunmuş sitatların bəziləri Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin "Gəldim, gördüm, mənimsədim" kitabından götürülmüşdür

[2] Н.С.Вартапетов, «Христианские памятники Закавказья»

[3] «Ванские надписи и их значение для Передней Азии», 1875



Görkəmli tarixçi Avqust Kariyer bildirir ki, erməni alimlərinin məlumatlarına inanmaq avamlıqdır, çünki bu məlumatların əksəriyyəti uydurmadır[1]. D.Morqan isə ermənilər haqqında yazır ki, "biz bu ölkənin tarixçilərinin necə işlədiklərinin şahidiyik, və yaxşı bilirik ki, onların dindar şəxslərinin hamısı öz millətlərinin köklərini Müqəddəs əhdi-ətiq ənənələri ilə necə bağlayır və Ayk soyunu özlərinə yaxınlaşdırmaq üçün onlar rəvayətləri və mənbələri necə qarışdırırlar[2]".

Məşhur Avropa tarixçisi F.Makler də öz növbəsində qeyd edir ki, tarixçilərə yaxşı bəllidir ki, Ermənistan, yəni tarixi dövrlərdən bəri bu adı daşıyan coğrafi rayon erməni adlandırılan xalqın daimi yaşayış yeri olmamışdır[3].

Bununla bərabər, ermənilərin özləri də bunu etiraf edirlər.

Akademik Manuk Abeqyan bildirir ki, erməni xalqının köklərinin harada olması, buraya necə, nə vaxt, haradan və hansı yollarla gəlməsi haqqında onlarda dəqiq və aydın sübutlar yoxdur[4].

Erməni tarixinin Haykın və onun xalqının Ermənistana gəlib çıxmasını e.ə. 2200-cü ilə aid edilməsinə və onların e.ə. 800-cü ilə qədər bir-birini əvəzləmiş dini rəhbərlərinin və çarlarının siyahısının göstərilməsinə qəti etiraz edən erməni tarixçisi Pastermacyan da öz növbəsində bildirir ki, müasir elm bu uydurmanı cəfəngiyat hesab edir.

Tanınmış tarixçi Aykazyan etiraf edir ki, "ilkin erməni sülaləsi tarixi şəxsiyyətlərdən yox, uydurulmuş nağıllardan götürülən şəxslərdən ibarətdir. Movses Xorenasinin özü beşinci yüzilliyin tarixçisi deyil, o, yeddinci yüzillikdə yaşayan saxtakar-tarixçidir[5]".

Qevork Aslan ermənilərə qəbul etməyi məsləhət verir ki, Movses Xorenasi öz hekayələrini ya Suriya nağıllarından götürmüş, yaxud da Hürufilərdən eşitmiş və onları ustalıqla öz əsərlərində göstərmişdi. Özü Suriya və İranın tarixi mənbələrindən istifadə etmişdir. O, Yasenxen yəhudilərinin döyüşlərindən parçaları, Eyzeben kilsəsinin tarixini Malalesdən götürmüş və özününküləşdirmişdir[6].

[1] A. Carriere, "Moise de Khoren et la Genealogie Patriarcale", Paris, 1896

[2] «Осудительная армянская история», Тифлис, 1895

[3] F.Macler, "La nation arménienne. Son passé et ses malheurs", Paris, 1924.

[4] «История армянской литературы», Ереван, 1975, стр.11.

[5] «Histoire de l'Arménie», Paris, 1919.

[6] K.Aslan, "Études historiques sur le peuple arménien", Paris, 1928.

Öz tarixlərindən bəhs edən Basmacyan vurğulayır ki, "Ermənistanın və ermənilərin tarixi və yaranışı çox qaranlıqdır. Bu ərazi ta qədim zamanlardan Pamir düzənliyindən gələnlər, İndikuş emiqrantları tərəfindən tutulmuşdur. Ermənilərin romalılar, yunanlar, iranlılar və bütün millətlər kimi mifik qəhrəmanları mövcuddur. Milli tarixçilər dəqiq məlumata, aşkar mənbələrə malik olmadıqları üçün onların yerini nağıllardakı personajlar tutmuşdur[1]".

Türkləri soyqırımda ittiham edən ermənilər və onların qərb havadarları üçün ən gözəl cavab isə tanınmış mütəxəssis Levon Dabeqyandan gəlir. O bildirir ki, ermənilər öz milli varlığı üçün birbaşa türklərə borcludurlar. O etiraf edir ki, əgər onlar bizanslılar və ya başqa avropalılar arasında qalsaydılar, erməni adı ancaq tarixi kitablarda saxlana bilərdi.

Deyirlər adilin ədalətini və zalımın zülmünü onun əlində fürsət və ixtiyar olduğu zaman bilmək olar. Bu nöqteyi-nəzərdən, ermənilərin istər Anadoluda, istərsə də Qafqazda törətdiyi qırğınlar, ağlasığmaz vəhşiliklər hər kəsə bəllidir. Bu vəhşilik həm də onların özləri tərəfindən etiraf edilməkdədir.

Belə ki, A.Lalayan 1936-cı ildə öz məqaləsində bildirir ki, daşnak nümayəndələri ətraflarına çoxlu könüllü silahlı dəstələr yığaraq müharibə gedən türk ərazilərində qadın, uşaq, qoca və əlilləri amansızcasına doğrayıb tökürdülər[2].

Erməni Ohanes Apresyan öz xatirələrini belə ifadə edir: Ara sakitləşən kimi Şuşanı yenə gördüm. şəhərin türk məhəlləsində daşkəsək yığınlarından başqa bir şey qalmamışdı. Bütün evlər yandırılmış, onların sahibləri isə öldürülmüşdü. Eyni hal Xankəndindəki türk məhəlləsinin də başına gətirilmişdi... Bakıda ermənilər ingilislərin yardımı ilə bu böyük neft şəhərini ələ keçirdilər və şəhərin türk əhalisindən 25.000 nəfərini qırdılar[3]".

Dayd Xeriyanın 2000-ci ildə Beyrutda çap olunan «Xaç naminə» adlı kitabında da[4], Zori Balayanın 1996-cı ildə çap olunan «Ruhumuzun dirilməsi» adlı kitabında da[1] erməni xalqının Xocalıda göstərdikləri "xüsusi qəhrəmanlığı"ndan bəhs edilir. Onların Azərbaycanlı uşaqların öldürülməsindən necə həzz aldıqları kitabın hər sətrində özünü büruzə verməkdədir.

[1] «Nouvelle histoire arménienne», Paris, 1917.

[2] А.Лалаян. О резне в 1918-1920 гг. Журнал «Революционный Восток», N2-3, 1936. Москва.

[3] Leonard Ramsden Hartvillin, "Men Are Like That", Indianapolis, 1928.

[4] http://justiceforkhojaly.org/site/?p=eyewitnesses



Təsadüfi deyildir ki, düz bir il bundan qabaq erməni əsgəri snayperlə 9 yaşlı azərbaycanlı uşağı qətlə yetirmişdir. Həqiqətən də hədəfi dəqiqliklə seçən snayperlə uşağı nişan ala bilmək xüsusi bir "qəhrəmanlıq", "böyük ürək", "iradə", "cəsarət" tələb edir. Bu xüsusiyyət isə ancaq özlərini az qala "Tanrının seçilmiş milləti" mərtəbəsinə ucaltmaq iddiasında olan ermənilərə məxsusdur.

**Newtimes.az**
4 aprel 2012

### *6.10. Erməni terror təşkilatları*

Macarıstanda keçirilən kurslarda iştirak edərkən onu, vətənini, millətini və bayrağını təhqir etdiyi və psixoloji təhrik etdiyi üçün erməni zabitini qətlə yetirən və bu səbəblə də Macarıstan məhkəməsi tərəfindən haqsız olaraq ömürlük həbs cəzasına məhkum edilən Ramil Səfərovun vətənə qaytarılaraq dövlət başçısı tərəfindən əfv edilməsi ermənilərə vəziyyəti gərginləşdirmək üçün əsas verdi. Sanki, məhz Ermənistanda hər kəs bu anı gözləyirdi. Başda Ermənistan hakimiyyəti olmaqla, bütün ermənilər Azərbaycana qarşı geniş miqyaslı siyasi, diplomatik və informasiya müharibəsinə qalxdı.

Bu məsələ eyni zamanda ermənilərin iç üzünün açılmasına da kömək etdi. Erməni terror təşkilatlarından olan ASALA Azərbaycanın Macarıstandakı Səfirliyinə email göndərərək səfirlik əməkdaşlarını ölümlə hədələdi. Həmin məktuba nəzər salanda aydın şəkildə görmək olar ki, ermənilər Azərbaycanlılara və Türklərə qarşı törətdikləri cinayətkar və terrorçuluq hadisələrindən xəcalət çəkmək əvəzinə, uydurma soyqırım məsələsini əllərində bayraq edərək bununla fəxr edirlər.

[1]. http://assembly.coe.int/Main.asp?link=/Documents/Records/2009/E/0906241000E.htm.

Məsələnin bu məcrada inkişaf etməsi erməni terrorizmi haqqında qısa bir tədqiqat aparmaq ehtiyacı yaratdı. Tədqiqatlar göstərir ki, indiyə qədər ermənilər Türklərə və Azərbaycanlılara qarşı terror hadisələri törətmək məqsədilə iyirmiyə yaxın terrorçu təşkilat daxilində qruplaşmış və fəaliyyət göstərmişlər. Bu təşkilatları qısaca olaraq belə sinifləndirmək olar:

**Partiya daxilində təşkilatlanma**

Ermənilərin partiya daxilində terror təşkilatlanmasının üç nümunəsi mövcuddur. Bunlar «Armenakan» partiyası, «Hnçak» partiyası və «Daşnaksütyun»-erməni federativ inqilab partiyasıdır.

1885-ci ildə yaradılan «Armenakan» partiyası İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq edərək, Türkiyənin Van, Muş, Bitlis,Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törətmişdir.

1887-ci ildə Cenevrədə yaradılan «Hnçak» partiyasının əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, «Rus» və «İran» Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə «Böyük Ermənistan» dövləti yaratmaqdır. Partiyanın proqramına əsasən, qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilə bilər.

1890-cı ildə Tiflisdə yaradılan «Daşnaksütyun»-erməni federativ inqilab partiyasının əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında «Böyük Ermənistan» dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən «Daşnaksütyun» türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra «Daşnaksütyun» «türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!» əmrini vermişdir. Partiyanın məxfi terror qrupu DRO və onun bölmələri olan DRO-8, DRO-88, DRO-888, DRO-8888 bu məqsədlə yaradılmmışdır.

**Paramilitar şəkildə təşkilatlanma**

Erməni terrorçularının paramilitar şəkildə qruplaşmasının iki nümunəsi mövcuddur: «Erməni gizli azadlıq ordusu» olan ASOA və «Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu» olan ASALA.



1975-ci ildə Beyrutda yaradılan «Erməni gizli azadlıq ordusu» olan ASOA-nın mənzil-qərargahı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü vardır. 1981-ci ilə qədər təşkilat dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

1975-ci ildə yaradılan «Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu» olan ASALA-nın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində «Böyük Ermənistan» qurmaqdır. Bu təşkilat əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. ASALA 1980-ci ilin aprelində Livanda birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini rəsmiləşdirmişdir.

**Hərəkat şəklində təşkilatlanma**

Erməni terrorçularının hərəkat şəklində təşkilatlanmasının 4 növü məlumdur: «Geqaron», «Erməni azadlıq hərəkatı» (AOD), «Erməni azadlıq cəbhəsi» və «Demokratik cəbhə».

2001-ci ilin fevralında ASALA tərəfindən yaradılan «Geqaron» hərəkatının məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.

1991-ci ildə Fransada yaradılan «Erməni azadlıq hərəkatı» (AOD) terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir.

1979-cu ildə yaradılan «Erməni azadlıq cəbhəsi» ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərən «Demokratik cəbhə»nin başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

**Qrup şəklində təşkilatlanma**

Erməni terrorunun ən geniş şəkillə yayılmış təşkilatlanma şəkli qrup şəklində təşkilatlanmadır. Bu təşkilatlanmanın 8 nümunəsi mövcud olmuşdur: «Orli qrupu», «Erməni soyqırım ədalət komandosları», «Erməni birliyi», «9 iyun qrupu», «Gənc ermənilər ittifaqı», «İsveçrə qrupu», «İntiharçılar eskadronu» və «Apostol».

1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılan «Orli qrupu» 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

1972-ci ildə Vyanada «Daşnaksütyun» partiyasının qurultayı zamanı yaradılan «Erməni soyqırım ədalət komandosları» nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

1988-ci ildə Moskvada yaradılan «Erməni birliyi»nin «ASALA» ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir.

1991-ci ildə İsveçrədə yaradılan «9 iyun qrupu» həbsdə olan erməni terrorçularının azad olunmasına çalışır.

1990-cı ildə Fransada yaradılan «Gənc ermənilər ittifaqı» diplomatların oğurlanması ilə məşğul olur.

Avropanın bir çox ölkəsində fəaliyyət göstərən «İsveçrə qrupu» Fransa, İtaliya və Yunanıstanda 4 terror aktı həyata keçirmişdir.

1981-ci ildə Parisdə yaradılan «İntiharçılar eskadronu» Türkiyənin Fransadakı baş konsulluğunun zəbt edilməsində iştirak etmişdir.

2001-ci ildə Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılan «Apostol» qrupunun məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktlarının keçirilməsidir.

Bu təşkilatların fəaliyyət şəklinə nəzər saldıqda, aydın şəkildə görmək olar ki, onlarla Ermənistan dövləti arasında sıx əlaqələr mövcuddur: əgər bir zamanlar onlar Ermənistan dövlətinin qurulması üçün çalışırdılarsa, indi Ermənistan dövləti onlara himayədarlıq edir.

Maraqlı orasıdır ki, Ermənistan dövləti bu təşkilatları sadəcə Türk və Azərbaycanlılara qarşı deyil, həm də ermənilərə qarşı istifadə edir. O ermənilərə qarşı ki, onlar ölkə daxilində bu dövlətin siyasətindən təngə gəliblər, o ermənilərə qarşı ki, onlar ölkə xaricində qazandıqları puldan yardım adı altında erməni rəhbərlərə çatacaq xərací



vermək istəmirlər, o Ermənilərə qarşı ki, onlar həqiqətən də qonşuları ilə dinc, yanaşı, mehriban, insan kimi yaşamaq istəyirlər.

Bu baxımdan ASALA-nın Azərbaycanlı diplomatları təhdid etməsinin arxasında erməni dövlətinin dayandığına şübhə yoxdur, çünki indiki iqtidar Ramil Səfərovun qaytarılmasını və əfv edilməsini özünün siyasi və diplomatik məğlubiyyəti kimi görür və bunun da onun kreslosunu silkələyəcəyini düşünür. Bu səbəblə də dividend qazanmaq üçün bütün vasitələrdən istifadə etməyə çalışır.

**Dr. Turab Qurbanov**
17 sentyabr 2012

### *6.11. Ermənistan-Azərbaycan münaqişəsi kontekstində atəşkəsin pozulması halları: təbliğat metodları və hədəflər*

İşğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan və Azərbaycan silahlı qüvvələri arasında təmas xəttində və Ermənistan-Azərbaycan sərhədi boyunca atəşkəs rejiminin pozulması barədə məlumatlar mütəmadi olaraq xəbər agentlikləri tərəfindən yayılır.

Adətən münaqişəyə diqqət yetirən ekspertlər bu xəbərlərə istinadən münaqişənin qaynar vəziyyətdə qalmasını qeyd edib bu durumun şiddətlənəcəyini və mümkün hərbi əməliyyatların yenidən başlaya biləcəyini proqnozlaşdırırlar.

Cəbhə xəttində tələfatla müşahidə olunan atəşkəsin pozulması hallarında post factum olaraq bəzən ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan və Azərbaycanı toqquşmalardan çəkindirən bəyanatlar vasitəsilə gündəmə gəlir və hər iki tərəfi xalqlarını sülhə hazırlamağa çağırırlar.

Bu fonda münaqişə bölgəsinə yeganə çıxışı olan ATƏT Sədrinin münaqişəyə dair şəxsi nümayəndəsi hansı tərəfin ilk atəş açmasını göstərmir.

Əslində, Ermənistan və Azərbaycan tərəfinin atəşkəsin pozulması ilə bağlı yaydıqları xəbərləri müqayisəli təhlil edərkən və əldə olunmuş nəticələri regionda hökm sürən vəziyyət kontekstində nəzərdən keçirərkən bir çox maraqlı məqamlar ilə üzləşmək mümkündür.

KİV-də yayılmış məlumatlara baxdıqda məlum olur ki, atəşkəsin pozulmasına dair Azərbaycan tərəfinin məlumatları əksər hallarda aşağıdakı elementlərdən ibarət olur: erməni silahlı qüvvələri Azərbaycanın işğal etdikləri məntəqələrdən (atəşin başlanğıc nöqtəsi) Azərbaycanın işğal altında olmayan məntəqələrini atəşə tutması (atəşin hədəfi) faktı, zərər çəkmişlərin sayı və hadisənin baş verdiyi təxmini zaman kəsiyi.

Atəşkəsin pozulmasına dair Ermənistan tərəfinin məlumatları aşağıdakı kimi sistemləşdirilə bilər: Azərbaycan silahlı qüvvələri işğal altında olan Azərbaycan ərazilərindəki erməni mövqelərinin hansının atəşə tutulduğu, bir neçə gün, həftə və ya ay ərzində atəşkəsin pozulması hallarının konkret sayı, hadisənin baş verdiyi konkret vaxt, açılmış atəşin konkret sayı, güllələrin konkret sayı, hansı silahdan nə qədər güllə atıldığı qeyd edilir.

Azərbaycan tərəfinin məlumatları ümumiliyi ilə seçilir və konkret rəqəmlər yalnız ölənlərin sayında göstərilir.

Ermənistan tərəfinin xəbərləri isə təfərrüatlı rəqəmlərin göstərilməsi ilə nəzərə çarpır. Məsələn, Ermənistanın xəbər agentliklərinə görə, 2012-ci ilin 6-12 may tarixlərində guya Azərbaycan tərəfi 350 dəfə atəşkəsi pozmuş və müxtəlif silah növlərindən 1500 dəfə atəş açmışdır. Digər bir xəbər, Azadlıq radiosunun erməni dili xidmətinə əsasən, ötən ilin 16-21 may müddətində Azərbaycan tərəfi 1500 güllə atmışdır (http://rus.azatutyun.am/content/article/24182105.html). Kənar müşahidəçi üçün bu təfərrüatlı məlumat həqiqətə uyğunluq təəssüratı yarada bilər.

Əgər Ermənistan tərəfinin məlumatları doğrudursa bu halda belə çıxır ki, yüz kilometrlərlə uzanan cəbhə xəttində erməni əsgərləri gecə-gündüz bütün il boyu Azərbaycan silahlı qüvvələrinin açdıqları çoxsaylı atəşi və atdıqları minlərlə güllələri sayır, onların konkret vaxtını qeydə alır və daha sonra oturub bu sursatın hansı silah növlərindən buraxılmasını müəyyənləşdirməklə məşğul olurlar. Təbii ki, bu fiziki cəhətdən mümkün olmayan bir işdir, xüsusilə də demoqrafik böhranla üzləşmiş Ermənistan kimi dövlətin ordusu üçün.



İkinci variant kimi təxmin etmək olardı ki, Ermənistan yuxarıdakı statistikanı qeydə alan bir sayğac icad etmiş və bu avadanlıqlarla bütün səngərlərini təmin etmişlər. Lakin, belə bir sayğacı nəinki Ermənistan hətta digər inkişaf etmiş dövlətlər belə hazırlamamışlar.

Ermənistanın məlumatları kontekstində ciddi suallar yaradan digər bir məsələ isə "Azərbaycanın etdiyi güllə-boran" fonunda praktiki olaraq itkilərin göstərilməməsidir. Halbuki daha güclü Azərbaycan ordusunda Ermənistan tərəfinin açdığı atəş nəticəsində itkilər zaman-zaman olur və bu barədə məlumat verilir.

Bəzən Ermənistanın məlumatları elə bir tərzdə təqdim olunur ki, hətta adi insanlar belə onun absurdluğunu görür. Məsələn, xatırlayırıq ki, bir neçə il öncə ermənilərin xəbərlərinə görə Azərbaycan tərəfi bir istiqamətdə qısa zaman kəsiyində SVD snayper tüfəngindən 20 güllə atmışdır. Halbuki, bəlli məsələdir ki, snayper saatlarla hədəfinin pusqusunda durub bir, maksimum iki güllə atır, snayperin 20 güllə atması artıq onun snayper funksiyaları yerinə yetirmədiyi deməkdir.

Ermənistanın yuxarıda verdiyimiz və yüzlərlə digər məlumatlarının müqayisəli təhlili Azərbaycanın atəşkəsi pozması iddiaları ciddi şübhə altına alır.

Xüsusilə qeyd etmək lazımdır ki, atəşkəsin pozulmasında Azərbaycan tərəfi heç maraqlı deyildir. Ən azından ona görə ki, təmas xəttinin işğal olunmayan hissəsində çoxsaylı azərbaycanlı mülki əhali yaşayır və Ermənistan tərəfinin güllə atması nəticəsində ən zəif bənd olaraq daha çox mülkilər zərər çəkir.

Əslində, Ermənistan digər məsələlərdə olduğu kimi atəşkəsin pozulması məsələsində müxtəlif üsullardan, o cümlədən təfərrüatlı statistika verməklə doğru olmaq görüntüsü yaratmağa çalışır. Ermənistan təbliğatı bu məsələdə "yalan nə qədər dəhşətli olsa, ona daha çox inanan olar" propaqanda metodlarından istifadə etməklə dünya ictimaiyyətini çaşdırmağa çalışır.

Bu metoddan vaxtı ilə faşist Jozef Qebbels geniş istifadə edirdi. Erməni tərəfinin söykəndiyi digər təbliğat metodu isə belədir: Yalanı o qədər təkrarlamaq lazımdır ki, axırda hamı onun doğru olduğuna inansın. Bu sevimli fənddən ermənilər təkcə müasir tarixdə deyil, Böyük Ermənistan mifi barədə yalan-palanlardan tutmuş, 1915-ci il

hadisələri, ermənilərin Cənubi Qafqazda məskunlaşması da daxil olmaqla, son dövrlərədək sistematik şəkildə istifadə edirlər.

**Ermənistanın bu siyasətinin taktiki və strateji hədəfləri**

Ermənistanda iqtisadi və demoqrafik vəziyyət pisləşdiyi bir fonda Azərbaycanda əksinə əhalinin və iqtisadiyyatın artımı qeydə alınır və iki dövlət arasında bu uçurum dərinləşir. Bundan əlavə, Ermənistan daxilində əhalinin Sarkisyan klanından narazılığı kritik həddə çatmaqdadır. Türkiyə-Ermənistan yaxınlaşması prosesi erməni diasporasının S. Sarkisyan ilə münasibətlərini gərginləşdirmişdir.

Azərbaycanın güclənməsindən ciddi narahat olan Ermənistan rəhbərliyi anlayır ki, danışıqlarda hazırkı işğal faktorundan yararlanmaq getdikcə çətinləşəcəkdir. Azərbaycanı inkişafdan və güclənməkdən saxlamaq, Ermənistan daxilində əhalini və xaricdə diasporanı öz ətrafında birləşdirmək üçün Ermənistan rəhbərliyi Azərbaycanı provokasiyaya sürükləyib hərbi əməliyyatlara başlamaq fikirlərindən daşınmır. Atəşkəs rejiminin mütəmadi olaraq Ermənistan silahlı qüvvələri tərəfindən pozulması məhz bu kontekstdə nəzərdən keçirilməlidir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaxınlığında yerləşən Tərtər istiqamətində ermənilərin zaman-zaman diversiya həyata keçirməsi, 2011-ci ildə 9 yaşlı Fariz Bədəlovun təmas xətti yaxınlığında yerləşən evlərinin həyətində oynayarkən erməni snayperi tərəfindən öldürülməsi və ya bu ilin 9 mayında Şuşanın alınmasını Ermənistan rəhbərliyi tərəfindən hərbi paradla qeyd edilməsi bu qəbildən olan provokasiyalardandır. Xüsusilə son aylarda Ermənistan ordusunun ağır itkiləri ilə müşayiət olunan uğursuz təxribatçı əməliyyatları da xatırlatmaq yerinə düşərdi.

Bu provokasiyaların mənbəyini gizlətmək və Azərbaycanı dünya ictimaiyyəti qarşısında kölgələmək üçün Ermənistan tərəfi məqsədyönlü informasiya müşayiəti ilə atəşkəs rejiminin pozulması hallarını öz xeyrinə təhrif edir.

Fikrimizcə, proseslərin belə bir inkişafı fonunda ATƏT Minsk qrupu regiona səfərlər edib sülh danışıqlarının davam etdirilməsi və baza prinsiplərinin tezliklə qəbul edilməsinin vacibliyinə dair ümumi sözlərdən ibarət bəyanatları sayəsində çətin ki, bu provokasiyaların, o cümlədən atəşkəsin pozulmasının qarşısının alınması reallaşa bilsin. Vasitəçilər Ermənistanın silahlı qüvvələrinin geri çəkilməsinə və bu ərazilərin demilitarizasiyasına dair birmənalı və ən əsası ictimai bəyanatlar səsləndirməzsə, Ermənistan tərəfinə təzyiqlər artırılmazsa, o zaman Cənubi Qafqaz regionunda Ermənistanın yürütdüyü bu siyasətin ağır nəticələr verəcəyi istisna olunmur.

**Elgün Niftəliyev (Vyana)**
5 iyul 2012

### *6.12. Özgə mədəniyyətinin ermənisayağı mənimsənilməsi*

Bu gün ermənilər və onların havadarları erməni dilinin, musiqisinin, mədəniyyətinin, folklorunun qədimliyindən ağız dolusu danışırlar. Ancaq məsələ burasındadır ki, elm adamları, tədqiqatçılar bunun əksini söyləyirlər. Hətta erməni əsilli elm adamları arasında bunu etiraf edənlər də mövcuddur[1]. Bu nöqteyi-nəzərdə, budəfəki tədqiqatın məqsədi dil, musiqi, eləcə də qədim şifahi xalq ədəbiyyatı sahələrində erməni mədəniyyətinin necə Azərbaycan-Türk mədəniyyətinin təsirinə məruz qaldığının erməni alim, tədqiqatçı və sənətkarların dili ilə oxuculara təqdim edilməsidir.

Ermənilər öz dilinin qədimliyini söyləsələr də, o dildə **türk dilinin təsirinin** olduğu inkaredilməzdir.

Müasir erməni ədəbiyyatının banisi, akademik, yazıçı, pedaqoq Xaçatur Abovyan etiraf edir ki, erməni xalqı "danışıq dilində nəinki azərbaycanca ancaq ayrı-ayrı sözləri, eləcə də bütöv cümləlləri işlədir" Daha sonra o eyni əsərində bildirir ki, erməni xalqı "çoxlu miqdarda türk sözləri öyrənib və bu günədək onları işlədir". Hətta o, Azərbaycan dilinin gözəlliyinə vurğunluğunu da gizlətmirdi. Bu mənada o yazır ki, "öz səslənməsi, poetikliyi və ahəngdarlığı ilə, qrammatik cəhətdən tatar [Azərbaycan] dili başqa dillər arasında ən yaxşısıdır"[2].

[1] Bu məqalədə istifadə olunmuş sitatların bəziləri Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin "Gəldim, gördüm, mənimsədim" kitabından götürülmüşdür.
[2] Kh.Abovyan, Complete collection of works, volume V,Yerevan, the publishing house of AS of Arm.1950, in the Armenian language

Akademik, başqa bir əsərində türk dilinin onların milli adət-ənənələrinə təsirindən də bəhs etməkdədir. O həyəcanla qeyd edir ki, "Türk dili lənətə gəlsin, ancaq bu dil Allahın xeyir-duasını alıb... bütün şadlıqlarda və toy mərasimlərində biz türkcə oxuyuruq". O etiraf edir ki, "Bizim dil ən azı 50% türk sözlərindən ibarətdir"[1]. Daha sonra fikirlərini davam etdirərək bildirir ki, "Türkcə [Azərbaycan dili] bizim dilə o qədər daxil olub ki, bizdə mahnılar, şerlər, atalar sözləri türkcə [azərbaycanca] səslənir"[2].

Tanınmış dilçi, ədəbiyyatşünas, akademik Qraça Açaryan da öz növbəsində etiraf edir ki, "türk [Azərbaycan] dilinin təsiri altında erməni dilinin hətta qrammatik qanunauyğunluğu və qaydaları da dəyişib"[3].

Erməni mədəniyyətində **dastan** ənənəsinin olmaması və bunun Azərbaycan mədəniyyətindən alıntı olması da ermənilər tərəfindən qəbul edilməkdədir. Erməni müəllif Qazaros Ağayan qeyd edir ki, "...bizim aşıqların şerlə dastanları yoxdur, onların hamısı azərbaycancadır"[4]. Eyni müəllif digər bir əsərində yazır ki, "Məşhur məhəbbət dastanları, Şərq rəvayətləri - "Aşıq Qərib", "Əsli-Kərəm", "Şah İsmayıl", "Fərhad-Şirin", "Leyli-Məcnun", qəhrəmanlıq motivləri ilə zəngin olan "Koroğlu" dastanını bənzətmə və ya məzmunca eynisini yaratmaqla Azərbaycan dilindən ermənicəyə tərcümə etməyə başladılar[5]. Və ən nəhayət, başqa bir əsərində o bildirir ki, "...Türklər [azərbaycanlılar] onu [Koroğlunu] türk [azərbaycanlı], kürdlər - kürd, ermənilər isə – azərbaycanlılaşdırılmış erməni hesab edirlər. Onun mahnılarını türk [Azərbaycan] və kürd dillərində ancaq ermənilər oxuyurlar, başqa xalqlar isə öz dillərində oxuyurlar"[6].

[1] Kh.Abovyan, "Wounds of Armenia",Yerevan,1939, in the Armenian language, p. 80-81.
[2] Kh.Abovyan, "Wounds of Armenia",Yerevan,1939, in the Armenian language, p. 41-42.
[3] "The history of new Armenian literature", Vagarshabat,1906, in the Armenian language
[4] G.Agayan, "Works", v.3
[5] G.Antonyan, Armenian-Azerbaijani friendship in the literature.Yerevan. Aypetkrat, 1962, in the Armenian language
[6] G.Agayan, Selected works,Yerevan,1939, in the Armenian language



Şifahi xalq ədəbiyyatının digər nümunəsi olar **atalar sözləri** də Azərbaycan dilindən erməni dilinə idxal edilən mədəniyyət incilərindəndir. Bu mənada, tanınmış folklorşünas, akademik A.T.Qanalanyan yazır ki, "Kefi konne, kandi koxvini", "Bir ili u pir ili" və "Həsən keçəl, keçəl Həsən" – müvafiq Azərbaycan atalar sözlərinin ("Kef sənindir, kənd kovxanın", "Bir olsun, pir olsun", "Ya Həsən keçəl, ya keçəl Həsən") erməniləşdirilmiş variantlarıdır. Yuxarıda deyilənlər, hər şeydən öncə onunla təsdiqini tapır ki, nümunə göstərilmiş üç atalar sözünün hər biri erməni və azərbaycanlıların birgə yaşadıqları (Qarabağ, Zəngəzur) rayonlarda və ya Azərbaycanın sərhəd rayonlarında meydana gəlmişdir. Bu da bir sübutdur ki, atalar sözlərindəki "kənd, bir, pir" (yaxşı, düz) sözləri, xüsusən də Həsən adı erməni dilində ayrılıqda işlənmir, bu sözlər Azərbaycan dilindən gətirilmişdir"[1].

Digər tanınmış folklorşünas E.Arustamyan yazır ki, "Azərbaycan atalar sözləri və məsəllərinin çoxu ermənilər tərəfindən ilkin halda, erməni dilinə tərcümə olunmadan istifadə olunur, ona görə ki, onların dərin fəlsəfi mahiyyətinin saxlanması bu cür tərcüməyə yol vermir"[2].

**Bayatılar** haqqında bəhs edən müasir erməni ədəbiyyatının banisi, yazıçı, pedaqoq Xaçatur Abovyan etiraf edir ki, "Mən bayatıları qələmə almışam ki, ermənilər məclislərdə, süfrə başında bu türk [Azərbaycan] söyləmələrini erməni dilində istifadə edərək öz dillərini şirinləşdirsinlər. *Ona görə ki, dili heç nə şer misraları və* mahnılar kimi gözəlləşdirmir"[3].

Başqa bir akademik, tanınmış şair Avetik İsaakyan da öz növbəsində etiraf edir ki, "Erməni xalqı da bayatıları çox sevir, həm də Azərbaycan bayatılarını oxuyurlar. Ancaq Qarabağ və Zəngəzur erməniləri azərbaycanlılar kimi bayatını çox yaxından duyur və onun vasitəsi ilə öz arzularını ifadə edirlər"[4].

[1] A.T.Ganolanyan, "Proverbs",Yerevan, publishing house AS, 1955, p.34, in the Armenian language
[2] The work "Common features ofAzerbaijan and Armenian proverbs and sayings"
[3] Kh. Abovyan, "Complete collection of works", volume V,Yerevan, 1950, p.174, in the Armenian language
[4] Avetik Isaakyan. Selected works, volume IV,Yerevan, 1951, p.157

Manuk Abeqyan isə bildirir ki, "Bizim əlimizdə bayatıların 1700-dən çox variasiyası var. Bədbəxtlikdən bizim dil çoxmənalı sözlər, oxşar məna daşıyan ifadələr cəhətdən kasıbdır və buna görə də biz yaxşı tanıdığımız türk [Azərbaycan] dilinə müraciət edirik"[1].

Yazıçı, tənqidçi, filosof M.Nalbandyan təəssüflənir ki, "Lakin nəğmələrin çoxunu biz türklərdən [azərbaycanlılardan] götürmüşük. Mən ermənilərin yaşadığı çox yerlərdə olmuşam. Həmişə təmiz ermənicə olan bir şey eşitmək istəmişəm. Təəssüf ki, bu günədək mən buna nail olmamışam!"[2].

**Aşıq** mədəniyyətinin də tarixən türk mədəniyyətinin bir parçası olması Ermənilər tərəfindən etiraf edilməkdədir. Bu mənada, tanınmış tarixçi, yazıçı, tənqidçi, professor Leo (Arakel Babaxanyan) etiraf edir ki, "Erməni aşıq yaradıcılığının çox az, demək olar ki, cüzi hissəsi bizim ədəbiyyata aiddir. Böyük əsərlərin (dastanlar, qəhrəmanlıq nağılları) əksər hissəsi türk [Azərbaycan] dilində yaradılmışdır"[3].

Q.Levonyan da eyni fikri bölüşür: "erməni aşıqlarının həm özlərinə götürdükləri adlar, həm də onların şer və mahnılarının adlarının hamısı Azərbaycan dilindədir"[4].

Dini xadim, folklorşünas və naşir Trdat Balean da etiraf edir ki, "Aşıq alətlərinin adları türkcədir – saz, santur, kaman, yaxud kamança, bağlama. Hətta şerlərin adları da türkcədir: qoşma, dastan, qələndər, müstəzad-qələndər, müxəmməs-qələndər, divani, qəzəl, rübai-divani, müsəddəs-divani, səmai, müsəddəs- səmai, naxşikar-səmai, ədəkli-səmai, dübeyti, müxəmməs, təcnis, zəncirləmə, dildəyməz, əlifləmə, sətrənc, qitə, qəsidə, nəqarət və s."[5].

Qazaros Ağayan öz şəxsi təcrübəsinə dayanaraq bildirir ki, "Mən əvvəlcə şerləri əzbərləyirdim, əlifbanı öyrəndikdən sonra isə onları qələmə almağa başladım. Yazdıqlarımın mənasını tam olmasa da,

[1] M.Abegyan, "National songs", 1904
[2] M.Nalbandyan, "About ancient verses and melodies", "Complete collection of works", v.1
[3] Leo, "The history of Armenia", volume III, Yerevan, 1946, p.1072, in the Armenian language
[4] G.Levonyan, "Armenian ashugs", Alexandropol, 1892, in the Armenian language.
[5] Armenian ashugs. Collector Trdat Balean, volume I, Izmir, The publishing house Mamuryan, 1911, p.9-10, in the Armenian language



müəyyən qədər başa düşürdüm... Aşıqlar erməni dilində deyil, türk dilində ifa edirdilər. Aşıqlarımız arasında erməni dilində ifa etmək haqqında hələ təsəvvür yox idi. Bizim aşıqların erməni dilində olan şerlərlə dastanları yoxdur, hamısı yalnız türk dilindədir"[1].

Yazıçı, tənqidçi, filosof M.Nalbandyan da eyni fikri bölüşməkdədir: "erməni aşıqlarını yalnız erməni ailələrində doğulduqlarına görə erməni hesab etmək olar" və "...onlar hər zaman Azərbaycan ustadlarının yaradıcılığına söykənmişlər" və "...istifadə etdikləri musiqi alətləri – saz, santur, kaman və ya kamança, bağlama türklərə məxsusdur"[2].

Müstəqil, özünəxas bir erməni **musiqi**sinin olmadığı da göz qabağındadır. Bu mənada, tanınmış ədəbiyyatşünas S.Palasanyan qeyd edir ki, "Bizim mahnıların motivləri fərqlənir və ümumiyyətlə, biz hansı xalqın təsiri altında oluruqsa, onun mahnılarını da özümüzünkü hesab edirik"[3]. Xalq mahnılarının kolleksioneri olan S.P.Məlikyan da öz növbəsində etiraf edir ki, "erməni musiqisi müxtəlif mədəniyyətlərin təsirinin nizamsız yığınıdır"[4].

Tarix göstərir ki, mədəniyyətlərin bir-biri ilə qarşılıqlı təsiri zamanı adətən qədim və köklü mədəniyyətlər zəif mədəniyyətlərə güc gəlir və özünü təlqin edir. Mədəniyyət mövcud olmadıqda isə mövcud olan bir mədəniyyət olduğu kimi idxal edilib tətbiq edilir. Lakin əsla idxal edilən başqasına aid mədəniyyət inciləri "özününkü" kimi təqdim edilməməlidir.

Ancaq deyirlər hər zaman istisnalar da mövcud olur və bu istisnalar qaydaların pozulması demək deyil. Ermənilərdə olduğu kimi: Azərbaycana aid olan mədəniyyəti idxal edib, ondan istifadə etdikdən sonra sanki öz mədəniyyəti kimi beynəlxalq aləmə təqdim etməyə çalışmaq, bu da az imiş kimi, mədəniyyətin əsl sahibinin onu mənimsədiyini iddia etmək. Elə əsl qədim və özünəməxsus erməni mədəniyyəti də budur.

[1] K.Gostanyants. Memoirs of 1893, Works, v.3, in the Armenian language
[2] M.Nalbandyan, Complete collection of works, v.1
[3] S.Palasanyan, "The Armenian tunes", S.Peterburg, 1868, in the Armenian language
[4] M.Muradyan, "From the history of Armenian and Russian musical communications of XIX-XX centuries"

Bu mənada indi nədən Ermənilərin Bakıda keçirilən Eurovision mahnı müsabiqəsində iştirak etməkdən imtina etmələrinin səbəbi aydın olur: axı onlar dünya ictimaiyyətinin gözü qabağında Azərbaycanın paytaxtında Azərbaycan mahnılarını necə öz mahnıları kimi təqdim edəcəklər ki?

**Dr. Turab Qurbanov**
20 may 2012

### *6.13. İdarəçilikdə imkan, yoxsa xalqın səsi...?*

Ermənistanda 2008-ci il böhranından sonra yaranmış gərgin daxili siyasi vəziyyət, tənəzzülə uğramaqda olan iqtisadiyyat hakimiyyət və xalq arasında olan münasibəti qarşıdurmanın son həddinə çatdırmaqdadır. Bu qarşıdurma demək olar ki, 2008-ci ilin prezident seçkilərindən sonra formalaşmış və bu günə kimi davam etməkdədir.

Beynəlxalq analitiklər Ermənistanda mövcud olan vəziyyəti şərh edərkən, ölkə daxili hər hansı bir siyasi hadisə ilə bağlı proqnoz verilərkən sabiq prezident Robert Koçaryan və hazırkı prezident Serj Sarkisyan qarşıdurmasının prizmasından baxırlar.

İlk öncə hər iki siyasi fiqurun ölkə parlamentində mövqelərinə nəzər yetirək. Başlanğıc üçün fors-major vəziyyətin baş verdiyi şəraiti dəyərləndirək. Ölkə başçısının istefaya getdiyi və ya vəzifə borcunu yerinə yetirə bilmədiyi bir vəziyyətdə respublikada hakimiyyət mövcud Konstitusiyaya uyğun olaraq parlament sədrinə keçir. Son parlament seçkilərindən sonra belə fors-major vəziyyətin baş verə biləcəyi halda hazırkı dövlət başçısının mövqeyini müəyyən mənada normal hesab etmək olar. Lakin bu ilk baxışda belə görünür. Nəzərə alsaq ki, "Çiçəklənən Ermənistan" partiyası R.Koçaryanın siyasi layihəsidir, eyni zamanda sabiq prezidentə Daşnaqsütyun Erməni İnqilab Federasiyasının rəhbərlərinin bir hissəsi rəğbət bəsləyir, onda vəziyyət belə bir şəkil almağa başlayır: ehtiyac olduğu halda Koçaryan nəinki "Çiçəklənən Ermənistan" partiyasından olan deputatların, hətta Daşnaqsütyun fraksiyasından olan deputatların dəstəyini ala bilər. Bura müstəqil deputatları da əlavə etmək olar.



Belə isə bir sıra deputatların istəklərini nəzər almasaq hazırkı prezidentin və sabiq ölkə başçısının parlamentdə imkanlarının bərabərliyini vurğulamaq mümkündür. Buna əlavə olaraq qeyd etmək gərəkdir ki, Koçaryan həmçinin parlamentin sədri Ovik Abramyanın da dəstəyinə güvənə bilər. Lakin bütün bunlar fors-major halın baş verdiyi təqdirdə həyata keçə bilər.

Serj Sarkisyan və Robert Koçaryanın maddi imkanlarını da eyni hesab etmək olar. Ancaq burda bir nüans var ki, bunu qeyd etmək mütləqdir. Maddi imkanlar nəzərdə tutulduqda təkcə hər iki şəxsin yox onların arxasında dayanan oliqarxların imkanları da nəzərə alınmalıdır.

İnformasiya, televiziya sektorunda isə S. Sarkisyanın R. Koçaryanı üstələdiyi açıq aydın görünür. Belə ki, Sarkisyan nəinki İctimai televiziyanı, həmçinin "Ermənistan2", "ArmenAkob", "Ay Tv"-ni və bir sıra digər radio stansiyaları, mətbəələri öz nəzarətində saxlayır. R. Koçaryanın bu sektorda imkanlarının məhdud olduğunu söyləmək də yanlış olardı. Onun "H2", "Şant", "Kentron" və daşnaq kanalı olan "Erkir" ilə əlaqələri vardır.

Xarici dəstək məsələsinə baxdıqda isə burada vəziyyətin informasiya sektorunun tam əksinə olduğunu görürük. Əgər Koçaryanı Moskvada hökumət başçısı səviyyəsində qəbul edirlərsə və bu Ermənistanda onun Rusiya rəhbərliyi tərəfindən dəstəklənməsi kimi qəbul edilirsə, eyni sözləri Sarkisyan üçün səsləndirmək çox çətindir. Sarkisyanın Rusiya rəhbərliyi ilə bir sıra problemlərinin olduğu vurğulanır. Bu problemlər Sarkisyan və onun əhatəsinin sıx əməkdaşlıq etdikləri Moskva meri Yuri Lujkovun istefaya getməsindən sonra daha da artmışdır.

Qərbin dəstəyinə gəldikdə isə, Koçaryanın 2008-ci il 1 mart hadisələrindən sonra ciddi problemlərinin olduğunu söyləmək gərəkdir. Eyni halı hazırkı ölkə başçısına da şamil etmək olar. Belə ki, Sarkisyan hakimiyyətinin Qərb və Vaşinqton qarşısında öz üzərinə götürdüyü öhdəliklərin öhdəsindən gələ bilmədiyindən son zamanlar bu münasibətlərdə müəyyən durğunluğun olduğunu aydın şəkildə müşahidə edirik.

Bütün bu imkanları, müəyyən mənada xarici dəstəklərə baxmayaraq istər Koçaryan istərsə də Sarkisyan Ermənistan xalqının dəstəyini qazanmamış, etimadlarını doğrultmamışlar. Bu isə onların ölkədə baş verən hadisələrə təsir etmək imkanlarını dəyərləndirildikdə nəzərə alına biləcək ən vacib amildir.

Xalq hakimiyyətdən, hakimiyyətin xalqa olan münasibətindən, hakimiyyətdə təmsil olunanlardan narazıdır. Həllini gözləyən problemlər, ağır sosial-iqtisadi durum, ölkədə geniş şəkildə vüsət alan mühacirət dalğası, siyasi çəkişmələr, seçki sistemindəki boşluqlar, məhkəmə sisteminin ölkə rəhbərliyi tərəfindən idarə olunması və bütün bunların fonunda respublika rəhbərliyinin işğalçı siyasətinin nəticəsində ölkənin müharibə şəraitində yaşaması xalqın səbir kasasının dolub daşmasına gətirib çıxartmaqdadır.

**Asif Babayev**
17 iyul 2012

### *6.14. Tarixən torpaq iddiası ilə yaşayanlar indi "öz torpaqlarını" tərk edirlər?*

Son zamanlar bir sıra dövlət rəsmiləri, siyasətçilər, ekspertlər, analitiklər Ermənistanda mövcud olan miqrasiya problemini tez-tez gündəmə gətirirlər. Demək olar ki, hər gün miqrasiyanın Ermənistana zərəri, onun sarsıdıcı nəticələri haqda eşidirik.

Demoqrafik göstərici Ermənistan üçün hər hansı bir xarici düşməndən daha təhlükəli olmaqda davam edir. Eyni zamanda ictimai rəy demoqrafik vəziyyətin təsirindən yan keçməmiş və bu problemin Ermənistan üçün daha katostrafik şəkil almağa başlamasına dəlalət edir.

Bu təhlükəli statistik və mənəvi-psixoloji göstəricilərin fonunda hakimiyyətin nə ilə məşğul olduğunu gördükdə bizə yalnız təəccüblənmək düşür. Əhalisinin yaşamaq üçün rahat şərait, iş axtarmaq məqsədi ilə vətənlərini tərk etdikləri bir zaman ölkə rəhbərliyi hakimiyyətdaxili münasibətlərin müəyyən edilməsi ilə məşğuldur – bir qrup hakimiyyəti əldə saxlamağa digəri hakimiyyətə qayıtmağa cəhd edir.



Bəs belə olan halda nə etməli? Sual bir qədər mürəkkəb, çoxşaxəlidir və bir neçə sözlə cavab vermək çətindir. Mövcud vəziyyətdə Ermənistanda baş verən mühacirət dalğasının qarşısını almaq üçün bunun səbəbini araşdırıb tapmaq gərəkdir. Aydındır ki, miqrasiyanın belə sürətlə vüsət almasının səbəbi ölkədəki ağır sosial-iqtisadi durumdur. Belə ki, əhalinin baş götürüb digər ölkələrə getməsi məyusluğun, ümidsizliyin və perspektivsizliyin nəticəsidir.

Lakin son zamanlar ölkəni daha çox imkanlı adamlar tərk etməyə başlamışdır. Ermənistan cəmiyyəti üçün miqrasiya adi hala çevrilmişdir. Bu gün ölkədə elə bir ailə yoxdur ki, onun ailə üzvündən və ya qohumundan kimsə xaricə yaşamağa, işləməyə üz tutmasın.

Artıq Ermənistan kəndlərində yaşlı nəsil yalnız qadınlardan ibarətdir, çünki onların həyat yoldaşları qazanc dalınca xarici ölkəyə üz tuturlar, hətta bəziləri orada yenidən ailə quraraq həyatlarını yeni "vətənlərində" davam etdirmək qərarına gəlirlər. Ancaq bu hal yalnız kəndlərdə baş vermir. Ermənistanın Miqrasiya Xidmətinin məlumatına əsasən, 2010-cu ildə Ermənistanı tərk edən miqrantların sayı 75 min, 2011-ci ildə 80 min, 2012-ci ilin ilk 5 ayı ərzində isə bu rəqəm 70 mindən çox olmuşdur. Ermənistanı tərk etmiş miqrantların 65%-i işləmək üçün Rusiyaya, daha sonra ABŞ, Ukrayna və digər ölkələrə üz tuturlar.

"90-cı illərdə Ermənistanı 1 milyondan çox insan tərk etmişdir. Miqrasiyanın qarşısını almaq üçün respublikada stabil iş yerlərinin, yaşamaq üçün əlverişli şəraitin və ədalətin mövcud olması çox vacibdir" – bu fikri Ermənistanın hazırkı Baş naziri Tiqran Sarkisyan Ermənistan Milli Konqresinin üzvünün ölkə parlamentində ona ünvanladığı sualına cavab verərkən səsləndirmişdir.

Eyni zamanda BMT-nin "Miqrasiya və insan potensialının inkişafı: imkanlar və çağırışlar" adlı illik hesabatında qeyd olunmuşdur ki, 1992-ci ildən 2010-cu ilədək zaman çərçivəsində Ermənistanı 1 milyon 500 minə yaxın insan tərk edərək xarici ölkələrə üz tutmuşlar. Əgər bu 8 il ərzində 1 milyondan çox insan ölkəni tərk etmişdirsə, bu illik orta hesabla 120-150 min nəfər edir, deməli ictimaiyyətə verilən son illərin miqrasiya göstəriciləri heç də həqiqəti özündə əks etdirmir. Bu Sarkisyan hakimiyyətinin ölkədə geniş şəkildə vüsət alan

miqrasiya problemindən qorxmasından, respublikada mövcud olan real vəziyyətin dünya ictimaiyyətindən gizli saxlanılmasından xəbər verir.

"Nə etməli? Əlimizdən gələni edək ki, bu insanlar ölkəni tərk etməsinlər və bu narazı kütlə burada qalsın və inqilab baş versin? Necə etməli ki, bu insanlar Ermənistanda qalsınlar? Elə etməliyik ki, ölkədə həyat tərzi xaricdəkindən yaxşı olsun. Lakin Ermənistanda həyat şəraiti yaxşılaşdıqda narazı kütlə azalmır" – bu fikirləri Ermənistanın Baş naziri Tiqran Sarkisyan ölkə mətbuatında müsahibəsində səsləndirmişdir. Belə olan halda olduqca maraqlı və həddindən çox vacib bir məqam ortaya çıxır. Yəni Ermənistanda təkcə gedənlər deyil, eyni zamanda qalanlar da narahatlıq doğuran faktora çevrilmişlər. Buna görə də bu qalanlardan neçəsinin Ermənistanı öz düşüncə və baxışlarında tərk etdikləri məlum deyil.

Miqrasiya problemi Ermənistan cəmiyyətinin ən ağrılı problemi olaraq qalmaqdadır. Bir tərəfdən də ailə quranların, doğulan uşaqların sayının azalmaqda olduğunu nəzərə alsaq yaxın gələcəkdə Ermənistanda yaşayanların sayının 1 milyona yaxın, hətta daha az olacağını ehtimal etmək mümkündür.

**Newtimes.az**
5 iyul 2012

### *6.15. NATO və Azərbaycan torpaqlarının işğalı problemi*

NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay Azərbaycanı ziyarəti zamanı keçirdiyi mətbuat konfransında təəssüratlarını ifadə edərkən: "Qarabağ probleminin hərbi həll yolu yoxdur. NATO sülh yolu tərəfdarıdır, belə ki, Qafqaz regionunda sabitlik Alyans üçün olduqca əhəmiyyətlidir. Azərbaycan və NATO bir çox sahələrdə aktiv əməkdaşlıq edir və bizi yaxşı gələcək gözləyir. Biz enerji təhlükəsizliyi sahəsində IPAP (Individual Partnership Action Plans) proqramı çərçivəsində sıx əməkdaşlıq edirik", – demişdir.



Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra başda Birləşmiş Millətlər Təşkilatı (BMT) və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) olmaq üzrə bir sıra beynəlxalq təşkilatlara üzv olmuş və əlaqələrini genişləndirmişdir.

NATO ilə də əməkdaşlıq Azərbaycan üçün prioritet məsələlərdən biridir. Azərbaycan Sülh naminə Tərəfdaşlıq, IPAP və bir çox proqramlar çərçivəsində NATO ilə əməkdaşlıq etməkdədir və bir neçə münaqişə bölgəsində sülh yaratma missiyasında iştirak edir. Dünyanın ən böyük təhlükəsizlik təşkilatı ilə əməkdaşlıq etmək Azərbaycana beynəlxalq təcrübə qazanmağa, ordu quruculuğunu beynəlxalq standartlara yüksəltməyə kömək edir.

Ancaq Azərbaycanın bu qurumla hərtərəfli əməkdaşlığı, münasibətlərini genişləndirməsi, qurumun müxtəlif beynəlxalq proqramlarında iştirak etməsi belə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi probleminin həll edilməsində istənilən nəticələri verməmişdir. Bu məsələ gündəmə gəldiyi zaman dünyanın müxtəlif bölgələrində hərbi gücdən istifadə edərək sülh yaratmağa çalışan NATO, Dağlıq Qarabağ probleminin sülh yolu ilə 20 ildir ki, həll olunmamasına rəğmən Azərbaycanın Ermənistan işğalı altında olan torpaqlarını azad etməsi üçün hərbi əməliyyatlara başlamasına soyuq baxır və problemin sülh yolu ilə həll edilməsinin zəruriliyini vurğulayır.

Əlbəttə, problemin sülh yolu ilə həll olunması ən optimal yoldur və Azərbaycan da bunu dəfələrlə ən yüksək tribunalardan dilə gətirmişdir.

Ancaq NATO-nun bu məsələ ilə bağlı ikili standartının olduğu məlumdur. NATO-ya üzv dövlətlərin maraqlarını qorumaq üçün qurum istədiyi zaman hədəf dövləti nüvə və kimyəvi silah əldə etmək istədiyini (İraq), beynəlxalq terrorizmə dəstək verdiyini iddia edərək (Əfqanıstan) onlara qarşı hərbi əməliyyatlar təşkil edə bilir. Nəticədə isə işğal edilən dövlətlərin əslində nüvə silahı olmadığı və beynəlxalq terrorizmə dəstək verəcək gücdə olmadığı bəlli olur.

NATO indi də hədəf ölkə kimi İranı seçmiş və nüvə silahı əldə etmək cəhdi iddiasıyla bu dövləti təhdid edərək, iqtisadi, siyasi sanksiyalar tətbiq edir.

Bundan başqa, NATO son zamanlarda "önləyici zərbə" adıyla digər dövlətlərin təhlükəsizliyini təhdid etməyə davam edir. "Önləyici zərbə" doktrinasının mahiyyəti ABŞ və NATO üzvlərinə qarşı hər hansı bir hərəkətin təhdid olaraq dəyərləndirilməsi zamanı hədəf dövlətə yönəlik daha əvvəl hərbi əməliyyatlara başlayaraq gözlənilən təhlükənin qarşısını almaqdır.

Beynəlxalq ədəbiyyatda "önləyici zərbə" doktrinasının haqlı, ədalətli olması ilə bağlı müxtəlif fikirlər səslənir. Bəzi mülahizələrdə bu zaman böyük və güclü dövlətlərin ciddi təhdid və təhlükə hiss etmədən də bu doktrinadan öz mənafeləri üçün istifadə etməyə imkan verdiyi ifadə edilsə də, digər mülahizələr bu doktrinanı dəstəkləyir. Bir başqa ifadə ilə, "önləyici zərbə" doktrinası beynəlxalq hüquqda hələ də tam olaraq formalaşmayıb.

ABŞ və NATO-ya üzv dövlətlərin bu doktrina ilə bağlı səmimi və ədalətli olmamasını Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi nümunəsində daha aydın görmək mümkündür.

Bu doktrina ilə, quruma üzv olan böyük dövlətlərə təhlükə təşkil edən dövlətlərə qarşı hərbi əməliyyatlara başlamağa icazə verilsə də, Azərbaycana, onun üçün nəinki təhlükə təşkil edən, hətta 20 ildir torpaqlarını işğal altında saxlayan Ermənistana qarşı hərbi əməliyyatlar aparmağa imkan verilmir.

Qərb dünyasının xüsusilə son illərdə ciddi ehtiyac duyduğu enerji probleminin həll edilməsində sanballı mövqeyi olan, müxtəlif beynəlxalq sülh yaratma missiyalarında iştirak edən, region və beynəlxalq təhlükəsizliyin təmin edilməsi və qorunmasına öz töhfəsini verən, Əfqanıstan sülh məramlıları üçün tranzit ölkə olan Azərbaycan ilə əməkdaşlıq edən NATO, bu ölkənin ərazi bütövlüyünü tanıdığını hər fürsətdə ifadə etsə də, faktiki olaraq bunun təmin edilməsi üçün müxtəlif maneələr yaratmaqdadır.

Ermənistan Azərbaycan torpaqlarının 20%-ni 20 ildən artıqdır ki, işğal altında saxlayır, amma yenə də NATO İran və Suriyaya tətbiq etdiyi iqtisadi və siyasi sanksiyaların heç birini Ermənistana qarşı tətbiq etmir, əksinə bu ölkə ilə əməkdaşlığı genişləndirir və ona dəstək olur.



Qərb dövlətlərinin və NATO-nun bu məsələ ilə bağlı ikili standart həyata keçirməsi beynəlxalq aləmdə yaşanan ədalətsizliyin, beynəlxalq hüquqdakı çatışmazlıq və problemlərin hələ davam etdiyini göstərir. Amma bir məsələ aydındır. Nə qədər ki, Qərb və NATO bu regiondakı məsələləri hərtərəfli araşdırıb ədalətli mövqe tutmur, hansısa maraqların girovuna çevrilir, münaqişənin həlli uzanacaqdır. Belə vəziyyət isə beynəlxalq münasibətlərin uğurlu gələcəyinin təminatına yardım etmir. Azərbaycan bütün hallarda ərazi bütövlüyünü təmin etmək üçün bütün mümkün vasitələrdən istifadə etməlidir.

**Dr. Hatəm Cabbarlı,**<br>
***Avrasiya Təhlükəsizlik və Strateji Araşdırmalar Mərkəzinin sədri***<br>
24 iyul 2012

### *6.16. Gürcüstanın yeni hökumətinin addımları nəyə hesablanıb?*

Parlament seçkilərində "Gürcü arzusu" seçki blokunun qələbə qazanmasından sonrakı proseslər Gürcüstanda hakimiyyətin təhvili prosesinin elə də sakit keçmədiyini deməyə əsas verir. Yeni kabinet formalaşdıqdan az sonra keçmiş hökumətin bir sıra rəsmilərinin, məmurlarının müxtəlif ittihamlarla həbs olunması, əvvəlki hakimiyyətin gördüyü işlərin, həyata keçirdiyi bir sıra layihələrin tənqidi ölkə daxilində qeyri-müəyyənlik yaradıb.

Yeni baş nazir Bidzina İvanişvilinin "Rusiya keçmişi"ni diqqətdən qaçırmayan Qərb artıq bu proseslərdən narazılığını və ölkənin xarici siyasətinin dəyişməsi ilə nəticələnə biləcəyinə dair narahatlığını ifadə etməyə başlayıb. Hələlik yalnız proseslərin müsbət sonluqla nəticələnəcəyinə dair ümidlər səsləndirilir. Lakin istisna deyil ki, vəziyyətin daha da mürəkkəbləşəcəyi təqdirdə, Qərb proseslərə müdaxilə edərək, öz sözünü deməyə çalışacaq.

Ölkə daxilindəki qeyri-müəyyənliyin Gürcüstanın xarici siyasətinə mümkün təsiri ilə bağlı Qərbin narahatlığı əsassız olmaya

bilər. Belə ki, İvanişvilinin əvvəlki hökumətin bir sıra addımları ilə bağlı səsləndirdiyi tənqidlər Gürcüstanın strateji tərəfdaşı olan Azərbaycanla əlaqələrinə də təsirsiz ötüşmür. Hələ seçki kampaniyasının gedişində İvanişvili qələbə qazanacaqları təqdirdə, kommunal sistemdəki tarif siyasətinə dəyişiklik ediləcəyini, elektrik enerjisinin, qazın və benzinin qiymətinin aşağı salınacağını vəd edirdi ki, əslində "Gürcü arzusu"nun seçkilərdəki qələbəsi də bu cür vədlərin nəticəsi sayıla bilər. İvanişvili baş nazir olaraq ilk çıxışlarında da əvvəlki hakimiyyətə bağlı şirkətlərin qazın və benzinin qiymətini süni şəkildə artırdığını və tarif siyasətinə yenidən baxılacağını bildirmişdir.

Məhz seçkilərdən sonra Gürcüstanda yaşayan azərbaycanlılara qarşı müəyyən hücumların, təxribatların törədilməsinə dair xəbərlər mütəmadi olaraq dərc olunmağa başlamışdır. İvanişvilinin Bakı-Tbilisi-Qars dəmir yol layihəsi barədə səsləndirdiyi tənqidi fikirlər isə xüsusilə diqqəti cəlb edir. "Rezonansı" qəzetinə verdiyi müsahibəsində İvanişvili dəmir yol tikintisinin müəyyən suallar doğurduğunu, hansısa mərhələdə Gürcüstan üçün faydalı olmaya biləcəyini, yeni magistralın işə düşməsindən sonra ölkənin digər dəmir yol xətlərində və limanlarında yükdaşımaların azalması təhlükəsinin mövcud olduğunu bildirib.

İvanişvilinin Bakı-Tbilisi-Qars layihəsi ilə bağlı fikirlərini maraqlı edən digər bir məqam isə Rusiya ilə münasibətlərin bərpası üçün təmas nöqtələri axtaran yeni hökumətin Abxaziyadan keçən Rusiya-Gürcüstan-Ermənistan dəmiryolunun bərpa olunması təşəbbüsünü irəli sürməsidir. Lakin Abxaziyanın bu məsələdə maraqlı olmaması səbəbindən hələlik bu təşəbbüs gündəmdən çıxarılıb.

İvanişvilinin müsahibəsindən dərhal sonra Gürcüstanın Qara dəniz sahilində yerləşən Poti limanında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə məxsus olan Kulevi terminalında kütləvi tətil başladıldı və terminalın işçiləri bir sıra iqtisadi xarakterli tələblər irəli sürdülər.

Sözsüz ki, seçki öncəsində əhaliyə müəyyən vədlər vermiş yeni hökumətin bu vədləri yerinə yetirmək istəyi başa düşüləndir. Lakin İvanişvilinin xüsusilə enerji sahəsində reallıqdan uzaq olan vədləri



həyata keçirmə cəhdlərinin Gürcüstanın enerji təhlükəsizliyinin yeganə qarantı olan Azərbaycanın iqtisadi maraqlarına toxunduğunu da bilməmiş deyil. Maraqlıdır ki, İvanişvili Azərbaycanı maraqlandıran məsələlərə dair səsləndirdiyi hər bəyanatından sonra Azərbaycanla mehriban qonşuluq əlaqələrini daha da inkişaf etdirəcəklərini, Gürcüstanda yaşayan azərbaycanlılara seçki öncəsində verilən vədləri yerinə yetirəcəklərini, Azərbaycanın Gürcüstana təchiz etdiyi qazın qiymətinə görə minnətdar olduqlarını, ölkə daxilindəki qaz tarifinin azaldılması probleminin Azərbaycanla bağlı olmadığını bildirib. Digər tərəfdən, İvanişvili Bakı-Tbilisi-Qars layihəsi ilə bağlı sonradan verdiyi bəyanatda layihənin tikintisinə heç bir təhlükə olmadığını və əksinə layihənin tezliklə reallaşmasına kömək etməyin zəruriliyini qeyd edib.

Rəsmi bəyanatların heç də hər zaman reallıqla uzlaşmadığına beynəlxalq təcrübədə təsadüf olunur. Belədə, İvanişvilinin xüsusilə Bakı-Tbilisi-Qars layihəsi ilə bağlı fikirlərini təhlil edən bir sıra müşahidəçilər bu məsələdə Rusiyanın maraqlarını ön plana çəkirlər. Nəticə etibarilə, bu layihə Rusiyanın regiondakı əsas müttəfiqi olan Ermənistanı regionun kommunikasiya xətlərindən təcrid olunmuş vəziyyətdə saxlayır. Bu isə Ermənistanın dəmir yollarını idarə edən və bu sahəyə investisiya qoyan Rusiyanın iqtisadi maraqlarına cavab vermir. Gürcüstanın yeni hökuməti Qərbə inteqrasiya siyasətinə sadiq qalacağını bəyan etsə də, Rusiya ilə münasibətləri normallaşdırmağa ümid etdiyini də bildirib. Artıq Cenevrədə iki ölkənin nümayəndələri arasında ilk görüş keçirilib. İvanişvili isə verdiyi mətbuat konfransında qarşıdakı Davos forumunda Rusiya prezidenti və ya baş naziri ilə görüşə biləcəyini istisna etməyib. Bundan əlavə Rusiya şirkətinin təchiz etdiyi elektrik enerjisi tariflərində endirim edilməsinə dair razılaşma əldə olunduğunu, Gürcüstanda qəbul olunmuş "İşğal haqqında" qanuna yenidən baxıla biləcəyini bildirib. Yeni hökumətin Rusiya-Gürcüstan-Ermənistan dəmir yol xəttini bərpa etmək təşəbbüsünü də bu fonda qiymətləndirmək lazımdır. Burada belə bir sual yaranır: Gürcüstanın yeni hökuməti Bakı-Tbilisi-Qars layihəsini Rusiya ilə bazarlıq predmetinə çevirə bilərmi?

Gürcüstanın yeni hökumətinin Rusiya ilə münasibətləri normallaşdırmaqda istənilən güzəştlərə getmək istəyi ilə bağlı ehtimalları zəiflədən əsas arqument Gürcüstanda 2013-cü ilin payızında keçiriləcək prezident seçkiləridir. İvanişvilinin ən azından bu dövrə qədər Rusiya ilə münasibətlərdə atacağı kəskin addımlar yalnız Prezident Mixeil Saakaşvilinin mövqelərinin güclənməsinə və qüvvələr balansının dəyişməsinə gətirib çıxaracaq.

İvanişvilinin Azərbaycanı maraqlandıran layihələrlə bağlı "çıxışlar"ını təhlil edərkən, onun məsələlərə geostrateji, siyasi bucaq altında deyil, iqtisadi dividentlər qazanmaq nöqteyi-nəzərindən baxdığını ehtimal etmək olar. Sadə insanların iqtisadi rifahının yaxşılaşacağını vəd edən yeni hökumət prezident seçkilərinə qədər müəyyən irəliləyişlərə nail olmalıdır. Bu baxımdan, İvanişvilinin dəmir yol layihəsi ilə bağlı "iradlar"ını Gürcüstanın daha çox mənfəət əldə etmək niyyəti kimi izah etmək daha düzgün olardı. Bu ehtimalı gücləndirən bir məqam da elə layihə haqda danışmış İvanişvilinin səsləndirdiyi fikirlərdir: "Gürcüstanın çox maraqlı geosiyasi mövqeyi var və bu mövqedən maksimum şəkildə effektiv istifadə etmək lazımdır".

İvanişvilinin Azərbaycanla əməkdaşlığın vacibliyini hər dəfə vurğulaması onun məlum proseslər fonunda bu əməkdaşlığı zədələməkdən ehtiyat etdiyini göstərir. Hazırda Azərbaycan Gürcüstana ən çox investisiya qoyan ölkələrdən biridir. 2008-ci il avqust hadisələrindən sonra Gürcüstanı tərk etməyən və onun enerji təhlükəsizliyinin yeganə təminatçısına çevrilən Azərbaycan bu ölkəyə qazı güzəştli şərtlərlə satır. Azərbaycanla Gürcüstan arasındakı strateji tərəfdaşlıq regiondakı mövcud şərtlərin və qüvvələr balansının reallığı, hər iki ölkənin milli maraqlar çərçivəsində izlədiyi xarici siyasətin təzahürüdür. Əldə olunmuş razılaşmaların dəyişdirilməsinə çalışmaqla, yaxın perspektivdə qazanc əldə etmək niyyəti bu strateji tərəfdaşlığa ziddir və əks effekt verə bilər.

Gürcüstanla strateji münasibətlərini diqqətdə saxlayan Azərbaycan həmişə bu ölkənin sabit inkişafında maraqlı olub. Sərfəli qiymətə



satılan qaz, Bakı-Tbilisi-Qars layihəsində Azərbaycanın güzəştləri qarşılığında Gürcüstanın bu layihədən əldə edəcəyi siyasi və iqtisadi divident bunun sübutudur. Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş imicini qazanıb. Strateji tərəfdaşlıq isə ilk növbədə tərəflər arasında etibara söykənir. Buna görə də Gürcüstan siyasi səhnəsində hansı dəyişikliklərin baş verməsindən asılı olmayaraq Azərbaycan bu strateji xəttə riayət olunmasını gözləyir.

**Elmar Hüseynov**
8 yanvar 2013